Şəkildən gələn səslər



Arf 303596

Şəkildən gələn səslər

I kitab

Azərbaycan Milli Kitabxanası

Redaktor: **Nizaməddin Şəmsizadə**
Azərbaycan Respublikasının
Dövlət Mükafatı Laureatı,
filologiya elmləri doktoru, professor

Məsləhətçi: **Alxan Bayramoğlu**
filologiya elmləri doktoru, professor
Abdulla Yusifli

Toplayıb tərtib edəni: **Ramiz Orsər**

Ramiz Orsər. Şəkidən gələn səslər.
Bakı, «Elm və təhsil», 2018, 856 səh.

Kitabda Azərbaycanın qədim söz,
sənət beşiyi sayılan Şəkidə anadan olub,
ədəbiyyatımıza və mədəniyyətimizə xidmət göstərən
yaradıcı nəsillər haqqında qısa məlumatlar toplanıb,
yaradıcılıqlarından nümunələr verilmişdir.
Zaman baxımından uzun bir dövr əhatə olunubdur.
Klassiklərlə, tanınmışlarla yanaşı yeni nəsillər də
diqqətdən kənarda qalmamışdır.

ISBN 978-9952-8176-5-2

© Ramiz Orsər, 2018
© «Elm və təhsil», 2018

ŞƏKİDƏN GƏLƏN SƏSLƏR

Şəki Azərbaycanın ən qədim, ən gözəl bir ərazisi, maddi və milli mədəniyyətimizin ana ocaqlarından biridir. Ərəb, fars, türk, gürcü mənbələrində, rus və orta əsrlər Avropa müəlliflərinin əsərlərində Şəki haqqında məlumatlara rast gəlirik. Bu məlumatlara görə Şəki Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri olmuşdur. Şəki də ərəb-xəzər müharibələri zamanı dəfələrlə əldən-ələ keçdi. Amma sonra, ərəb xilafəti zəifləyən dövrlərdə Şəki özünə gəldi. Şirvanşahlar dövlətinin bir parçasına çevrildi. Amma yenə başından müsibətlər əskik olmadı, monqol istilası baş verdi. Sonra Teymurun hücumu, sonra qızılbaşlar, sonra osmanlılar...Nəhayət,1743-cü ildə Şəki xanlığı yarandı, Nadir şahın ölümündən sonra isə Hacı Çələbi Şəki xanlığını ən qüdrətli xanlıqlardan birinə çevirdi. 1805-ci ildə isə Şəki xanlığı Rusiyanın himayəsinə keçdi.Sonrakı hadisələr isə sizə məlumdur. 1920-ci ilin mayın 5-də 11-ci Qızıl Ordu hissələri Şəkiyə daxil oldu, Şəkidə Sovet hakimiyyəti quruldu.

Bu məlumatları tarixi kitablardan öyrənmişəm və əlbəttə, Azərbaycanın bu gözəl vilayətinin tarixi elə Azərbaycanın özü qədər qədimdir. Şəki öz milli-mənəvi və maddi mədəniyyəti ilə böyük Azərbaycanın adını dünyaya yayan kiçik bir Azərbaycandır, – desəm, səhv etmərəm.

Şəki deyəndə çox sözlər, anlayışlar yada düşür. **Şəki ipəyi.** Hələ XIX əsrin ortalarında Londonda keçirilən beynəlxalq sərgidə Şəki ipəyi medala layiq görülmüşdü.**Şəki Xan Sarayı-** Azərbaycanın ən gözəl memarlıq abidəsi. Hələ neçə belə abidələri var Şəkinin. **Şəki xanlığı-**Hacı Çələbi yada düşür. Müstəqil xanlığın hakimi. Dəfələrlə Şəkiyə edilən hücumların qarşısını alan ağıllı siyasətçi. **Şəki yumoru-** Hacı dayının Molla Nəsrəddin lətifələrindən geri qalmayan gülüş aləmi. **Şəki pitisi-** Azərbaycanın heç yerində pitini şəkililər kimi bişirən yoxdu. Lakin mən Şəkini təkcə bunlara görə xatırlamıram. Şəkini Azərbaycan mədəniyyətinə, ədəbiyyatına verdiyi böyük sənət adamları ilə, onların yaratdığı sənət inciləri ilə tanıyır və sevirəm.

İstedadlı şair Ramiz Orsər Şəkinin neçə əsrlik tarixi boyu yaşayıb-yaradan söz adamları haqqında ensiklopedik səciyyəli bir kitab nəşr edib. «Şəkidən gələn səslər».Bu kitabın səhifələrini vərəqlədikcə gözlərim qarşısında qeyri-adi bir mənzərə canlanır. Bir ərazidən bu qədər şair, yazıçı, jurnalist-söz adamı yetişməyi doğrudan da, möcüzədir. Ramiz Orsər bəlkə də bir institutun, ya institutun bir şöbəsinin qatlaşa biləcəyi bir işi təkbaşına həyata keçirib.XIII əsrdən çağımızacan Şəkidə doğulan neçə sənət adamı haqqında bitkin məlumat vermək, onların əsərlərindən nümunələr təqdim etmək sizə asan gəlməsin. Bunu ancaq ürəyində Şəki məhəbbəti olan, Şəkini öz varlığından artıq sevən bir şəkili edə bilərmiş.

Mən Azərbaycan ədəbiyyatının tədqiqçisi, bu ədəbiyyatın cəfakeşlərindən biriyəm və Ramiz Orsər qədər olmasa da, Şəkidən çıxan və Şəkinin şöhrətini Azərbaycana və dünyaya car edən sənətkarların bir çoxunu yaxşı tanıyıram. Bəzilərinin yaradıcılığı ilə sadəcə tanışam, amma bir çoxu ilə şəxsən ünsiyyətim olub, doğrusu, onlarla münasibətimdə heç düşünməmişəm ki, bu adam şəkilidir. Lakin indi, bu kitabı vərəqlədikcə onları bir-bir xatırlayıram.

Hüseyn xan Müştaq. Şəkinin xanı olub bu adam (1759-1780-ci illərdə). Şəki xan sarayını o tikdirib. Həm də şair idi və Şəkinin şair tayfasını öz sarayına dəvət edirmiş. Molla Vəli Vidadi ilə çox yaxın dost olub. Hüseyn xan Müştaq əmisi Hacı Əbdülqadir tərəfindən qətlə yetirildikdən sonra Vidadi onun ölümünə «Müsibətnamə» yazmışdı. Deyilənə görə, Molla Pənah Vaqiflə də görüşüb, ona at və kürk bağışlayıb.

Ey əbrusi kaman, müjganı xədəng,
Durubsan qəsdimə yaraq ilə sən.
Rəvamıdır bu şikəstə könlümü
Qəmzən qılınciylən yara qılasan.
Həm söhbət bilirsən, həm dəm bilirsən,
Ciyərin zəxminə həmdəm bilirsən,
Rəqibi özünə həmdəm bilirsən
Haçan gələcəksən yar ağıla sən?

Bu təcnisi Şəki xanı Hüseyn xan Müştaq yazıb.

Mirzə Fətəli Axundzadə (1812-1878). Azərbaycan ədəbiyyatının, ictimai fikrinin, fəlsəfə tarixinin böyük dühası. Ədəbiyyatımızda «ilk» təyinedici sözün çoxu bu böyük şəxsiyyətin adı ilə bağlıdır. İlk komediyalar, ilk povest, ilk fəlsəfi traktat, professional tənqidin yaradıcısı.

İsmayıl bəy Nakam (1829-1906). XIX əsr ədəbiyyat tarixində İsmayıl bəy Nakamın da adı zikr olunur.Şəkidə büstü qoyulub Nakamın. Divan ədəbiyyatının –klassik poeziyanın davamçılarındandır. Şeirləri ilə tanış olmuşam. Füzuli dünyasına sadiqdir. Şeir divanı olub. Seyid Əzim Şirvani ilə də dostluğu varmış.

Molla Cuma (1854-1920) «İsmi-Pünhan» təxəllüsü ilə gözəl şeirlər yazan, həm əruzda, həm də hecada uğurlar qazanan bir şair. Təkcə Şəkidə yox, bütün Azərbaycanda tanınırmış. XI Qızıl Ordu Şəkiyə daxil olanda Molla Cumanın özü və ailəsi qətlə

yetirilib. Səbəbi bu idi ki, Molla Cuma Azərbaycan Demokratik respublikasının tərəfdarıymış. Türk paşası ilə görüşübmüş. Molla Cuma aşıq-şair kimi Azərbaycan poeziyasında Vaqif ədəbi məktəbinin davamçılarından olub. Çox savadlı, bilikli insan imiş.

Ay gəlin, aman gəlin, bircə incə belin görüm,
Ay gəlin, yaxşı gəlin, bircə ənbər telin görüm,
Ay gəlin, gözəl gəlin, bircə danış, dilin görüm,
Ay gəlin, çinar gəlin, uca qəddi dalın görüm,
Ay gəlin, qönçə gəlin, mən bülbüləm, gülün görüm.
Ay gəlin, durna gəlin, bu kəndlər tamam yaslıdır,
Ay gəlin, təmiz gəlin, ürəklər hamı paslıdır,
Ay gəlin, çiçək gəlin, açılıb yazın fəslidir,
Ay gəlin, göyçək gəlin, bilsinlər adın Əslidir,
Ay gəlin, öldü Cuma, bir busə ver, balın görüm.

Bu, Molla Cumanın bir gözəlləməsindən kiçik bir parça...

Rəşid bəy Əfəndiyev (1879-1942). Azərbaycan ədəbiyyatında xüsusi yeri olan bir maarifçi. Uşaqlar üçün «Əlifba» kitabı hazırlayıb. Bakıda, Şəkidə müəllimlik edib. Azərbaycan dramaturgiyasına da gözəl əsərlər bəxş edib.

Salman Mümtaz (1884-1941) Təbii ki, bu isim bir ədəbiyyat adamı kimi mənim üçün çox əzizdir. Azərbaycanın XX əsrdə yetirdiyi ən müqtədir ədəbiyyatşünas alimlərindən biri.. Ərəb, fars, urdu, rus, özbək, qırğız, türkmən dillərini bilən poliqlot. «Molla Nəsrəddin» ədəbi məktəbinin, Sabir şeir yolunun mücahidlərindən biri. Klassik ədəbiyyatın təbliğində, toplanıb nəşr edilməsində ən böyük cəfakeş. Amma repressiya qurbanı.

Əbdüləzəl Dəmirçizadə (1909-1979). Böyük dilçi. Yazdığı əsərlərlə Azərbaycan dilçilik məktəbinin əsasını qoyanlardan biri. Ömrümdə onu yalnız bircə dəfə görmüşəm.

Sabit Rəhman (1910-1970). Tələbəlik illərində «Natəvan» klubunda və başqa məclislərdə onu çox görmüşəm. Azərbaycan dramaturgiyasının Axundovdan, Nəcəf bəy Vəzirovdan, Cəlil Məmmədquluzadədən sonra komediya, gülüş mədəniyyətini yeni bir zirvəyə qaldıran ustad.

Şərif İdrisov (1916-1994). Mən Şərif müəllimi ilk dəfə doxsanıncı illərin əvvəllərində , «Azərbaycan» jurnalına Molla Cuma haqqında yazı gətirəndə gördüm. Onun məqaləsinin çapına kömək etdim. Koloritli kişi idi. Məqalənin çapından sonra hədiyyə olaraq mənə Şəki paxlavası gətirmişdi. Ruhu şad olsun!

Mahmud İsmayılov (1920-2002). Tanınmış tarixçi idi. Həm də tarixi romanlar yazırdı. Gizlətmirəm, mən onun tarixi romanlarını tənqid etmişdim. Əsərlərində tarixilik güclü idi, bədiilik zəif. O da elə öz jurnalımızda mənə cavab yazdı. Allah rəhmət eləsin, – deyirəm.

Mustafa Quliyev (1893-1938). İyirminci-otuzuncu illərin ən fəal tənqidçilərindən biri. Ədəbiyyatı çox gözəl bilirdi, amma ideoloji –siyasi ab-havanı ədəbiyyata gətirir, ən çox da Hüseyn Cavidi tənqid edirdi. Tarın, klassik poeziyanın əleyhinə fikirləri ilə diqqət çəkirdi.

Hikmət Ziya (1925-1995). Çox gözəl tanıyırdım. Bir neçə dəfə Ədəbiyyatı Təbliğ bürosu xətti lə rayonlarda olmuşuq. Azərbaycan ədəbiyyatında təmsil ustası kimi deyərdim ki, bir məktəb yaratdı. Yaradıcılığından söz açıb məqalə də yazmışam.

Zaman Qarayev (1931-2004). Tanışlığımız vardı. Yaxşı xatırlayıram ki, onun «Xarqo» povestini kənd kitabxanasından götürüb qardaşım Cavanşirə verdim. Bu, Cavanşirin bədii ədəbiyyatla marağının başlanğıcı oldu.

Yaşar Qarayev (1936-2002). Yaşar müəllimin şəxsən mənim taleyimdə, ədəbiyyatşünas-tənqidçi kimi formalaşmağımda böyük rolu olub. Ədəbi tənqidimizin, ədəbiyyatşünaslığımızın bir çox yenilikləri onun adı ilə bağlıdır. Yaşar Qarayev tənqidə fəlsəfi

bir ahəng gətirdi, əgər «filosof tənqidçi» ifadəsini kimin adınasa yaraşdırmaq olsa, Yaşar Qarayev o ada tam layiqdir. Onun heç bir məqaləsi, heç bir monoqrafiyası və yazılarda, kitablarda ifadə etdiyi fikirləri zaman keçdikcə köhnəlmir. Yaşar müəllim «Şəki folkloru» kitabına geniş bir ön söz yazıfb.

Aydın Məmmədov (1944-1991). Dost deyildik, amma bir-birimizə dərin hörmətimiz vardı. O, məndən dörd yaş böyük idi. Cavanlığında başı bəlalar çəkdi, amma özünə gəldi, çox qısa bir zamanda bir dilçi və tənqidçi kimi bizim tənqidçi nəslinin önündə getdi. Milli Məclisin deputatı oldu, orada da özünü təsdiq etdi. Ensiklopedik bilik sahibiydi. Heyif, bir qəzada həyatını qeyb etdi. Aydından bir də bu dünyaya gəlməyəcək.

Arif Abdullazadə (1940-2002). Şair, nasir, ədəbiyyatşünas. Ədəbiyyat institutunda , bir şöbədə çalışırdıq. Tez-tez koridora çıxar, söhbətləşərdik. Onun «Şairlər və yollar» monoqrafiyası olduqca qiymətli bir əsərdir. Rəsul Rza haqqında da monoqrafiyası var. Bir gün evlərində oldum. Tək yaşayırdı, subay idi və evlənmədi də. Maraqlı insan idi. Hər şeyi bəyənmirdi. Şair kimi daha çox xoşlayırdım onu. Ölümündən sonra yaradıcılığı haqqında bir məqalə də yazdım, televiziyada da çıxış etdim.

Vaqif İbrahim (1945-1983). Dost idik. Hərdən görüşürdük. Onun ədəbi gəncliklə ünsiyyəti çox güclü idi. Cavanlar onun başına yığışmışdılar. Əli Kərim onun şeirlərini xoşlayırmış. Vaqif fəal idi, ədəbi prosesdə görünən adam idi. Sumqayıtda əsl ədəbi havanı o yaratmışdı. Şeirləri də müasirliklə nəfəs alırdı. Komsomol mükafatı laureatı idi. Ölümündən neçə ay əvvəl anası rəhmətə getdi. Ona başsağlığı verdim, gözləri yaşardı. Sonra özü qəzaya düşdü. O avtobusda heç kim ölmədi, bircə Vaqifdən savayı.

Mən bu yazıda şəkili dostlarımdan-ədəbi aləmdə tez-tez ünsiyyətdə olduğum, dostluq etdiyim müasirlərim haqqında

geniş söz açmaq istəmirəm. Azər Mustafazadə,Vaqif Aslan, Ramiz Orsər, Qiymət Məhərrəmli, Mübariz Məsimoğlu, Akif Salamov, Qoca Xalid, Ramazan Qafarlı, Tural Adışirin və onun atası Kamil Adıfşirin (Şəki ədəbi mühitinin təlqiqatçısı) və b. yazarlarla (birisinin dostu, birisinin tanışı) ancaq xoş sözlər deyə bilərəm. Onlara yaradıfcılıq uğurları arzulayıram.

Elə düşünməyin ki, mən böyük şairimiz **Bəxtiyar Vahabzadəni** unutdum. Yox! Bəxtiyar Vahabzadə ali məktəbdə mənim müəllimim olub. Mənim ədəbiyyatçı kimi yetişməyimdə onun rolunu danmaq istəmirəm. Orta məktəbin IX sinfində oxuyanda onun «Etiraf» poemasını əzbərləyib oxucular konfransında məruzə etdim. O məruzədən sonra məktəbimizin direktoru Xurşid Qasımov mənə dedi ki, sən ədəbiyyata get, sənin gələcəyin var.Bəxtiyar müəllimin mühazirələrini də yaxşı xatırlayıram.

«Azərbaycan» jurnalında işləiyəndə o, şeirlərini mənə göndərər və mütləq xahiş edərdi ki, bu şeirlər barədə fikir söyləyim. Bir neçə dəfə evində də oldum. Neçə kitabını yazıb mənə bağışladı. Hərdən zəngləşərdik. Bir gün oğlum telefonu götürdü və «ata, səni telefona çağırırlar» dedi. Dəstəyi əlimə aldım. Bəxtiyar müəllim idi. Dedi ki, o sənə «ata» deyən oğlunun dilindən öp. Onun yaradıcılığından neçə məqalə yazmışam, yenə yazacağam, çünki Bəxtiyar Vahabzadə XX əsrin ən böyük şairlərindən biridir.

Əlbəttə, mən Ramiz Orsərə minnətdaram ki, mənim əsərlərini mütaliə etdiyim klassikləri və şəxsən tanış olduğum, yaradıcılıqlarına bələd olduğum sənətkarları bir daha mənə xatırlatdı. Amma bu kitabın əhəmiyyəti təkcə mənə görə deyil. Bu kitab Şəki ədəbi mühitinin öyrənilməsində demək olar ki, bütün qaranlıqları işıqlandırdı. Müəllif heç şübhəsiz, Şəkinin bütün kəndlərini, qəsəbələrini qarış-qarış gəzib, yazılı və şifahi mənbələrdən məlumatlar toplayıb. Xüsusilə, Salman Mümtazdan

çox şey öyrənib. Bu işin nə qədər çətin, amma şərəfli olduğunu gərək düzgün qiymətləndirək.

Kitab təkcə Şəkinin söz adamları haqqında deyil, həm də Şəki haqqında geniş təsəvvür yaradır. Şəkidə mədəniyyətin, maarifçiliyin, məktəbdarlığın inkişafı (özü də mərhələ-mərhələ), teatra, elmə, incəsənətin digəır sahələrinə artan maraq kitabı vərəqləıdikcə bir yaşanan tarix kimi gözlərinin qarşısında canlanır. Təqdim olunan sənətkarların əksəriyyəti öz dövrünün açıq fikirli ziyalısı, yüksək təhsil görmüş şəxsiyyəti olub. Əksəriyyəti də ərəb, fars dillərini öyrənmiş insanlar idi. Molla Qasım Zakir –hansı ki, F.B.Köçərli onu Şəki şairlərinin ustadı hesab edirdi- Mustafa Ağa Şuxi, Osman Biçarə, Molla Abbas Aşüftə, Əbdülqəni Əfəndi Nuxəvi (mətnşünas, kitabşünas, xəttat), Əhməd ibn Əfəndi, Səməd Əfəndi Məhzun, Nurməhəmməd Əfəndi, Məmmədiyyə Yusifzadə, Abdulla bəy Əfəndizadə, Səidə İmanzadə...bu insanlar Azərbaycan mədəniyyətinin inkişafında istedadları qədərincə rol oynayıblar. Bəziləri haqqında ilk dəfə məhz bu kitabdan məlumat əldə edirik. Hələ Şəkidə aşıq ədəbiyyatının necə populyar olduğunu bu kitabdakı məlumatlar söyləyir. Və Şəki söz sarayının bəzəyi olan qadın yazarlar-Xalisə qarı, Mah xanım, Mahtab xanım, Maral xanım Nəbizadə...

Bu kitab Ramiz Orsərin şah əsəridir, - deyərdim. Amma elə bilirəm, bu əsər hələ tamamlanmayıb. Hələ Şəki teatrı, Şəki elm xadimləri, Şəki din – ruhani aləmi, Şəki mətbuat tarixi, Şəki memarlığı...öz müəllifini gözləyir. Ramiz Orsər hələ ki, cavandır və elə bilirəm, bu müşgülləri də asan edəcək. İndidən uğurlar arzulayıram!...

VAQİF YUSİFLİ,
filologiya elmləri doktoru.

TƏRTİBÇİDƏN

ŞƏKİ ƏDƏBİ MÜHİTİ VƏ TARİXİ HAQQINDA BİR NEÇƏ SÖZ

Şəki – Nuxa! Bu iki söz eyni müstəvidə zaman-zaman bir-birini əvəzləyərək eyni göğrafi məkan kimi tarixin yaddaşında kodlaşmış çox qədim bir türk elidir. Bu adların (Şəki, Nuxa) ilkin formaları antik dövrün (Herodotun, Strabonun, Ptolemeyin...) tarix kitablarında da qorunub saxlanılır. Əslən şəkili olan görkəmli alim-şərqşünas Mahmud İsmayılov mötəbər, nüfuzlu antik informasiyaları, eyni vaxtda ərəb və alban mənbələrini, həmçinin müasir elmi avtoritetlərdən K.V.Treverin, A.Krımskinin qənaətlərini ümumiləşdirərək belə qənaətə gəlir ki: "Müasir Şəki şəhərinin əsası hələ eradan əvvəl VII əsrdə, yəni təxminən 2700 il bundan əvvəl saklar tərəfindən qoyulmuşdur" (Mahmud İsmayılov. Şəki, B., 1982, səhifə-4).

Şəkinin həm milli tariximizdə, həm də goqrafiyada bənzərsiz və təkrarsız tutduğu yerlə bağlı tarixi-elmi həqiqət heç bir bədii təsvir və ifadə vasitəsinə bürünmədən öz dəqiq ifadəsini həm yaxın və uzaq dövrlərin sənədli-elmi, möhürlü-tarixi mənbələrində, həm folklorda, həm də şeir, nəsr və publisistika nümunələrində tapır.

Yenə də Şəkinin Azərbaycan ədəbiyyatşünaslığına bəxş etdiyi görkəmli elmi avtoritet ədəbiyyatşunas-alim Yaşar Qarayev (Azər-

baycan folkloru antologiyası, IVc, Şəki folkloru) kitabına yazdığı "Prototip-Şəkilidir, yaxud nəfəsdə zümzümə, tələffüzdə rəqs-Şəki şivəsi..." adlı ön sözündə yazırdı: " Koloritli bədii estetik amil öz tarixi-ədəbi missiyasını (möhürləyən və çərçivə, sərhəd təyin eləyən rolunu) yalnız Şəki ilə bağlı tarixin yox, coğrafiyanın da taleyində oynamışdır. Məsələnin doğru metodoloji-elmi qoyuluşu zamanı problemə miqyaslı, qlobal baxışın müstəvisi bu bölgəni mütləq öz içinə alır...

... Çağdaş ağız ədəbiyyatının janr və növ təsnifində bütün bədii çeşidlərin mənşəyinə uzantılar öz dəqiq, öz səhfsiz ünvanını bir də bu zəngin və əlvan sərvətli diyarın folklor dəyərlərində tapır, geniş coğrafi-estetik mənada qlobal kontekstin milli-etnik dairəsi, minologiya, etimologiya, geneziz miqyasında tarixi-ədəbi məkanın ərazisi Şəkidən keçir. Daha doğrusu həm ən dərindən (keçmişdən!), həm də ən yüksəkdən (gələcəkdən!) Azərbaycana baxanda Şəki mütləq görünür..."

Azərbaycann folklor xəritəsinin kontrları da Şəki landşaftı ilə başlayır:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

Bütün dövrlər və zamanlar üçün həmişə aktual və ibrətli səslənən bu bayatını ilk dəfə böyük alim Tofiq Hacıyev təhlilə cəlb etmiş (Şəki folklorunun dil özəlliyi haqqında bir neçə söz. Azərbaycan folkloru. B., 1994, Səh-15), xüsusi olaraq vurğulamışdır ki, bu bayatıda coğrafi məkanların-adların buradakı ardıcıllığı heç bir heca, qafiyə, vəzn, yaxud bədii təsvir və ifadə vasitəsi və ya alletrasiya amili ilə bağlı olmayıb, bədii məntiqin gücü ilə, Şəkinin poetik arealda və coğrafiyada tutduğu yer və mövqe ilə, dübarə, obyektiv tarixi-elmi həqiqətlə çevrələnib. Yuxarıda adını qeyd etdiyimiz məqaləsində Tofiq Hacıyev yazır: "Nadir folklor incilərindən olan bu bayatıda, təkrar edirəm, şəkililərin Azərbaycan folklor kontekstindəki orijinal, mükəmməl, dadlı-duzlu yaradıcılığı nəzərə alınmışdır. Bu yaradıcılıqda Azərbaycan xalqının soykökündə fəal iştirak etmiş şəkililərin nəfəsi yaşayır".

Şəki şivəsi həm keçmişdə, həm də indi, həm şifahi ədəbiyyatda, həm də yazılı ədəbiyyatda özündə etnik kod üçün davamlı ekoloji mikromühit, etnik-linqivistik informasiya daşıyan fenomen kimi təkrarsızlığını qoruyub saxlayır. Şəki ədəbi mühitinin yetirmələrinin ədəbi yaddaşında və bədii dilində şır-şır axan bulaqların zümzüməsi, dillər əzbəri və süfrələr bəzəyi olan, adı ilə bir daha şirinləşən "Şəki halvası"nın şirinliyi poetik idrakın və dərkin müstəvisində bihuşedici iksirin alternativinə çevrilir.

Ana dilli ədəbiyyatımızın nadir nümunələri sırasına daxil edilən, 1055-1056-cı illərdə qələmə alındığı müəyyənləşdirilən İsa adlı müəllifin "Mehri və Vəfa" poemasının əldə edilməsi, 1834-cü ildə Şəkidə-Əbdülqəni Məhəmməd oğlu Nuxəvi Xalisə Qarızadə tərəfindən üzünün köçürülməsi, XIII-XIV əsrlərdə yaşamış Ənbərəoğlunun qəzəlinin əl yazmasının Şəkidən tapılması, 1012-1088-ci illərdə yaşamış Qətran Təbrizinin, yaradıcılıq vüsəti zamanalara və məkan sərhədlərinə sığmayan Nizami Gəncəvinin yaradıcılığında Şəkinin yer alması, adının xatırlanması və s. Şəki ədəbi mühitinin ta qədimlərdən qaynaqlandığını bədrləyir. Ədəbiyyatın şifahi qolunun hər cürə janrlarında özünəməxsus nümunələrlə zəngin olan Şəkidə XVII

əsrədək yazılı əbədi nümunələrə rast gəlinməməsi təccüb və heyrət doğurur. Subyektiv fikrimizə görə bunun bir sıra səbəbləri var:

1. Şəkililərin yaratdıqları ədəbi irsə qarşı özlərindəki soyuqluqla yanaşı, əski əlifba ilə yazılan kitabların, mədəni abidələrin qırımızı imperiyanın əlləri ilə vəhşicəsinə, həm də kütləvi şəkildə məhv edilib yandırılması. (Misal olaraq malını və canını el ədəbiyyatı nümunələrini toplayıb, onu yaradan xalqın özünə qaytarmağa sərf edən Salman Mümtazın toplayaraq əldə etdiyi çox zəngin irsin talan edilib yandırılıb məhv edilməsini, kiçik Dəhnə kəndində Səməd Əfəndi Məhzunun təşkil etdiyi şərqdə ilk və nadir "Quran" kitabları evinin oradakı əl yazmaları ilə birlikdə yerlə yeksan edildiyini göstərə bilərik. Molla İsrafil Bidazinin bütün əl yazmaları, Əhməd Nəbi Əfəndinin, Əbdülqəni Əfəndi Nuxəvinin, Nurməhəmməd Əfəndinin və digərlərinin mal-mülkləri ilə yanaşı həm özlərinin yaradıcılıqları, həm də toplayıb əldə etdikləri ədəbi irsimiz yandırılaraq məhv edilmişdir).

2. Öz mənbəini Qafqaz sıra dağlarından götürüb, Şəki şəhərindən axıb gedən Kiş çayının 1772-ci ildə daşması və qadim bir məmləkətin sel daşqınlarının altında qalması nəticəsində yaşayış məntəqəsi ilə yanaşı adəbi-bədii sərvətlərin də məhv olması.

3. Zaman-zaman əlifbası dəyişiləməyə məcbur edilən xalqın yazısına, özünə və sözünə qarşı törədilən bədii yaddaş genosidi.

4. Şəki ədəbi mühitinə, onun nəsildən-nəslə transformasiya olunan ədəbi-bədii, tarixi-genetik koduna milli mentalitemizdə az qala "formalaşan və normallaşan ögeylik və doğmalıq virusuna" zaman-zaman tuş gələməsi.

5. Maddi-mənəvi sərvətlərin üzə çıxarılmasında iqtisadi çətinliklərin gündəmə daşıdığı maddi çətinlik.

6. Folklor ekispedisiyaları zamanı və ya ayrı-ayrı həvəskar toplayıcılar tərəfindən əldə edilən materiallara laqeyd və yabancı münasibət bir çox ədəbi materialların uğursuz talelərini də gündəmə gətirir. Heç şübhə yoxdur ki, bir sıra ədəbi-bədii materiallar kimlərinsə mənzil-arxivlərində ya girova çevrilmiş, ya müəllifi, yazıldığı tarix dəyişdirilərək hansısa "yeniliyin" üzə durmasına şahidlik etmiş, ya da başqa ad altında "kodlaşdırılımışdır".

7. Nəhayət, şəkililərin bir toplum olaraq yerlibazlıq, tayfabazlıq, qohumbazlıq, özünütərif və özünütəbliğ sindiromlarına qarşı dözümlülüyü və buna qarşı bütün zamanlarda "əzələ nümayişi".

Necə ki, vaxtı ilə bir məktəbli qız böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadəyə məktub yazaraq, belə bir sual ünvanlamışdı: "Nə üçün şəkili olduğunuz halda Şəki haqqında bircə dənə də olsun şeir yazmamısınız?"

Məncə, bu, məktəbli qızın doğulduğu torpağa yurd sevgisinin ürək çırpıntıları, qəlb pıçıltıları idi.

Ancaq böyük şairin cavabı da böyük olmuşdur:

Könlümdən ucalan bu avaz, bu səs,
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına sevirəm deməz,
Mən də deməmişəm, a Şəkim, mənim.

Çox güman ki, Azərbaycan ədəbiyyatının tərkib hissəsi olan Şəki ədəbi mühitində nəsillərdən-nəsillərə ötürülən söz üsatalarının adları və ünvanları bu gün bizə məlum olmayan şairləri olub, onların adları, sirli-soraqlı zamanın yaddaşında haşiyələnib. Ancaq ən güclü yaddaş sözün yaddaşıdır. Əgər biz təmənnasız sevgi və məhəbbətlə,

istək və inamla sözə üz tutsaq, çox həqiqətlər- çox söz sərraflarının adları və ünvanları bəllənəcək. Sözün yaddaşından boylanan həqiqət də bunu təsdiqləyir: "Cidanı çuvalda gizlətmək olmaz".

Bu sevgi və məhəbbətlə, istək və inamla yola çıxdıq. Uzun axtarışlarımız, araşdırmalarımız və inadkarlığımız bəhrəsini verdi: "Şəkidən gələn səslər"in birinci kitabı artıq qarşınızdadır.

Kitabda Azərbaycanın qədim söz, sənət beşiyi sayılan Şəkidə anadan olub ədəbiyyatımıza və mədəniyyətimizə xidmət göstərən yaradıcı nəsillər haqqında qısa məlumatlar toplanıb, yaradıcılıqlarından nümunələr verilmişdir. Zaman baxımından uzun bir dövr əhatə olunubdur. Klassiklərlə, tanınmışlarla yanaşı yeni nəsillər də diqqətdən kənarda qalmamışdır.

Kitabın ərsəyə gəlməsində bir çox mənbələrdən-qəzet və jurnal materiallarından, kitab və dərgilərdən istifadə olunub; F. Köçərlinin "Azərbaycan ədəbiyyatı" (I-II hissə), S.Mümtazın "El şairləri"(I-II hissə), Hüseyn Əfəndi Qayıbovun "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" (XVIII-XIX əsrlərdə yaşayıb yaratmış Azərbaycan şairlərinin poeziyasından nümunələr. I,II,III hissələr), tanınmış şair-alim Vaqif Aslanın "Seçilmiş əsərlər" (məqalələr, 4cilddə, IV cild), tədqiqatçı alim Kamil Adışirinovun "XX əsr Şəki ədəbi-mədəni mühiti" (1900-2000-ci illər) və s. yüzlərlə mənbə və qaynaqlar axtarışlarımızın uğurla sonuclanmasına güzcü tutmuş, nur çiləmişdir.

Bu gün də Şəkinin gülü, çiçəyi, axar bulaqları, ağacların yarpaqları nəğmə oxuyur. Şəkililərin ləhcəsi də poeziyadır. Şəki adlı landşaftın özü də bir poeziya nümunəsidir.

Şair Vaqif Aslan da çox haqlı olaraq təmənnasız övlad sevgisi ilə pıçıldayır:

Bu dünyada qərənfil çox, lalə çox,
Amma sənin lalən kimi lalə yox.
Bulağının naləsi tək nalə yox,
Bulaqların nə nəğməkar bulaqdır,
Səndə şair olmamaq da günahdır.

Şair sənsən, şeir deyən dilin-mən,
Sərkərdəsən, qılınc vuran əlin-mən.
Gözəl sənsən, sevgilin-mən, dəlin-mən,
Bilmirsənmi, oğlun Kərəmsayaqdır,
Səndə şair olmamaq da günahdır.

Arf 303595

Şəkidə epik təfəkkürün, epos-dastan janrının vüsət tapa bilməməsini, eyni zamanda Şəkidə aşıq şeiri ənənsinin geniş yayıla bilmədiyini söyləyənlər məhdud təcrübəyə və absurd təsəvvürlərə söykənərək, Şəki ədəbi mətbəxinə yaxından və dərindən bələd olmadıqlarını öz dəst-xətləri ilə təsdiqləyirlər. Əslində bütün bunlar Şəki ədəbi mühitinin öyrənilməsi, ədəbi örnəklərin toplanması və tədqiqi ilə bağlı natamam, bir-birini təkrarlayan informasiya və bu sahədə sistemli və müqayisəli təhlillərin müasir çərçivə və səviyyədə aparılmamasından qaynaqlanır. Ən acınacaqlı nümunə: inadkar və ardıcıl, səriştəli axtarışları ilə el şairlərinin əsərlərini toplayıb nəşr etdirən, xalqın malına çevirən S.Mümtazın şeirlərinin toplanıb nəşr etdirilməsinə, onların tədqiqinə çox ciddi ehtiyac var. Şəkili Süleymanın (şübhəsiz ki, onun poetik dili aydın və könüllər oxşayan olmasaydı, anadilli şeirimizin xarıbülbülü M.P.Vaqif onun şeirinə nəzirə yazmazdı), Nəbinin, Məhəmmədhüseyn xan Müştaqın, Molla Qasım Zakirin, Molla Məhəmməd Hüzninin, Molla Yusif Racinin, Əhməd Əfəndi Zövqinin,

Azərbaycan Milli Kitabxanası

Hacı Rəsul Rəsulun və digərlərinin əsərlərinin toplanması, tədqiqi və nəşri sahəsində səriştəli və ardıcıl işlərin həyata keçirilməsi söz, sənət və yurdsevərləri düşündürməlidir.

XIX əsrdə onlarca Şəki doğumlu şair müxtəlif mövzularda, müxtəlif məzmunlu, müxtəlif çeşidli rəngarəng əsərlərini xalqımıza miras qoymuşlar. Belə şairlərin sırasında Mustafa ağa Şuxi, Rəsul Dülgər, İsmayıl bəy Nakam, Lətif Nəqqaş, Səməd Əfəndi Məhzun, Rəşid bəy Əfəndiyev, Çarıqçı Məhəmməd Şəməmduz, Abdulla bəy Əfəndizadə, Hüseyn Qəmnak, Dəli Bəbir, Şəkili Hətəm, Şəkili Lələ və başqaları xüsusi yer tutur.

Azərbaycan ədəbiyyatının foks nöqtəsi XIX əsrdə M.F.Axundzadənin yaradıcılığında çevrələnir. Daşıdığı rus mundirinin zərli paqonları çiyinlərindən üstündə gəzdiyi torpağa bassa da, içindəki yurd, vətən sevgisi, milli yanğısı və millət aşiqliyi onu yerdən göylərə qaldırdı. Şərqdə dramaturgiyanın əsasını qoymaq, yeni tipli bədii nəsrin ilk nümunəsini xalqa ərməğan etmək, ədəbi tənqidimizin təməlini yaratmaq, maarifçilik hərəkatının kontrlarını yaratmaq – bir sözlə, Azərbaycan ədəbiyyatında yeni bir eranın başlanğıcı M.F.Axundzadənin adıyla bağlıdır.

XX əsrdə "anti-sovet komediyasının" sədaları da Şəkidən gəlir-S.Rəhmanın komediyalarında qəhqəhə içərisində göz qapaqlarında qovrulan yaş damlalarında cilvələnir.

XX əsrin əvvəllərində Şəki ədəbi mühitində nəzm və nəsr nümunələri paralel şəkildə biri digərini əvəzləyərək yaranmış və inkişaf etmişdir. Rəcəb Əfəndiyev, Salman Mümtaz, Mustafa Quliyev, Əbdüləzəl Dəmirçizadə, Heydər Əfəndiyev, Müseyib Sadıqov, Məmmədiyə Yusifzadə, Məmmədiyə Süleymanlı, Ənvər Qazıyev, Lütvəli Həsənov, Məmməd Şəkili, Nurpaşa Hümmətov, Mahmud

İsmayıl, Ələşrəf Şayan, Əhməd Rəhimov, Zaman Qarayev, Nəzir Eltəkin, Yaqub Mahir, İsmət Səfərov, Şahid Məmmədkərimov, Tofiq Qaffarov, Teymur Abuzər, Ənvər Mirzəoğlu, Sabir Əfəndiyev və başqaları öz ədəbi örnəkləri ilə Azərbaycan ədəbiyyatını janr, mövzu və sənətkarlıq baxımından zənginləşdirmişlər.

Görkəmli şairlərimiz Arif Abdullazadə, Hikmət Ziya, Rövzət, Sabir Abdulla, Vaqif İbrahim və başqaları şeir, sənət aləmində dərin məzmunlu əsərləri ilə tanındı, Azərbaycan ədəbiyyatında poetik ünvan və söz sahibi oldular.

Ancaq XX əsr yeni Azərbaycan poeziyasında xalqımızın milli oyanışına yönəlik əsərlər Bəxtiyar Vahabzadənin yaradıcılığında kamala çatır, istiqlal və azadlıq ideyaları onun bütün yaradıcılığından qızıl xətt kimi keçir:

Arazın bu tayı Vətən,
O tayı Vətən,
Vətəni görməyə amanım yox mənim.
"Vətəndən Vətənə"

Bəxtiyar Vahabzadə poeziyası həm də milli yanğımızın, milli dərkin və milli təəssüfün barometridir.

Ey doğma dilində danışmağı ar bilən
fasonlu ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq Vətən çörəyi sizlərə qənim olsun.
"Ana dili"

XX əsrin son rübündən başlayaraq M.F.Axundzadənin, Salman Mümtazın, Rəşid bəy Əfəndiyevin və Bəxtiyar Vahabzadənin ilham

piyaləsi Vaqif Aslanın poetik "süfrəsinə" nəsib oldu, onların keçib getdiyi ədəbi-bədii, elmi-fəlsəfi yolun ən layiqli, ən etibarlı yolçusu və bələdçisi olmaq qismәti də Vaqif Aslanın ilham çeşməsində kodlaşdı. Hazırda Şəki ədəbi mühitinin ağsaqqalı və poetik düşüncənin uzaqvuran topu, artileriyası rolunu da Vaqif Aslanın poetik dünyası öz çiyinlərində şərəf və ləyaqətlə daşıyır. "Milli-mənəvi tariximizdən süzülüb gələn qədim adət- ənənələrimizin, deyim və duyum dünyamızın fəlsəfi məqamlarını, əfsanələşmiş və əfsunlaşmış rəmzlərini poeziyaya gətirən incə ruhlu, həsas qəlbli lirik şair" (Asif Rüstəmli, Sözün közü və düzü, "525-ci qəzet" qəz., Bakı. 2013, 5 sentyabr), ürəyinə və sözə heç vaxt xəyanət edə bilməyən V.Aslan şeirlərinin əsas məğzini də olduğu kimi görünmək və göründüyü kimi olmaq təşkil edir.

...Gündüz çıxan Gündür, axşam doğan Ay,
Sayrışan ulduzdur, pıçıldayan çay,
Beşiklər başında çalınan laylay,
Üzüklər üstündə qaşdır məhəbbət.

Üzdə təbəssümdür, gözdə nurdur o,
Bütün işıqlardan daha gurdur o.
Bəzən deyirlər ki, kardır, kordur o,
Karsa da, korsa da – xoşdur məhəbbət.
"Məhəbbət"

Hazırda bütün varlıqları ilə qələm çalan, öz dəst-xəttilə tanınan, istedad və poetik dünyaları ilə sayılıb-seçilən Veysəl Çərkəz, Ələsgər Davudoğlu, Qoca Xalid, Akif Salamoğlu, Ramiz Orsər, Mayis

Səlim, Mübariz Məsimoğlu, Bəhram Oxudlu, Mustafakamal, Ağa Ramazan, Yusif Şükürlü, Tahir Xalid, Akəm Xaqan, Həbillah Kamil, Əbulfət Həsənoğlu və başqaları bədii yaradıcılıqlarını şərəf və ləyaqətlə davam etdirirlər.

Bu Vətən eşqimə, naşı, az şəkk et,
İki vuraq iki bəlkə dörd olur?
Ögey ana olur hər yerdə, fəqət,
Ögey Vətən olmur, ögey yurd olmur.
"Vətən" (Veysəl Çərkəz)
Damcılar nur olub qəlbimə axar...
Mən də kövrək-kövrək deyərəm hərdən:
Gündüz yağan yağış buluddan yağar,
Gecə yağan yağış-xatirələrdən.
"Xatirələrdən yağan yağış" (Qoca Xalid)

Hələ baş da durur, baş qatanlar da,
Çoxaldı göz alıb, qaş satanlar da,
Daş da tapılacaq, daş atanlar da,
Gedirəm, dalımca su at, ay ana!
"Dalımca su at" (Mayis Səlim)

Nəğməmiz, sərqimiz Tanrıdır bəlkə,
Bizə ölüm yoxdu, onu duyanda.
Bizim başımıza nə bəla gəlsə,
Gəlir şərqimizi oxumayanda.
"Bizi nəğməmizlə tanıyan dünya" (Mübariz Məsimoğlu)

Bir zamanlar dövriyyəyə buraxılmış yanlış fikir - "Şəki ədəbi mühiti üçün aşıq yaradıcılığı bir o qədər də xarakterik olmamışdır" fikri ilə bağlı bu gün də ənənəvi mübahisələrə aydınlıq gətirilməmişdir.

Çox ünlü ədəbiyyatşunas Yaşar Qarayev yazırdı:

– Mahalım Göynükdür, şəhərim Şəki,
Layısqı kəndinin binasıyam mən –

deyən aşığın (Molla Cumanın – R.O) bədii təsir miqyası, saz məktəbi, şagirdləri və davamçıları hələ öz sağlığında bütün Zaqatala, Balakən, Qax zolağını və Dərbənd-Dağıstan ərazisini öz içinə almışdır. Təsadüfi deyil ki, Azərbaycanda sözün ikndiki lüğəvi yox, klassik mənasında "Molla" rütbəsini daşıyan sonuncu aşıq-şair Molla Cuma olmuşdur. Mövlanə Füzulidən, Molla Vəli Vidadidən, Molla Pənah Vaqifdən sonra bu titulu xalq şifahi ədəbiyyatda yalnız Cumaya vermişdir."

Bu deyilənlərə rəğmən, Molla Cuma kimi "süfrəli" aşıq-şairin yaradıcılığı təkcə bir ədəbi bölgənin yox, bütövlükdə Azərbaycan aşıq şeirinin inkişafına çox böyük təsir göstərmişdir.

Danışsalar yetmiş iki dilinən,
Ol qədər arifəm, qanasıyam mən.

Qanıram, ustaddan almışam dərsi,
Oxumuşam ərəb, türk ilə farsi.
Fikrim seyr eyləyir ərşinən kürsi,
Dərin kitabların mənasıyam mən.
"Aşıqlıq"

Kərim Musayev, Aşıq Əhməd, Aşıq Musa, Aşıq Novruz, Aşıq Hacıbala, Muğum Məmmədov, Aşıq Güləhməd, Aşıq Məmməd,

Aşıq İsmayıl, Aşıq Nəzir, Aşıq Sirac, Aşıq Sakit Köçəri, Aşıq Piri, Aşıq Şamil, Aşıq Əhməd (A.Şabalıd), Aşıq Məhəmməd, Aşıq Paşa, Aşıq Yusif (A.Göynük) və başqaları Molla Cuma aşıq məktəbinin yetirmələri və davamçılarıdır.

XIX əsr Azərbaycan ədəbiyyatı tarixindən danışan söz sərrafları Şəkidə doğulub boya-başa çatan şairələrdən: Mahtab xanım və Mah xanımdan da bəhs etmişlər. Bu kitabda XIX əsrin sonu və XX əsrin əvvəllərində Şəkidə yaşayıb yaratmış Maral xanım Nəbizadənin də poetik "süfrəsinə" oxucuları qonaq etmişik.

Şəkidə doğulub boya-başa çatan Qiymət Məhərrəmli, İradə Gülfir, Gülafət Bayramova, Sədaqət Abduləzizova, Kifayət Rəsulqızı, Bahar Səmin, Gülnarə Əsgərzadə, Tangiz Dəniz, Ruhəngiz Rəhimli, Çimnaz Şirinqızı, Almaz Arifli, Mehriban Niymət, Tərənə Şəms, Zəminə Rəsulova, Validə Qəmgin, Almaz Məmmədova, Əfsanə Abdullayeva və digərləri geniş oxucu auditoriyasında könül nəğmələrini imzaları ilə təsdiqləmişlər.

Gözlər tilsimlənər gözəl görəndə,
Gözə xoş görünər, gözəl görən də.
Ayda bir, ildə bir gözəl görəndə
Çirkinə göz yumar, gözələ baxar.
"Gözələ baxar" (Qiymət)

Həsrəti gözümə yığıb gedərdim,
Sevdamı könlümə sıxıb gedərdim.
Bir yolluq dünyadan çıxıb gedərdim,
Əgər bu dünyada sən olmasaydın.
"Sən olmasaydın" (Gülnarə Əskərzadə)

Çox boranlar ötüb keçdi başımdan,
Üst-başım islandı göz yaşlarımdan
Yetim quzu kimi baxışlarımdan
Nadan nə oxudu, şad oldu, getdi.
"Dad oldu getdi" (Çimnaz Şirinqızı)

Yaxınlar yad olub, yadlar yadlaşıb,
Ürəklər daş olub, daşlar daşlaşıb.
Bu dünya qocalıb, yaman yaşlaşıb
Varı sizə qalsın, yoxuna gedim.
"Gedim" (Bahar Səmin)

Poetik dünyası, sənətə və sözə münasibəti, poeziya və nəsrdə özünü ifadə tərzi ilə seçilən Hədiyyə Şəfaqətin şeirləri və nəsr əsərləri ən yeni dövr ədəbiyyatımızın nümunələrindəndir.

...Nəfəs-nəfəs,
Udum-udum ölürəm mən,
amma bu incitmir daha,
Hər səhər pəncərəmdəki
çiçəklərə gülümsəyirəm əvvəl,
Sonra
Tanımadığım insanlara.
"Nəfəs-nəfəs" (Hədiyyə Şəfaqət)

Hazırda Şəki ədəbi mühitində formalaşan gənc ədəbi qüvvələr; Sadiq Zaman, Gülnarə Əskərzadə, Mehman Musabəyov, Araz Səməd, Vasif Zöhraboğlu, İlkin və Aqşin İbrahimxəlilov qardaşları,

Dəhnəli Məmməd, Nizami Adışirin, Tural Adışirin, Zaur İlhamoğlu, Əfsanə Abdullayeva, Elvin Nuri və başqaları böyük həvəs və məhəbbətlə öz əsərlərini yaradırlar. Şüphəsiz, onların arzuları, diləkləri, daha uğurlu səsli-sədalı əsərləri qabaqdadır.

Şəki ədəbi mühitində yetişib formalaşanların bir qismi Şəkidə və onun kəndlərində deyil, bu coğrafi məkanın hüdudlarından çox-çox uzaqda doğulsalar da, sonralar Şəkini özlərinə doğma yurd etmiş, buradakı münbit ədəbi-mühitdə öz poetik "süfrələrini" məhz burada açaraq, oxucularını da buradan poetik "təamlarına" qonaq etmişlər. Mirzə Həsən Mirzə (Qarabağ), İbrahim Əfəndi Nigati (Qazax), Muğum Məmmədov (İrəvan vilayətinin Göyçə mahalının Zağalı kəndi), Hacıbaba Mehdizadə (Qubadlı), Ovçu Ərəbov, Veysəl Çərkəz, Aşıq Sakit Köçəri (Dağıstan), Nazim Rizvan (Bakı), Eyvaz Abışov (Qazax) və b. söz-sənət ustaları Şəki ədəbi mühitində formalaşaraq Azərbaycan ədəbi arealına daxil olmuşlar.

Şəki həm də genetik yaddaşın ədəbi-bədii poetik yaddaşa transformasiya olunduğu bənzərsiz tarixi-coğrafi məkandır. Məsələn: Məhəmmədhüseyn xan Müştaq – nəvəsi Kərim ağa Fateh-onun sülbi oğlu Mustafa ağa Şuxi; Molla Qasım Zakir – nəticəsi Akif Salamoğlu; Molla Oruc – nəvəsi Molla Cuma – nəticəsi Elman Əzizov; Səməd Əfəndi Məhzun – oğlu Xalid Zəkəriyyə – oğlanları Qoca Xalid (Namizəd Xalidoğlu), Tahir Xalid; Rəşid bəy Əfəndiyev – qardaşı Abdulla bəy Əfəndizadə – nəvəsi Hikmət Ziya; Əbdüləzəl Dəmirçizadə – qarsaşı oğlu Rövzət Dəmirçizadə; Xalisə Qarı – nəvəsi Nurməhəmməd Əfəndi – əmisi oğlu Əhməd Nəbi Əfəndi – qızı Səidə İmanzadə; aşıq Kərim Musayev – oğlu Abduləvvəl Kərimzadə; Məmmədiyyə Süleymanlı – oğlu Qurtuluş Süleymanlı; Şirməmməd Hüseynov – qardaşı oğlu Yusif Hüseynov; Əbülfət Həsənoğlu – qardaşı qızı Səlamət Ədilova; Abdurahman Abdullayev – oğlu Namiq

Abdullayev; İlkin İbrahimxəlilov – qardaşı Aqşin İbrahimxəlilov; Kamil Adışirinov – oğlu Tural Adışirin – Nizami Adışirin (birincisinin qardaşı, ikincinin əmisi oğlu); Zaman Qarayev – oğlu Sadiq Zaman və başqaları təkcə bioloji genin yox, eyni zamanda poetik genin də daşıyıcıları kimi ədəbi qohumluqlarını təsdiqləmişlər.

Şəki ədəbi mühitində ədəbi dostluqlar da mühüm rol oynamış və oynayır. Şəki xanı şair Məhəmmədhüseyn xan Müştaqla Qarabağ xanlığının vəziri (əslən Qazaxlı) molla Pənah Vaqifin, yenə Şəki doğumlu Mirzə Fətəli Axundzadə ilə Qarabağlı (Şuşalı) Qasım bəy Zakirin dostluq əlaqələri- onların qarşılıqlı yazışmaları ədəbiyyatımızda epistolyar üslubun inkişafına təkan vermişdir.

Azərbaycan ədəbi fikir tarixində Şəki ədəbi zonası müxtəlif ədəbi zirvələrə ünvandır: XIX əsr Azərbaycan ədəbiyyatında – dramaturgiyada və nəsrdə M.F.Axundzadə zirvəsi; pedoqoji fikir tariximizdə R.Əfəndiyev zirvəsi; ədəbi irsimizin toplanması və nəşrində Salman Mümtaz zirvəsi; XX əsr Azərbaycan poeziyasında milli azadlığın Bəxtiyar Vahabzadə zirvəsi; "anti-sovet komediyasının" Sabit Rəhman zirvəsi; ədəbiyatşünaslıqda Yaşar Qarayev zirvəsi; publisistika və jurnalistikada Şirməmməd Hüsüynov zirvəsi; türkologiya və milli azadlıq ideologiyasının Aydın Məmmədov zirvəsi...

Milli ornamentlərlə bəzədilmiş, tarixi qala divarlarını xatırladan Şəkinin giriş qapısından şəhər ərazisinə daxil olanda bu qədim məkanın başı üzərindən göylərə büləndolan dağ zirvələri yuxarıda adlarını xatırladığımız ədəbi zirvələrin dilindən Şəkiyə gələnlərə "Xoş gəldin!" söyləyir.

Biz də eyni səmimiyyət və eyni istəklə "Şəkidən gələn səslər" adlı ədəbi-bədii "süfrəmizə" üz tutan hər bir oxucuya səslənirik. Xoş gəlmisiniz! Əziz oxucular, bu kitabdakılar ədəbi bədii "süfrəmizin nemətlərinin" hamısı deyil. Əminik ki, bu diyarla bağlı ədəbi nümunələrin toplanıb II kitabda daha mükəmməl şəkildə oxuculara təqdim edilməsində kömək əlinizi bizdən əsirgəməyəcəksiniz. Sağlıq olsun, onda ağızdolusu deyəcəyik, sağlıqla qalın. İndi isə deyirik, növbəti görüşə qədər!

Ramiz Orsər

ƏNBƏROĞLU

....

Ənbərоğlu XIII əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Doğum – ölüm tarixi məlum deyil. Haqqında ilk məlumatı Ə.Mümtaz vermişdir: "Bu əhli şair hicri VIII əsrin ilk yarısında (XIII əsrin I yarısında) Şirvanlı Molla Qasım, İsfərayinli Həsənoğlu və digər bəzi Azərbaycan şairləri ilə müasir və yaxud bir az sonra yaşamış, bir simadır. Təəssüf olsun ki, Ənbərоğlu kimi böyük bir şairdən bu gün bizə min dürlü məşəqqət ilə yetişən ədəbi miras cynən Həsənoğlundan qalma miras qədərincədir".

Ənbərоğlunun azərbaycan dilində bizə gəlib çatmış qəzəli 1919-cu ildə Şəkinin Gəncəli məhəlləsində uçmuş, dağılmış Şeyx məscidinin çardağından tapılmış elə bu səbəbdən də Ənbərоğlunu Şəkili şairlər sırasında təqdim edirik. Ə.Mümtaz yazır: "Ənbərоğlu qəzəlinin mətləbi Həsənoğlu qəzəlindəki mətlələrin eynidir. Hankısı hankısına nəzirə olaraq söylədiyini qəti surətdə göstərmək hələlik çətindir. Əruz ilə yazılan bu qəzəllərin bəhrləri bir olduğu kimi, qafiyələri də bir vəzndədir. Yalnız səbəbləri ilə mövzularında bir fərq və bir ayrılıq vardır[1]."

[1] *Salman Mümtaz. "İnqilab və mədəniyyət" jurnalı, 1929-cu il №3-4, səh 49*

* * *

Apardı əqlimi məndən bu gün bir sərvi-siminbər,
Saçı sünbül, bəni filfil, yanağı gül, boyu ərər.

Bu dörd nəsnə rəvan olmuş yarın şirin dodağından,
Biri heyvan, biri mənqub, biri zəmzəm, biri kövsər.

Bu dörd nəsnə tülü etmiş, yarın görklü çəmalından,
Biri ayü, biri gündüz, biri Zöhrə, biri Ülkər.

Bu dörd pirin duasilə dilərəm yazımı Həqdən
Biri İsa, biri Musa, biri Zünun, biri Cəfər .

Bu dörd nəsnə ilə olsam, ollam bu dünyada beş gün,
Biri saqi, biri şahid, biri şəmü, biri peykər.

Bu dörd nəsnəni sevmişdir şikəstə Ənbərin oğlu,
Biri izzət, biri işrət, biri nemət, biri dilbər.



ŞƏKİLİ SÜLEYMAN

....

XVIII əsrdə yaşayıb-yaratmış, lakin sonralar unudulmuş şairlərdən biri də Şəkili Süleymandır.
Doğum və vəfatı tarixi dəqiq məlum olmasa da, Məhəmmədhüseyn xan Müştaqın (1759-1780-ci illərdə Şəkidə xanlıq etmişdir) təşkil etdiyi şeir məclislərinin gözü olduğu bəllidir. Haqqında ilk məlumata "Ədəbiyyat loğmanımız" Salman Mümtazın 1928-ci ildə ərəb əlifbasında çap etdirdiyi "El şairləri" kitabında rast gəlinir. S.Mümtaz şair Süleymanın şeirinəM.P.Vaqifin nəzirə yazdığını, ondan bəhrələndiyini də göstərir.
Şair Süleymanın şeirlərində lirik ruh hakimdir. Şeirlərinin dili aydın və səlist, təbii, şaqraq və oynaqdır. O, şeirlərində öz görüşlərini təbliğ etmiş, yeni fikirlər söyləmiş, klassik şairlərə nəzirələr də yazmışdır. Şeirlərində dövrün haqsızlıqlarından, zülm və zülmkarlardan şikayət əsas yer tutur. Şəkili Süleymanın özündən sonrakı şairlərə təsiri olmuşdur.

Cığalı müxəmməs

Ey sim bədən, mehri-dirəxşəndə Züleyxa,
Ey kani-məlahət, ləbi purxəndə, Züleyxa,
Qılma saçını muca pərakəndə, Züleyxa,
Ey gözləri şəhla,
Ey qaməti rəna,
Ey saneyi, Leyla,
Əla, dəxi əla,
Rüxsarı gözəldir,
Rəftarı gözəldir,
Tuti kibi hər ləhcəyi-göftarı gözəldir,
Kim gördü ki, yüz ruh ola bir təndə, Züleyxa.

Kim vəsmə yaxıb qaşına gizlətdi hilali,
Əbruyi-kamanın kimi qanrıldı xəyali,
Ol biədəbin yoxdu məgər əqlü-kəmali,
Yox vəsmədə sevda,
Qıldı ayı rüsva,
Ey düxtəri-tərsa,
Ey zülfü-çəlipa,
Bəsdir dəxi yandım,
Hər cövrə dayandım,
Ey qönçədəhan, rəhm elə zülmündən usandım,
Bundan sora yox tabutavan məndə, Züleyxa.

Nəsrin tökülüb şahi-rüxun tərfinə heyhat,
Nərradi-qəza şeşdəri-heyrətdə qalıb mat,
Nəqqa ki sənin hüsnün olub aləmə isbat,
Bir mahi-liqasən,
Bir abi-bəqasən,
Bir eyni-səfasən,
Sən əhli-vəfasən,
Yox heyf ki yarın,
Sən türfə nigarın,
Bu zinət ilə düşsə əgər Misrə güzarın,
Hüsnün edəcək Yusufi şərməndə, Züleyxa.

Gül, gül üzünü görmək üçün bağa çəkilmiş,
Lalə döşünü dağlayibən dağa çəkilmiş,
Qar sinəni görçək o da yaylağa çəkilmiş.

Ey Xosrovi-xavər,
Ey şəmsi-münəvvər,
Eşqin məni yeksər,
Yandırdı cu azər,
Ey dilbəri-sərgəş,
Ey hiru-pərivəş,
Xaşaki zəifəm mənə urma dəxi atəş,
Bu cürə ədalət nədir ey səndə, Züleyxa.

Həqqa ki, sənin türfə camalında eyib yox,
Yaqut ləbində rüxi-alında eyib yox,
Hüsnündə və nə əqlü-kəmalında eyib yox,
Bir sərvu-rəvansan,
Aşubi-zaman san,
Sən afəti-cansan,
Ey mehri-dirəxşan,
Ey şahi-Süleyman,
Qıl dərdimə dərman sən, əya Xosrovi-dövran,
Qalmaz bu gözəllik sənə payəndə, Züleyxa.



ŞƏKİLİ NƏBİ

....

Şəki rayonunun Aşağı Küngüt kəndində anadan olub.
Təvəllüdü və vəfatı tarixi dəqiq məlum deyil.
Haqqında ilk məlumatı Salman Mümtaz verib.
Şəkili Nəbinin Hacı Çələbi xana (1743-1755)
onun oğlu və varisi Ağakişi bəyə (1755-1759)
və nəvəsi Məhəmmədhüseyn xan Müştaqa (1759-1780)
həsr etdiyi müxəmməslərə əsaslanıb söyləmək olar ki,
Nəbi XVIII əsrin əvvəllərində anadan olub,
sonunda vəfat etmişdir. Nəbi Məhəmmədhüseyn xan
Müştaqın yaxın dostu olmuş,
onun sarayında təşkil etdiyi şairlər məclisində
öz istedadı və şairlik təbii ilə seçilmişdir.
Şəkili Nəbinin (bəzən Mirzə Nəbi adı ilə də xatırlanır)
klassik ədəbi janrlarda olduğu kimi,
xalq şeiri şəkillərində də xəlqi ruhda yazdığı şeirləri
dilinin sadəliyi və obrazlılığı ilə diqqəti cəlb edir.
M.P. Vaqif və M.V. Vidadi ilə də dostluq etmiş,
öz yaradıcılığında klassik danışıq üslubu ilə yanaşı,
folklor danışıq üslubundan da qədərincə bəhrələnmişdir.

Qəzəl

Bu nə qaş, bu nə göz, qibləm bu nə şivə, nə iymadır,
Qapında məstü heyrandır, xəlqi-aləm xoşnümadır.

Bu nə xali-bəlacudur, bu nə qəddi-dilaradır,
Cahan içrə sahbsan bu nə fitnə, bu nə qovğadır?

Nəzər qılmazsan əhli-eşqə nazü qəmzə ilə sən,
Səni məğrur edibdir bu gözəllik, türfə dünyadır.

Dəhanın şərbəti ilə şəkərdən daxi şirindir,
Yanağın bərgi-güldən daxı əla, daxı zibadır.

Jəzən kuyində üryan hər zaman, ey Leyliyi-aləm,
Nəbi biçarədir bu, yoxsa kim, Məcnuni-şeydadır?

Qurban olduğum

Bir gül yüzlü yarə həsbənd olmuşam,
Nəsrin buxağına qurban olduğum,
Zülmat könlümü qıldı münəvvər,
Alnı çırağına qurban olduğum.

Ğülzari-hüsnündə aşiqi-bidil,
Qönçələr görübən eylədi ğülğül,
Açılmış şükufə, qönçə, qızılgül,
Tilingin tağına qurban olduğum.

Sənsən fikrü zikrim, gözəl, nigarım,
Müsəlləmdir sənə var ixtiyarım,
Mən əsirəm sənin eşqində, yarım,
Duzna, duzağına qurban olduğum.

Xəlq eylədi anı ustadi-əzəl,
Gözəllikdə bibədəldir, bibədəl,
Dişləri sanki bir düni-müseyqəl,
Ləl dodağına qurban olduğum.

Qoynu cənnət, bağü bustan mədəni,
Tər şamama, narınc, turunc məskəni,
Allah üçün, bağban, incitmə məni,
O bağın tağına qurban olduğum.

Utandırır yanağı, qızardır güli,
Pərişanhal ctmiş saçı sünbüli,
Dadırmış ləbindən mən xəstə dili,
Kövsər bulağına qurban olduğum.

İnciməm cövrindən çəksəm cəfasın,
Bulmuşam vəslində dərdim şəfasın,
Vəqti-tüluunda yırtmış yaxasın,
Köksünün ağına qurban olduğum.

Yüzi günəş, aləm içrə aşikar,
Zəvi kamil, hər tərəfə intişar,
Saxlamışam sinəm içrə yadigar,
Dügünü dağına qurban olduğum.

Siyəhdir başında kakil mükəhhəl,
Payi-busi üçün olrnuş mütəvvəl,
Tökülmüş gərdanə zülfi-müsəlsəl,
Ənbər buxağına qurban olduğum.

Şikəstə Nəbiyəm, aşiqi-dər hal,
Eşqi-məcazidən etdim intiqal,
Gərdişi-devrandan görməsin zaval,
Nöcavan çağına qurban olduğum.

Sevdiğim

Yar olub mənimlən həmdəm olmadan,
Dərdini yetirdin yüzə, sevdigim.
Səg rəqib gələndə deyilən gülər,
Mən gələndə çıxmaz yüzə, sevdigim.

Heç yadımdan çıxmaz şirin sözlərin,
Aya, günə tənə edər yüzlərin,
Yağı əbrulərin, cəllad gözlərin,
İstər ki, canımı üzə, sevdigim.

Padşahlıq yaraşır yarın şəstinə,
Əskəri-ğəm heç varmasın üstünə,
Qədəmin basıban didəm üstünə,
İstərəm seyr edəm, gəzə sevdigim.

Xəstə olan könlüm cananın istər,
Eşq oduna yanıb, oldum xakistər,
Tanrı üçün hər dəm çıxıban göstər,
Camali-eydini bizə, sevdigim.

Qurban olum cana, qara qaşına,
Sirrini vergilən öz sirdaşına,
Nəbi bülbül tək dolanır başına,
Aşiqdir sən tək gül yüzə, sevdigim.

Xəbər ver

Badi-səba götür mənim pəyamım,
Tanrı üçün o gülzara xəbər ver.
Xəzan dəymiş, gülü solmuş bülbüləm,
Ruzigarım növbəhara xəbər ver.

Ey nəsimi-səhər gəzmə cahani,
Yar sarıdan sana verrəm nişani,
Dut qolundan, çək xəlvətə nihani,
Dön başına vara-vara xəbər ver.

O bir pəri-vəşdir, özündən göyçək,
Güldən, bənəfşədən taxınmaz bəzək.
Sədri birgan, bağrı dağlı lalə tək
Mənəm bundan günü qara xəbər ver.

Bu qədər üz sürtdüm xaki-rahinə,
Layiq eyləmədi öz dərgahinə,
Ərzi-halım mənim xublar şahinə,
Gizlin demə, aşikarə xəbər ver.

Həsrətindən sızıldaram sübhü şam,
Cismi xəstə, gözü yaşlı il-müdam
Başın üçün götür Leylidən pəyam.
Məcnun kimi intizara xəbər ver.

MƏHƏMMƏDHÜSEYN XAN MÜŞTAQ

.... 1780

Məhəmmədhüseyn xan Həsənağa oğlu Müştaqın
doğum tarixi məlum deyil.
Ancaq 1759-1780-ci illərdə Şəkidə xanlıq etmişdir.
"Müştaq" onun şair təxəllüsüdür, farsca və Azərbaycan dilində
dövrünə görə qüvvətli şeirlərin müəllifi olmuşdur.
Abadlıq sevən, xanlığı ağılla idarə edən şəxs olduğundan
xalqın hörmətini qazanmış (Şəkidəki məşhur "Xan sarayı"nı,
bir məscid və bir hamamı Məhəmmədhüseyn xan tikdirmişdir),
Şəki-Şirvan bəylərbəyi adına layiq görülmüşdür.
Xanlığı dövründə Şəkili Nəbi, Şəkili Rəci, Ağcayazılı Zakir,
Kəlbirli Rəfeni sarayına dəvət etmiş, şeir məclisləri qurmuş,
onlarla dostluq əlaqələri qurmuşdur. Molla Pənah Vaqif və
Molla Vəli Vidadiyə hədsiz hörmət bəsləmiş,
onlarla da dostluq etmişdir. Hətta Vaqif Müştaqın
şeirlər məclislərində iştirak etmişdir.
Müştaq Vaqifə bir zərli kürk, bir bəzəkli tüfəng və bir at bağışlamışdır.
Məhəmmədhüseyn xan Müştaq 1780-ci ildə
əmisi Hacı Əbdülqadir xan tərəfindən xəncəsinə öldürülmüş.
Molla Vəli Vidadi ədalətli xan-şair Müştaqın bu faciəsinə
"Müsibətnamə" adlı şeir yazmışdır.

Xoş gəldin

Əla, ey təhniyyətgah mədilət sultanı, xoş gəldin,
Xəyalım şəhrinin sərdari-valaşanı, xoş gəldin,
Gözüm, könlüm əzizi, sevgili cananı, xoş gəldin,
Səvadi-Misri-camın Yusifi-Kənanı, xoş gəldin,
Münəvvər eylədin bu dideyi-giryanı, xoş gəldin.

Səni badi-səbamı eylədi agah halımdan,
Eşitdin, yoxsa bir səs naleyi-bietidalımdan?
Bu müddətdə xəyalin çıxmışdı xud xəyalımdan,
Deyim kim, ol sənə gətdi xəbər verdi məlalımdan,
Kim ərz etdi gətirmək dərdimə dərmanı, xoş gəldin.

Çəkib dil intizar, olmuşdu xəstə çeşmi-şəhla tək,
Pərişan idi fikrim türreyi-zülfi-səmənsa tək,
Cigər dönmüşdü qanə, rəgi-gülrüxsari-həmra tək,
Xəmi-əbrunu ta gördüm düzəldi qamətim ya tək,
Sənin tək böylə ceyranın olum qurbanı, xoş gəldin.

Şəha, lütfün füzun olsun ki, əltafı-ziyad etdin,
Bu gün Müştaqi-didarın olanı pürmurad etdin,
Əzəldən ha unutmuşdun sonra da ki, yad etdin,
Qədəm basdın səadətlə bizim şəhri abad etdin,
Şərəfli bəzmi iqbalın səri-tabanı, xoş gəldin.

Xəbər ver

Badi-səba apar mənim peyğamım,
Başın üçün o dildarə xəbər ver.
Yalvar, yapış, ağla, sızla, ya dəxi
Ərzi-halım sitəmkarə xəbər ver.

Niysan təki əşkim düşdü bağına,
Rəhmin gəlsin sinəm üstə dağına,
Yetcək öpüb əlin, düş ayağına,
Dön başına varə-varə xəbər ver.

Çərxi-fələk xub durubdur qəsdimə,
Xudam, sən də bir əl yetir dəstimə,

Qəml əşgər i hücum et di üstümə,
Alişanə, o sərdarə xəbar ver.

Müştaqiyəm, ömrüm getdi talana,
Qarğamışam məni dərdə salana,
İllər ayrısına həsrət qalana,
Gözü yolda intizarə xəbər ver.

Qurban olduğum

Sevdim bir cavan on dörd yaşında,
O türfə çağına qurban olduğum.
Günəş tək aləmi qıldı münəvvər,
Cəbini ağına qurban olduğum.

Rəqibi görəndə eylədi pürxaş,
Dağıtdı hər tərəf manəndi-xaşxaş,
Səfheyi-ruxsara çəkəndə nəqqaş,
Qaşları tağına qurban olduğum.

Sinəm o gözəlin çarpaz dağıdır,
Məclisi eyş içrə türfə çağıdır,
Şux nazü qəmzəsi can almağıdır,
Müjgan sadağına qurban olduğum.

Ağ yüzdə xalları filfilə nisbət,
Can quşu bağında bülbülə nisbət,
Ləbləri çiy düşmüş bir gülə nisbət,
Əhmər yanağına qurban olduğum.

Sevdim canü dildən Müştağı oldum,
Həsrətin çəkməkdən üç dağı oldum,
O cəllad gözlərin qonağı oldum,
Bilinən nəsağına qurban olduğum.

Təcnis

Ey əbrusi kaman, müjganı xədəng,
Durubsan qəsdimə yaraq ilə sən.
Rəvamıdır bu şikəstə könlümü,
Ğəmzən qılıcıylən yara qılasan.

Həm söhbət bilirsən, həm dəm bilirsən,
Cigərim zəxminə həmdəm bilirsən,
Rəqibi özünə həmdəm bilirsən,
Haçan gələcəksən yar, ağıla sən.

Kim dinər hüsnünə sonam oduna,
Sənan tərsa sevdi girdi o duna,
Pərvanəni saldın hicrin oduna,
Bayqunun dilini yara qılasan.

Yüzü qaraları yüz ağ eyləmə,
Bülbülün həmdəmin Yüzaq eyləmə,
Aşiqi kuyindən yuzaq eyləmə,
Tərəhhüm çağıdır yara qılasan.

Tutma camalına hər ayinə sən.
Yetmə hər nakəsin hərayinə sən,
Öldürsən Müştaqi hər ay yenə sən,
Barı gəl üstünə yaraqilə sən.

Qəzəl

Həbibim, qəddi-mövzunun əlifdir dal arasında,
Vücudun həzrəti-həq saxlasın iqbal arasında.

Işim düşvardır hicran əlindən, xeyli müşküldür,
Məni-biçarəyə bir iltifat et, hal arasında.

Mənim qətlimdədir kafır, gəlin qoymun, müsəlmanlar,
Məgər yox aşiq ilə məşuqənin bir dal arasında.

Qaşın bir yanə səf çəkmiş. müjən bir yan, iki ləşgər,
Durubdur bir-biriylə cəng edərlər xal arasmda.

Edərdim məsləhət mən bu iki xunrizə, Müştaqi
Dedi hatif mənə, yardırma başın qal arasında.

MOLLA MƏHƏMMƏD HÜZNİ

.... 1822

Molla Məhəmməd Hacıbala oğlu Şəki rayonunun
Aşağı Küngüt kəndində anadan olmuş, ədəbi aləmdə
"Hüzni" təxəllüsü ilə tanınan Şəki şairlərindəndir.
Atası Hacıbala Əfəndi şair təbiətli bir insan olub, şeirlər yazırmış.
Məhəmməd öz səyi ilə dini elmləri öyrənmiş və
kənd mollası təyin edilmişdir.
O, mollalıq etməklə güzəran keçirmiş, asudə vaxtlarını şeir yazmağa
və söyləməyə həsr etmişdir.
Şeirlərini əruz vəznində-klassik şeirimizin bir çox
şəkillərində-təbriknamə, mədhiyyə, mərsiyyə,
qəzəl və s. janrlarda yazıb.
Divan təşkil edəcək qədər şeirləri olsa da, divanı əldə edilməyib,
ya da gəlib bu günümüzə çatmayıb.
F. Köçərli özünün "Azərbaycan ədəbiyyatı"nda
şeirlərindən nümunələr vermişdir.
Molla Məhəmməd Hüzni
1822-ci ildə vəba xəstəliyindən dünyasını dəyişib.

* * *

Əşrəfül-xəlq olmağa bais bəşər elmü ədəb.
Hadiyi-rahi-riyazi-dadgər elmü ədəb.

İstəsən dünyavü üqba izzü rifət xəlq ara,
Eylə hasil, səy edib şamü səhər elmü ədəb.

Malü mənsəb sahibin eylər bəlaya mübtəla,
Sahibin amma bəladən hifz edər elmü ədəb.

Qəm deyil, olmazsa dünya dövlətindən dövlətin,
Olsa gər sermayeyi-əqlü hünər elmü ədəb.

Ehtiram eylər ümumən pirü bürnayı-cahanı,
Kim ki, olmuşdur ona deyhıli-sər elmü ədəb.

Süni-qüdrətdən tikilmiş gülşəni-aləmdədir
Bir nihali-barvər peyvəstətər elmü ədəb.

Eylə kuşiş, etməyib bir an təğafül, Hüzniya,
Rövnəqidir bəzmgahi-xeyrü şər elmü ədəb.

* * *

Ey vücudun rövnəqi-nüzhətgəhi-darüssəlam,
Zayiri-firdovsi-kuyindir məlayik sübhü şam.

Yömni-təşrifi-qüdumundan bulub fəzlü şərəf,
Kəbeyi-əşrəf olubdur qibləgahi-xasü am.

Nuri-aləmgiri-xurşidi-cəmalın eşqinə
Buldu aləm dərgəhi-izzətdə izzü ehtiram.

Xilqəti-əflakdəndir gövhəri-zatın qərəz,
Tövfi-kuyindir tövafi-beytdən məqsudi-tam.

Bir imarətdir ki, darül-əmin-şəri-ənvərin,
Rəxnə bulmaz, olsa min tufan ilə yövmül-qiyam.

Olsa lütfün, bir bəni-adəm yaxılmaz atəşə,
Xassə bir adəm ki, dər nami-şərifində bənam.

Rahi-şərin tut həmin salari-dinin Hüzniya,
Etdiyin rahi-mənahidə təkapudur tamam.

* * *

Həqqi tövhid qılıb qail olan mizanə,
Eylər iqdam necə şurü şoərü üsyanə?!

Etsə Quranə əgər taət əhli-Quran,
Kafiran rəğbət edib tabe olar Quranə.

Etsə göftarına kirdar güruhi-ülətna.
Əmri-həqdən cühəla bir qədəm olmaz yanə.

Qövli-həqdir ki, təsəllüt bulamaz düşməni-həq
Şəri-Məhmudi tutub taət edən yəzdanə.

Rəhnüma olmasa həmsayə, xəyanət edəməz,
Kimsəyə rah bulub, cürət edib biganə.

Eylə hər ləhzə həzar bir bəşərin şərrindən –
Kim olubdur sən ilə həmnəfəsü həmxanə.

Hüzniya, ta əbəd ənduhü qərabət görəməz,
Kim təvəkkül edə ixlas ilə həq sübhanə.

KƏRİM AĞA FATEH

1783-1858

Kərim ağa Fateh 1783-cü ildə Şəkidə anadan olub.
Şəkixanovlar nəslinin ikinci böyük nümayəndəsidir.
Kərim ağa Fateh Şəki xanı Hüseyn xan Müştaqın nəvəsi,
Şəki xanlığının sonuncu xanı Fətəli xanın oğludur.
O, atasının sarayında xüsusi təhsil alıb.
Ərəb və fars dillərinə mükəmməl yiyələnib, klassik poeziyamızı
böyük məhəbbətlə sevib. Kərim ağa tarixlə məşğul olmaqdan başqa,
ərəb və fars dillərində qəzəllər də yazıb. Fatehin bizə gəlib çatan
qəzəllərindən yalnız ikisi Azərbaycan dilindədir. Fateh istər mənən,
istərsə də maddi cəhətdən səxavətli bir şəxs olmaqla yanaşı,
çox hörmətli, tərəqqipərvər və səxavətli ziyalı idi. Həmasri, şəkili
şair Molla Qasım Zakir xeyirxah və səxavətli Kərim ağanı "Mərd ağa"
adlandıraraq, ondan maddi yardım istəmək üçün
belə bir şeirlə şairə müraciət etmiş və istəyinə nail olmuşdur:

Ağa, bu Gülşəni-aləmdə bəndə xar qalsınmı?
Dediyim dərgahına bir ərzi-halım var, qalsınmı?
Yazım hali-dili şərh eyləyim təkrar qalsınmı?
Özün insaf elə könlümdə ötən atəş bar qalsınmı?
Sənin tək Mərd ağası olan naçar qalsınmı?

M.F.Axundovla dostluğu ilə fəxr edən, tez-tez dostunu görmək üçün
qiymətli hədiyyə və sovqatlarla Tiflisə gedən Kərim ağa Fateh
Axund Hacı Ələsgərin vəsiyyətinə əsasən onun qızı Tubu xanımı
Tiflisə aparıb. Mirzə Fətəli ilə bu xanıma
gözəl bir toy məclisi də düzəltmişdi.
"Şəki xanlarının tarixi" adlı əsəri onu daha çox məşhurlaşdırmışdır.
Kərim ağanın adını çəkdiyimiz əsəri həm Şəki tarixinin araşdırıcıları,
eyni zamanda hər bir azərbaycanlı, ələlxüsus da
fərş döşənmiş küçələri ilə addımlayarkən qala divarlarına,
karvansaralara, qədim və əzəmətli tikililərə baxa-baxa hər dəfə
qürurlanan şəkililər üçün əvəzsiz məxəzdir.
Kərim ağa Fateh 1858-ci il iyulun 12-də Şəkidə vəfat etmiş,
xan məscidinin arxasında xanların nəsillərinə aid qəbiristanlıqda
dəfn olunmuşdur.

* * *

Düri-dəryayi-rəhmət, gövhəri-kani-vəfadır bu!
Güli-gülzari-izzət, sərvi-bağı-istəfadır bu!

Şəhi-bəzmi-nəbüvvət, sərvəri-mülki-risalətdir,
Məhi-bürci-şərəf, xurşidi-övci-ənbiyadır bu!

Qılan gəngi-günahı pak kim, abi-şəfaətlə,
Məhəlli-lütfi-həqq, danayi-sirri-kibriyadır bu!

Edib dini-mübini aləmi-rəşki-İrəm mülki,
Salıbdır rəxnələr kəffarə, şəri-Mustafadır bu!

Fəzayi-məqdəmi təqbili-əşrafi-məlayikdir,
Türabi-bargahi qibləgahi-övliyadır bu!

Vücudunda əyan ayati-həq ərbabi-idrakə,
Məqami-qürbdə ayineyi-vəhdətnümadır bu!

Kəlami-əltəfi məxluqə rəhmət olmağı bişək,
Vücudi-əşrəfi dünyayə şəmi pürziyadır bu!

Sən ol valacənabın zikrini qıl hər dəm, ey Fateh-
Ki, dərd əhlinə zikri daima eyni-şəfadır bu!

***

Gətir qəm dəfinə kim, badeyi-gülrəng, ey saqi,
Könül ol gülrüxün lə'li-ləbinin oldu müştaqı.

Düşüb səhralərə nəxcir çeşmin mübtəlasilə,
Geyik tək dərbədər kim, həm olub vəhşilər ortaqi.

Gözüm mərdümləri seyli-şirişkin payimalıdır,
Vətən bir kimsə qılmaz, hər məkan olsa su oynaqi.

Əcəbdir mey içib şəhdi-ləbindən zəhr peydərpəy
Siyəhtalelərin dönmək rəvadır zəhrə tiryaqi.

Məni-divanə bənd oldum səri-zülfün həvasində,
Cünun əhli olur, əlbəttə kim, zəncir dustaqi.

Təbibə eylədim izhar dərdim, söylədi bilmən,
Əlacı yoxdur ol zəxmin, dəyibdir qəmzə qeynaqi.

Könül dağın nihan ağyardən qıl, əbsəm, ey Fateh
Ki, görməzsən, nihan qılmış qərasın lalə yarpaqi?

HACI MAHMUD ƏFƏNDİ NAFE

1811-1876

Hacı Mahmud Əfəndi Hacı Əli oğlu 1811-ci ildə
Şəki şəhərində Dodu məhəlləsində ruhani ailəsində anadan olmuş,
mükəmməl dini təhsil almışdır.
Nəsilliklə ruhani olan Hacı Mahmud Əfəndi
məhəllə məllası işləmiş, "Nafe" təxəllüsü ilə şeirlər yazmış,
öz səyi ilə mükəmməl savada yiyələnmiş,
rəvan təbi olmuş, daha çox dini-ruhani mövzuda şeirlər:
nət, minacat, qəsidə və mədhiənbiyələr yazmışdır.
XIX əsr Şəki ədəbi mühitinin ünlü şairlərindən biri kimi tanınmış,
lakin əsərləri bir küll halında gəlib günümüzə çatmamışdır.
Hacı Mahmud Əfəndi Nafe 1876-cı ildə 65 yaşında
Şəkidə vəfat etmişdir.

Nəti Rəsulüllah

Göründü gözümə bir dəm ziyayi-rövzəyi-xəzra,
Ətirati-dilavizi datmağımda şəmiməfza.
Təkapu eylədi çeşmi-rəməd kim, kəhl qəsdinə,
Qubari-müşkbarından təsəlla qıldı istirxa.
Nəzər qıldım, o surətdə şühudül-qəlb əl verdi,
Tənəüm ləzzətin bulduq, bihəmdillah, ey mövla.
Ziya bir növüruc etmiş səmavatın dərunundan,
Məqami rövzədən ta zilli-ərşə etmiş istəla.
Məlayiklər müniratı görüb ikram edən vaxtda
Xitabi-müstətab endi: "Fesübhanəl-Iəzi üsra".
Tərənnüm etməyə mürği-dilim çox cüstücu etdi,
Təhəyyür damənim tutdu ki, nitqim olmadı güya.
Saqın, ey müflis, aldanma, təhidəstəm - deyib uyma
Cəvahir mədənin bulduq faamənna və əsləmna.
Hüzuri-mənəvidə ruyi-sərgərdanlığım oldu,
Nə surət yerdə qaldı, bilmədim nə siyrəti-əsla.
Civari-rövzənin sirri-qəribindən nişan bilməz,
Bilir ol kimsə kim, fəhm eylədi "vəlləyl iza yəğşa".
Hədisin məzhəri "lov kanə min bədi ələt-təğriz",
Sərayi-qüdsiyan ruhaniyan sirrin edər hala.
Ədəbsiz olma, əl çək, Nafe övsafında dəm vurma,
Nəçün nəti-şərifi surəyi -"Yasin"ü həm 'Təha".

Vücudi-vacibi-zatın müqəddəm həm müəxxərdir,
Şəhadət kəlməsi daim dilimdə şəhdü şəkkərdir.
Ona həmd eyləmək məqsudi-bizzat ol səbəbdəndir-
Ki, münim həqqinə həmd eyləmək ancaq müqərrərdir.
Sifati-əkməli zati-vücudun kainat içrə
Sifati-nəqsdən ari nümayanü müqəddərdir.
Səlat ilə səlam ol seyyidi-sadat üçün əlzəm,
Cəmali-bədrinə layiq bu sirr onda müsəvvərdir.
Şəfiül-müznibindir həm müşəffi cümlədən əvvəl,
Güruhi-ənbiya, həm övliyalər üzrə sərvərdir.
Dinində müstəqimə əhli-beytü alü əshabə,
Xüsusən onlara kim, bizlər üçün rahbərlərdir.
Xilafət sədrinə yetmiş, səadət təxtini bulmuş,
Şəriət gülşəninin bülbülü, siddiqi-əkbərdir.
Əqibincə xəta etmə, kim olsa hökmünə münqad,
Sütuni-ədl ilə məvsuf olan Faruqi-əşhərdir.

Həyavü hilm ilə məruf olan damadi-Zünnureyn,
Şəhadəf rütbəsində camöül-Quran əzbərdir.
Nəsəbdə şəmsvəş zahir, ülumi-şərdə mahir,
Xilafət xətminə nasir olan Kərrar Heydərdir.
Hüseyn ilə Həsən bədri-ziyayi-didəyi-Zəhra,
Təzəkkür Həmzəvü Abbas məhafillərdə zivərdir.
Fəxarət etsin ol kim, tabeinə iqtida etdi –
Ki, ol mərhumlər dinü dəyanətdə müzəffərdir.
İmami-Hadiyi-Ne'mani-sabiq maliki-lahiq,
Məhəmməd Şafe'iyyü Hənbəli Əhməd səzavərdir.
Mühəqqər Nafeinin cürmünə "layöhsa" demək layiq,
Vəli əltafi-rəhmanda bu, timsali-müsəqqərdir.

MOLLA QASIM ZAKİR

....

XVIII əsrin sonlarında Şəki şəhərində Yuxarıbaş məhəlləsində anadan olmuşdur. Doğum və ölüm tarixi dəqiq məlum deyil. O dövrün ədəbi mühitində "Nuxa şairlərinin ustadı" (F.Köçərli) hesab olunmuş. Təlim-tərbiyəsini atası Molla Muraddan almış, ərəb və fars dilində mükəmməl biliyə yiyələnmiş, məktəbdarlıq etməklə və ipəkçurdu bəsləməklə ailəsini dolandırmışdır. Geniş mütaliə sahibi olmuş, şeirə, sənətə xüsusi rəğbət bəsləmişdir. Kasıb, çox vaxt ehtiyac içində həyat keçirdiyindən həməsiri olan , səxavətli şair və alim Kərim ağa Fətehə "Qalsınmı" rədifli müxəmməslə müraciət etmiş, ondan dəstək, maddi və mənəvi yardım istəmişdir. Molla Qasım Zakir həm klassik, həm də aşıq şeiri şəklində şeirlər yazmışdır.

Onun müxəmməs, müsəddəs, müsəmmən, qəzəl və s. kimi qələmə aldığı şeirlərdə aşiqanə ruh hakim olduğu kimi, qoşmalarında da lirik-aşiqanə ruh üstünlük təşkil edir.

O, Azərbaycanda tanınmış, Şirvan və Qarabağ şairlərinin rəğbətini qazanmış, onların şeir məclislərində iştirak etmiş, kötükçəsi şair Akif Salamoğlunun əldə etdiyi məlumata görə də 45 yaşında içən Qarabağda keçirilən şeir məclislərinin birində zəhərlənərək öldürülmüş, əsərləri itib batmışdır.

Əsərlərinin bir qismi isə Hüseyn Əfəndi Qaibovun "Məcmuə"sində toplanmışdır.

F.Köçərli: "Şirvan mahalında Molla Zakiri şairə bir qız məğlub edibdir və şair bundan ziyadə mütəssir olaraq zəhərlənib, orada dəfn olunubdur,-"desə də, bu rəvayətin doğruluğuna inanmır və bildirir ki", belə bir şairə qız olsaydı, yəqin ki, adı dillər əzbəri olar, şöhrəti dillərdə gəzər və şeirlərindən bir əsər qalardı".

* * *

Könül əhli-cahan içrə olub bir şux dustağı.
O şuxun şux rəftarı çəkibdir sinəmə dağı.

Edibdir gözlərim yaşı binayi-ömrümü viran,
Mənim viran olan könlüm olubdur bayqu yığnağı.

ləbi-ləli-şəkərbarı lətafətdə, təkəllümdə,
Sanasan bağ ara titrər səbadən lalə yaprağı.

Nə hacət badəvü sağər, dağıtdın huşumu sərdən,
Məni məstü xərab etmiş o şuxun əyri baxmağı.

* * *

Mey nəşəsi gətirdi məni xüm ayağına.
Mən oldu rəhnüma yenə kövsər qırağına.

Bir büt xəyalü mehrimüzi aldı aqibət.
Sən'an kimi buraxdı biri tərsa dağına.

Ləli-ləbin güzarına düşmüş həcər yolu,
Ya hindlər düzülmüş o Zəmzəm qırağına?

Şol türrələr ki, tərfi-bənaguşu bəkləyib,
Ömrüm quşudu yoxsa qonub gül budağına?

Eşqin əlacı olmaz. əgər gəlsə yüz təbib,
Ta həsrət ilə dəyməyə ləb yar dodağına.

* * *

Göz qaldı yolunda, namdarım
Səbr etməyə olmadı qərarım.

Qurbanın olum, təğafül etmə,
Sənsiz mənim olmaz ixtiyarım.

Ey gənci-məlahətin ziyasi,
Sərmayeyi-dürri-şahvarım,

Gün kimi cəmalının yanında
Bir zərrəcə yoxdur etibarım.

Cəllad baxışlı, ahu gözlü,
Ey kakili-zülfi-şəkkbarım,

Yoxdur mənə sənsiz, ey yeganə,
Hicran günü yari-qəmküsarım.

Mən Zakiri-bəndeyi-qulaməm,
Son Xosrovi-eşq, tacidarım!

Qalsınmı

Ağa, bu gülşəni-aləmdə bəndə xar qalsınmı?
Deyim dərgahına bir ərzi-haiım var, qalsınmı?
Yazıb hali-dili şərh eyləyim, təkrar qalsınmı?
Özün insaf elə, könlümdə atəş bar qalsınmı?
Sənin tək mərd ağası olan naçar qalsınmı?

Sənin qurbanın ollam kim, neçün müşkülgüşasən sən!
Məqiqət dərdməndə görməyən möhnət rəva sənsən!
Şikəstəbəstələr xatirlərinə mumiyasən sən!
Tamamən əhli-dərdin dərdinə fikri-dəvasən sən!
Rəvadır bəstəri-zillətdə dil bimar qalsınmı?

Dedin məddahi nakəs olma, əşarə qələm çəkmə!
Cəfa vermə dili-əfkarına, cövrü sitəm çəkmə!
Bu dövrani-fənadən zərrəcə ahü ələm çəkmə!
Buyurmuşdun səni bəsirdaşt qıllam, hiç qəm çəkmə!
Çəkir həsrət könül, bəs didə giryan, zar qalsınmı?

Sonə canım fəda olsun ki, sən ərbab-şövkətsən,
Hüzuri-vacibül-ərzim, neçün miri-vilayətsən,
Kərəm kanı, ədalət mədəni, bəhri-səxavətsən,
Çirağı-mə'rifət, həm pərtövi-xurşidi-himmətsən,
Könül ayinəsi, ey salüba, bəs tar qalsınmı?

Keçər hər kimsənin rə'yincə, bir növ'i mədarı var,
Bu gülzari-fənadə könlümün çox ahü zarı var,
Rəvadırmı səhin tək dadrəs kim, tacdarı var,
Təmamən əhli şəhrin hər birinin kəsbü karı var,
Gəzib sərgəştə Zakir hər tərəf, bikar qalsınımı?

Yetişdi

Bir namə yazmışdın, gözəllər şahi,
Gəldi, məni-mübtəlayə yetişdi.
Guşeyi-külahım fəxri-namədən
Gedib çərxi-müəllayə yetişdi.

Şəhbazi-aləmsən, istərəm səni,
Allahı sevirsən, unutma məni;
Guya ki, Yıısifin gül pirahəni
Ol Ye'qubi-binəvayə yetişdi.

Kim əl çəkər sən tək nazikbədəndən,
Şəhbazi-bibədəl, gülpirəhəndən;
Ol zaman ki, xəbər bilmədim səndən,
Ahü naləm Məsihayə yetişdi.

Mən dönmənəm, ölsəm əhdü beyətdən,
Düşməsin məzacın istiqamətdən;
Gəldi namə sən tək mahtələtdən,
Başımıza şö'ləsayə yetişdi.

Sən Molla Zakirin qibləgahısan,
Məlahət şəhrinin padişahısan,
Aşiqi-sadiqin nəzərgahısan,
Səadətin Sürəyyayə yetişdi.

Məndən

Başına döndüyüm, a nazlı dilbər,
Gəlirmi guşina sədalar məndən?
Belə bəd zəmanə, hiyleyi-əğyar,
Qorxuram səni də yad eylər məndən.

Səndən qeyri aşiqin bir mədarı yox,
Can çıxıb cəsəddən ixtiyarı yox,
Qərq oldum dəryayə heç kənarı yox,
Xof eylər görəndə adalar məndən.

Mən Zakirəm, tərsa sevdim zalimi,
Fələk əgib mənim qəddü qalimi(?),
Bəs mən kimə qılım ərzi-halimi,
Küsübdür, o mələkzadalar məndən.



MOLLA YUSİF RACİ

....

Molla Yusif Raci Şəki rayonunun Şabalıd (Şahpalıd) kəndində anadan olub. Şəkili Raci təxəllüsü ilə yazıb-yaratmışdır.
Doğum və ölüm tarixi məlum deyil.
Mənbələrdə göstərilir ki, Məhəmmədhüseyn xan Müştaqın təşkil etdiyi şeir məclislərində iştirak edib.
Molla Vəli Vidadinin, Ağcayazılı Hacı Məhəmməd Çələbi əfəndi Zakirin, Şəkili Nəbinin müasiri və dostu olub.
Burdan da aydın olur ki, Molla Yusif Raci XVIII əsrdə yaşamışdır.
Cəsarətli və haqq tərəfdarı olduğu üçün el içində böyük hörmət və nüfuzu varmış.
Şair kimi də Şəkidə məşhur olmuşdur.
Onun poeziyası klassik şeirin müxtəlif janrlarında, həmçinin heca vzninin müxtəlif şəkillərində yazılmış şeirlərdən ibarətdir.
Əsərlərinin toplanıb kitab halında çap olunması ciddi axtarışlar tələb edir.

Gəlmədi

Gecə, gündüz intizarın çəkərəm,
Aman allah, yar əyləndi, gəlmədi!
Həsrətindən əlif qəddim bükərəm,
Aman allah, yar əyləndi, gəlmədi!

Gəlləm dedi, vədə eylədi, getdi,
Sözü xilaf oldu, vədə də ötdü,
Səbəb nə oldu bizi munca unutdu.
Aman allah,yar əyləndi, gəlmədi.

Badi-səba dost kuyundan gələndə,
Vergilən bir xəbər mən dərdməndə.
Bizim ilə iqrar etdi gedəndə.
Aman allah, yar əyləndi, gəlmədi!

Gələn varmı, görüm, yarı gördümü?
Varıb ərz eyləyim ona dərdimi,
Bilmən anda qeyrə könül verdimi?
Aman allah, yar əyləndi, gəlmədi.

Aşkar oldu mənim dərdi-pünhanım,
Evc etdi fələkə ahü əfqanım.
Raciyam hicrində üzüldü canım,
Aman allah, yar əyləndi, gəlmədi!

Sevdigim

İllər aylar həsrətini çəkməkdən,
Döndü əlif qəddim yayə,sevdigim.
Munca hicr, bəlavü cövrü cəfadən,
Heyf, ömrüm getdi zayə, sevdigim.

Aşikarə değil,dərdim pünhandır.
Firqətindən əşki-çeşmim rəvandır.
Malü mülkü canım cümlə qurbandır.
Sənin kimi məhliqayə, sevdigim.

Lütf edib aşiqə vəfa qıl,vəfa,
Ey ğəmsi yağı, gözləri şəhla,
Səni məndən hər kim eyləsə cüda,
Görüm düşsün yüz bəlaya, sevdigim.

Ağlamağdan çeşmim qalıb ziyadan.
Meyl et bana,kəs ülfətin sivadan?
Allam səni,nəsib olsa xudadan,
Qail olsam bu mənayə, sevdigim.

Valehəm hüsnünə,ey şux Leyla,
Səni sevdim,oldum aləmə rüsva.
Raciyəm,yolunda çəkmişəm cəfa,
Bari, qıyma bu cəfaya, sevdigim.

Olsun

Məni yardan ayrı salan,
Görüm üzün siyah olsun.
Dərdə düşüb mənim kibi
İşin hər gündə ah olsun.

Əlif qəddin dönə yayə.
Hər işlərin gedə zayə.
Cahandan tapma sərmayə,
Ömrün, günün kutah olsun.

Diri ömründə kam alma,
Xəlayıq içrə nam alma.
Hərgiz məqsəd, məram alma,
Yaxşı halın təbah olsun.

Zəlil ol sən ki,mən xaram,
Kimim var, kimə yalvaram?
Sənə hər gündə qarğaram,
İstər mənə gunah olsun.

Döndərdin yaşımı çayə,
Düşəsən sən də ah-vayə.

Qisas, əlbəttə, fərdayə,
Qalmaz belə, agah olsun.

Beytühləzən məskənimdir,
Kim bu işdə düşmənimdir,
Viranələr mədənimdir,
Ona düşman Allah olsun.

Raci bu gün yardan oldu,
Keçdi namus, ardan oldu,
Malü-mülkü-vardan oldu,
Maneləri gümrah olsun.

Qəhvə

Qoymadı ayinəyi – dildə qübarı qəhvə.
Nə əcəb olsa əgər məst xumarı qəhvə.

Mübtəlası olalı candan unutdurdu mənə.
Dilbəri-simbərü lalə üzarı qəhvə.

Hallətəfzaji-səfa olmaq üçün üşşaqə
Bir kəsin ki, ola dəstində əqari qəhvə.

Bizə əmdirməz ikən ləli-həlavət bəxşin,
Gör nə biminnət edir busü kənarı qəhvə:

Nəşəyi-cami-cəmi necə təmənna eylər,
Bir kəsin ki ola dəstində əqari qəhvə.

"Raciya", sən gülü mül bəzminə meyl eyləmə kim,
Aşiqin ancaq olur bağü bəharı qəhvə.

MİRZƏ HƏSƏN "MİRZƏ"

.... 1833

Mirzə Həsən Mirzə Cəfər oğlu əslən Qarabağlıdır.
Doğum tarixi məlum deyil.
O, gənc yaşlarından Şəkiyə gəlmiş, burada yenicə açılmış
rus dəftərxanasında münşilik etməklə bədii yaradıcılıqla da
məşğul olmuşdur. "Mirzə" Mirzə Həsənin şair təxəllüsüdür.
F.Köçərli də Mirzə Həsən Mirzəni öz "Ədəbiyyat"ında
Şəkidə yaşayıb-yaradan şairlər sırasında verməklə onun
"Ziyadə mərifətli, xoşxülq və sahibcamal bir zat imiş və
təbi-şeriyyəsi"nin olduğunu göstərmişdir.
Əsərlərindən Aşıq Pəri və Aşıq Camaloğlu ilə yazışdığı məlum olur.
Mirzə Həsən Mirzə 1833-cü ildə Şəki şəhərində vəfat etmiş,
öz vəsiyyətinə görə cənazəsi Qarabağa gətirilmiş,
F.Köçərlinin yazdığına görə "Şuşa şəhərinin şimali-şərqisində
bir verst kənarda" dəfn olunmuşdur.
Mirzə Həsən Mirzənin basdırıldığı yer onun adı ilə
"Mirzə Həsən qəbirstanlığı" adlandırılmışdır.

Sənin

Bu qəm bəstərində, möhnət içində,
Daim fikrimdədir xəyalın sənin.
Dərmansız dərdimə bulunmaz çarə,
Müyəssər olmasa vüsalın sənin.

Könül adət ahü zarə eyləyir,
Eşq sirri aşikarə eyləyir,
Qoyma, ruzigarım qarə eyləyir -
O zülfün, o xəttin, o xalın sənin.

Qönçə lətafətli, lalə üzlüsən,
Məstanə baxışlı, xumar gözlüsən,
Şirin hərəkətli, şəkər sözlüsən,
Yoxdur yer üzündə misalın sənin.

İltifat eyləyib alıb canımı.
Odlara salıbsan din-imanımı,
Yəqin tirə edir şöbistanımı,
Münəvvər etməsə camalın sənin.

Sən Mirzənin qədrini bil, naz elə,
Səki-rəqiblərdən ehtiraz elə,
Nəcəf bəyə iltifatı az elə,
Həlak elər məni bu halın sənin.

Oynaşır

Lalə yanağında badi-səbadən
Ucu tər cıqqalı tellər oynaşır.
Süzgün baxışında xumar gözlərin
Hiylələr, fitnələr, fe'llər oynaşır.

Cəm olubdur hüsnün, bu vəcahətin,
Yetməsin zəvalə çeşmi-afətin,
Yayınsa bir zaman sərvi-qamətin,
Gözüm içrə qanlı sellər oynaşır.

Boyun yaraşıqda qiyamət eylər,
İşvəni, qəmzəni bu babət eylər,
Ağ məmə köynəyə zərafət eylər,
Kəmər ilə nazik bellər oynaşır.

Mum tək incəlmişəm incə belindən,
Sövdayə düşmüşəm siyah telindən,
Titrədikcə zülfün səhər yelindən,
Sanasan gülşəndə güllər oynaşır.

Etdikcə vəsfini Mirzə mükərrər,
Tazələnib ruhum olur müəttər,
Gülüstanda zülfün kimi müənbər
Nə susənlər, nə sünbüllər oynaşır.

Xudahafiz

Əla ey şuxi-şirinkari-bimürvət, xudahafız,
Qəmi-eşqində bəsdir çəkdiyim zillət, xudahafiz!

Nigara, dövri-ruyində rəqibim şadkam oldu,
Mənəm ancaq olan avareyi-qürbət, xudahafız!

Könüllər izdihamı, şanə cövrü qoymadı könlüm –
Edə zülfündə bir asayişi-rahət, xudahafız!

Dərində şad bulsan pasibanın xatiri yetməz
Bu gündən böylə naləmdən ona zəhmət, xudahafız!

Həsən, bu mahrulərdən vəfavü mehr az istə
Ki, cövr etmək olur məhvəşlərə adət, xudahafız!

ƏHMƏD ƏFƏNDİ ZÖVQİ

.... 1867

Qazı Molla Əhməd Əfəndi XIX əsrdə Şəkinin
Baş Göynük kəndində anadan olmuş,
orada da yaşayıb-yaratmış, xalq içərisində qazandığı hörmət və
nüfuz onun qazı seçilməsinə gətirib çıxartmışdı.
Əhməd Əfəndi bilikli, ədalətli, xeyirxah bir insan olmaqla yanaşı
incə ruhlu şair kimi də tanınmışdır.
Şəxsiyyəti və yaradıcılığı haqqında ilk məlumatı böyük
ədəbiyyatşünas Səlman Mümtaz vermişdir:
"Əhməd Əfəndi XIII əsrin (hicri) sonuncu yarısında yaşamış
nəzahətpərvər şairlərimizdən biridir.
Mərhumun adı Əhməd, təxəllüsü Zövqi, ləqəbi dəxi "Şikəst" idi.
Şərq əhlinə məxsus və öz vaxtının bütün əməlləri ilə
silahlanmış Əhməd Əfəndi qayət dərəcədə dindar, əhli-təqva və
Azərbaycanda misli nadir olan füzələrdən idi.
"Pürpələng" İbrahim bəy, Hacı Abbasqulu ağa Qüdsi mərhumlarla
müasir və Kərim Ağa Fatch ilə həməsr, hətta səmimi bir dost idi".
Əhməd Əfəndi Zövqinin həyatı qəmli və qüssəli keçmiş,
ancaq öz biliyi, ziyalı mədəniyyəti və özünəməxsus
şairlik qabiliyyətli ilə Azərbaycan ziyalıları arasında da xüsusi
hörmət qazanmışdır.Qazı Molla Əhməd Əfəndi Zövqi
1867-ci ildə vəfat etmişdir.

Könlüm Səni İstər

Yüz zümrei-ərbab gər məkan ola mövcud, könlüm səni istər.
Yüz bəzminə zişərəfi-şan ola mövcud, könlüm səni istər.
Yüz hüsnü mələk tək özü insan ola mövcud könlüm səni istər.
Yüz lə'li-cəvahirdir qəltan ola mövcud könlüm səni istər.
Yüz məqsədi-könlüm mənə asan ola mövcud könlüm səni istər.

Yüz rahət, yüz izzət, yüz işrəti-əşhər kər olsa müqəddər,
Yüz bəzmi-mülazimləri yüz huri-səmənbər, ləli-ləbi şəkkər,
Yüz məclisi-məfruş ola ta sübh sərasər pürzinətü zivər,
Yüz məhfil ola zinəti-dibai-mücövhər, yüz saqiyi-kövsər,
Yüz rahəti-canım mənə hər yan ola mövcud, könlüm səni istər.

Yüz həmrahi-gülçöhrei-gülgunei-kafam olsa mənə həmdəm,
Yüz şahidi-şirinləb, yüz sərvi-dilaram, yüz ruhi-mücəssəm,
Yüz tutiyi-şəkkəri-şikən ləbləri badam hər vəqtdə görsəm,
Yüz dokteri-zərəfşan, yüz dilbəri-xoşnam qılsa məni xürrəm,
Yüz dərdimə, yüz tövrdə dərman ola mövcud, könlüm səni istər.

Yüz bülbül ola, yüz gülü yüz gülşənü gülzar, yüz lə'li-şəkkərbar,
Yüz susən, yüz yasəməni-sünübli-əttar yüz nuri-pürənvar,
Yüz simi-zəqən, qönçədəhən, ayinei-rüxsar, xoş şivei-ətvar,
Yüz dilbəri-tənnaz ola üşşaqə xiridar, yüz yari-vəfadar,
Yüz mehri-münəvvər məhtaban ola mövcud, könlüm səni istər.

Yüz cənnət ola cövfi dolu huriyi-qılman, lə'li-ləbi xəndan,
Yüz məhliqa qaşı ilə gözləri məstan, inculeri qəltan,
Yüz məhvəş ola gül üzünə zülfi-pərişan, həm telləri əfşan,
Yüz dilbər ola mah kimi, Zövqi sənə qurban Yüz Yusifi-Kənan,
Yüz gülşən, yüz sərvi-xurman ola mövcud, könlüm səni istər

MOLLA TURAB BÜRCÜ

....

XIX əsrdə yaşayıb yaradan Şəki şairlərindən biridir. Təvəllüdü və ölüm tarixi məlum deyil. Şeirlərindəki rəvan dil, geniş məlumatlılıq onun hərtərəfli biliyə sahib olmasından xəbər verir. Şeirləri küll halında günümüzə qədər gəlib çatmasa da, haqqında ilk dəfə Ə.Mümtaz söz açmış, şeirini də "El şairləri" kitabına daxil etmişdir. Molla Turab Bürcünün "El şairləri"nə daxil edilmiş müxəmməsi Tiflisin vəsfinə həsr olunmuş bir örnəkdir.

Qırmızı

Al, yaşıl, abı, sarı, bənəvşə, qara, qırmızı,
Alasan, geydirəsən, həmişə yara qırmızı.
Çəpkəni[1] ətlas ola, dizligi xara qırmızı,
Surəti şölə salıb, dönər bəhara qırmızı,
Yandırma nahaq bizi yanarsan narə qırmızı,

Hər kimin varı ola, ev tikdirər xanəsi ağ,
Dolanar çırağanın başına - pərvanəsi ağ,
Bir uşaq ki, ağ ola olur onun anəsi ağ,

[1] *çəpkən – qabağı düyməli kofda*

Kim görübdür ki, yarın surəti gül, çanəsi[2] ağ,
Ləblərindən əməsən, dönər şəkarə[3] qırmızı

Tarı yaxşı yaradıb göy ilə asimanı abı,
Dibi yox, kənarı yox, dolanar dörd yanı abı,
Başa-baş geydirərsən gözəl Tükəzbanı abı,
Örpəgi zəralafa, çarqatı, tumanı abı,
Tutulub dörd tərəfi ləlü gühara qırmızı.

Dərdimə eylə dəva, ey üzü ağ, xalı qara,
Qoyma dünyada qalım bəxti qara, halı qara,
Çox keçir aşiqinin ayı qara, şalı qara,
Bürcinin belə olub neyliyim iqbalı qara,
Yalvarım tarı qıla tezlicə çara qırmızı.

Tiflisin tərifi

Məcmu hər vilayətdən ağırdı dağı Tiflisin,
Bahar çağı cənnətə oxşayır bağı Tiflisin.
Bir yekə tamaşadır əlvan otağı Tiflisin,
Ölüsü mələk kimi, maraldı sağı Tiflisin,
Dil ilə təriflənməz arvad, uşağı Tiflisin.

Tiflisin bərabəri Çeçen, Dağıstan da degil,
Bakı, Dərbəndü Quba, Qızlar, Haştərxan da degil,
İrəvanü Qarabağ, Gəncə, Naxçıvan da degil,
Xoyü-Səlmas Mərağa, Təbrizü-Tehran da degil,
Şam, Hələb, Misir, Tuqat, İsfahanda degil
Yığasan İran, Turan olmaz dırnağı Tiflisin.

Şəhri-Tiflis içində yetmiş iki millət gəzar (gəzər),
Kimisi yaşıl geyər, kimisi geyər laləzar,
General, polkovniki gər sayasan olur həzar.
Min dəftərxanəsi var, divan üçün yazı yazar.
Gecə ta yarıyadək açıq olur dükan, bazar,
Çox hesabsız satılır çaxrı, ərağı Tiflisin.

[2] *çanə - çənə*
[3] *şəkar – şəkər, qənd*

Tiflis gözəllərinin surəti bənzər laləyə,
Hər kəs görsə olar, o saət düşər bəlayə,
Minərlər duruşqanı, gedərlər Ortaçalayə,
Eyləyərlər keyfüzövq səsləri çıxar naləyə.
Hər kəs ki, vinavat olur, salırlar Narın qaləyə,
Deyirəm ki, beş yüzdən çoxdur dustağı Tiflisin.

Ağalar qulaq asın, vəsfi-Gürcüstanı deyim,
Cəmi-Tiflisdə olan millətlərin sanı deyim,
Baş açıq gürcü, urus, firəng, müsəlmanı deyim.
Ləzgi, qəbərdin, ərməni, ingilis, moltanı deyim.
Gündə çıquyan (?) gülü məfatü-kərvanı deyim.
Gün batandan gün doğan bilur sorağı Tiflisin.

Tiflisi görən kimi yekdi dərdim oldu çahar.
Kür daşıb arasından açılıbdır tazə bahar.
Tavadlar geyinirlər hər biri, bir özgə təhər,
Atəşsiz həmamı var, kim görübdür belə şəhər,
Miskin Bürci gəşt edər Tiflisi axşamü səhər
Çünki qalıq (?) olmuş taza qonağı Tiflisin.

Vay günü

Gör necə dönübdür dövrü zəmanə,
Vay günüdür müsəlmana, vay günü.
Möhtac olduq axirətə imanə,
Vay günüdür müsəlmana, vay günü.

Əqilsizlərdir bi işləri eyliyən,
Əldən gəlməyəni dildə söyləyən,
Ata çatmayıb fili bəyliyən,
Vay günüdür müsəlmana, vay günü.

Yığdı ləşkəri-binizam, xan oldu,
Hər kəs durub öz başına xan oldu,
Pişəsi dilənmək, xan haçan oldu,
Vay günüdür müsəlmana, vay günü.

Durdu Qazı Əhməd bir ad eylədi,
Yıxdı ölkələri, bərbad eylədi,
Qaçdı öz başını azad eylədi,
Vay günüdür müsəlmana, vay günü.

Pozqun düşdü qoşununa, sanına,
Baxmadılar nə sultana, nə xana.
Dağıldı, dağarları hərə bir yana,
Vay günüdür müsəlmana, vay günü.

Qəzavata hücum etdi yüzümiz,
Ax, vay oldu axırımız, günümiz.
Heyif zayə getdi gözəl dinimiz,
Vay günüdür müsəlmana, vay günü.

MOLLA İSRAFİL BİDAZİ

....

Molla İsrafil (Bidazi) İsrafilov XVIII əsrin ortalarında Şəkinin Bideyiz kəndində anadan olmuş, ölum və ölüm tarixi məlum deyil. Ərəb, fars, türk dillərini mükəmməl öyrənmişdir. Doğulduğu Bideyiz kəndinin adını özünə "Bidazi" kimi təxəllüs götürmüşdür.

Həm də Bidazi hərtərəfli hazırlığa və biliyə malik ədəbiyyatşünas alim kimi tanınmış, şərq poeziyasının üslüb xüsusiyyətlərinə dair əsər yazmış, ərəb, fars və türk şairlərinin şeirlərini tədqiq etmişdir. Öz əsərləri də ailə üzvlərinin səhlənkarlığı üzündən itib-batmışdır.



HACI RƏSUL RƏSUL

1802-1882

Hacı Rəsul Zərgər Kərim oğlu 1802-ci ildə Şəki şəhərinin Yuxarıbaş məhəlləsində anadan olmuş, həməsrləri və həmyerliləri Kərim ağa Fatch, Nicati və Hacı Mahmud Əfəndi Nafe kimi dini məzmunlu əsərlər yazmış, müəllimlik etmiş, gah ticarətlə məşğul olmuş, gah da çörəkçiliklə ailəsini dolandırmış çox zirək və tədbirli bir adam idi. Həm adı Rəsul olmuş, həm də "Rəsul" təxəllüsünü götürmüş, dini mədhiyələr, müfəssəl mövlüdnamələr, münacat, qəsidə və s. dini şeirlər yazmış, Kərbala faciəsinə ayrıca münacat həsr etmişdir. Çox mömin və dindar bir şəxs olduğundan əsərlərinin çoxunda dinə, imana dair məsələlərdən geniş bəhs etmişdir. Hacı Rəsul Rəsul 1882-ci ildə 80 yaşında Şəki şəhərində vəfat etmişdir.

* * *

Yetişdim rövzəyə, gördüm binayi-Mustəfadır bu,
Məqami-sərvəri-din, şafeyi-yövmül-bəqadır bu.

Girib babi-səlamətdən hüzurəəssəlam etdik,
Görərkən rövzəsin bildik ki, məhbubi-xudadır bu.

Münəvvər canibi-riclində ənvər türbeyi-siddiq,
Huvəs-siddiq ki, ol məzhəri-din müqtədadır bu.

Onun payi-şərifi üzrə vazeh türbeyi-Faruq,
Səadət gəncinin fəxrivü nuri-bilhüdadır bu.

Məratib türbəyi-salis vüqui rövzətül vahid,
Dərun beyti-şərifasa, vəli qeyri nümadır bu.

Qəfayi-rövzədə binti-Məhəmməd məfxəri-mövcud,
Məqami-Fatimə ümmi-şəhidi-Kərbəladır bu.

Cəlali-rövzənin mədhi misali-cənnətül-firdovs,
Rizası baisül-cənnət Rəsuli-kibriyadır bu.

Səfayi-nurə müstəqraq olan anlar bu asarı,
Nə bilsin mən kimi qafil necə darüs-səfadır bu.

Mühəssil dari-məvadır. Məqami-Əhmədi-Məhmud,
İcabət əhlinə tuba, rəhi cənnətsəradır bu.

* * *

Lətafəti-xüləfa ləzzəti çahar yarə
Xülusi-eşq ilə hər kəs edərsə nəzzarə,
Olurdu cövfünə varid hədisi-hikməti-nur,
Çatar bəqayi-səfadə məqami-əbrarə.
Cahanda gör nə cəfalər çəkibdi hər birisi
Nə intiqam ilə xəsmə edibdilər çarə.

Üsuli-dində pəyapəy ümurə qoydu qədəm,
Müvafiqət edib əmri-cənabi-qəffarə.
Bax onların səbəbi-ictihadi-qeyrətinə,
Qıl inqiyad əsərincə yol açma əğyarə.
Əqayidi-xülafə həm rəsuli-əmri-xuda
Bəratı-bağı cınandır, baxın bu əşarə.
Müvəhhidi mütəvəccib edər bu əxbarat,
Rizayi-həqq ilə bir bax bu çərxi-dəvvarə.
Hərarəti-mütəəttəşü mai birrü səfa,
Nə iltizaz verir gör qülubi-ənvarə.
Nə feli var isə əbdin qəza günü açılır
Hüzuri-dərgəhi-şahi-qədimü qəhharə.
O gündə, rəbbi, Rəsulun ricasın eylə qəbul,
Behörməti-nəbəvi rirəti-kərəmkarə.
Edək həbibi-xudanın cəmalına sələvat,
Şəfiyi-şahid mütləqdi biz günəhkarə.

MUSTAFA AĞA ŞUXİ

.... 1895

Mustafa ağa Şuxi Şəkixanov Şəki şəhərində anadan olub.
Doğum tarixi məlum deyil.
Məşhur Şəki xanı Məhəmmədhüseyn xan Müştaqın nəvəsi,
şair-tarixçi Kərim ağa Fətehin sülbi oğludur.
"Şuxi" Mustafa ağanın şair təxəllüsüdür.
Hər üç şəxsi qan qohumluğundan başqa baba-Hüseyn xan Müştaqı,
nəvə-Kərim ağa Fətehi, oğul-Mustafa ağa Şuxini xeyirxahlıq,
səxavət, mükəmməl təhsil, şeirə, sənətə, tarixə maraq və hörmət,
şeir məclisləri təşkil etmək , yoxsullara əl tutmaq,
özündən sonraya yaxşı əməl sahibi kimi ad qoymaq və s.
xüsusiyyətlər birləşdirir. Mustafa ağa özünə məxsus olan əmlakın
mədaxili ilə dolanmış, yüksək mərifət və kamal sahibi, möhtərəm bir
şəxs olub dövrün alim və şairləri ilə ovqat məclisləri keçirərmiş.
Çox gözəl və rəvan təbi var imiş. İki divanı vardır ki, onlardan biri
şairin öz dəsti-xətti ilə yazılmışdır. Mustafa ağa Şuxi klassik şeirin
əksər janrlarında əsərlər yazmışdır ki, əsərləri dini-didaktik
məzmun daşıyır. Lakin Şuxinin aşiqanə lirik qəzəlləri də vardır.
Hədsiz dindar və millət təəssübü çəkən Mustafa ağa Şuxi
1895-ci ilin oktyabr ayında Şəki şəhərində vəfat etmiş.
Hüseyn xan məscidinin həyətində,
atası Kərim ağa Fətehin yanında dəfn edilmişdir.

* * *

Nə surət bilməzəm əhvali-xəlqi-dövri-hazirdir,
Olubdur bir-birinə cürmsiz nahəqq cabirdir.

Xəyanətlə dəruni sərbəsər məmlüvvdür xəlqin,
Kimi təsviri-adəmlikdə görsən, şəkli zahirdir.

Əgər kim, dərdini izhar edərsən sandığın yarə -
Ki, güya aləmə izhar üçün məmur naşirdir

Atıb öz karını cümlə biri həm digəri halın
Təcəssüs eyləməkdə daima amadə, nazirdir.

Ucalda gər fələk həmmillətindən bir kəsin başın,
Dili-əqvami büxlindən müdam aşüftə xatirdir.

Və ya dövri-qəza birlə ola əfsürdə ixvanı,
Dənaətdən görə qardaşın ol halətdə şakirdir.

Edib əhfalını məğşuş cümlə sahibi-sənət ,
Həzaran heyf ol ustadlar kim, işdə mahirdir.

Görünməz doğruluq əqvalü əmali-xəlayiqdə,
Sərapa əyrilikdir feli-mərdüm hərçi sadirdir.

Nolur bilməm bu əfal ilə axır karımız, ya rəb,
Bu tərz ilə olub yek-digərindən cümlə nafirdir.

Gəhi xəndan, gəhi giryan edir dövri-fələk daim,
Əsasi-dövri-aləm ruzü şəb çəndan ki, dairdir.

Zamanın halətin bu tərz ilə gördükdə, ey Şuxi,
Vəfa eylərmi göftarə dili ol kəs ki, şairdir.

* * *

Yetdi dövran bizə bir vaxt, xudaya, səd heyif,
Vəzi-əyyam pərakəndə , nə bərca, səd heyif!

Xabi-qaflətdə qalıbdır belə əhli-islam,
Həmə bihuş, nə bir karə mühəyya, səd heyif

Hiç bir məşğələ yox bizdə ki, hasil ola nər
Onda mövcud nə dünyavü nə üqba, səd heyif!

Qabili-tərbiyəyi-elmü maarifdə ikən
Qalmışıq vadiyi-qəflətdə sərapa, səd heyif!

Var ikən gör necə pamali-cahan olmadayız,
Növi-insanda belə qədri-müəlla, səd heyif!

Söndürüb əldə ikən böylə qalıb zülmətdə
Nuri-islam kimi məşəli-ziba, səd heyif!

Nə səbəb qalmağa bu halətə bilməm, Şuxi,
Yox imiş bir kəsimiz samövü bina, səd heyif!

***

Səni məhbub qılmışdır xudayi-əkbərü əla –
Ki, sənsən kainat içrə münəvvər gövhəri əla.

Şəhi-təxti nəbüvvətsən, həbibi-həqqi-ziqüdrət,
Səfarayi -güruhi -əhli - məhşər, sərvəri -əla.

Xoşa mümtaz qılmışdır səni kövnü məkan içrə,
Hamə məxluqi-aləmdən güzidə, bərtərü əla.

Hamana əbr açıb daim əlaimdən cinahi-xoş,
Mübarək fərqinə bir çətri-zərrin şəhpəri-əla.

Şəbi-mərac əzmində dəri-dərgahi-mövlayə,
Qədəmgahında fəth olmuş firavan kişvəri-əla.

Sənayi-cümlə əshabın, xüsusən çar yaranın
Öyünmək cümlə ümmətçün səzadır əzbəri-əla.

Əbubəkr sədaqət göstəri siddiqü yoldaşın,
Rəfaqətdə qədəm kəm qoymadı ol məhtəri-əla.

***

Hər təbəssüm ki, gər əl ləli-şəkərxəndə edər,
Özünə yüz dili-şeydanı o dəm bəndə edər.

Toxuna zülfünə nagah nəsimi-səhəri,
Ənbərəfşan qılır, əqli pərakəndə edər.

Pərtövi-bərq ilə pəjmürdəvü suzan kəs tək
Hər nigahında məni ol ruxi-təbəndə edər.

Edəsən ruyinə nəzzarə hər an dəm guya
Qeyri bir hissi-nəvicad nigarəndə edər.

Aparır huşumu məstanə dönüb baxması,
Hər zaman naz ilə ol sərv xuraməndə edər.

Firqətindən gözüm ol nəvgüli-şirindəhənin
Əşkini əbri-baharan kimi barəndə edər.

Şuxiya, vəqti-hələkımda yetən dəm ləbdən
Zində bir busə ilə büti-nazəndə edər-.

Dağlar

Salırsarı baş çəkib övci-səmayə,
Nəzəri-həqarət cahana dağlar,
Seyrin edən sultanlardan, xanlardan,
Qalmayıb birindən nişana, dağlar.

Edən gəşti-səfa çəməngahının,
Başında seyr edən nə qəzalanın.
Sənə ləşkər çəkən padişahanın,
Görürsən yurdunu virana, dağlar.

Yaylaqların firuşilə səth edən,
Əzharu-əsrarın görüb mədh edən,
Qılınc ilə qələlərin fəth edən,
Nəzər qıl xan olan xanana, dağlar.

O gözlər ki, sənə saldı nəzərlər,
Oldu torpağ ilə aquştə yeksər,
Sən elə yerində bərca müqərrər,
Baxarsan şir tək hər yana, dağlar.

Şuxiya, zamani-güzəştə halın,
Bu dağ üzrə keçən cümlə əhvalın,
Vəfasız cahanın edib xəyalın,
Qərq olur ürəgim al qanə, dağlar.

OSMAN BİÇARƏ

XIX əsr Şəki ədəbi mühitini təmsil edənlərdən biri də Şəkili Osman Biçarə olmuşdur.
Doğum və ölüm tarixi dəqiq məlum olmasa da,
Mustafa ağa Şuxinin və Molla Məhəmməd Hüzninin müasiri olmuş.
əsərləri dini didaktik məzmundadır.
Salman Mümtaz "El şairləri"ndə Şəkili Osman Biçarənin
Şeyx Şamil hərəkatına və ona rəğmən yazdığı
"Şeyx Şamil" şeirini çap etdirmişdir.

Şeyx Şamil

Şeyx Şamil ki, gün qeyrəti-İslam elədi,
Nüsrəti-bəxş buna iyzədü yəzdan elədi,
Vermə haqqı nahaqqa çün iqrari-iman elədi,
Fəthi-Xənzək (?) üstündə halını bəyan elədi.
Min beş yüz kafir qırıb cəhənnəmə idxal elədi.

Nasiri-İslam onun qılıncın kəskin eyləsin,
Kafirin də həşmin məhvü münhəzim eyləsin,
Nüsrətəngiz böyümüş, kafirə qalib eyləsin,
Qəzavəti bədr kimi kəşfi-Dağistan eyləsin,
Qadir Allahımız bizi mənsur müzəffər eyləsin,
Şiri-yəzdan hünərin guya məlum eyləsin.

Əl götürüb sidqi-dildən Şamilə dua eyləyən,
Mürşidi-kamil olur cahan fəramuş eyləyən,
Aşiqi-sadiq olur eşqi min nuş eyləyən,
Aqibəti xeyr gəlir kafir dinin puç eyləyən,
Dinin yıxıb kafirin, məğmun eyləyən,
Gəlib Şamil şanına şanını bəyan eyləsin.

Qadir Allah, yet dadına, gəldi Dərvənd üstünə,
İnşallah hifzindədir sonra Quba üstünə,
İlisuy, Qarabağda, çari durmaz qəsdinə,
Qubadan keçər gəlir Şirvan, Gəncə üstünə,
Şəkini, mahalların tamamən alur dəstinə,
Yəni təsxir edib hökmi-Süleyman eylədi.

Osman, ey Biçarə, sən laf etmə, gəl əy başını,
Eşidib ey din düşməni, yaman yürzlər çəkini (?),
Qəndəlaq ay əllərinə, zindanə qoyarlar qıçını,
Pəh-pəh bu söz ha deyil, mövlaya tapşır işini,
Qəzavati-kafir içində şəhid eylə başini,
Görən desin Şamil yoluna canını qurban eylədi.



MOLLA ORUC

Doğum və ölüm tarixi dəqiq məlum olmasa da,
XVIII-XIX əsrlərdə yaşadığı məlumdur.
Şair-aşıq Molla Cumanın babasıdır (atasının atası).
Fitri istedadı, incə zövqü, şirin yumoru ilə tanınır.
Molla Oruc el arasında böyük nüfuz qazanmış, bədahətən
şeirlər söyləməsi, bəzən fikirlərini qarşı tərəfə şeirlə çatdırması ilə
fərqlənmişdir. Aşıq şeirinin müxtəlif şəkillərində şeirlər söyləsə də,
yazıya alınmamışdır."Burşlu qızı" müxəmməsi onun yüksək sənətkarlığı
haqqında xoş təəssüratlar yaradır.
Müxəmməs Molla Cumanın nəvəsi Mövlud Əzizov tərəfindən Layısqılı
Aşıq Məmmədin dilindən yazılıb.

Burşlu qızı

Vaxtsızdı getmə, qayıt
Gedək bizə, Burşlu qızı.
Bacardığım hörməti
Qıllam sizə, Burşlu qızı.
Olmuşam mail müştaq
Xumar gözə, Burşlu qızı.

Xoş rəftar bağışlaram
Şirin sözə, Burşlu qızı.
Yaylağın maralısan,
Düşdün düzə, Burşlu qızı.

Amandı ordan gəlib,
Getmə qərib ellərə sən.
Olaydım gümüş kəmər,
Qurşayaydın bellərə sən.
Qırx yerdən saç ayırıb
Ver sığalı tellərə sən.
Yayaram tərifini,
Bil, düşərsən dillərə sən.
Gəşt edək bizim eli,
Gəzə-gəzə, Burşlu qızı.

Hüsnünə göz dəyməsin,
Qədd əla, boy mina təki.
Ətir sinə, ənbər məmə
Yumşaq göbək pilə təki.
Vəsfinə qoysaq qiymət,
Öpüş qalxar minə təki.
Qılaram həsəd sənə,
Artırsan gündən-günə təki,
Maşallah nə dolmusan,
Eşqə, naza, Burşlu qızı.

Layiqmi ordan gəlib,
Çəkib mənə dağ gedəsən.
Amandı gəl görüşək,
Sən də keyfi çağ gedəsən.
Qılaram mavaza sənə,
Sən də üzü ağ gedəsən,
Sağ gəlib sağ-salamat,
Sağ görüşüb sağ gedəsən,
Şanına Molla Oruc
Tərif yaza, Burşlu qızı.

XALİSƏ QARI

....

XVIII əsrin ikinci yarısında Şəki şəhərinin Qışlaq hissəsində anadan olmuş, uşaqlıqdan öz iti ağlı və hafizəsi ilə ətrafındakıları valeh edərdi.

Atası Hacı Bayram dövrünün tanınmış ziyalılarından biri idi, var-dövləti və səxavəti ilə də böyük nüfuz qazanmışdır.

Hacı Bayramın evində tez-tez qonaq olan ziyalılar və şairlər balaca Xalisənin əzbərdən dediyi qoşma və bayatılardan həzz alaraq atasına bu qızı oxutmağı məsləhət görmüşlər.

Hacı Bayram da Xalisəni xüsusi müəllimlər vasitəsilə oxutdurmuşdu.

Xalisə böyüdükcə şeirə, elmə xüsusi maraq göstərmiş, özü də orijinal qoşmalar yazmışdır.

Dərin mənalı söhbətlər, əhatəli biliyi ilə şöhrət qazandığından yaşlılar-qocalar ona Qarı (qoca, çoxbilmiş) təxəllüsü vermişlər.

Xalisə həməsri olan qızların savadsız və hüquqsuz vəziyyətlərinə acımış, atası Hacı Bayramın maddi və mənəvi köməyi ilə evində məktəb təşkil etmiş, qızlara savad öyrətmişdi.

Xalisə balaca rəfiqələrinə, şagirdlərinə şəxsi kitabxanasından oxumaq üçün kitablar verər, öz şeirlərindən də onlara oxuyardı.

Tarixçi-alim kimi tanınmış Əbdüllətif Əfəndi Nuxəvi Xalisə Qarının nəslindəndir.

MOLLA ABBAS AŞUFTƏ

....

Molla Abbas Mirzə Fətəli Axundzadənin həyat yoldaşı Tubu xanımın doğma qardaşı, Axund Ələsgərin oğludur.

Aşüftə təxəllüsü ilə şeirlər yazıb.

Mirzə Fətəlinin böyük və qorxulu bir hadisədən sağ-salamat qurtarmağına sevinərək Mirzə Fətəliyə xitabən yazdığı bir yarımçıq müxəmməsi məlumdur.

Bu barədə də ilk məlumatı Ş.Mümtaz verir[1]

Molla Abbas Axundzadə zənnimizcə tək bir şeir yazmış olsaydı, özünə Aşüftə təxəllüsü götürməzdi.

Müxəmməs

Müjdə ey dil, quratub rəngü, inadən[2] Mirzə,
Həmdüllillah, olub asudə cəfadan Mirzə,
Nə əcəb oldu bəri[3] dərdü bəladan Mirzə,
Gələcək vəcdə[4] genə zövqə səfadan Mirzə,
Salacaq qəlblərə min-zui[5] ziyadan Mirzə.

---

[1]S.Mümtaz "Ədəbiyyat qəzeti", 9 mart 1935-ci il, N 8 (27), səh 2.
[2]ina-zəhmət, aziyyət
[3]bəri-salim, xilas
[4]vəcd-zövq, şövq
[5]zu-işıq

Yazacaq səfhi-"Kəşkül" genə xoş məzmun,
Çəkəcək riştei-nəzmə necə dürri-məknun[1],
Əhli-alın edəcək halətini digəri-gun[2],
Ürəfanın qılacaq könlünü şadü məmnun,
Kuyi-sibqət[3] alacaqdır ürəfadan Mirzə.

Harda görmüşdü gözüm məşğələii[4] – divani,
Nə bilir hiyləni, təsviri və ya hədyani.
Elmidən qeyri onun yoxdur qəmi pünhani,
Oldu səd şükr ki, dərdü qəminin payanı[5],
Qurtarıb canını bu xofu-xəfadan Mirzə.

Doğruluqda ona kimdir ola küfvü[6] manənd[7],
Eləmir bidət olan işlərə bilmərrə[8] pəsənd.
Gahu biga odur xəlqə edir çox rişxənd.
Dəhri-dun[9] xalı deyildir ürəfadan hərçənd,
Çox yaman əsrə düşüb leyk qəzadan Mirzə.

Əhli-islami görür, çünki o çox pəjmürdə[10]
Cahi tənə eləgir arvada, gahı mərdə,
İstəyir çarə qıla tez o sağalmaz dərdə,
Günü axşam eləmiş, heyf ki, çox pis yerdə,
Gündə bir söz eşidir əhli-riyadən Mirzə.

---

1. dürri məknun-gizlənmiş dürr,
2. digəri gun-başqa dürlü
3. kuyi sibqət-birincilik topu
4. məşğələ-iş, güc
5. payan-axır, son
6. küfvü-tay-tuş
7. manənd-tay, bərabər
8. bilmərrə-əsla, heç vaxt
9. dəhrü-dun-alçaq dünya
10. pəjmürdə-solğun, büzüşmüş

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ

1812-1878

Mirzə Fətəli Məhəmmədtağı oğlu Axundzadə 1812-ci il iyun ayının 30-da Şəkidə anadan olmuş, ailəsilə birlikdə Təbriz yaxınlığındakı Xamnə qəsəbəsinə köçmüş (1814), 7 yaşından anasının əmisi Axund Hacı Ələsgərin himayəsində böyümüş, 13 yaşına qədər Qaracadağ mahalında yaşamış, bir il Xamnədə mollaxanada oxumuş, quran oxumağı, həm də fars və ərəb dillərini Axund Ələsgərdən öyrənmiş, 1825-ci ildə anası Nanə xanımla Şəkiyə qayıtmışdır.

Gəncə şəhərində Molla Hüseyn Pişnamazzadə və Mirzə Şəfi Vazehdən dərs almış, Şəkidəki ibtidai rus məktəbində bir il oxumuş, rus dilini öyrənmiş (1833), Tiflisə gələrək Qafqazın baş hakimi baron Rozenin dəftərxanasında Şərq dilləri üzrə mütərcim şagirdi, qısa müddətdən sonra isə ömrünün axırına qədər bu vəzifədə çalışmışdır.

Rusiya-İran, Rusiya-Türkiyə dövlətləri arasında aparılan bəzi diplomatik danışıqlarda iştirak etmiş, ona polkovnik rütbəsi verilmiş (1873),xidməti vəzifəsində qazandığı nailiyyətlərə görə üçüncü dərəcəli Şirü Xurşid ordeni (1846), bir ildən sonra isə həmin ordenin ikinci dərəcəsi ilə, sonra "Müqəddəs Anna"(1859), "Müqəddəs Stanislav"(1866) rus ordenləri, "George" medalı (1856) və Osmanlı "Məcidiyyə" ordeni ilə mükafatlandırılmışdır.

Rus Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinə üzv seçilmiş (1851),

sonra da Qafqaz Arxeoqrafiya Komissiyasında tədqiqat işlərinə cəlb olunmuş, "Əkinçi" qəzetinin nəşrinə böyük əhəmiyyət vermiş, onun səhifələrində "Vəkili Milləti-Nəmələm" imzası ilə məqalələr dərc etdirmişdir.Ədəbi yaradıcılıq fəaliyyətinə şeirlə başlamış, şeirlərini "Səbuhi" təxəllüsü ilə yazmış, 6 orijinal pyesi ilə (1850-1855) Azərbaycanda, ümumiyyətlə Yaxın Şərq ədəbiyyatında dramaturgiyanın əsasını qoymuş, "Hekayəti Molla İbrahimxəlil kimyagər"(1850), "Hekayəti-müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünü-məşhur" (1850), "Hekayəti-xırs quldurbasan" (1851), "Hekayəti-vəziri-xani-Lənkəran" (1851), "Hekayəti-mərdixəsis"(1852) və "Mürafiə vəkillərinin hekayəti" (1855) əsərlərini yazmış. "Hekayəti Yusif şah" (1857) əsəri ilə Azərbaycan ədəbiyyatı tarixində yeni tipli realist bədii nəsrin, povest janrının ilk nümunəsini yaratmışdır.Ərəb qrafikası əsasında yeni əlifba layihəsi tərtib etmiş (1857), "Kəmalüddövlə məktubları" adlı bədii-fəlsəfi əsərini yazmış (1865), ədəbiyyat tarixinə yazıçı, dramaturq, materialist filosof, ictimai xadim, Azərbaycan dramaturgiyasının banisi kimi daxil olmuşdur. Dostları arasında rus yazıçıları və şairləri qraf V.F. Solloqub, Aleksandr Bestujev-Marlinski, məşhur şərqşünaslar Adolf Berje və Xanıkov, Fridrix Bodenştedt, Mirzə Şəfi Vazeh, A.Bakıxanov, Zakir, Hüseyn Əfəndi Qayıbov və bir çox başqaları vardı.Mirzə Fətəli Axundzadə 1878-ci il martın 10-da vəfat etmiş, öz vəsiyyətinə görə Tiflisdə müsəlman qəbiristanlığında Mirzə Şəfinin yanında dəfn edilmişdir.Bakıda və Şəkidə büstü qoyulmuş adına prospekt,küçə və kitabxanalar var. 150, 175, 200 illik yubileyləri geniş miqyasda keçirilmiş, haqqında "Şübhün səfiri" adlı bioqrafik bədii film çəkilmiş, 200 illik yubileyi münasibətilə ekranlara çıxmışdır.

Aldanmış kəvakib
Hekayəti-Yusif şah
(bir parça)

Səfəviyyənin əvaili-səltənətində Qəzvin paytaxt idi. Hadisati-mütənəviənin vüquundan sonra Məhəmməd şah Səfəvi səltənəti öz oğlu Şah Abbasi-əvvələ təslim etdi. Şah Abbasın cülusundan altı il keçib, yeddinci il başlanmışdı ki, aşağıda zikr olunan qəziyyə vaqe oldu.

Baharın əvvəli idi; novruzdan üç gün keçmişdi; Şah Abbas günortadan üç saat keçmiş qəsrdə öz məhbubəsi Səlma xatun ilə oturub söhbətə məşğul idi ki, xacəbaşı xacə Mübarək içəri girib, kürnuş edib ərz eləsi ki:

– Münəccimbaşı Mirzə Sədrəddin qibleyi-aləmin ziyarətinə müşərrəf olmaq istəyir, bir vacibi işdən ötrü.

Şah Səlma xatuna işarə etdi ki, hərəmxanaya getsin və xacəyə buyurdu ki:

– Mirzə Sədrəddini çağır gəlsin!

Münəccimbaşı şahın hüzuruna daxil olub kürnüşdan sonra əl-əl üstə qabaqda durub, dua və səna etdi.

Şah soruşdu ki:

– Mirzə, nə var?

Münəccimbaşı ərz eləsi ki:

– Qibleyi-aləm sağ olsun, bu övqat kəvakibin seyrindən belə məlum olur ki, novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə iqtiranı vaqe olacaq və bu qirani-nəhseynin təsiri budur ki, məşriq-zəmində və bittərcih mülki-İranda sahibi-səltənətin vücuduna sədəmeyi-üzma yetişəcəkdir. Buna binaən mən ki, asitaneyi-sənniyyənin müxlis və cansipar bəndəsiyəm, özümə vacib bildim ki, bu keyfiyyəti piş-əz-hadisə qibleyi-aləmə məruzə edim.

Şah bu vaxt çox cavan idi. Ömründən ancaq iyirmi iki il keçmişdi. Məlumdur ki, bu sinndə həyat necə şirin və əzizdir. Xüsusən ki, dərəceyi-ülyada və təxti-səltənətin üstündə! Bu səbəbə münəccimbaşının xəbəri şahi-cavanı qəyətdə dəhşəti-üzmaya saldı. Haman saat rəngi qaçıb, guya ki, bihuş oldu. Bir dəqiqədən sonra başın qaldırıb Mirzə Sədrəddinə buyurdu ki:

– Xub, müraxxəsən, get!

Münəccimbaşı kürnuş edib qayıtdı. Şah yalqız qəsrdə yarım saat fikrə piçidə olub, sonra xacə Mübarəki avaz etdi. Xacə hüzura daxil olduqda buyurdu ki:

– Fərraş göndər, bu saatda vəzir Mirzə Möhsünü və sərdar Zaman xanı və müstəvfi Mirzə Yəhyanı və mollabaşı Axund Səməd mənim hüzuruma çağırsın!

Xacə çıxıb bir az vaxtdan sonra ehzar olunan əşxas gəldilər və lazimeyi-təzim əmələ gətirib müntəziri-fərmayiş oldular. Şah buyurdu ki:

– Sizi bir əmrdən ötrü məsləhətə çağırmışam, gərək haman xüsusda bir tədbir göstərəsiniz. Çünki bu məclisi-xasdır, ona binaən mənim tərəfimdən icazət olunur ki, oturasınız.

Əşxas fərmayişi əmələ gətirdilər. Şah münəccimbaşının xəbərini ilqa etdikdən sonra buyurdu ki:

– Aya, sizin rəyinizə görə mən nə qismi tədbir ilə bu hadisəni öz vücudumdan dəf edə bilərəm?

Həzərat cümləsi heyran qaldılar. Bir dəqiqə sükutdan sonra vəzir Mirzə Möhsün başladı danışmağa:

– Bu bəndeyi-kəminənin ixlası dövləti-əliyyəyə nisbət bədihiy-yatdandır. Əlbəttə, qibleyi-aləmin xatirindədir ki, pedəri-büzurgüvarlarının əyyami-səltənətində bir para naqisüləql kimsənələrin vəzarətə mübaşirəti olmaq səbəbilə xəzineyi-amirə nə mərtəbədə nüquddan xali olmuşdu. Bu keyfiyyətə hali olduqda mən tədbirinə iqdam etdim və qərar qoydum ki, çakəranidərgahdan hər kimsə ki, bir şüğlə və ya bir vilayətin hökumətinə mənsub olsa, fəraxuri-halına görə bir məbləğ bərəsmi-peşkəş xəzinəyə təslim etsin və əlavə hər zaman ki, qibleyi-aləm bir əmirin kaşanəsini təşrifiqüdumu ilə mübarək etsə, sahibi-kaşanə əqmişeyi-nəfisə payəndaz və bir miqdar pul peşkəş eləsin. Bu növ tədbirin vasitəsilə indi ki, qibleyi-aləmin cülusunun yeddinci ilidir, xəzineyi-amirə əlhəmdü-lillahi-vəlminnə, niqudi-vafirədən malamaldır. Ümuri-vəzarətin pişrəftində bəndeyi-kəminə tərəfindən bitəcrübəlik qeyri-mütəssəvvirdir, amma kəvakibin müqabilində tədbir göstərməyə əlhəq acizəm.

Bundan sonra sərdar Zaman xan şüru elədi:

– Bu çakəri-xalis, saqqalımın tükünü dövləti-əliyyənin xədəmatında ixlas və hünər ilə ağartmışam. Məsələn, on il bundan əqdəm ki, taifeyi-Osmaniyyə Bəkir paşa Dəmirçioğlunun sərakəskərliyi ilə yetmiş min nəfərə qərib xaki-İranə hücum gətirməyə müsəmməm olmuşdular: qibleyi-aləmin pedəri-büzurgüvarı İran qoşununun sərdarlığını mənə vagüzar etdi. Əgərçi bizim qoşunumuz da hesab və ədəddə taifeyi-Osmaniyyədən kəm deyildi, nəhayət, mənim heyfim gəldi ki, firqeyi-naciyyənin qoşunun güruhi-zallənin müqabilində tələfə verdirdim. Ona binaən əmr etdim ki, Osmaniyyə sərhəddindən ta nəhayəti-mülki-Azərbaycan tamam dəhaqinin

ziraətini xarab etsinlər və çarpalarını qovub gətirsinlər, körpüləri dağıtsınlar və yolları pozsunlar. Vəqta ki, Bəkir paşa sərhəddimizə daxil oldu, əgərçi müqabilində bizim qoşundan bir nəfər görmədi, amma yollar bir mərtəbədə xərab olunmuşdu ki, əsla özü ilə topxana gətirməyə qadir olmuyub, ancaq atlı və piyadəsilə ənvai-zəhmətdə Təbrizə varid oldu və hər tərəfə dəstə göndərib zəxirə təhsilinə iqdam etdi. Əlinə bir həbbə və bir öküz və qoyun düşmədi. Naçar üç gündən sonra üftan və xizan, ac və əfsürdə Təbrizdən kusi-rehlət döyüb qaçdı.

Bu tədbir ilə mülki-İran taifeyi-biganənin hücumundan məhfuz qaldı. Yolları pozmaq və körpüləri yıxmaq bir mərtəbədə tədbiri-müfid göründü ki, dövləti-əliyyə Bəkir paşa qaçandan sonra dəxi belə səlah gördü ki, onları həmişə bu qərarda baqi qoysun, dübarə taifeyi-biganənin hücum gətirmək ehtiyatı ilə. Bu təriq ilə dövləti-əliyyənin qoşunundan bir nəfərinin dəxi burnu qanamayıb, əsakiri-mənsurənin cümləsi həmsayə düşmənlərin vəhşəti üçün salim qaldı.

Belə işlər xüsusunda asitaneyi-əliyyənin qoca iti tədbir göstərməkdən aciz deyil! Amma kəvakib ilə müxalifət etməkdə əqlim hər bir əlacdan qasir görünür...

Şahın vəhşəti qayətdə ziyadələnməyə başladı. Sonra müstəvfi Mirzə Yəhya təkəllümə gəldi:

– Bu bəndeyi-həqir vəzirin əqrəbi və dəst-pərvərdəsi olduğum səbəbə və onun vücudu vasitəsilə bu mənsəbə yetişdiyimə görə, ixlas və sədaqət göstərməkdə bilkülliyyə onun niyyati-həsənəsinə və qaydasına peyrəvilik etmişəm. Müşəxxəsdir ki, qoşunun və vasiti-sahibi-mənsəbanın məvacibi qibleyi-aləmin fərmanı mucibincə və mənim imzam ilə vilayətlərin mədaxilindən həvalət olunur. Çünki xəzineyi-amirədə nüquddan nöqsan görsənmişdi, necə ki, vəzir zikr elədi, ona binaən mən bu cəhətdən qayətdə diləfsürdə idim...

ƏBDÜLQƏNİ ƏFƏNDİ NUXƏVİ

1817-1897

Hacı Əbdülqəni Hacı Nurməmməd oğlu Xəlisəqarızadə 1817-ci ildə Şəki şəhərinin Qışlaq məhəlləsində anadan olmuş, ərəb, fars dillərini mükəmməl öyrənmiş, 28 yaşında ikən artıq bir alim kimi yetişərək geniş şöhrət qazanmış, dövrünün böyük mətnşünası, kitabşünası, gözəl kolliqraf, xəttat kimi Yaxın Şərqdə tanınmış və məşhur olmuşdur. Gənclik illərindən başlayaraq öz gözəl dəst-xəttilə bir sıra nadir elmi-fəlsəfi, ədəbi-bədii kitabların, nadir əlyazmalarının surətini köçürmüş, yazdığı və tam saxladığı kitabları cildləmiş,onların mükəmməl kartotekasını tərtib etmişdir. XIX əsrin III rübündə Şərq ölkələrinə gətmiş, Qahirədə, Bağdadda , təhsilini davam etdirmiş, Məkkədə, Misirdə-Qahirədə, İskəndəriyyədə, Türkiyədə-İstanbulda olarkən çoxlu kitablar almış, nəticədə nadir kitablar kolleksiyasını yaratmağa müvəffəq olmuşdur. 1858-1859-cu illərdə Rusiya və Zaqafqaziyaya səyahət edən fransız yazıçısı Aleksandr Düma Şəkidə bu kitabxana ilə yaxından tanış olmuşdur.

Müəllimlik etdiyi 36 ilə yaxın müddətdə yeni, mütərəqqi təlim üsulları işləyib hazırlamış və həyata keçirmiş, 12 dərs vəsaiti yazmış və tərtib etmişdir.

Onun "Farsi təkəllüm risaləsi" ("Fars dilində danışıq kitabı")adlı əsəri ilk dəfə "Bulaq" mətbəəsində nəşr olunmuş, "Yüz yeddi rəng" adlı mətnlər toplusunu Şərq elm və ədəbiyyatının

nadir incisi adlandırmaq olar ki, bu toplu Azərbaycanda mətnşünaslıq elminin inkişafını öyrənmək baxımından çox qiymətli və zəngin bir qaynaqdır.

Onun kitabxanasından 1974-cü ildə 600-dən çox kitab Azərbaycan EA-nın Əlyazmalar Fonduna daxil edilmişdir. (şifrəsi _B5266-dır) Sonradan da bu proses davam etdirilmiş, 2000-dən çox material əldə edilmişdir.

"Həsrəti" təxəllüslü məşhur şairin "Vərqa və Gürşa" əsəri Hacı Əbdülqəninin kitabları içərisindən tapılmışdır.

Əhmədi Təbrizinin "Əsrar-Namə" əsəri Nuxəvi tərəfindən başqa nüsxələrlə tutuşdurulub, öz dəst-xəttilə köçürülmüş nüsxəsi çox qiymətlidir.

Xaqani, Nizami, Fəsihi Məhəmməd Şəbüstəri, Şah İsmayıl Səfəvi (Xətai), Şəms Təbrizi, Nəsrəddin Tusi və başqa klassiklərin kitabları və bu kitablara onun dərkənar yazıları çox qiymətlidir.

Hacı Əbdülqəni Nuxəvi 1897-ci ildə Şəkidə vəfat etmişdir.

RƏSUL DÜLGƏR

1825-1888

Rəsul İsmayıl oğlu 1825-ci ildə Şəki şəhərinin Yuxarıbaş məhəlləsində anadan olmuş, dülgərlik, bənnalıq etmiş, halal zəhmətilə dolanmışdır.
Uşaq yaşlarında yazıb-oxumaq bilməmiş, ancaq sonradan özünün səyi nəticəsində bir qədər savada yiyələnmişdir.
Mənbələrin məlumatına görə şair Rəsulun savadı az olsa da, rəvan təbii varmış.
Dülgərlik etdiyinə görə "Dülgər" sözünü özünə təxəllüs götürmüşdür.
Bir neçə dəfə doğma şəhərindən ayrı düşmüş, "tərki-vətən" olub, ancaq qohum-əqrabanı yadından çıxarmadığı yazdığı əsərlərdən məlum olur.
F.Köçərlinin fikrincə:
"Rəsul Dülgərin əsərləri çoxsa da, pərişan və övraqdır."
Onların toplanıb tədqiq edilməsinə ciddi ehtiyac vardır.
Rəsul Dülgər 1888-ci ildə 63 yaşında vəfat etmişdir.

***

Əya pirim, sizə məndən salamı-bışümar olsun,
Cahanda ömrüm əl verdikcə hər leylü nahar olsun.

Cünuni-həsrətəm, əfv et, gər olsa səhv ərzimdə,
Cünuni-əfv edib rəhman ki, təklifdən kənar olsun.

Yoxumdur səbrü aramım, qərarım qalmayıb əsla,
Fəraqın qoymayır bir ləhzə şüğlüm kəsbi-kar olsun

Salıbsan bizləri gözdən, bu var: üz döndü, göz döndü,
Məhəbbət qəlbdə müzmər, nə mümkün var kənar olsun.

Nədir bais ki, tərk etdin bu qədri sileyi-rəhmi,
Nə vəqtə kimi, bimürvət, bu məxluq intizar olsun?!

Əgər cahil tuta hər fel, ona yox eyb, cahildir,
Zərurətdir ki, kamillər də qədrincə vüqar olsun.

Gələndə mövcə dərya xatirin sal qətrəni yadə,
Yazıb mətləb nə var, əmr et, həqirə iftixar olsun.

Nəzər ilə təfəkkür qıl bahari-aləmaranı,
Xudayi-külli-əşyanın kəmali aşikar olsun.

Edibdir mürdəni əhya bu dəmdə xaliqi-yekta,
Qılıbdır qüdrətin zahir ki, aləm mərğzar olsun.

Edər mürği-səhər əğan, salıb gülşən ara məskən
Canından əl çəkib pərvanələr şəme düçar olsun.

Şükufə günəgün açmış, hərə bir növ zikr eylər,
Çəkərmi qəm olan aqil belə pərvərdigar olsun?!

Əbəsdir qullara etmək olan batil xəyalatı,
Müqəddərdir əzəl gündən qədərdə hər nə var olsun.

Hərə öz rəyin eylərsə, görək dünya dolanırmı?
Gedərmi kəsbinə hər qul əlində ixtiyar olsun?!

Nizami-səltənət daim sürər sultan nizamilə,
Nizamın hər biri istər ki, şahi-tacdar olsun.

Yetər mətlubinə əlan tutan ümmid rəzzaqə,
Qalan məhrum o kəsdir kəsbinə ümmid var olsun.

Yapışsa həqqə sidq ilə səni dünya arar kəndi,
Bu növdür xasiyət dünyaya harisdən fərar olsun.

Besi əsləhdi, dərviş ol, kilim altında rahət yat,
Nelərsən padşahlıq kim, sənə bu dünya dar olsun?!

Nizami-aləmi düzmüş xuda elmin qılır izhar,
Nə növ olsa, səlahidir, qulun kasib-kübar olsun.

Kəramət

Əya ey mərdumi-aləm baxın bu bir rəvayətdir.
Bu əsrin xalqına ancaq münasib bir hekayətdir.

Əzəl alimləri gördüm öz elminə əməl etməz,
Çağırsan məclisə çayü pilosi olmasa getməz.
Oxursa bir əşri-Quran, bahasın almamış ötməz,
Sözü, söhbətləri bir-birinə daim şəmatətdir.

Kimisi alimi-kamil olub bu əsrdə qazı,
Başında bir put əmmamə satır alimlərə nazı,
Əgər bir təqsimə getsə, deyildir nisfinə razı,
Sanarsan mürdəşir ilə bu ortaqdır, şərakətdir.

Kimi yastı papaq örtər mürid-surət, vəli ayı,
Özü öz halını bilməz, dəli-divanə, sevdayi,
Əgər bir məclisə düşsə, içər on istakan çayı,
Bunların şeyxinə çayı çox içməklik kəramətdir.

Geyirirlər namaz üstə necə kim böyürür dana,
Yekə bir camış əl çəkməz soxa bilirsə külxana,

Əgər bir ittifaq düşsə sarımsaqdan qaçar yana,
Sual etdikdə rəm eylər iyi pisdir, kərahətdir.

Saqın həqqa, əya "Dülgər" qaçıb bu fail insandan,
Necəsin təcribə etdim özüm əhli-müsəlmandan,
Nə dəm bir müşkülü olsa, alır fətva Aleksandan,
Nədənsə müftisi anım yanında bir dəyanətdir.

Nuxa

Tərif edim Nuxa yerin, yerləri gülşən kimidir,
Söyləyib danışmağı hər biri bir can kimidir,
Baxarsan malü dövləti dövlətli sultan kimidir,
Ədli, ədaləti adil Nuşirəvan kimidir,
İçinin məhbubələri huriyü qılman kimidir.

Çıxıban bahar fəsli məhbubları çöldə gəzir,
Görənin tamam cana ürəğin yağı əriyir,
Onları görən oğlan on beş yaşındaca qariyir,
Libasları zərü ziba, bellərinə tirmə sarıyır,
Yanaqları gül yarpağı, qaşları kaman kimidir.

Ya İlahi, yetməsün heç vaxt nöqsan bulara,
Huri deyim, pəri deyim, yoxsa ki, insan bulara,
Hər görən kimsə desin huryü qılman bulara,
Mən özüm incimərəm əgər verəm can bulara,
Baxışları maral kimi, yerişləri ceyran kimidir.

Qolları gümüş kimi, gərdəni mina misli,
Tökmüş qıvrım telini sünbülü rəna misli,
Onları görən olar Məcnuni-rüsva misli,
Yaradıb Bari-ilahi cənnətdə sona misli,
Saçları gülabatun, kipriği peykan kimidir.

Nə yaman dərdə saldı bu qaşları kaman məni,
Bilirəm öldürəcək bu dərdlər-nihan məni,
Qurtara bu dərddən qadiri-sübhan məni,
Ölsəm əgər götürə bir sahibi-iman məni,
Bu dərdilən ölsə Rəsul, bil şəhid olan kimidir.

İSMAYIL BƏY NAKAM

1829-1906

İsmayıl bəy Məhəmməd bəy oğlu Sədrəddinbəyov 1829-cu ildə Şəkidə anadan olmuş, uşaqlıq illərində mükəmməl təhsil almış, ərəb, fars, rus dillərini öyrənmişdir. Şəki və Şirvan bölgəsində var-dövlət və səxavəti ilə məşhur olan Hacı Sədrəddinbəyov nəslindəndir. Çoxlu torpaq sahələrinə malik olan mülkədar babasının torpaqlardan olan gəliri sayəsində bir sıra şərq ölkələrinə səyahət etmiş, görüb-götürmüş, özünə çoxlu dostlar qazanmışdır. Klassik ədəbiyyatı, xüsusilə, Nizami, Füzuli, Sədi və Hafizin əsərlərini şəxsi mütaliə vasitəsilə öyrənib, öz yaradıcılığında Nizami və Füzuli ənənələrini davam etdirmiş, Ş.Ə.Şirvani ilə dost olmuş, onu Şəkiyə qonaq dəvət etmiş və bu dəvəti qəbul edilmişdir. Şairin ədəbi irsindən "Divani-bədii", "Xəyalati-pərişan" adlı şeirlər divanı, "Gəncinçyi ədəb", ("Ədəb xəzinəsi"), "Dastanı-Məcnun və Leyli", "Dastanı-Fərhad və Şirin" poemaları və "Dörd Əfəndi"adlı əsəri günümüzə qədər gəlib çatmışdır. Klassik şeir ənənələrini davam və inkişaf etdirən Nakamın (Nakam İsmayıl bəyin şair təxəllüsüdür) yaradıcılığında qəzel janrında yazılmış əsərləri çoxluq təşkil etsə də, lirik şeirləri sırasında müxəmməs, müsəddəs, müsəddəs-tərcibənd, təxmis, tərkib-bənd, tərcibənd, qəsidə, müləmmə, müsəmmən, qitə və s. kimi klassik şeir şəkilləri əsas yer tutur.

İ.Nakam 1906-cı ildə Şəki şəhərində xərçəng xəstəliyindən vəfat etmiş, Şəkidə Xoçih qəbiristanlığında dəfn edilmişdir. Adına Şəkidə küçə var. Həmçinin Şəki şəhər mərkəzi kitabxanası onun adını daşıyır və burada Nakamın büstü qoyulmuşdur.

* * *

Cami-səfadə qalmayıb artıq əsər-məsər,
Mirati-dildə qət-qət olubdur kədər-mədər.

Müşkülsə də iqamət, əgər kuyi-yardə,
Mümkün deyil bu bügədən, ey dil, sətər-mətər.

Təzvirdir, fəribdir axır nəticəsi,
Hər bir kəlamım olsa məali əgər-məgər,

Getmiş qərar təndə Süleymani-ruhdən,
Yoxdur hənuz hüdhüdi-dildən xəbər-məbər.

Məcnun kimi kənar olub adabi eşqdən,
Hər Leylivəş camalına qılmam nəzər-məzər.

Mən aşiqəm o şahidə kim, çıxsa pərdədən,
Nabud olur süehhrdə xur-mur, qəmər-məmər.

Nakam, yandın atəşi-möhnətdə, bəd əzin,
Yaxmaz səni cəhimü məhimü sədər-mədər.

Ey dil

Keçindin aləmi-heyrətdə, ey dil,
Keçirdin ömrünü qəflətdə, ey dil.

Görüb bu aləmi-adəmfəribi
Unutdun əhdi bir röyətdə, ey dil!

Fəraqət hasil et, tərki-səva qıl,
Yetər ah etdiyin möhnətdə, ey dil!

İrişdi aşiqin yeksər vüsalə,
Həmin sənsən qalan firqətdə, ey dil!

Mücərrəd ol, mücərrəd ol da, gör də,
Nələr var guşeyi-vəhdətdə, ey dil!

Həzaran dərdi-ruharar çəkdin,
Yenə töhmətdəsən, töhmətdə ey dil!

Olub nakamə dil Nakam oldun,
Yıxıldın atəşi-həsrətdə, ey dil!

Qaldı

Fəğan ki, künhi-qəmi-can bilinmədi, qaldı,
Təvəqqeyi-dili-nalan bilinmədi, qaldı.

Simahi-dəhrdə hər kəs nəsibini buldu.
Nəsibi-zümreyi-rindan bilinmədi,qaldı.

Cəfayi-firqətı-canan bilinmədi muybəmi,
Cəfayi-vəsl kəmakan bilinmədi, qaldı.

Cahanda hər mərəzə bir əlac olub,peyda
Fəraq dərdinə dərman bilinmədi qaldı.

Kitabi -eşqdə dərki-üqul əcz, bulub,
Həzar nükteyi-pünhan bilinmədi, qaldı.

Kimin əsiri, kimin namuradiyəm, Nakam,
Nədir bu etdiyim əfgan bilinmədi, qaldı.

Görüb

Xoş olub qönçə çəməndə lələ gülnarın görüb,
Oldu bülbül lal gülşən içrə rüxsarın görüb.

Bilmədi eynəl-yəqin hər kəs dəhanın olduğun,
Vardır derlər dəhanın məhz kaflanın görüb.

Qeys olub Məcnun görüb Leyladə əksin gövhukən.
Verdi can Şirin də lələ şəkər barin görüb.

Sübhilə zahir olur gün nuri hüskün seyr edib,
Şamlar nabad olur zülf şəh asarin görüb.

Sakin ol ey dil, fəğan və nalədən kim dəhridə,
Bir könül xərəm degildir nalə və zarın görüb

Ruzi-peykan tirindir kəvakib didəsi,
Tutduğu çərxin sepərdə, tir xunxarın görüb.

Eylərəm, Nakam, bəş bi arzu təslim can,
Ölsəm ey dildar əgər bir dəfə didarın göriib.

Qərib-qərib

Dirildi gül üzünün jaləsi qərib-qərib,
Həvanın oldu rəva naləsi qərib-qərib.

Fəzayi dərddə Ceyhun kimi edər tüğyan
Eynimin dəm siyaləsi qərib-qərib,

Töküldü tərəsi ətraf ruyinə o mehin,
Əhatə qıldı mehi haləsi qərib-qərib.

Həmarə eylədi dağ dərunini zahir,
Açıldı hər çəmənin laləsi qərib-qərib.

Hüzur qönçədə tedad edər xəran sitəmin,
Gəlir hezarların naləsi qərib-qərib.

Cəvan olar gün-gündən məhəbbət aləminin,
Xəmidə pir köhən saləsi qərib-qərib.

Yaxar dərunimi kanun hicrdə, Nakam.
Dilin zəbanəi cəvaləsi qərib-qərib.

AŞIQ CAMAL

1830-1907

Aşıq Camal 1830-cu ildə Şəki rayonunun
Baş Göynük kəndində anadan olmuş,
sonralar Qax rayonunun Zəyəm kəndində yaşamışdır.
Aşıq Camal qüdrətli bir el sənətkarı olmuş.
aşıq şeirinin müxtəlif janrlarında gözəl nümunələr yaratmışdır.
Qax rayonu, Zəyəm kənd orta məktəbinin dil-ədəbiyyat müəllimi
Bəsti Səfərqızı aşığın ədəbi irsindən xeyli nümunələr və
onun yaratdığı "Şahbaz və Camalşah" dastanından
müəyyən parçaları toplaya bilmişdir.
Aşığın əldə olan şeirləri onun yaradıcılıq potensialının
genişliyindən və zənginliyindən xəbər verir.
Məclislər və şənliklər yaraşığı olan Aşıq Camal
1907-ci ildə 77 yaşında vəfat etmişdir.

Ola bilməz

Ey cavanlar, sizi agah eyləyim,
Zəhmətdən heç kəsə ar ola bilməz.
Yalan tez tutular, doğru söyləyin,
Yayda yağan qardan qar ola bilməz.

Əgər vurğunsansa tara, kamana,
Çalış öyrən, öyrətməz ki, zamana.
Öz zəmindən biçib töksən xırmana
Bundan dadlı başqa bar ola bilməz.

Öz bağından heyva dərsən, nar üzsən,
Bəxtin versə, vəfalı bir yar üzsən,
Bilmə ki, zəhmətsiz bir şey var, üzsən.
Halal zəhmət yoxsa, var ola bilməz.

Cavan vaxtı baxtın vurub əyməsə,
Dost bildiyin gizli-gizli döyməsə,
Hansı tara ustad əli dəyməsə,
Ondan məclis üçün tar ola bilməz.

Aldanma görəndə hər incə beli,
Seçmə öz bəxtinə hər qıvrım teli.
Gözə xoş görünsə, bəzəsə eli,
Hər gözəl görünən yar ola bilməz.

Ay Camal, ağartdın saqqalı, saçı
Altmışa çatdırdın sən ömrü, yaşı.
Hələ dost seçməkdə naşısan, naşı,
Dar gündə pis dostdan kar ola bilməz.

Gəlsin

Gedin deyin mənim mələk yarıma,
Bir zəhmət çəkibən buraya gəlsin.
Tellər qabağından atıb buludu
Hilal qaşlar çəkib araya gəlsin.

Eşq əlindən canım yanhayandadır,
Atəşi, alovu şirin candadır.

Mən bilirəm dərdə dərman ondadı,
Təbibdir, baxmağa yaraya gəlsin.

Bülbül qəfəsdədi, meyli güldədi.
Yaralıdı canım, yaman haldadı.
Aşıq Camal bu gün ölhaöldədi,
Tez deyin Şahbaza, haraya gəlsin.

Ay fələk

Qəvvas təki gəlib düşdüm dəryaya
Boylana-boylana üzüm, ay fələk.
Təxafül et, yetişginən haraya
Qəbul eylə mənim sözüm, ay fələk!

Sevgili itirən çox çəkər qəhər,
Qərar tuta bilməz axşamla səhər.
Düşüm sorağına şəhərbəşəhər.
Çərx edib cahana gəzim, ay fələk!

Aşıq Camal deyər, sən yetiş dada,
Yenə dərdim oldu həddən ziyada,
Sənətim ağlamaq fani dünyada
Bir şad gün görmədi üzüm, ay fələk!

ƏHMƏD NƏBİ ƏFƏNDİ

1850-1935

İmamzadə Əhməd Nəbi Əfəndi Hacı Əbdürrəhim oğlu
1850-ci ildə Şəkinin Qışlaq məhəlləsində anadan olmuş.
kiçik yaşlarından oxumağa həvəs göstərmiş.
oxumaq üçün Türkiyəyə getmiş.
7 il Bursada ali ruhani mədrəsəsində təhsil almış.
sonralar İstanbulda müvəffəqiyyətlə ali ruhani mədrəsəni bitirmiş.
Konya ali ruhani mədrəsəsində dərs demişdir.
1890-cı ildə Şəkiyə qayıtmış.
onu əvvəlcə Qışlaq məscidinin imamı təyin etmişlər.
Bu vəzifə ilə yanaşı Şəkinin "Otaq eşiyi"adlanan məhəlləsində "Darüs-Süəda"adlı mədrəsə açmışdır.
Əhməd Nəbi Əfəndinin 100-dən artıq elmi əsəri olub.
lakin, əsərlərinin çoxusu Qırmızı ordu əsgərləri tərəfindən
mədrəsələr dağıdılanda yandırılıb.
Bir neçə qiymətli əsəri prof. Ə. Dəmirçizadənin sayəsində
xilas olunub ki, bu əsərlər Azərbaycan EA əlyazmalar İnstitutunda,
bir kitabı Sankt-Peterburqda Ermitaj muzeyinin
Şərq əlyazmaları fondunda, bir kitabı isə övladlarında saxlanılır.
Onun məntiqə, ərəb qrammatikasına, münaziyə elminə aid
sırf ərəb dilində yazılmış əlyazmalarının hər birisi
misilsiz xəttatlıq sənət nümunələridir.

Qızı Səidə İmanzadə xatirələrində yazırdı : "Masanın üstündə Nizaminin adı yazılmış kitab gördüm.Bu onun əlyazmalar qovluğunda idi. Burada farsca bu sözlər yazılmışdı:

"Xəttim pərişandır yarımın zülfü kimi?
Eyib bilmə, çünki hicran gecələrində yazmışam."

Təəssüflər olsun ki, bu şair qəlbli Əhməd Nəbi Əfəndinin şeirlərlə dolu olan əlyazmalar qovluğu da məhv edilmişdir.
1930-cu ildə baş vermiş Şəki üsyanının əsas iştirakçısı və təşkilatçısı kimi yalançı uydurma ittihamla həbs edilərək əvvəlcə Şəki qalasında saxlanmış, sonra isə Bakıda Bayıl həbsxanasına atılmış, səhhətinin kəskin pisləşməsi səbəbindən şərti olaraq azadlığa buraxıldıqdan iki ay sonra 1935-ci ildə dünyasını dəyişmişdir.

MƏHƏMMƏDHƏSƏN ŞƏKUYİ

1853-1932

Mövlazadə Məhəmmədhəsən İsmayıl oğlu (Şəkuyi) 1853-cü ildə Şəkidə anadan olmuş, əvvəlcə Şəkidə mollaxanada, sonra Gəncə mədrəsəsində təhsil almış, bir müddət Gəncə Cümə məscidində mollalıq etdikdən sonra İraqa getmiş, orada ali dini təhsil almışdır. Tiflisdə Müsəlman Ruhani Məktəbində şəriət və fiqhdən dərs demiş (1893). Cəbrayıl və Gəncə qəzalarının qazısı olmuş (1894-1895). Qafqaz Müsəlmanları Ruhani İdarəsinin İdarə Heyətinin üzvü seçilmiş, sonra Tiflis və Kutaisi şəhərlərinin qazısı olmuş. 1908-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin Şeyxülislamı seçilmişdir.

Ərəb, fars və türk dillərini, Şərq ədəbiyyatını, tarixini, İslamı dərindən bilən şeyx tərcüməçiliklə də məşğul olmuş "Kitabül-əl bəyan, fi təfsirül əl Quran" adlı Quranın tərcümə-təfsiri kitabı Tiflisdə "Qeyrət" mətbəəsində iki cilddə nəşr olunmuş (1908), kitabın mənəvi dəyəri nəzərə alınaraq 1990-cu ildən sonra Bakıda daha iki dəfə çap edilmişdir.

Quranın ilk tərcüməçilərindən biri olan Məhəmmədhəsən Şəkuyi
müsəlmanların təhsil və inkişaf məsələlərindən bəhs edən
"Elmin imanları", "İndi isə diqqət və bacarıq" məqalələrində
azadlıq və istiqlaliyyət məsələləri də geniş təhlil edilmişdir.
Azərbaycan dilində yazdığı 4 cildlik
"Zübdət üt-təvarix" əsəri ən qədim dövrlərdən
XX əsrin əvvəllərinədək İslam ölkələrində baş vermiş
hadisələri öyrənmək baxımından çox qiymətli bir məxəzdir.
Şeyxülislam Məhəmmədhəsən Mövlazadə Şəkuyi
1932-ci ildə Tiflisdə vəfat etmiş və
orada müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

MOLLA CUMA

1854-1920

Cuma Salah oğlu Oruczadə-Aşıq Molla Cuma 1854-cü ildə
Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuş,
mədrəsə təhsili almış, ərəb, fars, türk dillərini öyrənmişdir.
Şair-aşıq kimi tanınan Molla Cuma hərtərəfli hazırlığa
malik olduğunu həm Aşıq Könüllə deyişməsində,
həm də ayrı-ayrı əsərlərində ifadə etmiş, özünü
"Adəm atanın nəvəsi", "külli aşıqların anası" adlandırmışdır.
Heç bir zaman mollalıq etməmiş, elmli, bilikli,
çox məlumatlı olduğundan hörmət əlaməti olaraq
onu Molla Cuma deyərək çağırmışlar.
Həmişəyaşar ədəbiyyatşünas Yaşar Qarayev yazırdı:
"Təsadüfi deyil ki, Azərbaycanda sözün indiki lüğəvi yox,
klassik mənasında "molla" rütbəsini daşıyan
sonuncu aşıq-şair Molla Cuma olmuşdur.
Mövlanə Füzulidən, Molla Vəli Vidadidən,
Molla Pənah Vaqifdən sonra bu titul şifahi ədəbiyyatda
yalnız Cumaya verilmişdir". Yaradıcılığa gənc yaşlarından başlamış,
həm sosial həyatla bağlı, həm də bütün aşıq ədəbiyyatının
ayrılmaz parçası olan sevgi və eşq motivləri aşıq şeirinin
bütün şəkillərində bənzərsiz nümunələr yaradan

Molla Cumanın yaradıcılığını bədrləyir.
Onun lirik şeirlərinin əksəriyyətinin baş qəhrəmanı
ismi Pünhandır- adı gizlidir. Bu da aşığın, ilk, uğursuz,
həm də böyük məhəbbətindən xəbər verir.
Yaradıcılıq baxımından klassik Şərq ədəbiyyatına,
aşıq poeziyasına bağlı olmuş, onun əsərləri yazılı şeirlə, şifahi
şeirin, əruz vəzni ilə heca vəzninin qarşılıqlı əlaqəsi, bir-birindən
bəhrələnməsi və zənginləşməsi baxımından
diqqətçəkən nadir sənət inciləridir.
XX əsrin Azərbaycan aşıq şeirində dərin məna, məzmun,
rəngarəng forma, poetik dil və üslub baxımından onunla
müqayisə oluna biləcək ikinci aşıq-şair yoxdur. Onun şeirlərinin
bir qismi daha çox yazılı ədəbiyyat örnəklərini xatırladır.
Molla Cuma Azərbaycan Demokratik Respublikasının tərəfdarı olmuş,
xalq arasında böyük nüfuz qazanmış, Azərbaycana gəlmiş Türk paşası
şəxsən onunla görüşmüşdür.
İçərisində ermənilərin də olduğu Azərbaycana soxulan
XI qırmızı ordunun bolşevik dəstəsi tərəfindən
1920-ci ilin may ayında Molla Cuma və həyat yoldaşı
Zöhrə xanım qəddarlıqla-vəhşicəsinə qətlə yetirilmiş,
evi talan olunmuş, əlyazmaları yandırılmışdır.

Qabağında

İsmi Pünhan yazılıbdır,
İsmi əzəm qabağında.
Qəndi-şəkkər əzilibdir,
Ol sənin bal dodağında.

İncə belin sürahlanır,
Xumar gözün gümrahlanır,
Bəyaz xallar fərəhlənir,
Gülə nisbət yanağında.

Cuma hun şahı, sərdarı,
Elə, günə havadarı,
Bir qədəm bas bizə sarı,
Bərəkət var ayağında.

Dünyadı

Daha mənə mədh eyləmə dünyanı,
Ha bu dünya bir bekara dünyadı.
Hələ Adəm Pəyğəmbərdən qabağa,
Bir üzü ağ, biri qara dünyadı.

Dünyaya düşənlər qismətin yeyər,
Kamillər agahdı, cahillər uyar,
Sehrkardı, işin bilənlər duyar,
Vəfasızdı, həm məkkara dünyadı.

Altım səfalıdı, mədən səfasız,
Təbib şəfalıdı, xəstə şəfasız,
İnsan vəfalıdı, dünya vəfasız,
Əlbət yaxşı, bi-xəbərə dünyadı.

Dəryalar bulanmaz daş düşməyinən,
Qəvvaslar qərq olmaz su daşmağınan,
Ariflər anlayar danışmağınan,
El arif yek işarə dünyadı.

Ağır suya girmə, keçə bilməzsən,
Yıxar səni, çıxıb qaça bilməzsən,
Qırar qanadların, uça bilməzsən,
Şahin, şonqar, dönən sara, dünyadı.

Ovçu maral sözün qırağa qoyaq,
Bir məndən, bir səndən gəl indi, deyək,
Əyri oturuban doğru söyləyək,
Söhbət qatan zəhrimara dünyadı.

Heç oxşarmı günə lampa işığı,
Qarın doymaz yalamaqla qaşığı,
Molla Cuma, sənin kimi aşığı,
Kəmənd ilə çəkən dara dünyadı.

Yardan qisas gecəsidi

Ağalar, bir gözəl sevdim,
Mübarək xas gecəsidir,
Məlul könlüm, dur silkələn,
Eşqə həvəs gecəsidir.

Mən mailəm səntək cana,
Gəl gözümdən getmə yana,
Muştuluq dost aşinama,
Düşmənə yas gecəsidir.

Dilimdə oxuram kəlam,
Yuxum oldu mənə haram,
Molla Cuma, al intiqam,
Yardan qisas gecəsidir.

Görüm

Ay gəlin, aman gəlin, bircə incə belin görüm,
Ay gəlin, yaxşı gəlin, bircəəmbər telin görüm,
Ay gəlin, gözəl gəlin, bircə danış dilin görüm,
Ay gəlin, çinar gəlin, uca qəddü dalın görüm,
Ay gəlin, qönçə gəlin, mən bülbüləm, gülün görüm.

Ay gəlin, əmbər gəlin, siyah qaşın ağrın alım,
Ay gəlin, qəşəng gəlin, xoş baxışın ağrın alım,
Ay gəlin, əcəb gəlin, al qumaşın ağrın alım,
Ay gəlin, göyçək gəlin, yar yoldaşın ağrın alım,
Ay gəlin, getmə gəlin, bircə dayan halın görüm.

Ay gəlin, ziba gəlin, ayna qabaq istəyirəm
Ay gəlin, ötmə gəlin, gül tək yanaq istəyirəm,
Ay gəlin, mərcan gəlin, türfə buxaq istəyirəm,

Ay gəlin, xoşca gəlin, qaymaq dodaq istəyirəm,
Ay gəlin, qəmər gəlin, bir cüt qoşa xalın görüm.

Ay gəlin, töhfə gəlin, sən gəl bizim bağa gedək,
Ay gəlin, gözüm gəlin, istərsən otağa gedək,
Ay gəlin, incə gəlin, gəl qaçıban dağa gedək,
Ay gəlin, eşit gəlin, bir kefə, damağa gedək,
Ay gəlin, ceyran gəlin, bircə gəl bir çölün görüm.

Ay gəlin, durma gəlin, bu kəndlər tamam yaslıdır,
Ay gəlin, təmiz gəlin, üräklər hamı paslıdır,
Ay gəlin, çiçək gəlin, açılıb yazın fəslidir,
Ay gəlin, göyçək gəlin, bilsinlər adın Əslidir.
Ay gəlin, öldü Cuma bir busə ver, balın görüm.



LƏTİF NƏQQAŞ

....

XIX əsrin əvvəllərində yaşayıb yaratmışdır.
Əsas peşəsi nəqqaşlıq olmuşdur.
Müasiri şair Şəkili Rəsul Dülgər kimi peşəsini
özünə təxəllüs götürmüş.
"Nəqqaş" təxəllüsü ilə şeirlər yazmış,
lakin əsərləri küll halında gəlib günümüzə çatmamış.
təvəllüd və ölüm tarixi də dəqiq məlum deyil.
Şəkili Lətif Nəqqaşın bir şeirini Ə.Mümtaz "El şairləri" kitabında
oxuculara təqdim etmişdir.

Miçək

Qurdum hər cür torumu, vermədi fayda miçəgə,
Sataşır gündə gözüm körəkdə, çayda miçəgə.
Hünilər çatmaz inan, ədəddə, sayda miçəgə,
Yoxdur bir hakimi adil qoya qayda miçəgə.

Dadanıb qız, gəlinə çövrü-cəfadır hər işi,
Güc ilən hər şəb alır hər ağ buxaqdan öpüşi,
Bu səbəbdən arayır baqirə qızlar da qışı,
Uğraya çirkin olanlar nola yayda miçəgə.

Dayı-dayı deyibən dayayır ağzın üzümə,
Əmi-əmi deyibən soxur özün lap gözümə,
Yalvarıb "get" deyirəm, baxmayır əsla sözümə,
Razıyam verməyə bac beş tümən ayda miçəgə.

Hanı qeyrətli iyidlər ki, bu dərdə qalalar,
Sübhəcən gözlərini çün yuma bilmir balalar,
Tikilib miçəgə qarşı palıd üstə qalalar,
Əsər etmir çəkilən ahlə vay da miçəgə.

Nəqqaşın bu qələmində elə bir qüvvət hanı,
Miçəgin şəklini çəkib verə həm ona canı,
Göstərib övladına deyə bu yağını tanı,
Olmaya tuş olalar hər ildə, ayda miçəgə.



MAH XANIM

XIX əsr Şəki ədəbi mühitindən söz açan tədqiqatçılar
Mah xanımın adını fəxrlə çəkirlər.
Onun doğum və ölüm tarixi dəqiq məlum olmasa da,
şairənin XIX əsrin ikinci yarısında yaşadığını
müasirləri Mustafa ağa Şuxi və
Mahtab xanımla yazışmaları da təsdiq edir.
Onun Mustafa ağa Şuxiyə yazdığı şeirdən məlum olur ki,
şeir şairənin növrəstə çağında,
şair Mustafa ağa Şuxinin isə ahıl yaşlarında yazılmışdır.
Klassik ədəbiyyatla yanaşı xalq şeirinə də yaxından bələd olmuş,
incə ruhlu şeirlər yazmışdır.
Bir sıra qoşma, çərpərə və satirik şeirləri mövcuddur.
Çox güman ki, Mah xanım şairənin şeirlərində
işlətdiyi şair təxəllüsüdür.

Qoşmalar

Könül, sən pətəyə hər daş atanda,[1]
Bilmədinmi arı şanın gözləyər?
Qaçaq atın saxlar, igid tüfəngin,
Xanzadalar adın, sanın gözləyər.

Ağaların bağçası var, barı var,
İlxısı var, atı, malı, varı var.
Kasıbın da namusu var, arı var,
Ədəb-ərkan saxlar, yaxın gözləyər.

Ağayi-Şuxinin qayğısı azdır,
Kəllə-mənqo olub, canı nasazdır.
Dedim: öz əlinlə qəbrini qazdır,
Ehtiram saxlayan canın gözləyər.

Mah xanımam iqrarımda duraram,
Yolda azanların boynun vuraram,
Qoca kaftar, sənə bir ox vuraram,
Dəymişin tökülər, kalın gözləyər.

* * *

Ey həbəş oğlu, dur tez ol geyin,
Od tutub canım, yandırar məni.
O biinsaf yar heç xəbər tutmaz,
Öldürər axır intizar məni.

Ol bığı burma, əyri xəncərli,
Söz verib getdi, bivəfa çıxdı,
Məndən özgəsini qapında qoysan,
Eylə məzmi bəs şərmsar məni?

Bir dəsmal atdı, bağrıma basdım,
Öpdüm, ağladım, göz yaşım sildim.
Gözlədim gələr, axtarar tapar,
Bu dərdi-qəmdən qurtarar məni.

Namusdan, ardan dəm vuran oğlan,
Sözündə möhkəm olgünən barı.

[1] *şair Şuxiyə yazmışdır.*

Başda papağın yaylıq olmasın,
Müxənnəs gülər, dost qınar məni.

Sən həbəş oğlu, yetir ərzimi,
Mah xanımdan dili-şeydaya.
Ver bu dəsmalı bığı burmaya
Qoymasın haşa, ah-zar məni.

* * *

Ağzın baldı, dilin şəkər Mahitab,
Genə ciyərimin başı söküldü.
Gündüz qərarım yox, gecələr bixab.
Kor oldu gözlərim, belim büküldü.

Genə yarpaqlılar durmuş qəsdimə,
Ya Allahım, damən düşdü dəstimə,
Bu hicran ləşgəri gəldi üstümə,
Hər tərəfdən hücum etdi tökküldü.

Hicranın oduna olmuşam kabab,
Gündüz qərarım yox, gecələr bixab.
Başın üçün doğru sözdür, Mahitab,
Ürək paralandı, cigər söküldü.

Mah xanımam bu sinəmi dağlaram,
Öz yaramı öz əlimnən bağlaram,
Gecə-gündüz sızıldaram, ağlaram,
Qəm carisi sinəm üstə çöküldü.



MAHTAB XANIM

Mahtab xanımın XIX əsrdə
Şəkidə yaşadığı, Mah xanımın müasiri, həmyerlisi və
yaxın rəfiqəsi olduğu ona yazdığı,
əlimizə gəlib çatan qoşmasından məlum olur.
Mahtab xanımın bir qoşmasından başqa onun haqqında
əldə heç bir məlumat yoxdur.
Aşıq şeirinə dərindən bələd olduğu və ona meyl etdiyi,
nikbin ruhlu şeirlər yazdığı bu bir qoşmasından da bəlli olur.

Bu gün

Başına döndüyüm, ay Mah xanım,
O güllü bağlara varmışam bu gün.
Gecə-gündüz cani-dildən sevdiyim,
Qönçə güllərini dərmişəm bu gün.

Səhərdən varmışdım o gözəl bağa,
Bir tuti quş gəlib qondu budağa,
Mübarək qədəmin basdın otağa,
Gizlincə sirrimi vermişəm bu gün.

Dolanıb başına, düşüm ayağa,
Bir canım var, yara verim sadağa,
Əlimdə piyalə qabaq-qabağa,
Yarım, yuxuda görmüşəm bu gün.

Mahtabam, yaman günüm keçildi,
Dolandı saqilər, badə içildi,
Gözün aydın olsun, baxtım açıldı,
Bir ali nəsibi sevmişəm bu gün.



İBRAHİM ƏFƏNDİ NİCATİ

İbrahim əfəndi Mustafa əfəndi oğlu Qazaxda
ruhani ailəsində anadan olub.
Doğum və ölüm tarixi dəqiq məlum olmasa da onun
M.Axundzadə və Kərim ağa Fətehin müasiri olduğu məlumdur.
Hələ uşaq yaşlarında ailəsilə birlikdə Qazaxdan Şəki şəhərinə
köçüb, burada yaşayıb-yaradıb. İbrahim əfəndi Şəkidə zərgərliklə
məşğul olub. 25 yaşınadək savadsız olan,
yazıb-oxumağı bacarmayan İbrahim əfəndi böyük səy edərək
müstəqil şəkildə savad öyrənib.
İbrahim əfəndi qabiliyyəti və çalışqanlığı sayəsində ziyalı bir şəxsə
çevrilir və ömrünün sonuna kimi məktəbdarlıqla məşğul olur.
İbrahim əfəndi "Nicati" təxəllüsü ilə şeirlər yazıb.
Onun poeziyası əsasən dini mövzuda olub.
Allahın tərifinə həsr edilmiş minacat,
peyğəmbərlərin tərəfinə həsr edilmiş nət və
qəsidələrdən ibarətdir.

* * *

Sən ol şahi-risalətsən ki, oldun əvvəlül-əşya,
Ədayi-xidmətində daim olmuş asiman bərpa.

Qüdumi-zati-pakiçün döşənmiş ərzi-gunagun,
Qurulmuş üstünə bu nöh rəvaqi-xeymeyi-xəzra.

Olur "lövlak"dən məfhum ki, bais olduğundan sən,
Neçə min kainatı həqq ədəmdən eylədi peyda.

Təcəllayi-naharasa olan ruyində gisuni
Görən ixlas ilə əzbər edər "vəlleyl iza yəqşa",

Ziyayi-sineyi-safin bəyanidə "ələm nəşrəh"
Mükəmməl gözlərinin mədhini sazağ edər inşa.

Nə əsəd leyldir ol leyl ki, etdin asiman seyrin,
Bu seyrindən edər əbna "sübhanəl-ləzi əsra"

Büraqi bərq rəflar ilə yetdin "qab-qövseynə",
Bil ondan keçməyin izhar edər məzmuni "ovədna".

Bulub feyzin, olub aşiq, qalıb heyranü sərgərdan,
Dolanır başına daim onun çün günbədi-mina.

Humayun bəxti-fərruxfal sən tək puri-dilcuyi
Nə hərgiz görməmiş Adəm, nə əsla doğmamış Həvva .

Görülmüş möcüzatın çox edəndə xəsmini ilzam,
Biri Qurani-baqidir ki, oldur ayəti-kübra .

Nə həddi var edə mədhin, Nicati, naqisü asi-
Ki, nəti-zatına nazil olub "Yasin" ilə "Taha



SƏMƏD ƏFƏNDİ MƏHZUN

....

Doğum və ölüm tarixi məlum deyil.
XIX əsrdə yaşamış Şəki şairlərinin ən ünlülərindən biri olmuşdur.
Kiçik Dəhnə kəndində yaşasa da bölgənin ən hörmətli
say-seçmə nüfuz sahiblərindən olmuş, ərəb, fars dillərini
mükəmməl bilmiş, məktəbdarlıqla məşğul olmuşdur.
Şərqdə ilk "Quran evi" yaratmış, ancaq qırmızı ordunun əsgərləri
onu yerlə-yeksan etmişlər.
Səməd əfəndi bir şair kimi də tanınmışdır.
Lakin əsərləri itib-batmış, günümüzə qədər gəlib çatmamışdır.
Haqqında ilk məlumatı Ə.Mümtaz vermiş, onun
"Mişkat" (Lampa) şeirini "El şairləri" kitabına daxil etmişdir.
Səməd əfəndi Məhzun şair-tərcüməçi
Qoca Xalidin ulu babasıdır.

Mişkat[1]

Vəh, nə xurşid sifət bəzm-səradır mişkat,
Sərbəsər məhfil ara bəzl-ziyadır mişkat.

Hər dənizadələrin yaxması oni nə rəva,
Aşıqü-arifü rindanə səzadır mişkat.

Deməsin şəmi-şəbistan ona bihudə saqın,
Aftabi-fələki-məhfil-cadır mişkat.

Müttəsil şöləfikənlik rəvişin neyyirdən
Kəsb edib ta beshər zevnümadır mişkat.

Bəzm kim söhbəti-xubani-nəzakət-kişan,
Olmaz, ol bəzmdə yandırma xətadır mişkat.

Atəşi-eşqə yanan aşiqi-möhnətzdəyə,
Tutmağa səbr ətəyin nəhci-hudadır mişkat.

Oda bənzər dəhnindən uzadıb dil söylər,
Eşqə mayıldır o bir nari-bəladır mişkat.

Büti-zərnuş şərəfdar bilurin əndam,
Şöləkər nixvətəsər şahi-sinadır mişkat.

Yanmağın şəkvəsini eylədi Məhzun bir şəb
Dedi: səbr eylə ki, ol məndə dutadır mişkat.

[1] *mişkat-ərəbcə çıraq, lampa deməkdir.*

HACIBABA MEHDİZADƏ

1862-1918

Hacıbaba Mehdizadə 1862-ci ildə Cəbrayıl qəzasının Qubadlı rayonunda anadan olmuş, burada molla məktəbində təhsil almış, Şamaxıya köçdükdən sonra bir müddət Seyid Əzim Şirvaninin məktəbində oxumuşdur. Səhhətilə bağlı ona iqlim dəyişmək lazım gəldiyindən Seyid Əzimin məsləhətilə 1888-ci ildən Şəki şəhərinə köçmüş, "Əfqanlar" məhəlləsində yaşamış, burada ailə qurmuş və Rəsul Əfəndinin mədrəsəsinə daxil olub təhsilini davam etdirmişdir. Şəkini özünə ikinci doğma yurd hesab etmiş, ömrünün sonuna qədər də burada yaşayıb – yaratmış, o zamanın ədibləri ilə əlaqə saxlamış, İsmayıl bəy Nakamla yaxın dost olmuşdur.Hacıbaba Mehdizadə şeirlərini "Qazı" təxəllüsü ilə klassik şeirin bir çox şəkillərində, eyni zamanda, könül oxşayan qoşmalar və əlabaxım, yalançı molla, axund və seyidləri tənqid edən həcvlər yazmışdır. Onun əsas yaradıcılığı Şəki ilə bağlı olmuşdur. Bir neçə kitab təşkil edəcək şeirləri olsa da, onlar indiyə qədər toplanıb kitab halında çap edilməmişdir. Qazı 1918-ci ildə Şəki şəhərində vəfat etmiş, burada da dəfn olunmuşdur.

Gələn

Nə gözəl qaməti var sərvi-sənubərdi gələn,
Aləmə şölə salan mahi-müənəvvərdi gələn.

Al qumaş əlbəsəni geydi gümüş gərdəninə,
Vuruban ətri-gülab zülfi-müəttərdi gələn.

Görübən oldu xəcil surətini mahi-minur,
Çəkdi güdrət qələmin gör nə müsəvvərdi gələn.

Gözü şəhla, qəddi bəla çəkilibdir nə gözəl,
Baxışı ahu təki, çeşmi-pürənvərdi gələn.

Üzünün dövrəsinə süfreyi-güdrət deyilir,
Qüdrəti-xaliq ilə gör nə müənbərdi gələn.

Var ümidim ki, bu gün aşiqini yada sala,
Deyəsən gül yanağı laleyi-əhmərdi gələn.

Qaziya, aç gözünü, yollara bax, kəsmə nəzər,
Ağ buxaq, püstə dodaq, sinəsi mərmərdi gələn.

Qaldım

Çəkdim bu qədər qəm, qəmxanədə qaldım,
Meyxanədə içdim meyi, meyxanədə qaldım.

Tökmüşdü şərab badəsini saqilər içrə,
Gördüm qədəhin əldəki peymanədə qaldım.

Məşuqəni gördüm, xalı hər yanə düzübdür,
Qoydum buları mən yanə, bir danədə qaldım.

Mən pərdəni üzdən götürüb eylədim izhar,
Mərdanə danışdım sözü, mərdanə də qaldım.

Yad eylədi xatirdə məni , yadə gətirdi,
Göndərdi mənə naməni, bir namədə qaldım.

Həsrətli gözüm baxmadı didarinə hərgiz,
Fəryadü-fəğan ah ilə min namədə qaldım.

Firqət ələmi atəşini canıma saldı
Hicrində gəzib mən qəmi-hicranədə qaldım.

Qalsam əgər, ey Qazi, mən əğyarlar içrə,
Billah, elə billəm yenə qəmxanədə qaldım.

Gəlmişəm

Aşina olmaq üçün mən aşinayəm, gəlmişəm,
Saxlasan xidmətdə sən, mən bir gədayam, gəlmişəm.

Çox dolandım mən sənin mehrində sayən tək bu gün ,
Məsti-bihuşam dəxi bir dilrübayəm, gəlmişəm.

Cani dildən sevmişəm mehri-məhəbbətdə səni,
Mahi-mehrin çəkməyə ahənrübayəm, gəlmişəm.

Hər tərəfdən bərq vurub, ahim çıxıbdır göylərə,
İndi güya sanki göydən bir havayəm, gəlmişəm.

Kəmtərinəm, bir qulam, al sən məni azad qıl,
Bikəsəm, yoxdur əlacım, binəvayəm, gəlmişəm.

Kari-müşküldür işin, düşdün davasız dərdlərə,
Dərdinə dərman üçün mən bir dəvayam, gəlmişəm.

Qazıyam, bir mürşidi-kaşidən aldım dərsimi,
Mürşidi-kanidən ötrü canfədayam, gəlmişəm.

Var

Sənin tək dilbərin zövqü-səfası var,
Şəkər tək ləblərin dərdə dəvası var.

Müjganın canıma dəydikdə qan tökür,
Fitnədir gözlərin, dərdi-bəlası var.

İçib mey piyaləsin, rəqqasələr təki
Gərməst olub gəzirsən, başının havası var.

Məcnuna bax, tutub virnələr yolun
Çünki başında bunun Leyla sevdası var.

Düzmüsən ağ üzə dürdanə xalları,
Çəkmisən sürməni, gözünün qarası var.

Vurmusan canıma tiri-xədəngini,
Dəymə, yaram sızıldar, canımın yarası var.

Sal bir də xatirinə, nəzərdən salma məni,
Biçarə Qazının xövfü-ricası var.

RƏŞİD BƏY ƏFƏNDİYEV

1863-1942

Rəşid İsmayıl oğlu Əfəndiyev 1863-cü il mayın 24-də Şəki şəhərində anadan olmuş, ilk təhsilini burada mollaxanada almış, sonra Qori Müəllimlər Seminariyasında (1879-1882), Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunda (1895-1900) təhsilini davam etdirmişdir. On il Qutqaşendə (indiki Oğuzda) müəllimlik etmiş, 8 il Tiflis Dini İşlər İdarəsində katib müavini vəzifəsində çalışmış, 16 il Qori seminariyasında (1900-1916) Azərbaycan dili və şəriətdən dərs demiş. Bakı Müəllimlər Seminariyasının direktoru (1918-1920), Şəki Pedaqoji Texnikumunda rus dili müəllimi (1920-1926), həmçinin 1926-1933-cü illərdə də rus dili müəllimi işləmiş. 1924-cü ildə Azərbaycan I ölkəşünaslıq qurultayında Etnoqrafiya Cəmiyyətinin Şəki şöbəsinə elmi katib seçilmişdir. Rəşid bəy XIX-XX əsr Azərbaycan maarifçisi, müəllimi olmaqla yanaşı Azərbaycan yazıçısı kimi də tanınmış, ömrünü məktəb tərbiyə işinə, dərs kitablarının, uşaqların marağını oxşayan pyeslərin yaranmasına həsr etmişdir. "Uşaq bağçası" adlı əlifba kitabı və "Bəsirətül-ətfal" adlı qiraət kitabı Azərbaycanda nəşr edilən ilk dərs kitablarındandır. O, "Qan ocağı", "Əaqqalın kəraməti", "Qonşu-qonşu olsa, kor qız ərə gedər", "Pul dəlisi", "Bir saç telin qiyməti", "Tiflis səfirləri", "Diş ağrısı",

"Təbiətdə əhvalı-məişət" adlı dram əsərlərinin müəllifidir. Əsərləri Bakı, Tiflis və İstanbulda nəşr edilmiş, Azərbaycan və Orta Asiya səhnələrində tamaşaya qoyulmuş, Krılovdan, Puşkindən və Lermontovdan tərcümələr etmişdir. 1961-ci ildə dram əsərləri, 1979-cu ildə isə seçilmiş əsərləri nəşr olunmuşdur. Pedaqoq, şair, nasir, dramaturq, publisist, tərcüməçi və etnoqraf kimi tanınan Rəşid bəy Əfəndiyev müxtəlif janrlarda əsərlər yazmışdır.

O, bir pedaqoq olaraq əsərlərində uşaqlarda elmə, sənətə sevgi, böyüklərə hörmət, təvazökarlıq, qonaqpərvərlik hissləri tərbiyə etməyə çalışmış, onları maarifə, elmə dəvət etmişdir.

Rəşid bəy Əfəndizadə 1942-ci il avqustun 31-də Şəkidə vəfat etmişdir.

Hal-hazırda Şəki şəhərində ev muzeyi fəaliyyət göstərir, adına kitabxana və küçə var.

Qurd

Bir ac qurd meşədən çıxıb bir düzdə dolanırdı ki, görsün qarnını harada doydura bilir. Gördü ki, burada bir quzu otlayır. Yanına gəlib ona dedi :

– Ay quzu, mən səni yeyəcəyəm....

Quzu cavab verdi ki, mən hələ körpəyəm və ətim çox şitdir, gedim duz gətirim, ətimi duzla, sonra ye. Duz bəhanəsi ilə quzu gedib qurddan xilas oldu.

Qurd bir də göz gəzdirib gördü ki, uzaqda bir qoyun dolanır.Yanına gəlib dedi:

– Ay qoyun, mən səni yeyəcəyəm...

Qoyun cavab verdi ki, məni ye, amma qoy bu qabaqdakı dağın üstünə çıxıb oradan oynaya-oynaya üstünə gəlim. Sonra ye...

Qurd razı oldu. Qoyun dağa çıxıb öz sürüsünə qarışdı.

Qurd yenə də göz gəzdirib gördü ki, meşədə bir camış var. Qurd dedi ki, səni yeyəcəyəm. Camış cavab verdi ki, mən göldə yatıb üst başımı torpağa, palçığa bulamışam. Qoy barı bu meşədəki ağaclara sürtünüm, torpağım, tozum tökülsün, sonra ye. Qurd buna da razılıq verdi. Camış bu bəhanə ilə qaçıb yaxındakı naxıra qarışdı.

Qurd bir də göz gəzdirib gördü ki, bir at otlayır. Buna dedi ki; ay at, səni yeyəcəyəm...

At da ona cavab verdi ki, mənim atam bir kağız yazıb dal ayağımın dırnağının arasına qoyubdur. Onu qabağa al oxu, sonra ye...

Qurd buna razı olub keçdi atın dal ayağının bərabərinə. At da dal ayağını bir az qaldırıb qurdun alnından bir təpik vurdu. Qurd qəşş eylədi. At onu belə qoyub qaçdı.

Qurd gecdən-gec ayılıb öz-özünə belə məzəmmət eylədi:

Ay qurd!

Getdin gördün quzu,
Neyləyirsən istiotu, duzu?
Ye, qalsın iki buynuzu!
Getdin gördün qoyun,
Neyləyirsən oyun-moyun?
Ye, qalsın quruca boyun!
Getdin gördün camış,
Neyləyirsən torpağın, cumuş?

Ye, yanındaca domuş!
Getdin gördün at,
Neyləyirsən kağız, barat?
Ye, yanındaca yat!

Qırqovul

Qırqovul nə gözəl quşdu,
Biri bir gün koldan uçdu,
Camalına gözüm düşdü.
İstədim onu səsləyim:
Qaçma, gəl səni bəsləyim.

Qırqovulum-halal heyvan,
Boynu, başı, döşü əlvan,
Dağdan qaçıb, düzdə uçan.
İstədim onu səsləyim:
Qaçma, gəl səni bəsləyim.

Qırqovulum cüt-cüt gəzər,
Dağı-düzü hüsnü bəzər,
Yerdə səkər, göydə süzər.
İstədim onu səsləyim:
Qaçma, gəl səni bəsləyim.

Taxıl bitkiləri

Çəltik deyir:
Taxılların başıyam,
Döyülməmiş naşıyam.
Pullunun plovuyam,
Kasıbların aşıyam.
Buğda deyir:
Mənə buğda deyirlər,
Çörək yapıb yeyirlər.
Hər gün məni yeməyi
Halva tək istəyirlər.
Darı deyir:
Darıyam xaşxaş kimi,
Buğdaya qardaş kimi.
Buğdasız təkcə məndən
Çörək bişər daş kimi.

Fəsillər

Qar gedər, yer açılar,
Göydən rəhmət saçılar.
Çəmən, çiçək açılar,
Bil,bu hansı fəsildir .

Quşlar bala balalar,
Maldar ot-ələf çalar,
Sünbül çıxar, dən olar,
Bil, bu hansı fəsildir.

Meyvə dəyib dərilər,
Xırma-taxıl döyülər,
Aləm behiştə dönər,
Bil, bu hansı fəsildir.

Qar aləmi ağardar,
Xalq malı dama salar,
Hər evdə ocaq yanar,
Bil, bu hansı fəsildir.

Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır,
Üçü yığıb gətirir,
Üçü vurub dağıdır.

Durna

Ey havada uçan durna,
Bizi qoyub qaçan durna.
Get, xoş gəldin, səfa gəldin,
Gələcəksən haçan, durna?

Göy çəməndə gəzən durna,
Su üstündə süzən durna.
Gəl bir, gözüm görsün səni,
Al yaşıla bəzən, durna!

Getmə, getmə, gözüm durna,
Sənə var bir sözüm, durna.
Sən gedəndə necə sənin
Həsrətinə dözüm, durna!

Qarğa və tülkü

Qarğa ağzında bir qırıx pendir
Qonuban sərvə, eyladi tədbir.
Ki, yesin onu... bir qədər duruxub
Pendir ağzında fikr edirdi baxıb.
Tülkü yügrək keçirdi o yerdən,
Burnuna dəydi iy o pendirdən.
Tülkü dərhal dayandı, bir baxdı
Pendirə, ağzının suyu axdı.
Dırnaq üstə yanaşdı sərvə sarı,
Bulayıb quyrüğun baxıb yuxarı,
Dedi nazü nəzakət ilə yavaş
Qarğaya: – Qarğa, ey əziz qardaş!
Nə gözəlsən, sürahi gərdənsən,
Qaragöz varsa, bir gözəl sənsən.
Pəh! Qanad, quyruğu, nə dimdiyi var,
Çox gözəl bunda sövt olar, səs olar.
Heç utanma, oxu, amma qardaş,
Yox gözəllikdə kimsə səndən baş.
Bu camal ilə, bəlkə, vallahı
Olasan cümlə quşların şahı...
Mədhü tərifə aldanıb qarğa,
Fərəhindən də dilləníb qarğa,
Bir qağıltı çıxartdı genzikdən,
Pendirin saldı qarğa dimdikdən.

ÇARIQÇI MƏHƏMMƏD ŞƏMƏMDUZ

1867-1899

Məhəmməd Səlman oğlu 1867-ci ildə Şəki şəhərində anadan olub.
Çörəyini çarıqçılıq peşəsi ilə qazandığından
Şəkidə çarıqçı Məhəmməd kimi tanınıb.
Şəməmduz onun şair təxəllüsüdür. Kasıb həyat keçirmiş,
ancaq şeirləri ilə öz dövründə böyük şöhrət qazanıb.
Kasıbçılıq ucbatından da mükəmməl təhsil ala bilməyib.
Özü sərbəst çalışmaqla oxumaq və yazmaq öyrənib,
ancaq yenə də çarıqçı peşəsi ilə məşğul olub.
Fitri istedadı və anadangəlmə şairlik təbinə sığınaraq
ilhamlı şeirlər yazmışdır.
Çarıqçı Məhəmməd Şəməmduz həm əruz vəznində-klassik şeirin
ayrı-ayrı janrlarında, həm də hecа vəznində
könüllər oxşayan şeirlər yazıb.
Məhəmməd Şəməmduz gənc yaşlarında – 32 yaşında
1899-cu il iyul ayının 4-də Şəki şəhərində vəfat edib.

Qəzəl

Çün qəza tiri səni etdikdə nişan, ağlama!
Bax, əlacın var isə, tut qarşı qalxan, ağlama!

Çərxi-kəcrəftar özü sən kimi bir məxluqdur,
Sən də qıl öz dərdinə hər dəmdə dərman, ağlama!

Aşiqi-sadiq olan hər dərdə qatlanmaq gərək,
Səbr qıl, səbr əhlinə yavəri-sübhan, ağlama!

Tab qıl, ol Qeys tək Leyladən ayrı düşmüsən,
Olmadın Məcnun kimi səhrada üryan, ağlama!

Ey həkima, ibrət al hər dəm baxıb pərvanədən,
Aşiqin olmaq gərəkdir bağrı suzan, ağlama!

Həqqin "üsrən yüsrən" hökmün hər zaman sən yad qıl
Pak "ələm nəşrəh"dədir bu əmri-yəzdan, ağlama!

Aqilü huşyar olan etmək gərək sirrin nihan,
Öldürür bu qəm səni, bihudə pünhan, ağlama!

Hər görən insanı dost sanma, cahanda aqil ol,
Nari-neyrandan bətərdir təni-düşman, ağlama!

Sən vüqar ilə qəmi-hicran çək, kamildən ol,
Saxla sirrin, etmə şikvə, gəzmə hər yan, ağlama!

Yetmədi məqsudinə bir kəs riyazət çəkməmiş,
Səbr edib zindanə Yusif oldu sultan, ağlama!

Sor müalic dərdinə bir vaqifi-əsrardən,
Umma nakəs kimsələrdən fəzlü ehsan, ağlama!

Hər nə müşkül dərd olursa, bulunur dərman ona,
Eşq dərdinə müalic olmaz imkan, ağlama!

Görmədim mən bir rəfiqi e'tibarı var ola,
Qalmayıb aləmdə heç bir əhdü peyman, ağlama!

Ey Şəməmduz, ol xuda müşkülgüşa olmuş bizə,
Necə müşkül karın olsa, eyler asan, ağlama!

***

Mən sanırdım, nasir, səni dərdmənd,
Bu aləmdə hər bir dili qanmısan!
Bir gül idin [sən] ol şeir bağında,
Mart ayında bir qar yağıb, yanmısan.

Aşiq gərək ah edəndə qan tökə,
Bir məsəldir: nər yükünü nər çəkə,
Yazmış idim neçə kəlmə məzhəkə,
Nə şairsən, məzhəkədən sönmüsən?!

Sınan kimsə neçün girər meydana,
Şair gərək hər nöqtədən şey qana,
Piri-müğan gərək duraq divana,
Zərafəti ləntəranə salmısan.

Onun üçün tənə yazırsan mana,
Bundan sora sataşmaram mən sana,
Tap, ver oxut dilbilən yoldaşına,
Zənnin itib sən qəmə boyanmısan.

Hər bəzmdə ariflikdən dəm vuran,
Bais nədir oldun belə bədgüman?!
Sitareyi-sübh ilə karvan qıran,
Fərq etməyib bixəbər oyanmısan.

Çox iş gəlir eşq əhlinin başına,
Aşiq gərək sui-zəndən daşına,
Çatdırmısan sinni əlli yaşına,
Zaye qılıb bihudə dolanmısan.

Şəməmduzam, baxmaram hər kəlama,
Şair gərək düzə nəzmi nizama,
Aşiqdə səbr olur yetincə kama,
Rəfiq ikən rəqibə inanmısan.

NURMƏHƏMMƏD ƏFƏNDİ

1869-1930

İmamzadə Nurməhəmməd əfəndi Hacı Abdulla əfəndi oğlu
1869-cu ildə Şəki şəhərinin Qışlaq məhəlləsində anadan olmuş.
15 yaşınadək Şəkidə təhsil alıb, ərəb, fars, türk dillərini öyrənib.
Sonralar oxumaq üçün Türkiyəyə və Misirə getmişdir.
Bursa və Konyada ali ruhani məktəbində təhsilini davam etdirib,
yaxşı oxuduğuna və təhsildə fərqləndiyinə görə
Misirə "Əl-Əzhər" Universitetinə göndərilmişdir.
Təhsilini tamamlayıb Şəkiyə qayıtmış,
burada birinci Cümə məscidinin imamı təyin edilmişdir. (1881)
Nur Məhhəmməd əfəndi fiqh, şəriət, dilçilik (ərəb və fars dilləri)
fəlsəfə və.s elmlərə dair yüzdən artıq əsər yazmışdır ki,
bəzi əsərləri Azərbaycan E A-nın Əlyazmalar İnstitutunda saxlanılır.

MUSTAFA BƏY ƏLİBƏYOV

1872-1943

Mustafa bəy Cabir oğlu Əlibəyov 1872-ci ildə Şəki şəhərində anadan olmuş, əvvəlcə mollaxanada, sonra üçüncü dərəcəli şəhər məktəbində oxumuş. Tiflis gimnaziyasını bitirmişdir (1892). Bakı quberniyası dairə məhkəməsində tərcüməçi və vəkil işləmiş (1892-1920), aprel işğalından sonra Şəkiyə köçmüş, burada mühüm işlər üzrə xalq hakimi, hüquq bürosunun müdiri olmuşdur. Mustafa bəy ictimai fəaliyyəti ilə yanaşı bədii yaradıcılıqla da məşğul olmuş, nasir, publisist, dramaturq kimi də tanınmışdır. Mustafa bəy Əlibəyov ixtisasca həkim olmuş, həyat yoldaşı Xədicə xanım Əlibəyova – Şübhanquliyevanın redaktorluğu ilə "İşıq" adlı ilk Azərbaycan qadın qəzetini nəşr etdirmişdir (1911-1912). Mətbuat səhifələrində həm açıq, həm də gizli imzalarla çıxış etmiş "Yaşıl qələmlər cəmiyyəti"nin fəal üzvlərindən biri olmuş, "Məhkəmələr qapısında tökülən qanlı göz yaşlarımız" faciəsinin, "Cəllad mülkədarın qurbanı" kinossenarisinin, "Abşeron neft cəzirəsi" publisist əsərinin və s. müəllifidir. Mustafa bəy Əlibəyov

1937-ci ildə qırmızı imperiyanın cəlladları tərəfindən həbs edilərək sürgün edilmiş (8 il), "Cəzanın" çəkilib qurtarmasına beş ay qalmış, sürgündə vəfat etmişdir.

"Məhkəmələr qapısında tökülən qanlı yaşlarımız" pyesindən

Üçüncü məclis

Vaqe olur Fərzəli Məhəmməd oğlunun evində. Ev kənd evidir. Bahalı fərş ilə döşənmiş, axund Molla Hacıbaba başda əyləşib, onun yanında kənd Mirzəsi, kəndlinin iki nəfər qohumları və bir neçə qeyri adamlar kənarda əyləşiblər. Ev sahibi bunlara çay gətirir. Bu arada söhbət başlanır.

EV SAHİBİ. Dünən bazarda məni vəkil dəllalı Mirzə Behbud gördü və dedi ki, onun əlində bu saat bir böyük vəkil var nə istəsə eyləyə bilər. Prokuror onun əlində, işə baxanlar onunla qardaş kimidirlər. Özü də mənə tapşırdı ki, sabah bizə gəl, vəkil barədə bir qədər koftku edək. Bunu mənə dilmanc da demişdi. Dünən də qazamatdan Kərbəlayi Fərzəli sifariş edibdir ki, bu işdə pul əsirgəməyib böyük vəkil tutsunlar ki, sudlar ilə Onun əlaqəsi olsun... (Bu əsnada qapı döyülür. Vəkil dəllalı Mirzə Behbud içəri daxil olub salam verib əyləşir).

AXUND. Və Əleyksalam və rəhmətulla və bərəkəta. **Xoş** gəldin, ay mirzə sən Kərbəlayinin işini bir yol üstə qoymağı boynuna çəkirsənmi?

DƏLLAL. Bəli, axund, amma yəqinin olsun ki, bunların işi çox çətindir. Bunlara da bu gorbagor olmuş öldürməyə deyəsən yer qəhət imiş, gedib onu atıblar harada, **kazonni** şkolanın qabağında, matuşka da öz gözü ilə görüb, şahid keçibdir. Qorxum budur ki, okrucnoj suddan bu işi alıb versinlər voenni suda və bunlar da dustaqları dara çəksinlər.Amma mənim əlimdə bir vəkil var ki, çox zorba adamdır. Onun qohumları Tiflisdə sərdar ilə, palatada işə baxanlar ilə, Peterburqda böyük-böyük adamlar ilə durub otururlar. Özü də burada prokuror ilə və işə baxanlar ilə əlbirdir. Zalım oğlu hansı dustağı istəsə, iki saata kimi buraxar. Axund, and olsun, sizin başınızdakı nurlu əmmaməyə ki, bu vəkil sudda reç danışanda işə baxanlar gözlərini bərəldib buna bir sayaq baxırlar ki, ağızlarından su tökülür. Çox vəqt də çətin məsələləri olanda gəlib ondan soruşurlar.

AXUND.A mirzə Behbud, bu vəkil nə vəqt gəlibdir?Və harada oturur?

DƏLLAL.Təzə gəlibdir.Özü də qabaqda Tiflisdə böyük sudda olmuşdu. Amma iş burasındadır ki, bu başqa vəkillər kimiaz pula iş görən deyildir. Az pul verib işi uduzmaqdan isə heç kökündən vəkil tutmamaq daha yaxşıdır. Əgər vəkil tutmaq xəyalınız var isə çörəyi çörəkçiyə verin, bir çörək də üstəlik...

AXUND.Bəli, çox gözəl buyurursunuz.Bu söz çox gözəl sözdür. Əlbəttə, əlbəttə.Gərəkdir işə düşən kimsənə ağına, bozuna baxmasın. Dünyanın hər işini pul görər.Bəgəm axirəti də pul ilə satın almaq olur. Amma doğrudur, ki, gərək hər işi əhlinə verəsiniz. Belə vəkilə hər nə versəniz itməz, çünki yə'ni pul həllali müşkülatdır. Və müşkülləri açandır, buyurublar.

EV SAHİBİ. Mirzə Behbud, doğru deyirsən. Qardaşım özü də dünən sifariş eyləyibdir ki, pul əsirgəməyib, böyük vəkil tutun.

DƏLLAL.Kərbəlayi, doğrudur, burada əlli manata, yüz manata izafəsi yüz əlii manat vəkil tutmaq mümkündür.Bu şəhərin Təbriz hamamı kimi müştəridən çox dəlləkləri vardır.Amma mən deyən vəkil evin dağılmasın, prokuror ilə əlbirdir.İş kəsənlər ilə əlbirdir.Bunların hər birinə ağızdan qabaqja min manat verilməsə, o işi boynuna çəkib suda getməz. Buna da səbəb odur ki, sudda işə baxmaq əvvəl adamın ədalət divanında qurtarmağını ya qurtarmamağını biləcəkdir.Bu vəkilin hələ başqa işləri və başqa tədbirləri də olur.Bu lap şeytan fikirli bir adamdır.Bə'zi işləri kəsən vəqt görürsən işi yüngül göstərib ağır təhbiyə kəsdirir. Amma iş palata gedən kimi müqəssirləri həbsdən azad eləyirlər. Hələ sudlara da töhmət yazırlar ki, onlar nə üçün bu vəqtə kı'mi bu məzlumları buraxmayıblar. Çox ola bilir ki, sizin də bu işinizdə bu cürə haramzadalıq eyliyə. Dəxi başınızı nə ağrıdım.Bu bir canavar kimi hərifdir. Vallahi çərx altında bunun əlindən heç bir iş qurtara bilməz. Qardaş, «dəmiri kürədən dəmir çıxardar». (bu halda Mirzə Mustafa bəy içəri girib, salam verib, əyləşəndən sonra axunddan soruşur)

MİRZƏ MUSTAFA BƏY. Cənab axund, işi nə qayda ilə vaqe etməyə sə'y buyurursunuz? Vəkil tutdunuzmu, yoxsa yox? (Dəllal qapıya tərəf yavuqlaşıb getmək istəyir. Üzünü axunda tərəf tutub deyir).

DƏLLAL.Cənab axund, söz o sözdür.Sabah axşama bir saat qalmış gözləyiram, bərabərlikdə gedərik.Xudahafiz. (Deyib qapıdan çıxır)

AXUND. *(Mirzə Mustafa bəyə)* Bəli, bu gedən oğlan bir vəkil tutubdur ki, həm özü danışacaqdır, həm də iş kəsənlərə qonaqlıq eləyib, pul verəcəkdir. Çünki iş kəsənlər vəkil ilə əlbirdirlər.

MİRZƏ MUSTAFA BƏY. *(Qeyz ilə ayağa durub).* A kişilər, bu nə oyundur, bizim başımıza gəlir. Biz müsəlmanlar nə vəqtə kimi qəflətdə qalacağıq? Bizim elmimiz yox, mə'rifətimiz yox, hər kəs də əqlinə gələni danışır... Ədalət divanında əyləşib iş kəsənlərin hər birisi elm, mərifət və vicdan ərbabıdırlar. Heç kəs o yerdə haqqı nahaqqa verməz.Zalıma tənbiyə eləməkdən çəkinməz, məzlumiara mərhəmət etməyi müzayiqə etməz. Bir qəpik pul almazlar. Bunların adlarına alınan pullar sərasər yalançı vəkillərin, ortalıqda gəzən dəllalların və belə-belə biinsaf və bimürüvət şəxslərin cibinə daxil olur. Bunlar qabaqlarına rast gələn adamları quldurlardan bədtər aldadıb və pullarını alıb ciblərinə doldururlar. Bu müsəlmanların evini belə-belə dəllallar yıxdı, viran elədi. Bir tərəfdən də sizin kimi əmmamə mollaları camaata pişro olub, bizim elm sahibi və müqəddəs axundlarımızın adlarını rusvay edib, milləti avamlıqda, cəhalətdə saxlayırsınız. Və sizin kimi elmsiz axundlar minbərə çıxan kimi buyurursunuz şəhadət belə ketdi, namazın şəki, səhvi eylə getdi, başına şapka qoyan adam kafir olur, qız uşağı məktəbə getsə bihəya olur, müsəlman xanımları yazmaq, oxumaq bilsə,isməti bada verirlər.

AXUND. A bəy, o işlərin sənə nə dəxli vardır?Şəriət sözlərinə müdaxilə etməyə sənin nə haqqın var? Bu iş başqa, o iş başqa. İki kəlmə «şito, mişto» öyrənmisiniz istəyirsiniz şəriəti də ixtiyarınıza alasınız.Sənin üçün çox eyibdir ki, vəkil, sud söhbətinə şəriət sözünü də qatırsan. Odur ki, buyurublar: hər kimdə həya olmasa, iman da olmaz. Həya odur ki, hər kəs öz işini aparsın. Sənin nə haqqın var, şəriət sözünü danışasan! Bu sözlərin sənə nə dəxli var?

MUSTAFA BƏY. Necə nə dəxli vardır?Belə də söz olarmı?Hökmi-şəriət ilə bir şəxs müsəlman olub şəriətini bilməsə, o müsəlman deyil, mən axund olmasam da, öz şəriətimizi yaxşı bilirəm və anlayıram. Siz cənablar bilə-bilə hərəkətləriniz ilə islam millətinin evini yıxdınız. Maarif gülüstanımızı viran edib bərbad etdiniz.Hər əhməqin ağzından qonaqlıq eləyib, pul verəcəkdir. Çünki iş kəsənlər vəkil ilə əlbirdirlər.

ABDULLA BƏY ƏFƏNDİZADƏ

(Şəkili Abdulla bəy)

1873-1928

Abdulla İsmayıl oğlu Əfəndizadə 1873-cü il martın 3-də Şəki şəhərində anadan olmuş, əvvəl Şəki şəhər rus məktəbini, sonra Gəncə Mixayılov Sənət məktəbini bitirmişdir. Şəkidə qurtardığı məktəbdə iki il müəllim işlədikdən sonra, Tiflis Aleksandr Müəllimlər İnstitutuna daxil olmuş. 1899-cu ildə orada təhsilini tamamlamış,həmin ildə Bakıya gələn gənc müəllim şəhər ikinci rus-türk məktəbində müəllim işləməyə başlayıb. Tərcümə sənəti ilə məşğul olmuş, rus klassiklərindən İ.A.Krılov və M.Y.Lermantovun əsərlərini Azərbaycan dilinə tərcümə edərək kitabça şəklində,eyni zamanda topladığı folklor örnəklərini rus dilinə çevirərək SMOMPK toplusunda çap etdirmişdir. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinə üzv seçilmiş, bədii yaradıcılıqla məşğul olmuş, latın əlifbasına keçmək layihəsini hazırlamış (onun bu layihəsi parlamentdə bəyənilmişdir). Azərbaycan Pedaqoji İnstitutunda məntiq fənnini tədris etmişdir. Uşaqlar üçün şeirlər, hekayələr yazmış, "Ya ölüm, ya Türkiyə" adlı siyasi lirikanın örnəklərindən ibarət olan kitabı 1919-cu ildə Şəkidə "Mədəniyyət" mətbəəsində çap olunmuşdur. Rəşid bəy Əfəndiyevin qardaşı, Hikmət Ziyanın babası olan Abdulla bəy Əfəndizadə 1928-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Növhə

Ərzurum qalasının ruslar lərəfindən işğal edilməsi və Qars müsəlmanlarının düşmən pənjəsi altında əzilmələri münasibəti ilə

Xudavəndə, hər iqlimə qılıbsan çarə yüz yerdən!
Nədəndir bəs bizim millət olub biçarə yüz yerdən?

Hesabca milləti-islam üçüz (üç yüz) milyonu keçmişdir,
Nə hikmətdir həmin millət olub səd parə yüz yerdən?

Hanı İran? Hanı Turan? Hanı Şah Əkbərin təxti?
Dönüb bu aləmi İslam xarabazara yüz yerdən!

Qazan getdi, Krım getdi, Mərrakuş, Əndəlis getdi,
Buxara məhv olur dini satıb dinarə yüz yerdən!

Tarablis, Əlcəzair, Misir, Tunis, Xivə puç oldu!
Dağıldı aləmi-islam parə-parə yüz yerdən....

Səlatinli-şahənşahani[1]-millətdən bir ad qaldı,
Xilaftgahi-islamə uruldu[2] yarə yüz yerdən!

Səlim, Osman, Ərtoğrul Bayəzid, Fatehin nəsli,
Bu aslanzadələrdir tək verən can yarə yüz yerdən.

Pənahı müsəhnanın qaldı tək osmanlı ordusuna!
Həmin ordu urdu[3] başın daşa-divarə yüz yerdən!

Bu millət altı yüz ildir, edir övladını qurban....
Qoyur canın, tökür qanın, açıb fəvvarə yüz yerdən!

Kəlami-Allahı, dini hifz edən bu qəhrəmanlardır,
Birə yüz düşmənə qarşı çaiandır yarə yüz yerdən!

Məhəmməd-Müstəfanın, Kəbənin, şahi-şahidanın
Bu millət xadimidir kim, düşüb azadə yüz yerdən!

Aya, ey milləti-ali! Dönübdür çərxi islamın,
Vətən qan ağlayır indi, geyinmiş qarə yüz yerdən.

[1]*şahlar –şahı, sultanlar sultanı*
[2]*vuruldu*
[3] *vu*

Təcavüz eyləyir düşmən sərasər ərz namusa....
Bizim ümidimiz sənsən, buna qıl çarə yüz yerdən!

Həbibi-Allahı qıl hali, gəlib görsün bu əhvalı,
Nədəndir söyləsin, millət qalıb avarə yüz yerdən.

Təmənna qılsın Allahdan bizə namus, sizə hikmət,
Bizə qeyrəti məhəbbət... Sizlərə bir çarə yüz yerdən.

Ümid

Sibirya, Romaniya, Rusiya və qeyriləri münhəzim olmaq münasibəti ilə

Deyəsən bizlərə Tanrı bu dönüş sayə salıb,
Baxıram hər tərəfə, düşməni ah-vayə salıb...

Tarixi seyr elə gör, bir nə edibdir düşmən....
İndi tədbiri nədir, aləmi hay-hayə salıb?

Misiri, Hindi tutan ingilisi-düşməni-din
Bu dönüş hiylə oxun Bəsrəyə minayə salıb.

Əlcəzayirü-Mərraküşlə Tarablus, Tunis
Düşmənə loxma olub, millətə bir qayə salıb.

Səltənətlər dağıdan hürr Firəngistana bax!
Meylini indi də Şamə bu fərumayə salıb...

Qazanı, həm Krımı, Qafqazı, həm Turanı
Şimal ayısı udub, meyli Buxarayə salıb....

Kərbəla, Məkkə, Mədinə, Məşhədü Qüdsi-şərif
Gör bu gün düşməni -dini necə sövdayə salıb?!

Xayinnanə buluşur Türkiyəni, İranı!
Əfqanistanı, Bellucistanı sonrayə salıb.

Fatehin məscidinə xaç tikəcəkmiş məlun!...
Səlimin mülkünü bayquş yıxıcaq vayə salıb!...

Həmdülillah ki, rəva gömlədi bu zülmü xuda,
Məscidin məxrəbini səmti-kəlisayə salıb!

Qəhrəmananə hücum eylədi düşmənlərinə
Türkün ordusu nəhayət oxunu yayə salıb.

Ol səbəbdən bizə ümmidi-nicat oldu bu gün
Əhli-imani xudamədsədi[1]-mavayə salıb!

Bizə məxsus edilən bügzü, nifaqı Tanrı
Kafiristanə bu gün qismət edib, mayə salıb!

Bu gürüh alį-müsəlmanə rəva gördüyünü
Döndərib bari-xuda ümməti-isayə salıb.

Ayıq ol, türk, ərəb, fars, tatar əqvamı!
İtirib qüvvəsini ol kəs ki, ərzi rayə salıb.

İntiqam almalısan, bay, gəda, müttəfiqol!
Fürsəti fövt eləmə milləti qovğayə salıb!

Nüsrətin gör ki, xudanın necə tədbir elədi,
Qəhrəman nemsələri türklərə həmsayə salıb!

Zövqiya! Sən də bu gün canını qurban eylə!
Vətənin meylini çün aşiqi-şeydayə salıb...

[1] *məskən, mənzil, yurd*

KƏRİM MUSAYEV

1878-1949

Musayev Kərim Abdurahman oğlu - Aşıq Kərim 1878-ci ildə
Şəki şəhərinin Qışlaq məhəlləsində anadan olub.
Kiçik yaşlarında atasını itirən Kərimin uşaqlığı muzdurluqla keçib,
gənc yaşlarından isə bənnalıqla məşğul olub. Sonra o
həyatını saza-sözə bağlayıb. Şəkinin ustad aşıqları ilə dostluq edib,
aşıq sənətini mükəmməl öyrənib.
Şəkinin ən məşhur aşıqlarından olub, toy-düyünlərdə
çalıb-çağırıb və hörmət qazanıb.
Dövrünün çatışmamazlıqlarını və eybəcərliklərini tənqid etdiyinə,
yazdığı həcvlərə görə təqib olunmuş, saxta şikayətlər əsasında
dəfələrlə həbs olunmuşdur. Gəncliyində Şəkidə və ətraf
kəndlərdəki toy şənliklərində qız-gəlinin gözəlliyinə
bədahətən şeirlər söyləməsi də başına bəlalar açmışdır.
Aşıq Kərim 1949-cu ildə faciəli və müəmmalı şəkildə vəfat edib.
Salman Mümtaz "El şairləri" kitabına
Kərimin bir neçə qoşmasını və gərayılısını daxil edib.

Mən

Rəhm et mənə gül üzlü yar,
Qəribü binavayam mən.
İstərəm hüsnün zəkatın,
Müstəhəqqəm gədayəm mən.

Cevrinən gəldim əmanə,
Gözüm yaşı döndü qanə.
Səninlə oldum biganə,
Qəminlə aşinayəm mən.

Başımdır yoluna fəda,
Sənə insaf versin xuda,
Çünki düşdüm səndən cida,
Dəli və divanəyəm mən.

Qurbanam ol şirin dilə,
Rəhm elə mən tək bülbülə.
Çünki düşdüm dildən dilə,
Qəribə əfsanəyəm mən.

Kərim aydar yet, gəl dada,
Yetir, gəl könlümü şadə,
Beş gün bu fani dünyadə,
Misali-mehmanəyəm mən.

Düşübdür

Çərxi-fələk qismət edəndə ruzi,
Qəmi-gərdun dili-zarə düşübdür.
Cəfasın çəkdiyim türfə növcavan,
Məndən küsüb çox kənarə düşübdür.

Nə zaman düşmüşəm yardan ayru,
Çəkirəm dərdini möhnətə qarşu,
Rəhm eylə halıma ey büti-xoşxu,
Görməyəsən aşiqin, avarə düşübdür.

Əritdi cismimi atəşi-hicran,
Yetiş fəryadıma qadiri-sübhan,
Biçarə Kərimən halı pərişan,
Məcnun olub bu dağlara düşübdür.

HÜSEYN QƏMNAK

XIX əsrdə yaşayıb yaratmış təvəllüd və
ölüm tarixi məlum deyil.
Şəkinin Yuxarıbaş məhəlləsində yaşamış,
lirik şeirləri ilə tanınmış və yüksək hörmət sahibi olmuşdur.
Şeirlərində Şəkili Qəmnak təxəllüsündən istifadə etmişdir.
Şeirlərindəki xəlqi ruh, kədərli notlar onun
incə qəlbə malik bir şair olmasından xəbər verir.
Hüseyn Qəmnak haqqında ilk məlumatı Ə.Mümtaz vermiş,
onun bir şeirini "El şairləri" kitabına daxil etmişdir.

Ağlaram

Keçən günü, ay gül üzlü dilbərim,
Yada salıb, vallah, yarım, ağlaram.
Hər bir yerə getsə mənim xəyalım,
Könül anar, məhrüxsarım, ağlaram.

Əvvəl məhəbbəti bünyad eylədin,
Sonra bivəfalıq icad eylədin,
Aləmi şad, məni naşad eylədin,
Mən gedərəm, gülüzarım, ağlaram.

Mən valehəm sənin xətti-xalına,
Əlvanına, yaşılına, alına,
Könül quşu məftun olmuş halına,
Gecə-gündüz, ey nigarım, ağlaram.

Didarına mən müştağam, mən müştaq,
Vəqtü bivəqt çəkməkdəyəm iştiyaq,
Öldürəcək Məcnunu bu fəraq,
Ol səbəbdən işvəkarım, ağlaram.

Qəmnak, sevibsən dili-rənanı,
Adın bürümüşdür bil Əlosmanı,
Divanəni, gözünü aç, bir tanı,
Məczubəm mən, yox qərarım, ağlaram.

DƏLİ BƏBİR

XIX əsrdə yaşayıb yaratmışdır.
Doğum və ölüm tarixi dəqiq məlum deyil.
Adındakı "Dəli" sözü indiki məna yükündə yox,
şeirlərindəki gəncavərlik ruhu, təbiətindəki igidlik, cəsurluq,
qorxmazlıqla bağlı ola bilər.
Rəvan təbə malik olan şairin bir müəddəs-müstəzadını
Ə.Mümtaz "El şairləri" kitabına daxil etsə də,
haqqında geniş məlumat vermir. "El şairləri"nə daxil edilmiş
Dəli Bəbirin şeirindəki ədəbi tələffüz, xəlqi ruh,
oynaq ritm müəllifinin ünlü bir şair olmasından xəbər verir.

Cığalı müxəmməs

Dilbər, sənin ol gülşənü və gülzarına qurban,
On dörd gecəlik ay təki ruxsarına qurban,
Əyri qaşına, türreyi-zər tarına qurban,
Süzgün gözünə, nərgisi xumaruna qurban.
Ey sevgili yarım,
Ey türfə nigarım,
Sənsən gülüzarım,

Yox səbrü-qərarım.
Xəllaqına, peyğəmbərinə, tanrına qurban.

Gər ərşi-fələkdən yenə yüz huri-cəhanə,
Görməz sənə bənzər gözəli çeşmi-zəmanə,
Morğani-çəmən gördü rühün, çəkdi zəbanə,
Başlandı gözəl nəğmə, xoş ahəngü, təranə,
Yandım mən, aman yar,
Qaşları kaman yar,
Ey ruhu rəvan, yar,
Zülmündən usan yar,
On dörd gecəlik ay təki rüxsarına qurban!

Xali-siyahin qara qalıb rəngi-bəlalı,
Qöftari-ləbin şirin edib şəhdi-zülali,
Əbrulərin yaytək əyib göydə hilali,
Yengi ayının yoxdu bu dünyadə zəvali,
Ey cahü cəlalım,
Ey mah cəmalım
Ey bədrü hilalım,
Gəl, qadanı alım,
Əyri qaşına, türreyi-zərtarına qurban!

Gəl eşqinə sərvi-xuraman sən ol, gəl!
Məczubuna, məftununa canan sən ol, gəl,
Qara gününə mehri-dirəxşan sən ol gəl
Ey sərvi-rəvan, zülfi-pərişan sən ol, gəl,
Ver zib cəmalə,
Yax vəsmə hilalə,
Ey bircəyi halə,
Ey gözləri alə,
Süzgün gözünə, nərgisi-xummarına qurban!

Çun dərdim olub, ruzi əzəldən sənə məlum,
Mövzun bəyatilə qəzəldən sənə məlum,
Yoxdur üzümün fərqi xəzəldən, sənə məlum,
Çəkməz əlin üşşaq gözəldən, sənə məlum,
Ey dilbəri-tənnaz,
Ey sovləti şəhbaz,
Etmə Bəbirə naz,
Gəl, ol mənə həmraz,
Xəlqivə, peyğəmbərivə, Tanrıva qurban.

ŞƏKİLİ HƏTƏM

XIX əsrdə yaşamış Şəki şairlərindən biridir.
Doğum və ölüm tarixi haqqında heç bir məlumat yoxdur.
Klassik şeirin ənənələrinə dərindən bələd olan Şəkili Hətəmin
yaradıcılığından əlimizə yalnız bir şeiri gəlib çatmışdır.
Həmin şeir onun şairlik istedadından,dövrünün ziyalı
şəxsiyyətlərindən biri olmasından xəbər verir.

Oldu

Əyyami-nəhs də, qəmər əqrəbdə,
Bir neçə kəslərə siyasət oldu.
Küffari-batilin zəxmi-tiğindən,
Mömünlərin qəlbi cərahət oldu.

Füzəla əhlindən bir neçə adəm,
Fələk diyarında əqli fərahəm,
Oxundu guşinə fərmani-matəm,
Qəlbinin hasili məlamət oldu.

Tutmasın kafirə heç kəs ixlası,
Qəhrinə uğrayan tapmaz xilası,
Səbr edib, qəzayə olmadı asi,
Minuda rütbəsi bəlağət oldu.

Məlul baxır hər biri bir diyarə,
Bir kimsə yoxdur ki, eləsün çarə,
Gözlərin bağlıyıb, çəkdilər darə,
Gör ki, nə bidadü nə afət oldu.

Bənd edib onları ağaclara təng,
Nizamə durdular güya edir cəng,
Çatladı bir dəfə iki yüz tüfəng,
Mətai-ömrümüz xəsarət oldu.

Kafirlər bunları etdi nişanə,
Bulaşdı əndamı al qızıl qanə,
Görübən xəlayiq düşdü əfqanə,
Məhşərdən bu da bir ələmət oldu.

Çevirib ətrafın iki səf saldat,
Dolanır əlində tiği kəmendat,
Cəzm oldu bunlara həyatdan məmat,
Qan yaşı çöllərə rəvayət oldu.

Yığılıb başına qövmü-qardaşı,
Çeşmi-nədamətdən tökdülər yaşı,
Belə nəqş eləyib qəza nəqqaşı,
Hər nə oldu, həqdən inayət oldu.

Hər ata ki, ayrı düşdü pəsərdən,
Əyləşib hüzndə sorar hər yerdən,
Gəl eşit bir xəbəri piri-pədərdən,
İtirmiş Yüsifün, qiyamət oldu.

Bu zamanda əqli başından uçdu,
Vay oğul deyibən torpağa düşdü,
Fəryadü fəğanın dəftərin açdı,
Çeşmi təninə (?) bəfazət (?)oldu.

Ya rəb necə olur işlər əncami,
Yetiş fəryada, al intiqami,
Kafir əlində əsirdi hamı,
Müsəlmanın işi beqayət oldu.

Əlbəttə ki, məxfi deyil hüşyarə,
Günbəgün məyişət düşür düşvarə,
Hatəm , bu mülküdən özgə diyarə,
Köç indi, vəqt rəhalət oldu.



ŞƏKİLİ LƏLƏ

XIX əsrdə Şəkidə doğulub,
yaşayıb yaradan şairlərdən biri də Şəkili Lələdir.
Doğum və ölüm tarixi dəqiq məlum olmadığı kimi,
özü haqqında da geniş məlumat yoxdur.
Şeirlərini Şəkili Lələ imzası ilə yazmışdır.
İlk dəfə Ə.Mümtaz onun bir şeirini "El şairləri" kitabına
daxil etmişdir.

Axtı

Axtının bax necə gör yaxşı, gözəl halları var,
Danışan şirin-şirin farsı, ərəb dilləri var,
Açılan hər tərəfə al və qızıl gülləri var,
Gözüdür Dağıstanın kamalı çox elləri var,
Bax, bu Axtı şəhərin, gör necə gözəlləri var.

Əbu Müslüm burada məcid tikib daş qoydu,
Qırıbən kafirləri, qələləri boş qoydu,
Bir neçə mələk enib səcdə edib, baş qoydu,
Heç bəla görməz olar talei, iqbalları var.

On beş yerdən azan səsi yetir o ərşi-rəhmanə,
Şeytani- məlul eşidib dönür - çiyəri al qana,
Qılıncın zərbəsindən kafirlər gəldi imanə,
Aləmə məkandılar zikridə mollaları var.

Yüzbaşılar oturub söhbət edərlər can kimi,
Geyibən zər xələti hər birisi bir xan kimi,
Kimkidə divan qurarlar Misirdə sultan kimi,
Belə ədalətli yerin bilin ki, ahılları var.

Qoç iyitlər atlanıb düşmən qabağına çıxar,
Edərlər cəngü savaş, su yerinə qanlar axar.
Neçə səngər dağıdıb bürci qalaları yıxar,
Bu yer aslan yeridir, yırtıcı cahılları var.

Şəhərin hər tərəfi açılmış lalə kimidir,
Bilmək olmaz yolunu xeybəri qalə kimidir,
Eşqidən məst olubən gözlər piyala kimidir,
Şəki, Şirvan, Qarabağ almağa xəyalları var.

Şəhərin əhli-qomu yaxşıca hörmətlidilər,
Çəkilir adları hər ölkədə heybətlidilər,
Nə qədər gəlsə qonaq mehmanə xələtlidilər,
Şəkili Lələ təki bir talesiz qulları var.

MƏMMƏDHƏSƏN MOLLAZADƏ

....

XIX əsrin ikinci yarısında yaşayıb-yaradan Məmmədhəsən
Mollazadə Şəkinin "Gəncəli" məhəlləsində doğulduğu üçün
"Gəncəvi" təxəllüsünü qəbul etmişdir.
Lakin bəzi əsərlərində "Şəkəvi" təxəllüsü də işlətmişdir.
Mollazadə ərəb, fars dillərini mükəmməl bilmiş,
Şərq tarixini öyrənmiş, insanın yaranışından
kitab çap olunan dövrə qədərki tarixi hadisələri
"Zübü üt-təvarix" kitabında əhatə edə bilmişdir.
Mollazadə "Kitabi Bəyan", hicri və milad tarixi təqvimi və
bir sıra başqa əsərlərin də müəllifidir.
Dörd cilddən ibarət olan "Zübü üt-təvarix" kitabı
1905-1913-cü illərdə, Azərbaycan dilində
"Kitabi bəyan" isə 1908-ci ildə nəşr olunmuşdur.
Məmmədhəsən Mollazadənin əsərlərinin meydana çıxarılması
və şərhi sahəsində professor Mahmud İsmayılovun
böyük xidməti olmuşdur.

AŞIQ ƏHMƏD

1883 ....

Əhməd İsmayıl oğlu – Aşıq Əhməd 1883-cü ildə
Şəki rayonunun Aşağı Layısqı kəndində anadan olub.
Ailə vəziyyəti ağır olan Əhməd on yaşında atadan da yetim qalmış,
özgə qapılarında nökərçilik etməyə məcbur olmuşdur.
Boş vaxt tapan kimi yazıb-oxumağı öyrənmiş,
bir müddət Molla Cumaya şəyirdlik etmiş,
böyük ustaddan saz-söz sənətinin sirlərini öyrənmişdir.
O, çoxlu sayda dastan, nağıl, ustadnamə, təcnis, qıfılbənd və s.
bilirdi. Gözəl avazı olan Aşıq Əhməd özü də şeirlər yazmış,
Şəkidə aşıqlıq sənətinin ustad davamçılarından biri olub.
1922-ci ilə qədər bütün gəncliyini muzdurluqda keçirən Aşıq
Əhməd sonradan taleyini saza-sözə bağlamışdır.
O, 1926-1927-ci illərdə Azərbaycanın qəzalarında keçirilən
aşıqların yarışında qalib gəldiyinə görə
aşıqların birinci qurultayına nümayəndə göndərilib.
Eyni zamanda bu yarışların qalibi kimi 1938-ci ildə keçirilən
aşıqların II qurultayının da iştirakçısı olub.

Nə mümkündü

Bir tərlana tor qurmuşam,
Tora gəlmir, nə mümkündü.
Bərəsində mən durmuşam,
Tora gəlmir, nə mümkündü.

Camalın bənzətdim kara,
Məmələrin xırda nara,
Bir sözüm var nazlı yara,
Demək olmur, nə mümkündür?

Əhməd deyir : zalım qızı,
Sən dəxi yandırdın bizi,
Dünən dediyi bir sözü,
Bu gün demir, nə mümkündü.

SALMAN MÜMTAZ

1884-1941

Salman Məmmədəmin oğlu Əsgərov-Salman Mümtaz 1884-cü ildə Şəkidə tacir ailəsində anadan olmuş, dörd yaşında ikən atası vəfat etmiş (1887), anası ilə Aşqabada köçmüş, dayısının himayəsində yaşamış, ibtidai təhsilini orada Mirzə Əsədullahın məktəbində almış, ərəb, fars və urdu dillərini mükəmməl öyrənmişdir. Rus, özbək, qırğız və türkmən dillərini də bilirdi. Gənclik illərindən ticarətlə məşğul olmuş, həm də "Molla Nəsrəddin" jurnalının Türküstan, Ural və Sibir üzrə müvəkkili olmuş, "Molla Nəsrəddin", "Zənbur", "Kəlniyyət", "Tuti", "Açıq söz" və s. qəzet və jurnallarda satirik şeirlərini, mənzum felyetonlarını çap etdirmişdir.1918-ci ildən Bakıya köçən Salman Mümtaz müxtəlif illərdə"Füqəra Füyuzatı", "Kommunist", "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Azərbaycanı öyrənmə yolu" və s.qəzet və jurnallarında əməkdaşlıq etmiş, "Azərnəşr"də klassik irs şöbəsinin müdiri (1927-1936), Azərbaycan Dövlət Muzeyində, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun Az FAN-ın dil, ədəbiyyat və sənət İnstitutunda baş elmi işçi, kapitalizm dövründədək Azərbaycan ədəbiyyatı bölməsinin rəhbəri və s.vəzifələrdə çalışmaqla yanaşı,

Azərbaycan ədəbiyyatına, folkloruna aid tədqiqatlarını ardıcıl və səmərəli şəkildə davam etdirmiş, el ədəbiyyatının, əl yazmalarının toplanmasında və nəşr etdirilməsində canını və malını (atasından qalmış bütün varidatını) əsirgəməmişdir. Əlman Mümtaz təkcə bir ədəbiyyat toplayıcısı, bibliofil, tədqiqatçı yox, həm də öz dövrünün ziyalıları arasında bir şair kimi də tanınmışdır. "Xortdan bəy", "Şərçəqulubəy" imzaları ilə satirik şeir və felyetonları və başqa imzalarla müxtəlif şeirləri və məqalələri çap olunmuşdur. Ənvər Paşa və Nuru Paşanın 1918-ci ildə Azərbaycana gəlişlərinə şeirlər həsr edir. Bir sıra klassik Azərbaycan şairlərinin yaradıcılığını tədqiq edib, toplayıb nəşr etdirən Ə.Mümtazın özünün bədii irsinin tədqiq edilib, toplanıb çap etdirilməsinə böyük ehtiyac var. Əlman Mümtaz 1937-ci ilin 19 iyununda "burjua-millətçi, pantürkist" kimi əvvəlcə tutduğu vəzifələrdən azad edilib ev dustağı edilir, 1938-ci ildə həbs olunur, 1941-ci ilin 21 dekabrında ölüm düşərgəsində güllələnmişdir.1956-cı il noyabrın 16-da SSRİ Ali Məhkəməsi tərəfindən Əlman Mümtaza bəraət verilmiş, onun işinə aid ittihamnamə ləğv edilmişdir. Bakı və Şəki şəhərlərində adına küçə var. 13 sentyabr 1996-cı ildə Azərbaycan ədəbiyyatı qarşısında xidmətləri nəzərə alınaraq Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivinə Əlman Mümtazın adının verilməsi ilə bağlı qərar qəbul edilmişdir.

Ənvəriyyə

Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!
Sənlə fəxr edir şimdi böyük sultan, ulu qeysər.
Ki, sənsən dahiyi-dövran, sənsən fatehi-kişvər,
Sana şayistədir əlhəqq tila ovrəngü zər əfsər.
Doğarmı madəri-giyti sənin tək bir də bir nər ər-
Xəyalı ay kimi aydın, məramı gün kimi Ənvər?!

Səhabi-küfrü[1] tən böldün, qılın zərbiylə etdin şəqq,
Çıxartdın milləti yeksər işıqlı günlərə əlhəqq,
Ayıltdın türkləri, verdin dəmadəm türklüyə rövnəq,
Sana bu işdə yardımcı yəqin oldu cənabi-Həqq,
Sən oldun həzrəti-Həqqin səfayi-lütfünə məzhər.
Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!

Müsəlman qeyrətin çəkdin, gözətdin türkün namusun,
Dağıtdın xavəri-islamdan küffar kabusun.
Məsaciddən dilərdi rus asa öz nəhs naqusun[1],
Gəbərdin, torpağə sərdin həyasız niyyətin rusun.
Günəşdən parlaq amalın olub Şərq əhlinə əzhər,
Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!

Münzəm[2] prdunu birdən səri-ədüvvanə saldırdın,
"Kral"lar rişəsin qırdın "karol"lar tacın aldırdın,
Edib məğlub küffari, nəvayi-suru çaldırdın,
"Hilal"ı ərşə yüksəltdin, "gün"ü əflakə qaldırdın.
Nihali-məqsədi-fikrin gətirdi datlı bir növbər,
Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!

Ziyayi-fikrətin ilə ziyasızdıq, ziyalandıq,
Cəfavü cövr çəkmişdik, fütuhunla səfalandıq.
Livayi-nüsrətin ilə[3], bihəmdüllah, livalandıq,
Həqirü pəst olmuşduq, ucaldıq, etiləndıq.
Təmamən Qafqazın əhli könüldəndir sana əsgər,
Yaşa, ey qaziyi-əzəm, yaşa ey möhtəşəm Ənvər!

Səadət dövrü, söz yoq kim, yetirmiş şanli cahidlər,
İgitlər, qəhrəman ərlər, şücaətli mücahidlər,
Buna tarixdə vardır dəxi binlərcə şahidlər,
Tikibdir onlara şəhlər neçə yerdə müşahidlər.
Yapar millət sana layiq tiladən heykəli-əkbər,
Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!

[1]rus məscidlər (imiz)dən öz nəhs (kilsə) zəngini asmağı dilərdi
[2]birləşmiş
[3]qələbə bayrağınla

Səmada yıldırım tək parlayan dəm tüğinin bərqi
İşıqlandırdı şəmsasa sərasər aləmi-Şərqi,
Nisari-xaki-payınçün düzüldü bin gözəl şərqi,
Bənim naçiz şeirimlə vəli var onların fərqi-
Mübarək vəchini görcək tapar əşarımız zivər,
Yaşa, ey qaziyi-əzəm, yaşa, ey möhtəşəm Ənvər!

Öyün, millət

O gün millət ki əltafı[1] olup şövkətli sultanın,
Hilalin haləsi kılsın ihata türk övtanın[2].

Tefaxür eylə, ey millət, muradın hasil olmuşdur,
Daha əflakə yüksəlməz eninü ahü əfğanın.

Ziyasız rus zülmündən o yüksək ruhun ölmüşdü,
Dökürdü şişəyə hər dəm şərabi- nab tək qanın.

Qızılgül tək açıl, gül, gör ki,türkün şanlı ordusu
Rivaqi-ərşə nəsb etmiş[3]böyük Osmanlı ünvanın.

Səmayə doğru toğrul tək sən, ey türk oğlu, uç, yüksəl
Ki, sənsən şanlı övladı şərəfli əski Turanın.

Bulut altında qalmışdı əgərçi kövkəbi -bəxtin[4],
Gör imdi nəcmi-zahir tək hilalın, nəcmi-tabanın[5].

Gərək tağı- müqərnəsdən[6] asılsın türkün tuğrası[7]
Mələklər zibi-duş etsin livasın Ali Osmanın[8] .

Bütün, Mümtaz, ellərdən olar türk milləti mümtaz[9],
Sürər bundan sonra türklük şərəfli-şanlı dövranın.

[1] *lutfləri*
[2] *vətənlərini*
[3] *göyün tavanına sancmış*
[4] *bəxtinin ulduzu*
[5] *ayını, parlaq ulduzunu (Osmanlı bayrağındakı ay-ulduz nəzərdə tutulur)*
[6] *göy qübbəsinin tağından*
[7] *gerb, dövlət nişanı.*
[8] *mələklər, Osmanlı bayrağını çiyin bəzəyi etsin.*
[9] *seçilmiş, üstün.*

HÜSEYN KİŞLİ

1884-1944

Hüseyn əfəndi Hacı İshaq əfəndi oğlu Əfəndizadə
1884-cü ildə Şəki rayonunun Kiş kəndində anadan olmuş,
ilk təhsilini atası Hacı İshaq Əfəndidən almış,
Türkiyədə İstanbul Universitetini,
daha sonra Azərbaycan Pedaqoji İnstitutunu bitirmiş,
Şəkidə təşkil edilmiş Sənaye Texnikumunun direktoru olmuş,
Şəki Pedaqoji Texnikumunda dərs demiş, daha sonra isə
Şəki şəhərində yerləşən 5 nömrəli məktəbdə direktor
işləmişdir. Ədəbi yaradıcılığı hekayələrdən,
dini-ruhani risalələrdən və şeirlərdən ibarətdir.
Şəki ədəbi mühitində adı hörmətlə çəkilən simalardan biri olmuş,
ancaq əsərləri toplanmamışdır.
Akademik Ə.Dəmirçizadə Şəki Pedaqoji Texnikumunda
onun sevimli tələbəsi olmuşdur.
Hüseyn Kişli 1944-cü ildə vəfat etmiş,
qəbri Kiş kənd qəbirstanlığındadır.

15 yaşında

Əllərdə al bayraq, keçir adamlar.
Üzlərdə, gözlərdə min bir sevinc var.
Buludlar dağıldı, bayquşlar susdu,
Keçmiş günlər qapqara bir kabusdu.

İndi 15 olmuş ölkəmin yaşı,
Sevinir yurdumun torpağı, daşı.
Sevinir oğlanlar, sevinir qızlar.
Sevinir göylərdə gülən ulduzlar.

Ümidə sığınıb fəhlə -kolxozçu,
Çıxıbdır sıradan bəy, xan və qoçu.
Dəmbədəm hər yana nur çilənir,bax,
Yeni müjdələrlə gəlir hər sabah.

Ey gənc!

Yeni tarixin çarpışmalı günləri,
Dalğalar, mübarizələr
Arasından yarandın,
Gözlərini açaraq anladın,
Anladın ki, sən,
Bir mübarizsən,
Ey gənc!

Şən və cavan yaşında,
Sürətli anlayışında
Sırtına yüklənmiş,
Ağır və məsul bir iş.
Öylə bir iş ki, sənin önündə
Səni bəklər, səni gözlər.
Saniyələr,
Dəqiqələr.
Pək qiymətlidir,
Çalış,
Çalışmağa alış!

Tərəddüd etmə,
Sağa, sola getmə,
Ey gənc!
Həqiqi bir yol var,
O yolu getməlisən.
Sürətlə gedəcəksən
Və getdikcə:
"Bütün dünya ,
O dünyada olan kapital,
Yaşaması mahal olan çürüntü
Sarsılacaq, dağılacaq".
Deyəcəksən,
Ey gənc!

Vur, yıx!
İnsaf etmədən,
Güzəştə getmədən
Çürümüş kapitalın köklərini.
Qanlı zəngirini
Qır,
Dağıt, parçala!
Qərbin daş qəlbini əz.
Xırpala,
Ey gənc!

Səni
Gələcəkdə,
Daha yaxın gələcəkdə
Gözlər,
Səndən gözlər.
Sən o gözləri ümidlərə,
Sevinclərlə,
Parlaq məksədlərlə
Güldür və sevindir !
Gələcək sənindir,
Ey gənc!

Traktor

Kotanını yerlərə guruldayıb taxırsan,
Heyrət ilə işlərsən qüvvətinlə, traktor!
O dəhşətli səsini ürəklərə çaxırsan,
Viran qoydun xışları möhnətinlə, traktor!

Dəmyə, sulax yerlərin ürəyini qazırsan,
Yoxsulların yerini şumlamağa hazırsan.
Adını əməlinlə tarixlərə yazırsan,
Muzdur, yoxsul, ortabab külfətinlə, traktor!

Turud, Sarıca, Muğan çölü yollarını izlərkən,
Boyunturuk, xış, öküz gəlməyini gözlərkən,
Yavaş, tənbəl kəlləri yoxsul kəndli bizlərkən,
Gəlib yetişdin dada sürətinlə, traktor!

Nərə çəkib torpağa xəncərini salınca,
Xırpalayır torpağı o bir başa varınca
Gərilib yerdə qalır bir-birinin dalınca,
Yerdən qopan çimlərin həşmətinlə, traktor!

Zorba kəl, arıq yabı, əyri külünc xış ilə,
Dəli öküz, ağ düyə acıqlı baxışı ilə,
Səni, qayış, xış, kotan hohasilə-hişilə
Hürküşüb də qaçırlar heyrətinlə, traktor!

Kulak, nepman, qolçomaq çəpərlərdən boylanır,
Acıca bir ah çəkib gizli-gizli huylanır,
Gördükcə bu büsatı torpaqlara quylanır
Ölüm saçdın onlara dəhşətinlə, traktor !



MARAL XANIM NƏBİZADƏ

....

Maral xanım XIX əsrin sonu XX əsrin birinci yarısında
Şəkidə yaşayıb fəaliyyət göstərmiş, maarifə,
mədəniyyətə yüksək dəyər vermiş,
gənclərdə vətənpərvərlik hissiləri tərbiyə edən,
qadının cəmiyyətdəki ağır, dözülməz vəziyyətini göstərən
şeirlər yazmışdır. Maral xanımın elinə, obasına,
xalqına məhəbbət dolu şeirləri 1911-1912-ci illərdə çıxan
ilk Azərbaycan qadın qəzeti olan "İşıq" da çap olunub.
Qeyd: "İşıq" qəzetinin təsisçisi Şəki xan sarayının mirzəsi olmuş
Cabbar bəyin oğlu Mustafa bəy Əlibəyov,
qəzetin redaktoru isə onun həyat yoldaşı
Xədicə xanım Əlibəyova-Şübhanquliyeva olmuşdur.

Bacılara xitab

Ey günü qara, işi ah ilə əfqan bacılar,
Halı heyvana münasib, adı insan bacılar!
Hansı zalım sizə dünyada görüb zülmü rəva?
Hansı bir zalıma zülm etdi müsəlman, bacılar?
Arvadı xəlq eləyib xaliqimiz cənnətdə,
Nə üçün məskən olub sizlərə niyran, bacılar?
Nə qədər var isə dünyada ünas tayifəsi
Anadır nəsli üçün cümləsi eyzan, bacılar!
O şərafət ki, şəriət sizə məxsus etmiş
Hanı sizdə o şərəf, həm dəxi o şan, bacılar?
Həqqi-hürriyyətiniz var isə şərən sizdə
Üsəralar kimi qalduz nə üçün, can, bacılar?!
Sizi zülm ilə edirlər oxumaqdan məhrum
Ki alıb-satmağa layiq ola heyvan, bacılar!
Ata övladına zülm olmağı layiq bilməz,
Qoymaz övladını heç vaxtda giryan, bacılar!
Atalar qızlarına şəfqət ilə baxmalıdır,
Oxudub sizlərə öyrətməli ürfan, bacılar.
Ey atalar, analar! Ey bacılar, qardaşlar!
Qoymayın bizlərə dünya ola zindan bacılar.
Oxudun bizləri də elmiylə ürfana yetək
Kəsb edək ailələrçün sərü səman, bacılar.
Ey məni halına qan ağladan, ey yazıqlar,
Ey gözü kor analar, xanəsi viran bacılar.
Tökməyin göz yaşı yaslarda kənar adəm üçün,
Hər kəs öz halına olmalıdı giryan, bacılar!
Analar olsa ziyalı, olu xoşbəxt əyal,
Açılar nəşri-ümunə neçə meydan, bacılar!
Sahibi-elm ananın tərbiyəsi övlada
Başqa təsir verər, hikmətini qan, bacılar!
Cır ağac olmasa peyvəst, verər meyvəni cır
Abdar olmağa yox meyvədə imkan, bacılar!
Elmsiz bir anadan başqa cür övlad olmaz,
Hər təbiət çəkəcək əslinə qətən, bacılar!
Necə kim söylədi şerində Füzuli atamız:
Ləl olarmı qara daş, eyləsən al qan, bacılar?
Əgər övladi vətən qalsa cəhalətdə, səbəb
Ən qabaqca anadır qalmağı nadan, bacılar!

Atası, həm anası olsa avam övladın
Qalar övlad avam, kor və heyvan, bacılar!
Mədəniyyət tapacaq millət əzəl madərdən,
Sonra məktəb verəcək elmlə ürfan, bacılar!
Yaşamaq haqqı ünas ilə zükura birdir,
Fərzdir elm bizə, onlara, şərən, bacılar!
Olsa gər ailəmiz bir mədəniyyət ocağı,
Mərifət mərkəzi, bir mənbəyi-ürfan, bacılar!
Necə xoşbəxtdir ol ailənin əfradı,
Sürələr elm ilə, ürfan ilə dövran, bacılar!
Necə xoşbəxtdir ol tifl ki, bu evdə doğa,
Ona alim ana ağuşu verə can, bacılar!
Tifl ikən tərbiyə təxtində edib nəşvü nüma,
Nə olar böylə uşaq, məktəbə qoysan, bacılar?
Vətənə, millətinə, dilinə xadim olacaq;
Yetirər alim ana gör necə oğlan, bacılar!
Mərifətli ananı ərsəyə məktəb gətirər,
Məktəb olsa oxuyar elmini nadan, bacılar.
Pəncəyə-zülmdən arvad yaxasın qurtarsa,
Qurtarar millətini zülmdən əlan, bacılar!

MOLLA İBRAHİMXƏLİL DODUİ

1860-1900

Molla İbrahimxəlil Məhəmməd oğlu 1860-cı ildə
Şəki şəhərinin Dodu məhəlləsində anadan olmuş, şeirlərini
"İbrahim" və ya "Dodui" təxəllüsü ilə yazmışdır.
Dodu məhəlləsində doğulduğuna görə də təxəllüsünü
Dodui qoymuşdur. Ərəb, fars dillərini mükəmməl bilmiş,
məhəllə mollası təyin olunmuş, ruhani-şair kimi tanınmışdır.
Molla İbrahimxəlil klassik şeirin ayrı-ayrı şəkillərində
incə ruhlu şeirlər yazmış, könüllər oxşamışdır, lakin əsərləri
divan halında cəm edilməmişdir.Şairin əsərlərində
diqqət çəkən məqamlardan biri də odur ki, özü ruhanilik etsə də,
bir qisim mollaların,ruhanilərin nəqisliyini,
eyiblərini açıq tənqid etmişdir.
Molla İbrahimxəlil Dodui 1900-cu ildə
40 yaşında vəfat etmişdir.

***

Eşq bir bəhrdir kənarəsi yox,
Tərki-candan səvayi çarəsi yox.

Dudi-ahim dərundən çəksəm,
Asimanın olur sitarəsi yox.

Qəmi-əyyam dildəri məktub,
Bibəsərlər deyir ki, qarəsi yox.

Nalədən nalə döndü qaməti-rast,
Söylər əmma ki, xəlq əmarəsi yox.

Dodui, fal əgər deyil niku,
Səndə ixlasü istixarəsi yox.

***

Aləmdə neçə saili-cərrar görünmüş,
Zənn etmə ki, bir böyləcə idbar görünmüş.

Əhbablığa hiç səlahiyyəti yoxdur,
Fisqi səbəbilə mənə əğyar görünmüş.

İllikdə o yanə olur azuqəsi əfzun,
Çardağına get, bax neçə xarvar görünmüş .

Anınla nə ruyənlik edir gör ki, qəryədə ,
Hətta dedilər qəryeyi-küffar görünmüş .

O yan Babaratma, bu yanı Dəhnə, Çapağan,
Cümlə nəzəri-xəlqdə murdar görünmüş

Kim sehrinə pabəstədi, təvizinə kim ram,
Bir nəf zühur eyləmədi, zar görünmüş.

Söylərlər onun təntənəsi vəsfini bihəd,
Bu halla yox bir fərəci, xar görünmüş.

Həq verdiyi ənvayi-niəm var ikən onda,
Bişərmliyi aləmə izhar görünmüş.

İqrari-qüsur eyləməz əsla o həyasız,
Yox sidqi, bütünlük ona hər bar görünmüş.

Hər qədr yığa, söyləyəcək: - Olmadı bir şey,
Bir dəfə onun adəti inkar görünmüş

***

Lisanın nətini guya deyildir, ya rəsulüllah,
Səzayi-dərgəhindir, ya deyildir, ya rəsulüllah!

Budur mənzur əltafi-xudadən eyləyə tövfiq ki,
Mirati könül icla deyildir, ya rəsulüllah!

Həvayi-nəfsi zülmat içrə bir gəz əql şaşmışdır,
Hərimi-vəsfinə bina deyildir, ya rəsulüllah!

Səmavat ilə ərz onlarda hər nə var mövcudat,
Biri yox nurdən peyda deyildir, ya rəsulüllah!

Zülali-ləblərin sihhətfəzayi-dərdi-üsyandır,
Onun tək səlsəbil əhli deyildir, ya rəsulüllah!

Civari-kuyi-rövzən bir müəmma, sirri-bitimsal –
Ki, manəndi onun məva deyildir, ya rəsulüllah!

Dəmi-fəryadrəslik Doduiyə lütfün izhar et,
Günahın qabili-dəva deyildir, ya rəsulüllah!

***

Dedim:Könül, səni bu halə dərdi-yar salıb?
Dedi: - Bəli, bəli, əlbəttə, bir nigar salıb.

Dedim: - Bu ahü ününə səbəb nədir şəbü ruz?
Dedi: - Bu sinəyi-pürdərdə yar nar salıb.

Dedim: - Xəzan dəmidirmi belə pərişansan?
Dedi: - Fəraq qəmi, nə xəzan, bahar salıb.

Dedim ki, səbrü qərar ilə həll olur müşkül,
Dedi ki, zülfi-siyahi biixtiyar salıb.

Dedim ki, ey güli-tazə, nədir bu cövrü cəfa?
Dedi ki, böylədir adət ki, ruzigar salıb.

Dedim: - Bu hüsndə Yusifmisən, Züleyxasən?
Dedi: - İkisi bərabərcə yadigar salıb.

Dedim ki, lərzə salıb canə səfi-müjganın,
Dedi: - Nə bircə səni, çoxları fikar salıb.

Dedim:Bu möhnəti hicranə yoxmu bir əncam?
Dedi: Nə çarə qəzayə ki, girdgar salıb.

Dedim: - Doduiye bais olan ədavət nə?
Dedi: - Əbəs deyil, əlbəttə, vəchi var, salıb.

RƏCƏB ƏFƏNDİZADƏ

1893-1956

Rəcəb Əsədulla oğlu Əfəndizadə 1893-cü ildə Şəki şəhərində sənətkar ailəsində anadan olmuş, təhsilini mollaxanada (1900-1901), altı sinifli şəhər məktəbində (1902-1908), Qori Müəllimlər Seminariyasında (1909-1914) almış, ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin pedaqogika fakültəsini bitirmişdir(1930). Qori Müəllimlər Seminariyasını fərqlənmə diplomu ilə bitirən Rəcəb Əfəndizadə Göyçay ikisinifli şəhər məktəbində müdir (1914-1915), Şəki kişi-qadın gimnaziyasında müəllim, müdir (1915-1920), Şəki Pedaqoji Texnikumda (1920-1927), Tiflis Pedaqoji Texnikumunda (1928-1929) direktor, Ali Pedaqoji İnstitutda müəllim və dosent (1929-1934), Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunda tədris və elmi işlər üzrə direktor müavini, pedaqogika kafedrasının müdiri (1945-1949) işləmişdir. O, görkəmli maarif xadimi, pedaqoq alim, yazıçı, tərcüməçi kimi tanınmışdır.Onun "Gimnazist Vahid", "Aclar", "Əttar dükanında", "Rahat olmaq istəyirəm", "Tərbiyə qurbanları" hekayələri (1911, "İrşad"), "Axır çərşənbəsi" pyesi (1912, "Məktəb"), "Kimdir o?", "Yaxşılıq" hekayələri (1914, "İqbal"),

"Namus" povesti (1917-ci ildə Nuxa mətbəəsində ayrıca kitab şəklində) çap olunmuşdur."Türk qiraəti" (1918) dərsliyini nəşr etdirmiş, "İş otağı" (1933), "Müəllimlərin ixtisasını artırma işinin təşkili" (1934), "Xalq maarifi üzrə məlumat kitabı" (1935), "Fiziki coğrafiya" (1935), "Qiyabi təhsil sistemində şifahi konsultasiya"(1936), "İzahlı pedaqoji lüğət" (1939), "Şagirdlərin fiziki tərbiyəsi və hərbi hazırlığı" (1942), "Uşaqlarda səhiyyə vərdişləri tərbiyəsi" (1947) və s.əsərləri Azərbaycanda xalq maarifi və tərbiyə işlərinin elmi-metodik əsaslar üzərində qurulmasında mühüm rol oynamışdır. Pedaqogika elminin klassikləri Y.A.Kamenski ("Didaktik prinsipləri"), İ.H.Pestalotsi ("Seçilmiş pedaqoji əsərləri") və K.D.Uşinskinin ("Məktəbdə təlim-tərbiyə işləri haqqında") irsinin, həmçinin ali və orta məktəblər üçün Moskvada nəşr olunmuş "Psixologiya" və "Pedaqogika" dərsliklərinin də ilk tərcüməçisi olmuşdur. Rəcəb Əfəndizadə 1956-cı ildə Bakıda vəfat etmişdir.

Namus

(Hekayə)

Bulut baba ocağın qırağanda, yırtıq bir döşəkcə üzərində oturaraq ətrafına toplanmış dörd nəfər qız nəvələrini ovudur, şirin məsəllər, nağıllarla, türkilərlə yazıqların bütün vücudlarını sarsıtmış olan aclıq hissini unutdurmağa çalışırdı. Bulut baba daha yorulmuşdu. Çənəsində danışmağa taqəti yox idi. Bulut baba maşanı alıb manqalı qarışdırdı, sonra da başını-qaldırıb?

– İndi hansınız nağıl söyləyərsiniz? Mən daha yorulmuşam-deyə nəvələrinə baxdıqda onların gözləri qapalı, başları çiyinlərinə sallanmış, mini-mini ağızlarını yarıaçıq bir halda görüncə köksü qabardı, gözlərinə qaranlıq çökdü, daha sonra yanağından iki damla yaş yuvarlanaraq pambıq kimi ağ saqqalının tükləri arasında itib getdi. Bulut baba qalın, titrək bir səslə:

– Övladlarım, öylə yatmayın, soyuqlayarsınız, gəlsəniz yerinizdə yatasınız, – dedi. Fəqət onun səsini qızlar eşitmədilər və mürgüləməklərində davam etdilər. Bulut baba gözlərini qapıya dikib, dışarda əsən şiddətli ruzigarın uyultusuna bir qədər qulaq asdı. Sonra da odanın aşağı tərəfindən

dörd yaşar yavrusu ilə qıvrılıb yatan gəlini Fatmaya bir nəzər salaraq:

– Of, aman rəbbim, nə yaman görəcəkli günlərim varmış,–dedi.

Bulut babanın böyük oğlu Əhməd müharibə başlanandan onbeş gün keçmiş babasının ağ saqqalından öpmüş, əllərindən yapışıb:

– Bu yavrularımı əvvəl rəbbimə, sonra da sənə tapşırıram-deyərək böyük qızı Əminəni bağrına basmış, sonra da Mədinəni, Əzizəni, daha sonra ən çox sevdiyi mini-mini Bənövşəsini qucaqlayaraq onun qara, iri gözlərindən hədsiz-hesabsız büsələr almış, ağlamışdı.

– Allaha əmanət olunuz, yavrularım,– deyə balaca Həsənin də yanaqlarını göz yaşları ilə islatdıqda məsum cocuq bu mənzərəni seyr edərək ağlamsınmış bir halda sordu:

– Baba,nənəyə gediyorsan, daha gəlməyəcəksənmi? Həsənin bu sualı Əhmədin ürəyini od kimi yandırdı: qəlbindən bir parça qoparaq boğazına tıxandı. Cavab vermədi.

– Bəlkə... Bəlkə... dedi, -yavrularım, dua edin. Bir Allah sizin duanızı eşidər, dua edin. Unutmayın... Fatma, salamat qal... Onlar əmanəti, – deyərək Əhməd qapıdan çıxıb getmişdi. O dəqiqə də odanı həzin bir sükunət bürümüş, hamı bir-birinə baxa-baxa qalmışdı...

Əminə gedib Bulut babanın qucağına oturdu, həzin gözlərini onun nəmli gözlərinə dikdi:

– Əhməd babam nənəyə getdi? Daha gəlməyəcəkmi? – deyə sordu. Bulut baba dərin bir ah çəkərək Əminəni qucağından düşürdü, başının qara tüklərindən öpdü:

– Gələcək, yavrum, gələcək. Gəliniz, övladlarım, Allaha dua edəlim ki, babanız əmanət olsun – deyərək nəvələrini ətrafına topladı. Onlar üzlərini qibləyə çevirdilər. Bulut baba əllərini ulu tanrının dərgahına qaldırıb:

– Pərvərdigara, sən cəmi duaların eşidicisi və sirlərin bilicisisən. Bu səvilərin qəlblərindəki diləklər sənə əyan və aşkardır. Xudaya, sən öz birliyin hörmətinə onları gözləri yaşlı, ürəkləri dağlı buraxma. Böyük Allahım, sən islama qüvvət ver, dinimizə, milləтimizə, namusumuza təcavüz edənləri zəlil elə. Sən bu səvilərin ruzisini bol, gələcəklərini xeyirli elə. Xayin, vicdansız düşmənlərin ayaqları altında tapdalanmış qardaşlarımızın, çöllərdə qar və buzlar altında qalmış səvilərin imdadına yetiş.-dedikdə məsum cocuqlar "amin" deyirdilər.

Əhməd getdikdən sonra Fatma qonşu kəndlərin başına gələn fəlakətləri eşitdikcə qorxusundan günbəgün əriyir, saralır, zəiflik kəsb edirdi. Axır günlər azuqələri qurtardığından aclıq da bir tərəfdən təsir etməkdə idi. Fatma üşüdür, gah qızdırır, gah ürəyinin başına sancan şiddətli bir ağrının

təsirindən zar-zar zarıyırdı. Bütün ailəni idarə edən, hər zəhmətini çəkən Bulut babanın kiçik oğlu Məmiş ilə Əminə idi. Bulut baba qocalığından işləyə bilmirdi, daima ocağın qırağında oturur, təsbeh çevirir, zikr edirdi, Əhmədə və onun arkadaşlarına xeyirli dualar edirdi.

Ruzigar əsir, qar mütamadiyən yağır, Fatma Həsənlə odanın aşağı tərəfində uyuyur. Əminə, Mədinə, Əzizə, Bənövşə isə manqalın kənarında mürgüləyir. Bulut babanın söylədiyi əfsanələrdən başları gicəlir, aclığın təsirindən gözləri qaralır, ağızlarından qara su tökülürdü. Ruzigar qarı hiddətlə pəncərəyə çırpdıqca qorxunc sədalar Bulut babanın diqqətini cəlb ediyordu.

Bir səs eşidincə:

– Məmiş gəlmədi. Görəsən, yolda nə qəzaya uğradı. Ey padişahlar padşahı, sən onu hifz eylə, – deyirdi.

Gecə yarını keçmiş, hələ Məmiş qayıtmamışdı. Bulut baba nəvələri ilə bərabər onu gözləyir, gətirəcəyi əkməyin intizarını çəkiyordu....Zavallı qoca Məmişin bir fəlakətə uğradığını daha təsdiq etmişdi. "Əlhəmdüllah", – deyərək ürəkləri yakan bir ah çəkdi, odanı seyr etdi, dışarıda əsən şiddətli ruzigarın vıyıltısına qulaq asdı. Odanın aşağı tərəfində dörd yaşar yavrusu ilə qıvrılıb yatan xəstə gəlininə və nəvələrinə baxdı. Övladlarım, öylə yatmayın soyuqlarsınız, yerinizdə yatın – sözlərini təkrar etdi. Zavallı qızcığazlar ümidli gözlərini açaraq halsız bir səslə:

– Baba? Məmiş əmucəm gəlmədi, nə vaxt yeyəcəyik?"

– Övladlarım, əmücəniz gəlmədi, səhər tezdən gələr, qalxın yerinizdə yatın.

– Baba, ac yatmaq olurmu?

– Baba, əmücəm gəlmədi?

– Nə vaxt yeyəcəyəm? mənə əkmək ver, acmışam, – deyə səsləndilər.

Bulut baba bir qədər fikirləşdi, sonra da bir şey bulmuş cocuq kimi qalxaraq odanın aşağı tərəfinə getdi, köhnə torbaları, kisələri eşələdi. Bir torba götürərək:

– Budur, övladlarım, buldum, bu saat mən sizə manqalda qovurğa qovuraram, yeyib yatarsınız, – dedi.

Qızlar sevindilər.

– Tez-tez qovur, baba. Acmışıq – dedilər.

Bulut baba sacı götürüb manqal üzərinə qoyduğu əsnada dışarıda köpək hürməyə başladı. Bulut baba artıq bir sevinclə:

– Budur, övladlarım, Məmiş gəlir, iştə əkmək gətirəcək, yeyərsiniz, – deyərək qapıya doğru getdi.

MUSTAFA QULİYEV

1893-1938

Mustafa Zəkəriyyə oğlu Quliyev 1893-cü il mayın 24-də Şəki şəhərində anadan olmuş.
Tiflisdə gimnaziyanı bitirmiş (1913),
Kiyev Universitetinin fizika-riyaziyyat fakultəsində təhsil almışdır.
Bir sıra məsul vəzifələrdə, o cümlədən,
Lənkəran qəza inqilab komitəsinin sədri (1920),
AK(b)P Qaraşəhər Rayon Komitəsinin katibi (1921-1922),
Azərbaycan SSR Xalq Maarif Komissarı (1922-1928),
"Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət" jurnallarının (1923-1926, 1929-1932) məsul redaktoru vəzifəsində işləmiş.
1934-cü ildən Azərbaycan Yazıçılar birliyinin üzvü olmuşdur.
"Azərbaycanda oktyabr düşmənləri" (1927),
"Mədəni inqilab və islam" (1928),
"Türk qadının yolu" (1930),
"Oktyabr və türk ədəbiyyatı" (1930),
"Cinayət nədir və haradan baş verir" (1935) kitabları çap olunmuşdur.
Mustafa Quliyev 1938-ci ildə cəza tədbirləri dövründə həbs edilib ölümə məhkum olunmuşdur.

İslam və onun meydana gəlməsi[1]

(bir parça)

İslamiyyət ərəbistanda doğmuşdur. Onun doğmasına siyasi, iqtisadi səbəblər bais olmuşdur. Ərəbistanda "İsanın miladından çox qabaq Səbadan, Məkkə və Yesrib yolu ilə Bədrə qədər bir ticarət yolu gedirdi. Yesrib, Mədinə və Məkkə şəhərləri karvan yolunda böyük bir stansiya olub müəyyən əhəmiyyətləri var idi. (Müller. s. 31). Məkkəni Mədinə, Surya, Yəmən və Həbəşistanla birləşdirən məşkur yolda o zaman böyük ticarət davam edirdi və bu ticarətdə çox artıq əhali iştirak edirdi. Havə ərəblər Bəhri-Səfidlə Hindistan arasında da qızğın dəniz ticarətilə məşğul olaraq, dünya ticarət müamələtına iştirak edirdilər. Böyük ticarətlə əksəriyyət Ərəbistanın cənubunda yaşayan oturaq əhali məşğul olurdu. Şimalda isə çoxlu köçəri tayfalar yaşayaraq həmişə öz aralarında mübarizə aparır, daima qarətlə məşğul olurdular. Ərəbistanın bu gür dağınıq tayfaları karvanlara hücum etmək, ticarət müəssisələrinə böyük zərərlər vurmaqla sərbəst ticarətə mane olurdular. Ticarətdə yalnız böyük ticarətlər deyil, xırda alış verişçilər də iştirak edirdilər.

Ticarət yollarını, dağınık tayfaların hücum və qarətindən mühafizə etmək lüzumu ticarətdə iştirak edən ərəbləri milli itihad məsələsi qarşısında qoyurdu.

Bu məsələnin həlli və həyata keçirilməsi də sərbəst ticarətin və ticarət yollarının mühafizəsində mənfəətdar olan xırda tacir Məhəmmədin öhdəsinə düşür. "Bu barədə ərəblərin arasında olan milli birlik Məhəmmədə kömək etmiş olur. Məhəmməd bir müddətlikə ərəbləri zahiri surətdə toplaşdırmaq və birləşdirməyə müvafiq oldusa da lakin hələ peyğəmbərdən çox qabaqda da ərəbləri bir millət hesab etməmək olmaz. Yunanlar kim, ərəblər də bütün sair dillərdə danışanlara qarşı, öz birliklərini hiss edirdilər. Onlarda ərəbcə danışmayanlara, şübhəli, iyrənc, hətta həqir, ya da köpək kimi baxırdılar. Hələ indiyəcən də bədəvi millətlərdə qorulmaqda olan saf nəsəb təkəbbürü ta qədim zamanlardan bəri tək-tək şəxslərə, tayfalara və bütün millətlərə bir ruh verirdi. Ən zəngin mənalı və incə dillərdən birisi olan ərəb dili də belə hissin oyanması, üçün bir səbəb təşkil edirdi. (A. Müller. s. 41)

O zamankı, Ərəbstanın bütün ictimai-siyasi vəziyyəti və iktisadi ehtiyacları fəsahət, bəlağət və təşkilatçılıq istedadını ehtiva etməkdə olan Məhəmmədi bir dövlət adamı kimi irəli çəkdi. Bir peyğəmbər olmaq həsəbilə Məhəmmədin din təbliğatı, elə bir müvəffəqiyyət qazanmamışdı. Ümumiyyətlə islamiyyətin bütün hərəkatı, ilk zamanlar hər şeydən qabaq ictimai-siyasi bir mahiyyətdə idi. Bunu isbat üçün yuxarıda qeyd etdiyimizdən başqa bunları təsdiq edəcək bəzi sair dəlillər də gətirəlim.

---

[1] *"mədəni inqilab və islam" kitabından götürülmüşdür*

Hər şeydən əvvəl din sistemi: dinsizlik xəstəliyinə mübtəla olmuş şəkkak və praktik ərəblər arasında müvəffəqiyyət qazana bilməzdi. Ərəb ədəbiyyatını tədqiq etmiş ərəb şeir və tarixi əsası ilə R.Doşi deyir ki: "Ərəb hətta öz şeirində belə əməli, müsbət, realist adamdır. Doğrusu, hazırkı bədəvilər kimi qədim ərəblər üçün də din fərqsiz bir şey olmuşdur. Butpərəstlik dövründəki şairlər dindən bəhs etməmişlər. Onların şeirlərindən bəzi tanrıların adından və ayinlərdən başqa bir dinçilik tapmaq çətindir. İslamdan qabaqkı şairlər ancaq həqiqi həyat üçün yaşayıb metafizik məsələləri ilə uğraşmamışlar: şairləri kimi bu xüsusda milli hisləri ən doğru təfsir etmişlər."

Ərəblərin dinsiz, imansız olduqları, quranın özündədə təkidlə qeyd edilir. "Səhralarda yaşayan ərəblərdə iki üzlülük və etiqadsizlıq daha güclüdür (şəhərdəkilərə nisbətən) və öz peyğəmbərləri vasitəsilə Allahın göndərdiyi dinləri əsla bilməməyə daha çox meyl göstərirlər. Bu ərəblər arasında bəziləri verdikləri ianələrə məcburi bir vergi kimi baxırlar və şəriyyətin dəyişiləcəyini gözləyirlər."

Dinsizlik zəminəsi olan belə bir topraqda din toxumu cücərə bilməz.

Məlum olduğu üzrə Məkkədə Məhəmmədin təbliğatı, müvəffəqiyyətsiz qalmışdı. Ərəb əyanları yeni dinə qarşı ədavət göstərərək təkib və şəmatətlərilə Məhəmmədi Mədinəyə və tərəfdarlarını Həbəşistana qaçmağa məcbur etmişdilər...

AŞIQ MUSA

1896 ....

Musa Emin – Aşıq Musa 1896-cı ildə
Şəki rayonunun Biləcik kəndində anadan olub.
Böyük bacısının himayəsində böyüyən Musa
yeddi yaşında olarkən atasını itirib. Zirəkliyi və
hazırcavablılığı ilə seçilib, savad kursuna yazılaraq
yazmaq və oxumağı öyrənib. Ağsaqqal həmyerlilərinin
söylədiyinə görə dövrünün məşhur Aşığı
Molla Cumanın şagirdi olub.
Özü də sonralar Şəkinin tanınmış, hörmət edilmiş
aşıqlarından olub. Əsas məşğuliyyəti kolxozun
təsərrüfat işlərində çalışmaq olub.
Eyni zamanda boş vaxtlarında saz çalıb oxuyub,
şeir də yazıb. Tərcümeyi halında yazdığına görə
xeyli şeirləri məclislərdə oxunurmuş.
Aşıq Musa Şəkinin kəndlərindən olan Aşıq Şamil (Daşbulaq),
Aşıq Paşa (Dodu), Aşıq Məmməd (Daş Layisqi),
Aşıq Əhməd (Aşağı Layisqi) və s. ilə dostluq etmiş,
məclislər keçirmişlər.

Bahar

Bahar çağı, xoş zamandır, yoldaşlar!
Bülbüllər oxuyur, güllər açılmış.
Gözəllər geyinib qırmızı dona
Xoş danışır, şirin dillər açılmış.

Çox gözəl zamanə, gözəl devrandı,
Düşmənlərin ürəkləri xallandı.
Azadlıq verilib, çadra tullandı,
Hər tərəfdə ipək tellər açılmış.

Aşıq Musa sazı əldə danışır
Səhər-axşam tarlalarda yarışır.
Baxçamızda qızıl güllər oynaşır,
Gələcəyə geniş yollar açılmış.

Bağlama

Aşıq-aşıq aşındadır,
Aşın ocaq başındadır,
Söylə görüm ay aşıq,
Bu daş neçə yaşındadır?

Aşıq aşın bişibdir,
Bişib dəmnən düşübdür,
Dünya binnət olandan,
Bu daş yerə düşübdür.



AŞIQ NOVRUZ

....

XIX əsrin ikinci yarısında Şəkidə aşıq şeirinin inkişafında Aşıq Novruzun xüsusi rolu olmuşdur.
Doğum və ölüm tarixləri dəqiq məlum olmasa da onun XIX əsrdə yaşadığı, yaradıcılığında qoşmaları üstünlük təşkil etdiyi, qoşmalarının əsas etibarilə zəmanədən, zalimlərdən şikayətdən və məhəbbət lirikasından ibarət olduğu da bildirilir.
Salman Mümtaz "El şairləri" kitabına Aşıq Novruzun bir neçə şeirini də daxil etmişdir.

Dağlar

Ey ağalar, tərki vətən olmuşam,
Itirdim Qəndab tək maralı, dağlar.
Bu çiskin, bu duman səndə müqərrar,
Çox çıraqlar səndə qaralı, dağlar.

Qarlı dağlar gündən-günə qan elər,
Bu duman, bu çiskin nə yaman elər,
Burda ölməyimi kim güman elər,
Gen dünya başıma daralı, dağlar.

Bu dağın ucu Şəki dağıdır,
Sanasan çevrəsi cənnət bağıdır,
Tuyğun, tərlan, laçın yığnağıdır,
Sonalar arzular saralı, dağlar.

Mən Novruzam, içdim yar ilə badə,
Badə içib irişdim xoş muradə,
Soyuq bulaqlarda, çəmənli yerdə,
Əcayib yaşlanıb aralı dağlar.

İmdad

Qarlı dağlar yenə itdi aradan,
Kərəm elə, qoyma məni dəryada,
Ərşü-kürşi, insü-cinni yaradan,
Kərəm elə, qoyma məni dəryada.

Necə oldu mənim ilə varanlar,
Dəryaya qərq oldu neçə min canlar,
Ənbiyalar, övliyalar, ərənlər,
Kərəm elə, qoyma məni dəryada.

Nagahan rast oldu merabı gəmi,
İçinə yığılıb ərənlər hamı,
Dadıma yetiş sən Məhəmməd Nəbi,
Kərəm elə, qoyma məni dəryada.

* * *

Dedim, gəl ikimiz həmdəm olalım,
Ağı mən oxuyum qarasın qara.
Dedim, birdən qan salmayın araya,
Yeri, rəqib, üzü qarəsən, qara!

Dedim, qəlyan gətir, çəkəlim indi,
Ellərdən dərdini çək əlim indi,
Dedim, dəstgirim ol, çək əlini indi,
Deməyin başıma qara[1] sən, qara!

Dedim, dost saçların yıqalayıbdır[2],
Canım eşq odunu ya qalayıbdır,
Qəm aşıq Novruzu yaxalayıbdır,
Uzaqda verirsən qarə sən qara!

---

[1]başıma qara-tənə et
[2]yıqamaq-yumaq

BAXŞƏLİ ƏFƏNDİ

1898-1985

Axundov Baxşəli Kazım oğlu 1898-ci ildə
Şəki şəhərində anadan olub.
Parisdə tibb təhsili aldığı zaman ailəsi tərəfindən geri çağırılıb,
sonra Parisə qayıda bilməmişdir. Tehrana qardaşının yanına gedib,
ərəb və fars dillərini mükəmməl bildiyindən orada bir müddət
məktəbdarlıqla məşğul olmuşdur.Şimali Azərbaycana qayıtdıqdan
sonra o, Qəza firqə Komitəsinin və Qəza Maarif şöbəsinin müdiri,
sonralar Şəki Musiqi Texnikumunun direktoru və s. vəzifələrdə
çalışmış,Şəki Diyarşünaslıq Muzeyinin, Şəkidə Orta İxtisas Misiqi
Texnikumunun, ibtidai musiqi məktəblərinin
yaradılması onun adıyla bağlıdır.Yeriyən canlı ensiklopediya
adlandırılan Baxşəli əfəndi yazıçı - drammaturq Cəfər Cabbarlı,
sənətşünas, xalçaçı Lətif Kərimov, məşhur mətbuat işçisi
jurnalist Qulam Məmmədli ilə dost olmuşdur.
O, dövrü mətbuatda publisist məqalələri ilə müntəzəm çıxış
etmiş, xalqın maariflənməsində əlindən gələni əsirgəməmiş,
sanki bir pərvanə ömrü yaşamışdır.
Baxşəli əfəndi Axundov 1985-ci ildə vəfat etmişdir.

Mübariz Maarifçi

"Xatirələrim" ixtisarla

...Məşədi Mehdi təkcə ailəsinin pis güzaranından deyil, onu əhatə edən mühitdən də qəmgin olurdu. Onun mütailə həvəsi görüş dairəsinin genişlənməsinə, aydın olmayan bir çox məsəllərdən baş çıxarmasına, necə hərəkət etməsinədə sanki istiqamət verirdi. Gənc yaşlarında mədəniyyət aşiqi, onun fəal təbliğatçısı olan M. Sadıqovdan hətta öz ailəsi də üz döndərdi. Mütərəqqi ədəbiyyat, teatr kitabları oxumasından şübhəyə düşən və sonralar şagird olduğu dükan sahibi tərəfindən o, işdən kənar edilmişdi.

Sadıqov meydanda tək qalmır. O zamankı maarifpərvər adamlardan Həsən Tahirov, Mustafa Bədəlov, Kərəm Əsgərov və bir sıra belə tanışlarının köməyini görür. Onlar Sadıqova ac qalmamaq və çörək pulu qazanmaq üçün xırda bir halvaçı dükanı açırlar. Lakin bu dükanda zahirən hər şey satılardı. Əslində isə bura mütərəqqi fikirli şəxslərin məsləhət və məşvərət mərkəzi idi. Bunun üçün dükanın taxtadan arakəsməsi var idi. Küçəyə baxan hissəsində halva və başqa şeylər satılırdısa, arxa tərəfdə stol, bir neçə kürsü qoyulmuşdu ki, bu da örtülü qiraətxana idi. Burada hər cür qəzet, jurnal olardı. Azərbaycanın görkəmli yazıçılarından M.F.Axundovun, Ə.Haqverdiyevin, C.Məmmədquluzadənin əsərləri maraqla oxunurdu. Bütün sirdaş və dostları tez-tez bura toplaşardılar.

1905-ci ildə Rusiya fəhlə sinifinin inqilabi çıxışlarına həmrəylik əlaməti olaraq Nuxa ipəkçiləri də tətilçilərə rəğbət göstərdikləri üçün onların başçıları ilə bəzən burada görüşüb onlarla əlaqə saxlayırdılar.

Tətil nəticəsində həbsə alınmış fəhlələrin ailəsinə maddi yardım göstərmək M.Sadıqovu və onun dostlarını düşündürürdü. Buna görə də "Hacı Qara" komediyası tamaşaya qoyulur. Hasil olan pul həbsdə olanların ailələrinə verilir. M.Sadıqov "Molla Nəsrəddin" jurnalını, "Həqiqət", "Tərəqqi" və bu kimi yaxşı fikirli qəzetlərin yayılmasına hər vasitə ilə kömək edirdi.

M.Sadıqov möhumata qarşı xalqı daim cəhalətdə qoymaqda olan ruhanilərə qarşı ciddi mübarizə edərdi. Zamanına görə bu iş çox çətin olduğuna baxmayaraq, toy və ya təziyyə məclislərində mövhumat və dil əleyhinə çıxardı. 26 yaşında olan Sadıqov fəal bir ateist kimi tanınırdı. Şair olmasa da, mədəniyyətə olan alovlu məhəbbəti onu şeirlə də çıxış etməyə vadar edirdi. O, 1906-cı ildə bir varlı toyundakı dəbdəbəni görüb belə bir həcv yazmışdı:

Toy səsi ilə yanaşı bax ucalır nalədə var,
Bəs olarmı tıxanmaq küt buna? Ey hüşyar,
Sən eşit Sabiri, Allahsız olanda nə olar,
Sözü düz, məsləki haqq, tutduğu işlər nə ki, var.
Sabahın carçısıdır, sizlərə meydan oxuyar.

Bəlkə də bu şeir səviyyəcə aşağıdır. Lakin onda cəhalətpərəstlərə, varlılara ürəkdən nifrət, yoxsullara acımaq duyulur.

M.Sadıqov inqilabın birinci günündən dövlət işinə başlayır. Nuxada inqilab komitəsi üzvü, xalq ictimai təminat komisarlığı müfəttişi, sonralar siyasi maarif müvəkkili olur. Ömrünün sonuna qədər daha bir sıra vəzifələrdə çalışır.

O, ictimai işə, mədəniyyətə həmişə məhəbbət bəsləmişdir. Buna görə də özfəaliyyət, dram dərnəklərində iştirak edir, mühüm rollarda səhnəyə çıxaraq öz təcrübəsini gənc həvəskarlara öyrədirdi. Onun "Ölülər"də yaratdığı Şeyx Nəsrullah obrazı peşəkar aktyorun ustalığına bənzəyirdi, o, partiya, sovet təşkilatları tərəfindən təşviqat briqadalarında iştirak etməklə uzaq kəndlərə gedib, camaat qarşısında çıxış edərdi.

M.Sadıqov yoldaş qoca yaşlarında da öz gəncliyini əldən vermirdi. Onun qəlbi hər daim vətənlə fəxr edirdi.

Cavanlarla söhbət edərkən nəsihət edib deyərdi:

– Ana Vətənə və zəhmətkeş xalqa xidmət etmək, hər yerdə və hər hansı işdə olursa-olsun, böyük şərəfdir.

Doğrudur, o indi bizim aramızda yoxdur, lakin ömrünün son 20 ildən çoxunu Sovet dövründə başa vurmuşdur. O, 1941-ci ildə 74 yaşında vəfat etmişdir.

MƏMMƏDİYYƏ YUSİFZADƏ

1902-1987

Məmmədiyyə Əhməd oğlu Yusifzadə 1902-ci il noyabrın 17-də Şəkidə anadan olmuş, ibtidai təhsilini mollaxanada almış.
Bakı Pedaqoji Məktəbini (1922),Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsini bitirmişdir (1935).
Şəki İpək fabrikində baramaaçan fəhlə, papaqçı yanında şagird, Şəki, Qəbələ, Zaqatala rayonlarının kəndlərində müəllim (1922-1927), institutu bitirdikdən sonra Zaqatala rayonunda müəllim və direktor (1935-1938) işləmişdir.1945-ci ildə cəbhədən qayıtdıqdan sonra yenə Zaqatalada üç il müəllimlik etmiş, Bakıda 156 saylı məktəbdə dərs hissə müdiri (1949-1953), Bakı şəhər maarif idarəsində metodist-müəllim işləmişdir (1957-1963). Bədii yaradıcılığa təqaüdə çıxdıqdan sonra-gec başlamış, "Oğul görüşü"(1977), "Artıq tamah"(1978), "Azad çoban" (1980), "Qonşu qonşuya baxar, canını oda yaxar" və s. pyesləri Bakı, Gəncə, Şəki, Zaqatala teatrlarında tamaşaya qoyulmuşdur. "İgid ölər, adı qalar" (1975), "Məktəb səhnəsi"(1977), "Həyəcanlarımızın baharı" (1978), "Ömürdən səhifələr" (1982) kitabları çap olunmuşdur. Yazıçı-dramaturq 18 noyabr 1982-ci ildə Azərbaycan "Əməkdar Mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.Məmmədiyyə Yusifzadə 1987-ci ildə Bakıda vəfat etmişdir.

Bertanın körpələri

"Cəbhə xatirələri" silsiləsindən

Xidmət etdiyim hissə Şərqi Prussiyanın Şenvize qəsəbəsində, böyük bir malikənədə dayanmışdı. Yüz hektarlarla əkin və otlaq sahəsi olan bu malikanə çinar ağacları ilə dövrəyə alınmışdı. Burada daş və bişmiş kərpicdən tikilmiş 15 böyük bina vardı. Həmin mülk hitlerçi baronlardan birinin yaşayış malikanəsi idi. O,bütün əmlakını: 1.500 başdan atıq mal-qarasını, quş fermasını, ucsuz-bucaqsız meyvə bağını, 4 mərtəbəlii dəyirmanını və kənd təsərrüfatı maşınlarını tərk edib qaçmaq istəmişdi. Ancaq öz mülkündə yaralanıb ölmüşdü.

Biz malikanədə axtarış apararkən, dəhşətli bir hadisənin şahidi olduq: yaşayış binalarından birinin anbarından iki qadın və 11 uşaq tapdıq. Uşaqlardan böyüyünün 6 yaşı vardı. Onların rəngləri sapsarı idi. Gözləri çuxura düşmüşdü, lap meyitə oxşayırdılar. Qadınlar əlləri ilə birtəhər bizi başa saldılar ki, birinin 56, o birinin 70 yaşı vardır. Sonra uşaqların ac olduğunu anlatdılar.

Biz onları zirzəmidən çıxarıb yaşadığımız binaya gətirdik, doyunca yedirtdik. Mayor Semyonov onlara baxıb qəzəblə dedi:

– Budur, Hitlerin törətdiyi faicələrdən bir mənzərə!

Qadınların adlarını da öyrəndik: qarının adı Marta, nisbətən cavanınkı Berta idi. Hər ikisi yoxsul həyat keçirmiş və baronun fermasında sağıcı işləmişdilər.

Sovet Ordusu faşist işğalçılarını darmadağın edib Pejxstaq üzərində Qələbə bayrağı ucaltdı. Hitlerin qızdırdığı dəmir onun özünü dağladı. O, bu odla dostlarını da yandırdı. Zəhmətsevər xalqın həyat tərzi pozuldu. Onlar ev-eşiklərini tərk edib, hara gəldi qaçmağa üz qoydular. Hitler və onun əlaltıları hay-küy salmışdılar ki, güya Sovet qoşunları dinc əhalini də qıracaq, onun əlindən heç kəs sağ qurtara bilməyəcəkdir. Lakin Sovet Ordusu onların eşitdiyi və düşündüyü kimi deyildi. O, düşmənə qarşı nə qədər amansız idisə, dinc əhaliyə qarşı olduqca ədalətli və qayğıkeş idi.

Mayor Semyovun əmri ilə geniş bir salon Berta və Marta nənə ilə onların nəvələrinin ixtiyarına verildi. Onlara təmiz yatacaq və dəyişək paltarı verdilər. Bu uşaqlara gündəlik fikir verilməsi isə sanitar Həsənova tapşırıldı. Sonra mayor sağıcılardan Marusyanı çağırıb dedi ki, hər səhər mal sağılarkən uşaqlara 12 litr süd versin. Mayor, Marusyanı uşaqların yanına aparıb göstərdi ki, bu, sizin ananız, Berta isə nənənizdir.

Uşaqlardan Albert, Hans, Anna, Frida, Janna, İra və Karl olduqca

istiqanlı idilər. Hər səhər mal damından çıxıb, əlində süd vedrəsi ilə onlara tərəf gələn Marusyanı gördükdə sevinib əl çalırdılar.

1945-ci il mayın 9-da səhər saat onda mayor Semyonov qərargahdan gəlib, atdan düşdü. Pəncərədən boylanan uşaqları salamladı. Sonra yuxarı qalxıb kapitanla görüşdü, ona şad bir məlumat verdi.

– Əsgərlər silahlanıb həyətdə sıraya düzülsünlər!

Pəncərələrdən baxan uşaqlar silahlı əsgərlərin sıraya düzüldüklərini görəndə, nənələrini də pəncərəyə çağırdılar. Onların qorxduğunu hiss edən mayor, kapitana dedi ki, uşaqları başa sal ki, atəş açılarkən qorxmasınlar. Sonra da sıranın qarşısında dayanıb dedi:

– Yoldaşlar, əziz əsgərlər! Faşist ordusu darmadağın edilmişdir! Bu şanlı gün münasibətilə sizi ürəkdən təbrik edirəm! Qələbəmiz şərəfinə silahlarınızdan 20 yaylım atəşi açın!

Mayor Semyonov sonra Berta nənəni yanına çağırdı. Onun qolundan tutub özü ilə rəqsə dəvət etdi. Berta qoca da olsa, şənliyə qoşuldu, rəqs etməyə başladı.

Uşaqlar da əl çalıb gülür, oynayan qadınlara, əsgərlərə baxırdılar. Ömürlərinə bahar günəşi doğmuşdu-Azadlıq günəşi...

GÜLARƏ QƏDİRBƏYOVA

(Köylüqızı)

1903-1942

Gülarə İbrahimxəlil qızı Qədirbəyova-Gülarə Köylüqızı 1903-cü ildə Şəki rayonunun Baş Göynük kəndində molla ailəsində anadan olmuş, Şəkidə pedaqoji kursu bitirib (1920), doğma kəndində müəllimlik etmişdir. Gənc yaşlarında ictimai-siyasi fəaliyyətə cəlb olunmuş, "Şərq qadını" jurnalı fəaliyyətə başladığı gündən onun səhifələrində çıxış edən ilk müxbir qız olmuş, alovlu publisist yazıları ilə Azərbaycan qadınlarının maariflənməsində böyük xidmətlər göstərmişdir.20 yaşında Qəza qadınlar şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmiş, Şəki, Şamxor (indiki Şəmkir), Quba, Bakı rayonlarında Qadınlar şöbəsinə rəhbərlik etmiş, Azərbaycan MİK Qadınlar şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmiş (1937), Əli Bayramov adına qadınlar klubunun müdiri vəzifəsində işləmişdir (1937).
Onun redaktəsi altında yazılmış "Bir sarayın tarixi" adlı kitab millətçilik ruhunda yazılmış əsər kimi ciddi tənqid edilmiş,
H.Cavid, Ə.Cavad, Ş.Hüseyn kimi ziyalılarla dostluq əlaqəsinə görə əksinqilabi təşkilatın üzvü kimi təqib olunmuş, 1939-cu il iyulun 9-da 5 il Sibirə sürgün edilmiş, 1942-ci ildə Sibir sürgünündə vəfat etmişdir.1957-ci il oktyabrın 30-da Azərbaycan SSR Ali məhkəməsi Gülarə Köylüqızı haqqında 1939-cu il 9 iyul tarixli qərarı ləğv edərək, ona bərəət vermişdir.
Baş Göynük kənd 1 saylı orta məktəbi Gülarə Qədirbəyovanın adını daşıyır.

Sabir və qadın

Azərbaycanın böyük, sevimli, inqilabçı, satirik şairi Ələkbər Tahirzadə Sabir Rusiyada kapitalizm ziddiyyətlərinin artdığı və sinfi mübarizənin kəskinləşdiyi bir dövrdə yaşamış və ölməz əsərlərini yaratmışdır.

Sabir Azərbaycan xalqının və bilxassə Azərbaycan qadınlarının hüquqsuzluğunu, mədəni geriliyini, yoxsulluğunu görmüş və öz yaradıcılığında buna geniş yer vermişdir.

Sabir öz realist və satirik qələmi ilə, həqiqətən, Azərbaycn qadınlarının ən yaxın və səmimi bir dostu olmuş, onların həyatını bütün varlığı ilə öyrənərək ictimai bir doktor kimi müalicəsinə çalışmışdır.

Sabir Azərbaycan qadınları üzərində əsrlərlə hökm sürən dinin, şəriət və ruhanilik tərəfindən yürüdülən hökmləri, qayda-qanunları, adət və ənənələri qorxmadan ifşa etmiş, əməkçi qadınların insancasına yaşayışını tələb etmişdir. Qadınların hüquq və azadlığı, savad və mədəni inkişafı məsələləri Sabir yaradıcılığında görkəmli bir yer tutur. Sabir qadının evdə, ailədə, ictimai həyatda bərabərsizliyini görmüş, onu öz dövrünün ictimaiyyətçi bir şairi, psixoloqu kimi dərindən-dərinə tədqiq edərək tədavisinə çalışmışdır.

Sabir yaradıcılığında qadınların bir ana, bir mürəbbi, bir cəmiyyət üzvü kimi qiymətini anlamış, onların da oxumasını və gələcək nəslin tərbiyəsindəki rollarını əks etdirmişdir.

Sabir, 8-9 yaşlı qızları 50-60 yaşında məşədilərə, hacılara, kərbəlalərə ərə verilməsi kimi qaba və çirkin adətlərə qarşı hücum etməkdən çəkinməmiş və ..

"Dudkeş kimi bir papaq başında,
Ağ tükləri bəllidir qaşında,

Lap çox qocadır, babam yaşında" – sözlərilə məsum qızların dilindən şikayət etmişdir. Sabir qadınların iqtisadi yoxsulluğunu unutmamış, onları bu cəhətdən dəxi müdafiə etmiş və :

"Evladi vətən qoy gedib avarə dolansın,
Çirkabı səfalətlə əli, başı bulansın,
Dul övrət isə sailə olsun, oda yansın,

Ancaq mənim avazei şənim ucalsın" – sözlərilə iqtisadi asılılıq, əsarət qurbanı olan qadınların vəziyyətinə acımış, onları dilənçilikdən, yoxsulluqdan, iqtisadi məhkumluqdan xilas etmək istəmişdir.

Sabir Azərbaycan əməkçi qadınlarının hər tərəfli irəliləməsini cəsu-

ranə bir surətdə öz çıxışlarında müdafiə etmişdir. Cəmiyyətin kiçik forması olan ailədə müvazinətsizliyi duyan və bunun səbəblərini maarifsizlikdə görərək:

"Vay,o gündən ki, məni ad elədiz,
Elə bildiz ki, dilşad elədiz.
Mən də sandım ki, dönüb bəxtəvərə
Gedirəm bir nəfər insanə ərə..
Şəkli insanda da heyvan var imiş.
Ər oxurmuş da, yazırmış da, anam,
Ər deyil möhlik azarmış da, anam"

– deməklə, ailə həyatında başverən bu kimi anlaşılmazlığa, bir-birini anlamamaq faciəsinə amansız bir düşmən kəsilir və onu meşşanlıq bataqlığından, müvazinətsizlikdən çıxarıb, mədəni, tərbiyəli və müvazinətli bir ailəyə çevirmək istəyir. Sabir haman bu əsərində geridə qalmış dünyagörüşləri etibarı ilə tam məhdud anlayışlı, meşşanlıq bataqlığında üzən, ictimai mədəni düşüncədən, mədəni əyləncədən və sairədən məhrum olan öz səadətini yalnız ər simasında axtaran avam qızları, qadınları kəskin dil ilə xarakterizə edir:

"Oturub ac komasında atamın,
Biş-düşün hazır edərdim anamın.
Bitləyərdim nənəmin baş-yaxasın,
Yamayardım babamın çul-çuxasın,
Tez durub sübh sağardım inəyi,
Xan Sənəmdən diləməzdim köməyi,
Neyləyirdim bəzəyi, ya düzəyi,
Dama, divara yapardım təzəyi".

İctimaiyyətçi şair insani bir duyğu ilə müsəlman ailəsində olan bu məhdudluğa təhəmmül etməyir və onu şirin bir dil ilə, fəqət incə-incə sancaraq daldığı qəflət yuxusundan oyatmağa çalışır.

Sabir, əlbəttə ki, köhnə ailə yaşayışını bu vəziyyətdən qurtarmaq istəyərək ona ən doğru və düzgün bir istiqamət verməyə çalışmışdır.

Şübhəsiz, Sabir yaradıcılığında bütün bunlar zamanına görə böyük bir inqilabi fikir, böyük bir reforma hesab oluna bilər...

Dinin, şəriətin qadın üzərindəki hökmranlığını, vəhşi qanunlarını ayaqları altına salıb tapdayan Sabir çoxarvadlılığa qarşı çıxışlarında nə qədər səmimi bir insan görünür. Sabirin qadın haqqındakı mülahizələri, düşüncələri gələcək nəsillərimiz üçün böyük bir məktəbdir.

AŞIQ HACIBALA

1905-1974

Aşıq Hacıbala-Abdullayev Hacıbala Abdulla oğlu 1905-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olub.
Halal və düzgün adam olduğu üçün bir müddət kənd dəyirmanında dəyirmançı işləmiş.
1943-1950-ci illərdə Qax rayon Maşın-Traktor Stansiyasında traktorçu kimi çalışmışdır.
Cəfakeş tədqiqatçı Kamil Adışirinovun məlumatına görə :
"Hələ 14 yaşında olarkən (1919-cu ildə) Molla Cuma kimi aşığın sənət sınağından üzüağ çıxdığına görə şeir sahəsində də özünü sınayaraq maraqlı poetik nümunələr yaratmış, bu şeirlərin bəziləri aşıqla həmsöhbət olan folklor toplayıcıları tərəfindən götürülərək geri qaytarılmamış və bu günədək həmin şeirlərin taleyi məlum deyildir"
Yaradıcı,eyni zamanda ifaçı aşıq kimi tanınan, Molla Cumanın şagirdi olan aşıq Hacıbala 1974-cü ildə haqq dünyasına qovuşmuşdur.

Gülür

Sovet ordusundan gələndə səda
Səhra gülür, çəmən gülür, düz gülür.
Şair coşub ona nəğmə yazanda,
Qələm gülür, kağız gülür, söz gülür.

Bizim qoşunların qəhrəmanları,
Ölümdən qorxmayan mərd insanları,
Saldılar nəfəsdən qan soranları,
Ellər gülür, dillər gülür, üz gülür

Reyxstaqa bayrağı sancan əsgərlər,
Hitleri taxtından salan əsgərlər,
Tarixdə yadicar qalan əsgərlər,
Alnıaçıq, indi keyfi saz, gülür.

Qızıl Ordu dağlar yarıb, yol açdı,
Elə bil ki, qayalardan sel aşdı,
At oynadıb, qılınc vurub qol açdı,
Həvəslənib ürək gülür, göz gülür.

Cəbhədən qayıdan qəhrəman qoşun,
Dağ kimi dayanıb dik tutub başın,
Ata oğlu gördü, bacı qardaşın,
Ana gülür, oğul gülür, qız gülür.

Ceyran

Səhər-səhər səfalanıb,
Nə çıxmısan yola, Ceyran?
Bülbül kimi pərvazlanıb,
Sağdan baxır sola Ceyran!

Qaş-gözünü süzə-süzə,
Qurban olum xumar gözə,
Gəl gözəlim, gedək bizə,
Əl salıban qola, Ceyran!

Ayrılmaram belə yardan,
Qaşı qara, göz xumardan,

Qoynundakı heyva, nardan,
Birin versən nola, Ceyran!

Mən səni görəndən bəri,
Olmuşam divanə, Ceyran!
Sinəm oldu qəm dəftəri,
Yetir o dərmana, Ceyran!

Adın yazıb açа bilməm,
Dost-düşməni seçə bilməm,
Götürüb mən qaça bilməm,
Aparım hayana, Ceyran?

Hacıbalanı gəl dindir,
Dayan qarşımda, bax, güldür,
Kəs başımı, məni öldür,
Ya da yetir cana, Ceyran!

Tütün

Zəhmətinən yer üzünə düzülür,
Yaprağı döşənir torpağa tütün.
Əvvəlinci dib yarpağı üzülür,
Nazınan qoyulur damağa tütün.

Hər növündə ayrı tam, ləzzət olur,
Dostlar arasında keyf-ləzzət olur.
Qədrini bilməyən kəs bədzad olur,
Qutuynan çıxarsan qabağa tütün!

Al-əlvan açılıb başında güllər,
Ətrini əks edir düzənli çöllər
Dəstə-dəstə dərir qızlar, gəlinlər,
Oxşayırsan göyçək yanağa tütün!

Toy-məclisində bəxtəvərlərin,
Yanan ürəklərin eyləyir sərin,
Hacıbala fikri olmasın dərin,
Dönübsən şəkərə, qaymağa tütün!



MÜSEYİB SADIQOV

1906-1938

Sadıqov Müseyib Əlibala oğlu 1906-cı ildə
fəhlə ailəsində anadan olmuş,iki yaşında atasını itirmiş və
qohumlarının himayəsində böyümüş, ibtidai təhsilini başa vura
bilməmiş,qoyun-quzu otarmaqla dolanışığını təmin etmiş, sonralar
ibtidai təhsil alıb ikinci dərəcəli məktəb bitirmişdir. 1926-1929-cu
illərdə Şəki ipək fabrikində işləmiş, burada komsomol sıralarına
daxil olmuş və komsomol komitə katibi, həm də
Azərbaycan LKGİ MK –nın üzvü seçilmişdir."Nuxa işçisi" qəzeti
redaksiyasında partiya şöbəsinin müdiri (1930-1937),
Şəki Şəhər Soveti yanında İnzibati İşləri İdarəsinin
rayon müvəkkili (1937-1938) işləmişdir.
Bədii yaradıcılığa 1927-ci ildən başlamış, bir sıra şeirləri-
"Üsyan","Yeni yol","Zərbəçi","8 Mart","Şona",
"Ana və oğul"poeması və.s dövrü mətbuatda çap edilmiş,
1934-cü ildən Azərbaycan YazıçılarBirliyinin üzvü olmuşdur.
1938-ci ildə həbs edilib, ən ağır cəzaya
məhkum olunmuş-güllələnmişdir.

Turud

(bir parça)

Çağırdım sayrışan yıldızları mən,
Basmışdı bağrına məni göy çəmən.
Öpürdü üzümü sabahın yeli,
Dolaşmış Turudun sümbüldən teli.
Mənə andırırdı gəlib-gedəni,
Rəngbərəng çiçəklər oxşardı məni.
Deyirdim bir zaman nə idi bura,
İllər gəlib-getdi diz qura-qura.
Qudurmuş ilanlar çəkirdi nərə,
Könlümü açmazdı heç bir mənzərə.
O zaman qaçaqlara yurd idi Turud,
İnsan qanı üçün mələyirdi qurd.
Yox idi dirilik, yox idi həyat,
Qarğalar da burada salmazdı qanad.
Əsdi sərin külək, açıldı səhər,
Turudum başqadır, bir başqa şəhər.
Turudum yaxındır Kürə-Araza,
Sabah su verəcək ona susasa.
Oxucum Turudla qoy tanış olsun.
Qəlbində mənim tək qaynayış olsun.

Zəfərli yollarda

Sən ey qızıllardan doğan, qızıl vərəqli orqan,
Sən ey parlaq günəş olub zülməti, zülmü boğan,
Ey, mübariz firqəmizin məqsədini daşıyan,
Ey on yaşlı komandan, bax, varlıq sənlə sevinir.

Yadındamı?...Sən Təzə içən sənə nələr olmadı?
Ki hər yetən guya səni ömr etməyə qoymadı.
Lakin, sənsə əzdin bütün düşmənləri, qalmadı.
Yürü, bu zəfərli yolda düşmən gözləri sönür.

Möhkəm oldun, sarsılmadın, titrəmədin, sönmədin,
"Proletariat birləşin"-deyib hər an səslədin.
Yuxlamadın,bir an olsun heç səsini kəsəmədin,
Daim dedin mübarizə, yaxındadır gələcək.

Sən aşaraq bu on dağı öz müzəffər ordunla,
Hər saətki maneəni əzdin dəmir qolunla,
Get bu iti sürətinlə, get bu şanlı yolunla,
Bütün dünya məzlumları şən alnından öpəcək.

Proletar tarixində adın tutdu bir məkan,
Min bir əsrin 10 ilində yaxşı verdin imtahan
Sənin bu cür varlığına alqışım var hər zaman,
Sən yaşasan istiqbal da sevinəcək, güləcək.

HEYDƏR ƏFƏNDİYEV

1907-1967

Heydər Xəlil oğlu Əfəndiyev 1907-ci il iyunun 1-də
Şəki şəhərində anadan olmuş, atasını erkən yaşlarında itirib,
dayısının himayəsində Şəkidəki "Vətən" məktəbini,
Şəki Pedaqoji Texnikumunu (1925),
Azərbaycan Dövlət Universitetinin təbiət-riyaziyyat
fakultəsini bitirib (1932).
Gənc yaşlarından Şəkidə tənqidçi, ədəbiyyatçı,
publisist kimi tanınmış, 1927-ci ildə "Qızıl qələm"
ədəbi birliyinin Şəki şöbəsində məsul katib seçilmiş,
rayon qəzetinin "Gənc qələmlər" səhifəsinin
hazırlanması işi də ona həvalə edilmiş, "Şəki fəhləsi" qəzetinin
səhifələrində bədii yazıları ilə çıxış etmişdir.
Heydər Əfəndiyev 1933-cü ildən
ömrünün sonunadək həyatı-fəaliyyətini
Azərbaycan SSR Elmlər Akademiyası ilə bağlamış,
geologiya-mineologiya elmləri namizədi (1941),
geologiya - mineralogiya elmləri doktoru (1958) elmi adını almış,
1959-cu ildə professor adına layiq görülmüşdür.
1949-cu ildə Azərbaycan SSR EA Kimya İnstitutuna
direktor təyin edilən Heydər Əfəndiyev
1962-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir.

O, ədəbi yazılarını "Heydər", "Əfəndiyev", "H-q" imzaları ilə dərc etdirmiş, M.F.Axundzadəyə bir sıra məqalələr həsr etmiş, çoxtərəfli elmi axtarışları 8 monoqrafiya və kitabda, 216-ya qədər elmi əsərdə öz əksini tapmışdır. Əməyi iki dəfə "Şərəf Nişanı" ordeni və digər medallarla, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. Elm və ədəbiyyat fədaisi Heydər Əfəndiyev 1967-ci ildə Bakı şəhərində vəfat etmişdir.

MUĞUM MƏMMƏDOV

1907-1976

Muğum Məmmədov 1907-ci ildə İrəvan vilayətinin Göyçə mahalında-Zağalı kəndində anadan olub, yoxsulluq içində ağır, məşəqətli güzəran keçirən ailəsinə kömək göstərən Muğum 12 yaşından muzdurluq etmiş, qoyun-quzu otarmaqla məşğul olmuşdur. 1917-ci ildə erməni daşnaqlarının törətdikləri qırğın səbəbli Muğum ailəsi ilə Gəncəyə köçüb. Burada da onun həyatı xoş keçməyib. O, Gəncədə həm fəhləlik etmiş, həm də boş vaxtlarında saz çalıb oxumaqla aşıqlıq sənətinə yiyələnmişdir. İki il Gəncədə yaşayan Muğumun ailəsi Ağdamın Liç kəndinə gəlmiş bir ildən sonra - 1920-ci ildə Şəkinin Göybulaq kəndinə,oradan da Dəhnə kəndinə köçüb. Çox ağır, məşəqətli, yoxsul günlər yaşayan Muğum 1927-ci ildən Cəfərabad kəndində məskunlaşıb. Burada savad kursuna yazılan Muğum yazıb-oxumaq öyrənir, həm kəndin mədəni həyatında, quruculuğunda, həm də təsərrüfatında çalışan fəallardan olub, kənd şura katibi, kolxoz sədri vəzifəsində, kənd kooperativində işləyib. 1938-ci ildə Azərbaycan aşıqlarının II qurultayının iştirakçısı olub. Yersiz təqiblərə məruz qalan Muğum 3 il həbsxanada yatıb. Azadlığa çıxdıqdan sonra bütün həyatını saza bağlayıb,sazı və sözü ilə Şəki diyarında sayılıb-seçilən, tanınmış aşıqlardan olub. Muğum Məmmədov 1976-cı ildə haqq dünyasına qovuşub.

Yaşasın

A yurddaşlar, bayramınız mübarək,
Fəxr eyləyən azad ellər yaşasın.
Xoş arzu, xoş dilək diləyən kəslər,
Bir də dil-dil ötən dillər yaşasın.

Yurdumuzda yeni dövran qurmuşuq
Azad hüquq, yeni həyat görmüşük.
Fəhlə kəndli biz əl-ələ vermişik
Xoş günlərə gedən yollar yaşasın.

Muğum deyir xoşdur bülbülün səsi,
Ruhumu oxşayır gülün haləsi,
Çıxsın ağ günlərə, çıxsın hər kəsi,
Bülbüllər yaşasın, güllər yaşasın.

Qızıl ordu

Bu şanlı vətənin sadiq oğlusan
Əzbərsən dillərdə, ay qızıl ordu!
Şöhrətin bürümüş bütün cahanı,
Şadlıq qur ellərdə, ay qızıl ordu!

Qolların mətindir, bədənin polad,
Daim qorxur səndən hər yağı, hər yad.
Faşistlər zəhmindən eyləyir fəryad.
Olmusan aslana tay, qızıl ordu!

Sədəfli sazımın bəzəyisən sən,
Səni alqışlayan ellərə əhsən.
Aşıq Muğum deyər, söyləyirəm mən,
Verəcək düşmənə vay, qızıl ordu!

HACI İSMAYIL
HACI QƏDİR OĞLU

1907-1986

Əhmədov Hacı İsmayıl Hacı Qədir oğlu 1907-ci ildə Şəki şəhərində anadan olmuş. Şəki şəhər ibtidai məktəbində (1915-1918), sonra isə mədrəsədə təhsili alıb (1923-1930). Ərəb, fars dillərini mükəmməl öyrənmişdir. Müxtəlif işlərdə çalışıb. 1941-1945-ci illər müharibəsində iştirak edib. 1969-cu ilin may ayından ömrünün sonuna kimi Zaqafqaziya müsəlmanları Ruhani İdarəsinin sədr müavini-müftisi olmuş, şəriət qanunlarının düzgün tətbiqinə və yerinə yetirilməsinə nəzarət etmişdir. 1970 və 1973-cü illərdə Məkkəyə getmiş, müqəddəs kəbəni ziyarət etmişdir. Hacı İsmayıl böyük din xadimi olmaqla yanaşı, şair təbiətli olmuş, xeyli sayda dini şeirlər və qəsidələr yazmış, təəssüflər olsun ki, onları nəşr etdirməmişdir. 1977-ci ildə xalqlar arasında dostluq və sülhün bərqərar olmasındakı xidmətlərinə görə və anadan olmasının 70 illiyi münasibətilə Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Hacı İsmayıl Hacı Qədir oğlu 1986-cı ildə haqq dünyasına qovuşub.

Ramazan

Mərhəba, xoş gəldin, mübarək Ramazan,
Gözlərdim yolunu hər daim, hər an.
Üləmalar səndə hər qafil insan,
Cümləyə səninlə bir əman olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

Haqqında ayətlə olmusan ayən,
Əstəhüzi billah şərhü rəmazan.
Əlləzü ünzilə fi hil Quran,
Mənası hər kəsə həyan olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

Hörmətini saxlar dövlətli, aciz,
Məscidlərdə hər daim edərlər vaiz.
Səni inkar edən murdardır, nacis
Onlar da xak ilə yeksan olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

Dəqriri hüridə məscidə tərəf,
Hər kəsin əlində mübarək müshəf,
Namazdan sonra oturub səf-səf,
Oxunan tilavəti Quran olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

Bilənə bəs olar onun fərəhi,
Müşkidir Allaha dühanın zihi.
Gecəsində qılan həm tərafihi,
İnşallah məkani cinan olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

Nə gözəl gecədir leylətül qədir,
O gecə mələklər, ruhlar seyr edir,
Kimisi şad gəlib, şad olub gedir.
Kimisi o anda peşman olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

İsmayıl çəkməsin bu ayda cəfa,
Ya rəbbim, ya Mühəmməd Mustafa,
Cümlə möminlərin dərdinə şəfa,
Şəfiü axırı zaman olacaq,
Bu gələn mübarək Ramazan olacaq!

OSMAN CÜMƏZADƏ

1907-1987

Osman Cüməzadə 1907-ci ildə Şəki şəhərində anadan olmuşdur.
"Qızıl Qələmlər Cəmiyyəti"nin Şəki bölməsinin
fəal üzvlərindən biri olmaqla, Şabit Rəhman,
Heydər Əfəndiyev, Əbdüləzzəl Dəmirçizadə ilə
əqidə və məslək dostu olmuşdur.
Satirik şeirlər və felyetonlar yazmış, onları "Şəki fəhləsi",
"Nuxa işçisi" qəzetlərinin səhifələrində 1926-1936-cı illər ərzində dərc
etdirmişdir. Sonralar Bakıya köçmüş,
"Molla Nəsrəddin", "Şərq qadını"jurnallarının,
"Yeni fikir","Yeni yol" qəzetlərinin müxbiri işləmişdir.
Osman Cüməzadə satirik şeir və felyetonlarını
"Aciz" təxəllüsü ilə yazıb çap etdirib.
O, 1987-ci ildə Bakı şəhərində vəfat edib.

"Zim" keçdi

Yoldan gəlib, "Zim" keçdi
Gör içində kim keçdi,
Yeddi sərnişin, bir də
Dayım və əmim keçdi.

İnspektor görən tək
Dedi: Saxla bir görək!
Şofer ona gülərək,
Eylədi bir him, keçdi.

Şofer qayıdan başı,
Durdu ona yanaşı.
İnspektor daşbaşı
Alıb mülayim keçdi.

Çadra, papaq, əlifba!

Yoldaş olub hər üçü
Yandı bu gün odlara.
Bambulı, aşiq, maşiq
Çəkildi sanki "dara".

Çopur Yetər, qız Sənəm
Qurtuldular torbadan.
Şələ papaq atıldı
Qalmış ata-babadan.

Köhnə əlif, beylərin
Təmam oldu mədfəni.
Təşdid, buvər, heycalar
Tapdı əsil məskəni.

Siyah çadra atıldı,
Motal papaq, fəs ilə.

Tazə həyat saçıldı
Tazə əlifba ilə.

Mədəni hücum-yürüş-
Qalmadı fal, cadu, cin.
Molla, axund, bic dərviş
İndi baxırlar misgin.

İndi deyir komsomol:
"Leyli, Məcnun, Kərəmlər",
"Aşıq Qərib" başda ol
Aşiqanə nəğmələr.

Çadra ilə bunları
Gömməliyiz torpağa.
"Arşın mal alanları
Qovmalıyız uzağa.

"Şah İsmayıl" fit çıxıb
"Mirzə Tahir" lağlağı,
Məşədi İbad atıbdı
Təzəlikcə şıllağı.

İstəmirik bunları,
Verin tazə opera.
Atılmış arxivlərə
"Çadra, papak, əlifba"...

ƏHMƏD QAFFAROV

1907 - 1977

Əhməd Qaffarov – Aşıq Əhməd 1907-ci ildə Şəki rayonunun
Baş Layıqı kəndində anadan olub.
1919-cu ilin qanlı-qadalı ağır günlərində hər iki valideyinini itirən
Əhməd Qax rayonuna gedib, bir neçə il burada muzdurluq edib,
sonra qoyun otarmaqla məşğul olub.
Fitri istüdadı ilə seçilən Əhməd bədəətən çobanlara şeir qoşarmış.
30-cu illərdə doğma obasına qayıdan Əhməd savad kursuna yazılmış,
az da olsa yazıb-oxumaq öyrənmişdir.
Əhməd saz çalmaq peşəsinə yiyələndikdən sonra
çobanlıqdan əl çəkmiş, aşıqlıq etməyə başlamışdır.
Şəki aşıq mühitinin yetirməsi kimi
Aşıq Əhməd Molla Cuma məktəbinin qabiliyyətli xələflərindən olmuş,
Molla Cumanın bir çox əsərlərini, onun dastanlarını,
eyni zamanda ən məşhur dastanları əzbər bilirdi.
Danışığında bir şirinlik, bir cazibədarlıq olan Aşıq Əhməd
məharətlə toylar aparar, dinləyiciləri heyrətləndirərdi.
Aşıq Əhməd 1977-ci ildə vəfat etmiş, doğulduğu kənd qəbristanlığında
torpağa tapşırılmışdır.

El bayramıdır

Vətənim bəzənib çiçək qırmızı
Açılıb gülləri, el bayramıdır.
Çıxdı qaranlıqdan gözəl bahara
Səsləyin elləri, el bayramıdır.

Qəhrəmanlar yurdu, şirin dil bizim,
Bu gözəl baxçada, bu xoş il bizim,
Bağlarda açılmış qızıl gül bizim,
Gül açıb çölləri, el bayramıdır.

Aşıq Əhməd cavanlaşıb, təptəzə,
Azadlıq olubdur, bax yoldaş bizə.
Vurduqca mizrabı sədəfli saza,
Səslənir telləri, el bayramıdır.

ƏBDÜLƏZƏL DƏMİRÇİZADƏ

1909-1979

Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə 1909-cu ildə Şəki şəhərində anadan olmuş, ibtidai və orta təhsilini Şəkidə almış, əvvəlcə "Həqiqətül-maarif" adlanan yeni tipli məktəbdə, sonra isə "Şəki nümunə zəhmət" məktəbində oxumuş, Şəki Müəllimlər Seminariyasını bitirmişdir (1925). Şəki 2 saylı şəhər məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamış, gənclik illərindən bədii yaradıcılığa böyük həvəs göstərmiş, şeirlər, hekayələr və oçerklər, "Kitabı-Dədə Qorqud" dastanının motivləri əsasında "Qaraca çoban" pyesini yazmış, "Dan ulduzu", "Gənc bolşevik", "Hücum", "Şərq qadını" kimi jurnallarda bədii əsərlərini çap etdirmiş, "Qızıl qələm"cəmiyyəti Şəki şöbəsinin təşkilatçılarından biri olmuşdur. Ancaq onun elmə olan maraq və həvəsi bütün fəaliyyətinə sirayət etmiş, filologiya elmləri doktoru, professor, Azərbaycan SSR EA-nın müxbir üzvü, Azərbaycan SSR Əməkdar elm xadimi, Azərbaycan SSR Dövlət mükafatı laureatı adına qədər yüksəlmişdir.

Onun 20-dən çox kitabı, 200-dən artıq elmi və elmi metodik məqaləsi çap olunmuş, "Azərbaycan dili tarixi xülasələri" (1938), "M.F.Axundov dil haqqında və Azərbaycan dili" (1941), "Azərbaycan dilinin tarixi" (1948), "Azərbaycan ədəbi dilinin inkişaf yolları"(1959), "Kitabı Dədə-Qorqud dastanının dili" (1959), "50 söz" (1962), "Azəri ədəbi dilinin tarixi" (1967) və s. kitablarını nəşr etdirmişdir. Azərbaycan dilçiliyi üzrə yüksək ixtisaslı kadrların hazırlanmasında böyük rol oynamış, 50-dən çox elmlər namizədi və doktoru yetişdirmiş, "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif olunmuşdur. Əbdüləzəl Dəmirçizadə 1979-cu ildə Bakı şəhərində vəfat etmişdir.Bakı və Şəki şəhərlərində adına küçə var.

Anama

Məktubunu aldım,oxudum, bildim.
Nə mütəəsir olub sən tək ağladım,
Nə də gözlərimi məndilə sildim.
Fəqət bir düşüncə məni pərt etdi,
İlk müəmma olan bu şeir tez bitdi.
Çünki,tez düşündüm, tez də anladım.
Hələ yadımda,bax heç unutmadım
İstərsən,dinlə də sənə anladım.
Dinlə ana, dinlə, oğlunu dinlə,
Şərik ol fikrimə bir bənliyinlə.
Ana, bilirəm ki, o kəlmələri
Öz barmaqlarınla qələmi tutub
Özün yazmamısan alnının təri ilə.
Niyə parlamır bu kiçik məktub
Cumlələr sənindir, sözlər sənindir.
Qəlbin də çırpınır bu cümlələrdə.
Mənə həsrət qalan gözlər sənindir.
Amma kəlmələri yazan bir özgə.
Özgə deyil ana bacımdır bəlkə,
Fəqət mənim arzum deyil heç böylə.

Mən istəyirəm ki, uzaqda olan
Oğluna məktubu bu qızıl yerdə
Anam özü yazsın öz qələmilə.
Mənə məktubu sən özün yaz, özün
Dala qalma bir an qaçan həyatdan,
Savad öyrən, ana, açığı sözün.

Vur

Şüurumun əmri ilə
Çırpınır qəlbimdə bir istək,
İstək...
Müəmma deyil ki,gəlməsin dilə
Söyləyim, dinlə.
Dinlə ey!
Vuruş meydanına səyirdərək at,
Yeni cahan qururuz
Bizə əskilər yad...
Kim varsa əskidən "yadigar"
Durmasın öndə,
Çəkilsin olsun kənar!
Döyüb polad musqullarını,
Dəmir qollarını
Oynatsın zərbəçi.
Dinlə susmadı "Dəmirçi".
Qəlbim vurur,
Çırpınır istək,
Durma qəlbim, durma!
Vur!Vur!Vur!
İstək
O sənə bağlı,
O sənlə yaraqlı,
O səndən asılı.
İstək
Bilirmisən nə demək?
Kəsirdir ipək,
Kəsirdir kəsir,
Həyat tələsir.

Gözləmir bir an olsun bizi.
Bu kəsirlə qaçana yetmək olmaz,
Bu kəsirlə bu yolu getmək olmaz.
İstək
Kəsiri düzəltmək....
Hey zərbəçi yoldaş,
Sən də qəlbim kimi
Dayanmadan
Vur!Vur!Vur!
Vur kəsirlərə zərbəni
Necə vurdunsa əsirlərə zərbəni.
Vur ki,
Qalmasın bir qram kəsir fərq.
Vur!
Qurmaq üçün vur!
Vur! vur!vur!
Vuraraq, vuraraq qur!...

Çağırış

(1909-da doğulanlara)

Bir-iki,
Sol,
Gəlin!
Hızlı bir paravoz kimi
İki cəbhəyi vuraraq gəlin!
Pozmayın sıraları,
Sıranızda möhkəm duraraq gəlin!
Heyyy!
Gəlin!
Sağ ayaq atmayaraq,
Sol sayaraq,
Bir –iki!
Sol!
Sol!
Düz saxlayın sıraları,
İnlədin hər diyarı,
İmperializm titrəsin səsinizlə,
Boğulsun faşistlər

İnternatsional nəfəsinizlə.
Gəlin!
Yanğın
Olub
Yana-yana gəlin!
Kolxozlardan ,fabriklərdən
Zərbəçinin alnındakı tər kimi
Çiçək aça-aça gəlin,
Gəlin!
Kimsə qalmasın yan,
Ve.ka.pe(be) kimi ayrılmadan
Birləşərək gəlin!
Dağları deşərək gəlin!
Bir traktor kimi
Torpağı eşərək gəlin!
Gəlin qızıllıq dünyasını
Quraraq ,quraraq gəlin!
Zəhərli yağıları
Vuraraq ,vuraraq gəlin!
Gəlin!
Sağ ayaq atmayaraq
Sol sayaraq,
Bir-iki...
Sol...
Sol...

SABİT RƏHMAN

1910-1970

Mahmudov Sabit Kərim oğlu - Sabit Rəhman 1910-cu il martın 26-da Şəki şəhərində anadan olmuş. Şəki nümunə zəhmət məktəbini (1921), Bakı Pedaqoji Texnikumunu (1926), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat fakultəsini (1932) bitirmişdir.

"Gənc işçi" qəzetinin redaksiyasında (1929-1933), "İnqilab və mədəniyyət" jurnalında məsul katib (1932-1933), Şəki MTŞ siyasi şöbəsində "Mübariz" qəzeti redaksiyasında (1933-34), Azərbaycan Dövlət Dram Teatrında ədəbi-hissə müdiri (1933-36), bir sıra vəzifələrdə, eyni zamanda Azərbaycan Nazirlər Sovetinin İncəsənət işləri idarəsində rəis müavini (1942-1944), Bakı Kinostudiyasının direktoru (1945-1946), Azərbaycan Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi və teatr institutunda müəllim və s. işlərdə çalışmışdır. Yazıçı, dramaturq 1926-1927-ci illərdə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi felyetonlarla ədəbi fəaliyyətə başlamış, ilk kitabı "Pozğun" (hekayələr toplusu) 1931-ci ildə çap olunmuşdur. Sabit Rəhman Azərbaycan komediyasının banilərindən biri kimi" Toy", "Xoşbəxtlər", "Aydınlıq", "Əliqulu evlənir", "Yalan", "Hicran" və s komediyaların. "Arşın mal alan", "O olmasın, bu olsun", "Koroğlu", "Əhməd haradadır?", "Ulduz" filmlərinin ssenarilərinin, "Yeddi gözəl" baletinin librettosunun, "Vəfasız", "Son faciə" povestlərinin

və "Nina" romanının müəllifidir. Böyük ədibin "Dozğun" (1931), "Şirin bülbül"(1933), "Vəfasız" (1933), "Xəyal-plov" (1938), "Son faciə"(1939), "Hüseyn Ərəblinski"(1948), "Hədiyyə" (1949), "Yoldaşlıq" (1950), "Böyük günlər"(1952), "Komediyalar" (1954), "Hekayələr" (1956), "Seçilmiş əsərləri", (iki cilddə:1958-1960), "Əliqulu evlənir" (1962), "Teatr hekayələri" (1964), "Komediyalar" (1967), "Seçilmiş əsərləri" (6 cildə:1975-1979) və s. kitabları çap edilmiş, 1943-cü ildə Azərbaycan SSR Əməkdar İncəsənət xadimi adına layiq görülmüş, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur. Əsərləri tərcümə edilərək xarici ölkələrdə çap olunmuşdur. Şabit Rəhman 23 sentyabr 1970-ci ildə Bakıda vəfat etmişdir. Xatirəsi əbədiləşdirilmiş, Şəki Dövlət Dram Teatrı Ş.Rəhmanın adını daşıyır, büstü qoyulmuş, Bakı və Şəki şəhərlərində onun adına küçə vardır.

Ceyran

(hekayə)

Atalar deyirlər ki, söz vaxtına çəkər. Elə keçən il bu vaxt, bizim məhəllədəki Əhməd evləndi. Əhmədin atası Qənbər kişini bizim tərəflərdə tanımayan az tapılar. Böyük bir idarənin anbar müdiridir. Evi də düz anbarın yanındadır. Qapıbir qonşudular. Çox rica edirik ki, bu, sizin ağlınıza pis-pis fikirlər gətirməsin, Qənbər kişini hələ bu vaxta kimi əliəyrilikdə tutan olmayıb. Düzdür, bir az qohumbazlığı var, məsələn, oğlu müavinidir, arvadı tədarükçü adı ilə məvacib alır. Ancaq bunların işə heç bir təsiri yoxdur. Anbar düpbədüz, aptek tərəzisi kimi işləyir. Söhbət bunda deyil, söhbət Əhmədin toyundadır. Bir toy oldu ki, gəl görəsən. Zurna çalan kim, şabaş yığan kim, tar dəstəsi gətirən kim, müxtəsər, Əhməd gözəl qız aldığına o qədər sevinmişdi ki, qırx gün, qırx gecə toy çaldırsaydı, yenə ürəyi soyumazdı.

Əhmədin öz savadı yediillikdən yuxarı deyildisə də, qız ali məktəbdə oxuyur, adı Ceyrandır. Həqiqətən adına layiq qızdır... Yeriyəndə min can alır, danışanda elə bil bülbül oxuyur, güləndə ətrafa sanki gül səpələnir. Qərəz, toyda oturanlara elə gəlirdi ki, Ceyran nağıl kitablarının səhifələrindən çıxıb bir baş bu toya gəlib.

Əhməd yerə-göyə sığmırdı. "Orda oturma, burda otur, orda dayanma, burda dayan, çiyninə şal gətirin, ikitərəfli küləkdən qıza soyuq dəyər, bir az kənarda oturun, qıza istidir. Ceyran, qadası, bircə tikə çörək ye! Ceyran, sən Əhmədin canı, yarımca stəkan çay iç..."

Əhməd bu cür sözlər deyə-deyə sevgilisinin başına fırfıra kimi fırlanırdı. Özü də elə gərgin döyüş vəziyyətində idi ki, guya bu saat onun Ceyranına haradansa hücum gözlənilir və o da bu yolda özünü ölümə verməyə hazırdır. Xanəndə bütün gecəni Ceyran haqqında mahnı oxudu. Hətta, məşhur "Kəklik" mahnısını da dəyişib bu cür oxudu:

Sürmə qaşda nə gəzər,
Ceyran daşda nə gəzər,
Belə yarı olanın,
Ağlı başda nə gəzər.

Ceyran stolun başında Əhmədlə yanaşı oturmuşdu. İpək kimi yumşaq, burma-burma saçları çiyinlərinə tökülür, onu daha da gözəlləşdirirdi. Çöldə dekabr küləyi vıy-vıy vıyıldayırdısa da, ev isti idi. Ceyran bəzən üzünü ağ kalağayısı ilə yelləmək istəyirdi. Əhməd cəld atılıb onu yelpikləyir və qızın əlinin də tərpənməsinə razı olmurdu. Qonaqlardan birinə duz lazım oldu. Ceyran qabağındakı duz qabını ona uzatmaq istədi. Əhməd hirsindən qıpqırmızı qızardı. Duzqabını özü apanb qonağın qabağına qoydu və Ceyranın qulağına pıçıldadı:

– Sən niyə ağır duzqabını qaldırırsan? Qoy özü götürsün.

Müxtəsər, toy qiyamət toy idi, hamı sevinirdi, hamı ura deyib qışqırırdı. Cavanlar öz aralarında pıçıldaşırdılar: "Əhməd çox gözəl bir Ceyran ovlayıb, mahir ovçu imiş!".

* * *

İndi bu toydan xeyli vaxt keçib. İki ay qabaq onların evlərinin qabağından keçirdim. Gördüm Qənbər kişi qapılarının yanında dayanıb dəmi çəkir, dəmi çəkənlərdə bir xasiyyət var, heç vaxt ciblərində spiçka olmaz, odur ki, mən spiçka vermək üçün bir az əylənməli oldum.

Evin qabağında böyük bir yük maşını durmuşdu. Maşının üstündə dayanmış Əhməd mənə baxıb gülümsündü. Onun gözəl kostyumu, kəpənəkli qalstuku və qazan papağına oxşayan dama-dama şapkası var idi. Bir az mənasız yerə bir-birimizə baxıb irişdik, sonra Əhməd bu məşğələdən darıxıb üzünü evə sarı çevirdi:

– Ay uşaq, nə oldu, gecikirik!.. - deyə çağırdı. Küçə qapısı açıldı, bir qadın çiynində böyük bir kisə ağır addımlarla gəlib, maşının yanında dayandı. Əhməd bir az əyildi ki, kisəni qaldırsın. Gördü əli çatmır, bərkdən dedi:

– Bir az çiynini qaldırsan olmaz?

Qadın barmaqları üstünə qalxıb kisəni bir təhər maşının içinə qoydu. Geri dönəndə mən onu tanıdım. O, Ceyran idi. Onun əynində köhnə paltar var idi. Saçları üz-gözünə tökülmüşdü. Mən təəccüblə soruşdum:

– Bu təzə gəlin deyil?

Qənbər kişi fəxr ilə gülümsünüb dedi:

– Özüdür ki, var. Anbarımda yükdaşıyan vəzifəsinə təyin eləmişəm. Od parçasıdır, iki gün qabaq xəstəxanadan gəlib.

– Necə məgər? Xəstə idi?

Yox... Nəvəm olub... Oğlandır...

Bu söhbət zamanı Ceyran yenə böyük bir kisə gətirib maşının içinə qoydu. Geri dönüb çox ağır və dolu kisə ilə qayıtdı. Kisənin ağırlığı altında onun beli ikiqat olmuşdu. Yarı yolda Ceyran ağırlığa davam gətirmədi. Kisə diyirlənib yerə düşdü, ha istədi çiyninə qaldırsın, gücü çatmadı. Biz üç kişi dayanıb bu hadisəyə tamaşa edirdik. Ceyran qantər içində ağır nəfəs alır və çalışırdı ki, kisəni qucağına götürsün, bacarmırdı. Axırı yerlə sürüməyə məcbur oldu. Bu zaman Qənbər kişi qaşlarını çatıb bərkdən qışqırdı:

– Ay bala, nə eləyirsən, kisə yırtılar!

Ceyran maşının yanında güclə kisəni qaldırdı. Əhməd "Kostyumu bulaşmasın",-deyə bir az kənarda dayanıb barmağının ucu ilə kömək elədi. Qənbər kişi mənə sarı dönüb dərin bir məna ilə dedi:

– Kisənin içindəki undur, un ağır olan şeydir.

Bu zaman içəridən bir qadın səsi eşidildi:

– Ay gəlin, boyuna qurban olum, gəl uşaq ağlayır.

Əhməd Ceyrandan əvvəl cavab verdi:

– Ay ana, əlində işi var, çaydan-zaddan ver, səsini kəssin.

Qənbər kişi gülümsünərək mənim qulağıma pıçıldadı:

Arvadım gəlinini yaman çox istəyir. Ən acı sözü "boyuna qurban olum"dur.

Nəhayət maşın doldu. Əhməd tayaların üstünə qəzet salıb səliqə ilə əyləşdi. Qənbər kişi mənimlə görüşüb şoferin yanında oturdu.

Ceyran lap yavaşdan dedi:

– Bəs evdə pul qoymursunuz?

Bu sözü Qənbər kişinin qulağı aldı. Başını kabinədən çıxarıb dedi:

Üç-dörd gün də birtəhər dolanın. Toyunuzun borcunu hələ verib qurtarmamışam.

Maşın yola düşdü. Ceyran çox peşman, qəmgin və ümidsiz gözlərlə maşının arxasınca baxıb evə döndü. Mən də bu hadisədən kədərləndim. İstədim papiros yandıram, gördüm spiçkam Qənbər kişidə qalıb.

Yol getdikcə xeyli düşündüm. Xanəndənin sözləri yadıma düşdü. "Ceyran daşda nə gəzər".

Görəsən, yazıq Ceyranı kim ürküdüb bu daşlığa salıb?!.

SƏİDƏ İMANZADƏ

1910-1992

Səidə Əhməd Nəbi Əfəndi qızı İmanzadə 1910-cu il
dekabrın 29-da Şəkinin Qışlaq məhəlləsində anadan olmuş.
1916-1926-cı illərdə əvvəlcə Şəki şəhərindəki qızlar məktəbində,
sonra Bakı şəhər sənaye məktəbində oxumuş.
1934-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix və
ictimaiyyət fakultəsini bitirmişdir.
Əvvəlcə Pirallahı adasındakı 98 saylı orta məktəbdə,
sonra 21 saylı məktəbdə çalışmış.
1943-cü ildə Bakı şəhər 132 saylı məktəbə direktor təyin edilmiş,
eyni zamanda BDU-nun tarix fakultəsində dərs demiş.
1946-cı ildən isə təlcyini universitetlə bağlamışdır.
1954-cü ildə namizədlik dissertasiyası müdafiə edərək
tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.
Qadın azadlığı hərəkatında bilavasitə iştirak edən Səidə xanım
həmin mövzuda 75-dən çox kitabça və məqalə çap etdirmişdir.
"Qadınlar cəmiyyətdə və ailədə" (1963),
"Qadının-ananın şərəfini yüksəldək" (1967),
"İslam dini və qadın məsələsi" (1968),
"Azərbaycan qadınları Böyük Vətən Müharibəsində" (1969),
"Azərbaycan qadınları mədniyyət sahəsində" (1970)
kitablarında qadın azadlığı məsələlərini obyektiv işıqlandırılmışdır.

"Azərbaycanda qadın azadlığı", "Qadınlar sülh uğrunda mübarizədə",
"Qadının cəmiyyətdə rolu" və s. əsərləri
respublika elmi-ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir.
Səidə İmanzadə tarixi mövzuda müxtəlif janrlarda
şeirlər yazmış, müxtəlif qəzet və jurnallarda çap etdirmişdir. Xeyrulla
Ağayev "Nura boyanmış ömür" (2012) kitabına
Səidə İmanzadənin 27 şeirini daxil etmişdir.
Səidə xanım ömrünün ixtiyar çağında elmi-pedaqoji
fəaliyyəti ilə yanaşı, ictimai fəaliyyətini də davam etdirmiş.
Azərbaycan Qadınlar Şurası Rəyasət Heyətinin üzvü,
Bakı şəhər Qadınlar Şurasının sədri olmuşdur.
Əməyi yüksək qiymətləndirilmiş, "Lenin" ordeni,
"Şərəf nişanı" ordeni, bir sıra medallarla təltif olunmuş,
iki dəfə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş.
Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanları ilə təltif edilmişdir.
Səidə İmanzadə 1992-ci il may ayının 1-də 82 yaşında
Bakı şəhərində vəfat etmiş,ikinci Fəxri Xiyabanda
torpağa tapşırılmışdır.

Yad edirəm mən səni

(Siddiqə müəlliməyə)

Bu gün müəllim bayramıdır,
Təbrik edirlər məni.
Xəyallara baş vurub,
Səsləyirəm mən səni.
Boş yerə getməyib çəkdiyin əmək.
Sən ey nur saçan müəllimə,
Xoşqılıq, mehriban mələk.
Sən elə bir müqəddəs varlıqsan,
Kimsə bunu dana bilməz.
Elm,ürfan yollarında mayak olub,
Sənin kimi ulduzlar da yana bilməz.

İllər uçub getsə də
Hər an səni anıram,
Bir zamanlar sən yanan tək
İndi özüm yanıram.
Mənim əziz müəllimə,
Hamıdan başsan gözümdə.
Bayramın mübarək deyir,
Bu yurdum da, özüm də.

Gecə anam yatmazdı,
Gözün dikərdi bizə,
Nənəm nağıl deyərdi,
Gecəni qatıb gündüzə.
Sən yandırdın şamı,
Nur səpdin qəlbimizə.
Cəhalətə yox deyib,
Nurlu yol olub bizə.
Nə çoxdur dunyada
Sənət, peşə, ərk mehi.
Müəllimlik sənəti
Ürəklərdə dan şehi.
Ömürlərə sığmayan.
Sabahların fatehi.



MƏHYƏDDİN ABBASOV

1910-1974

Məhyəddin Paşa oğlu Abbasov 1910-cu ildə Şəki şəhərində anadan olmuş, orta təhsilini başa vurubAzərbaycan Neft-Kimya İnstitutuna qəbul edilmiş, burada təhsilini yarımçıq qoyaraq müsabiqə yolu ilə Azərbaycan Pedaqoji İnstitunun fizika fakültəsinə daxil olmuş. 1935-ci ildən Şəkinin ayrı-ayrı məktəblərində, sonra isə Şəki Pedaqoji Texnikumunda müəllim işləmiş. Böyük Vətən Müharibəsində tank qoşunlarında bölük komandiri kimi alman faşistlərinə qarşı vuruşmuş.1944-cü ildə ağır döyüşlərdə sol qolunu itirmiş, arxa cəbhəyə tərxis olunmuşdur.Müharibə illərindən "Nuxa fəhləsi" qəzetində şöbə müdiri (1944-1946), ömrünün sonuna kimi "Şəki fəhləsi" qəzetinin redaktoru kimi fəaliyyət göstərmiş, Şəki şəhər Partiya Komitəsinin büro üzvü olmuş, həm ittifaq, həm də respublika jurnalistlərinin qurultaylarına nümayəndə seçilmişdir.Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasını ilk dəfə "Nuxa fəhləsi" qəzetində çap etmişdir.Səmərəli fəaliyyətinə görə "Respublikanın əməkdar mədəniyyət işçisi"(1971) fəxri adına layiq görülmüş.

"Şərəf nişanı", "Qırmızı Əmək bayrağı" ordenləri və on iki medalla təltif edilmişdir.Mətbuat səhifələrində "Paşazadə" təxəllüsü ilə çıxış etmiş, publisist-satirik yazıları ilə geniş oxucu auditoriyasının rəğbətini qazanmışdır.Məhyəddin Abbasov 1974-cü ilin dekabr ayının 28-də vəfat etmiş, Şəki şəhər qəbiristanlığında dəfn edilmişdir.

Köhnə hamam,köhnə tas

(Bəhri-təvil)

Bəhcətəm, çox höcətəm,
alveri yaxşı qanıram,
kassanı cibim sanıram,
istəyəndə qəpiyi, odlanıram,
lap yanıram,
dükanım baqqal dükanı,
mal dükanı,
bal dükanı,
hər dərdimə dava yeridir,
ciblərim pul yeridir,
gəliri ümman kimidir.
Müxtəsər, dərya sanıram dükanı,
çünki əlimdə olur pul sükanı,
müştərini aldadıram,
yandırıb lap yaxıram,
tərəzidə yüngül çəkirəm,
əyri haqq-hesab çəkirəm,
yaman qalmaqal salıram,
kef çəkirəm,
kam alıram,
hərdən müfəttiş də gəlir,
xeyli şikayət yüksəlir
gəlir,
sanma ki, burda qayda düzəlir,
axı canam,
əhli halam,
çoxdur ürəyimdə kəlam,
hər işim sahmana düşür,
pul sürüşür,
müfəttiş ötüşür,
üstəlik mənlə öpüşür,
razı düşür,

bəli, gün dolanır,
aylar ötür,
tamah sökür işin görür,
dükanda olur basabas,
köhnə hamam,köhnə tas.



ƏNVƏR QAZIYEV

1910 - ....

Qaziyev Ənvər Məmməd oğlu 1910-cu ildə Şəki şəhərində kiçik məmur ailəsində anadan olmuş. 1926-cı ildə Şəki Pedaqoji Məktəbini bitirmişdir. Həmin ildən də əmək fəaliyyətinə başlamış, əvvəlcə Şəki nümunəvi zəhmət məktəbində müəllimlik etmiş, sonra Qutqaşen kəndli gənclər məktəbinin təşkilində fəal çalışmış, orada müəllim işləmişdir (1927-1928). Daha sonra Mahacqala şəhərində "Dağıstan füqərası" qəzüti redaksiyasında müxtəlif vəzifələrdə çalışmış (1928-1931), Azərbaycan Dövlət Pedaqoji İnstititu ədəbiyyat fakultəsinin jurnalistika şöbəsində təhsil almaqla "Yeni yol" qəzeti redaksiyasında əməkdaşlıq etmiş (1931-1935), sonra həmin redaksiyada şöbə müdiri, 1936-cı ildən isə "Ədəbiyyat qəzeti" redaksiyasında işləmişdir.Yaradıcılığa lap erkən yaşlarından başlamış, şeir, hekayə və oçerklərini, ədəbi-tənqidi məqalələrini "Maarif yolu" jurnalında, "Dağıstan füqərası", "Ədəbiyyat və incəsənət" qəzetlərində müntəzəm çap etdirmiş, "Sidqi Ruhulla" monoqrafiyasını bitirmişdir(1938). Elə həmin ildə də Azərbaycan Yazıçılar Birliyinə üzv seçilmişdir.1939-cu ildə Rusiya-Finlandiya müharibəsinin iştirakçısı olub. 1941-ci ildə başlayan Böyük Vətən Müharibəsində döyüşüb əsir düşüb. Bir müddət Münxen radiostansiyasında ("Azadlıq") çalışmış, sonra Türkiyəyə keçib. Sovet DTK-nın agentləri tərəfindən tutularaq Bakıya gətirilmiş və güllələnmişdir.

MƏMMƏDİYYƏ SÜLEYMANLI

1910-1997

Məmmədiyyə Süleyman oğlu Cabbarov (Süleymanlı) 1910-cu ildə Şəki şəhərində tacir ailəsində anadan olmuş. Bakı Pedaqoji Texnikumunu (1931), daha sonra Azərbaycan Müəllimlər İnstitutunu qiyabi yolla bitirmişdir (1936). Müəllim kimi əmək fəaliyyətinə başlamış (1931), bir sıra məsul vəzifələrdə, həmçinin "Şəki fəhləsi" qəzetində məsul katib, redaktor müavini, "İpəkçi" qəzetinin redaktoru (1958-1966), Şəki Radio verilişləri redaksiyasının baş redaktoru, həmçinin Şəki-Zaqatala zonası üzrə respublika radiosunun xüsusi müxbiri (1945-1952) işləmiş. Bakı şəhərinə köçdükdən sonra (1966) Respublika Bilik Cəmiyyətində nəşriyyat direktoru vəzifəsində çalışmışdır. 1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində iştirak etmiş, yaralanaraq ordudan tərxis olunmuşdur. Məmmədiyyə Süleymanlı bədii yaradıcılığa 14 yaşında başlamış, həm nəsr, həm də nəzmlə əsərlər yazmışdır. Əsərləri kitab şəklində çap olunmasa da müntəzəm olaraq "Kirpi", "Azərbaycan", "Elm və həyat" jurnallarında "Ədəbiyyat və incəsənət", "Sovet kəndi".

"Azərbaycan müəllimi", "Kommunist" və s.
qəzetlərdə çap olunmuşdur.
1936-cı ildən Azərbaycan Yazıçılar İttifaqının,
1958-ci ildən isə respublika və keçmiş
SSRİ Jurnalistlər ittifaqının üzvü olmuşdur.
Məmmədiyyə Süleymanlı 1997-ci ildə martın 30-da
Bakı şəhərində vəfat etmişdir

İxtisar

(Hekayə)

Səlimov axşamüstü iclas qutaran kimi çox fikirli evə tərəf üz qoydu. Onun qəlbini sıxan, beynini alovlandıran bir şey vardırsa, o da Qurbanın hərəkətləri idi. Onun hər iclas və yığıncaqda çıxış edərək bir yerdə işlədiyini, idarənin nöqsanlarını açıb göstərməsi,axırda isə:

– Səlimov yoldaş tezliklə bunları aradan qaldırmalıdır – deməsi idi.

Bu gün də rayonun partiya və sovet təşkilatları nümayəndələrinin iştirakı ilə keçirilən iclasda o, danışığa başlayaraq hər şeyi açıb tökmüşdü. Hamısı bir kənara, Səlimovu daha çox narahat edən Qurbanın axırda dediyi bu sözlər idi:

– Mən bunu həmişə demişəm, yenə də deyirəm: «Bizim idarədə hərc-mərclik var, hər kəs istədiyini edir. Əmək intizamına fikir verilmir...Direktor Səlimov yoldaş yaxşı fikir versə, bu nöksanlar bir də təkrar olmaz...»

Evə çatan kimi arvadı Rəfiqənin ona yemək gətirdiyini görən Səlimov:

– Mən heç şey istəmirəm, – deyərək yorğun adamlar kimi özünü çarpayının üstünə atdı və gözlərini yumub dərindən nəfəs almağa başladı...

İdarənin qapısından içəri ayaq basdıqda gördü ki kalidorda divarda asılmış bir lövhənin qarşısına işçilər toplaşmış, bir-birini itələyə-itələyə nəyi isə oxumağa tələsirlər.

Baş mühasib Mürsəlov direktorun gəldiyini görcək, cəld onu qabaqladı:

– A yoldaş direktor, – dedi, – axı daha buna dözüb yaşamaq olmaz.

– Nə olub?

– Nə olacaq, Qurban divar qazetinə yazıb indi də məni biyabır eləyib. Budur, gəlin bir baxın, – deyərək, o, Səlimovun qolundan yapışıb çəkə-çəkə onu divar qazetinin asıldığı yerə gətirdi və əli ilə işarə edib:

– Görürsünüzmü, – dedi, – adını da qoyub "Uçot işləri yaxşılaşdırılmalı". Bir içərisini oxyun, çox bərk döşəyib.Axırda da sizin adınızı çəkir ki,direktor bu işə baxmır.

Səlimov bir anlığa divar qazetinin sütunlarını və içərisində çəkilmiş

karikaturaları nəzərdn keçirərək dönüb kabinəsinə tərəf getdi,çox düşüncəli halda stula oturdu, xeyli fikirləşdikdən sonra telefonun dəstəyini əlinə götürdü:

– Alo... alo... bizim buxalteriyanı istəyirəm... Hə, kimdir? ... Mürsəlov, sənsən? Dur Verdiyevi də götür yanıma gəl!...

Bir az keçmədi, direktor müavini Verdiyev və mühasib Mürsəlov burada cəm oldular. Səlimov onları əyləşdirərək:

– Bilirsiniz nə var? – dedi.

– Nə var? – deyə onlar həyəcan və təəccüblə Səlimova zillənib durdular, onun nə deyəcəyini səbirsizliklə gözləyirdilər. Səlimov əlini stolun üstündəki aynanın üzərinə bərkdən vuraraq:

– Bu sürətlə biz işləyə bilməyəcəyik, – dedi.

– Axı nə olub? – deyə Verdiyev dilləndi.

– Daha nə olacaq... Hamımız qalmışıq bir adamın əlində müc. Şişləyib qələmini düşüb canımıza. Gah rayon qəzetinə yazır, gah divar qəzetinə ağlına gələni sarsaqlayır. Bir barmaq ağzını da iclaslarda yumub saxlaya bilmir.

Mürsəlov anladı ki, məsələ Qurban haqqındadır. Acıqlı-acıqlı:

– Ona həddini bildirmək lazımdır, – dedi.

Qurbandan Verdiyev də narazı idi. Çünki onu da bir neçə dəfə iclaslarda tənqid etmişdi. Odur ki, Qurban barədə tədbir görmək fikrinə o da şərik oldu.

– Qurbanı öz başına buraxmaq olmaz...

Burada Qurban barədə hərə öz bildiyi kimi təklif irəli sürdü. Çox fikirləşdilər, ha götür-qoy elədilərsə də, bir nəticəyə gələ bilmədilər. Çünki Qurban Fərəcov işlədiyi mühasib köməkçisi vəzifəsində özünü yaxşı aparır, hər işi yerli-yerində, ictimai işlərdə də xüsusi fəaliyyət göstərirdi.

– Bəs necə etməli?!...

Mürsəlov birdən fikirdən ayılırmış kimi başını dik yuxarı qaldırıb:

– Tapdım, tapdım ! – deyə bağırdı.

Səlimovla Verdiyev tez nəzərlərini ona çevirdilər.

– Ha, nə tapdın?

– İxtisar!...

Bu söz elə bil onların ikisinin də ürəyindən oldu. Sevindiklərindən durub Mürsəlovun əllərini sıxaraq bir-bir onu təbrik etdilər:

– Sağ ol ! Bu, tamam inandırıcı olar.

* * *

Səhəri gün Səlimov idarəyə gəlib kabinəsinin qapısını açanda işçilər yenicə nahar fasiləsinə çıxırdılar. Bir azdan Verdiyev içəriyə girdi:

– Salam, yoldaş Səlimov, lap yaxşı vaxdında gəldiniz, – deyərək ona Qurbanın "İxtisara düşdüyü" barədə lazımi sənədlərin hazırlanıb qurtardığını bildirdi. Bu vaxt Mürsəlov gülə-gülə içəri daxil olub qovluğu ona verdi. Direktor sənədləri yoxladıqdan sonra qəhqəhə ilə gülərək:

– Gözəldir.., – dedi, – daha bizim əl-ayağımıza toxunan olmayacaq. Di, çağırın Qurbanı buradaca xoruzunu qoltuğuna verək.

Elə bu zaman otağın qapısı açıldı. İçəriyə girən poçtalyon idi. O, çantasından çıxardığı məktubu ona uzatdı. Səlimov zərfi açıb oxuyarkən ildırım vurmuş adam kimi yerindəcə donub qaldı. Bu zaman əlindəki məktub qeyri-adi olaraq stolun üstünə düşdü. Verdiyevlə Mürsəlov da bir-bir alıb məktubu oxuyarkən onlar da Səlimovun vəziyyətinə düşdülər.

Məsələ aydın idi. Məktubda tabe olduğu mərkəzi təşkilatın qərarına əsasən həmin idarənin ləğv edildiyi göstərilirdi. Ortalığa çökmüş sükutu Səlimovun qırıq-qırıq dediyi bu sözlər pozdu:

– Bu ... ixtisar... lap... elə ixtisar oldu...

FUAD ƏMİRCAN

1911-1995

Fuad Əbdüləli oğlu Əmircanov-Fuad Əmircan1911-ci ildə
Şəki şəhərində anadan olmuş,
9 yaşında ailəsilə birlikdə Türkiyəyə köçmüş,
İstanbulda Qalatasaray liseyini bitirib,
sonra Parisdə ali siyasi,
Berlində isə ali hüquq təhsili almışdır.
Prof.Dr Belma Əmircanla ailə həyatı qurmuş,
Almaniyada çalışmış,
bədii ədəbi yaradıcılıqla da məşğul olmuşdur.
Fuad Əmircan Türkiyədə məşhur olsa da,
Şəkidə və Azərbaycanda tanınmamışdır.
1995-ci ildə Bonda vəfat etmiş,
cənazəsi İstanbula gətirilərək
ailə qəbiristanlığında dəfn edilmişdir.

ƏBDÜRƏHMAN ABDULLAYEV

1914-1998

Abdullayev Əbdürəhman Məmməd oğlu 1914-cü ildə Şəki şəhərində anadan olub. 1933- cü ildə Şəki Pedaqoji Texnikumunu, 1994-cü ildə isə Azərbaycan Pedaqoji İnstiutunun dil-ədəbiyyat fakultəsini qiyabi yolla bitirmişdir.Şəki şəhər 11 saylı orta məktəbdə dərs hissə müdiri, 12 sayı məktəbdə müəllim, direktor (1933-1941) Şəki Rayon Maarif şöbəsində müfəttiş, pedaqoji kabinənin müdiri (1941-1944), Şəki Şəhər Maarif Şöbəsinin müdiri (1944-1945),Azərbaycan KP Nuxa şəhər komitəsi təbliğat və təşviqat şöbəsinin müdiri, sonra katib işləmişdir(1947-1960). Azərbaycan SSR EA kadirlər şöbəsinin rəisi, işlər müdiri(1961-1967), sonralar Şərqşünaslıq İnstitutunda baş elmi işçi,Nizami adına Ədəbiyyat Muzeyində məktublar şöbəsinin müdiri vəzifələrində çalışmışdır.Ə.Abdullayev hələ Şəkidə müəllim işlədiyi illərdən bədii yaradıcılığa böyük maraq göstərmiş, dövrü mətbuatda elmi, publisistik məqalələrilə çıxış etmişdir. 1963-cü ildə "Rəşid bəy Əfəndiyevin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiyə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş, Əməkdar mədəniyyat işçisi fəxri adına layiq görülmüşdür. Əbdürəhman Abdullayev 1998-ci ildə Şəki şəhərində vəfat etmişdir.

"Maarif pərvanəsi" kitabından

R.Əfəndiyev bədii-pedaqoji əsərlərinin çoxunda səadət və xoşbəxtliyin namuslu əməkdə və sənətdə olduğunu əks etdirmişdir. O, belə hekayələrində göstərir ki, ömrünü istirahətdə keçirib işləməyən adam sağlam olmaz, vaxtsız məhv olar, xalq içərisində hörmət qazana bilməz. Uzun müddət hörmətlə yaşamaq və xalqa xeyir verib şöhrət qazanmaq, yüksəlib parlamaq üçün müftə var sahibi olmaq arzusu ilə yaşamaq yox, zəhməti sevmək, bir peşənin sahibi olmaq və sənətə yiyələnmək lazımdır. Sənət sahibi olan adamların zəhməti çox qiymətlidir. Çünki bu zəhmət həmişə bar verir, abidə qurur və yadigar qoyur. Namuslu əməyin məhsulu hər şeydən qiymətli və əziz olur.

Rəşid bəyin əmək və sənəti təbliğ edən hekayələrinin əhəmiyyəti bir də ondadır ki, müəllif bu hekayələrində işi kollektiv surətdə görməyin gücünü və müsbət rolunu qeyd etməklə uşaqları kollektivçilik ruhunda tərbiyə etmək istəyirdi. O,əməkdə və mübarizədə el birliyinin əhəmiyyəti fikrini "Dünya görmüş kəndçi" nağılı ilə daha aydın və təsirli bir şəkildə oxuculara çatdırır.

Rəşid bəyin bədii-pedaqoji əsərlərinin çoxu gənclərdə vətənpərvərlik hissi tərbiyə edir. O, bu əsərlərində göstərir ki, vətən hamı üçün əziz olmalıdır. Vətənini sevməyən adam xoşbəxt ola bilməz. Vətən insana qüvvət və fərəh verir, vətəndən ayrı düşmək, yad ölkədə yaşamaq insanın mənəvi qüvvəsini məhv edir. Müəllifin "Doğma yurd" hekayəsi vətənpərvərlik tərbiyəsi üçün olduqca böyük əhəmiyyətə malikdir.

Din xadimlərinin yaramazlıqlarını göstərən R.Əfəndiyev "Molla, seyid və dərviş" hekayəsində axund, seyid və dərvişlərin din pərdəsi altında gizlənərək haqsızlıq, oğurluq və başqa yaramaz hərəkətlərlə məşğul olduqlarını ifşa etmişdir.

Rəşid bəy xalq maarifinin inkişafı üçün dövlətlilərə və hökümət məmurlarına etdiyi nəsihətlərin heç bir nəticə vermədiyini gördükdə xalqın savadsızlıq və cəhalətinə səbəb olan çar hökuməti qanunlarını ciddi tənqid etməyə başlayır, hətta bəzən bu qanunlara açıq hücum edərək xalqın adından mühüm tələblər irəli sürürdü. 1907-ci ildə "Tazə həyat" qəzetində dərc etdirdiyi "Təlimi-ümumi" sərlövhəli məqaləsində hər şeydən əvvəl, ümumi təhsilin xalqın öz hüququnu anlaya bilməsində, mədəni tərəqqisində və taleyinin həllindəki rolunu izah edərək yazırdı:

"Bir diqqət edəlim təlimi-ümumi məsələsinə. Bu məsələ ən ümdə məsələlərdən birisidir. Hər bir dövlətin tərəqqi və talesi təlimi-ümumiyə bağlıdır. Elm, maarif, sənaye, hünər, hamısı təlimi-ümuminin nəticəsidir. Camaat yaxşı bilir ki, təlimi-ümumi olmayan bir dövlətdə nə hüriyyət, nə ədalət və nə müsavat ola bilməz".

Məqalənin ikinci hissəsində Rəşid bəy çar hökümətinin 1905-ci il inqilabının ciddi təsiri nəticəsində məcburiyyət qarşısında hazırladığı "Ümumi təlim" haqqındakı qanun layhəsini ciddi tənqid atəşinə tuturdu. O, yeni məktəblərin xalqın hesabına deyil, dövlət hesabına açılmasını, ibtidai təhsilin könüllü deyil, məcburi olmasını, ibtidai məktəblərdə təhsil müddətinin uzadılmasını, məktəblərin bütün məktəb yaşlı uşaqları əhatə etmək həcmində olmasını, məktəblərdə politexnik təhsillə uşaqlara sənət öyrədilməsini və təhsilin ana dilində aparılmasını, ümumi təhsildə milli ayrı-seçkilik edilməməsini dövlətdən tələb edirdi.

1.Təlimi-ümumi məcburi olsun.
2.Məktəblərin cəmi xərcini xəzinə versin.
3.Məktəblər üçün xərc olunan pulların miqdarı artırılsın kifayət dərəcədə.
4.Və bu məbləğ hər millətin ədədinə,sayına görə olsun. Çünki bu xərc cəmaətdən alınır və cəmaətin özünə də gərək sərf olunsun.
5.Məktəblərə sərf olunacaq məbləğ zemstvolara və zemstvo olmayan yerlərdə mərkəzi yerli komitələrə tapşırılsın.
6.İbtidai məktəblər 4 illik olsun.
7.Hər iki şöbəyə bir müəllim verilsin.
8.İbtidai məktəblərdə ümum ana dilində təlim edilsin.

LÜTFƏLİ HƏSƏNOV

1916-1976

Lütfəli Əkbər oğlu Həsənov 1916-cı ilin may ayının 10-da Şəki şəhərində anadan olmuş. Şəki şəhər yeddillik məktəbini (1931). Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakultəsii (1937) bitirmiş. Ağdaş rayonunda iki il (1937-1939) həkim işlədikdən sonra keçmiş sovet ordusunun hərbi hissələrində zabit kimi çalışmışdır (1939-1947).

7 il günahsız olaraq məhbus həyatı yaşamış. 1953-cü ildən ömrünün sonuna (1976) kimi Şəki Sanitariya Maarif Evinin müdiri və Şəki Mərkəzi Xəstəxanasının daxili xəstəliklər şöbəsində həkim-terapevt işləmişdir.Şair, nasir, həm də dramaturq kimi tanınmışdır.

Lütfəli Həsənov 1976-cı ilin sentyabr ayının 4-də Şəkidə vəfat etmiş. "Çöl" qəbiristanlığında dəfn olunmuşdur.

Ağlaram

Dərdim dərya kimidir, ey dost, zar-zar ağlaram,
Ürəyimdə dəhşətli fırtınalar var, ağlaram.

Gecələr otağımda tək-tənha dolandıqca,
Canlanır gözlərimdə o nazlı xumar, ağlaram.

Pozan gündən andını şux baxışlı cananım,
Duyuram dövrəmdə soyuq, şaxta, qar, ağlaram.

Düşdükcə yadıma onunla olduğum anlar,
Səma, yer, dünya olur başıma dar, ağlaram.

Lütfəli həkim tək min dərdə şəfa versə də,
Nə qədər ki, əğyar ilə gəzir yar, ağlaram.

O, sənsən

Dağların başında günəş göründü,
Dedim, o, sənsən!
Gecələr ay doğdu, nura büründü,
Dedim, o, sənsən!
Bağçada hər səhər açdı qızılgül,
Dedim, o, sənsən!
Onun ətrafına dolandı bülbül,
Dedim, o, sənsən!

Liberal olmalısan

İstəsən ömrün uzansın, liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.
Birinin xidməti az, hörməti çoxdur, sənə nə?
Birinin ağzı zəhər, sözləri oxdur, sənə nə?
Birisi rüşvət alır, vicdanı yoxdur, sənə nə?

İşləri yoxsa səninlə, dili bal olmalısan,
İstərsən ömrün uzansın, liberal olmalısan,
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan.

Bəzəyib sərçəni turac eyləyən, qoy eyləsin,
Xalqın əmlakını taraş eyləyən, qoy eyləsin,
Doğrunu oğruya möhtac eyləyən, qoy eyləsin,
Kim deyir sənə hər işdə düz, fəal olmalısan?
İstəsən ömrün uzansın, liberal olmalısan.
Qulağı kar, gözü kor, nitqi də lal olmalısan...

ŞƏRİF İDRİSOV

1916 - 1994

Şərif Yunus oğlu İdrisov 1916-cı ildə Şəki rayonunun
Baş Göynük kəndində anadan olmuş, natamam orta təhsilini doğulduğu
kənd məktəbində almış, sonra
Şəki Pedaqoji Texnikumunda (1934-1938),
Şəki İkillik Müəllimlər İnstitutunda (1946-1948),
Azərbaycan Dövlət Pedaqoji İnstitutunun
dil-ədəbiyyat fakültəsində təhsil almışdır (1949-1951).
1940-cı ildə hərbi xidmətə çağırılmış,
1942-ci ilə ağır yaralanaraq ordudan tərxis olunmuşdur.
40 ildən çox Şəki şəhər və müxtəlif kənd məktəblərində müəllim,
dərs-hissə müdiri, direktor işləmiş.
1978-1979-cu illərdə Şəki Xalq Teatrında rejissor kimi çalışmış,
eyni zamanda yazıçı və tədqiqatçı kimi də tanınmışdır.
Müxtəlif janrlarda yazılmış "Sən kiminsən",
"Yenə də çəkistəm", "Güllü mövsüm", "Dəfinə",
"Tütünçü qız", "Görüş", "Gülarə Köylüqızı" və s.
əsərləri mərkəzi və yerli mətbuat vasitələrində dərc olunmuşdur.
"Cavadoğlu" povesti 1992-ci ildə "Azərbaycan" jurnalının
1-ci və 2-ci nömrəsində nəşr edilmiş,
böyük oxucu rəğbəti qazanmışdır.
Şərif İdrisov XIX əsrin görkəmli aşığı Molla Cumanın həyat və
yaradıcılığını tədqiq etmiş,
"Molla Cumanın seçilmiş əsərləri"ni 1983-cü ildə

"Yazıçı" nəşriyyatında, 1000 misradan çox şeirlərini
müxtəlif dərgilərdə çapına nail olmuşdur.
Şərif İdrisov 1994-cü ildə vəfat etmiş, doğulduğu kənd
qəbirstanlığında dəfn edilmişdir.Xatirəsi əbədiləşdirilərək
Şəki şəhər MK&-nın Baş Göynük kəndində
fəaliyyət göstərən kitabxana filialına onun adı vermişdir.

Cavadoğlu

(sənədli povestdən bir parça)

Dünyada çox sular axmış, çox bulaqlar qurumuş, Ay kimi doğanlar Günəş kimi batmışdı. Fələk öz oynunu oynamaqda, adamlar şeytana papış tikməkdə idi. Fəsillər əbədi mahnısını oxuya-oxuya dünyanın içindən gəlib keçirdi.

Zaman Cavad kişiyə öz zərbəsini göstərmiş, onu sağalmaz xəstəliyə duçar eləyib dünyasını dəyişdirmişdi.

Cavad kişi vəba xəstəliyindən ölmüşdü. Hələ qırxı çıxmamışdı. Üz-gözünü tük basmış Məhəmməd gimgədə otururdu. Yol keçən Suday oğlu İsmayıl ayaq saxlayıb Məhəmmədi dindirdi:

Ay Məhəmməd, Allah atana rəhmət eləsin. Cavad dayı da bir kişi idi. Vəba onu da apardı. Elə hamımız öləcəyik. Bir o var ki, Cavad kişinin ölümü səni bərkə saldı, əlində olanı rəhmətliyin ehsanına xərclədin. Necə dolanırsan?

Məhəmməd başını qaldırmayıb, əlindəki çubuqla yeri eşə-eşə cavab verdi:

– Şükür Allaha!...Başqası necə, mən də elə dolanıram. Əlim sağ, qolum sağ...Soruşub niyə qanımı qaraldırsan?..

Suday oğlu İsmayıl hiyləgərçəsinə gülümsündü:

– Ay oğul, biz bir kəndin adamı deyilikmi? Elimizin adətidir, müsibəti olana əl tutmaq, yol göstərmək...Görürəm, qeyrətli oğlansan, hər halda, dolanacaqsan. Ancaq indi köhnə qurtarıb, təzə çatmayan vaxtdır. Qabaqda da atanın qırxı var. Hər halda, az-çox xərclik lazımdır. Əgər sözüm sənə ağır gəlməsəydi, bir yaxşılıq etmək istərdim...

– O nə yaxşılıqdır?-Cavad kişinin nişanəsi birbaşa dilləndi.

– Bir həftədir gürcülərdən alıb gətirdiyim mallar Qannı qobuda qalıb. Deyirəm, bir günlüyə çubuqçuluğa getsəydin, nə istəsən verərdim...

– Heç inanmıram!...Halal pulla alıb gətirdiyin mallar bir həftə Qannı qobuda qalsın, İsmayıl dayı?..Yox, istəmirəm sən edən yaxşılığı, get, kimi istəyirsən, tut apar!...

– Özün bil...Əlinin aşağı olduğunu bilirəm. İstədim xeyri özgəyə verməyim...Özün bil...

Bir neçə addım getdikdən sonra Məhəmməd nə isə fikirləşib arxasınca qışqırdı:

– Nə verərsən?

– Otuz manat!

– Azdır!

– Otuz beş manat!

– Mən razı.

– Mən də razı..Nə vaxt gələ bilərsən?

– Sən nə vaxt desən, o vaxt qulluğunda hazıram.

Suday oğlu İsmayıl hiyləsinin baş tutduğunu görüb xoşhallandı:

– Deyirəm, ay Məhəmməd, cubuqçular nə qədər çox olsa, bir o qədər rahat və tez gələ bilərik. Razı olsalar, qayınlarını da gətir.

– Yaxşı, razı olsalar onları da gətirərəm. Onlara nə qədər pul verəcəksən?

– Otuz-otuz da onlara verərəm!

– Razı olsalar, nə vaxt gələk?

– Axşamdan bir saat keçmiş sizi gözləyirəm...

– Gözlə! Onlar gəlməsə də mən gələcəyəm...

Məhəmməd əlindəki çubuğu hirslə torpağın üstünə çırpmağa başladı. Onu görən olsaydı, havalandığını düşünərdi. Məhəmməd torpaqdan nə istəyirdi, nə vemişdi ala bilmirdi, üzü soyuq, qara torpaqdan...Torpağı o qədər cubuqladı ki, heydən düşdü. Yenə torpağın üstdə oturdu. Çubuqladığı torpaqdan bir ovuc götürüb burnuna tutdu, ciyərdolusu qoxladı, sonra Quranı öpürmüş kimi bir ovuc torpağı öpdü.

Qətran kimi gecədə Suday oğlu İsmayıl, Kirpik İsmayıl, Laçın oğlu Saat, Cavad oğlu Məhəmməd və qayınları Alıcan və Vəlican İsaq oğlanları "Atağar" meşəsində 30-40 baş qaramalı haylayıb Qannı qobuya tərəf sürürdülər. Çıxıl Dağının başında parlayan Dan ulduzu tezliklə səhərin açılacağını xəbər verirdi.

Çubuqçular səhər açılınca Qannı qobuda qoyulmuş qaravul məntəqəsini keçib; Biləcəyin başından malları meşəyə salmağa can atırdılar. Çubuqçuların həyəcan keçirməsi yersiz idi. Onlar üçün düşünülmüş hiylə tələsi çıxılmazdı. Cavad oğlu Məhəmməd inamına qurban gedirdi.

Onlar pusquya yaxınlaşmışdı ki, "Əllər yuxarı!...Oğru köpək uşağı!... Bir həftədir sizi yaxalamaq üçün pusquda dayanmışıq!..." nidaları eşidildi. Başları üstündən atəş açıldı. Güllələr gecənin qaranlığında yanıb-söndü.

Atəş açan Nuxa qəza polis idarəsi rəisinin müavini Qaflan bəy və onun polis dəstəsi idi...

Kənarda pusquda dayanmış Molla Alı öz atlı dəstəsi ilə çaparaq gəlir və Cavad oğlu Məhəmmədi nişan alaraq qışqırırdı:

– Al gəldi, köpək oğlu! Səndən ötrü mal qazanmışam?

Qaflan bəy molla Alıya açıqlandı:

– Saxla görüm, a molla! Hər yetən yetəni vursa, bəs bu divan nəyədir? Görmürsən, bir həftədir bu hünü-milçəyin içində pusqu qurmuşuq? Gərək, məhkəmədə bunların başına bir oyun açaq ki, bütün oğrulara dərs olsun!

Cavad oğlu Məhəmməd çaş-baş qalmışdı:

– Ağa naçalnik, bizim nə günahımız var, biz ki, çubuqçuyuq? Otuz beş manat verib bu əli ilə İsmayıl kişini göstərir, lakin İsmayıl kişini görmür, işin nə yerdə olduğunu başa düşüb, barmağını dişləyib. – İsmayıl kişi məni, otuz-otuz da qayınlarıma verib çubuqçu tutduğu halda kələk işlədibmiş..– Yaxşı, İsmayıl kişi, sən sən ol, mən də mən!...

Qaflan bəy şeşələndi:

– Çərənləmə!...Bağlayın qollarını!

Polislər dərhal Cavad oğlu Məhəmmədin və qayınlarının qollarını bağladılar.

Molla Alı səhərin ala-qaranlığında malları Qərbə tərəf geri haylayıb, gözdən itdi. Əngin heçliklər sanki əjdaha kimi ağzını açıb onları uddu...

Polis atlılarının qabağında Nuxa jandarm idarəsinə gətirilən Cavadoğlu və qayınları çox pərt olmuşdular. İlk güllələr açılan kimi aradan çıxan Suday oğlu və yoldaşları isə işlətdikləri hiylənin baş tutmasına sevinirdilər...Daha böyük rütbə həsrətində olan Qaflan bəy isə bilmirdi ki, onu əcəl girləyir...

Qolu bağlı Məhəmməd Cavad oğlu qayınlarını da qolu bağlı görüncə utanır, onları işə saldığına görə xəcalət çəkirdi. Qolu bağlılar qabaqda, arxalarınca da əlisilahlı polis dəstəsi dan yerinə tərəf gedirdilər.

MAHMUD İSMAYIL

1920-2002

Mahmud Əliabbas oğlu İsmayılov 1920-ci il sentyabrın 1-də Şəki şəhərində anadan olmuşdur.Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş (1941), ordu sıralarına çağırılmış (1942-1946), əmək fəaliyyətinə AEA-nın Tarix İnstitutunda başlamış (1946), ömrünün sonunadək elmi işlər üzrə direktor müavini və "Azərbaycanın yeni tarixi" şöbəsinin müdiri vəzifələrində çalışmış. 1949-cu ildə namizədlik, 1962-ci ildə doktorluq dissertasiyaları müdafiə etmiş,1983-cü ildə AEA-nın müxbir üzvü seçilmişdir. Elmi yaradıcılığının əsas istiqaməti XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda kapitalizmin genezisi və inkişafı, kənd təsərrüfatının tarixi problemlərinin tədqiqi olmuş. "Azərbaycan dövlət kəndliləri XX əsrin sonunda" (1957), "XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı"(1960), "İmperializm dövründə Azərbaycanın sosial-iqtisadi strukturu" (1982) və başqa əsərlərini çap etdirmişdir. Ədəbi yaradıcılığa gənc yaşlarında şeir yazmaqla başlamış, sonradan nəsrə keçən Mahmud İsmayıl (o, bədii əsərlərini Mahmud İsmayıl imzası ilə yazmışdır) Azərbaycan oxucusuna yeddi tarixi roman: "Ağ yapıncı", "Xaqani", "El üçün yan", "Sənin ulu baban", "İki od arasında", "Qara Yusif" və "Uzun Həsən" kimi romanlarını təqdim etmişdir. AEA-nın müxbir üzvü M.İsmayılov "1941-1945-ci illərdə Almaniya üzərində qələbəyə görə", "Qafqazın müdafiəsinə görə" medalları və fəxri fərmanlarla təltif olunmuşdur. Mahmud İsmayıl 2002-ci ildə Bakı şəhərində vəfat etmişdir.

"Ağ yapıncı" romanından

Təbrizin Sahib-ül-Əmir meydanının yaxınlığındakı bazar, cümə günü olduğundan, çox qələbəlik idi. Mallarını tərifləyən, paşmeh və qoz halvası ilə dolu tabağı başlarında gəzdirib müştəri çağıranların səsi, gərcə ilə üz-üzə dayanıb ucadan oxuyan dərvişlərin avazı, o yan-bu yana qaçışan uşaqların qışqırtısı, bazara girib çıxan araba təkərlərinin çırıltısı uğultuya dönüb, yalnız meydanda olan karvansaralarda deyil, meydandan uzaqlarda da eşidilirdi. Bazarla üz-üzə Sahib-ül-Əmir türbəsinin ətrafında toplanmış kütlədən isə səs çıxmırdı. Sahib-ül-Əmir türbəsinin ziyarətinə gələnlər süküt içində idilər. Dindarların inamına görə həmin yerdə sonuncu imam Mehdi Sahibüzzəman görünmüşdü. Şiələr burada qədimlərdə məqbərə tikib ziyarətgah salmışdılar. Buraya hər gün, xüsusən cümə günləri, çoxlu zəvvar gəlirdi. Bu gün də gələn zəvvarların sayı-hesabı yox idi. Ziyarətgahın adını daşıyan bu böyük meydanda bir neçə karvansara var idi. Bu karvansaralarda dünyanın bir çox ölkələrindən gəlmiş tacirlər yaşayırdı. Şərqin ən böyük ticarət şəhərlərindən olan Təbrizin mərkəzini həmin meydan təşkil edirdi. Bayram günləri meydanda adam əlindən tərpənmək mümkün deyildi. Burada bayram şənlikləri, atəşfəşanlıq keçirilirdi. Meydanın sol tərəfində örtülü bazar ilə üzbəüz dar ağacı qurulmuşdu. Ağacdan kənar iplər sallanmış üstünə qara çadra çəkilmişdi. Şahların və yerli hakimlərin hökmü ilə ölüm cəzasına məhkum olunanlar bu meydanda edam edilirdi.

Karvansalardan birinin üst qatında, meydana çıxan pəncərələrin birinin surahısında gözəl qiyafəli cavan bir kişi otrub, ətrafa diqqətlə tamaşa edirdi. Onun əynində bahalı parçadan tikilmiş arxalıq, başında tacirlərə məxsus buxara papaq var idi. O, hərdənbir arxaya çevrilərək otaqda oturmuş orta yaşlı adamla nə barədə danışır və yenə meydandakı binaların sağ

qurtaracaqdakı bina ilə – həbsxana ilə maraqlandığını şəksiz hiss edərdi. Tacir xeyli oturduqdan sonra birdən-birə qalxıb mənzildən çıxdı, sonra o, karvansaranın qarşısında göründü. Taciri iki nəfər-biri cavan molla, digəri isə sadə geyimli bir kişi müşayət edirdi. Tacir yavaş addımlarla meydanın həbsxana olan hissəsinə doğru getməyə başladı. Bu vaxt, sözləşiblərmiş kimi həbsxana tərəfdən bir nəfər ortaboylu, lopabığ, başı təhməzili otuz beş-qırx yaşlarında kişi də onların səmti ilə gəlirdi. Bu adam həbsxananın rəisi idi, bunu onun geyindiyi rəsmi paltardan bilmək çətin deyildi. Tacir onunla bərabərləşəndə ayaq saxlayaraq salam verdi və soruşdu:

– Ağa, səni yoldan eləyirəm, geyimindən görürəm ki, hökümət adamısan, sən yəqin mənim axtardığım adamı tanıyırsan. Deməzsənmi bu dustaqxananın rəisi harada yaşayır, evi hardadır? O, bizə bərk lazımdır.

– Xeyir ola, onunla nə işin var? –deyə kişi suala cavab vermədi.

– Biz Şirvandan gəlmişik, bu mollanı da Şirvan məliyi göndərib. Mən Təbrizə mal gətirmişəm, molla həzrətləri də məqbərənin ziyarətinə gəlib. Necə deyərdilər, həm ticarət, həm ziyarət. Mən nəzirimi Sahib-ül-Əmir meydanındakı zindanda olan dustaqlara yetirməliyəm. İndi dustaqxana rəisini tapmaq istəyirəm ki, onunla görüşüb, nəziri dustaqlara çatdırmağa izin alam.

Həbsxana rəisi nəzir sözünü eşidib xeyli xoşhal oldu. Özünü nişan verməyə tələsdi:

– Allah qəbul eləsin, axtardığın adam qarşısında dayanıb,– dedi.

– Bəh, bu nə yaxşı oldu, -deyə tacir sevindi.

– Elə siftə rastlaşdığımız adam, istədiyimiz, axtardığımız çıxdı. Görünür , ürəyi düz Allah adamısan. Nəziri havax gətirsək yaxşıdır?

– İkindi çağı gətirsəz yaxşıdır. Bəs bu molla nə istəyir?

– Ağa, Şirvan şiələrinin zindana göndərdiyi nəziri molla özü çatdıracaq. Məliyin rizası beladir.

– Allah sizin hamınızın nəzirini qəbul eləsin. Görürəm, əməlisahel adamsınız.

– Allah öz kölgəsini sənin də üstündən əskik eləməsin. Sən də yaxşı adama oxşayırsan. Biz də qəribik, axşamlar darıxırıq. Mümkün eləsən, gəl bir fincan qəhvə içək, söhbət eləyək. Bax, bu karvansarada oluruq...

ƏLƏŞRƏF ŞAYAN

1920-1995

Ələşrəf Mustafa oğlu Məmmədov 1920-ci il iyul ayının 10-da Şəki şəhərində anadan olub, orta təhsilini başa vurduqdan sonra İkiillik Müəlimlər İnstitutunda təhsilini davam etdirib.

Böyük Vətən müharibəsi iştirakçısı olub. Azərbaycan Pedaqoji Universitetinin "Azərbaycan dili və Ədəbiyyatı" fakultəsini qiyabi yolla bitirmişdir (1952).

Şəki şəhərində müxtəlif məktəblərdə, o cümlədən axşam fəhlə-gəncər məktəbində rus dili müəllimi və direktor, 5 saylı orta məktəbində direktor və 11 saylı orta məktəbində müəllim kimi fəaliyyət göstərmişdir.

Ələşrəf Şayanın yaradıcılığı lirik, satirik şeirlər, təmsil və hekayələrdən ibarətdir.

O, 1995-ci il fevral ayının 12-də Şəkidə vəfat etmiş. "Çöl" qəbirstanlığında dəfn olunmuşdur.

Qızıma

S.Vurğunun «Belələri də var» şeirinə nəzirə

Çəhrayı eynəkdən baxma həyata,
Düz yolundan çıxıb azanlar da var.
Yalanı özünə iş - peşə sanan,
Hər cür uydurmalar yozanlar da var.

Yox deyil həddini çoxdan aşanlar,
Özgə hesabına aşıb - daşanlar,
Üzdə sədaqətdən dastan qoşanlar,
Dalda min bir quyu qazanlar da var.

Həyatımız olmuş hünər meydanı,
İnsanı zəhmətdə, əməldə tanı,
Verdiyi vədləri, əhdi, peymanı,
Yaddan çıxaranlar, pozanlar da var.

Var olsun tər tökən, yaradan, quran,
Utansın, arlansın, aranı vuran.
Hər küncdə, bucaqda qeybətlər qılan,
Yuxarıya böhtan yazanlar da var...

Gəlir

Göyün qübbəsinə incə xətt kimi,
Çəkilib durnalar qatarla gəlir.
Gülün həsrətilə yanan bülbüllər,
Nəğməylə, eşq ilə, ilqarla gəlir.

Bahar zümrüd xalı sərib bağlara,
Al - əlvan naxışlar, baxıram hara.
Qoca da, cavan da nurlu bahara,
Yeni töhfələrlə, nübarla gəlir.

Hünər meydanında göstərib hünər,
İnsan təbiətə çalır min zəfər,
Tarladan qayıdan qızlar, gəlinlər,
Çiçəkli çəmənlə, gülzarla gəlir.

Laləzar vətənim, şöhrətim, şanım,
Ellər yaradanda necə dayanım?
Dedim, yaş ötüb gəlməz ilhamım,
Sən demə, ilham da baharda gəlir.

Gözlərin

Neyləyim, çoxdandır vurğunuyam mən,
Çatma qaş altında qara gözlərin.
Gözlərim gözünə sataşanda, qız,
Vurur sinəm üstə yara gözlərin.

Eşqin nə qəribə aləmi varmış!
Qəlbə bahar olur, covğunlu bir qış,
Ruhumu bədəndən çəkib aparmış,
Özüm də bilmirəm hara gözlərin.

Adətdir, gözəldə min bir naz olar,
Səbrim tükənmişdir, qınamasınlar,
Şayanın canandan təmənnası var,
Eləsin dərdimə çara, gözlərin.

Ərizə

Bir az fikrə daldı rəis,
Ərizəmi aldı rəis,
Siyirtməyə saldı rəis:
Mənzil olar, ay gözəl qız,
Növbəylədir bizdə yalnız.

Çox çalışdım, cox zəng etdim,
Qulağını dəng etdim,
Idarəyə bir də getdim:
– Rəis, matam mən bu hala!
– Növbənə var hələ, xala!

Çox gözlədim, illər keçdi,
Ümid söndü, güman keçdi.
Dedim:Rəis, dövran keçdi,
Nə vaxt olar mənzil mənə?
– Arxayın ol, əziz nənə!

Qohumdur mənə

Meşəçi bir gün
Meşəyə dedi:
– Külək nədir ki,
Tufanlara sən,
sinə gərirsən.
Qorxutmur səni
ilin amansız,
çovğunlu qışı,
Qorxutmur səni
dolu qarışıq
bahar yağışı.
Sirri nədədir,
dəmir parçası
olan o balta
hey səni əzir,
Budayır, kəsir?
Meşə söylədi:
– Hər bir dərdimi
demişəm sənə,
Yad yıxa bilməz,
Baltanın sapı
qohumdur mənə.

MƏMMƏD HACIZADƏ

1920-1996

Məmməd Cəlil oğlu Hacızadə 1920-ci ildə
Şəki şəhərində anadan olmuş, orta təhsilini başa vurduqdan sonra
Azərbaycan Xarici Dillər Universitetinin alman dili fakultəsini
bitirmişdir. Şəkidə oxuyub qurtardığı 11 saylı məktəbdə
həm dərs hissə müdiri, həm də müəllim işləmiş,
bir müddət Məişət Xidməti Kombinatında çalışmışdır.
Həyatı çox da fərəhli keçməmiş,
bunu onun şeirlərindən də öyrənmək olar.
Məmməd Hacızadə 1996-cı ildə vəfat etmiş,
Şəki şəhərində dəfn olunmuşdur.

Şərab

Qaldırın badəni şərab dilləndsin,
Könül tel-tel olsun, ruh gülümsəsin.
İçənə nuş olsun, qaldı içməyən,
Bizimçün tanrıya duaçı olsun.
Ya Rəbb, günahımız çoxdur, bilirik,
Günahlar üstünə günah gəlirik.
Beş günlük dünyada sənə mehmanıq,
Günahsız gəlmişik, məyus gedirik.
Şeytan da bir yandan əl çəkmir bizdən,
Doğrudan hürkürük öz kölgəmizdən.
Yalandan töbələr edərək həmən,
Tez-tez gizlənirik öz qəlbimizdən.
Ya Rəbb səndən gizli nə ola bilər,
Sən razı olmasan insan nə eylər,
Günahlı, günahsız həm Hacızadə,
Ümidlə yaşayar, rəhmini dilər.

Eylədim

Sən qənimət bilirsən,
Məndən alan bircə canı.
Mən sənə həm canı həm,
Könlümü qurban eylədim.

Məni divanə bilib,
Salma nəzərdən,dilbərim.
Eşqimi ahu yolunda,
Daim sərvan eylədim.

Yaşamaq eşqi ilə,
Könlümə taqət axtarıb.
Səni gördüm,təşnəmi,
Söndürüb viran eylədim.

Məni Məcnun sanıb,
Gülsə də biganə mənə.

Sadiq eşqimlə sənə,
Aləmi heyran eylədim.

Mən Hacızadə sənin,
Yolunda qurban getməyə.
Vətənə üz döndərib,
Ömrümü viran eylədim.

Əsirin hissiyatı

Vətənsiz bir insan yuvasız bir quş,
Caynaqsız bir şahin sədasız bülbül.
Elə bil cocuqkən yuvadan uçmuş,
Uça bilməmiş də dənizə düşmüş.
Bəzən də bu insan bir simli sazdır,
Çala bilən çalmaz dərdi çoxalır.
Dərdini soransa həddindən azdır,
Bir ümidsə onun qəlbinə yazdır.
Bəzən də görünər gülən bir sima,
Süni bir duruş, süni gülüş.
Görənlər sorarlar nə olmuş ona,
Heç nə bir az içmiş vətən adına.

Əsirin könül məktubu

Yenə yaralandı könlüm,
Göz yaşına qurban ana.
Fəraqindən yaşanışım,
Sübh, axşam viran ana.

Yadıma düşən təki sənin
Göz yaşların qəlbim yanır.
Könlümün ah fəraqindən,
Düşmən və dostlar oyanır.

Bu nə zülmdür, anacan,
Neçin doğdun bədbəxt məni.

Qismət deyil mənim üçün,
Bir daha görmək vətəni.

Bəxti qara insanların,
Sayı çoxdur xəbər alma.
Yar yoldaşım türmə olmuş,
Məni artıq yada salma.

Bəslə bacı-qardaşımı,
Bəlkə xoşbəxt oldu onlar.
Bəlkə onlardan uzaqda,
Hökm sürəcək tufanlar.

Bəlkə onlar vəhşiyyətdən,
İnsanları qurtaracaq.
Bəlkə onların könlündən,
Vətənim işıq alacaq.

Çünki xəlqin rəhbərlərin,
Xəlqin anası bəsləmiş.
Fərəhlənib təriflәmiş,
Acıqlanıb kötəkləmiş.

AŞIQ GÜLƏHMƏD

1920 - ...

Nurəddinov Güləhməd Cabbar oğlu 1920-ci ildə
Şəki rayonunun Şin kəndində anadan olub.
Ailə qurduqdan sonra hərbi xidmətə çağırılıb və
hərbi xidmət dövrü müharibə illərinə düşüb.
Ailə üzvləri aclıqdan tələf olub,özündən də "qara kağız" gəlib.
Ancaq bir oğlu-Əmrah Cabbarov sağ qalıb.
82 yaşındadır, heç bir təhsil almayıb.
Aşıq Güləhməd şair-aşıq Molla Cumanın şəyirdi olub,
saz-söz sənətinin mükəmməl bilicisi imiş.
El şənliklərində saz çalıb, söz qoşub.
Şəkinin Biləcik kəndindən olan aşıq Musa
Aşıq Güləhmədin şəyirdlərindən biridir.

AŞIQ MƏMMƏD BAYRAMOV

1921-2007

Bayramov Məmməd Hacı Salman oğlu –Aşıq Məmməd
1921-ci ildə Şəki rayonunun Baş Layısqı kəndində anadan olub.
İbtidai və orta təhsilini Şamaxıda alıb.
Gənc yaşlarından aşıq sənətinə ürəkdən bağlanan
Məmməd Bayramov aşıqlıq sənətinin sirlərini müasiri,
Molla Cumanın şəyirdi olmuş Aşıq Hacıbaladan öyrənmişdir.
O, klassik aşıq poeziyası nümunələrini,
ən məşhur dastanları, xüsusilə, Molla Cuma irsini,
Cumanın ata babası Molla Orucun da bəzi şeirlərini əzbər bilirmiş.
Müasirlərinin dediyinə görə,
o, əksər saz havalarını çalmağı bacaran, Şəkinin
tanınmış aşıqlarından biri kimi böyük hörmət sahibi olmuş,
el məclislərində, toy şənliklərində ifaçı aşıq kimi çalıb oxumuşdur.
Aşıq Məmməd 2007-ci il iyulun 15-də vəfat etmişdir.
Təəssüflər olsun ki, onun sinəsindəki aşıq şeiri örnəkləri
yazıya alınmamışdır.



MƏMMƏD ŞƏKİLİ

1923-1987

Çələbiyev Məmməd (Şəkili) Musa oğlu 1923-cü il aprelin 1-də
Şəki rayonunun İnçə kəndində anadan olmuş, doğulduğu İnçə kənd
məktəbini (1937), Şəki Pedaqoji Texnikumunu (1940),
Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və
ədəbiyyatı fakültəsini qiyabi yolla bitirmişdir (1956).
Aşağı Şabalıd, İnçə-Zunud kənd 7 illik məktəbində
sinif müəllimi, müdir (1940-1941), Şəki rayonunun bir sıra
məktəblərində müəllim, direktor müavini, direktor (1943-1961),
"Şəki fəhləsi" qəzetində şöbə müdiri və məsul katib (1961-1972),
Şəki Pedaqoji Texnikumunda müəllim (1972-1974),
Şəki Musiqi Texnikumda müəllim (1971-1987) işləmişdir.
Böyük Vətən müharibəsi iştirakçısı olmuş (1941-1942),
ağır yaralanmış və ordudan tərxis edilmişdir.Yaradıcılığa 1956-cı ildən
başlamış, "Qızlar bəzək istəyir" povesti, "Azərbaycan" jurnalında
(1965), "Bir yay günü" (1987), "Zoğal ağacları" (1998), "Haronaya gəlin
gəlir" (1988), "Təmkin" (1983) kitabları nəşr olunmuş.
Şəki Dövlət Dram Teatrında "Hökm", "Xatalı Qabil" və
"Yaşıl işıq" pyesləri tamaşaya qoyulmuşdur (1981-1986).
Məmməd Şəkili 1987-ci il avqustun 3-də vəfat etmiş, şəhərin 96-cı
kvartalında salınan yeni yaşayış massivindəki küçələrdən birinə və 10
nömrəli kitabxanaya onun adı verilmişdir.

Sani Qayğanaq bişirir

(hekayə)

Atalar deyiblər ki, özü yıxılan ağlamaz. Mələksima arvad da yeganə oğlu Saninin düzəltdiyi həngamələrə dözürdü, ona görə ki, baisi özü idi. Burada ikinci bir adamın zərrəcən müqəssirliyi yox idi. Üç qızın ayağına oğlan uşağı olandan elə bilmişdi, qızıl kündəsi tapıb. İlk gündən evlənənə kimi nazıynan oynamışdı, əriyini əzmişdi – "Az yemə, arıqlarsan", "Aman bala, çox yemə gecə yata bilməzsən". "Ana qurban sənə, soyuq su içmə, angina olarsan". Qoy bir az dinci çıxsın xörəyin, dilini yandırarsan, dözə bilmərəm öf-tufuna. Gecə birdən üstünü açar, soyuq dəyər, uşağın bundan sonra harayı hara çatar?" – deyə onuncu sinfi bitirənə kimi özü ilə yatırmışdı. Sani beş il Bakıda oxumuşdu. Mələksima ayağını altına yığıb beş ay üst-üstdə rayonda oturmamışdı.Böyüdükcə Sanidə qəribə keyfiyyətlər özünü göstərirdi. Elə bilirdi arvadlar içində təkcə Mələksima var, oğlanlar içində də özü. Hansı məclisə getsə evin səliqəsinə, xörəklərin tamına bir eyib-qüsur tapırdı. Heç kəsi, heç nəyi bəyənmirdi. Saninin yaşı keçirdi. Onu evləndirmək məsələsi çətin problem olmuşdu. Birinin təhsili, o birisinin aldığı ixtisas xoşuna gəlmirdi. Qızların birinin atasını öz atası ilə, digərinin anasını Mələksima ilə müqayisə eləyirdi.

Qərəz ki, Mələksima gördü ki, oğlu heç kəslə yollaşıb yola gedən deyil. Xalasına münasibati babət idi. Mələksima oğlunun qılığına girdi, bir az da onun eqoizmindən istifadə elədi.

– Yıxıq evin dirəyidir. Sürmə xalanın ortancıl qızı Xanımzər. Diş doxdurluğu qurtarır. Bilirsən nə qızdır? "Nahaqdan deməyiblər ki, xanım qız xalasına, yaxşı igid dayısına".

Cəm-xəm eləsə də, Sani anasının təkidindən yaxa qurtara bilmədi.

Xalası qızı Xanımzarlə evlənmişdi.

Xanımzər doğrudan-doğruya xanım-xatın gəlin idi. Gözəlliyi də, rəftarı da, evcanlığı da, ailədə hamının ürəyinə yatırdı. Nə olsun ki, Xanımzəri görəndə Sani köhlən at kimi cilovunu gəmirirdi. Çay gətirir, stəkanın natəmizliyindən gileylənirdi, qabağa xörək gəlirdi, qaşıqda qüsur tapırdı. Nəinki Xanımzərin bişirdiyi xörəkləri bəyənirdi, hətta Mələksimanın hazırladığı bişmişləri süfrəyə gətirən kimi Sani "Pof! Murdarın biri murdar. Əllərini təmiz yumamış vurdu boşqaba, gör dolmadan nə iyi gəlir"!

Burada təəccüb edilməli nə vardı?

Ali təhsil illərində də "Səndən quraxsımışam" – deyə üzünə salıb anası ilə yatmağa can atan Sani hər şeydə Mələksimanın qoxusunu axtarırdı.

Xanımzər dözmədi. Xalasının yalvarışlarına da məhəl qoymadı. Ata evinə pənah gətirdi. Qohum-qardaş yanında xəcalətli qalan Mələksima oğlundan üz döndərdi. Yemək-içməyinin vaxtına-vədəsinə, keyfiyyətinə, çeşidinə qədən məhəl qoymadı ki, Sani ipə-sapa gəlsin. Xanımzərin ayaqlarına düşüb evə qaytarsın.

Amma yox. Ərkəsöyünlükdə, tərs xasiyyətlilikdə Sani polad idi, sınardı, əyilməzdi.

Sani səhər də əvvəlkilərə baxanda bir şey yeməmişdi. Günortaya yaxın Mələksimanın başına qəribə fikir gəldi. Qapı-bacanı bağlayıb açarı Saniyə məlum olan yerə qoyub qızı evinə getdi. Görsün Sani nahar zamanı nə eyləyir? Darvazanı bağlı görəndə Saninin dalağı sancdı. Tələsik mətbəxə getdi. Anası nahara heç nə hazırlamamışdı. Axşamdan qalan səbzə-qovurmanı qızdırmaq istədi. Lakin anasının hərəkəti acığına gəldi. "Öz boyadını özü yesin Mələksima" – deyə qürrələndi. Bəs nahar üçün nə hazırlasın? Çox fikirləşmədi. Qayğanaq bişirmək istədi. Soyducudan yağ götürdü, tavaya tökdü. Qaz ocağını yandırdı. Bəs yumurta? Sani o yana baxdı, bu yana baxdı, yumurta tapmadı. Anası təqaüdə çıxandan sonra həyətdə dirlik-tərəvəz əkir, toyuq- cücə bəsləyirdi.

Sani cəld hinə cumdu. Kardon yeşikin içində yatan çil toyuq "qırt-qırt" eləyib qanadlarını qabardaraq həyətə qaçdı, Sani isti yumurtaların beşini götürdü.

"Sağ ol səni, çil toyuq, əməlli qanacağın var". Yumurtaların üstündə yatıb əməlli isitmisən, tez bişər-deyə sevincək mətbəxə keçdi. Yumurtları kasaya sındırıb çalmağa səbri çatmadı. Bir-bir qırıb qaynayan yağın içinə saldı. Yumurta tez bişdi. Amma Sani yeyə bilmədi. Tavada yumurta bişmişi əvəzinə hələ tük gəlməyən xırda, ətcə cücələr vardı. Özü də pis qoxu verirdi. Mələksimanın qoxusuna bənzəmirdi. Sani heykəl kimi donub qalmışdı. Görəsən nəyi səhv eləyib?

Axı Xanımzərin bişirdiyi qayğanaq belə olmurdu!

ABDULƏVVƏL KƏRİMZADƏ

1923-1942

Kərimzadə Abduləvvəl Kərim oğlu 1923-cü ildə Şəki şəhərinin Qışlaq hissəsində anadan olmuş,
1940-cı ildə Şəki şəhər 11 saylı orta məktəbi bitirib,
elə həmin ildə də Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinə daxil olub.
Öz fitri istedadı ilə seçilən Abduləvvəl gənclərin yaradıcılıq gecəsində Ə. Vurğun, M. Rahim və O. Sarıvəllinin qarşısında çıxış edərək bədahətən bir neçə şeir söyləmiş və Ə. Vurğunun zəmanəti ilə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmuşdur.
Qısa bir zamanda Abduləvvəl bir çox məşhur şair və yazıçılarda özünə maraq oyadır.
O, şeirlərini Abduləvvəl Kərimzadə və "Şəkili Əvvəl" imzası ilə yazmışdır.
Müharibəyə yollanan Abduləvvəl bir daha geri dönmür.
Faşistlərə qarşı müharibədə ağır yaralanan Abduləvvəl 1942-ci ildə Sibirdə bir xəstəxanada vəfat etmişdir.

Azadlıq

Sevirəm bu günü, bu abadlığı,
Artmada faşizmin o bərbadlığı,
İnsanın qəlbini çoşdurur baxın!
Qələm azadlığı, söz azadlığı.

Azadlıq gölündə üzürəm indi,
Əngin fəzalarda süzürəm indi,
Bu azad ölkəmdə, azad elimdə,
Azadə şeirlər yazıram indi.

Şən, azad ölkəmdə azadədir iş,
Böyükdür tutduğum bu yol, bu gediş ,
Yurduma məhəbbət, elimə sevgim
Yerlərdən böyükdür, göylərdən geniş .

Nərəm buludlardan tağları yarır,
Qalın meşələri, bağları yarır,
Dilim vətənimin adın çəkəndə
Səsim dərələri, dağları yarır.

Sevirəm bu günü, bu abadlığı,
Artmada faşizmin o bərbadlığı ,
İnsanın qəlbini çoşdurur baxın!
Qələm azadlığı, söz azadlığı.

Çal əsgər qılıncını

Çal əsgər qılıncını
Çal, cəbhələr titrəsin.
Ölkələri dolaşsın
Qoy qalibiyyət səsin.

Çal bir dəfə anlasın,
Düşmənlər öz həddini.
Çal, keçə bilməsinlər
Ölkəmin sərhəddini.

Çal qılıncı durmadan
Qolun, gücün var olsun.
Qalibiyyət cəbhədə
Daim sənə yar olsun.

Çal ki, müqəddəs Vətən
Desin sənə afərin.
Dillərdə dastan olsun
Döyüşdəki hünərin.

Çal ki, səsindən sənin
Dağlar, daşlar oynasın.
Yer üzü başdan-başa
Şəfəqlərə boyansın.

Çal parlasın varlığın,
Göydə gün kimi yansın.
Çal ərzin sinəsində
Al bayraq dalğalansın.

Azadədir elim mənim

Bu ağ günə çıxan ellər
Bilməyir heç qüssə, kədər.
Bağçamızda bülbül ötür
Cəh-cəh vurur səhər-səhər.

Hər tərəfdə açıb çiçək,
Mənzərələr gözəl-göyçək.
Hey uca dağlar başından
Əsmədədir sərin külək.

Əzizlənir gülüm mənim,
Ətirlənir çölüm mənim.
Nə üçün coşmayım, dostlar,
Azadədir elim mənim!

Yeni il nəğməsi

Geyinibdir ölkəm əlvan,
Mənimkidir gözəl dövran.
Duyğularım dilə gəldi,
Sevincimdən coşan zaman
Mənimkidir gözəl dövran.

Dərələri aşıb bu gün,
Çaylar kimi daşıb bu gün.
Dilləndirdim könül sazın
Fərəhimdən coşub bu gün,
Çaylar kimi daşıb bu gün.

Oxuyur bağda bülbüllər,
Açılıbdır qızıl güllər.
Yeni ilə qədəm qoyur,
Bizim ellər, bizim ellər,
Açılıbdır qızıl güllər.

Necə sığar təsvirə,
Bu gözəllik, bu mənzərə.
Salam deyir bizim ellər
Hər xoş gələn səhərə.
Bu gözəllik, bu mənzərə.

Mən də sevgimi yazım,
Gurlayır Kürüm, Arazım.
Bu gün ayna sularında
Qış vurur ördəyim, qazım.
Gurlayır Kürüm, Arazım.

Adladıq biz çox illəri
Gülür vətənimin elləri.
Lal olub susmayacaq
Qəlbimin incə telləri,
Gülür vətənimin elləri.

NURPAŞA HÜMMƏTOV

1923-1989

Nurpaşa Umar oğlu Hümmətov 1923-cü il may ayının 12-də
Şəki rayonunun Oxud kəndində anadan olmuş.
1938-ci ildə Oxud kəd məktəbində yeddinci sinfi bitirərək
Şəki Pedaqoji Texnikumuna daxil olmuş.
1941-ci ildə oranı müvəffəqiyyətlə bitirmiş.
həmin ilin sentyabrında hərbi xidmətə çağırılmış.
müharibədə ağır yaralandığı üçün ordu sıralarından tərxis edilmişdir.
O, əvvəlcə Nuxa rayonunun Baltalı və
Kiş kənd məktəblərində (1943-1945) müəllim.
Nuxa şəhər 1 saylı uşaq evində pioner baş dəstə rəhbəri və
tərbiyəçi (1946-1947). Oxud kənd məktəbində əvvəl sinif müəllimi.
sonra dil-ədəbiyyat müəllimi işləmiş.
1954-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin
"Dil-ədəbiyyat" fakultəsini bitirmiş. elmi tədqiqat
Pedaqoji Dillər İnstitutuna (1965) dissertant qəbul edilmiş.
professor Bəşir Əhmədovun rəhbərliyi altında
"V-VII siniflərdə Azərbaycan dili dərslərində şagirdlərin
rabitəli nitq vərdişlərini inkişaf etdirmək yolları" mövzusunda
dissertasiya müdafiə etmiş(1971).
Oxud kənd orta məktəbində direktor işləmiş (1969-1985)

Azərbaycan Milli Elmlər Akademiyasının
Şəki Zona Elmi Mərkəzində "Folklorşünaslıq və el sənətləri"
laboratoriyasına (1988-89) rəhbərlik etmişdir.
Ədəbi yaradıcılığa erkən yaşlarında başlamış. 50-80-ci illərdə
Şəki ədəbi mühitinin tanınmış qələm sahiblərindən olmuş.
dövrü mətbuatda şeirləri. oçerk və
publisist məqalələri ilə vaxtaşırı çıxış etmiş.
"Tanrıdan diləyim" kitabı çap olunmuşdur.
Nurpaşa Hümmətov 1989-cu ildə vəfat etmiş.
doğulduğu Oxud kənd qəbirstanlığında dəfn olunmuşdur.

Şərəşürov

Şərəşürov imzalı bir məktubu
kökündən yoxladılar,
Sonra da
belə bir
akt imzaladılar:
"Hamısı yalandı, böhtandı".
Beləliklə,
Şərəşürovun
fəaliyyət kitabı da
ədəbi bağlandı.
Ancaq bundan sonra
camaat arasında, qaldı
belə bir adət.
Kim ki,
pul-dövlət,
ucuz şöhrət
həsrətilə
yağdırırdı
başqalarına böhtan,
Dedilər:
Sən lap şərəşürovsan.

Görürəm

Görüşə bilməsəm də
Sevgilimin özüylə,
Mən ki onu görürəm
Ürəyimin gözüylə.

And

Min bir kələk seçdi o,
Əyri yolar keçdi o,
Hansı məclisə düşdü,
Vicdana and içdi o.

Sual

Bir ananın balasıyıq,
Nə vaxtadək hicr oduna
Yana-yana qalasıyıq?
Sən o tayda, mən bu tayda.

Ayrı düşdük neçin, nədən
Dilə gəlib xəbər alır
Nizami də Xaqanidən.
Sən o tayda, mən bu tayda.

Bağışlamaz tarix bizi,
Bir-birinə calamasaq,
Birlik deyən səsimizi
Sən o tayda, mən bu tayda.

Bir ananın balasıyıq
"Sən yanmasan,mən yanmasam"
Yenə ayrı qalasıyıq.
Sən o tayda, mən bu tayda.

Ürək, dil

"Dil ürəyin açarıdır" –
Babaların hökmü haqdır.
Kimin qəlbi saxtadırsa,
Bu hikməti danacaqdır!

Güzgü ol

Güzgü ol, əzizim, güzgü ol hər an,
Hər şeyi əks elə təmiz ayna tək.
Ancaq güzgü kimi susma hər zaman,
Əyriyə düşmən ol, doğruya kömək.

Bircə ildə

İdarədə stolu
dəyişdi bircə ildə.
O, köhnə qayğılardan
gen düşdü bircə ildə.
Dəyişildi yerişi,
dəyişildi gülüşü.
Dəyişildi səsi də,
dəyişildi sözü də,
başqa bir insan oldu
bircə ildə özü də.
İndi təzə göz ilə
baxır o qardaşa da,
sirdaşa da.
Dəyişdi gözlərində
çiçəklərin rəngi də,
həyatın ahəngi də.
Duymadı nəğmələrdə

sevgi təranəsini,
ürəklərin səsini.
Duymadı baxışların,
gözlərin sualını.
Insanın nifrətini,
insanın kamalını.
Günlər keçdikcə belə
artdı ona dost deyən,
Artdı məclislərdə də
sağlığına tost deyən,
Fərasətli tərpənib
kişi çatdı şöhrətə ,
Bircə ildə yetişdi
pula, mala, dövlətə .
Bircə ildə dəyişdi
evi də, eyvanı da.
Gözəlləşdi bir ildə
canı da, cananı da.
Ona qazanc gətirdi
hər saatı, hər anı.
Bu bir ildə itirdi
O, namusu, vicdanı.

HÜSEYN RƏSULOV

1923-1991

Hüseyn Bəxtiyar oğlu Rəsulov 1923-cü ildə
Şəki şəhərində anadan olub.
1941-ci idə Şəki Pedaqoji Məktəbini bitirib,
Aşağı Göynük kəndinə təyinat alıb,
bir neçə ay işlədikdən sonra avqustun 5-də səfərbərliyə alınıb.
416-cı Azərbaycan diviziyasında bölük və vzvod komandiri olmuş.
1942-ci ilin dekabr ayında ağır yaralandığına görə
ordudan təxris olunmuşdur.
Müharibədən qayıtdıqdan sonra Şəki Müəllimlər İnsitutunda
dil-ədəbiyyat fakultəsində oxumuş (1943-1945),
sonra təhsilini qiyabi yolla davam etdirərək ali təhsil almışdır
(1948). Bütün mənalı ömrü pedaqoji fəaliyyəti və
bədii yaradıcılığı ilə çevrələnir.
O, şəhər 6 saylı orta məktəbdə dərs-hissə müdiri (1945-1946),
10 saylı orta məktəbdə müəllim,
ibtidai siniflər üzrə dərs hissə müdiri, direktor (1946-1974),
bir neçə ay Şəki şəhər, daha sonra isə
Şəki rayon Xalq Maarif Şöbəsinin müdiri (1974-1986).

fərdi təqaüdə çıxdıqdan sonra isə
Şəki şəhər Xalq Təhsili Şöbəsində metodist işləmişdir.
Hüseyn Rəsulov bədii yaradıcılığa 1950-ci illərin əvvəllərində
başlamış, yaradıcılığında epik əsərləri üstünlük təşkil edir.
Mərkəzi və yerli mətbuatda əsərlərini Hüseyn Rəsullu imzası ilə
çap etdirmişdir. "Günəş" pyesi
Kirovabad (Gəncə) Dram Teatrında (1957),
L.Həsənovla birgə yazdığı "Bağışla məni, əzizim" pyesi
Şəkidə tamaşaya qoyulmuşdur, hekayələri mərkəzi və
yerli qəzet səhifələrində dərc edilmişdir.
Hüseyn Rəsulov 1991-ci ildə Şəki şəhərində vəfat etmişdir.

Qohumlar

(hekayə)

– Dedi Sadiq kəndə gələk.

Ballı hirsli:

– Gələcək gəlsin də!

Qulaməli onu sakitləşdirərək:

– Ay arvad, başa düş.Axı o kəndə gələndə doğma əmisi evini qoyub hara gedəcək? Gərək hazırlıq görək, bəlkə yanında raykom da oldu, hə ... qalx gör neyləyirsən!

– Qiyamət fikirdir! Qoy kəndin böyükləri bilsinlər ki, ispalkom onlara deyil, bizim evə gəlir, əmisinin doğma ata kimi hörmətini saxlayır.

Ballı yemək tədarükü ilə məşğul olmağa başladı. Düyü suya qoyuldu, toyuqlar kəsildi, ocaqlar qalandı, qazanlar səsləndi. Qulaməli də keyfi kök halda kolxoz idarəsinə tərəf yönəldi. Elə birinci dəfə sədrlə qarşılaşdı.

– Salam, ay Qulaməli, elə damarları çat adamlara oxşayırsan.

– Salam, ay sədr! Elə səni görmək isdəyirdim. Bir günorta bizə zəhmət kəçərsən.

– Qulaməli, xeyir ola, nəyə görə?

– Heç, bizim Sadiq gələcək. Deyirəm siz də olun.

– Hə Sadiq ?

– Bizim qardaşoğlu da. İspalkom olub.

– Sadiq müəllim sənin qardaşın oğludu?

– Bə necə, gör tanımırsan?

– Bağışla, Qulaməli, ispalkomun adını eşidib, üzünü görməmişəm. – Gələrəm, niyə gəlmirəm ki.

Sədr ayrıldıqdan sonra Qulaməli öz-özünə:

– Niyə də gəlməsin. Sən belə şeyi göydə axtarırsan. Indi Qulaməlini tanıyırsan, – deyə pıçıldadı.

Günortaya Qulaməlinin çağırışı ilə gələn qonaqlar böyük zalda əyləşərək yeddiillik mürəbbə ilə çay içirdilər.

Ballının əl-ayağı yerə dəymirdi. Qulaməli evə girib, çölə çıxırdı. Hər dəfə də xəbər alırdı ki:

– Bu Sadıq niyə belə geçikdi?

Sədr Qulaməlini sakitləşdirərək:

– Darıxma, xəbər göndərib, indilərə gələr.

– Xörəyin vaxtı keçdiyindən Ballı da dillənməyə başlamışdı:

– Bu Sadıq da lap bəy gəldisinə döndü.

Elə bu zaman bir uşaq qaça-qaça gəldi ki, Sadıq müəllim idarədə oturub sədri gözləyir. Sədr yerindən sıçrayıb tez uzunboğazlarına tərəf getdi. Qulaməli sədrin qolundan tutdu:

– A kişi, nə edirsən, dayan görək. Siz zəhmət çəkməyin. Bu saat mən gedib onu düz buraya gətirərəm.

– Qulaməli, sonra söz olar.

– Mən olan yerdə nə söz?

Qulaməli idarəyə tərəf getdi, lakin az getməmiş qayıtdı. Qulaməlinin rəngi ağarmışdı, dodaqları əsirdi.

Sədr Qulaməlinin ağarmış bənzinə baxaraq:

– Qulaməli, sənə nə oldu?

– Bəs qardaşoğlu hanı?

Qulaməli cavab vermədi.

– Əyə, bir dinsənə.

Hacağa Qulaməlinin qolundan tutub bərk yırğaladı:

– A kişi, bir özünə gəl.

– Danış görək nə xəbər var?

Qullaməli başını qaldırıb mat-mat qonaqlara baxmağa başladı. Sədr özünü saxlaya bilməyərək:

– Ayə başına hava gəlmiyib ki? – dedi.

– Nə olub?

– Hə...danış görək

– Sadiq müəllim niyə gəlmədi?

– Əyə, bəlkə acığı tutub?

Qulaməli onları eşitmirmiş kimi dimməzcə dururdu. Bu dəfə qonaqlar ona yalvarmağa başladılar:

– Qulaməli lələ, sən Allah, bir danış. Ürəyimizi üzmə.

– Sadiq müəllim hanı?

Qulaməli pıçıltı ilə:

– Batdı, məhv oldu, əldən çıxdı, – deyə zorla cavab verdi. Hamını təşviş götürdü.

– A kişi, kim batdı, nə əldən çıxdı?

Qulaməli dərdli-dərdli köksünü ötürüb, yazıq-yazıq dedi:

– Sadiq əldən çıxdı, Qulaməli də batdı.

Qonaqlar elə bildilər ki, yəqin şəhərdən gələnlər çaydan keçəndə körpü sınıb suya batıblar. Sədr, briqadir Hacıağa bir anın içində çaya tərəf qaçdılar. Qulaməli özünü divarın yanındakı kötüyə çatdırıb üstündə oturdu. Bir əli ilə günlüyü əzilərək sallanan şapkasını götürüb dizinin üstünə qoydu, o biri əlindəki çirkli yaylığı ilə dazlaşmış başını sildi. Elə bu zaman Ballı yırğalana-yırğalana gəlib ərinin yanında çökdü və təşvişlə xəbər aldı.

– A kişi, xeyir ola, nə xəbər?

Qulaməli boynunu qaz kimi qabağa uzadıb enli qaşlarını yuxarı qaldıraraq, titrək səslə dedi:

– Ay Ballı, sən demə, biz çaşmışıq. İspalkom olan bizim Sadıq deyil, ayrı Sadıq müəllim imiş.

ƏHMƏD RƏHIMOV

1924-1998

Əhməd Həsən oğlu Rəhimov 1924-cü ildə
Şəki şəhərində anadan olmuş. 6 yaşında ailəsi ilə Bakıya köçmüş,
təhsilini də burada almış, müdafiə sənayesi müəssisələrində çilingər
və tokar işləmiş, istehsalatdan "Kommunist" qəzeti redaksiyasına
korrektor vəzifəsinə göndərilmiş (1943).
"Xəzər bolşeviki" qəzeti redaksiyasında işləmişdir(1943-1946).
müharibədən sonra Azərbaycan Dövlət Pedaqoji İnsitutunu (1948).
Moskvada M.Qorki adına ədəbiyyat İnstitutunun
kino-dramaturgiya kursunu bitirmişdir(1952).
Bədii yaradıcılığa şeirlə başlamış.
ilk mətbu əsəri"Azərbaycan pioneri"
qəzetində (1939) dərc olunmuş "Pilot qız" şeiridir.
Azərbaycan neftçilərinin həyatından bəhs edən "Xəzərin sahilində"
filminin ssenarisinin, "Mənim ailəm" (1955) romanının,
"Bir evin gəlini" (1957), "Mahir" (1959),
"Doğma adamlar" (1967) əsərlərinin müəllifidir.
O, "Azərnəşr"də, "Kommunist" qəzeti redaksiyasında,
Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində və
"Maarif"nəşriyyatında, 1975-ci ildən Azərbaycan tibb jurnalında işləmiş.
"Qızıl Qələm" media mükafatına layiq görülmüşdür.
Əhməd Rəhimov 1998-ci ildə Bakıda vəfat etmişdir.

Ərköyün qız

(hekayə)

Qapı stadan döyüldü. Əfruz xala açar deşiyindən baxıb, qapını açdı.

– A, Səlimə bacı, gəl içəri.

– Sağ ol, tələsirəm, – deyə qonşu qadın astanada dayanıb, Əfruz xalaya nə isə pıçıldadı.

Kresoloda oturub roman oxumaqla məşğul olan Gülara yerindən qalxdı və dolu bədənini yırğalaya-yırğalaya qapıya tərəf yönəldi.

Əfruz xala qızını gördükdə özünü itirdi, qapını açmaq əvəzinə az qaldı ki, qapını üzünə bağlasın; sonra:

– Səlimə bacı, dayan bu dəqiqə gətirim,deyib tələsik otağa keçdi. Əllərini belinə qoymuş Gülara da onun arxasınca içəri otağa girib, xoruz kimi onun üzərinə pırpızlandı.

– Nə istəyir, o ...?

Əfruz xala qonşu arvadın eşitməməsi üçün alçaqdan dilləndi:

– Qonaqlığı var. Deyir, iri süfrəni bir gecəliyinə...

– Qələt eləyir!

Gülara gözlərini bərəldib, qaşlarını çatdı, sonra əllərini enli ipək xalatının geniş ciblərinə qoyub danışığa son qoyurmuş kimi, keçib divanın üstündə oturdu.

Belə hallarda qızı ilə mübahisə etməyin yersiz olduğunu bilən Əfruz xala bu dəfə də onu dilə tutmağa çalışdı. Lakin o:

-Ol..ma..az!-deyə daha da bərkdən qışqırdı.

Əfruz xala xəcalətdən bilmədi nə etsin:

– Niyə axı, a bala, adamın adama işi düşər də...O mənim əlimdən az tutub bəyəm?

– Olmaz dedim, olmaz! Qoy gedb başqasından alsın, elə gərək sən verəsən?

– Anan sənə qurban, matan qızım, dur özün ver, ayıbdır axı?

Gülaraya söz təsir etmirdi. Əfruz xala çıxılmaz vəzyyətdə qalmışdı. O, nə Gülaranı dilə tuta bilir, nə də qapıda durub gözləyən qonşuya bir cavab verə bilirdi. Vaxt keçir, xəcalətdən Əfruz xalanı tər basırdı. Hər dəqiqəsi ona bir il kimi görünürdü. O, əsəbi halda şfanerin paltar qoyulan gözünü açarkən Gülara ucadan: "Vermə dedim, vermə də.." deyib elə qışqırdı ki, Əfruz xala əlini odda yanırmış kimi geriyə çəkdi. Gözləməkdən yorulmuş qonşu qadının səsi onu düşdüyü çətin vəziyyətdən çıxartdı.

– Ay qonşu, daha lazım olmadı, sağ ol, zəhmət çəkmə, mən getdim.

Görünür, qadın Gülaranın qışqırığını eşitmişdi.

Əfruz xala utandığından açıq qalmış qapını uzun müddət örtməyə cəsarət etmədi. Onu hirs boğurdu. Qızı isə ətli biləyindəki qızıl saata baxıb, ev tufliləri taqqıldada-taqqıldada saymazyana onun ətrafında fırlanırdı. O, gah bədənnüma güzgünün önündə dayanıb xalatını çəkərək belini daraldır, gah yenicə düzəltdiyisaçlarını sıxıb açaraq buruqlarını artırır, hərdən də güzgüdə özünü başdan-ayağa süzərək zümzümə edirdi.

Əfruz xala hirslənməsinə baxmayaraq dinmirdi. Bir də ki, nə deyəcəkdi? Gülaranın sözünün üstünə söz demək olardı?

O, qızının kirşanlanmış üzünə, rəngləmiş dodaqlarına baxıb öz ürəyində gileylənirdi. Görəsən, bu kimə oxşadı? Əslimiz-nəslimiz təmiz. Allaha şükür, el içində yaxşılığımızdan başqa heç nə danışılmır. Bu niyə belə bədəsil oldu? Hə, niyə?

Bu sualları ürəyində dolandıra-dolandıra o, qızına daha çox diqqət yetirirdi. Birdən ananın ürəyi əsdi. Ona elə gəldi ki, bax bu əzməli-büzməli qız onun yox, özgənindir. Əfruz xala kimi ürəyiaçıq, mehriban arvadın belə qızı ola bilməz.

Küçədən kimsə Gülaranı səslədi:

– Gülya, Gülya ...

– A-a, gəl, gəl içəri Qalya, mən də bu saat geyinirəm, – deyə Gülara rəfiqəsini içəriyə dəvət etdi.

Otağa Gülara ilə yaşıd olan iyirmi dörd-iyirmi beş yaşlarında bir qız girdi;bu onunla bir instutda oxuyan Xalidə idi. Əfruz xala qızın yastıyapalaq şlyapasını, az qala dizinə kimi uzanan pencəyinin ətəklərini diqqətlə süzdü, sonra başını aşağı əyib bayaqdan yarımçıq qalmış corab tayını yamamağa başladı.

Xalidənin təzə geydiyi basanoşka o dəqiqə Gülaranın gözünə sataşdı.

– Qalya, təzə basanoşka tikdirmisən? – Gülaranın boğazında nə isə düyünlənib yumrulandı. O, çox çətinliklə udğunaraq haçandan-haçana dedi: – Təbrik edirəm.

Xalidə isə bədənnümə güzgünün qarşısında dayanaraq o yan, bu yana fırlanır, şahmat taxtasına bənzəyən basanoşkasını nümayiş etdirirdi:

– Tanış sapojnik idi, üçcə gündə tikdi.

– Doğrudan? Beləcə tez? –deyə Gülara təəccübləndi, onun basanoşkaya dikilmiş gözləri parıldadı:

– Çox original şeydi: – O, bir həftə bundan qabaq tikdirdiyi zamş tufli-basanoşkasına narazı halda baxdı:

– Kaş, mən də o cür sifariş verəydim.

MUSA İSLAMOV

1924-1999

İslamov Musa İsa oğlu 1924-cü ildə Şəki rayonunun
Baş Göynük kəndində anadan olmuş,
doğulduğu kənd orta məktəbini bitirdikdən sonra
Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini
fərqlənmə diplomu ilə bitirmişdir.
1954-cü ildə Azərbaycan EA-nın Nizami adına
Ədəbiyyat və Dil İnstitutunun əyani aspiranturasına daxil olmuş
və ömrünü həmişəlik elmə bağlamışdır.
1961-ci ildə namizədlik, 1973-cü ildə isə doktorluq
dissertasiyalarını uğurla müdafə etmiş,
otuz ildən artıq İ.Nəsimi adına Dilçilik İnstitutunda
şöbə müdiri işləmiş, Azərbaycan dialektologiyasının müxtəlif
problemlərinə dair dəyərli məqalələr və kitablar çap etdirmişdir.
Həmçinin onun redaktorluğu və iştirakı ilə
Azərbaycan dilinin dialektoloji atlası və ikicildlik
"Azərbaycan dilinin dialektoloji lüğəti" hazırlanıb çap edilmişdir.
Musa İslamov 1999-cu ildə Bakı şəhərində vəfat etmişdir.

"Azərbaycan dilinin Nuxa dialekti" kitabından

....Müşahidələr göstərir ki, dialektlərdə sinonimlər ədəbi dilə nisbətən daha çoxdur. Bunun müxtəlif səbəbləri ola bilər. Daha doğrusu, bunun aşağıdakı hadisələrlə əlaqədar olduğunu təxmin etmək mümkündür.

1.Azərbaycan ümumxalq dilinin təşəkkülü və formalaşması prosesində bir neçə qəbilə və ya tayfa dili-dialektinin iştirkaı ilə həmin qəbilə və ya tayfa dili-dialektininin hər birində eyni məfhum müxtəlif sözlərlə ifadə olunmuşdur. Keçən yüzilliklər ərzində bu sözlərin bir qismi daha geniş yayılaraq ümumxalq xarakteri almış, bir qismi isə tədricən ya istemaldan çıxmış, ya da passiv fonda keçmişdir. Məfhumun qəbilə və ya tayfa dili-dialektindən ifadə formasının müəyyən hissəsi müasir dialektlərdə mühafizə edilmişdir və bunlar sinonim çərgələr əmələ gətirir:

2.Ayrı-ayrı dialekt qruplarının uzun əsrlər boyu ardıcıl və qarşılıqlı surətdə bir-birinə təsiri ilə.

3.Daha sonralar başlanan, lakin müntəzəm surətdə davam edən ədəbi dilin təsiri ilə;

4.Alınma sözlər hesabına.

Sinonimlər az və ya çox dərəcədə alınma sözlərin köməyi ilə də yarana bilir. Bu, xüsusən başqa dillər əhatəsində və ya onlarla ünsiyyətdə olan dialekt və şivələrdə daha qabarıq şəkildə özünü göstərir. Nuxa dialekti ərazisində və onun sərhədlərində Qafqaz-iber xalqları (Dağıstan xalqları, gürcülər və s.) və ermənilər yaşadığından bunların dillərinin bir-birlərinə qarşılıqlı təsiri olmamış deyildir. Ona görə də bəzən eyni bir məfhum həm dialektin öz sözü ilə, həm də bu dillərdən alınmış sözlərlə ifadə olunur. Şübhəsiz, alınma söz çox zaman müəyyən fonetik dəyişikliyə uğrayır. Nuxa dialektində ot çalan, biçən alət (dəryaz) məfhumu bəzi kəndlərdə çalğı (B.D, K. D, B.G) bəzilərində isə məngəl (V, B. Z, O. Z) sözü ilə ifadə olunur (Nuxa şəhər şivələrində isə həmin söz kol qıran alətin adını bildirir). Tədqiqatçılar məngəl sözünün qədim gürcü dilində manqal şəklində və oraq mənasında işləndiyini qeyd edirlər. Həmçinin Nuxa dialektində murdar sözü ilə yanaşı olaraq onun sinonim çəpəl (B.Kün) sözü işlənir. Çəpəl sözünün isə saxur dilindən keçdiyi ehtimal olunur. Saxur dilində həmin sözün səpəl şəklində və eyni mənada işləndiyi göstərilir.

Nuxa dialektinin (eləcə də başqa dialekt və şivələrin) leksikasında müşahidə olunan xarakerik xüsusiyyətlərdən biri də odur ki, eyni fonetik tərkibə malik olan bir söz ayrı-ayrı kəndlərdə müxtəlif mənalar ifadə edir. Bir kənddə bir, digərində başqa, üçüncüsündə tamamilə ayrı məna daşıyır.

Yaxud, eyni bir məfhum, anlayış ayrı-ayrı kəndlərdə müxtəlif sözlərlə ifadə olunur. Qeyd etmək lazımdır ki, bu xüsusiyyətlər eyni kənd daxilində də özünü göstərir. Nuxa rayonunun əksər kəndlərində ipək qurduna verilən tut ağacı yarpağının (zoğunun) budaq hissəsinə künə deyilir. Baş Göynük kəndində bu söz eyni zamanda yumurtanın yastı başının adını bildirir. Qənşər sözü İnçə və Zunud kəndlərində külək girməyən, külək tutmayan yer, Qışlaq, Baş Göynük kəndlərində, eləcə də bir sıra başqa kəndlərdə qabaq, qarşı mənasını daşıyır. Yaxud daqar sözü Baş Göynük kəndində qurudulmuş qoyun dərisindən hazırlanmış torba, yandıran istiot və qısa, gödəkboy "adam" mənalarını ifadə edir və s.

Eyni məfhumun müxtəlif sözlərlə ifadəsi Nuxa dialekti üçün də xarakterik haldır. Məsələn, camış balasına (balax) Aşağı Göynük kəndində mədəx , Qoxmuq, Oxud, Qışlaq, Baş Küngüd kəndlərində xotex, Biləcik, Baş Göynük, Baş Layısqı, İnçə kəndlərində gedex deyilir. Yorğan-döşək astarı bəzi kəndlərdə qılıf (B.G), bəzisində mitil (Qşl), başqa birisində kəfrən (B.Kün.) adlanır...

ŞİRMƏMMƏD HÜSEYNOV

1924

Hüseynov Şirməmməd Ağaməmməd oğlu 1924-cü ildə Şəki şəhərində anadan olub. 1941-1943-cü illərdə Şəki iki illik Müəllimlər İnstitutunun fizika-riyaziyyat fakultəsində təhsil alıb. "Nuxa fəhləsi" qəzetində müxbir işləyib. 1945-1950-ci illərdə ADU-nun filologiya fakultəsinin jurnalistika şöbəsində, 1950-1954-cü illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Jurnalistika fakultəsinin aspirantura şöbəsində təhsil alıb. 1954-cü ildə orada namizədlik dissertasiyası müdafiə edib.Əmək fəaliyyəti BDU-ilə sıx surətdə bağlı olub. BDU-nun filologiya fakultəsi jurnalistika kafedrasında müəllim (1954-1961) filologiya fakultəsinin dekan müavini (1962-1969) jurnalistika fakultəsinin dekanı (1971-1976), mətbuat tarixi kafedrasının müdiri (1976-1988) işləmiş. 1988-ci ildən mətbuat tarixi kafedrasının professorudur. Şirməmməd Hüseynov Azərbaycan tarixinin ən önəmli hadisələrinin canlı şahidinə çevrilib. Azərbaycan Demokratik Cumhuriyyətinin, Məmmədəmin Rəsulzadə irsinin öyrənilməsində, təbliğində onun fədakar xidmətləri var. Mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salanların sırasında onun adı ön cərgədə çəkilir. Bir sıra beynəlxalq seminar, simpozium və konfransların, o cümlədən Praqada Jurnalistlərin Beynəlxalq konfransının (1966).

Ankarada keçirilmiş elmi-praktik konfransın (1996) və s. iştirakçısı olmuşdur. Ömrünü və yaradıcılığını H.Zərdabi, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, C.Məmmədquluzadə, M.E.Rəsulzadə, Ü.Hacıbəyli, Ö.F.Nemanzadə və digər böyük publisistlərin, müstəqillik mücahidlərinin yaradıcılığının yenidən üzə çıxarılmasına həsr etmişdir."Həqiqət və ədalət carçısı" (1988), "M.E.Rəsulzadə əsərləri" Ic(1992), "Müstəqilliyin çətin yolu.. Biz hara gedirik?" (1996), "M.E.Rəsulzadə əsərləri, IIc. (1991) "M.E.Rəsulzadəyə qarşı böhtan kompaniyasının arxasında kimlər durur?" (1998), "Mənəvi irsimiz və gerçəklik" (2004), "Milli haqq və ədalət axtarışında" (2004), ***"Нравственнел последие и современности" (2007), "Публисистическое наследие и современности" (2007),*** "Mətbu irsimizdən səhifələr" (2007), "Müstəqilliyin çətin yolu.. reallıqlar, düşüncələr" (2009) və s.kitabların müəllifidir.

Əməyi yüksək qiymətləndirilib. "Nizami təqaüdü" (1948), "Qızıl qələm" mükafatı (1966-1972), "Əməkdar jurnalist" (1988), H.Zərdabi adına mükafat (1991), Y.Məmmədəliyev adına mükafat (1992), M.E.Rəsulzadə adına mükafat (1998), "Şərəf ordeni" (2014) və s.onun əməyinə verilən dəyərlərdir.

Yelena qan-qan deyir

Bu günlərdə «Azadlıq» radiostansiyası Azərbaycan xalqının və bütünlükdə İslam dünyasının qəddar düşməni olan, erməni irqçi millətçilərinin başçılarından sayılan Yelena Əlixanyan-Bonnerin Rusiya Federasiyasının prezidenti Yeltsinə məktubunu onun öz səsi ilə efirə vermişdir. Mənim məqsədim Bonnerin bu sayıqlamalarını geniş şərh etmək deyil. Çünki onun cavabını «İzvestiya» qəzetinin yanvarın 11-i nömrəsində İrina Ovçinnikova çox tutarlı şəkildə vermişdir. O da maraqlıdır ki, ermənipərəst «İzvestiya»da bu yazı çap olunmuşdur. Məqalə belə adlanır: «Jandarm mundiri Rusiyaya yaraşmır».

Yelena Əlixanyanın məktubunun əsas canı belədir: əgər Amerika Birləşmiş Ştatlarının prezidenti Corc Buş İraqı darmadağın etdisə, eyni şeyi Rusiya Federasiyasının prezidenti Boris Yeltsin də görməlidir. O da Azərbaycana bu cür dərs verməlidir.

İrina Ovçinnikova özünü sülh tərəfdarı, millətlərin hüquqlarının müdafiəçisi kimi qələmə verən, özünün əsl simasını gizlətmək üçün əri Andrey Saxarovu bayraq edən Yelena Bonnerin bu açıq, davakar, araqızışdıran fitnəsini qətiyyətlə pisləyir. Onun əsl niyyətlərini açıb göstərir. Və belə bir nəticəyə gəlir ki, ermənilərin ərazi iddiaları üçün niyə ruslar qan tökməli, vuruşmalıdırlar? Onsuz da başıbəlalı Rusiyanın adı bu sahədə də bədnamdır. Müəllif tarixi faktlar göstərir. Macarıstan, Çexoslovakiya və Əfqanıstanın adını çəkir. Rus analarının faciəsini çox tutarlı şəkildə nəzərə çarpdırır. Və belə bir nəticəyə gəlir ki, Bonnerin bu cür davakar, fitnəkar çıxışları Rusiyanı və onun prezidentini gözdən sala bilər. Axı uzun əsrlər boyu Avropa və Asiyanın jandarmı rolunu oynayan Rusiya, məgər indi də keçmiş SSRİ daxilində müstəqil dövlətlərin jandarmı vəzifəsini öz öhdəsinə götürməlidir? Bu cür sayaqlamalarm sülh işinə, əməkdaşlıq işinə nə xeyri ola bilər? Müstəqil Dövlətlər Birliyi yenicə yaradılıb. İndidən bu birliyə yeni səciyyə vermək təşəbbüsləri edilir. Özü də birinci növbədə erməni millətçiləri tərəfindən.Sözdə müstəqilliyə tərəfdar çıxan ermənilər bu birlikdən, xüsusilə Rusiya Federasiyasından öz torpaq iddialarını, milli ambisiyalarını həyata keçirmək məqsədilə istifadə etməyə səy göstərirlər.

Bu günlər ikinci bir erməni siyasətçisi, Qorbaçovun köməkçisi olmuş Şaxnazarov da Çexoslovakiya mətbuatı orqanlarına müsahibə ver-

mişdir. Şaxnazarov belə bir iddia irəli sürür ki, keçmiş SSRİ-nin yerində yaradılmış müstəqil dövlətlərə geniş əl-qol açmağa imkan vermək lazım deyil. Bu dövlətlərin hamısı üçün vahid birləşmiş ordu, vahid pul, vahid vətəndaşlıq olmalıdır. Özünü milli məsələlər üzrə mütəxəssis hesab edən Şaxnazarovun bu cür bəyanatı imperiya tərəfdarlarının dəyirmanına su tökməkdir. Şaxnazarovlar, əlixanyanlar və digər yanlar yaxşı bilirlər ki, müstəqil dövlətlər həqiqətən öz torpaqlarının, öz varidatlarının sahibi olsalar, bu vaxta qədər başqa xalqların və respublikaların hesabına dolanan erməni mafiyasının işi çox çətin olacaq. Ona görə də bunlara imperiya təfəkkürlü vahid dövlətlər birliyi lazımdır ki, onun mərkəzi orqanlarına soxulub öz planlarını həyata keçirməyə başlasınlar.

Rusiya Federasiyasının deputat komissiyası keçmiş KQB - Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərində iş aparırlar, «məxfi», «tamamilə -məxfi» sənədləri araşdırırlar. Bu haqda verilmiş yazılarda diqqətimi bir fakt cəlb etdi. Sən demə, dövlət təhlükəsizliyi orqanları Yelena Əlixanyan-Bonnerə xüsusi ləqəb vermişlər: «Lisa», yəni «Tülkü» ləqəbi. Başqa sənədlər haqqında bir şey deyə bilməsəm də, amma bu barədə keçmiş dövlət təhlükəsizliyi orqanlarının işçilərinin tapıntısı məncə lap yerindədir. Yelena Əlixanyan-Bonner doğrudan da yaltaq, tülküdür. Saxarov donunu geyib öz əsl simasını gizlədir. Amma bu günlərdə o, yeni bir libasda - qurd libasında meydana çıxıb qan-qan deyir. Allah bəlasını versin! Məddəsi başında çatlasın!



BƏXTİYAR VAHABZADƏ

1925-2009

Vahabzadə Bəxtiyar Mahmud oğlu 1925-ci il avqustun 16-da Şəki şəhərində fəhlə ailəsində anadan olmuş, kiçik yaşlarından ailəsilə Bakıya köçmüş (1934), burada orta məktəbi qurtardıqdan sonra ADU-nun filologiya fakultəsində təhsil almış (1942-1947), universitetin aspiranturasında saxlanılmış, "Səməd Vurğunun poeziyası" mövzusunda namizədlik (1950), "Səməd Vurğunun yaradıcılıq yolu" adlı doktorluq dissertasiyası müdafiə etmişdir (1964). Bədii yaradıcılığa "Ana və şəkil" adlı ilk şeirini çap etdirdikdən sonra başlamış, 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın, "İkinci səs","Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad" və "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" (Bu əsərlər 1960-2003-cü illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur) pyeslərinin və 10-dan çox radio tamaşanın müəllifidir.Əsərləri, şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən, ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş sovetlər birliyi

xalqlarının dillərinə tərcümə edilmişdir.
Azərbaycan Dövlət Universitetində Müasir Azərbaycan Ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmış (1950-1990), 1990-cı ildə təqaüdə çıxmışdır.
Azərbaycan Yazıçılar Birliyinin üzvü (1945),
Azərbaycan Xalq şairi (1984),
Azərbaycan MEA-nın müxbir üzvü (1980),
sonra həqiqi üzvü (2000) seçilmişdir.
SSRİ yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü (1981),
həmçinin Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinin və Ağsaqqallar Şurasının üzvü idi (1991).
Ədib 1974-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adını almış, 1976-cı ildə Azərbaycan SSR-nin, 1984-cü ildə keçmiş SSRİ-nin Dövlət Mükafatı laureatı olmuş, "Qırmızı Əmək Bayrağı", "İstiqlal" və "Şöhrət" ordenləri ilə mükafatlandırılmış, Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990), millət vəkili (1995 və 2000) seçilmişdir.
60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncülərindən biri olmuş, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini qələmə almış. Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuş, birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə sovet ittifaqı dağıldıqdan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir. Böyük ədibin bir neçə dəfə "Seçilmiş əsərləri" bir cilddə (1961-1967), iki cilddə (1974-1975) və (1983-1984), beş cilddə (2001-2002), külliyatının 12 cildliyi bütövlükdə millət vəkili Cavnşir Feyziyevin maddi və mənəvi dəstəyi ilə (üst-üstə 8076 səh) çap etdirilmişdir (2008-2009). Xalq şairi Bəxtiyar Vahabzadə 2009-cu il fevral ayının 13-də 83 yaşında uzun sürən xəstəlikdən sonra Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuş,
Şəki şəhərində büstü qoyulmuş, ev muzeyi yaradılmış,
Bakıda və Şəkidə adına küçə verilməklə
xatirəsi əbədiləşdirilmişdir.

Yaman darıxmışam....

Yaman darıxmısam sənincün,yaman!
Mən əsir düşmüşəm öz istəyimə.
Nifrəti gizlətmək asandan asan
Sevgini gizlətmək macalmış,demə!

Haraylar yüksəlir könüldən yenə,
Bu necə haraydı,bu necə haydı?
Öhdəmdən gələrdim...Gözüm üzünə
Qulağım səsinə darıxmasaydı...

Elə bil yerdən üzülüb əlim...
Mən azıb qalmışam qəm dərəsində,
Dirilib yaşanır sənli günlərim
Sənsiz günlərimin xatirəsində.

Yaman darıxmışam...Bu nədir yenə
Ağlım sağa baxır,ürəyim sola.
Ürəyim dönübdür göy göyərçinə
Qonub sən gedəli sən gələn yola.

Yaman darıxmışam...Hər axşamçağı
Arzumu günəşin telinə sardım.
Mənimlə olsaydı,mən darıxmağı
Zamana ən uzun ölçü sanardım...

Yuxuma gəlmişdin...Qısıldıq küncə
Danışdıq...Yel əsdi...Dağıldı dərd-qəm.
Kölgəyə dönmüşdüm,səni görüncə
Sənin işığında yox oldu kölgəm...

Ağıl başqa, ürək başqa

Bir-birinə bənzəsə də,
Yel başqadır, külək başqa.
Ətri də xoş, rəngi də xoş
Gül başqadır, çiçək başqa.

Hər diki yoxuş bilmə, gəl,
Hər meyi meyxoş bilmə, gəl.
Hər uçanı quş bilmə, gəl
Quş başqadır, böcək başqa.

Hər dərdinə ortaq mənəm,
Hər ağrını tən bölənəm,
Sən çəkənsən, mən gələnəm
Gəmi başqa, yedək başqa.

Haqqın yolu-öz yolumdur,
Əyilməyən düz yolumdur,
Xeyirlə şər sağ - solumdur
Şeytan başqa, mələk başqa.

Bir diləyə mən calandım,
Gah qazandım, gah talandım,
Ömrüm boyu haçalandım
Ağıl başqa, ürək başqa.

Dilək oldu mənim adım,
Pərvazlandı qol-qanadım,
Çatmadı səbrim, inadım
Əməl başqa, dilək başqa

Bir salama dəymədi

Bu gün mən səni gördüm,
Salam vermək istədim,
Üzünü yana tutdun.
Söylə, illərdən bəri
Qəlbimizin bir duyub
bir vurduğu illəri,
Axı, nə tez unutdun?
Beş ildə gözümüzdən axan o qanlı sellər,
Bir salama dəymədi?
Həyəcanla, fərəhlə, qəmlə dolu o illər
Bir salama dəymədi?
Heç üzümə baxmadan yanımdan necə keçdin?

Sən eşqin salamını qorxuyamı dəyişdin?
Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?
O qədər yaxın ikən, bu qədər uzaq oldun.
Şirin gülüşlərimiz, acı fəğanlarımız
Bir salama dəymədi?
Qayğılı anlarımız, qayğısız anlarımız
Bir salama dəymədi?
Sən neylədin, bir düşün!
Yalnız indi anladım: ah, sən daha mənimçün
Əlçatmaz bir çiçəksən,
Yaşanmış günlərim tək geri dönməyəcəksən!...
Qop, ey tufan, əs, ey yel! Xəzəl olum, tökülüm
Düz beş il ürəyimdə
Bəslədiyim məhəbbət, bir salama dəymədi.
Bir günlük həsrətimə dözə bilməyən, gülüm,
Bəs nə oldu?
Bu həsrət bir salama dəymədi?
Getdin, dalınca baxdım, can ayrıldı canımdan,
Sən necə etinasız ötə bildin yanımdan,
Ah çəkdim, başım üstə yarpaqlar əsdi, gülüm,
Sənin qəlbin əsmədi.
Arxana da baxmadın!
Niyə sənin yolunu məhəbbətin kəsmədi?...
Qazancımız de, bumu?
Deyilməmiş o salam əlvidamız oldumu?
Sən mənə zülm eylədin, mənə zülm yaraşır.
Bir salama dəyməyən eşqə ölüm yaraşır.

NƏZİR ELTƏKİN

1925-2004

Əhmədov Nəzir Laçın oğlu 1925-ci il dekabrın 27-də Şəki rayonunun Dağ Qaraqoyunlu kəndinin Kəhriz obasında anadan olmuş, 17 yaşında-1943-cü ildə Şəki Pedaqoji Texnikumunda təhsilini yarımçıq qoyub könüllü əsgər getmişdir. Xarkov Hərbi Kəşfiyyat məktəbində oxuyub (1944). Rusiyanın Sankt-Peterburq Universitetini bitirib və Leninqrad Vilayət Partiya Komitəsində çalışıb. Zaqatala Rayon Partiya Komitəsinin birinci katibi (1963-1974), sonra Abşeron Rayon Partiya Komitəsinin birinci katibi, daha sonralar Şəki şəhər İcra Hakimiyyətinin başçısı, Azərbaycan Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifəsində işləmişdir. Nəzir Əhmədov İqtisad elmləri namizədi olmaqla, 3 elmi toplunun müəllifi olmuş. Nəzir Eltəkin təxəllüsü ilə incə ruhlu şeirlər yazmış, şair Hüseyn Arifə yaxın dost olmuşdur. "Xatırla məni", "İsmi Pünhan sorağında", "Qaçaq Abbas", "Sarı Laçın", "Ömür yolu" şeirlər kitabının müəllifidir. Bir sıra şeirlərinə mahnı yazılmışdır. Nəzir Əhmədov 2 çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, 4 orden və 14 medalla təltif edilmişdir. Nəzir Eltəkin 2004-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Birdir

Ayırmaq olarmi dağı arandan!
Aran da vətəndir,dağ da vətəndir.
Göyə də heyranam, yerə də heyran.
Meşə də, çəmən də, bağ da vətəndir.

O, qədər vurğunam ana torpağa.
Gözümdə tikan da, çiçək də birdi.
Dözməzsən ikiyə parçalanmağa.
Vətən birdir deyə, ürək də birdir.

Dedim

O, əvəzsiz unudulmuş.
İllərimə qayıt dedim.
Gözlərinə yuxu dolmuş.
Duyğuları ayılt dedim.

Ömür şirin.
Ömür acı.
Olacağın yox əlacı.
Şirin-şəkər söz möhtacı,
Ürəyimi ovut dedim.

Gəzə-gəzə itən günü,
Çözələ gəl, öz ömrünü,
Hirsi, kini, dərdi, ünü
Səbr eləyib üyüt dedim.

Hüseyn Arifə

Gəl çıxaq seyrinə doğma ellərin.
Keçib Dəlidağdan Turşsuya enək.
Eşidək səsini dağ sellərinin,
Qartalla ötüşüb,bülbüllə dinək.

Gəzək Qarabağı, gəzək Qazağı.
Alaq dincimizi Qarayazıda,
Yalayaq duz kimi ana torpağı,
Vaqifi, Vurğunu gətirək yada.

Duyaq aləmini yağış gölünün,
Görək necə ötür qayada kəklik,
Başqadı cəlalı Ceyran çölünün,
Gözəllik yaşadır bizi gözəllik.

Gəl çıxaq seyrinə doğma ellərin,
Ellər bir-birindən təravətlidir,
Qoxlayaq ətrini təzə güllərin,
Təbiət necə də səxavətlidir.

Keçər

Baxışdan alışar göz,
Odu yanaqdan keçər.
Ürəkdə qaynayan söz,
Axıb dodaqdan keçər.

Quzeylərə gün düşər,
Dağa-daşa ün düşə.
Maral ensə örüşə,
Yolu bulaqdan keçər.

Bizim dağlar uludu,
Bərəkətlə doludu.
Ürəklərin eşq odu,
Qardan,sazaqdan keçər.

Çiçək əkin, gül əkin,
Şəhər salıb, yol çəkin.
Vətən üçün Eltəkin,
Neçə sınaqdan keçər.

NADİR MƏMMƏDOV

1927 - 2012

Məmmədov Nadir Cəlil oğlu 1927-ci ildə anadan olmuş. 1942-ci ildə Şəki Pedaqoji Texnikumunu, 1950-ci ildə isə Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. Daha sonra SSRİ EA Şərqşünaslıq İnstitutunun aspiranturasında oxumuş, görkəmli alim Əziz Şərifin rəhbərliyi altında "M.F.Axundov Azərbaycan realist ədəbiyyatının banisidir" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir (1958).Nadir Məmmədovun rus dilində "M.F.Axundovun bədii yaradıcılığı", "M.F.Axundovun realizmi" monoqrasiyaları "Elm" nəşriyyatında və "M.F.Axundovun realizmi" monoqrafiyasının yeni, təkmilləşdirilmiş variantı "Maarif" nəşriyyatında dərc edilmişdir. O, XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri, ədəbiyyat tarixçiləri, həmçinin bir sıra rus və Avropa yazıçıları barədə dövrü mətbuatda Azərbaycan və rus dillərində 300-ə yaxın məqalə, rəy və portret dərc etdirmiş. Moskvada nəşr olunan "Bolşaya Sovetskaya Ensiklopediya" və "Kratkoe literaturnaya Ensiklopediya"larda bir sıra yazıçıları və ədəbiyyatşünas alimləri, "Azərbaycan Sovet Ensiklopediyası"nda isə Azərbaycan, rus və Abropa yazıçıları barədə portret oçerkləri çap olunmuşdur. Nadir Məmmədov 2012-ci il avqustun 25-də Bakı şəhərində vəfat etmişdir.

M.F.Axundzadənin həyatı və bədii yaradıcılığı

(bir parça)

...M.F.Axundzadə Tiflisdə öz bilik dairəsini genişləndirməyə xüsusi diqqət yetirmiş, böyük həvəs, qızğın ehtirasla və ardıcıl sürətdə dünya mədəniyyətinin nailiyyətlərinə yiyələnmişdi. O, klassik Azərbaycan və Şərq ədəbiyyatı, fəlsəfi fikri sahəsində biliklərini təkmilləşdirmiş, hind çarvakları, Firdovsi, Nizami, Rumi, Hafiz, Cami, Sədi, Əla-Zikrihiəssəlam, İbn Sina, Şeyx Mahmud Şəbüstəri, Vaqif, Vazeh, Zakir və A.Bakıxanovun yaradıcılığına dərindən bələd olmuşdur. Mirzə Fətəli eyni zamanda rus ədəbi və ictimai fikrinin görkəmli nümayəndələrinin - Lomonosov, Derjavin, Karamzin, Qriboyedov, Puşkin, Lermontov, Qoqol, Belinski, Çernışevski, Dobrolyubov və başqa rus yazıçıları, tənqidçiləri və mütəfəkkirlərinin əsərləri ilə tanış olmuş, rus mədəniyyətinin mütərəqqi ideyalarına yiyələnmişdi. O, rus dili vasitəsilə Qərbi Avropa ədəbi, ictimai-siyasi, fəlsəfi və elmi fikri sahəsində geniş, hərtərəfli və mükəmməl məlumat əldə etmişdir.

M.F.Axundzadə əsərlərində Homer, Heraklit, Sokrat, Platon, Aristotel və Ksenofonun adlarını çəkmiş, Petrarka, Rotterdamlı Erazm, Spinoza, Volter, Monteskyö, Russo, Holbax, Renan kimi görkəmli yazıçı və mütəfəkkirlər haqqında mülahizələr söyləmişdir. Onun şəxsi kitabxanasında məşhur Avropa tarixçiləri, sosioloqları və təbiətşünaslarından Boklun "İngiltərədə sivilizasiyanın tarixi", Bartunun "Hindistan İngiltərənin hakimiyyəti altında", Minyenin "Fransız inqilabının tarixi", Qizonun "Fransada sivilizasiyanın tarixi", Dreperin "Avropanın əqli inkişafı tarixi", D.C.Lebekin "Sivilizasiyanın mənşəyi və ibtidai insanın səciyyəsi", C.S.Millin "Siyasi iqtisadın əsasları", K.F.Neymanın "Amerika birləşmiş Ştatlarının tarixi", A.Tyerin "Fransada konsulluq və imperiyanın tarixi", C.L.Lyusin ikicildlik "Yunan dövründən müasir dövrə qədər fəlsəfə tarixi", Ç.Darvinin, T.Q.Hekslinin, M.Faradeyin, Şleydenin, Simmennanın əsərləri saxlanılır.

Şəksiz, M.F.Axundzadənin həm Şərq, həm rus, həm də Qərbi Avropa ədəbi, felsəfi və elmi fikri sahəsində məlumat və biliyi adlarını çəkdiyimiz yazıçı, mütəfəkkir və alimlərlə məhdudlaşmır. Ümumən, o, dünya ədəbi, fəlsəfi və ictimai fikir tarixinə dərindən bələd olan, onun mütərəqqi ideyalarına mükəmməl yiyələnən bir ziyalı olmuşdur. Lakin yeri gəlmişkən bir məsələni də xüsusi qeyd etməyi lazım bilirik ki, Mirzə Fətəli dünya

mədəniyyətinin mütərəqqi ənənələrindən tənqidi, yaradıcı sürətdə istifadə etmiş və sözün həqiqi mənasında orijinal, müstəqil, böyük bir realist yazıçı və ateist-materialist mütəfəkkir olmuşdur.

M.F.Axundzadə dövlət qulluğunda çalışmaqla bərabər, 1836-1840-cı illər arasında Tiflis rus qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləmişdir.

M.F.Axundov 1844-cü ildə M.Ş.Vazehlə birlikdə nəşriyyat yaratmaq təşəbbüsündə olmuş, bu barədə Qafqazın baş hakimi Qolovinə müraciətlər təqdim etmişdir. Lakin onların bu işi uğurla nəticələnməmişdir.

1845-ci ildə Tiflisdə rus teatrı təşkil olunur və burada Qərbi Avropa və rus dramaturqlarının əsərləri, o cümlədən Şekspirin, Molyerin, Qoqolun, Ostrovskinin pyesləri tamaşaya qoyulur. Tiflis rus teatrında tamaşaya qoyulan pyeslərlə, eləcə də şəxsi mütaliə yolu ilə dünya və rus dramaturgiyasının görkəmli nümayəndələrinin əsərləri ilə tanışlıq sayəsində M.F.Axundzadədə dramaturgiyaya və teatra qızğın məhəbbət hissi oyanır. Doğma xalqını orta əsr feodal dünyasının bəlalarından, nadanlıq və cəhalət bataqlığından xilas etmək, ictimai-siyasi şüurunu oyatmaq, mədəni xalqlar səviyyəsinə çatdırmaq üçün teatr və dramaturgiyanı çox münasib və təsirli bir vasitə hesab edən Mirzə Fətəli 1850-1855-ci illər arasında bir-birinin ardınca altı orijinal, yüksək ideya-bədii xüsusiyyətlərlə səciyyələnən komediya yazır və beləliklə, yalnız Azərbaycanda deyil, bütün Yaxın Şərqdə dramaturgiyanın əsasını qoyur, 1857-ci ildə isə o, məşhur "Aldanmış kəvakib" povestini qələmə almışdır.

M.F.Axundzadə "KABKA3" qəzetində fəal əməkdaşlıq etmiş, burada öz komediyalarını, Krım müharibəsində olarkən yazdığı "Zakirə məktub" şerini, "Bağdad yaxınlığında Türkiyə ordusunun vəziyyəti" adlı tarixi məqalələrini, "Aldanmış kəvakib" povestini və bir neçə tərcüməsini dərc etdirmişdir.

1851-ci ilin martında Mirzə Fətəli Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin üzvü seçilmiş, görkəmli şərqşünas Adolf Berjenin rəhbərliyi altında hazırlanan "Qafqaz arxeoqrafiya komitəsinin aktları" məcmuələrinin əsas tərtibçi və tərcüməçilərindən biri olmuşdur. 1853-cü ildə isə komediyalarını rus dilində, 1859-cu ildə isə komediyalarını və "Aldanmış kəvakib" povestini "Fəhristi-kitab" adlı müqəddimə ilə birlikdə 'Təmsilat" başlığı altında Qafqaz canişinliyinin nəşriyyatında bir kitab halında nəşr etdirmişdir.

1857-ci ildə M.F.Axundzadə ərəb əlifbası əsasında yeni əlifba tərtib edib, həmin əlifba layihəsini dövrünün məşhur dilşünas alimlərinə, şərqşünaslarına, həmçinin İran və Türkiyənin dövlət başçılarına göndərir, əlifba islahatı uğrunda fəal mübarizə aparmağa başlayır. Bu məqsədlə o,

1863-cü ildə İstanbula gedib, layihəni Türkiyənin baş naziri Fuad paşaya təqdim etmişdi. Layihə baş nazirin göstərişi ilə "Cəmiyyəti-Elmiyeyi-Osmaniyyə"də müzakirə olunmuşdur.

Cəmiyyətin üzvləri M.F.Axundzadənin təşəbbüsünü təqdir etsələr də, konkret heç bir tədbir görməmişdilər. Bu işdə ona hamıdan çox İranın Türkiyədəki baş səfiri Mirzə Hüseyn xan ciddi mane olmuşdu. O, türk ictimaiyyəti arasında Mirzə Fətəlini müsəlman xalqlarının bədxahı, islam dininin düşməni kimi qələmə verərək hörmətdən salmışdı. Türkiyədən Axundzadə çox peşman, onun öz sözləri ilə demiş olsaq, "min kədər və təəsüflə" qayıtmışdı. Lakin bu uğursuzluq onu ruhdan salmamış, əzmindən döndərməmişdi. Əksinə, M.F.Axundzadə bu sahədəki fəaliyyətini daha böyük səy və ehtirasla davam etdirərək, ərəb əlifbası əsasında ikinci bir layihə hazırlamış, ən nəhayət isə, ərəb əlifbasından tam əl çəkib, latın əlifbası qrafikası əsasında yeni bir layihə tərtib etmişdi. Ömrünün sonuna qədər o, ərəb əlifbasının islahı uğrunda ardıcıl və fəal mübarizə aparsa da, onun bu gözəl təşəbbüsü İran və Türkiyənin hakim dairələrinin biganəliyi və məhdudluğu üzündən həyata keçirilməmişdi.

Müsəlman xalqlarının iqtisadi-mədəni intibahı və yeni əlifba uğrunda aparılan mübarizənin heç bir müsbət nəticə verməməsi M.F.Axundzadədə Şərqin despot hakimlərinə və mürtəce ruhanilərinə qarşı kəskin nifrət hissi doğurur. İstambuldan qayıtdıqdan sonra o, Şərq feodal üsuli-idarəsinin, islam dininin əsasını sarsıtmaq, müsəlman Şərqində "fanatizmi aradan qaldırmaq", "Asiya xalqlarını nadanlıq və qəflət yuxusundan oyatmaq" və iqtisadi-mədəni tərəqqi yoluna salmaq məqsədilə 1863-1865-ci illərdə məşhur "Kəmalüddövlə məktubları" fəlsəfi traktatını yazır. Bir qədər sonra o, "Kəmalüddövlə məktublarını" yaxın dostu, İranın qabaqcıl ziyalısı Mirzə Yusif xanla birlikdə fars dilinə, 1874-cü ildə isə, uzun illər dostluq və əməkdaşlıq etdiyi rus şərqşünası Adolf Berje ilə birlikdə rus dilinə tərcümə edir. M.F.Axundzadə öz fəlsəfi traktatını Peterburqda, Parisdə nəşr etdirmək uğrunda fəal və müntəzəm mübarizə aparmışdır. Lakin onun bu səyi və gərgin əməyi də uğurla nəticələnməmişdi.

Keçən əsrin 60-70-ci illərində Mirzə Fətəli Azərbaycanın, İran və Türkiyənin mütərəqqi ziyalıları - Mirzə Melkum xan, Cəlaləddin Mirzə, Mirzə Yusif xan, Əli xan, Mirzə Məmməd Cəfər, Həsən bəy Zərdabi, Hind yazıçısı və alimi Manekçi-Limci Sahib ilə yaxın dostluq əlaqəsi yaratmış, onları öz mütərəqqi görüşləri ilə tanış etmiş və Yaxın Şərqdə görkəmli yazıçı, maarifçi-demokrat ideoloq və ictimai xadim kimi dərin hörmət və geniş şöhrət qazanmışdır.

YAQUB MAHİR

1927-2015

Yaqub Vahab oğlu Alxasov (Mahir) 1927-ci ilin may ayında Şəki rayonunun Oxud kəndində fəhlə ailəsində anadan olmuş.
Şəki şəhər 10 saylı orta məktəbini 1948-ci ildə.
Şəki Kənd Təsərrüfatı Texnikumunu (1957).
Şəki Orta musiqi məktəbini (1967) bitirmiş. "Ailə rəqs ansamblı"nın tərkibində Moskvada keçirilən Azərbaycan İncəsənəti ongünlüyünün (1938) iştirakçısı olmuşdur.Şəki Dövlət Dram Teatrında kütləvi işçi kimi əmək fəaliyyətinə başlamış.Oxud kəndinə aqronom-entimoloq, Şəki İpək Kombinatında çeşidləyici fəhlə.
"Şəki fəhləsi" qəzetində mühasib, Şəki rabitə qovşağında texnik işləmişdir. (1963-1988).Yaqub Mahir 1938-ci ildən yaradıcılığa başlamış "Şəkililər" (1998), "Mahirnamə" (2005), "Şəki gözəli" (2013) kitabları çap olunmuşdur.Yaqub Mahir 2015-ci ilin noyabr ayında Şəki şəhərində vəfat etmişdir.

Gözəl

Nə xoşbəxt yaradıb səni yaradan
Qoyub ağ üzünə xal gözəl-gözəl,
Yanımdan ötəndə işvə, naz ilə
Qalmayır heç məndə hal, gözəl-gözəl.

Darayır saçını əsdikcə yellər,
Səpilir üzünə o qara tellər.
Sənə həsəd çəkir bağçada güllər,
Geyinib gəzəndə al, gözəl-gözəl.

İstədim söz atam, qısdım dilimi,
Unutdum özümü, kəsdim əlimi,
Dodağın elə bil qarpız dilimi
Üstünə yaxmısan bal, gözəl-gözəl.

Kimsəyə əyilmir o qəddin sənin,
Tələsmə, aləmdə var həddin sənin,
Əgər can almaqsa, bu qəsdin sənin,
Mahirin canını al, gözəl-gözəl.

Mən olmasam da

Həyat daim olacaqdır,
Mən olsam da, olmasam da.
Qoca dünya qalacaqdır,
Mən olsam da, olmasam da.

Çıxacaq gün, doğacaq ay,
Yağacaq qar, daşacaq çay.
Yazdan sonra gələcək yay,
Mən olsam da, olmasam da.

Açacaqdır qönçə güllər,
Oxuyacaq xan bülbüllər,
Əsəcəkdir sərin yellər,
Mən olsam da, olmasam da.

Tarix boyu bil, ay oğul,
Olacaqdır varlı, yoxsul,
Sən, nəfsinə gəl olma qul,
Mən olsam da, olmasam da.

Mahir, səcdə qıl Allaha,
Kəsiləydi dava daha,
Son qoyula qəlbdə aha,
Mən olsam da, olmasam da.

Yandı

Zalım fələk zülm eylədi,
Bağçamdakı gülüm yandı .
Yanğı saldı ürəyimə
İçim bişdi, çölüm yandı.

Yandım!-deyib, haray saldım,
Mən alışdım , çaşıb qaldım.
Hər tərəfə hey əl çaldım,
Pörşələndi əlim yandı.

Tale yüküm çox ağırdı,
Vallah ki, belimi qırdı,
Məni yaman yerdə yordu ,
Bağırtımdan dilim yandı.

De ki, Mahir, yox bir andım,
Öz ağrımı tez də qandım,
Kərəm olub alovlandım,
Odum keçdi, külüm yandı.

Hanı bəs

Dəyişib dövrü-zaman adə, həqiqət hanı bəs?
Bu cəmiyyətdə deyin, insana qiymət hanı bəs?

Qalmayıbdır elə insan kimsədə insafdan əsər
Çünki hər şey pulladır, ay bala, hörmət hanı bəs?

Var ədalət dediniz, mən də inandım tutalım,
Adama deməzlərmi göstər, ədalət hanı bəs?

Hələ də burnumdadır ətri ötən dövranın
Hara getdi görəsən? O vaxtkı adət hanı bəs?

Gülə bənzər qızını qoyubdu hərraca biri,
Heç deyən yox, a kişi, ar, namus, qeyrət hanı bəs?

Qorxudurmuş dədələr qəhri qiyamətlə bizi
Mahir, qopmur nə üçün de, qiyamət hanı bəs?



SƏMƏD SALMANOV

1927-2001

Səməd Cəfər oğlu Salmanov 17 noyabr 1927-ci ildə Şəki rayonunun Baş Zəyzid kəndində anadan olmuş. müharibə illərində 7-ci sinifdən çıxaraq. 14 yaşından kolxozda işləmiş. müharibədən sonra Şəki Pedaqoji Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir.
1952-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuş, lakin fizika və riyaziyyata olan marağına görə fakültəsini dəyişərək 1956-cı ildə həmin institutunun fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
Əvvəl Orta Zəyzid kənd orta məktəbində. sonralar doğulduğu Baş Zəyzid kənd orta məktəbində ömrünün sonuna qədər fizika və riyaziyyat müəllimi işləmişdir.
Yerli mətbuatda şeirləri ilə çıxış etmiş. "Deyirlər, mən ömrümü vermədim bada" adlı şeirlər kitabı çap edilmişdir (ölümündən sonra).
Səməd Salmanov 30 dekabr 2001-ci ildə vəfat etmişdir.

Dünyanın özütək əzəldi Zəyzid

Oğuzdan Şəkiyə gələn yol üstə
İlahi gözəllik verib bu yurda.
Qonaqlıq istəsən, Zəyziddə istə,
Qonağa ehtiram sonsuzdu burda.

Birinci döngədə, bulaq başında,
Durub əl-üzünü yuya bilərsən.
Bu göy çəmənlikdə müdrik yaşında,
Laləyə, nərgizə uya bilərsən.

Qalxdıqca yuxarı yollar dikəlir,
Elə bil hop deyib, göyə çıxırsan.
İldırım çaxdıqca, göy çilinglənir?
Sanki sən Tanrının əlin sıxırsan.

Yolları bürüyüb yasəmən ətri,
Əzəmət bəxş edib, Tanrım bu yurda.
Allah qonağının hörməti, xətri
Hamının yanında əzizdi burda.

Dərəsi, yaylağı, bulağı boldur,
O Xan yaylağıdır, bu da Çərəngəz.
Yolların ucası "Qırmızı yol" dur,
Zövqüncə seyr elə, ürəyincə gəz.

Dünyanın özütək əzəldi Zəyzid,
Qızıldan kəmərdi dağlar belində.
O qədər gözəldi, göyçəkdi Zəyzid
Səmədin qəlbini tutub əlində.

İt də yeməz bu yeyəni!

Qızardıqca üz dərisi
Utanmır bu pul hərisi!
Buna pulla arxa olur
Çox alçağın ən irisi.

Heç kim deməz bu deyəni,
İt də yeməz bu yeyəni,
Yarım əsr vaxt çatmaz heç
Düzəltməyə bu əyəni.

Ayıb saymır, heç yalanı,
Hamı bilir "pul alan"ı.
Dövlət buna göz yumarmı
Ölçüb biçsə bu talanı?

Rüşvət artır, tüğyan edir,
Burda işin necə gedir?!
Devizindir: "gücsüzdən al,
Kim güclüdür ona yedir?"

Oğlum Tofiqə

Dünyadakı olayları
Düşün, oğlum, düşün barı .
Yarımçıqlıq yaddır bizə,
Çıxış birdi-haqqa sarı.

Nəyin varsa, şükür, bəsdir!
Naşükürlük çox əbəsdir.
Sənətinlə böyü, ucal,
Əsl dövlət eşq, həvəsdir.

Ulduz olmaq deyil asan,
Gərək daim axtarasan.
Fərhad kimi qol çırmayıb.
Qaya çapıb, dağ yarasan.

Bərkə-boşa dözə-dözə,
Oğul gərək çıxa üzə.
Əsil, nəsil əmanəti,
Yarımçıqlıq yaddır bizə.

HİKMƏT ZİYA

1929-1995

Əfəndiyev Hikmət Ziya oğlu 1929-cu il mayın 13-də anadan olmuş. Ağdam şəhərində 1 saylı orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakultəsinin jurnalistika şöbəsində təhsil almışdır (1947-1952). Əmək fəaliyyətinə "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamış, ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1952-1969), "Göyərçin" jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri (1969-1984), məsul katib vəzifəsində işləmişdir (1984).

Ədəbi yaradıcılığa 1952-ci ildən başlamış. "Qoqla" adlı ilk şeiri "Azərbaycan pioneri" qəzetində çap edilmiş, dövrü mətbuatda vaxtaşırı çıxış etmişdir.

1958-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü olan şairin ilk satirik şeirləri, həmçinin "Atamın hədiyyəsi" (1957), "Bahar gözəldir, ya qış" (1959), "Milçək ürəyi" (1960) kitabları Hikmət Əfəndiyev imzası ilə, "Şeirləri və təmsilləri" (1963), "Ulduzların söhbəti" (1964), "Qısa təmsillər" (1965), "Xatirə" (1966) və s. 20-dən çox kitabı Hikmət Ziya imzası ilə çap olunmuşdur."Sınaq", "Ekiz qardaşlar" pyesləri tamaşaya qoyulmuş, bir çox lirik şeirlərinə, "Nənəmin nağılı", "İkilərin sərgüzəştləri" və "Şolğun çiçəklər" librettolarına musiqi bəstələnmişdir.

Azərbaycan Jurnalistlər İttifaqının üzvü (1959), Qabaqcıl maarif xadimi (1958), Azərbaycan SSR Əməkdar İncəsənət xadimi (1986) adına layiq görülən şairin əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə edilərək çap olunmuş, o, özü də bir çox xalqların ədəbiyyatından dilimizə tərcümələr etmişdir.

"Mozalan" satirik kino-jurnalı bədii şurasının, Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının, "Azərbaycan pioneri" və "Literaturnıy Azerbaydjan" jurnalı redaksiya heyətinin üzvü olmuşdur.

1988-ci ildə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Hikmət Ziya 1995-ci il avqustun 2-də Bakıda vəfat etmişdir.

"Hikmət Ziya" ədəbiyyat mükafatı təsis edilmiş, adına Şəkidə küçə var.

Zürafə

Zürafə yarpaq yedi
Elə əyib budağı.
Unutdu bir dəfəlik
O, kitab oxumağı.
Kim söyləsə: - Kitabsız
Əmr etmək olmaz axı!
Dedi: - Ekranlaşdırın,
Televizorda baxım.

Gecəquşu

Qaranlıqda Yarasa,
Quştək uçan olurdu.
İşıqda büzüşərək,
Əsil Siçan olurdu.

Ulaqdan razı ayı

Ulaq dedi: – heyranam,
Ayıda olan başa...
Ayı bunu eşidib,
Söylədi: – Ulaq, yaşa!
Meşəmizdə məni də,
Demək başa düşən var.
«Zərin qədrini zərgər
Bilər»-demiş babalar.

Mehribanlaşan keçi

Keçi yolda bir axşam
Quzu ilə öpüşdü.
Quşlar gördü, budaqda
Qəşş eləyib, gülüşdü:
Gör nə mehriban olub,
Tanımazsan onu sən.
Yəqin azad edilib,
Keçi vəzifəsindən.

Fil udan cücə

İlk dəfə hindən çıxıb,
Yan-yörəsinə baxıb,
Cücə böcək udanda
Civildədi biaram:
- Mən istəsəm, lap filin
Özünü də udaram!..

Qaban və çəmənzar

Gül-çiçəkli çəmənzara
Baxıb yan ötdü Qaban.
Fısıldadı, xoruldadı,
Yaman dad etdi Qaban,
- Gözoxşayan heç nə yoxdur,
Canım, belə yer olar?
Ha baxırsan nə çamuru,
Nə də bataqlığı var!

AŞIQ İSMAYIL
(Bay İsmayıl)

1929-2015

İsmayıl Allahverdiyev 1929-cu il avqustun 8-də Şəki rayonunun
Baş Göynük kəndində anadan olmuş,
ibtidai təhsilini doğulduğu kənd məktəbində almış,
uşaqlıq illəri ağır müharibə dövrünə düşmüşdür.
Bir müddət Bakıda neft mədənlərində fəhlə işləmiş (1949-1953), sonra
doğma kəndinə qayıtmış, ailə həyatı qurmuş,
aşıqlıq sənətinin sirlərini Göynüklü Aşıq Əhməddən öyrənmiş
sonra Göyçəli Aşıq Əliyə şəyirdlik etmiş,
1960-cı ildə Aşıq Əli ilə birlikdə Orta Asiyaya getmiş,
doğma vətənə qayıtdıqdan sonra
Aşıq Əhmədiyyə ilə birlikdə 30 il el şənliklərini aparıb.
Aşığın "Baş əy ana torpağa" adlı şeirlər kitabı çap olunmuş,
xalq şairləri S.Rüstəm, S.Vurğun, Rəsul Rza və
başqaları onun saz-söz sənəti haqqında
yüksək fikirlər söyləmişlər.
Aşıq İsmayıl 2015-ci il avqustun 8-də vəfat edib.
Qəbri doğulduğu kənd qəbirstanlığındadır.

Sazım

Sən eşqimin dərmanısan,
Dünyanın loğmanı sazım.
Əhsən denən ustalara,
Necə nəcib əlləri var.
Sinənə inci düzüb,
Min dil açan telləri var.
Aləmə zövq gətirən
Bülbül kimi dilləri var.
Gəzdikcə geniş-geniş
Bərəkətli ellərin var.
Bil səninlə bir eşqim var,
Açaram meydanı sazım.

İndi bil ki, sayəndə mən
Qazax, Türkmanda olmuşam-
Alma-ata,Çimkənd, Sırdərya,
Teymurləngdə olmuşam.
Kəlbəcər, Göyçə, Baş Keçid,
Dağıstan, Xanda olmuşam.
Azərbaycan öz elimdir,
Gəl dolandır canı sazım.

Gəzdiyim ölkələrdə
Çox qanun, ədalət görmüşəm.
Ayrı-ayrı dil danışan
Cürbəcür millət görmüşəm.
Çoxunda səfa sürüb
Çoxunda zillət görmüşəm.
Sağ olsun dost-aşnanı,
İsmayıla hörmət görmüşəm.
Mən quşam, ol sən qanad
Gəl gəzək dünyanı sazım.

Olsun

Elə yerdə salam söylə,
Salamını alan olsun.
Danışanda elə danış,
Səni saya salan olsun.

Hamı kəslər bir deyil ki!
Hər gördüyün pis deyil ki,
Güləndə də elə gül ki,
Səndən başqa gülən olsun.

Baş Göynükdür sənə məskən,
Ay İsmayıl, ona əhsən!
Elə cana can qıy ki, sən
Can qədrini bilən olsun.

Qocaldı

Bir gözəlin həsrətini çəkməkdən,
Sinəmdə qaynayan söz də qocaldı.
Qəm-hicrandan, göz yaşımı tökməkdən,
"Yazıq yetim!" - deyib saz da qocaldı.

Hicran qanad çaldı, sinəmə mindi,
Dünyanın dərd-qəmi qəlbimə yendi,
Çilədim suyunu yanğısı söndü,
Qaraldı "can!" deyə, köz də qocaldı.

Alçaqdan gəzirsən, bilirsən dərin,
Çox arifsən belə ağarıb sərin,
Biçarə İsmayıl, varmı xəbərin,
Tanımır dostları, göz də qocaldı.

Bayatılar

İsmayılam, saza gəl,
Çox axtarma, aza gəl,
Nağıl, dastan sevən kəs,
Söhbətə gəl, saza gəl.

İsmayılam, ad alan,
Eşqə düşən, adalan.
Sinəmdə bir ocaq var,
Yoxmu sizdən od alan?!

İsmayılam, birana,
Dostlar məni bir ana,
Aləm yaddan çıxsa da,
Yada düşür bir ana.

İsmayılam, al çala,
Yar yanağı al çala.
Düşməni zəlil olsun,
Günü gündən alçala.

Eylər

Dost-dostu görəndə könül şad oalr
Elə bil mömünlər ziyarət eylər.
Yaxşılığın azı-çoxu olarmı?
Zərrəsi dostluğa kifayət eylər.

Bu fani dünyaya gələn adamlar,
Danışıb şirincə gülən adamlar,
Dünya gedişini bilən adamlar,
Düşəndə, insana mərhəmət eylər.

İsmayıl, uzağa getməz yalanlar,
Gənc ikən qocalar eşqə dolanlar,
Cavanlıqda dəli-dolu olanlar,
Qocalanda dönüb ibadət eylər.

İnsan

Qəbristanlıq yol üstündə
Gör, yolunu azma, insan.
Çörək basma, yaxşılığı,
Yamanlığa yozma, insan.

Pislik edib nə şişərsən?
Tor qurduqca ilişərsən.
Qazarsan, özün düşərsən
Xalqa quyu qazma, insan.

Doğru sözü tərsə yozan,
Ay İsmayıl, olmaz ozan
Yazanda da "sağ ol" qazan,
Hərcayı söz yazma, insan.

AŞIQ NƏZİR

1930-1971

Aşıq Nəzir - Səlimov Nəzir Salman oğlu 1930-cu ildə
Şəki rayonunun Baş Layısqı kəndində anadan olub.
Layısqılı Hacı Salman oğlu aşıqlıq sənətinin sirlərini
Balakənli aşıqlardan,el ədəbiyyatının sirlərini
dayısı aşıq Məhəmməddən və
sinədəftər anası Məkkə xanımdan öyrənmiş,
yaradıcı aşıq olmasa da klassik aşıq poeziyası nümunələrini,
bir çox dastanları,xüsusilə Molla Cuma irsini mükəmməl bilmişdir.
Şaqraq səsə,güclü yaddaşa və gözəl ifaçılıq məharətinə malik
olan aşıq Nəzir Balakən-Şəki bölgəsində,eyni zamanda
Dağıstanda toy məclislərində iştirak etmiş,
sənətin ecazkar gücü və sazının yanıqlı sədaları ilə
saz-söz sevərləri məftun qoymuşdur.Aşıq Ulduz və Aşıq Şoltanla
möhkəm dostluq və yaradıcılıq əlaqələri olan aşıq Nəzir
1971-ci ildə dünyasını dəyişmişdir.
Qax rayonunda yaşayan oğlu
Vəzir atasının sənətini davam etdirir.

AŞIQ ŞİRAC

1930-2007

Şirac Abuzər oğlu Həbibullayev 1930-cu il iyulun 25-də
Şəki rayonunun Baş Layısqı kəndində anadan olmuş.
7 illik təhsilini Qax rayonunun
Qorağan kənd məktəbində almış (1940-1947).
yeniyetməlik yaşından aşıq sənətinə,
saza-sözə ürəkdən bağlanmış.
1959-cu ildə Gəncə şəhərinə köçmüşdür.
Gəncədə Məzahir Daşqın, şair Kəmsavad, İsmayıl Mahir, Uğurluyev
Salman, şair Cavad, Miskin Vəli və başqalarının mühitində yetişən aşıq
Şirac həm şair, həm yaradıcı aşıq,
həm də sazbənd kimi yetişmiş və formalaşmışdır.
Aşıq Şəmşirlə də çox isti münasibəti və dostluğu olmuşdur.
Şeir yazmağa erkən yaşlarından başlamış (1946).
170-ə qədər saz havası haqqında dərin təsəvvürü olan
aşıq-sazbənd 50 ilə yaxın bir dövrdə bağladığı
sədəfli sazın sayı-hesabı yoxdur.
"Humay xan və Şərguşə xanım" dastanını yaradan ustad
aşığın ilk kitabı "Gözləyən var yollarımı"
2003-cü ildə çap olunmuşdur. Aşıq Şirac 2007-ci il may ayının 29-da
Gəncə şəhərində vəfat etmişdir.

Bilmirəm

Ürəyimdə dərdim çoxdu,
Arzuma çata bilmirəm.
Gözlərimdə yuxu yoxdur,
Gecələr yata bilmirəm.

Bir tərlanım qaçıb getdi,
Siri yada açıb getdi.
Yad ellərə uçub getdi,
Sorağın tuta bilmirəm.

Siracam, gəzib hər yanı,
Tapa bilmədim cananı.
Birdəfəlik bu hicranı,
Qəlbimdən ata bilmirəm.

Bülbül

Fəğan etmək mənasızdır,
Gedər əldən can, ay bülbül.
Sənin yarın vəfasızdır,
Az bu qədər yan, ay bülbül.

Deyib dastan bağlamaqdan,
Çaylar kimi çağlamaqdan,
Canan deyib ağlamaqdan,
Bağrım olub qan, ay bülbül.

İnan, Sirac sənin kimi,
Çox çəkibdir hicran qəmi.
Eyləyib könül həmdəmi,
Bu sinəmi şan, ay bülbül.

Ay daşa-daşa

Qeyzə gəlib dönər bəhri-ümmana,
Könlümün dəryası ay daşa-daşa .
Aşıq deyər ay daşa,
Nur çiləyər ay daşa.
Sinəm qəmlər dəryası,
Dalğa vura ay daşa.
Qədəm basıb dostum bizim xanəyə,
Təşrif buyurmadı, ayda şad aşa.

Taleyimi dedim, fələk, yaxşı yaz.
İmtahan et, hicran dərsim yaxşı yaz.
Aşıq deyər yaxşı yaz.
Gözəl bahar, yaxşı yaz.
Yaman günə qələm çək,
Yaxşı günü yaxşı yaz,
Heç olmadı mənə qismət yaxşı yaz,
Günlərim xoş keçə, ay da şad aşa.

Yüksəlsən dərdimi çəkməz nəqalar.
Can cismimi nə tərk edər, nə qalar.
Aşıq deyər nə qalar,
Yüklənibdir nəqalar.
Var, dövlət əl kiridir,
Axar gedər, nə qalar?
Yandırar Siracı oda nə qalar.
Namərd bağrı dönmüş ay daşa-daşa.

Sayasan

Sədasız sənətkar sərrastsa sərin,
Sirli sətirlərdə sini sayasan.
Sexində, sazaqda seçərsən sərin,
Səriştəsiz sərdə sərin saya san!

Səhər səs salırsan sinə-sinə sən,
Sar sayaq səhralar sinəsinə sən.
Sərkeş sərsərisən, sinə sinəsən,
Sayqısız səyyadsan, siyah sayasan.

Sirac səylə sınaq saldı sənə də,
Sadiq sini səhli sandın sən ədə.
Sazıyla sədd salan səlas sənədə,
Sənət sərdarını səxi sayasan!

Gül üzə-üzə

Gülüşünə qurban olum, gözəl qız,
Gülü də dərəndə, gül üzə-üzə.
Mən aşığam gülüzə,
Gülcamala, gülüzə.
Bahar gəldi yetişdi,
Yenə çıxdı, gül üzə.
Görün necə edib dəli-divanə,
Bülbülün canını gül üzə-üzə.

Dedilər geyinib dostun ay ağı,
Dedim, mübarəkdir dostun ayağı.
Mən aşığam a yağı,
Yanır cismim, a yağı.
Bulud pərdə çəkibdir,
Az görünür ay ağı.
Züleyxatək olma dostuna yağı,
Həsrətəm qoy baxım gülüzə, üzə.

Həsrət çəkir gülüzünə güllük də,
Sevinərik, tale qoysa güllük də.
Mən aşığam güllük də,
Gülü gördüm güllükdə.
Əgər versə xar aman,
Bülbül ötər güllükdə.
Siracam, tapmışam səni Güllükdə,
Gəl gəzək bağlarda gül üzə-üzə.



ZAMAN QARAYEV

1931-2004

Zaman Sadiq oğlu Qarayev 1931-ci ilin yanvar ayında Şəki rayonunun Kiçik Dəmə kəndində kolxozçu ailəsində anadan olmuş, orta təhsilini doğma kəndindəki məktəbdə almış. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1952). Əmək fəaliyyətinə Qasım İsmayılov rayonunun Goranboy kəndində yaşlılar orta məktəbində Azərbaycan dili-ədəbiyyatı müəllimi və direktor kimi başlamış (1952-1954), Şəki rayonunun Kiçik Dəhnə kənd 1 saylı orta məktəbində, sonra Böyük Dəhnə kənd orta məktəbində ixtisası üzrə müəllim (1954-1961). Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor (1961-1967), "Gəncliк" nəşriyyatında redaktor (1967-1971), "Kənd həyatı" jurnalında redaktor (1971), yenidən Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində "Məktublar şöbəsi"nin müdiri (1971-1980),daha sonra radionun informasiya baş redaksiyasının redaktoru vəzifəsində çalışmış (1980-1991). daha sonra "Haqq sözü" qəzeti redaksiyasında publisistika şöbəsinin müdiri işləmişdir.Zaman Qarayev 10-dan çox bədii kitabın: "Kürən" (1959), "Qonağım olun" (1961), "Göy çəmənlər" (1965), "Xarqo" (1967), "Gəlinaparan" (1969), "Ayrıldıqdan sonra" (1981), "Əlincə qalası" (1988).

"Amansız vəzir" (1988), "Xarqo" (təkrar nəşr, 1998), "Dəhnə ziyalıları" (2000) kitabları nəşr olunmuşdur. "Süleyman Rəhimovun povestləri" adlı dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsini almış (1976), M.F.Axundzadənin "Səfərdə" və "İran şahının Qafqaza səyahəti" povestlərini aşkara çıxarmışdır.
O, ŞƏKİ- i Yazıçılar İttifaqının üzvü seçilmişdir (1961). Zaman Qarayev 2004-cü il mart ayının 27-də vəfat etmiş, vəsiyyətinə əsasən doğulduğu kənd qəbirstanlığında dəfn edilmişdir.

"Xarqo" romanından
(ixtisarla)

Onun əsl adı Əhmədiyyə idi. Xarqo ləqəbini ona partizanlar vermişdilər. Əhmədiyyə müharibədən bir il əvvəl kənd təsərrüfatı texnikumunu bitirmişdi, öz kəndlərində aqronomluq edirdi. Qəşəng bir qızla nişanlanmışdı. Yayda evlənmək fikrində idi. Lakin toya bir neçə gün qalmış müharibə başladı. Əhmədiyyə könüllü olaraq ordu sıralarına getdi. Onu ilk gündən cəbhəyə göndərmədilər. O, zabitlər məktəbində oxumağa başladı, qısa müddət ərzində leytenant rütbəsi aldı və polkların birinə siyasi rəhbər təyin edildi. Elə ilk döyüşlərin birindəcə yaralanıb sıradan çıxan minomyotçunu əvəz etdi. Yer-göy lərzəyə gəlmişdi. Səs-küydən qulaq batırdı. Lakin Əhmədiyyə bu döyüşün axırını görə bilmədi, ağır yaralı halda ələ keçdi. Gözlərini açanda özünü qaranlıq və rütubətli kamerada gördü...

Elə həmin gün əsirləri vaqonlara doldurub Almaniyaya göndərdilər. Aradan bir neçə gün keçəndən sonra düşərgədəki bütün əsirləri işləmək üçün Fransaya göndərdilər...

... Əsirlər Fransada Tuluza şəhəri yaxınlığındakı dəmir yolunda işləyərək tank, təyyarə sınıqları boşaldırdılar. Xəmir kimi yoğurulmuş dəmir parçalarına baxıb deyirdilər:

– Bunları bizimkilər bu kökə salıblar.

Əhmədiyyə xeyli zəifləmişdi. Əynindəki nimdaş paltarı kir-pas içində idi. Tez-tez başı gicəllənir, gözlərinə qaranlıq çökürdü.

Əhmədiyyə olan dəstədəki əsirləri alman əsgəri Ferdinand işlədirdi.

Bu əsgərin zalımlığının həddi-hüdudu yox idi. Döyürdü, söyürdü, hətta güllələyirdi.

Bir gün ortaboylu alman zabiti əsirlərin işinə göz yetirməyə gəlmişdi. Onunla bərabər gələn Ferdinand yerdə qanlı tüpürcək görüb soruşdu:

– Bu qanı kim tüpürüb, naxoş hansınızsız?

Dillənən olmadı. Əhmədiyyənin canına qorxu düşdü. Axı niyə də qorxmasın?! Yoluxucu xəstəliyə tutulanı gedər-gəlməzə göndərirdilər. Zabit nifrətlə əsirləri süzdü.

Ferdinand zabitin yanında əsirlərə zərbi-dəstini göstərmək üçün sualını təkrar etdi. Əsirlər bir-birinin üzünə baxdı, Əhmədiyyəni nişan verən olmadı. Ferdinand əsəbi halda onlardan bir neçəsini qabağa çəkdi:

– Naxoş hansınızsız, cavab verin, yoxsa hamınızı qıracağam!

Əhmədiyyə irəli çıxdı, kövrək səslə:

– Cənab, naxoş mənəm! – dedi.

– Düş qabağıma, birbaş oraya! – deyə almacıq sümükləri çıxmış Ferdinand qarşıda görünən təpəyə işarə etdi.

Əhmədiyyə dönüb məlul-məlul yoldaşlarına baxdı. Bu, vida baxışı idi. İstər-istəməz onun gözləri doldu, dilləndi bir söz deyə bilmədi, çarəsiz halda Ferdinandın qabağında addımladı. Qıçları tutulmuşdu. Ayaqlarını güclə atırdı. Bir neçə dəqiqədən sonra onu susduran güllənin səsi dostlarının qulağına çatacaqdı. Bu zaman qarşıdakı döngədən çıxan mayor Qotfrid Əhmədiyyə ilə üz-üzə gəldi.

Mayorun kefi saz idi. Bu gün cəbhədən aldığı xəbər – alman ordusunun Qafqaza müvəffəqiyyətli yürüşü onu sevindirmişdi. Astadan mahnı oxuyurdu. O, Əhmədiyyəni görcək:

– Onu hara aparırsan? – deyə əsgərdən soruşdu.

Ferdinand özünü qurudub məlumat verdi:

– Güllələməyə, cənab mayor! Yoluxucu xəstəliyə tutulubdur. Sizin əmrinizə əsasən...

Mayor sağ əlini şən-şən yuxarı qaldırıb endirdi:

– Ordumuzun bugünkü qələbəsi naminə mən onu bağışlayıram!

Mayor nə düşündüsə, Əhmədiyyəni birbaş düşərgəyə gətirdi. Zirzəmidəki yarımqaranlıq bir otaqda ona yer verdilər...

Alman zabitlərinin otaqlarını silib-süpürən ağ saçlı madam Janna arabir fürsət düşəndə zirzəmidəki xəstə əsirə də baş çəkirdi. O, əsirin azərbaycanlı olduğunu bilib onunla türkcə danışırdı. Əhmədiyyə türk dilini necə öyrəndiyini ondan soruşduqda madam Janna on səkkiz il İstanbulda yaşadığını, əri öləndən sonra Fransaya qayıtdığını söylədi.

Madam Janna da almanlardan sinədağlı idi. Hitlerçilər onun bir bölük ailə sahibi olan saatsaz qardaşını dar ağacından asmışdılar.

Günlər keçirdi. Madam Jannanın qoltuğunda gətirdiyi yağlı çörəklər və ağ kinəyə oxşar dərmanlar Əhmədiyyənin gözlərinə nur, dizlərinə taqət verirdi. Əhmədiyyə get-gedə dirçəlir, bət-bənizi özünə qayıdırdı.

Bir gün madam Janna:

– Oğlum, fikrin nədir? – deyə xəbər aldı. – Özün üçün bir çarə düşünürsənmi? Nə vaxta kimi zalımların əlində əsir olub qalacaqsan?

O, dərin fikir və kədər içində:

– Mən neyləyə bilərəm? – dedi. – Xəstə adamam. Vətəndən uzaqda, qürbət yerdəyəm. Sizdən başqa burada mənə simsar bir kəs yoxdur. Əgər kömək edən olsa, onda mən...

Madam Janna səsini alçaldaraq pıçıltı ilə:

– Sən zindandan qaç, oğlum, – dedi, – qaç canını bu zalımlardan qurtar!

– Hara qaçım, necə qaçım, kimə pənah aparım? Kim mənə arxa durar?

– Tapılar, oğlum, dünya xali deyil.

Gözlərində sevinc yaşları parıldadı:

– Doğrudanmı, ana?

– Bəli, oğlum!..

Ertəsi gün madam Janna onun yanına gələndə qulağına dedi:

– O şabalıd ağacının dibindəki hasaracan gedə bilərsənmi?

Fikirləşmədən:

– Lap yüyürə-yüyürə gedərəm, – dedi.

– Yavaş, bir az alçaqdan danış, eşidən olar. Gözlə, axşam düşsün, əlayaq çəkiləndən sonra gecə saat birdə hasarı aş, dalısı ilə sənin işin yoxdur.

– Çox sağ olun! – Əhmədiyyənin ürəyi azad nəfəs almaq eşqi ilə çırpınırdı.

Bu qan ocağı gecələr daha çox qızır, keşikçilərin, gözətçilərin sayı ikiqat artırdı. Lakin o, təkcə gecəyə ümid bağlayırdı. Hər halda qaranlıq onu mühafizə edə bilərdi. Vaxtın çatmasını gözləyirdi. Gediş-gəliş çox olan küçələrdən tək-tək ötən avtomaşın uğultusu eşidilirdi.

Saat birə on-on beş dəqiqə qalmış nimdaş paltarlarını geyinib çölə çıxdı, divarın qaranlıq küncünə qısılıb ətrafı gözdən keçirdi. Avtomatlı keşikçi həyətdə gəzinirdi. Əhmədiyyə yerə yatdı, sürünə-sürünə hasara doğru irəlilədi. Bu vaxt həyətə iki zabit girdi. Onlar hündürdən danışırdılar. Əhmədiyyə özünü şabalıd ağacına yetirib onun dalında gizləndi. Zabitlər ona sarı gəlirdilər. Əhmədiyyə nə edəcəyini bilmədi, qorxudan çaşıb qaldı. Ancaq bu qorxu əbəs idi, onu görən olmamışdı. Zabitlər yanından ötüb

keçdilər. Bundan sonra həyətə üç-dörd əsgər girdi. Əsgərlər keşikçini salamladılar. Aradan iki-üç dəqiqə keçməmiş binadan dörd-beş silahlı əsgər çıxıb harasa tələsdi. Elə bil onların get-gəli bu gecəyə qalmışdı.

Əhmədiyyə dayanıb sakitliyi gözləyə bilməzdi. Qaranlıqda sürünə-sürünə gedib hasarı aşdı. Onu kimsə havadaca tutdu. Əhmədiyyə səksəndi, amma səsini çıxarmadı.

– Oğlum, bizik! – iki addımlıqda dayanan madam Janna tanışlıq verdi. Əhmədiyyə ürəkləndi, qəlbini bürüyən qorxu hissini sevinc əvəz etdi. Onu qaranlıq küçələrdən, bağlardan keçirib madam Jannanın evinə gətirdilər. Əhmədiyyə öz xilaskarına – madam Jannaya və sarışın oğlana razılıq etdi. Oğlanın adı Bessiq idi. Otaqda on səkkiz-on doqquz yaşlarında bir qız vardı. Bu, madam Jannanın qızı Sarra idi. Sarra qonur gözlü, sarı saçlı, üzünü tük basmış bəstəboy oğlana çox diqqət və maraqla baxıb öz-özünə deyirdi: "Anamın dediyi oğlan bu imiş! Gör necə də əldən düşüb. Görünür, başı çox bəlalar çəkib..."

Əhmədiyyə yeni bir aləmə düşmüşdü. Sanki bütün bunlar bir yuxu idi. Əsirlikdən qurtarmaq ona nəsib olarmış?!. Ancaq o hələ də narahat idi. Kim bilir, qabaqda onu nələr gözləyirdi? O, əqidə yoldaşlarını necə tapacaqdı? Bu işdə ona yerli əhalidən kömək edən olacaqdımı?

ƏKRƏM ƏHMƏDOV

1931-2002

Əhmədov Əkrəm Əbdürrəhim oğlu 1931-ci ildə
Şəki şəhərində anadan olmuş.
Şəki şəhər 10 saylı orta məktəbini (1950),
BDU-nun filologiya fakultəsini 1955-ci ildə bitirmişdir.
Şəki rayonunun Kiçik Dəhnə kənd orta məktəbində
dil-ədəbiyyat müəllimi və pioner baş dəstə rəhbəri (1955-1958),
şəhər 10 saylı orta məktəbdə pioner baş dəstə rəhbəri, müəllim,
Şəki şəhər Komsomol Komitəsinin ümumi şöbə müdiri (1958-1963), Şəki
Şəhər Partiya Komitəsində katib köməkçisi (1963-1967),
Şəki Şəhər Partiya Komotəsində
Partiya komissiyasının sədri,təbliğat-təşviqat şöbəsinin
müdiri kimi vəzifələrdə çalışmış (1967-1971).
22 il fasiləsiz Şəki şəhər 2 saylı orta məktəbin
direktoru işləmişdir.
Tələbəlik illərindən başlayaraq bədii yaradıcılıqla məşğul olmuş,
şeir və hekayələrini vaxtaşırı dövri mətbuatda dərc etdirmişdir.
Əkrəm Əhmədov 2002-ci ildə Şəki şəhərində vəfat etmişdir.

Müttəhimin ittihamı

(hekayədən bir parça)

Tətildə evə gələndə atam mənə əvvəlcə bəzi hallı-pullu adamların halını xəbər almağa vadar edirdi. Onlara demək üçün bu sözlərdə mənə tutuquşu kimi əzbərlədirdi: "Sağlıq olsun, inustitutu qutarıb mən də bir vəzifə sahibi olaram və xəcalətindən çıxaram".

Rayonumuza təyinat aldım. Məni ticarətə əmtəşunas göndərdilər. Bir-iki ay işləmişdim ki, atam məni çağırıb məsələni dağ eləməyə başladı.

– Oğul,artıq sən kiçik vəzifənin sahibi deyilsən. Bir məsələni sənə açmaq istəyirəm.Güman edirəm ki,özün bilərsən,biliyinə qalarsa,yüz il beləsinə inustitutu qutara bilməzdin.Tanış-bilişin əmanətini qaytarmaq lazımdır.

Ödəməli olduğum borcun qədərini biləndə gözlərim bərəldi.Sifətimi turşudub atama dedim:

– Ayda 85 manat məvaçib alıram, bir belə borcu necə ödəyim?

– Əlbəttə, manatla ödəmək olmaz. Gərək indi sən dürmək-dürmək qazanasan.

Başqa çarə yox idi. Çox götür qoydan sonra direktorun yanına getdim. Xahiş etdim ki, məni bir mağazaya satıcı göndərsinlər,təşəbbüs göstərmək istəyirəm. Təşəbbüsümdən müdir çox razı qaldı, xoşhal oldu, hətta bunu vətənpərvərlik adlandırdı.İri ərzaq mağazalarından birinə müdir teyin edildim.

Aradan bir-iki ay keçmişdi. Atam yenə də tez-tez borclu olduğu adamların hər gün qapımızı döyməsindən söhbət salırdı. Sonra da:

– Oğul, işlərin necədir, pul üçün gələnlərin ayağını qapımızdan nə vaxt kəsirsən? – deyə əsl mətləbə keçirdi.

– Nə deyim, ata? – Çiyinlərimi çəkdim.

– Əşi, neçə yəni? – Atam səsini qaldırdı – Fərasətin olsun. Görgötür dünyasıdır. Elə satıcı tanıyıram 8-10 baş ailəsi var,təkcə özü işləyir. Uşaqlarının evdə geyindiyini bir paraları toyda-bayramda geyə bilmir. Kef çəkirlər ki,kef olsun, hələ üstəlik ev də tikirlər. Belə deyilmi?

Atamın sualını başımı tərpətməklə təsdiq elədim.O, xoşhal oldu.

– Mən də səni ticarətə elə buna görə qoydum ki,bal tutub barmaq yalayaq.Həm diplomun xərcini çıxaraq, həm də dal günə bir şey qoyaq...

Deyəsən, atam yaxamı borclu olduğumuz adamlara tanıtmışdı.Onlar tez-tez mağazaya gəlir,kefimi soruşurdular.Doğrusu, lap cana doymuşdum. Bir dəfəlik xəcalətdən qutarmağı qərara aldım.

Satıcı yoldaşım məzuniyyətdə idi. Tək işləyirdim.Hər gün kassaya verdiyim pulu azaldırdım. "Əşi, nə qolu gələr, nə qıçı," – deyə bir-iki gün işin sonuda əllərim əsə-əsə daxıldakı pulları dəstələyib cibimə basdım.

Atamın gözləri işıldadı.Pulu mağazadan götürdüyümü demədim. Yəqin elə bildi ki,qazancımdır. Həmin gün hamı sevindi; atam rahat oldu, pul sahiblərinə toxdadı. Lakin ilan vuran yatdısa, mən də yatdım. Fikirləşdikcə ürəyim sıxılırdı. Özümü gah qazamatda, gah da burada, məhkəmədə, camaat qarşısında görürdüm, guya ittiham olunurdum. Səhərlər elə bil mağazaya yox həbsxanaya gedirdim. Düşündüyüm kimi də oldu. Əlim pis öyrənmişdi. Tez-tez gözümü yumur, kassadan pulu qapıb saymamış cibimə basır, rumka dostlarımın yanına qaçırdım. Bir gün yoxladılar, çatışmamazlıq xitdəkdən idi.

Aydındır, müttəhim! – deyə hakim Mürşüdov guruldadı:

– Özünüzü günahkar sanırsınızmı?

– Mən ki,günahlarımı təfsilatı ilə söylədim! Mürşüdovun səsi qəhərdən boğuldu.

Salondakıların qəzəb bə etiraz saçan nəzərləri müttəhimin ata və anasının dumanlı sifətinə dikilmişdi. Sanki onlar canlı deyil, adi daş parçaları idilər. Nəfəs belə çəkmir,heç kəsin üzünə baxmağa cürət etmirdilər. Necə baxa bilərdilər? Oğlu həm mühakimə olunur, həm də öz valideyinlərinə bu qədər camaatın qarşısında ittihamnamə oxuyurdu...

NİZAMİ NƏBİYEV

1932-1993

Nəbiyev Nizami Kərəm oğlu 1932-ci ildə
Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş,
doğulduğu kənd orta məktəbini bitirdikdən sonra
Azərbaycan Dövlət Universitetinin
jurnalistika fakultəsində təhsil almışdır (1950-1955).
Əmək fəaliyyətinə Ağdaşda çıxan "Pambıq uğrunda mübarizə"
qəzetində əməkdaş kimi başlamış, bir il sonra isə
"Şəki fəhləsi" qəzetində şöbə müdiri, məsul katib,
redaktor müavini və nəhayət 1979-cu ildən
ömrünün sonuna qədər qəzetin redaktoru işləmişdir.
O, hələ tələbəlik illərindən bədii ədəbiyyata böyük maraq göstərmiş,
eyni zamanda bədii yaradıcılıqla məşğul olmuş,
bir nasir kimi də tanınmışdır. İncə yumora malik olan N.Nəbiyev çoxlu
sayda hekayələr, oçerk, felyeton və publisistik məqalələr dərc
etdirmişdir. "Qəhrəman məxanizator" adlı kitabın
Ş.Əfəndiyevlə birlikdə həmmüəllifidir.
1961-ci ildən Jurnalistlər İttifaqının üzvü olan N.Nəbiyev
səmərəli fəaliyyətinə görə iki dəfə
Respublika Ali Sovetinin Fəxri Fərmanı,
1974-cü ildə isə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.
Nizami Nəbiyev 1993-cü ildə 62 yaşında
Şəki şəhərində vəfat etmişdir.

Təmənnasız yaxşılıq

– Pul verməmişik ki, heyfsələnək. Qoy çox olsun. Bu zəhrimar araq ki var, adam lap çullu dərini də udar.

– Tərs kimi mən də araq içən deyiləm.

– Əslində, mən də içmirəm, ürəyim ağrıyır, həkim deyib ki, içsən öləcəksən. Amma içəcəyəm, çünki müftə sirkə baldan şirin olur.

Körəkpaylayan əlində nimçə gəldi. Teştə yığılmış qabırğa kababını ot qotmanı kimi görürdüm. Kababın üstünə narın doğranmış göy soğan və sumax səpilmişdi. Rəhmətulla ilə döş-döşə oturub kababa girişdik. Rəhmətulla qədəhləri araqla doldurdu. Mənim sağlığıma badə qaldırdı. Mən içmədim. İnsafən,Rəhmətulla bərkimədi. Öz qədəhini bir də doldurdu. İkinci tostu söylədi:

– Dünyada yaxşılıqdan yaxşı heç nə ola bilməz. Özü də təmənnasız yaxşılıq. Atalar deyib ki, balığı at suya, balıq bilməsə də xaliq bilər. Bizə hörmət eləyən kişini tanıyırsan?

– Yox! Birinci dəfə görürəm.

– Canlara dəyən adamdır,Fəxrəddin kişi. İş yönü bilən, hova çatan tükütükdən seçməyi bacaran adamdır. Zarafat deyil, kişi dünyanın hər üzünü görüb. Müharibə illərində kolxoz sədri olub. O vaxtlar ki, özün yaxşı bilirsən ki, bir put taxıl bir cib puldan üstün idi. Nə isə kişiyə mərdi-məzarlıq eleyiblər.

– Nə üstündə!?

– Əslində böhtan atıblar.

– Əskik-kərəyi olub ?

– Yox əşi. Arvad üstə dağ boyda kişini salıblar qoduqluğa. Düz səkkiz ildən buraxıblar.

– İndi nə peşənin sahibidir?

– Peşəsi yeyib-içməkdir.Görmürsən sərinləmək üçün neçə kənd, şəhər addıyıb. Kişi "Tərəqqi" kolxozunun sahə gözətçisidir. İndi kimdir oğurluqla məşqul olub, özünü ləkələyən.

– Bəs Fəxrəddin kişiyə filan qədər əmək günü niyə yazıblar?

– Deyirlər hörmətli kişidir, hal əhlidir, qoy dolansın. Hə, sözüm orasındadır ki,Fəxrəddin kişi ayıq-sayıq adamdır.Keçən il onun karına gəldim.Sənin canın haqqı bir qəpiyində təmannam olmadı.Kişi gərək elədiyi yaxşılıqda təmanna axtarmasın.Yaxşı,dalısın danışaram. Kabab soyuyur,içək bu bakallarımızı Fəxrəddin kişinin sağlığına.

Rəhmətulla qədəhi-qədəhə vurub ayağa qalxdı.Fəxrəddin kişi əyləşən stola yaxınlaşdı,onu qucaqlayıb öpdü.Sonra geri qayıtdı. Qədəhini də doldurub gətirmişdi.Növbədən kənar onu bir də bolşaltdı və çəngəl ilə nimçəni tıkkıldatdi.Körəkpaylayan qarşımızda müntəzəm dayandı.

– Bacıoğlu, bizə iki şiş ağ ətdən kabab, bir şüşə də araq.

– Rəhmətulla, mən doymuşam, heyifdir, əti niyə korlayaq, kabab çoxdur, nə qədər istəyirsən ye.

– Yaxşı körək qalınca, yaman qarın cırılsın. Dur balaca gəzin, yediyin həzmə getsin, təzədən başla.

– Onda götür qədəhi yenə Fəxrəddin kişinin sağlığına, – deyib Rəhmətulla yenidən mil qalxdı. Üzünü Fəxrəddin kişiyə çevirib yay təki dartıldı, qəddini düzəltdi, qədəhi başına çəkdi. Sol əlinin arxası ilə ağzını tutub oturdu. Söhbətinin gerisinə keçdi:

– Hə. Bildir mənə xəbər verdilər ki, kolxoz xırmanına əl uzadıblar. Milis sahə müvəkili kimi hadısə yerinə getdim. Cinayətin izinə düşdüm. Sən demə, Fəxrəddin kişi bir at yükü çəltik aparıbmış. Çəltiyi onun evində tutdum. Kişi cinayətini kişi kimi boynuna aldı. Onun kişiliyini nəzərə alıb, məsələni yoluna qoydum.Sənin canın haqqı.Bir qəpiksiz. Başqasının əlinə keçsəydi, Fəxrəddin kişini qarğıdalı qıcası təki soyub, qarışqaya yükləyərdi.

Körəkpaylayan bir nimçə ağ ət kababı, bir şüşə də araq gətirdi.

– Sən allah, əməlli ye! – deyə Rəhmətulla qabağımdakı boşqabı kababla doldurdu.

– A kişi, vallah doymuşam.

– Ədə möhkəm ye! Bostan üstüdür.

– Mümkünsə, arağı qaytaraq geri.

– A kişi kömrün yanmır, dəmirin ərimir, səndən gedən nədir? – deyə Rəhmətulla var qüvvəsi ilə qəh-qəhə çəkdi. Onun ala gözləri ət içində itib batırdı. Handan-hana özünə toxdadı.

– Donuzdan tük çəkmək xeyirdir, – dedi. – yeməsən də sifariş ver gətirsin. Pulu Fəxrəddin kişidən çatacaq.Biz qalxanda stolumuzun üstü dolu qalsın, desinlər ki, kişilərin gözü toxdur.

Biz paviliyondan çıxanda günəş uca dağların arxasına sığınmışdı, hava soyumuşdu. Çayın şırıltısı hər tərəfdə aydınlıqla eşidilirdi. Rəhmətulla ilə ikimiz çayın sahili boyu adımlayırdıq, o, ara vermədən danışırdı. Mən isə heç nə eşitmirdim. Onunla axrıncı dəfə restoranda çörək yeməyim canlı tarix təki gözlərim önündə vərəqlənirdi.Rəhmətullanın təmənnasız yaxşılıqları barədə heç fikirləşmirdim.

ƏHMƏDİYYƏ ƏHMƏDOV

1932 – 1990

Əhmədiyyə Əhmədov – Aşıq Əhmədiyyə 1932-ci ildə
Qax rayonunun Dəymədağlı kəndində anadan olub.
Valideynləri əslən Şəki rayonunun Baş Göynük kəndindən olub,
1919-cu ildə Dəymədağlıya köçüblər.
Burada ailənin dolanışığı ağır olduğundan gənc Əhmədiyyə
1950-ci ildə yaşayış yerini dəyişərək
Baş Göynük kəndinə qayıtmış və burada məskunlaşmışdır.
Aşıq sənətinin sirlərinə dərindən bələd olan aşıq Əhmədiyyə
Göynüklü aşıq İsmayılın (Bay İsmayılın) yetişməsində
böyük rol oynamış, onunla birlikdə el şənliklərində,
toylarda saz çalıb oxumuşlar.
Aşıq Əhmədiyyə Əliabadlı aşıq Əlinin şagirdi olmuş,
saz-çalıb oxumağı da ondan öyrənmişdir.
O, saz havalarının hamısını ifa edə bilirmiş.
Gözəl avaza malik, məşhur dastanların mahir ifaçısı olan
aşıq Əhmədiyyə 1990-cı ildə vəfat etmiş, məhəllə
qəbirstanlığında dəfn olunmuşdur. Oğlu Azad atasının sənətini
davam etdirir.

BƏHMAN HÜSEYNOV

1933-2000

Əslən Qərbi Azərbaycanın Üsü kəndindəndir,
ancaq Şəki rayonunun Çaykənd kəndində anadan olub.
1938-ci ildə valideynləri ilə birlikdə yenidənQərbi Azərbaycana
gedib və orada Zəhmət kəndində məskunlaşmışlar.
Beş yaşında ikən atası vəfat etdiyindən 1938-ci ildə yenidən
Şəki rayonunun Çaykənd kəndinə qayıtmışdır.
Acılıq, yoxsulluq içində böyüyən Bəhman Qayabaşı
kənd orta məktəbini bitirib 1953-cü ildə Gəncə Pedaqoji İnstitutunun
fizika-riyaziyyat fakültəsinə daxil olub.
1957-ci ildə Qayabaşı kənd orta məktəbinə müəllim təyin edilib. Bütün
pedaqoji fəaliyyəti bu məktəblə bağlı olub.
Uzun müddət Qayabaşı kənd orta məktəbinin təlim-tərbiyə işləri üzrə
direktor müavini, sonra isə ömrünün sonuna qədər – 2000-ci ilin
mart ayının 6-na kimi həmin məktəbin direktoru olmuşdur.
Bəhman müəllim ali dərəcəli müəllim olmaqla yanaşı, üç medalla və bir
neçə fəxri-fərmanla təltif edilmişdir.
Erkən yaşlarından sözə, sənətə böyük həvəs göstərmişdir.
Müxtəlif mətbuat səhifələrində otuz üç elmi məqaləsi və çoxlu sayda
şeirləri çap edilmişdir.Folklor nümunələrinin toplayıcısı kimi respublika
radiosunun "Bulaq" verilişi ilə əməkdaşlıq etmişdir.
"Bəyaz çöllərin nəqməsi" adlı şeirlər toplusu ölümündən sonra
2003-cü ildə "Pedaqogika" nəşriyyatında çap olunmuşdur.

Mən

Sözün kürəsində mən dəyanmışam,
Məhəbbət oduyla alovlanmışam,
Yüz yol bölünmüşəm, xırdalanmışam,
Cüt oğul, altı qız atasıyam mən,
Eşqin zirvəsinə çatasıyam mən.

Köçüm torpaqdadı, torpaq oğluyam,
Yurduma bağlıyam, elə bağlıyam,
Sözdən bal çəkirəm, xoş xəyallıyam.
Günəşə yol gedən yol salasıyam,
Elə ilk yolçusu mən olasıyam.

Olmaz

Sahib oğlum məhəbbətin tacıdı,
Kimya qızım evdə böyük bacıdı,
Mehparəm incədən incə bacıdı,
Qoçaqlıqda Məxfurəmə tay olmaz.

Şəhla evimizin yar-yaraşığı.
Şahnaz gözümüzün nuru, işığı,
Aygünüm nur kündəm-bir göy qurşağı,
Dəcəllikdə Qalibimə tay olmaz.

Qızlarımı bir-bir evdən uçurdum,
Sahibimə bir gəlin də gətirdim.
Vədə çatdı, nəvə payım götürdüm,
Şirinlikdə Tomrisimə tay olmaz.

Tərlan halalımdı, halal payımdı,
Səsimdi, sözümdü, hay-harayımdı,
Varım-dövlətimdi, haqqı sayımdı,
Məni onun qədər duyan ta olmaz.

SABİR ƏFƏNDİYEV

1933

Sabir Tahir oğlu Əfəndiyev 1933-cü ildə Qax rayonunun İlisu kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini (1950), Bakı Dövlət Universitetinin jurnalistika fakultəsini (1955) bitirdikdən sonra Şəkiyə gəlmiş, əmək fəaliyyətinə burada başlamış, əvvəl "Şəki fəhləsi" qəzetində ədəbi işçi, şöbə müdiri vəzifələrində (1955-1959), Şəki şəhər radio verilişləri redaksiyasının böyük redaktoru (1959-1962), Şəki Şəhər Partiya Komitəsində təlimatçı, Azərbaycan Televiziya və Radio verilişləri Komitəsinin Şəki-Zaqatala zonası üzrə xüsusi müxbiri (1967-1971) işləmiş, 1971-ci ildən Azərbaycan MEA-nın Şəki Etnoqrafiya Mərkəzinin rəhbəridir. Filologiya elmləri doktorudur. Sabir Əfəndiyev gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuş, hər üç növdə əsərlər yazmışdır. Satirik şeir və hekayələri respublika və yerli mətbuatda dərc edilmiş, "Geriyə yol yoxdur" sənədli povestini, "Şir mağarası" povestini "Dərinamə" sənədli povestini, "Əxlaqnamə" mənzum məsəl toplusunu, "Dünya" dram əsərini, "Məhəmməd peyğəmbərin merac səfəri" və s.onlarla bədii və elmi-publisist kitablarını çap etdirmişdir. Bibliofildir, şəxsi kitabxanasında 10 min nüsxədən çox nadir kitab, əl yazmaları var. Sabir Əfəndiyevin 200-ə qədər nadir mis qablar kolleksiyası da maraq doğurur.

Mirpaşanın arvadı

Mirpaşanın çarpayısı pəncərə tərəfdə idi.O,yatdığı yerdən boylandı. Hələ dan ulduzu görünmür,xoruzlar banlamırdı.Amma Mirpaşnın yuxsu ərşə çəkilmişdi.O,çarpayıda dikəldi.Əllərini qabırğaları üstə gəzdirdi. Dərindən ah çəkib öz-özünü danladı:

– Öl, a Mirpaşa,öl yeddi sümük, bir dəri qalmısan,anan demış, ayaq üstə qırxın çıxıb. Vay,vay,vay...

Mirpaşa özü də hiss etmədən gözləri yaşardı,yatağına uzanıb, yorganı başına çəkdi. Üzünü divar tərəfə çevirib ahu-zar etməyə başladı:

– Qonum-qonşuya da baxıram,kitablar da oxuyuram,ancaq mənim başımda olan oyun bir kimsənin qabağına çıxmayıb.

Özümü elə itirmişəm ki, başqa ticarətçilər tərəziyə qapaz salanda, əksinə, mən artıq çəkirəm, xırda pullar da qaytarıram. Vay, Vay!

Mipaşa gözlərini yumub yatmaq istəsə də, bacarmadı. İlan kimi qıvrılıb açıldı, iki əlini göyə qaldırıb yanıqlı-yanıqlı gileyləndi:

– Ey ilahi, bu nə işdir? Kaş heç dünyaya gəlməyəydim! Başımda Məşədi İbad müsibəti var. Yox, yox, mənə baxanda Məşədi İbad xoşbəxt adamdır. Heç olmasa qadın mislində gələn kişi onu hədələyib çıxıb gedib. Ancaq arvad deyib aldığım Şapəri toy gecəsindən sonra kişiyə dönüb. Ha deyirəm, ay Şapəri, sən o atavın goru, çıx get, bir kəbin kağızına iki kişinin adı sığışmaz. Deyir yox, sən hələ bir fəxr et ki, arvadın erkək çıxıb. Andıra qalsın belə erkəkliyi! Məgər bu erkəklikdir ki, su içəndə də Şapəridən soruşasan? Soruşmasan bir qiyamət qoparacaq ki! Deyəcək, niyə suyu murdarladın? Krandan damcı-damcı yığmışam ki, çay qoyum. Lənətə gəlmiş, soruşsan ölərsən?!

Mirpaşa əllərini alnına qoyub yana-yana, vay-vay-vay – deyib, yenə də öz-özünə danışmağa başladı:

– Elə dünən uşağa ayaqqabı alımışdım. Götürüb atdı çölə. Dedim, ay arvad, axı importnudur, atma, zorla almışam. Üstəlik şirinlik də vermişəm. Üstümə elə qışqırdı ki, özüm də bilmədən qıçlarım əsməyə başladı. Dedi ki, məndən icazəsiz nə üçün uşağa şey alırsan? Mənəm bu evi dolandıran, yoxsa sən? Sənin gətirdiyin pul bəzək-düzək etsəm, nə ənliyə çatar, nə kirşana! Hələ öyrəli evə bir az gec gəlmişdim. Olur da. Dükanımı təftiş edirdilər. Apardım onları "Qırxbulağa", kababa qonaq etdim, ciblərinə bir az xərclik qoydum. Belə etməyəndə də olmur. Elə zurna yazırlar ki, səsi ali məhkəmədən gəlir. Başım müfəttişlərə qarışdı, evə xəbər göndərə

bilmədim. Evə gələndə başıma Şapəri bir oyun gətirdi ki, düşmənimə söyləsəm ağlayar. Mənə bir şillə çəkdi, fırfır fırlanıb yerə sərildim. Cəld ciblərimi eşdi, pullara baxdı, gördü ki, üstündən azalıb, dünənki qədər deyil, hulqumumdan yapışıb soruşdu:

– Hara edibsən?!

Hələ mənə ev işlərini öyrədib, xörək bişitdirir. Məcbur edir ki, paltarlarımı özüm ütüləyim. Deyib ki, işdir, səndən qabaq ölsəm (hardadı o xoşbəxtlik mənə!), bu qapıdan arvad xeylağı girməsin, yoxsa xortlayıb onun da canını alaram, sənin də! Vay, vay bəladır.

Amma gəl ki, özü istədiyini edir, istədiyi yerə gedir, məndən soruşmur. Deyəndə ki, a Şapəri, belə olmaz, cavab verir ki, məni xalxın arvadlarına bənzətmə, mən sən deyən arvadlardan deyiləm, kişiyəm, kişi! Papağını əyri qoyub gəz !

Mirpaşa bir də çevrilib pəncərədən bayıra baxdı. Hava yavaş-yavaş işıqlaşırdı. Mirpaşa:

– Hər qaranlığın bir işığı olur, – dedi, – amma heç ağlım kəsmir ki, Şapəri bir də dönüb arvad olsun. Vay, vay, vay! Boşamağa da qorxuram, varım-yoxum, ölülük-diriliyim də ondadır... Ey arvadı kişi çıxan kişilər! Sizin anannız ölsün, nələr çəkdiyiniz mənə gün kimi aydındır. Vay, bizim halımıza.

OVÇU ƏRƏBOV

1933-1992

Ərəbov Ovçu Nəzir oğlu 1933-cu ildə
Dağıstanda anadan olmuş.
körpə yaşlarından valideynlərilə birlikdə
Azərbaycana köçmüş.
Şəki şəhərində məskunlaşmış,orta təhsilini Şəkidə,
ali təhsilini Bakı şəhərində almışdır.
Azərbaycan Tibb Universitetinin məzunu olan
Ovçu həkim iki il Türkmənistanın Dubanski vilayətində
həkim işləmiş. Azərbaycana qayıtdıqdan sonra
Şəkidə Onkoloji Dispanserdə cərrah olaraq çalışmış,
bədii yaradıcılıqla da məşğul olmuşdur.
Ömrünün sonuna qədər
Şəki Onkoloji Dispanserinin baş həkimi olmuş
Ovçu həkim 1992-ci ilin
noyabr ayında dünyasını dəyişmişdir.

Gəzirsən

Niyə bizdən dövran kimi dönmüsən
Incimisən,sına-sına gəzirsən?
Köhnəlmişik, bazrında heç nəyik,
Ucuz düşdük,bahasına gəzirsən.

Tərk eleyib ata- baba vərdişin
Vaqonlarda düzəlirmi hər işin?
Tunellədir indi gediş-gəlişin,
Çəkilirsən qından-qına, gəzirsən.

Bir görsənib,nədəndir, beş itirsən?!
Qəmiş gəlmə, nəmərdən əl götür sən.
Xala-xətri salam verib ötürsən,
Beləsindən-beləsinə gəzirsən.

Nə vaxt bitər siçan-pişik oyunumuz?
Döndü saat kəfgirinə boynumuz.
Səni gözlər açıq-isti qoynumuz
Nahaq bizdən sinə-sinə gəzirsən.

Hamı bilən günahını,danma sən,
Dostlarını Ceyranoğlu sanma sən,
Ovçu səndən nə gözlədi,amma sən
Nə dağ çəkib sinəsinə, gəzirsən.

Sən

(Aşıq Sakitə)

Aşıq,yenə bəxt üzünə gülübdür.
Eyləyirsən Dağıstana güzar, sən.
Gün olaydı mən də gedə biləydim
Əsirgəmə ya Rəbb,bizdən nəzər sən.

Seyr edərsən dağlarını, düzünü
Nagah görsən,qaytar mənə özümü,
Bir daş gətir öpüm,sürtüm üzümü,
Bir gün ölsəm, məzarıma düzərsən.

Ta çıxanda buludlardan üstə sən,
-Hanı Ovçu?- deyib sorur,səslə sən.
Hansı dağda məni görmək istəsən,
Telli sazda pərdələri gəzərsən.

İxtiyarındır

Sən haqlı, mən haqsız lal əhdimizdə,
Durarsan, durmazsan, ixtiyarındır.
Sənin həsrətində nə çəkdiyimi,
Sorarsan, sormazsan, ixtiyarındır.

Sən nurlu dan olsan, mən qürub çağın,
Açıl gülşəni tək xəzanlı bağın.
Eşqə saray qursan-mən daş, torpağın,
Qurarsan, qurmazsan, ixtiyarındır.

Sən vüsal pərisi, mən qəmə yoldaş,
Sənin gözündə toy, mənimkində yaş,
Mənim qəlbim kövrək, sənin qəlbin daş,
Qırarsan, qırmazsan, ixtiyarındır.

Xəbərsiz

Heç bilmirəm nə vaxt yandım töküldüm,
Kül olmuşam mən külümdən xəbərsiz.
Darıxıram,yerə-göyə sığmıram,
Dəm-dəm axır yaş gözümdən xəbərsiz

Xumar olub kəmər qıvraq belində
Nə tən etsən beçə baldır dilində
Yüz ömürdür yox olmağım yolunda
Yox oluram öz özümdən xəbərsiz.

Daş qəlbimi eşq əritdi mum kimi
Nə səbr edim, məyər ömür ikimi?!
Qəmdən tutub karvanımın yükünü
Səfərdəyəm yol-izimdən xəbərsiz.

Ovçu, ürək ağrısından inlədim,
Hicran çəkdim, qəm sazını dinlədim.
Ürəyimi necə çaldın bilmədim,
Alnımdakı haqq yazımdan xəbərsiz.

Qalırmı

Dağıstanı gültək qoxub gələn dost,
Daş gül açan fəsilləri qalırmı?
De, Vətənin varmı bizə salamı?
Ləhcə-ləhcə xoş dilləri qalırmı?

Dərələri qucaq açıb qucdumu,
Pişvazına zirvədən daş uçdumu?
"Ləzgi qızı"yaşmaq tutub keçdimi?
"Coşub daşan su selləri"qalırmı?

Hələ varmı ata-baba ahəngi?
Yad sayırmı urusları, firəngi?
"Şamil"deyib saralırmı al rəngi?
Dağıstanın dağ selləri qalırmı?

Çən çəkilib yol-yamaclar güldümü?
Demədinmi gəlir Ovçu, – öldümü
Heç rastına uşaq çağım gəldimi?
İlk eşqimin o illəri qalırmı?

TACƏDDİN XASIYEV

1935-1999

Xasıyev Tacəddin Hüseyn oğlu 1935-ci il fevralın 9-da Şəki şəhərində anadan olmuş, 10 saylı şəhər orta məktəbini (1955), Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir (1961). Aspiranturanı bitirdikdən sonra müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Tbilisi, Astara və Bakı şəhərində hərbi həkim (1961-1964), Respublika klinik xəstəxanasında həkim ordinator (1964-1967), Respublika Təcili Tibbi yardım xəstəxanasının baş həkimi (1973-1974), Respublika Urologiya klinik xəstəxanasında həkim-uroloq və anesteziolog (1970-1971), Şəki Rayon Mərkəzi Xəstəxanasının baş həkimi (1974-1979) və s. vəzifələrdə çalışmışdır.

O, 1970-ci illərdən şeirə, sənətə mehr salmış, gəncliк ehtirası ilə şeirlər yazmış, onları respublika mətbuatında "T.Əlliqanlı" imzası ilə dərc etdirmişdir.

Onun şeirləri sanki narahat bir qəlbin döyüntüləridir.

Tacəddin Xasıyev 1999-cu il dekabrın 20-də vəfat etmişdir.

Gözlər

Bəzən yağılar tək qəsdə dursan,
Bəzən cəngavər tək qılınc vursan,
Bəzən maral kimi boyun bursan,
Bilmirəm nə sirr var səndə, a gözlər.

Bəzən ürəyimi ney tək çalırsan,
Atırsan, tutursan, oda salırsan,
Bəzən də ağlımı başdan alırsan,
Bilmirəm nə sirr var səndə, a gözlər.

Mən səni sevirəm, sənsiz yanıram,
Danışma, mən səni gözdən qanıram,
Durulur, dəyişir mən aldanıram,
Bilmirəm nə sirr var səndə, a gözlər.

Heç kəsin olmasın gözlər dərmanı,
Sevən ürək olsun eşqin loğmanı,
Siz isə verməyin yalan fərmanı
Bilmirəm nə sirr var səndə, a gözlər.

Gərək

Dərdimin dərmanı olaydın gərək,
Qəlbimin sultanı olaydın gərək,
Xəstə düşüb dərd əlindən yatanda,
Dərdimin loğmanı olaydın gərək.

Deyirlər

Deyirlər ki, göz nə küsər, nə barışar,
Gözün dili yoxdur, o nə danışar?
Gözdə od yoxdu ki, necə alışar?
Göz ki, maye deyil, necə qarışar?

Yalandır, göz küsür, həm də barışır,
Gözlərin dili var, o da danışır.
Gözlər alovlanıb hərdən alışır,
Göz-gözə baxdıqca gözlər qarışır.



NEMƏT ƏBDÜRRƏHİMOV

1935-2012

Əbdürrəhimov Nemət Abdulla oğlu - Nemət Şükuti 1935-ci il
martın 20-də Şəki rayonunun Orta Zəyzid kəndində
anadan olmuş. Şəki şəhər 10 saylı orta məktəbini (1952),
Bakı Dövlət Universitetinin filologiya fakultəsini bitirmişdir (1968).
"Elm və həyat" jurnalında (1966-1975),
"Azərbaycan gəncləri" qəzeti və
"Kirpi" jurnalında (1975-1985) işləmiş.
1990-cı ildən başlayaraq "Rabitə dünyası", "Xalq ordusu" və
"Haqq söz" qəzetlərində çalışmışdır.
1973-cü ildən SSRİ jirnalistlər İttifaqının üzvü olmuşdur.
Nemət Şükuti ədəbi yaradıcılığa gənc yaşlarından - 1958-ci ildən
başlayıb. Onun yaradıcılığında satirik-yumoristik
janr üstünlük təşkil edir.
"Acı konfet" adlı ilk hekayələr kitabı 1966-cı ildə işıq üzü görmüş,
"Kinodan qabaq kino" adlı hekayələr kitabı (1980),
"Qara qızıl aləminə səyahət" (1986) və
"Dəniz şahini" sənədli povesti çap olunmuşdur.
Nemət Şükuti 2012-ci il fevralın 16-da vəfat etmişdir.

Sən çaldın, qoçaq

Şəhərdə, qəzet redaksiyasında boş olan kiçik ədəbi işçi yerinə iki namizəd vardı: Əhməd, bir də Məmməd.

Əhməd cavan idi, jurnalistliyi keçən il qurtarmışdı, lakin təyin olunduğu rayona getməmişdi, şəhərdə qalmışdı, həmin qəzetdə ştatdankənar əməkdaşlıq edirdi. Məmməd isə nisbətən yaşlı idi, Əhməd qurtaran fakültənin qiyabi şöbəsində təhsil alırdı, işləməliydi. Redaktor İdris Mirzə, saç-saqqalını mətbuatda ağartmış sarışın kişi, onların hər ikisinə eyni mövzuda – ayaqqabı fabrikindən felyeton hazırlamağı tapşırmışdı və onlara bir həftə vaxt vermişdi: felyetonlardan yaxşısı çap olunagaqdı, çap olunan yazının müəllifi də elə həmin qəzetə daimi işə, felyetonçu götürüləcəkdi.

– Həftə tamam oldu. İdris Mirzə qəbul otağında oturub onu gözləyən Əhmədlə Məmmədi yanına çağırdı, o saat da maraqlandı: – Hə, neyləyə bilmisiniz?

– Atalarına od vurmuşam, – deyə Əhməd üstü zərlə işlənmiş meşin qovluğu açdı, makinada yazıb hazırladığı felyetonun əlyazmasını səliqə ilə çıxarıb redaktorun qabağına qoydu. – Buyurun!

İdris Mirzə felyetonu vərəqlədi, həcmindən razı qalırmış kimi gülümsündü:

– Hə, oxuyaram, sabah da fikrimi deyərəm, – dedi və üzünü ikinci namizədə sarı çevirib soruşdu. – Bəs sizin yazınız hanı?

Məmməd dedi:

– Mən yazmamışam.

Əhməd müsabiqədə qələbə qazanmış kimi rahat nəfəs aldı, özünü daha da şax tutdu. Redaktor ona məhəl qoymadan kreslosunu Məmmədə tərəf çevirdi:

– Niyə yazmamısınız ?

– Məmməd ciddi bir görkəm aldı:

– Düzü, qorxmuşam.

– Redaktor da ciddiləşdi:

– Nədən?

– Bilirsiniz, İdris müəllim, çox xatalı məsələdi bu.

– Nəyi xatalıdır, qoçaq?! – deyə redaktor özündən çıxdı. – Keçən həftə nəzarət komitəsi yoxlama aparıb orada: ötən kvartal buraxılan ayaqqabıların yarısından çoxu zay çıxıb, qalıb ticarət təşkilatlarının

ambarlarında. Qorxmalı nə ola bilər burada? Direktoru qatmaq olar müavinə, müavini sex rəislərinə, sex rəislərini də texniki nəzarət şöbəsinin müdirinə.

– Əvvəl mən də elə fikirləşdim, ancaq sonra gördüm yox, direktor zırpı adamlardandır, ona toxunsaq, başımız ağrıyar.

– Redaktor tez maraqlandı:

– Kimdir o, belə?

– Abbasovun adamıdır.

– İdris Mirzə dik ayağa qalxdı:

– Ola bilməz...

– Vallah! Çox mötəbər bir adamdan öyrənmişəm.

İdris Mirzə özünü sındırmadı:

– Olsun lap Abbasovun qardaşı!-dedi, sonra nə düşündüsə otaqda o baş-bu başa var-gəl elədi, nəhayət, üzünü Əhmədə tutdu, – Bala, sən dayanma, get, sabah gələrsən.

Əhməd başını əyib minnətdarlığını bildirdi və otaqdan çıxdı. İdris Mirzə gəlib Məmmədin lap qabağında dayandı:

– Yəni, doğurdan deyirsən direktor, Abbasovun adamıdır? –soruşdu.

– Bəli! Tam əmin ola bilərsiniz.

İdris Mirzə fikirli görkəm aldı və gecdən-gec dilləndi:

Direktorun adını çəkmərik, – dedi. – Taxsırı yıxarıq müavinin üstünə. O kimlərdəndir, görəsən?

– Onu da öyrənmişəm, İdris müəllim. Əsəd Əsədoviçin dopdoğmaca dayısının oğludur.

– Belə de, belə de... – İdris Mirzə yerinə keçib oturdu, bir siqaret alışdırdı, sonra yenidən maraqlandı. – Yaxşı! Qoçaq! Bəs, baş mühəndisləri kimdir?

– Musa Musayevin qardaşıdır.

– Doğrudan?

– Hə!

– Elə isə taxsırı yıxmaq lazımdır texniki nəzarət şöbəsinin üstünə.

– Şöbənin müdiri heç bilirsiniz kimdir?

Kimdir?

– Ələsgərovun bacısıdır.

– Mehdi Məlikoviçin?

– Bəli! Bəli!

– Elə isə yazaydın sex rəislərindən.

– Fabrikdə üç sex var. Birinin rəisi Məmmədovdur. O, Həsənovun yaxın dostudur.

– Prokuraturadakı Həsənovun?

– Hə! İkinci sexin rəisi Əhmədzadənin xalası oğludur.

– Nəzarət komitəsində işləyən Əhmədzadənin?

– Bəli! Üçüncü sexin rəisi də Rəşidovdur.

– Rəşidovu, zənnimcə, keçən il bir dəfə ifşa eləmişik, başımız ağrımayıb.

– Bəli, olub belə şey.

– Bəlkə, yenə ondan yazaq?

– Rəşidov keçən ilki Rəşidov deyil, Mehdi Əhmədxanlının qardaşı oğlu ilə kirvə olub. İndi ona sataşan adam gərək qurd ürəyi yemiş olsun!

– Bəlkə felyetonu yazaq həmin zay ayaqqabıları tikən ustaların özlərindən, hə?

– Yox, İdris müəllim, onda da qəzetin redaksiyası qalar gülünc vəziyyətdə.

– Niyə?

– Əvvəla, usta kiçik obyektdir, sonrasına qalanda, onlara çox zay gön verirlər.

– Hə, çıxış yolu tapmışam!-deyə redaktor sevincək ayağa qalxdı.- Gönü fabrik haradan alır?

– Dəri zavodundan.

– Dəri zavodunu ifşa eləmək lazımdır, – deyə İdris Mirzə tez maraqlandı. – Orada direktor kimdir?

– Tanımıram.

– Get tanış ol!

Məmməd otaqdan çıxmaq istəyəndə redaktor onu saxladı:

– Amma sən çaldın, qoçaq, – dedi. – Otur əvvəl bir ərizə yaz, sabah doqquzda işə çıx! Bizə sənin kimi işçilər lazımdır ki, başımız ağrımasın.

Məmməd ərizə yazmağa oturdu. İdris Mirzə Əhmədin hazırladığı yazını heç oxumadan cırıb atdı və öz-özünə donquldandı:

– Çox lazımdır mənə durduğum yerdə başımı bəlaya salmaq?!

HACI CABİR

1935

Xəlifəzadə Cabir Müzəffər oğlu 1935-ci il mayın 25-də
Şəki şəhərində anadan olub,
burada şəhər 10 saylı orta məktəbini bitib,
Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakultəsində
təhsilini davam etdirmişdir(1959-1964).
Əmək fəaliyyətinə Bakı Restoranları və Kafelər trestində
təchizatçı kimi başlamış (1961-1971).
Bakı Kulinariya Kombinatının direktoru (1964-1996).
Bakı "Həyat" firmasının direktoru (1996-1999) olmuş,
hazırda Azərbaycan Milli Kulinariyasının Araşdırılması, Təbliği və
Dünyaya İnteqrasiyası İctimai Birliyinin sədridir(2004-cü ildən).
Şair, publisist Hacı Cabirin Azərbaycan milli nemətlərinə
həsr etdiyi tədqiqat xarakterli əsərləri rus, ingilis dillərinə
tərcümə olunmuşdur. Karvan yolunun hekayələri" (2008),
"Azərbaycan kulinariyasının ləziz nemətləri (2009),
"Qəlbimin duyğuları" (2010),
"Mənim nəğməkar ürəyim" (2011),
"Hər ağacdan bir yarpaq" (2011),
"Bu zəmanənin açarı mənəviyyatdır" (2013),
"Sözün qüdrətilə şeirin sehri" (2014) və s. kitabların müəllifi.

2008-ci ildən Azərbaycan Yazıçılar Birliyinin,
2007-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvü,
"Qızıl qələm" mükafatı laureatı (2006),
Azərbaycan Ağsaqqallar şurasının üzvüdür (2009).
Xidmətlərinə görə "Xalqlar dostluğu" "Qırmızı əmək bayrağı"
ordenləri, bir sıra medal və Fəxri diplomlarla təltif edilmişdir.

"Karvan yolunun hekayələri"
(bir parça)

Gözləmə salonunda məniAvstriya-Sovet Dostluq Cəmiyyətinin iki üzvü qarşılayır. Onlarla elə vağzaldaca - kafedə səhər yeməyi yeyib, Vyanada yerləşən Avstriya-Sovet Dostluq Cəmiyyətinə yollanırıq. Bu dəfə qatarla Zalsburqa yola düşürük. Zalsburq Avstriyanın böyük şəhərlərindən biridir...

Paytaxt Vyana ən böyük mədəniyyət mərkəzidir. Burada qədim kitabxanalar, universitetlər, muzeylər fəaliyyət göstərir. Böyük bəstəkarlar Bethovenin., Motsartın, Ştrausun ev-muzeyləri də Vyanada yerləşir. Bu dünya şöhrətli musiqiçilərin əsərlərini mən də sevə-sevə dinləyirəm. Avstriya valsın, paytaxt Vyana isə silsilə valsın Vətəni hesab olunur... Ümumiyyətlə, Avstriya dünya mədəniyyətinə, dünya incəsənətinə çox sayda parlaq şəxsiyyətlər bəxş edib. Sözümün elə bu yerində elə Avstriya filosofu Ziqmund Freydin bir məşhur kəlamını xatırlayıram: "Biz adamlar, adətən, siyasətə, parlaq adamlar isə incəsənətə gəlirlər..."

Zalsburqda bizi qarşılayıb, Kotteyc otellər kompleksinə aparırlar. Bu, çox dəbdəbəli bir oteldir. Aprel ayının 25-dən mayın 2-dək buradakı restoranda Azərbaycan milli mətbəxini nümayiş etdirməliyəm. Elə Vətəndən "hazırlıqlı" gəlmişəm. Üç böyük qutuda inventar, plakatlar, kiçik suvenir xalçalar, qab-qacaq, ərzaq və ədviyyələr, menyular, hətta Azərbaycan SSR-in bayrağını da gətirmişəm.

Restoranda məni Zalsburq universitetinin tələbəsi, Cənubi Azərbaycanın Ərdəbil şəhərindən olan gənc Bəhram Qaradağı ilə tanış

edirlər. O, tərcüməçilik edəcək. Bəhram ilk baxışdan çox ağıllı cavan təsiri bağışalyır. Dili çox gözəl bildiyindən, adama elə gəlir ki, sanki cavan ömrünün neçə ilini dilmanc tərcüməçi işləyib. İş günümüz sabahdan başlayacaq. Bugünlük bütün işlərimizi qaydaya salandan sonra fürsəti əldən qaçırmaq istəmirəm. Elə pəncərəmizin önündən şəhərə açılan füsünkar mənzərə məni şəhərə gəzintiyə çəkir. Beləcə, bu gözəl şəhəri gəzməyə qərar verirəm. Bəhram xahişimi razılıqla qarşılayır və məmuniyyətlə məni şəhərə çıxır. Şəhər olduqca gözəldir, səliqə-sahman hər yerdə hiss olunur. Hava da o qədər sakitdir ki, deyirsən bəs hər şey donub, hərəkət yoxdur. Ancaq küçələrdə adam çoxdur, həyat qaynayır, hər kəs öz hayındadır. Sanki ətrafda görünən və baş verənlər heç kəsi maraqlandırmır. Yəqin ilk dəfə olduğundan mənə hər şey qəribə gəlir. Amma nədənsə yad ölkədə olsam da, özümü qərib hiss etmirəm...

Sabah ilk iş günümüzdür. Görəcəyimiz işlər çoxdur. Ona görə də otelə tez dönürük. Düşünürük ki, hələ şəhərlə tanışlığa vaxtımız çox olacaq...

Səhər obaşdan durub bazarlıq edirik. Mətbəxdə baş aşpaz Rudolfun köməyi ilə işə başlayırıq. Bəhram Qaradağı isə öz vəzifəsini ürəyimizcə yerinə yetirir...əvvəlcə soyuq qəlyanaltılar, quru körəklər, plovlar, şərbətlər hazırlayırıq. Azərbaycan çayı dəmləyirik. Xəyal isə yenə də məni uzaqlara aparır. Anamı xatırlayıram. Elə bu sənəti seçməyimin səbəbkarı anam olmayıbmı. Anam Əzizə xanım ərəb-fars dillərini mükəmməl bilər, kiril və latın əlifbası ilə gözəl yazıb-oxuyardı. Heç harada işləməyən, iş yeri ancaq abad ev-eşiyi, isti ocağı, təndirxanası olan bu ləyaqətli xanım üçün yemək hazırlamaq iş məsələsi deyil, ailəsinə, balalarına eşq məsələsi idi. Anamın min bir məhəbbətlə bişirdiyi körəklər təkcə əzizlərinin mədəsini doldurmaq üçün yox, həm də onların gözünü, könlünü açmaq, zövqünü oxşamaq, onlarda xoş ovqat, əhval-ruhiyyə yaratmaq üçün idi...

Mən anamın söylədiyi bayatıları, klassik şer nümunələrini mənəvi qida kimi ruhuma çəkər, əllərinin ətrini, dadını, tamını da yaddaşıma köçürərdim. Anamın körəklərinin ətri mənimçün dünyanın ən gözəl qoxusu idi. Onun gündə üç dəfə ocaq başında qazan asması - o vaxt hər şey primitiv qaydada idi , min bir əziyyətə qatlaşıb, böyük sevgi ilə ailəsinə yemək hazırlamağı məni biganə qoymazdı. Doğrudur, anam heç yerdə işləmirdi, amma onun evdəki, ailədəki iş saatını heç bir rəqəmlə ölçüyə gətirmək olmazdı. Görün, bu, nə boyda zəhmətdir!..

Elə məncə, Şərq qadınlarının ailəyə bağlılığı da buradan doğur. Avropa həyat tərzindən, Avropa qadınlarından fərqli olaraq Şərq qadınları əsrlər boyu ərlərinə çox sədaqətli, səmimi olublar, ailələrinin sağlamlığı,

övladlarının Hacı Cabir tərbiyəsi onlar üçün birinci olub... Anamın işgücünə, biş-düşünə, zövqlə süfrə açmasına, yığışdırmasına baxmaqdan doymazdım. Anamın körəklərini ölü yesə idi, dirilərdi!.. ailəmizdə süfrə başına yığışmaq isə təkcə yemək üçün deyildi. Biz anamızdan həm də mənəvi qida alar, sanki istirahət edərdik. Onun sonsuz, təmənnasız məhəbbətini, qayğısını elə qaytarmaq istəyirdim ki... Bu, beynimə, əqidəmə həmişəlik həkk olunmuşdu... beləcə, evdar bir Şərq qadınından öyrəndiklərim, görüb-götürdüklərim məmm sənət yolumu müəyyənləşdirdi. Anam mətbəximizin rəssamı idi, bax, elə onun çəkdiyi bənzərsiz tablolar mənim həyat yolumu göstərdi..

Anamın öz övladlarına, öz ailəsinə, öz isti ocağına, sonsuz məhəbbətinə, sevgisinə cavab idi bu sənəti – kulinariyanı seçməyim. Və hər şey geri dönsəydi, yenidən bu sənəti seçərdim. Hər dəfə ötüb-keçənləri götürqoy edəndə gəldiyim nəticə belə olur. Azərbaycan mətbəxi, Azərbaycan süfrəsi mədəniyyətimizin bu dəyərli sahəsi üçün gördüyüm işlərə görə ən əvvəl anama borcluyam. Bu, gəlişi gözəl söz deyil. Anamın sənət yolundakı xidmətini bundan sadə, bundan böyük ifadə edə bilmədim... Ruhu şad olsun!..

TEYMUR ABUZƏR

1935-1999

Teymur Abuzər oğlu Xəlilov 1935-ci ildə
Şəki şəhərində anadan olmuş.
Azərbaycan Dövlət Universitetinin
filologiya fakültəsinin jurnalistika şöbəsini
1957-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir.
1958-1962-ci illərdə "Nuxa fəhləsi" qəzetində
korrektor, şöbə müdiri və redaktor müavini işləmişdir.
1963-1973-cü illərdə Şəki Şəhər Radio Verlişləri redaksiyasının
məsul redaktoru olmuş.
1973-1975-ci illərdə Bakı Ali Partiya məktəbində təhsil almış.
1975-1996-cı illərdə "Bakinskiy-raboçiy" qəzetinin
xüsusi müxbiri olmuşdur.
1993-cü ildə Azərbaycan Yazıçılar Birliyi
Şəki bölməsinin sədri seçilmişdir.
1998-ci ildə Şəki Şəhər İcra Hakimiyyəti başçısının
humanitar məsələlər üzrə müavini təyin edilmişdir.
Teymur Abuzər (Xəlilov) 1999-cu il sentyabrın 2-də
vəfat etmişdir.

Qır-saqqız

İşdən çıxıb bir başa dənizkənarı parka getmişdim. Sakit bir guşədə skamyalardan birində tək oturmuşdum. Dənizə tamaşa etməkdən ləzzət alırdım. Əsəblərim dincəlirdi. Heyf ki, tanımadığım naməlum bir adam haradansa gəlib çıxdı və ovqatımı təlx elədi. O, yavaş-yavaş yaxınlaşıb ədəb-ərkanla salam verdi, yanımda əyləşdi. Dəsmal çıxarıb tərini sildi, bir az nəfəsini dərdi və qəfildən pıqqıldayıb için-için gülməyə başladı. Bədəni tir-tir titrəyirdi, az qalırdı ürəyi getsin.

Bu kişi nəyə gülür? – deyə fikirləşdim. Üst-başıma, oturuşuma nəzər saldım, əlimlə saçımı, köynəyimin yaxalığını yoxladım. Özümdə gülməli bir şey olmadığını yəqin edib; kişiyə çəpəki baxdım və hirsli-hirsli soruşdum:

– A yoldaş, niyə gülürsünüz?!

O, gülməyindən qalmayaraq çox tez cavab verdi:

– Dişim ağrıyır.

Tanımadığım adamın yersiz gülüşü, gözlənilməz əcayib cavabı məni tamam əsəbiləşdirdi. Onu təhqir etməkdən özümü saxlaya bilmədim:

– Əcəb səfeh adamsan! – dedim.

Kişi gülməyinə ara verib bir az cidd-iləşdi, əlini-qolunu ölçə- ölçə etirazını bildirdi:

– Dişi ağrıyan bir adamı səfeh adlandırmaq böyük ədalətsizlikdir. Axı, diş ağrısının səfehliyə, yaxud ağıllılığa heç bir dəxli yoxdur. Səfehin də dişi ağrıya bilər, ağıllının da. Hətta ağlı aşıb-daşan müdriklər də diş ağrısından bəzən əzab çəkiblər. Müasir adam belə məsələlərdən baş çıxarmağı bacarmalıdır. Görünür, sizin dünyagörüşünüz çox məhduddur, hələ lazımınca açılışmamısınız. Ancaq eyb etməz, yavaş-yavaş öyrənərsiniz.

Mən onu ikinci dəfə təhqir etməli oldum:

– Deyəsən, başdan bir az xarabsınız?!

Tanımadığım adam halını pozmadan yenə etiraz elədi:

– Bir az əvvəl bildirdim ki, dişim ağrıyır. Baş ağrısından isə heç bir şikayətim yoxdur. Görünür, sizə elə gəlir ki, dişi ağrıyan adamın hökmən başı da ağrımalıdır. Yox canım, əsla belə deyildir. Bunlar tamamilə başqa-başqa xəstəliklərdir. Mənə belə gəlir ki, tibb məsələləri haqqında lazımi təsəvvürünüz, anlayışınız yoxdur. Belə nöqsan müasir adam üçün bağışlanılmazdır. Məsləhət görərdim ki, bu çatışmamazlığı tezliklə aradan

qaldırasınız. Sizə öz kömək əlimi uzada bilərəm. Mənim bir həkim dostum var. Qalxın gedək onun yanına. Xahiş edim, bir çox xəstəliklər haqqında sizə qısa məlumat versin. Yubanmayın, durun gedək.

O, qolumdan tutub çəkməyə başladı. Mən qolumu dartdım.

– Lazım deyil, heç yerə getmirəm, – dedim.

Tanımadığım adam qolumu buraxdı. Amma çərənləməyindən qalmadı:

– Nə deyirəm, getməyirsiniz getməyin. Onda tibb məsələləri haqqında sizə özüm məlumat verəcəyəm. Həkim olmasam da bu məsələlərdən az-çox baş çıxarıram. Saatlarla danışa bilərəm.

Mən acı istehza ilə onun sözünə qüvvət verdim:

– Hiss edirəm, çənədən saz adama oxşayırsınız.

– Düz buyurursunuz, çənələrimdən narazılığım yoxdur. Tək bircə dişim ağrıyır. Onun da müalicəsi tamamilə mümkündür.Maraqlanırsınızsa, ağzımı açım, dişlərimə baxın. Mən ağzımı uzun müddət açılı saxlaya bilirəm. Siz diqqətlə istədiyiniz qədər baxın.

O, ağzını gözlərimə yaxınlaşdırıb çox geniş açdı. Mən əlimlə onun sinəsindən basıb özümdən uzaqlaşdırdım.

– Lazım deyil, ağzınızı örtün, bir az kənar oturun.

– Axı, istəyirəm ki, siz mənim dişimin ağrımasına inanasınız.

– Sizin dişiniz barədə hələ çox söhbət edəcəyik?!

– Əlbəttə yox! Yaxşı olardı ki, bir az da sizin bədəninizin orqanları haqqında fikir mübadiləsi edək. Elə başlayaq qulaqlarınızdan. Deyin görək, heç qulaqlarınız ağrıyıbmı?

Mən əsəbi halda cavab verdim:

– Xeyir!

– Əməlli-başlı eşidirsinizmi?

– Bəli!

– Ucadan səs eşitdikdə qulaqlarınız batmır ki?

– Xeyir!

– Lap yaxşı. İstəyirsinizsə, yoxlayaq. Mən ağzımı əvvəlcə sağ qulağınıza, sonra da sol qulağınıza yaxınlaşdırıb zildən qışqıracağam. Görün narahat olmursunuz ki?

O, sol qulağımın dibində qışqırmaq istəyərkən əlimlə ağzını qapayıb geri itələdim. Başımı bulayıb deyindim:

– Əcəb işə düşdüm!

Naməlum adam dedi:

– Söhbətə özünüz başladınız. Mən də sualınıza cavab verdim. Sonra söz-sözü gətirdi. Nəzərə alın ki, sizin sualınıza cavab verməsəydim, böyük nəzakətsizlik etmiş olardım. Mən nəzakət, davranış qaydaları haqqında sizə ətraflı məlumat verə bilərdim. Təəssüf ki, vaxtım yoxdur. Kinoya bilet almışam. Getməliyəm. Gərək bağışlayasınız.

– Buyurun, buyurun...

– Ancaq arzu etsəniz, bileti cırıb yenə dayanaram, bir az da söhbət edərik.

Mən yalvarmağa başladım:

– Yox, xahiş edirəm, zəhmət çəkib dayanmayın, kinodan qalmayın.

O, ədəb-ərkanla salamatlaşıb getdi. Mən rahat nəfəs aldım...

SADƏDDİN CUMAYEV

1935-2008

Sadəddin Səfər oğlu Cumayev 1935-ci il iyun ayının 1-də
Şəki rayonunun Qudula kəndində anadan olmuş.
1949-cu ildə Qudula kədd 7 illik məktəbini fərqlənmə ilə bitirmiş.
Şəki Pedaqoji Texnikumuna imtahansız qəbul edilmişdir.
Əvvəlcə Yardımlı rayonunun Vəlixanlı kənd məktəbində,
sonra Şəki rayonunun Quşçuluq sovxozunda
ibtidai sinif müəllimi işləmiş,
qiyabi yolla Azərbaycan Pedaqoji İnstitutunun
dil-ədəbiyyat fakültəsini bitirmiş,
1964-cü ildən Qudula kənd orta məktəbində
dil-ədəbiyyat müəllimi işləmişdir.
Dövrü mətbuatda şeir və təmsilləri ilə çıxış etmişdir.
Sadəddin Cumayev 2008-ci il fevral ayının 14-də
vəfat edib.

Təmsillər

I

Yaşlı Tülkü vuruldu
Özü yaşda çaqqala.
Daha salam vermədi
Eldəki ağsaqqala.

II

Tülkü, ayı, canavar
Bir bağda görüşdülər.
Üç vəzifə var idi
Onu da bölüşdülər.

III

Dovşanın ixtiyarı
Tapşırıldı tülküyə.
Gecə dovşanı yeyib
Səhər basdı hay-küyə:

-Dovşan gecəyarısı
Pəncərəni açıbdır.
Ordan həyətə düşüb,
Qaranlıqda qaçıbdır.

IV

Çaqqal saqqal düzəltdi,
Qoydu başına papaq,
Dedi:-Kişi olmuşam
Dəyişmişəm, mənə bax!

Amma hər yerdə ona
Yenə çaqqal dedilər.
Hayıf sənə o papaq,
Bir də saqqal dedilər.

Əllər qoynunda-qoynunda

Gördüm yenə səhər çağı
Əllər qoynunda-qoynunda.
Ürəyimə çəkdin dağı
Əllər qoynunda-qoynunda.

Sən niyə qəmgin dursan?
Boynunu yana bursan.
Sinəmə yara vursan
Əllər qoynunda-qoynunda

Sadəddiinin qoca çağı,
Açılmayır qaş-qabağı.
Görəndə sən ayqabağı
Əllər qoynunda-qoynunda.

Hərbə-zorba

Ay dil bilməz, gəl tərpətmə yaramı,
Birdən qanadarsan, yanar olaram.
Çatdıra bilməzsən söz sözlərimə,
Sən çaşıb qalarsan, qınar olaram.

Söz ustadı gərək aqil tərpənə,
Özünü çıxara barı məskənə.
Kimə nə qandırar bir hərzəçənə?
Qızaram, istidən yanar olaram.

Tanıyır bu halda çox adam məni,
Daşdırır sözlərim dolu sinəmi.
Qoymaram yaxına sözdə kimsəni,
Olanı-olmazı anar olaram.

Sadəddin qocalıb sözlər içində,
Bərkiyib bədəni közlər içində,
Oxuyur hər şeyi gözlər içində,
Quş kimi sinənə qonar olaram.

TOFİQ QAFFAROV

1935-1991

Tofiq Mustafa oğlu Qaffarov 1935-ci ilin oktyabr ayının 4-də Şəki şəhərində anadan olmuş, orta təhsilini 1954-cü ildə, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini isə1960-cı ildə bitirmişdir. Pedaqoji fəaliyyətə Zaqatala rayonunda başlamış, Şəkinin Qudula kəndində müəllimlik etmiş, Şəki Şəhər Partiya Komitəsində çalışmış (1969-1975), Şəki Şəhər Maarif Şöbəsinin müdiri olmuş (1975-1979), sonra isə ömrünün sonuna qədər şəhər 12 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində işləmişdir. Erkən yaşlarından ədəbi-bədii yaradıcılığa maraq göstərmiş, lirik və satirik şeirləri, nəsr əsərləri və publisist yazıları ilə oxucuların yaddaşında qalmışdır. Şeir, hekayə və məqalələri "Ədəbiyyat və İncəsənət", "Azərbaycan müəllimi", "Şəki fəhləsi", "İpəkçi", "Şəkinin səsi" və s. mərkəzi və yerli dövrü mətbuat səhifələrində dərc edilmiş. "Gözümün işığı, dilimin sözü" adlı kitabı çap olunmuşdur (2016).
Tofiq Qaffarov 1991-ci il iyul ayının 22-də Şəki şəhərində vəfat etmişdir.

Gözümün işığı, dilimin sözü

Gözümün işığı, dilimin sözü,
Canımı isidən qəlbimin közü,
Dinlə ürəyimdən keçən arzumu.
Təmiz-tər çeşmədən içən arzumu.

Mən nəhəng gövdəli bir çinar olum,
Budağın üstündə bülbülə dön sən.
Istəsən yetişmiş təzə nar olum,
Onun dörd yanında bir gülə dön sən.

Mən bir dəniz olum, sərin, dalğalı,
Suların qoynunda üz balıq kimi.
Olum ayağına döşənən xalı,
Təki inləməsin qəlbimin simi.

Mən eşq dəlisiyəm, fəqət bu dünya,
Dönüb canavara udmuş kamımı,
Baxıb kam alarkən ulduza, Aya,
Bədəsil quldurtək tökmüş qanımı.

Təki məni anla, sən anla gülüm,
Mən həyat aşiqi, həyatsa, zülüm!...

Tellərini az oynat

Tellərini az oynat,
Hər keçəndə yanımdan.
Qaşlarını asta çat,
Bezməmişəm canımdan.

Sən ki cəllad deyilsən,
Bu qəzəb nə, bu kin nə?
Əgər sevirsə biri
Təəccüblü "neçin" nə?!

Əgər qəlbin sevmirsə,
Başını çatlatma çox.
Özünü çırpıb yerə,
Canını laxtalatma çox.

Bezməmişəm canımdan,
Qəlbimi verim sənə !
Sakitcə keç yanımdan,
Düşmən tək baxma mənə.

Gəraylı

Üzlər görüb daşa döndüm,
Ömrün bu qürub çağında.
Yanıb-yanıb pörşələndim,
Haqq-ədalət sorağında.

Həyat tökdü al qanımı,
Əldən aldı imkanımı.
İtirdim say inamımı,
Dost "ucaldan" dərd dağında.

Həyat eşqi, daim yaşa,
Can verirsən quru daşa.
Ruhum , huşum gəldi guşa.
Saya varmış ayağında.

Tısbağa qeybəti

"Yer sürətlə fırlanır",
Sözlərini eşidərək tısbağa .
Dedi baxın uzağa:
-Dünyanın başına bax,
Fırlanır yavaş-yavaş.

ZƏKƏRYƏ ƏLİZADƏ

1936-2017

Əlizadə Zəkəriyyə Mabud oğlu 1936-cı il fevralın 2-də
Şəki şəhərində anadan olub, şəhər 10 saylı orta məktəbini (1953),
Azərbaycan Neft və Kimya İnstitutunun
geoloji-kəşfiyyat fakultəsini bitirib (1959).
Namizədlik dissertasiyasını 1966-cı ildə,
doktorluq dissertasiyasını isə 1989-cu ildə
Ukraynа EA-da müdafiə edib.
geologiya-mineralogiya elmləri doktoru, professordur.
1972-ci ildə Azərbaycan EA-nın qərarı ilə
Şəki Zona Elmi Bazasına rəhbər təyin edilən
(1995-ci ildən Şəki Regional Elmi Mərkəzə çevrilmişdir)
Z.Əlizadə fasiləsiz 42 il bu mərkəzə rəhbərlik etmişdir.
100-dən çox elmi məqalə və nəşrlərin, o cümlədən
"Əcdadlarımızın tibbi bilikləri deyimlərimizdə" (2002),
"Şəkidə məhəllə adları, soylar və ləqəblər",
I kitab, həm müəllif (2004), II kitab həmmüəllif(2009),
"Dahilərin ömür yolu" (2010) və s. kitabların müəllifidir.
Zəkəriyyə Əlizadə 2017-ci ildə Şəki şəhərində vəfat etmişdir.

"Şəkidə məhəllə adları, soylar və ləqəblər" kitabından

...A.Xalisəqarızadənin nəvəsi, Əlyazmalar İnstitutunun əməkdaşı olmuş Əbdülkərim İmanzadə babasının atası Nurməhəmməd Əfəndiyə danışdığı bir əhvalatı Kamandar Şərifova söyləmişdir. Həmin bu əhvalat indi Şəkidə bir qədər təhrif olunmuş şəkildə danışılır. Əslində isə belədir: "Atam Nurməhəmməd Şərq dilləri və ədəbiyyatı sahəsində təhsilini atası Abdulla Əfəndi Xalisəqarızadədən almışdır. Bir gün Nurməhəmməd babası Əbdülqəni Nuxəvi Xalisəqarızadənin yaratmış olduğu kitabxanada atası Abdulla Əfəndidən təhsil alarkən, fasilədə böyük və qədim bir əlyazmasını gözdən keçirməyə başlayır. Bu zaman Abdulla Əfəndi öz oğluna yaxınlaşaraq deyir ki, oğlum, bu əlyazma kitabı kitabxanamızda həm yeganə qədim nüsxədir, həm də xalqımızın ən qiymətli bir yazılı abidəsidir. Gələcəkdə onu sən göz bəbəyi kimi qorumalısan, çünki bu kitab bizim həm tariximiz, həm də ədəbiyyatımızdır. Onu ehtiyac olmadan vərəqləmək lazım deyildir. Sən bu kitabı ancaq mükəmməl təhsil aldıqdan sonra oxuyub düzgün dərk edə bilərsən. Digər tərəfdən, bu əlyazmasını bütün varlığınla qorumalısan. Bir dəfə bu əlyazmanı buradan aparmağa çox ciddi-cəhd göstərilmişdir. Şəkiyə gəlmiş bir əcnəbi həmin əlyazmanı özü ilə aparmağa çox çalışmışdırsa da, onun bütün səyləri baş tutmamışdır. Bu hadisə atamın söylədiyinə görə belə olmuşdur: "1859-cu ildə Şəkiyə gəlmiş fransız yazıçısı Aleksandr Düma Şəkidə qaldığı müddət ərzində atam Əbdülqəni Əfəndi ilə bir neçə dəfə görüşmüşdür. İlk görüşdən sonra bizim kitabxanaya baxmaq üçün atamdan icazə istəmiş və o da buna razılıq vermişdir. A.Düma bizim kitabxananın zənginliyindən heyrətə gəlmiş və bir gün onunla yaxından tanış olmuşdur. Atam, Əbdülqəni Əfəndi bir sıra Azərbaycan və Şərq klassikləri, onların kitabxanamızda olan əlyazmaları haqqında A.Dümaya geniş məlumat vermişdir. Görüşün sonunda o, rəngarəng naxışlarla bəzədilmiş, gözəl miniatürləri olan bir neçə nəfis əlyazmasını gətirib, stolun üstünə qoyur və bu kitabların ona satılmasını xahiş edir. Bax, bu əlyazma da həmin kitabların arasında olur. Atam onun xahişini rədd edərək bildirir ki, bu kitabxana xalqın elm ocağıdır, buradan heç bir kitab satılmır. Əgər bu kitablar sizə müəyyən bir əsər yazmaq, yaxud oxumaq üçün lazımdırsa, gəlib burada məşğul ola bilərsiniz. A.Düma bu kitabları sahibindən heç bir pula ala bilməyəcəyini görüb, Şəki tacirlərinə müraciət edir. Şəkinin

nüfuzlu tacirləri kitabların bütün məsuliyyətini öz üzərlərinə götürərək, öz dillərindən Ə.Nuxəviyə təsdiqlənmiş rəsmi sənəd verirlər ki, həmin əlyazmaları istifadə edildikdən sonra sahibinə qaytarılacaqdır. Lakin Ə.Nuxəvi həmin əlyazmanın A.Dümaya verilməsinə qəti etiraz edərək bildirmişdir ki, bu kitab yeganə olmaqla bərabər elə bir abidədir ki, onun bu kitabxanadan kənara çıxarılması qeyri-mümkündür. Aleksandr Dümanın apardığı digər əlyazmalar isə bir daha geri qayıtmamışdır. Beləliklə də həmin əlyazma kitabı atasının səyi sayəsində kitabxanada qalmışdır.

Əbdülkərim İmanzadə deyirdi ki, atam Nurməhəmmədin söylədiyinə görə, A.Dümanın apara bilmədiyi böyük əlyazmasına **"QORQUDUN KİTABI"** deyərlərmiş. Qonağın apardığı digər kitabların isə hansı əsərlər olduğunu unutmuşam. Həmin əlyazmalar məlum olmasa da, onlar Fransa əlyazma xəzinələrinin birində, yaxud yazıçının arxivində mühafizə olunur. Onun apara bilmədiyi kitab isə yəqin ki, "Kitabi-Dədə Qorqud" un əlyazması olmuşdur. Lakin təəssüflər olsun ki, bu əlyazması hələ bizə gəlib çatmamış və onun haqqında heç bir məlumat əldə edə bilməmişik".

Əbdülkərim İmanzadənin verdiyi digər məlumata görə, XX əsrin ilk onilliklərində ədəbiyyatımızın fədailərindən Salman Mümtaz, Vəli Xuluflu, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əzəl Dəmirçizadə Əbdülqəni Nuxəvinin kitabxanasından çoxlu əlyazmalar aparmışlar. 1920-ci ildən müstəqil Azərbaycan Demokratik Cümhuriyyətini devirərək, bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra xalqımızın qabaqcıl ziyalılarına, vətənpərvər övladlarına qarşı yönəldilmiş repressiyalarla yanaşı, mədəniyyətimizə qarşı da dəhşətli hücumlar olmuşdur. Ə.Nuxəvinin zəngin kitabxanası da bu hücumdan qurtara bilmir. Üzdə olan kitabların əsas hissəsi yandırılıb məhv edilmişdir. Varislərdən Yasin Səbri Abdullayevin, Molla Əsmayənin Əlyazmalar İnstitutuna verdiyi kitablar isə mal damının divarlarına hörgü edilmiş, sonradan çıxarılmışdır. Bəlkə də S.Mümtazın, V.Xuluflunun məhv edilən arxivinin çox hissəsi elə Nuxəvi kitabxanasına məxsus imiş?...

EYVAZ ABIŞOV

1936

Abışov Eyvaz Bayram oğlu 1936-cı il martın 1-də
Qazax rayonunun II Şıxlı kəndində anadan olub.
Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra (1962),
Türkmənistan Respublikası Kerki şəhəri
5 №-li Pedaqoji Texnikumda 2 il müəllim işlədikdən sonra Azərbaycana
qayıtmış, Şəki rayonunun
Kiçik Dəhnə kənd məktəbində (1964-1965),
sonra isə Şəki rayonu Turan qəsəbə orta internat məktəbində
fasiləsiz 46 il ixtisası üzrə müəllim işləmişdir.
Tələbəlik illərindən şeir yazmağa başlamış,
mərkəzi və yerli mətbuat vasitələrində şeirləri dərc olunmuşdur.
Yaradıcılığında aşıq şeirinin ruhu diqqət çəkir.
Eyvaz Qazaxlı Şəki ədəbi mühitində yetişib formalaşmış.
"Qartallar yurdu" (Bakı-Mütərcim-2015) şeirlər və
poemalar kitabının müəllifidir.

Deyil

Bir könül ki, qanadlandı,
Uçar, geri dönən deyil.
Bir ürək ki, alovlandı,
Ha yansa da, sönən deyil.

Tale daşı kütdür, sərtdir,
Dünya fağıra namərddir,
Unudulmaq yaman dərddir,
Fələk bunu görən deyil!

Olma damaq, al heyfin,
Köhləni yeyindir kefin.
Çap, dayanma, şadlan, sevin,
Fürsət ələ düşən deyil!

Zəhmətinlə çalış, dolan,
Ölçüb-biçir verən, alan.
Arxa duran dayın, xalan,
Sənə süfrə sərən deyil!

Dayan, mənzil çatıb başa,
Qismətinlə dolan, yaşa,
Aləm olsa da tamaşa,
Artıq ömür sürən deyil!

Eyvaz, qurtar söhbətini,
Ucuz tutma sənətini!
Eldə axtar hörmətini,
Qədirsizlər bilən deyil.

Bu qadın nə qədər gözəlmiş, Allah!

Gülər üzü, şirin sözü layladır,
Yanaqları qızılgüldür, lalədir,
Eb bil ki, Sənubəri-Leyladır,
Bu qadın nə qədər gözəlmiş, Allah!

Yaraşıqdır oturuşu, şux bədən,
Valeh olur onu oğrun seyr edən,
Elə bil mələkdir, enibdir göydən,
Bu qadın nə qədər gözəlmiş, Allah!

Sinəm üstə həzin ötən sazdırmı?
Könül açan bahardırmı, yazdırmı?
Bilmək olmaz, qəsdi nədir - nazdırmı?
Bu qadın nə qədər gözəlmiş, Allah!

Eyvazam, düşmüşəm, cənnətdəyəm mən,
Min şükür, yanında hörmətdəyəm mən!
Oturub önündə, söhbətdəyəm mən,
Bu qadın nə qədər gözəlmiş, Allah!

Hardadır

(Cavanşir Feyziyevə)

Uzaqdasan, məndən çox-çox uzaqda,
Həsrətin qəlbimdə, adın dodaqda,
Nədir qəsdin məni yalqız qoymaqda?
Heç demirsən, müəllimim hardadır?
Sınıq qəlbim indi yaman dardadır.

Yox özümdən başqa bir işləyənim,
Artıb-çoxalıbdır yeyən-geyənim!
Düz 13 nəfərdir, ver-ver deyənim,
Könül pərim borandadır, qardadır,
Heç demirsən, müəllimim hardadır?

Susub sazım, ötən simlər boşalıb,
Özüm kimi sazımı da dərd alıb,
Divanəyəm, səbrim yaman daralıb,
Ömür gedir, son mənzil də yoldadır,
Heç demirsən, müəllimim hardadır!

O gördüyün şax qaməti yormuşam,
Qocalığın keşiyində durmuşam,

Ehiyaca şax boynumu burmuşam.
Fikrim, zikrim yol üstündə, dardadır.
Heç demirsən müəllimim hardadır?

Eşitmişəm möhtaclara həyansan,
Kövrək ürəklisən, canı yanansan.
Böyüyü-kiçiyi duyan, sayansan,
İki gözüm nə şöhrətdə, nə vardadır.
Heç demirsən müəllimim hardadır.

Arzum budur, şan-şöhrətli xoca ol,
Vəzifədə sən hamıdan uca ol.
Ömür sürmüş, yüzü keçmiş qoca ol.
Dünya fani, insanları tordadır.
Heç demirsən, müəllimim hardadır?

YAŞAR QARAYEV

1936-2002

Qarayev Yaşar Vahid oğlu 1936-cı il martın 5-də Şəki şəhərində anadan olmuş. 1946-cı ildə ailəliklə Bakıya köçmüş. orta təhsilini Bakıda 31 saylı şəhər orta məktəbində almış. sonra ADU-nun filologiya fakultəsini bitirmişdir (1954-1958). Əmək fəaliyyətinə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş laborant kimi başlamış. sonra kiçik elmi işçi. baş elmi işçi. nəzəriyyə və ədəbi proses şöbəsinin müdiri. direktorun elmi işlər üzrə müavini. 1987-ci ildən ömrünün sonuna qədər instututun direktoru vəzifəsində çalışmışdır. Ədəbi fəaliyyətə 1955-ci ildən başlamış. müasir ədəbi prosesə. teatr tənqidinə. bədii ədəbiyyatın digər problemlərinə dair elmi-nəzəri məqalələri ilə dövri mətbuatda müntəzəm çıxış etmiş. məqalə və kitablarını "Yaşar". "Q.Yaşar". "Y.Qarayev" imzaları ilə dərc etdirmişdir. Tənqidçi. ədəbiyyatşünas alimin "Faciə və qəhrəman" (1965). "Əhnəmiz və müasirlərimiz" (1972). "Tənqid: problemlər. partretlər" (1976). "Poeziya və nəsr" (1979). "Realizm: sənət və həqiqət" (1980). "M.F.Axundov" (1982). "Poeziyanın kamilliyi" (1985). "Ədəbi üfüqlər" (1985). "Meyar-şəxsiyyətdir" (1989). "Xarı bülübülün nağılı" (1994).

"Tarix: Yaxından və uzaqdan" (1996).
"Azərbaycan ədəbiyyatı:XIX və XX yüzillər" (2002) kitabları nəşr olunmuşdur.M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun hazırladığı doqquz cildlik "Dünya ədəbiyyatı tarixi".
"Çoxmillətli Sovet ədəbiyyatı tarixi (inqilaba qədərki dövr)" və Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı yeddi cildlik "Azərbaycan ədəbiyyatı tarixi" monumental əsərlərin müəlliflərindən biri.
Şəhriyar konqresi komitəsinin sədri.
"Ədəbi proses" adlı illik elmi-tənqidi məcmuənin təsəbbüsküsü, müəlliflərindən biri və məsul redaktoru olmuş, əsərləri bir sıra ölkələrdə tərcümə edilərək çap olunmuşdur.
Azərbaycan Yazıçılar Birliyinin üzvü (1964).
filologiya elmləri doktoru (1980), professor (1985).
Azərbaycan Dövlət Mükafatı laureatı (1980).
Azərbaycan Əməkdar Elm xadimi (1982).
Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü (2002).
Azərbaycan Yazıçılar İttifaqının tənqid və ədəbiyyatşünaslıq şurasının rəhbəri olmuş (1976-1991).
Azərbaycan Yazıçılar Birliyinin tənqid və ədəbiyyatşünaslıq üzrə katibi işləmişdir.
Respublikanın elmi və ədəbi-mədəni inkişafında fəal iştirak etmiş.
dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları problemi üzrə əlaqələndirmə şurasının sədri, ədəbiyyat institutu elmi şurasının sədri.
Memarlıq və İncəsənət İnstitutunun.
Türkmənistan EA Dil və Ədəbiyyat İnstitutu elmi şurasının, Azərbaycan Dövlət nəşrkomu yanında redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin, Mədəniyyət Nazirliyi bədii şurasının.
"Yazıçı" nəşriyyatının bədii şurasının.
"Azərbaycan" və "Ulduz" jurnalı redaksiya heyətinin üzvü olmuş, eyni zamanda SSRİ Yazıçılar İttifaqı rəyasət heyəti yanında tənqid və ədəbiyyatşünaslıq şurasının.
Azərbaycan yazıçılar İttifaqı .F.Axundov adına mükafat komissiyasının üzvü olmuş. "Füzuli Vəqfi" fondunun rəyasət heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.
Yaşar Qarayev Bakı şəhərində 2002-ci il avqustun 25-də vəfat etmiş. II Fəxri Xiyabanda dəfn edilmişdir.

İki min ili tamamlayan iki yüz il
(bir parça)

...Beynəlmiləllik, ictimai bərabərlik idealları ilə səciyyələnən sistemi də əməldə, işdə əyaniləşən, axıracan gerçəkləşən konsepsiya ola bilmədi. Ümumbəşəri sosial səhmana,harmoniyaya (utopiya) çatmağın Qərb-Şərq üsulu və modeli birləşmədi və bir-birini tamamlamadı.

Sivilizasiyaların bir-biri ilə rəftarı, davranış tərzi-indi hər şey bundan asılı olacaqdır. Bəşəriyyət çatdığı mənzil başından, artıq yetişib dayandığı zirvədən ya sonrakı daha yüksək, növbəti, qlobal zirvəyə sıçramalı, ya da həmin zirvənin o tayına, enişinə açılan uçurumun dibinə yuvarlanmalıdır. Çünki həm zamanda, həm də məkanda indiki ehtiyat, limit, reqlament bitir, bu zirvədən o yana bizi tamam yeni məcra və məkan gözləyir: bir vaxtlar büdpərəstlikdən sonranı xristianlıq , ataşpərəstlikdən sonranı müsəlmanlıq gözlədiyi kimi və məhz onlar yeni zirvənin-mədəniyyətin hesabını açdıqları kimi...

Qloballaşma dünyadakı təzadlı iqtisadi məkanın həm də qatlarını, mərtəbələrini bir müstəvi üzərinə qoyur və diqqəti rifahda, hüquqda, siyasətdə "ikili standartlara" cəlb edir. Belə ki, dünya nizamı və sahmanda son yüz illərin "avropasentrist" strukturu və modeli dəyişmir ki, dəyişmir. Yaxın on illərin hətta BMT-si parçalanıb, öz nufuzunu regional şəbəkəyə Avropa İttifaqına, NATO-ya, ATƏT-ə, Minsk qrupuna və sairəyə paylayır. "Vətənim-Yer kürəsi, millətim-İnsan" (millətlərin planetar, universal parlamenti) ideyası yalnız şərti, romantik "sosial kosmos"da pərvaz tapa bilir, təkcə demokratik deklarasiyada və obrazlı-ritorik frazeologiyada gerçəkləşir.

Digər tərəfdən, hüquqda, kültürdə, demokratiyada qloballıq özünün dominant rolunu hər şeydən əvvəl qlobalizmin iqtisadiyyatda hegemoniyası şəklində büruzə verir. Sivilizasiyada total maddiləşmə (mənəviyyatsızlaşma) baş alıb gedir. Bu iki min ilin sonunun mentalı məhz iqtisadi dəyərin, istisnasız, mədəni və əxlaqi tərəqqidə bütün digər meyar və dəyərlərin üzərində mütləq prioritetini (qarant rolunu) qəbul edir. "Şəxsiyyətin kamilliyi" problemini həll etmədən "şəxsiyyətin hüquqları"problemini irəli sürür. Bu yolla sosial tərəqqi isə gerçək reallıqda heç cür əməli-məntiqi yekuna gəlib çata bilmir.

Əksinə, imanda və inamda böhran (qlobal postxristian və postmüsəlman deideologizasiya), üstəlik, təbiətlə , təbii sərvətlə, hətta biosfera ilə rəftarda da (rasional iqtisadi və bioloji məkanda da) Tanrını yox, daha çox İblisi razı salan birtərəfli, vulqar texnoloji "renessansa" gətirib-çıxardı. Məhz ekologiya əleyhinə rəqabətə "beynəlmiləllik", "kollektiv qeyri-şüurluluq" bir yerə yığılıb, "humanitar nadanlıq", mənəvi, bəşəri, əxlaqi "cəhalət" adlanan cəmdə, hasildə özünü göstərdi.

Elmi-texniki inqilablar epoxasının finalı da, sənayedə islahatlar silsiləsinin son üç böyük Avropa kəşfi də-mühərrikin, atom enerjisinin və kompüterin ixtirası-bizi insanın fiziki gücünün və yaddaşının qat-qat güclənməsi işinə səfərbər elədi. Onların heç birinin təsir gücündə və şehrində bilavasitə "ruh" və "mənəviyyat"la bağlı əxlaq, intibah sıçrayışı baş vermədi.

Hətta həmin fenomenlərin sənətdə, bədii kültürdə, fəlsəfədə analoqları-Heydiger, Freyd, Kafka....bu Ruhun yox, cismin (patologiyanın) sehri ilə məşğul oldular, təkcə Darvini irəli apardılar. İnstinktlə, sekslə, genlə, qanla deyil,....eşqlə kamillik və allahlıq ideyasının xələfi olmaq Nəsimini, Rumini, Füzulini irəli aparmaq missiyası ilə məşğul olmaq isə, görünür, yenə Şərqli sənətkarın və filosofun öhdəsinə düşəcək.

Axı, bu yönümdə ilk addımı həmişə Şərq atıb. İnsanın meymun mənşəyini Batıda, İnsanın tanrı mənşəyini Doğuda kəşf ediblər. "Mənəm meymun!" – yox, "Mənəm Allah!" imperativini ilk dəfə dünyaya irfan, təsəvvüf, Nəsimi elan edib.

İnsana verilən dəyərdə daha bir Qərb-Şərq təsnifi və buradakı fəlsəfi fərq konkret olaraq qadına və ekologiyaya münasibətdə özünü göstərir: "Biz təbiətdən mərhəmət gözləyə bilmərik. Biz təbiətə qalib gəlməliyik" (Miçurin). Eyni mətləbə şərqli (yapon) mütəfəkkirin baxışı isə tamam başqadır: "Təbiəti yalnız ona tabe olmaqla ram etmək olar"(K.Nişi).

Başqa bir filosof, artıq şərqli Nişi yox..., qərbli Nitsşe deyirdi: "Kişi döyüş üçün tərbiyə edilməlidir, qadın isə döyüşçünü döyüşə ilhamlandırmaq üçün" (Fridric Nitsşe. Zərdüşt belə deyirdi. SP, 1990, s.56). Qadına ayrılan mənəvi missiyanın Şərqdə dini and, fəlsəfə və sənət səviyyəsində ünvanı isə belə idi: "Qadın haqqı, Tanrı haqqı!" ("Dədə Qorqud"). Hətta ilahi ucalığı, Cənnəti nişan verən oriyentir də Şərqdə, İslamda qadındır: "Cənnət-anaların ayağı altındadır". Qadın kultuna və missiyasına münasibətdə bədii-fəlsəfi fərq Qərbin və Şərqin hətta Renessansları arasında tipologiya fərqi olaraq qalır: İkincidə mənəvi-ilahi ("Leyli və Məcnun"), birincidə dünyəvi-fizioloji ("Romeo və Cülyetta") prioriteti təşkil edir.

ƏNVƏR METE

1936-2014

Həmidov Ənvər Mustafa oğlu 1937-ci ildə
Şəki şəhərində anadan olmuş,
şəhər 10 saylı məktəbdə orta təhsilini başa vurduqdan sonra
Azərbaycan Dövlət Tibb İnstitutunun
müalicə-profilaktika fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir.
Əvvəllər Şəki Rayonlararası Mərkəzi Xəstəxanasında
cərrah işləmiş, 1968-ci ildən Moskvada akademik
N.Priorov adına Elmi Tədqiqat Mərkəzi Travmatologiya və
Ortopediya İnstitunda aspirant olmuş.
1971-ci ildə sümük şişlərinə dair
namizədlik dissertasiyası müdafuə etmiş, həmin ildən
Bakıya qayıdaraq alim-həkim kimi xalqın sağlamlığı keşiyində dayanmış,
cərrah həkim kimi müxtəlif vəzifələrdə çalışmışdır.
Elinə, obasına qırılmaz tellərlə bağlı olan Ənvər Həmidov
Ənvər Mete təxəllüsü ilə dovrü mətbuatda 100-lərlə
publisistik məqalələrini dərc etdirmişdir.
70-dən çox elmi məqalənin, dörd monoqrafiyanın,
həmçinin "Loğmanlar yurdu" (1991),

"O torpağın övladları" (2006) kitablarının müəllifidir.
Ənvər Mete 2014-cü il mart ayının 20-də vəfat etmiş,
Bakı şəhərində "Şüvəlan" qəbirstanlığında dəfn olunmuşdur.

"O torpağın övladları" kitabından

Sevimli ustadım Azad Ağa oğlunun müqəddəs xatirəsi qarşısında həmişə baş əyirəm, həyatımda ondan mənə iki xasiyyət miras qalıb: elm dalınca getməyim, hara getsəm bir yeni şey yaratmaq və tikmək həvəsim. Kainatda hər şeyin meyarı olduğu kimi, insanları da bir-birindən fərqləndirmək üçün müəyyən meyar olmalıdır. Belə olmasaydı, həyat mənasız olardı, heç kimə qiymət vermək olmazdı. Adam pisin əməllərinə baxıb özü üçün nəticə çıxarır, düz yola qayıdır. "Qabusnamə"də yazılır ki, vaxtilə İskəndər demişdir: "Mən xeyri yalnız dostlardan deyil, düşmənlərdən də götürürəm. Məndən çirkin bir xəta baş verdikdə, dostlar dostluq xatirinə onu ört-basdır edirlər ki, mən bilməyim, düşmənlər isə əksinə, düşmənçilik üzündən açıb deyirlər, mən də ondan xəbərdar olub, haman pis işi bir daha təkrar etmirəm. Deməli, mən bu xeyri dostdan deyil, düşməndən görmüş oluram".

Yüksək Renessans incəsənətinin əsasını qoymuş dahi italyan heykəltəraşı, memar və alimi Leonardo da Vinçi (1452-1519) demişdir: "Sizin səhvlərinizi açan rəqib, onları gizlədən dostdan xeyirxahdır". Dahi fransız filosofu Jan Jak Russonun (1712-1778) dililə desək: "Saxta adamlarla dostluq etmək düşmənlə dostluq etməkdən qorxuludur". Ancaq həmişə haqq-ədalət qalib gəlir. Hörmətli şairimiz Fikrət Qoca çox gözəl yazıb: "İnsanlar öz təbiətinə görə böyük və kiçik olurlar. Hazırkı dövrdə bütün Yer üzündə elə kiçik təbiətli insan növü yaranıb ki, o, yalnız öz ağzını və qarnını güdür. Xoşbəxtlik ondadır ki, insanların ümumi sayı müqabilində bu növ hələ çox azdır, cüzidir. İnsanın bu növü dünya yaranandan olub. Onlara nağıllarda təpəgözlər deyiblər. Suyun yolunu kəsiblər, ya da zəhərləyiblər, ağacları kökündən çıxarıb, camaatı ac qoyublar, xalq gözəl oğullarını, qızlarını təpəgözə qurban verib. Nağıllarda da təpəgözə insan təbiəti qalib gəlib, insan çoxluğu yox, insan təbiəti. Qəhrəmanlıq, mərdlik, haqq üçün ölümə getməyə hazır olmaq, xalq üçün canından keçmək - bax, bu cür insan xüsusiyyətlərini özündə toplayan Məlikməmmədlər qalib gəlir" ("Kommunist" qəzeti, 11 sentyabr 1988-ci il).

Nağıllardakı təpəgözlər xalqla açıq müharibə edirdilər. Müasir təpəgözləri hər bir sifətdə görmək olar: lazım olanda mədəni, böyüklər qarşısında məzlum, zəiflərin önündə "şiriaslan", pullular içərisində tülkü, alimlər yanında avam, mömin lər məclisində qatı dindar. Qədim təpəgözlər, heç olmasa, Allahdan qorxardılar. Müasir təpəgözlərin isə nə dinə, nə məscidə, nə əqidəyə, nə vicdana inamı var. Bunlar üçün həyatda yalnız bir müqəddəs şey var: pul! Keçmişlərdə belələrinə deyərdilər ki, Allah dinə, imana gətirsin, axirət dünyasında Allah taqsırlarından keçsin. Şəkidə belələri öləndə Allah rəhmət eləsin deməzlər. Filan təpəgöz ölüb, – deyəndə bu xəbəri eşidən deyir: "Allah yanındakılara rəhmət eləsin". Müasir təpəgözlər öz təbiətlərini birdən-birə büruzə vermirlər. Bunun üçün müəyyən şərait, təkan lazımdır. Dahi fransız dramaturqu, 34 yaşında Fransa Akademiyasının üzvü olmuş Jan Rasin (1639-1699) vaxtilə yazmışdır: "Zülmkarın sifəti əvvəl-əvvəl yumşaq olur". Vaxtilə imkanı olmayıb mənə "ata" deyən, həqiqi atası vəzifə başına çıxanda, həqiqi müasir təpəgözə çevrildiyinin və dərhal özü kimi təpəgözlərin onun ətrafında toplandığının şahidi olmuşam. Bu təpəgözlər, stol arxasmda "ata-əmi" deyən təpəgözlər, əllərinə imkan keçən kimi məsələni yuxarılarda ancaq məsələnin bu qədər vicdansızcasına qoyulduğu mənə sonra bəlli olub – qoyublar ki, mən işlədiyim yerdən getməli, yerimdə imkanlı təpəgöz oturmalıdır. Dahi fransız dramaturqu, aktyor və teatr xadimi Jan Batist Poklen-Molyer (1622-1673) vaxtilə yazmışdır: "Savadlı axmaq savadsız axmaqdan daha axmaqdır". Gözəl fikirdir. Mən isə deyərdim ki, əlinə imkan keçəndə insan taleyi ilə oynayan, başqasının balalarının çörəyini kəsən, başqasının əzabı üstündə öz rahatlığını axtaran savadlı axmaq-müasir təpəgöz savadsız axmaqdan nəinki daha axmaqdır, eyni zamanda insan cildinə girmiş quduz dişi canavardır, iblisdir...

ABDURAHMAN ABDULLAYEV

1936-1994

Abdullayev Abdurahman Yusif oğlu 1936-cı il oktyabrın 1-də Şəki rayonunun Qoxmuq kəndində anadan olub. Uşaqlıq illəri ağır müharibə illərinə düşdüyündən mükəmməl təhsil ala bilməmişdir. Gənclik illəri də ağır keçmiş, erkən yaşlarından işləməyə başlamış, müxtəlif təsərrüfat işlərində çalışmış, bir müddət bənnalıq etmişdir. Gənc yaşlarından ədəbiyyata böyük maraq göstərmiş, iti hafizəsi, güclü yaddaşı sayəsində şeyx Nizamini, Molla Cumanı əzbər bilirdi. El arasında Qulu adı ilə tanınan Abdurahman Yusif oğlu özü də şeirlər yazar, saatlarla şeir deməkdən yorulmazdı. Şeirlərində Qulu təxəllüsünü işlətmişdir. Abdurahman Abdullayev 1994-cü il oktyabrın 24-də vəfat etmişdir.

Bu da bir ömürdü

Hər ötən günümdən peşman olmadım.
Harama əl açıb mehir salmadım.
Xeyrə, şərə getdim geri qalmadım.
Bu da bir ömürdü, belə yaşadım.

Oxuyub, öyrənib çox şey anmışam,
Özüm tüstülənib, özüm yanmışam,
Yenə də özümü xoşbəxt sanmışam,
Bu da bir ömürdü, belə yaşadım.

Bildim elmin yolu ən ulu yoldur.
Cəfası hüdudsuz, səfası boldur.
Elimsiz cahildir, səfildir, quldur,
Bu da bir ömürdü, belə yaşadım.

Ürəyimi yaza-yaza kağıza
Xərclədim ömrümü oğula, qıza,
Qail oldum, tapdığım çoxa, aza.
Bu da bir ömürdü, belə yaşadım.

Məndən irəli çıxdı, getdi yaşıdım,
Baxıb nə qanadım, nə boyun qaşıdım.
Mən divar da çəkdim, daş da daşıdım,
Bu da bir ömürdü, belə yaşadım.

Dosta dost olmuşam, yamana yaman.
Çox işdə əlimdən yapışıb güman,
Başımın üstündə gəzsə də duman,
Bu da bir ömürdü, belə yaşadım.

Bu fani dünyada hər şeyi gördüm,
Azımı çoxuyla tən yarı böldüm.
Gizlində ağladım, aşkarda güldüm,
Bu da bir ömürdü, belə yaşadım.

Bu ömür ki var ha, əbədi deyil,
Yaşantılarımız ölümə sahil.
Aza da qailəm, ey dili qafil,
Bu da bir ömürdü, belə yaşadım.

Olmasın

Üzülməsin əli eldən heç kəsin,
Quru yurdda tənha qalan olmasın.
Əmanət ömrünü elə yaşasın,
Sözü yalan, özü yalan olmasın.

Bir ömürdü Allah verdi, yaşadım,
Öz çiynimdə ölümümü daşıdım,
Söz deməkdə çoxlarından baş idim,
Çiçək kimi üzü solan olmasın.

Mən də hamı gedən yolu gedirəm,
Ya əli boş, ya da dolu gedirəm.
Əlqərəz, sizləri mən tərk edirəm,
Nalə çəkib, şivən salan olmasın.

Necə ki, öz əlim, öz başım idi.
İçimi göynədən göz yaşım idi.
Göyərdər adımı baş daşım indi,
Bulud tək boşalıb dolan olmasın.

Olmadı

Nə müddətdi əli yalın, gözü yoldayam,
Ayrılığın sağında, solundayam.
Qurub yaratsam da qeylü-qaldayam.
Arzum, niyyətimsə əyan olmadı.

Yaşadım günləri fikirli, qəmli,
Əllərim qabarlı, gözlərim nəmli.
Niyyəti xeyirxah, özü kərəmli,
Bir diləyin varmı, deyən olmadı.

Çaylar kimi coşdum, bulaq tək axdım,
Gözümdən selləndim, içimə axdım.
Dünyanın gərdişinə baxdım, baxdım.
Özümdən başqa bir yiyəm olmadı.

Ceyran belindəymiş vəfa, etibar,
Ayaqlar altına atıldı ilqar.
Mən tək yanan gəzin, görün harda var?
Şeytana daş atan, söyən olmadı.

Hər bir çətinliyə dözərmiş kişi,
Dünyanın əzəldən beləymiş işi.
Mənim işim oldu qarışqa işi,
Bircə yol qayıdıb öyən olmadı.

Nə fəryad qopardım, nə də ağladım.
Gözümün yaşını özüm dağladım.
Özüm öz qəmimlə ülfət bağladım.
Yetim dərdlərimə həyan olmadı.

Oğul da sağ olsun, qız da sağ olsun,
Güvənc yeri, arxaları dağ olsun,
El içində qoy üzləri ağ olsun.
Mən Quluya quymət qoyan olmadı.

MƏMMƏD ƏLİLİ

1936

Əliyev Məmməd Qurban oğlu 1936-cı ildə
Şəki rayonunun Qayabaşı kəndində anadan olub.
Orta təhsilini doğma kəndində, ali təhsilini isə
Gəncə şəhərində Kənd Təsərrüfatı Akademiyasında alıb.
Bütün əmək fəaliyyətini ixtisası üzrə
Şəki rayonunda kənd təsərrüfatının, ələlxusus taxılçılığın
inkişaf etdirilməsinə həsr edib. 1998-ci ildən təqaüdçüdür.
Bədii yaradıcılığa 1958-ci ildən başlayıb.
Həm lirik, həm də epik növdə qələmini sınayıb.
"Mənim nəğmələrim" (2008), "Poemalar, mənzum şeirlər,
qəzəllər" (2011), "Bir kəndin tarixi" (2013) kitablarının müəllifidir.

İlahi, nə gözəl bəndələrin var

İlahi, nə gözəl bəndələrin var,
Ağlımı başımdan aparır onlar.

Hurilər, mələklər arzulayırıq,
Bəlkə də özüdür gördüyüm bunlar.

Sənin kərəminə şükr eyləyirəm,
Dəyişdir alnımda yazını nolar?

Mənə də çevirsin məhəbbətini,
Zövq alsam bu dünya məgər dağılar?

Niyə biri yatır xublar içində,
Digəri böyründə zəhərli şahmar?

Məhəbbət aşiqi qalır kənarda,
Gül-çiçək dərirlər anlamayanlar.

Xoşbəxtlik qismət et o adama ki,
Məhəbbət yolunda həyatı atar.

Əlili həsrəti gözündə gedir,
Bəs nə vaxt arzuya kamına çatar?

Gələydi

Mən öləndə, nola, üstümə könlümün yarı gələydi,
Sağ ikən gəlmədi, əzraildən sonra, barı gəiəydi.

Məzara girməmiş bayatı deyəydi, ağı deyəydi,
Aləmə yayıla tanış səsi, ahu-zarı gələydi.

Özüm hiss etməsəm, ruhum oyaq olar, fəhm ilə anlar,
Yasıma dünyanın incisi, dövləti, varı gələydi.

Əcəb rahat olar, o soyuq torpaqda uyuyar cismim,
Ortaya qoyulmuş pərişan tabuta Sarı gələydi.

Əlili bu gün də razıdır ölməyə təki o pəri,
Bir dəstə gül ilə əğyardan ayrılıb ayrı gələydi.

Nigarı görməyə

Bu gün çıxdım çəmənə bahardı, gülzarı görməyə,
Çəməndə qönçə tutan ay üzlü o yarı görməyə.

Tökülmüş gərdənə qara hörükləri gecətək,
Çiçək ətrinə ətri qarışmış dilbəri görməyə.

Hicrana vida deyib, vəslə çatmaq anı yetişib,
Yanağında laləni, sinəsində narı görməyə.

Sanki aləm sevinir, şanıma şayan olur hər kəs,
Çünki gedirəm orda gözləri xumarı görməyə.

Əlili, Qədr gecəsi Mina dağında söylə Allah,
Kömək et sevgilimi - bir də o nigarı görməyə.

Bu dünyanın gövhəri

Varmı görən candan əziz bu dünyanın gövhəri,
Öz canından keçə bilən bir canandan ötəri.

Yanır ulduz, yanır günəş, işıq saçır uzaqda,
Varmı qəlbə nur çiləyən onlardan da betəri.

Əvvəl səni məyus edə, viranəlik gətirə,
Dalınca da sevindirə, verə xoşbəxt xəbəri.

Sevməyi də azdır hələ vəfalı dost gərəkdi,
Sevgili yar dostu olsa bilməz qəmi-kədəri.

Dostluq verir məhəbbəti, məhəbbətmi dostluğu
Hər ikisi birləşəndə yəqin verir hünəri.

Ey Əlili, bu birliyin sayəsidir yəqin bil,
Qurtaracaq bəlalardan yer üzünü, bəşəri.

Canı könüldür

İnsanın varlığı çırpınan qəlbi, canı könüldür,
Sevincdən, kədərdən, damarda axan qanı könüldür.

Bizi düşündürən, həyat bəxş edən maddi olmayan,
Beyindən irəli, varlığı olan, tanı könüldür.

Bununla bağlanır həyata varlıq, eşit, ey dostum,
Sevənlərin müdrik şahı, sultanı, xanı könüldür.

Hökmü var hamıya: könül şadlandı, könül qırıldı,
Ünsiyyət yaradan, payəndaz olan anı könüldür.

Könülsüz bir həyat bir viranədir məsəli də var,
Arzunun pünhanı, dünyanın yaradanı könüldür.

Əlili, xəyalla könülün birgə məhsuludur eşq,
Bəzən tərslik edən, bəzən uyuşan fani könüldür.



MƏMMƏDEMİN ŞƏLİMOV

1937-1996

Şəlimov Məmmədəmin Şəlim oğlu 1937-ci il fevralın 11-də
Şəki şəhərində anadan olub. Erkən yaşlarında atasını itirib.
Şəhər 12 saylı orta məktəbini bitirdikdən sonra Bakı Kitabxanaçılıq
Texnikumunda orta ixtisas, daha sonra
Bakı Dövlət Universitetinin Filalogiya fakultəsində ali təhsil alıb.
Əmək fəaliyyətinə Şəkidə 12 saylı orta məktəbdə
Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlayıb,
qısa müddətdən sonra həmin məktəbdə
dərs-hissə müdiri kimi çalışıb.
Sonra Şəki Pedaqoji Texnikumunda
pedaqoji fəaliyyətini davam etdirib.
1989-cu ildən ömrünün sonuna kimi islami dəyərləri təqdir və
təbliğ etmiş, insanların mənən saflaşmasına çalışmış.
Şəkidə bir neçə məscidin-o cümlədən "Topqarağac" məscidinin
bərpasına və fəaliyyətinə rəhbərlik etmişdir.
Ərəb və fars dillərini mükəmməl bilən
Məmmədəmin Şəlimov Xətiboğlunun "Fərəhnamə" əsərinin
orijinal nüsxəsini əldə etməklə, onu tədqiq etmiş,
qədim əlyazmalarının araşdırıcısı kimi də
elmi yaradıcılıqla məşğul olmuş. N.Gəncəvinin irsi haqqında

elmi məqalələrlə respublika mətbuatında çıxış etmişdir.
O, Xətiboğlunun həyat və yaradıcılığına həsr olunmuş
elmi işini başa çatdırsa da, müəyyən səbəblərdən namizədlik
dissertasiyasını müdafiə edə bilməmişdir.
Bədii ədəbiyyata qəlbən bağlı olan M.Şəlimov özü də incə ruhlu
şeirlər yazmış, onları mətbuat vasitələrində dərc etdirmişdir.
Məmmədəmin Şəlimov 1996-cı il avqust ayının 10-da
uzun sürən ağır xəstəlikdən sonra dünyasını dəyişmişdir.

Gəzdirir

Ey gül,səni sevib eşqə düşəndən,
Eşqimi bülbül də , gül də gəzdirir.
Bu saf məhəbbəti neyləyim ki mən,
Oba da gəzdirir, el də gəzdirir.

Gəl etmə qəlbimin eşqini inkar,
Vurğunun olmuşam, ey nazlı nigar,
Əgər bu sevdama etirazın var;
Qulaq as, o xəfif yel də gəzdirir.

Olubsan Eminin sözü,söhbəti
Unutmaq olarmı heç həqiqəti?
Qaydadır həyatda saf məhəbbəti,
Ürək də gəzdirir, dil də gəzdirir.

Gül suyu

Anam bir şüşə verdi,
İçində də gül suyu.
Anam bir şüşə verdi,
Anamın könül suyu.

Apar,tök iç, ay bala,
Çayına səhər-axşam.
Özün əkdiyin gülün,
Suyunu toplamışam.

Əgər çayın tünd olsa,
Bir damla sal,ağardar.
Birdən qəlbin tutulsa,
İçən kimi sağaldar.

Dönür

Bu vətən mülkünü abad görəndə,
Ürəyim vüqarlı bir dağa dönür.
Ömür sular kimi sakit axdıqca,
Gözlərim nur saçan çıraga dönür.

Artdıqca elimin gücü, qüdrəti,
O yeddi bahara saf məhəbbəti,
Dil açır sinəmin sözü,söhbəti,
Qəlbimdə qaynayan bulağa dönür

Igidlər yurdudur yurdum, məskənim,
Min nemət yetirir çölüm,çəmənim,
Görürəm günbəgün vətənim mənim,
Ətirli çiçəkli bir bağa dönür.

Səni axtarıram

İlk bahar çağıdır, yaşıldır hər yan,
Səni axtarıram güllər içində.
Ayrılmır xəyalım gözümdən bir an,
Ürəyim də sənsiz inlər içimdə.

Oxuduqca quşlar kövrəlir könül,
Titrəyir telləri bir kaman kimi.

Təkcə inildəyən ürəyim deyil,
Titrəyir qəlbimin məhəbbət simi.

Açıldı qönçələr, güllər,çiçəklər,
Bir bahar axşamı, bu yaz axşamı.
Nə üzümə güldü o şux ləçəklər,
Nə də ki danışdı könül ilhamı.

Bülbül nəğmə dedi öz sinəsindən,
Elə bildim sənin xoş sənin gəldi.
Neçə gül iylədim o bağçada mən,
Güllərdən ətir yox,nəfəsin gəldi.

FƏRƏHİM RƏFİZADƏ

1937

Rəfizadə Fərəhim Oruc oğlu 1937-ci il martın30-da
Şəki rayonunun Kiş kəndində anadan olmuş.
1955-ci ildə doğulduğu kənd orta məktəbini,
sonra isə Dövlət Tibb İnstitutunu bitirib.
Şəki ağciyər dispanserinə həkim kimi təyinat almışdır.
30 il Ağdam şəhər ağciyər dispanserində əvvəl şöbə müdiri,
1966-cı ildən isə həmin dispanserdə baş həkim kimi,
1994-2000-ci illərdə Bakı şəhəri ETAC xəstəliklər institutunda
elmi təşkilat şöbəsinin müdiri kimi çalışmış.
2000-ci ildən isə Bakı şəhəri 1 saylı ağciyər xəstəlikləri
dispanserində işləmişdir. 2011-ci ildən təqaüdə çıxmışdır.
F. Rəfizadə şifahi xalq ədəbiyyatına böyük maraq göstərmiş,
xalq yaradıcılığı nümunələrini toplamaqla yanaşı,
özü də orijinal nağıllar yazmışdır.
"Unudulan nağıllar və maraqlı hekayələr"(2015) adlı kitabını
çap etdirmişdir.

Həsən Qaranın nağılı
(kino ssenaridən bir parça)

Hadisə təxminən IX əsrin axırı, X əsrin əvvəllərində Babilistanda vaqe olub (indiki İraqda). Bu dövrlərdə ölkənin vəziyyətini şaha dəqiq çatdıran əsasən dərvişlər olub. Hərdən padşahlar dərviş qiyafəsi geyər, bazarlarda, kulub və çayxanalarda, qumarxanalarda olar, camaatla söhbət edər, orda gedən söhbətləri dinləyər, camaatın nədən razı, nədən narazı olduqlarını öz qulaqları ilə eşidərdilər.

Bu məqsədlə şah Əbu Hikmət vəziri Allahverdi ilə zirehli formanın üstündən dərviş qiyafəsi geyinib çıxırlar şəhərə. Bazarları, dükanları, çayxana, meyxanaları gəzirlər. Axşam olub gecəyə keçəndə saraya qayıtmaq istəyirdilər ki, Əbu Hikmət şəhərdən xeyli uzaqda yanan parlaq məşəllər görür. Vəzirə deyir: gedək görək orda nə var. Vəzir deyir: şah sağ olsun, gecədir, quldur dəstəsinə düşərik, gəl çıxıb gedək.

Şah: Oranı görməsəm gözümə yuxu getməz. Getdik,– deyə əmr edir.

Xeyli gəlib görürlər ki, mənzərəli sakit bir yerdir. Kiçik, amma gözəl bir malikanədir. Malikanənin ətrafını gəzib pəncərədən baxırlar ki, kimlər yaşayır burda. Xeyli dolaşandan sonra görürlər ki, bir cavan gözəl oğlanla, bir gözəl xanımdan başqa burda heç kəs yaşamır. Hər ikisi miz arxasında sandalyada əyləşib, şərab içir, mizin üstündəki püstə, badam, kişmişdən yeyib şirin-şirin söhbət edirlər.

Vəzir: Şah sağ olsun, bunlar səhərəcən yeyib içəcək, biz də burda onlara tamaşamı edəcəyik? Gecdir, qayıdaq saraya.

Şah: Vəzir, ömrümüz elə sarayda keçir, dinmə, səbrin olsun. Qoy görək daha nələr olacaq.

Bir azdan oğlan xumarlanır. Başını xanımın dizləri üstə qoyub uyuyur. Oğlanın yatdığına tam əmin olan xanım onun başını yastığın üstünə qoyub divardan asılan qılıncı götürüb oğlanın başını kəsir. Tez durub gümüş məcməyini götürüb oğlanın başını həmən məcməyiyə qoyur. Üstünü ipək yaylıqla örtüb məcməyini başına alıb qapıdan çıxır. Üz tutur şəhər kənarındakı qəbirstanlığa. Şahla vəzir də qarabaqara onun dalınca.

Xanım qəbirstanlığın kənarındakı kiçik meydançada dayanır. "Xonçanı" başından yerə qoyur və dabanı ilə bir neçə dəfə durduğu yerə vurur. Bir neçə saniyədən sonra qapaq açılır. Xanım yenə "Xonçanı" başına alıb aşağı enir. Qapıçı qapağı bağlamaq istərkən xanım ona: bağlama, tez

gedəcəm, bu gün işim çoxdur, – deyir. Şah və vəzir də onların arxasınca pilləkəndən ehtiyatla düşürlər. Çərçivə ilə qapının arasındakı şırım (boşluq) çox olduğundan içəri aydınca görünürdü. İçəridə 20 nəfər qüvvətli, sağlam quldurlar əyləşmişdilər. Xanım gətirdiyi "xonçanı" quldurbaşının önünə qoydu.

O, quldurbaşıya: Elbəy, istədiyin qurbanı gətirmişəm, – dedi.

Elbəy "xonçadakı yaylığı götürdü. Kəsilmiş başın cavan-gözəl oğlan olduğunu görüb təəccüblə xanımın üzünə baxdı və sordu:

– Sən mənə ərinin, həm də doğmaca əmin oğlu olduğunu söyləmişdin, doğrumu?

– Bəli, – dedi xanim.

Quldurbaşı: Almaz, sən məndən ötrü bu cavana necə qıydın? Səndə bircə damcı insaf-ədalət yoxmu?

Almaz: Sənin eşqin üçün on belə cavanı gözümü qırpmadan öldürərəm, – dedi.

Elbəy: indi mən də səni on parça edəcəm, – deyib, – xanımı doğrudan on yerə bölür.

Yoldaşlarına əmrlə ...

– Hazırlaşsın 4 nəfər, oğlanın cəsədini gətirin. Onu bu qəbirstanıqda dəfn edək. 7 gün matəm tutmalıyıq, – deyir.

Şahla vəzir dərhal qəbirstanlığı tərk edib saraya qayıdırlar.

Yeddi gün keçir. Səkkizinci gün şah Əbu-Hikmət vəziri Allahverdi ilə 100 nəfər yaxşı döyüşçünü qəbirstanlığa göndərir ki, quldurları tutub gətirsinlər. Və tapşırır ki, şahın adından zəmanət verin ki, onlara heç bir cəza verilməyəcək. Bir nəfərin belə burnu qanamasın.

Bəli quldurları gətirib sağ-salamat Əbu-Hikmətə təhvil verirlər...

ƏNVƏR MİRZƏOĞLU

1937

Ənvər Mirzə oğlu Mustafayev 1937-ci ildə
Şəki rayonunun Daşbulaq kəndində anadan olmuş, orta təhsilini
doğulduğu kənd yeddi illik məktəbində (1948-1954), orta ixtisas
təhsillini Şəki Kənd Təsərrüfatı Texnikumunda (1954-1958),
ali ixtisas təhsilini Azərbaycan Dövlət Universitetinin
filologiya fakültəsində (1961-1967) almışdır.
Şəkinin Qoxmuq, Göybulaq kəndlərində müəllim işləmiş, daha
sonra müxtəlif vəzifələrdə çalışmış, 1992-ci ildən təqaüddədir.
Şeir yazmağa gənc yaşlarından başlamış, şeirləri
"Ədəbiyyat və incəsənət", "Kirpi", "Göyərçin", "Şəki fəhləsi",
"İpəkçi", "Şəkinin səsi" və s. mərkəzi və yerli qəzet və jurnallarda
dərc edilmişdir."Mirzəoğlu" təxəllüsü ilə
lirik və satirik şeirlər yazmışdır.

Görürəm

Astarı üzdən olub, üz olub astar görürəm,
Dayısı alim olan, avtomatik alim olur.
O səbəbdəndir ki, çox işləri kustar görürəm.
Biz dünən inqilab etdik ki, dönüb"qəmnist" olaq,
Dəyişib əynimizdə pencəklə şalvar görürəm.
Milis etdik polisi el malına keşik çəkə,
Onu da dəllal ilə bazarda həmkar görürəm.
Rüşvəti həm alanın, həm verənin cəzası var,
Bu sözün mənasında ayrı mənalar görürəm.
Maaşı 100-200-dür bu möhürbazların,
Evinə, qəsrinə bax, qızıldan tağlar görürəm.
Maaşı bir o qədərdən çox olan müəllimin,
Evində konfet üçün tiflini ağlar görürəm.
Buxağından yağ damır, hələ donlu baqqalların
İşləməkdən qaxac olmuş ölü sağlar görürəm.
Bu dəyirman ki, bu cür lığ-lığ edir,
Xamır tutub, olacaqdırmı çörək dəndə nəmiş var, görürəm.
Boşla şair, bu sözü, qar-qur edib danışma çox,
Belə getsə sənə də bir donbalax var, görürəm.

Rübailər

Ətrindən bihuşam, deyə bilmirəm,
Reyhan saçlarını hörə bilmirəm.
Bir cüt gözün dənizinə düşmüşəm,
Baxıram sahili görə bilmirəm.

***

Ən şirin musiqin səsindir, gülüm,
Nəfəsin ətirli nəsimdir, gülüm,
Səninlə bir hava okeanındayıq,
Bu qənimət mənim bəsimdir, gülüm.

***

Könül gülüşündən gülüzar olub,
Açıb qönçələri gül, bahar olub.

İsminin hərfləri məhəbbətimin,
Yanır göylərində ulduzlar olub.

***

Malına, mülkünə güvənmə insan,
Bircə fərman ilə o bata bilər.
Yaxşı əməlinlə bir ad qazan ki,
Nə köhnələ bilər, nə itə bilər.

***

Söz ürək odunda dağ olsun gərək,
Söz deyən sözündə sağ olsun gərək,
Dağdan danışmaqçün , dağdan yazmaqçün,
Adamın özü də dağ olsun gərək.

Şəkim

Qafqaz dağı vüqarının heykəli,
Ucaltmışdır təbiətin öz əli.
Dağ ürəkli, özü dağlar gözəli,
Atəşim, alovum, ocağım, Şəkim!
Vətənim,ey əziz torpağım, Şəkim!

Dünya görmüş bir anasan, qəlbi şən,
Maral kimi qızlarınla öyün sən.
Zər don geyib,əməlindən bu Vətən,
Gözəllim, göyçəklim,ipəklim,Şəkim!
Qışlaq adlı yaşıl ətəklim, Şəkim!

Bir süfrəsən, hər neməti ətirli,
Gələn əziz qonaqlara xətirli.
Dağlar sərinkeşli,günəş çətirli
Mənim ulduz təkim, mənim ay təkim
Şirinim, şərbətim,şəkərim Şəkim!

Müdrik kamallımsan,cavan həvəslim,
Molla Cuma,Nakam,Rəşid bəy-nəslim.
Səbuhi nəğməli, Bəxtiyar səslim,
Ey odum,alovum,ocağım, Şəkim!
Vətənim,mehriban torpağım,Şəkim!

Qoyma gəldi

(Sabiranə)

Yuxarı yazandı, qoyma gəldi!
Yolunu azandı, qoyma gəldi!

Vay, vay! Deyəsən, bixəbərdi bu,
Müxbirin özündən betərdi bu.
Allahı sevərsiz, tamam şərdi bu!
Köçündən azandı, qoyma gəldi!
Matıryal yazandı, qoyma gəldi!

Dincdi quzu tək,dediz, inandım,
Qol sox ağzına,dişləməz sandım.
Dinc belə olurmuş, indi qandım...
Qafiyə düzəndi, qoyma gəldi!
Şıdırğı yazandı, qoyma gəldi!

Nizə kimi bir qələm əlində,
Əfi ilantək faktlar dilində.
Batırar adamı nöqsan gölündə,
Xeyrəti pozandı, qoyma gəldi!
Yazandı,yazandı, qoyma gəldi!

İrpənirəm çul agzının sözündən,
Demaqoqluq tökülür üzündən.
Lap doğrusu qorxmuşam özündən,
Yolunu azandı, qoyma gəldi !
Şir kimi qızandı, qoyma gəldi !
Vur ! Yerə uzandır ! qoyma gəldi !

Bir arıq üç yaz uşağa

Astara üz çıxmaq üçün,
Tüstüsü düz çıxmaq üçün,
Faizi yüz çıxmaq üçün,
Etmə əbəs naz uşağa,
Bir arıq üç yaz uşağa.

Yad eləyibsə məktəbi,
Demək vardır az-çox təbi,
Bir il gəlib-gedib səbi,
Bərklik elə az uşağa,
Bir arıq üç yaz uşağa

Etmə cavabçün çək-çevir,
Müəllimlik güzəşt sevir.
Bilmirsə, başına çevir,
Hörmət et az-maz uşağa,
Bir arıq üç yaz uşağa.

Neyləyirsən ta zadını,
Keyfiyyətini, ya dadını,
Yaza bilir öz adını,
Calama nol, faz uşağa,
Bir arıq üç yaz uşağa.

Tutalım gicdir,oxumur,
Kitabla öcdür,oxumur.
Lap deyək, bicdir,oxumur,
Qoşulmaq olmaz uşağa,
Bir arıq üç yaz uşağa.

VEYSƏL ÇƏRKƏZ

1937

Veysəl Xancan oğlu Çərkəzov 1937-ci il mart ayının15-də qulluqçu ailəsində anadan olmuş, orta təhsili Stalin adına Qax orta məktəbində alıb, ADPİ-nu bitirib. Uzun müddət Şəki Kənd Təsərrüfatı Texnikumunda Azərbaycan dili və ədəbiyyat müəllimi, direktor müavini, dərs hissə müdiri işləmiş, 6 il Şəki Şəhər Təhsil Şöbəsində metodist, "Bilik" cəmiyyətində mühazirə təşkilatçısı vəzifələrində çalışmışdır. 1993-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 12 şeir kitabın, üç pyesin müəllifidir.

Allahın dərdi

Tanrıdı xaliqin,
Haqdı pənahın,
Odur elə bircə ölməz,doğulmaz.
Mən elə bilirdim,
Bircə Allahın
Nə nisgili olmaz,
Nə dərdi olmaz.

Dünyanın əşrəfi,mərdi olmuşuq,
Xoşuna gəlirdik haq-təalanın,
İndi Allahın da dərdi olmuşuq,
Acıyıq haramın,nəfsin,yalanın,

Barıt qoxusudur Yeri bürüyən,
İtir top səsindən ayrı səs-səmir.
Adəmdən törüyən,
Nuhdan törüyən
Adəmə oxşamır,
Nuha bənzəmir.

Vallah yaraşmırıq biz Yerə daha,
Yerə maral, pələng, bəbir yaraşır.
Behiştə layiqsən, uysan Allaha,
Şeytana uyana qəbir yaraşır.

Payız

Axı, bu meşənin donu on olub,
Lüt görüb
Üstünə duman sürünür.
Ağacın əynində yaşıl don olub,
Torpağa sərilib sarı görünür.
Bağların əlində əsir nizələr,
«Cəngi» havasını çaldıqcaküləklər.
Baharın dalınca uçur xəzəllər,
Ananın dalınca qaçan uşaq tək.

Kollardan asılıb qırov zəncirlər,
Günəşə tuturam-qızmır əl-ayaq.
Budağın ucunda qalıb əncirlər,
Ömürdən yapışan qocalarsayaq.
Utanır deyəsən çılpaq ağaclar,
Sapsarı xəzəldi yamyaşıl yarpaq.
Zəmilər biçilib,
Şumlanır torpaq,
Bəs harda gizlənsin ürkək turaclar,
«Bəs harda görüşsün sevənlər indi; –»
Çoxu utancaq,
Meşələr seyrəlib, elə ki, dindin
Ərzin o başına çatar həninin,
Soyuyar yanağı daşın, dəmirin,
Qızar kotanların pəncəsi ancaq.
Dünən toxum səpdik,
Bu necə sirdi –
Torpaqdan bir barmaq qalxıb boyları...
Qızlar gəlin gedir...
Əslində birdi
Payız əkinləri, payız toyları.
Qaçır ora-bura dəlisov külək,
Şəfqət bacısı tək
Eşir xəzəlləri – «sağı» var bəlkə?
Elə buna gülür gilənar bəlkə!
Yanır çobanların tonqalı daha,
Qışlaq tərəfdə.
Nənəm gileylənir:
Aha...
Belə tez
Gilas mürəbbəmiz xarradı rəfdə –
Qış sərt keçəcək.
Payız gəlib keçir eniş-yoxuşla,
Əbəsdir baharın inadı, əbəs!
Ancaq ki, xoşla
Heç nəyi itirmək istəməz heç kəs.
Talada lalə tək qızaran narmı?
Zirvədə ağaran buludmu, qarmı?
Görəsən kəkliyin xəbəri varmı?

Payız gəlibdir?
Leylək yuvaları yenə boş qalıb,
Köçüb qaranquşlar,
Nə az quş qalıb.
Qışa elə vur-tut bir yoxuş qalıb,
Payız gəlibdir.
Əlimiz öyrənib yuxa yaymağa,
Təzə bir tam düşüb südə, qaymağa,
Alıb sayğacını cücə saymağa
Payız gəlibdir.

Vətən

Doğma ana deyib yaş torpağına
Kəsdim çörəyini-duzunu, Vətən.
Vermərəm dünyanın daş-torpağına
Sənin bircə ovuc tozunu, Vətən.

Burda gül bitirər mənim külüm də,
Babamın gözüylə baxar bu dağlar.
Danışar mənimlə ana dilimdə,
Çaylar, bulaqlar.

Burda qurşaq tutsam, igid oğullar
Yerə rəqib kimi vurmazlar məni.
Ana qollarıdır cığırlar, yollar –
Aparar, gətirər-yormazlar məni.

Əksim var burda hər bulaq gözündə,
Bir dərə ovcuna neçə çay sığır.
Ən nurlu cığırdı bu yer üzündə
Mənim ilk görüşə gəldiyim cığır.

Bu Vətən eşqimə, naşı, az şəkk et,
İki vuraq iki bəlkə dörd olmur?
Ögey ana olur hər yerdə, fəqət,
Ögey Vətən olmur, ögey yurd olmur.

Sevgi qocalığa baxmır

Qocalmışam, da dönüb
Zilim pəsə, ay Allah.
Göz işığa köklənmir,
Qulaq səsə, ay Allah.

Ürəyimi qoparır
Payız-qışın çaparı.
Nəsə xəbər aparır
Toya, yasa, ay Allah.

Yəqin könül sarayım,
Hələ eşqə yarayır-
Gözüm gözəl arayır,
Əlim əsa, ay Allah.

FƏRRUX AĞASIBƏYLİ

1937-2010

Ağasıbəyli Fərrux Fərhad oğlu 1937-ci ildə
Şəki rayonunun Orta Zəyzid kəndində anadan olmuş,
doğulduğu kənd məktəbində natamam təhsil almış (1950),
Şəki Pedaqoji Texnikumunu (1954),
BDU-nun filologiya fakultəsini bitirmişdir(1964).
Bir müddət Masallıda müəllim işləmiş,
1962-ci ildən Bakı şəhərindəki müxtəlif orta məktəblərdə müəllim,
tərbiyə işləri üzrə direktor müavini və direktor işləmişdir.
1960-cı illərdən dövrü mətbuatda elmi,
publisist yazıları ilə çıxış etmiş,
VI siniflər üçün "Ədəbiyyat" dərsliyinin müəlliflərindən biri,
"Təzə həyat" qəzetinin baş redaktoru olmuşdur.
"Yasamal yaylasında ilk məktəb", "Təmsillər",
"Ömrümdən yadda qalan bəzi xatirələr",
"Monoloqdan dialoqa gedən yol" kitabları çapdan çıxmışdır.
Fərrux Ağasıbəyli 2010 ildə Bakı şəhərində vəfat etmişdir.

Özünü gözə soxan tüstü

Ocağın əzizi olsa da İsti
Şan-şöhrətə uyub çıxmazdı üzə.
Di gəl adam boğan o qara Tüstü
Özünü hər yerdə soxurdu gözə.

Tüstü xisləti

Görəndə tüstüsüz yanan ocağı,
Tüstü bozarırdı ocaqda közə.
Qara bulud kimi tutub dünyanı
Soxurdu özünü hər yerdə gözə.

Orijinallığı sevən süzmə

Süzmə axır vaxtlar öyürdü özün,
Hamıya süzürdü ağbəbək gözün.
Deyirdi:
– Turş ayran olsa da əslim,
Heç kimə bənzəmir möhtərəm nəslim!

Hay-küyçü baca

Yuxarıdan ağzı bağlanan Baca
Qışqırıb deyirdi ucadan-uca:
- Ocaqla aramı vurur Buxarı,
Tüstünü o, qəsdən çəkmir yuxarı.

İkinci səhv

Üç ay qışı tumarlanıb yatır deyə,
Boz Ayını vəzifədən götürdülər.

Əvəzində çox yuxucul bir Porsuğu
Təmtəraqla həmin yerə ötürdülər.

Pazpərəst balta

Korlaşıb atılmış köhnə bir Balta
Deyirdi şəstlə özün darta-darta:
– Paz vəzifə verin, görün mən ölüm
Yer şarını yüz nədir, min yerə bölüm!

Qarınotaran ağacdələn

Ağacdələn hər gün ağac dəlirdi
Dəldikcə də kefi lap kökəlirdi.
Məqsədin gizlədir, tamam danırdı,
Əslindəsə o, qarın otarırdı.

Qaymaq lovğalığı

Südün yaratdığı ən böyük məhsul,
Süfrələr bəzəyi gözəl Yağ idi.
Di gəl ki, özünü öyürdü Qaymaq
Guya ki, Yağ təpə, osa dağ idi.

Narazı burun

Burun cana doymuşdu gözün əlindən,
Deyirdi: – Belə dostluq görməmişəm mən.
Göz öz güzəranını xoş keçirsin deyə,
Məni hambal eyləyib dılğır Eynəyə.

ÜLKƏR HÜSEYNOVA

1937

Hüseynova Ülkər İbrahim qızı 1937-ci il aprelin 24-də Şəki şəhərində anadan olub. Bakıdakı 132 saylı məktəbi (1955), Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsini bitirmişdir (1960). Əmək fəaliyyəti demək olar ki, "Elm və həyat" jurnalı ilə çevrələnir. O, bu jurnalda əvvəl şöbə müdiri, baş redaktorun müavini (1993-1995), baş redaktor (1995-1997) işləmiş, hazırda isə redaktor müavini vəzifəsində çalışır. 45 il ərzində çap olunmuş yüzlərlə müxtəlif janrlı elmi-publisistik məqalələrinin bir qismi "Elm və həyatın işığında" adlı kitabında toplanaraq çap edilmiş (2004), "Mənim fəxrim-məktəbim" (2008), "Ana bətnindəki uşaq şəxsiyyətdir" (2013), "Üç nəsil-zəmanələrlə üz-üzə" (2013) kitablarının müəllifi olmaqla, Heydər Əliyevə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanın kimya sənayesi" (2003) və "Dahi Qafqazlılar" seriyasından Lütfizadənin həyat yoldaşı xanım Fey Zadənin "Qeyri səlis məntiqin atası ilə həyatım və səyahətlərim"(2003) əsərlərini ruscadan Azərbaycan dilinə tərcümə edib.

"Üç nəsil-zəmanələrlə üz-üzə"
kitabından bir parça

Babam Hacı İsmi bəy 1928-ci ildə vəfat etdikdən sonra ailəmizin ağırlığı atamın üstünə düşdü. Həmin zamanlar bizim dəyirman, hamam, meyvə bağları və bir neçə mülkümüz var idi ki, atam da ailəsini bunların vasitəsilə dolandırırdı. 1930-cu ildə atamı bəy olduğuna görə həbs etdilər, ailə başsız qaldı.

Bu dövrdə olduqca tələbkar, zabitəli bir qadın olan anam Fatma xanım özünün şəxsi zinət əşyalarını satması və ailənin güzəranını ölçülü-biçili şəkildə idarə etməsi ilə ailəmizi həmin böhranlı günlərdən xilas etdi. Onun bu cür ailəcanlı olduğunu və ailənin güzəranının tənzim edilməsində məharətini biz məhz atam həbs olunduqdan sonra hiss etdik. Bu xasiyyətlərlə yanaşı, onu tanıyanlar Fatma xanımı mehriban bir qohum kimi tanıyırdılar. O, anadan olduğu Qədimbəyovlar ailəsində qardaş və bacılarına böyük ehtiram bəsləyirdi. Daim onlarla təmasda olur, özünün mehribanlığını onlardan əskik etmirdi. Məhz onun bu xasiyyətləri də övladlarına sirayət etmişdi. Fatma xanım 1959-cu ildə Bakı şəhərində insultdan vəfat etmişdir. Məzarı Yasamal qəbiristanlığındadır.

1931-ci ildə bacım Ruqiyyə həmin illərdə Qəbələdə müəllim çalışan, Səməd Vurğunun böyük və yeganə qardaşı Mehdixan Vəkilovla ailə həyatı qurdu və onlar Gəncəyə köçdülər.

1932-ci ildə bizi Şəki şəhərinə sürgün etdilər, mal-dövlətimizi əlimizdən alıb, evləri boşaltdıraraq qıfıl vurdular. Şəkiyə gedənə qədər həyətimizdəki darvazanın yanında yaşamaq üçün bizə kiçik bir otaq verdilər. Həmin zaman böyük qardaşım Mehralı artıq Şəkidə yaşayırdı. Ana babam Əbdürrəhman bəy bir müddət öncə onu öz öhdəsinə götürərək oxutdurmuşdu. Mehralı Şəki Pedaqoji Texnikumunu bitirmiş və Şəkinin Bideiz kəndində məktəb müdiri vəzifəsində çalışırdı. Bizi sürgün edənlərin Mehralı haqqında məlumatları yox idi. Çox əlli-ayaqlı və qoçaq oğlan olan qardaşlarını Səməd bir araba taparaq, bizi əlimizdə qalan bir-iki əşyamızla Bideiz kəndinə gətirdi. Mehralı kənddə bizim üçün iki otaq kirayə etmişdi.

Mehralı Bideyizdə bir il işlədikdən sonra onu Şəkinin Orta Zəyzid kəndində məktəb müdiri təyin etdilər və onunla birgə biz də həmin kəndə köçdük. Biz Zəyziddə üç il yaşadıq, böyük bacım Ruziyyə Siracəddin Rəsulov adlı müəllim ilə ailə həyatı quraraq orada qaldı. Biz isə üç il keçdikdən sonra Şəkiyə köçərək, kirayə tutulmuş evdə yaşadıq.

1939-cu ildə ailəmiz Şəkidən Bakıya köçdü. Mehralı və Ruqiyyə həyat yoldaşı Mehdixan ilə artıq Bakıda yaşayırdılar. Onların Vidadi küçəsi 84 saylı ünvanda yerləşən həyətdə ayrı-ayrılıqda bir otaqlı mənzilləri var idi. Biz qardaşımın evində yerləşdik.

Ruqiyyə Tibb Universitetində təhsil alırdı, Mehralı isə orta məktəbdə müəllim işləyirdi.

1941-ci ildə Böyük Vətən Müharibəsi başlayanda qardaşlarım Səməd və Şamil cəbhəyə yollandılar. Şamil Smolensk ətrafında gedən döyüşlərdə həlak oldu, Səməd isə 1945-ci ildə müharibədən qayıtdı. 1941-42-ci illərdə bacımın həyat yoldaşı Mehdixan Vəkilovu İrana işə göndərdilər. Yarım il Təbrizdə nəşr olunan «Vətən yolunda» qəzetinin redaksiyasında çalışdıqdan sonra onu Qazax rayonunun

İcraiyyə komitəsinin Sədri vəzifəsinə təyin etdilər. Həmin zaman anamız Fatma xanım, mən və bacım Minayə bir il müddətində Qazaxda yaşadıq. Atam bu vaxt Bakıda Mehralı ilə birgə qalırdı. Bir ildən sonra Mehdixan Vəkilovu Ağstafa rayonunun 1-ci katibi vəzifəsinə təyin etdilər, biz də onlarla birlikdə Ağstafaya köçdük. Orada iki il yaşadıqdan sonra 1945-ci ildə Bakıya qayıtdıq və yenə də Mehralının evində yaşadıq. Mehralı və Mehdixanın bizim üzərimizdə zəhməti çox olmuşdu.

1948-ci ildə qardaşım Mehralı Qazaxın Aşağı Salahlı kəndində anadan olmuş Zərifə Qocayeva ilə ailə həyatı qurdu. Onların iki övladı oldu: Elxan (1949) və İradə (1956). Hazırda hər ikisi elmlər namizədidir. Elxan Moskvanın fizika elmi-tədqiqat institutlarının birində çalışır, bir çox beynəlxalq konfranslarda iştirak etmişdir. Iradə isə həkimdir, Azərbaycan Dövlət Tibb Universitetində çalışır.

Ruziyyə və Siracəddinin Tacəddin (1937) adlı bir oğlu var idi, orta təhsilli idi, artıq həyatda yoxdur.

Ruqiyyə ilə Mehdixanın iki övladı var: Çiçək (1939) və Cavanşir (1951).

Çiçək 1939-cu ildə anadan olmuşdur. 1961-ci ildə Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. 1970-ci illərdən etibarən Xalq Təsərrüfatı İnstitutunun hazırkı Azərbaycan Dövlət İqtisad Universiteti Əmtəəşünaslıq kafedrasının nəzdində mikrobiologiya laboratoriyasının müdiri işləmişdir. İşlədiyi müddət ərzində institut kollektivinin hörmətini qazanmış, bir neçə dəfə rəhbərlik tərəfindən xidmətləri qiymətləndirilmişdir. 1960-cı ildə Xalq Təsərrüfatı İnstitutunu bitirmiş Amur Ələkbərovla ailə həyatı qurmuşdur. 1961-ci ildə qızları Sevinc dünyaya gəlmişdir. 2007-ci ildə uzun sürən xəstəlikdən sonra 68 yaşında vəfat etmişdir

KAMİL SƏLİMOV

1937

Səlimov Kamil Rəsul oğlu 1937-ci il aprelin 24-də
Şəki şəhərində anadan olub.
10 ^{a}-li orta məktəbdə VIII sinfi bitirib.
1957-ci ildə Bakı şəhərində Qara şəhərdə fəaliyyət göstərən
Avto-məktəbdə sürücülük təhsili alıb.
1958-ci ildən 2717 ^{a}-li avtodəstədə
sürücü kimi işə başlamış 2004-cü ilə qədər bu peşəni
sevərək fəaliyyət göstərmiş, nəinki işlədiyi təşkilatda,
həmçinin qohum-əqrəba,dost-tanış, qonşu-məhəllə arasında
böyük hörmət, etibar, inam, rəğbət qazanmış
el atası-məhəllə ağsaqqalı adı qazanmışdır.
Gənc yaşlarından şeirlər yazmış,
yerli mətbuatda çap olunmuşdur.

Gedir

Həyat qudurğandır, dövran bivəfa,
Ömür bir karvandır baş alıb gedir.

Axır Araz kimi, dəli Kür kimi,
Dayanmaz gün-gündən ucalıb gedir.

Həyat öz hökmünü verib əzəldən,
Ömür bir quşdur uçacaq əldən,

Bağda nar məst olur gülün ətrindən,
Bülbüllər kənardan dolanıb gedir.

Bu dünya bənziyir bir gülüstana,
Bəzən abad olur, bəzən virana,

Vüsala yetmiyib hələ pərvanə
Aşiq eşq oduna qalanıb gedir.

Gözümdən axan yaş ürək qanıdır,
Dillənən eşqimin sınıq tarıdır.

Ay ellər, gün keçib, ömür yarıdır,
Bəs niyə yar canlara od salıb gedir.

Qurbanam

Ey gül, gör nə bəla açdı mənim başıma tanrım,
Göz yaşı tökdü, zəhər qatdı aşıma Tanrım.

Talehin gözləri kor imiş, gülmədi heç vaxt üzümə,
Rəhm eyləmədi gözdən axan yaşıma Tanrım.

Varlığım odda yanır, yurdumuz odlar ölkəsi,
Mən qurbanıyam öz yurdumun torpağına, daşına, Tanrım.

Qalsın

Könül, gəl əl götür o bivəfadan,
Dəyməz o sən kimi qurbana qalsın.
Özgənin ovunu vurmaq istəsən,
Oxun qoyulmasın kamana qalsın.

Sanma ki, dünyada ötər ki bir səs,
Bülbül azad yaşar, istəməz qəfəs.
Əhdini, vədini unutsa hər kəs
Dağılsın yuvası, viranə qalsın.

Deməyin, dünyadan mən kam almışam,
Bülbül tək sinəmdə yara salmışam.
Kamiləm, yazdığım bu incə qoşmam,
Eşqimdən əbədi xatirə qalsın.

Lənət

Gülün xatirinə dəyməmək üçün,
Bülbülə göz yaşı yazana lənət.
Dünyada daş-qaşa könül bağlayıb,
Öz doğma yolunu azana lənət.

Yanıb kül olsa da hicran dağından,
Bülbüllər ayrılmaz gül budağından.
Məhəbbət əhliyəm bu gənc yaşımdan.
Söz verib əhdini pozana lənət.

Bu dünya yaranıb sərvət üstündə.
Özü bir quruşa dəyməz əslində,
Nə deyim, bir quru şöhrət üstündə.
Özgəsinə quyu qazana lənət.

Ey Kamil, yanırsan, çıraqsan, çıraq,
Axır məzarındır bu qara torpaq.
Dünyada nə qədər qonaqsan qonaq,
Yaxşıya alqış de, yamana lənət.

YUSİF ABDURAHMANOV

1937-2005

Abdurahmanov Yusif Əhməd oğlu 1937-ci ildə Şəki şəhərində anadan olmuş, orta təhsilini burada almış, sonra Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakultəsini bitirmişdir.Əmək fəaliyyətinə Şəki şəhər elektrik şəbəkəsində iqtisadçı kimi başlamış, Şəki Şəhər Partiya Komitəsində, Şəki Tütün Fermentasiya zavodunda, Şəki İpək İstehsalat Birliyində, Yerli Sənaye Kombinatında rəhbər vəzifələrdə çalışmışdır.Gənclik illərindən bədii yaradıcılığa böyük maraq göstərmiş, şeirləri yerli və mərkəzi mətbuat vasitələrində vaxtaşırı dərc edilmişdir.Yusif Abdurahmanov 2005-ci ildə Şəki şəhərində vəfat etmişdir.

Tək qəbir

Yol uzanır, uzanır.....
Qıvrılıb
ilan qıvrılan kimi.
Göy qurşağı səmanın
Üstünə zolaq salıb
boynuna sarılan kimi.
Yolun kənarlarında
boy atmışdır ağaclar,
Bir ağacın kölgəsində
naməlum bir qəbir var.
Düşündürür qəbir məni,
baş vururam xəyala mən,
Ah, bilsəniz nələr keçir
nələr keçir qəlbimdən.
Düşünürəm.....
neçə illər yağış vurmuş,
boran keçmiş
Bu qəbrin də başından.
Əsən külək,
Yağan yağış
Pozmuş belə yazıları
məzarın baş daşından.
Bilinməyir kimindir,
kimindir tək qəbir,
Burda yatan kim olmuşdur?
O, nə zaman,
hansı eldə,
hansı yurdda doğulmuşdur?
Düşünürəm....
Bəlkə o bir qərib olmuş,
Ölən zaman vətən demiş,
Ana demiş,
Səsləmişdir öz yarını.
Bəlkə,
o,bu qərib eldə
Soldurmuşdur öz ömrünün
baharını.
Bəlkə, olmuş bir qəhraman,

Igidlikdə şöhrət tapmış,
At oynatmış
Qılınc çalmış,
zalımlarla davada.
Bəlkə,
O,bir sənətkarmış
Ürəyində xoş arzular
yaşatmış,
Neçə əsər yaratmış
İndi onun nəğmələri
gəzir dildə, dodaqda.
Bəlkə,
o bir ana imiş
göz dikib bu yollara,
Öz oğlunu gözləyirmiş,
dərd-qəm alıb ürəyini.
Zaman onun ürəyinə
vurub yara,
Soldurmuşdur arzusunu
diləyini.
Bəlkə.... bəlkə...
Bu məzarın üzərinə
bir yasəmən ağacı da
salmış kölgə.
Bəli,yoldan gəlib keçən
o məzara salar nəzər,
xəyalları de, hayanda
qanad çalıb, gəzər, gəzər.
Ölməyik,
Təbiətin qanunudur,
bilirəm mən,
Məzarımın üzərinə
kölgə sala bir yasəmən.
O,naməlum bir qəbir ki
düşündürür
burdan keçən hər kəsi,
Keçmişləri salır yada.
Dostlar,
ancaq istərəm ki,
Əməllərim insanlara
həyatımı xatırlada,
məzarımı sala yada.

Səadətimdir

Sevincdən sığmayır köksümə ürək
Çağlayıb coşmaq da bir adətimdir
Kosmusu fəth edir insan zəkası
Bilin, bu qüdrətim, dəyanətimdir.

Yaşıl paltarını geyir Muğan, Mil,
Eşqinlə çağlayır bu azad könül.
Azadlıq gətirən on səkkizinci il,
Mənim sevincimdir, səadətimdir.

Gəzdim oymaq-oymaq bütün elləri,
Bizə bəxş olunan bu ağ günləri,
Necə vəsf eləyir sazın telləri,
Dil açan eşqimdir,məhəbbətimdir.

Azad könülləri hey azad görən,
Gecələri gündüzlərə döndərən,
Nə olmuş torpağa, daşa can verən ?
De ki, nəfəsimdir, hərarətimdir.

Hüsnünə bəzəkdir al ipəklərin,
Buruqlar meşəsi mavi Xəzərin,
Sumqayıt,Daşkəsən-gənc şəhərlərin,
Mənim şücayətim, cəsarətimdir

Vətən, başdan-başa oldun gülüstan
Könlümün səsini eşitsin cahan!
Bundan xoş günlərə qovuşacaqsan
Bu anda ürəyim zəmanətimir.



İSMƏT SƏFƏROV

1937

Səfərov İsmət Həbibullah oğlu 1937-ci il sentyabrın 10-da
Şəki şəhərində anadan olmuş, ibtidai təhsilini Şəkidə almış,
Bakı şəhərində isə orta məktəbi bitirmiş,
BDU-nun jurnalistika fakultəsində təhsil almışdır.
Əmək fəaliyyətinə Azərbaycan Dövlət Radio Verilişləri Komitəsinin İran
redaksiyasında redaktor kimi başlamış,
sonra Azərbaycan EA-nın Mərkəzi Elmi Kitabxanasında
elmi-biblioqrafiya şöbəsinin müdiri olmuşdur.
İsmət Səfərov uzun müddət "Bilik" cəmiyyətinin
nəşriyyatına rəhbərlik etmişdir.
Gəncliк illərindən başlayaraq publisist, tərcüməçi kimi
respublika mətbuatında çıxış etmiş,
Azərbaycan Jurnalistlər birliyinin üzvü olmuşdur (1979)."Azərbaycanın
elm və mədəniyyət xadimləri" seriyasından buraxılan biblioqrafik
məlumat kitablarının müəllifi və ya redaktoru olmuş, dövrü mətbuatda külli
miqdarda məqalə, oçerk, hekayə və felyetonları dərc edilmişdir.
SSRİ və AFR arasında bağlanmış Moskva müqaviləsinin
ratifikasiyası ilə əlaqədar Sovet nümayəndə heyətinin tərkibində
Berlində Azərbaycanı təmsil etmişdir (1972).

İnildəyən skripka

(bir parça)

Mən onunla ilk dəfə günəşli Gürcüstanın gözəl Tbilisi şəhərində tanış olmuşdum... Bir gürcü dostumun dəvətilə yay istirahətimi keçirmək üçün Tbilisiyə getmişdim. Dostum yaşıllığa qərq olmuş qəşəng Rustaveli prospektində, uca bir binada yaşayırdı. Geniş, səliqəli otaqları olan bu mənzilin pəncərələri həm küçəyə, həm də həyətə açılırdı. Mən saatlarla pəncərə qarşısında dayanıb sevimli Bakı qədər doğma olan Tbilisinin gecəsini də, gündüzünü də seyr edirdim.

Bir dəfə həyətdə oynaşan uşaqlara tamaşa edərkən qarşıdakı pəncərədən hazin bir musiqi eşidildi. Kim isə yanıqlı-yanıqlı skripka çalırdı. Lakin çalğıçı eyni melodiyanı bir neçə dəfə təkrar edir, görünür hansı bəstəkarınsa əsərini əzbərləməyə çalışırdı. Sonra musiqi birdən-birə dəyişdi və tamamilə başqa bir melodiyanın oynaq sədası ətrafa yayıldı. İndi hiss olunurdu ki, skripka üzərində hərəkət edən barmaqlar mahir bir sənətkarın barmaqlarıdır.

– Necə çalır, – deyə dostum arxadan səsləndi. Mən səksənən kimi oldum.

– Hə, xoşuna gəlirmi?

Mən cavab verməmiş skripka susdu və pəncərə önündə mavi gözlü bir gürcü qızı göründü. Dostum qolumdan tutub bərk-bərk sıxdı və gülümsədi.

– Haqqında danışdığım qızdır, konservatoriyanın son kursunda oxuyur, – dedi.

Onlar salamlaşdılar, mənalı bir tərzdə gülümsədilər. Qız gülümsərkən sifəti lalə kimi açıldı, incə, yaraşıqlı dodaqlarının arasından güclə sezilən mirvari dişləri onu daha gözəl və cazibədar göstərdi. Mən həm dostuma, həm də onun sevgilisinə, haqqında eşidib, ancaq üzünü ilk dəfə gördüyüm skripka çalan qıza baxdım. Eyni hisslə döyünən iki qəlbdən keçənləri onların bəxtəvərcəsinə parlayan gözlərindən oxudum... Həmin gün dostum öz sevgilisi ilə məni tanış etdi. Biz, birlikdə Kür qırağını, Tbilisinin yaşıl xiyabanlarını gəzməyə çıxdıq.

O hadisədən bir neçə il keçmişdi. Bir gün qəzetlər və afişalar təntənəli bir surətdə xəbər verdilər ki, skripka çalan Tamara Kapanadzenin qastrolları başlanır. Mən dostumun sevgilisini xatırladım. Onun da adı Tamara idi. Tələsik özümü filarmoniyaya çatdırdım. Afişada, əlində skripka tutan gənc bir qızın şəkli göründü. Gözlərimə inanmadım. Bu ki, həmin qızdır.

Dostumun sevgilisi, pəncərədən baxan, Kürün üzərindəki körpüdə əl verib tanış olduğum mavi gözlü qız idi....

...Tamara bir-birinin ardınca yeni – yeni musiqi əsərləri ifa edir, onun barmaqları yorulmurdu. Alqış sədaları hər dəfə daha coşğunluqla gurlayırdı.

–"Hakam məhəbbət!" – deyə konfransye, yeni nömrəni elan etdi.– İfa edir müəllif.

Skripka dilə gəldi... Tamara incə, zərif barmaqlarını simlər üzərində hərəkət etdirdikcə skripka min bir avazla səslənirdi. Salon dərin sükut içində idi. Təkcə, Tamaranın skripkası Gürcüstanıngözəl mənzərəsindən, Kür çayının xırıltı ilə axmasından, nəhəng körpü üzərində sevgililərin pıçıldamalarından, sevən qəlbin hiss-həyəcanından, nəhayət sevgililərin nakam məhəbbətindən musiqi dililə danışırdı. Mən musiqi dilinə yaxşı bələd olmasam da, hiss edirdim ki, skripkanın yanıqlı havası tüklərimi ürpəşdirir, bədənimə üşütmə salırdı. Gözlərim yaşarmışdı. Yanımda oturmuş yaşlı qadınsa artıq öz dəsmalını göz yaşları ilə islatmışdı. Bu anda Tamara mənim gözlərimdə nəqədər də yüksəlmişdi!... Onun dinləyiciləri ovsunlayan barmaqları da, daş qəlbləri yumşaldan skripkası da mənə müqəddəs bir varlıq kimi görünürdü...

Birdən salon heyrətə gəldi. Yaşarmış gözlərdə sevinc qığılcımları parladı. Skripkanın iniltisi kəsilməmiş alqış sədaları gurladı, adamların arasından boğuq bir uğultu keçdi. Mən Tamaraya diqqətlə baxdıqda onun özünün də gözlərini yaşlı gördüm. "Yoxsa ....ola bilməz!..."

Konsert qurtaran kimi cəld küçəyə çıxıb səbirsizliklə Tamaranı gözlədim. Gözüm qapıda idi. Lakin fikrim dağınıq olduğundanmı, nə üçünsə onun qapıdan necə keçdiyini görə bilmədim. Filarmoniyanın qarşısında dayanan maşının qapısı tappıltı ilə örtüləndə o, gözümə dəydi.

– Tamara xanım! – deyə qeyri-iradi qışqırdım və maşının yanına qaçdım.

Görünür o, ilk baxışda məni tanıya bilmədi. Sonra sevincək maşının qapısını açıb bayıra çıxdı.

– Aha, sizsiniz...

Biz səmimiyyətlə görüşdük. O, məni maşına dəvət etdi.

– Mən sizinlə birlikdə Tbilisidə həmişə piyada gəzirdim, – dedim.

Tamara güldü.

– Elə isə yenə piyada gəzək, – deyə o, qolumdan tutdu. Mən özümdə yorğunluq hiss etmirəm. Dəniz havası isə yorğunluğu insanın canından tamamilə çıxarır.

Biz dəniz kənarına doğru addımladıq. Xəfif külək əsir, Tamaranın qara saçlarını yelləndirirdi. Biz bir müddət dinib-danışmadan yolumuza davam etdik. Mən onun baxışlarından heç bir məna oxuya bilmirdim. Hələlik dostumdan da söz açmağa ehtiyat edirdim.

– Heç dostunuzun keyfini soruşmursunuz, – deyə o, məni qabaqladı.

Mən qızardım.

– Doğrusu, – dedim, – sizin son ifanız mənim qəlbimdə dəhşətli şübhə doğurubdur.

– Doğrudanmı? Elə isə qəlbinizdə olan bütün şübhələri, xüsusən dəhşətli şübhələri bir kənara atın və...

O susdu. Mən intizar içərisində idim.

– Nə üçün susdunuz?

– Yaxşı dost deyilmişsiniz. Əgər belə olmasaydı toyumuzda heç olmasa kiçicik bir teleqramla yad edərdiniz.– deyə məzəmmət etdi...

KAMİL MANAFOV

1938

Kamil Mustafa oğlu Manafov 1938-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olub.
1956-cı ildə həmin kənddə orta təhsilini başa vurub.
1963-cü ildə hərbi xidmətdən qayıtmış və Moskva K.A.Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasının "Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili" fakültəsini bitirib(1968).
O, Akademiyanı bitirdiyi il Şəkiyə qayıdıb müxtəlif idarə və müəssisələrdə müntəzəm olaraq rəhbər vəzifələrdə çalışıb.
Hazırda Şəki Regional Elmi bazasında elmi işçidir.
Kamil Manafov bədii yaradıcılıqla da məşğuldur. Dövri mətbuatda onun bir çox ədəbi və elmi əsərləri dərc olunmuşdur.

Şəlalə üçün

Xoş gəlmisən, Şəlalə,
Anadolu elindən.
Vətən ətri verirsən,
Gəl bir sıxım əlindən.
O el, bu el bizimdi,
Nə ayrılıq, nə həsrət?!
Bizdən-bizə gəlmisən.
Bunda da var səadət.
Demək, yurdun da qoşa,
Dayağın da qoşadır,
Biri səni böyüdüb,
Biri səni yaşadır.
Xoş gəlmisən, Şəlalə,
Hara baxsan izindir.
O yerlər də bizimki,
Bu yerlər də sizindir.

Barmaqlar

Əldə olan barmaqların
Demə işi möcüzədir.
Yaranışı haqdan gəlib,
Tərpənişi möcüzədir.
O barmaqlar yeri gəlsə,
Bir gözəlin telinə də,
İlana da toxunacaq.
Yeri gəlsə göz olacaq,
Yazılanlar sətir-sətir
Barmaqlarla oxunacaq.
Dilləndirər dillərini,
Min musiqi alətinin,
Bəzən min qurbanı olar
Barmaqların adətinin
Onlar silah da tutacaq,
Bircə dəstə qızıl gül də.
Törətdiyi əməllərin,

Sayı neçə, adı nədir?
Baş özünü ha aldatsın!
Dağı-dağ üstünə qoymaq
Barmaqların əməlidir.

Pərvanələr

Niyə yanır pərvanələr,
O balaca biçarələr?
Öz ölmünü qana-qana.
Qəsd edirlər şirin cana.
Həsrət adlı bir atəşə
Kim dözüb ki, onlar dözə?
Xoşbəxtliyə qovuşmaqçün
Atılırlar qaynar közə.
Hər pərvanə bax beləcə
Öz ömrünü vurur başa?
Bu da sizə fədakarlıq-
Bir məhəbbət əfsanəsi,
Heç düşməyin dağa-daşa.

Dayaq

Bapbalaca damcılar,
Buludlardan süzüldü,
Yarpaq üstə düzüldü.
Qovuşdu asta-asta
Axdı torpağın üstə.
Açıb kiçik cığırlar
Daşların arasıyla
Yavaş-yavaş sel oldu,
Yavaş-yavaş çay oldu.
Görürsünüz nələr var?
Söyləyimmi mən sizə?
Demə damcı dayaqmış
Bir kükrəyən dənizə!

Qədrini bil

Ətirlənmiş çiçəkmisən,
Hurimisən, mələkmisən,
İlk görüşə gecikmisən-
Görüşünün qədrini bil!

Nazlansan da yavaş-yavaş,
Nə zülüm et,nə həddi aş.
Parlamasın gözündə yaş,
Gülüşünün qədrini bil!

Ömür şirin, qəlb həvəsli...
Sözlərimin budur əsli-
Səhərlərin gül nəfəsli
Öpüşünün qədrini bil.

El adını güdənlərin,
Yaxşılıqlar edənlərin,
Vətən üçün gedənlərin,
Dönüşünün qədrini bil.

ƏHMƏD MUSA

1938-2015

Əhməd Musa 1938-ci ildə Şəki rayonunun Aşağı Şabalıd kəndində anadan olmuşdur. Gənc yaşlarından poeziyaya maraq göstərmiş, el şairlərinin yaradıcılığından bəhrələnərək şeirlər yazmış, yerli mətbuatda mütəmadi şeirləri ilə çıxış etmişdir. Əhməd Musa 2015-ci ildə vəfat etmişdir.

Bacı

Bir dəfə üzümü qəmli görəndə,
Yerimə alışıb yanıbdı bacım.
Ürəyim şıltaqlıq edib sinəmdə,
Üzümdən anlayıb qanıbdı bacım.

Hələ də üstümdə dolanır gözü,
Ömrümə dayaqdı hər şirin sözü,
Hər eynim açılıb güləndə düzü,
Özünü bəxtəvər sanıbdı bacım.

Əhməd, sayalıdır əli-ayağı,
Öpərəm basıdığı yeri, torpağı,
Fələk, yaş görməsin onun yanağı,
Deməyim: "Nə yaman sınıbdı bacım"!

Gəlsin

Gördüm o Leyla pərini,
Məni Məcnun sayan gəlsin.
Ox, eyləyib gözlərini,
Ürəyimi oyan gəlsin.

Həsrətinə hörülmüşəm,
Ağlamaqdı işim-peşəm
İstəmirsə qana düşəm,
Sinəsinə döyən gəlsin.

İncitsə də zaman-zaman,
Qalmaz belə, dönər dövran.
Kim Əhmədə etsə divan,
Səndən mənə həyan gəlsin.

Meşəbəyi

Kimlərinsə qağasısan,
Dağ-dərənin ağasısan.
Axırına çıxasısan
Meşələrin
Meşəbəyi.

Böyük tala, geniş meşə,
Sağı-solu qırdır, döşə,
Cibin hazır hər görüşə
Meşəbəyi .

Neçə şirvan dasqı dağa,
Pulluları say qabağa,
Yağı sənsən bu torpağa
Meşəbəyi.

RÖVZƏT

1939 - 2010

Rövzət Qafar oğlu Dəmirçizadə 1939-cu ildə
Şəki şəhərində anadan olmuş, 2 saylı orta məktəbi bitirmiş,
1956-cı ildə Azərbaycan Dövlət Universitetinin
fizika-riyaziyyat fakultəsinə daxil olmuş,
lakin iki il sonra bədbəxt hadisə nəticəsində ömürlük şikəst qalan
Rövzət ixtisasını dəyişmək məcburiyyətində qalmış,
qiyabi yolla Azərbaycan Dövlət Pedaqoji İnstitutunun
dil-ədəbiyyat fakultəsini bitirmişdir.
İstedadlı şair uzun illər "Şəki fəhləsi" qəzetinin nəzdində
fəaliyyət göstərən "Səbuhi" ədəbi məclisinin üzvü olmuş,
idrak, xəyal və düşüncə şairi kimi özünü təsdiqləmişdir.
1968-ci ildə çapdan çıxmış "Qatarda" şeirlər kitabı ilə
oxucuların rəğbətini qazanmış şairin sonralar "Tut ağacı"(1971),
"Səhər duyğuları" (1974), "Səslər" (1978), "Çörək ətri" (1981),
"Ürəyimdə yaşayanlar" (1986) və s.kitabları çap edilmişdir.
Rövzət 2010-cu il aprelin 16-da Bakı şəhərində vəfat etmişdir.

Dünya əla dünyadı

Dünya-insan qazanıdı,
İnsan-tale yazanıdı.
Yaxşılığa yozanıdı,
Yozduğu yalan olmasa.

Kimi oyaq, kimi yatan,
Var ovqata zəhər qatan.
Olardımı yalan satan,
Yalanı alan olmasa?

Bir aşiq ki, yolu azdı,
Deməli, həsrəti azdı.
Bülbül elə oxumazdı,
Arada tikan olmasa.

Yazan necə tale yazdı,
Bir üzü qış, biri yazdı.
Bu dünyada dayanmazdım,
Qəlbimdə olan olmasa.

Bu dünya qala dünyadı,
Demərəm bəla dünyadı.
Vallah, nur-əla dünyadı,
Gözümdən salan olmasa.

Payıza qalan çiçək

Bahar köçüb, sazaq əsir,
Ay saralan, solan çiçək!
Qızıl payız yağışıyla
Baxışları dolan çiçək.

Dünya gözəl soldurandır,
Başqalardan taç aldırandır,
Çiçək ömrü bircə andır,
Ay payıza qalan çiçək!

Ləçəyini külək yolub,
Demə, dərddir çiçək olub,
Bahar çağı dərilməmək,
Ay payıza qalan çiçək.

Yaşıdları ərə gedib,
Hərəsi bir yerə gedib.
Yurd yerində tənha qıztək,
Ay payıza qalan çiçək!

Ürəyini üzmə belə,
Bir kəpənək həsrətiylə
Bu dünyadan küsmə belə,
Ay payıza qalan çiçək!

Qaytarılan borc

Meyvəsini dərdilər-
yükünü yerə qoymuş adamlar kimi
belini dikəltdi ağac.
Barla yüklü günlərinin ağrısı
oldu bir quş lələyi.
Doldu sinəsinə axşam küləyi,
gərnəşdi sola, sağa...
O, qızılı yarpaqlarını
Sanayırdı torpağa ,
qaytarılası borc kimi.
Ağac soyunurdu,
Bu qışı yatım deyə.
Barını vermişdi
haqqi vardı dincəlməyə.

Qış naxışları

Tutular göylərin qaşı-qabağı,
Günəş də elə bil çevrilər yada.
Yarpaqlar tərk edib doğma budağı,
Özünü yellərin qoynuna atar.

Dolaşar dumanlar cığırda, izdə,
Əlini gəzdirər yel yaxasında.
Yatar bulaqların daşının üstdə
Şirin xatirələr qış yuxusunda.

Demə ki, yaylaqda yala yayılan
Dağın dumanından, sisindən qaçar.
At kişnərtisinə, addım səsinə
Darıxan cığırlar özündən qaçar.

Qaşının üstündə bulud əlləri,
Uca zirvələrdə durub baxar qış.
Qırov bağladıqca qara telləri,
Ömrün yollarına gəlib çıxar qış.

Yorula ümidlər, azan gümanlar...
Qocalıq sonuncu qara-qorxudur.
Gündüzlər dərədə yatan dumanlar-
Gecələr gözlərdən uçan yuxudur.

Qar yağar, uçuşar "ağ kəpənəklər",
Quşlar yuvasına çəkilər indi.
Sanki bahar çağı açan çiçəklər
Dünyanın gözündən tökülər indi.

Qar

Qar yağır....
Ağarır dağların saçı,
buzdan eynək taxıb göllər gözünə.
Bu qar yuxa kimi,
təpələr sacdı,
Ləpirlər gül salır qarın üzünə.

Yağır, təbəssümlə üzümə gülüb,
Ağ qara bələnib yer üzü, səma.
Mələktək göylrdə dünyaya gəlib,
Ayaq altda ölmək ağırdır amma.

HİKMƏT ƏBDÜLHƏLİMOV

1939

Əbdülhəlimov Hikmət Əhməd oğlu - 1939 cu il iyul ayının 17-də Şəki şəhərində anadan olub.
Bakı Ali Partiya Məktəbinin 4-illik əyani şöbəsində oxuyaraq məktəbi fərqlənmə diplomu ilə bitirib.
1969-1992-ci illərdə Şəki Şəhər Komsomol Komitəsinin birinci katibi, Şəki Şəhər Partiya Komitəsinin təbliğat və təşviqat, təşkilat şöbələrində müdir, şəhər mədəniyyət şöbəsinin müdiri, Şəki şəhər İcra Hakimiyyəti Aparatının Ümumi şöbə müdiri vəzifələrində (1969-1992),
1999-cu ilin iyul ayından 2012-ci ilin sentyabr ayınadək Azərbaycan Respublikası Rabitə Nazirliyi Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin kadrlar şöbəsinin rəisi (1999-2012),
Bakı Telefon Rabitəsi İstehsalat Birliyi Baş Direktorunun mətbuat xidməti üzrə müşaviri vəzifəsində işləmişdir (2012-2014).
Hazırda Respublika Rabitəçi Veteranlar Şurası sədrinin müavini vəzifəsində çalışır. "Şöhrət" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, " Şərəf Nişanı" ordeni və
" Rəşadətli əməyə görə" medalı ilə təltif edilmişdir.
Son 29 ildə 240 min nüsxə tirajla nəşr edilmiş 15 kitabın müəllifidir.
2003-cü ildə "Azərbaycan folkloru antologiyası VI " kitabına görə AYB-nin "Yaddaş" Milli mukafatına layiq görülmüşdür.

Əşrəfi şillə "Xatirə-hekayə"

(ixtisarla)

...Hekayətimiz yaz ayına təsadüf etdiyinə və nəql edəcəyimiz əhvalatın süjet xəttilə bilavasitə bağlı olduğuna görə bu fəsildə ilk bar verən ağaclardan sayılan tut ağacına da müəyyən yer ayırmışıq. O dövrdə yerli əhalinin bəlkə də ən çox üstünlük verdiyi tut ağacı idi. Tut ağacı olmayan məhəlləni barmaqla göstərmək olardı. Bunun da səbəbi vardı. Tut qlükoza ilə zəngin tərkibinə görə qara ciyər, öd kisəsi, ürək-damar, mədə - bağırsaq və b. xəstəliklərin dərmanı sayılır, ondan hazırlanan tut doşabı-bəkməz (yerli dialektdə bəhməz), irçal və xəmirdən hazırlanan xüsusi şirniyyat növü-xamırtökən, tut mürəbbəsi, tut arağı (spirti özündən hazırlanırdı, çox vaxt müalicə məqsədilə istifadə edilirdi) insanların əlindən tutur, maddi durumlarına xeyli kömək olurdu. Tut ağacı sazbəndlər üçün əvəzolunmaz sayılır. Bu ağacdan hazırlanan ət kötüklərini isə heç bir ağacla dəyişmək olmaz.Tutun silkələnməsi də qəribə bir tamaşa idi. Uzunu təxminən 5-6, eni 3-4 metr olan «bez»adlanan parçadan hazırlanmış şalı yerdən 30-40sm hündürlükdə 6-7 nəfər daram tutar, bir nəfər səriştəli gənc də ağaca çıxaraq tutun budaqlarını silkələyərdi. Tut ağacının sahibi mütləq bu tutdan qonşulara da pay verərdi. Yaddaşıma həkk olunmuş nəql edəcəyim əhvalat da elə bilavasitə tut ağacı ilə əlaqədilidir.Həm də burada söhbət şəxsi ləyaqət və qürurun qorunmasından gedir.

Hadisə 1954-cü ilin yazının üçüncü ayına təsadüf edir.Tutun yetişən vaxtı idi. Bir az vaxt taparaq ünsiyyət üçün adətim üzrə yola çıxmışdım. Biz, 15-16 yaşlarında yeniyetmə uşaqlar – mən, büvüm oğlu (arada yerli dialektdən istifadə edəcəyəm) Nadir, «Mıqan» ləqəbli ləzgi Nuralların Nadir və adını şərti olaraq N adlandıracağım bir dostumuzla dərzi Qəhrəman dayının həyət qapısının ağzında, yolda oturmuşduq.Büvüm oğlu Nadir 7 yaşından anadan yetim qalmış, ögey ananın himayəsində böyüyürdü.Bir kimsəni incitməyən, ədalətə üstünlük verən uşaq idi. Həmişə onunla ünsiyyətdə olar, mənə qarşı haqsızlıq edənlərin cavabını verərdi. Ona güvənir, özümə arxa sayırdım.

Uşaqlıq dostum N haqqında bir neçə söz deyərək əsas mətləbə keçirəm.Atası repressiya qurbanı idi.Yesir anası təkbaşına iki qız, iki oğlan övladı tərbiyə edirdi.N-in yaraşıqlı qaməti, təmiz diksiyası, güclü məntiqə söykənən mühakimələri vardı. Ağsifətli idi, ümumiyyətlə, bu ailəninin

üzvlərinin hamısı ağsifətli idi. Həmyaşıdımız olsa da, sanki vaxtdan və yaşından ucada dayanır, qeyri-standart hərəkətləri ilə fərqlənir, bu zaman kimisə təhqir etdiyini, kiməsə əl qaldırdığını, dilindən ədəbsiz söz dediyini eşidən olmamışdı, yaşından yaşlı görünürdü. Hərəkətini proqnozlaşdırmaq, xasiyyətini tutmaq çətin olurdu.

Qəhrəman dayı ucaboy, ağ nuranisifət idi, həmişə təmiz və səliqə ilə geyinərdi, yüksək ədəb-ərkanı ilə seçilən bir ailənin başçısı idi. Üç qız və bir oğlan atası olan Qəhrəman dayı həmin dövrdə Şəki sənətkarlarının sayılıb-seçiləni hesab olunurdu. O, qardaşı Salman dayı ilə tiraltı (bir evin ayrı-ayrı mənzillərində) yaşayırdılar. Salman dayı da şəhərdə adlı-sanlı dərzi kimi tanınmışdı.

Yuxarıda təsvir etdiyim tut ağaclarından biri də Qəhrəman dayının həyətində idi.Ağac bol tut gətirmişdi.Onun iri budaqlarının bir neçəsi yola tərəf - bizim oturduğumuz istiqamətə uzanmışdı. Biz cürbəcür söhbətlər edir, danışıb gülürdük. Bu anda Afər heç gözləmədiyimiz halda yola uzanan iri budağın üstündə peyda oldu, sanki göydən düşdü.Kiçik budaqlardan tut dərib yeyirdi. Əynindəki heyva çiçəyi rəngli don sifətilə həmrəng idi, həm də ona çox yaraşırdı. Biz başımızı qaldırıb ötəri ona baxmağa macal tapmamış dostumuz N Afərə tərəf boylanaraq: «Ox, onun boğazından bir öpüş alardım», – dedi. Biz gülüşdük.Bu söhbət ani yarandığı kimi, anda da yaddan çıxdı.Başımız başqa söhbətlərə qarışdı.Afərdən də heç bir reaksiya, səs-səmir çıxmadı.Ünvanına deyilən sözləri eşitmədiyini və ya vecinə almadığını da güman etmək olardı. Onun ağacdan necə düşdüyünü də hiss etmədik. Birdən taxta qurama məhəllə qapısından rəngi ağarmış şəkildə çıxan Afər bir andaca söz atan oğlanın qabağında dayanıb «əclaf» deyərək ona güclü sillə (şəkililər buna «əşrəfi şillə» deyirlər) vurduğunu gördük.

İldırım çaxmasına bənzər bu sillə ilə Afər nifrət və coşub-daşan ehtirasını, qəzəbini, həm də yaşından qat-qat ucada dayanan qürur və mənliyini ortaya qoydu, tək N-ə yox, bizə də möhkəm dərs verdi. Ortaya ölü sükut köçdü...Biz dərhal ayağa qalxdıq, heyrət içərisində donub qalmışdıq. Afər bir az qızarmış halda hərəkətindən qürur duyurmuş kimi başını yuxarı qaldıraraq dönüb qətiyyətli addımlarla özünü qapılarından içəri saldı. Təhqir olunmuş dostumuz N də sanki nitqi tutulmuş kimi heç nə demədən və xəcalətindən üzümüzə baxmadan başını aşağı salıb tələsik evlərinə tərəf uzaqlaşdı.Biz də baş vermiş hadisədən özümüzə gəlməmiş halda evimizə yollandıq.

Afərin bu hərəkəti sürətlə qonum-qonşu arasında yayıldı, təqdir olundu. Hər eşidən onun ünvanına «afərin» dedi, adı ilə əməli arasında bir körpünün olduğunu söyləyənlər də oldu. Bu hadisədən sonra N xeyli vaxt gimcəyə, adam içinə çıxmadı.

Bu hadisə şəxsi ləyaqət hissinin potensialından, insanın özünümüdafiə instinktinin tükənməz gücündən xəbər verirdi.Həmin gündən, həmin andan Afər mənim gözümdə, hafizəmdə (və yəqin ki, çoxlarının da!) qürur məbədi, bir zirvə kimi ucaldı və elə də qalır.

N-lə 1996-98-ci illərdə bir müddət eyni müəssisədə işlədik.Arada görüşərək söhbətləşər, olub keçənləri xatırlayardıq. O, uşaqlıq illərindən ürəyində gəzdirdiyi «mən antiyəm» fikrindən dönməmiş, mövcud quruluşla barışmamış, tez-tez atasının reabilitasiya (bəraət alma) məsələsinə baxmaq üçün müraciət qaydasını soruşar, sanki bu məsuliyyətin, yükün onun üstündə qaldığından çox narahat idi. Lakin nədənsə aidiyyatı orqanlar qarşısında məsələ qaldırmağa cəsarət etmədi.Ürəyindəki yara sağalmamışdı...Elə bu yaranı da özü ilə axirət dünyasına apardı.

İllər ötdü.Qəhrəman dayının ailəsinin və Afərin taleyindən də xəbərim olmadı. Ordu sıralarında xidmət, Bakı şəhərində ali təhsil aldığım illər, nəhayət, şəhərdə yaşayış yerimi dəyişməyim doğma məhəlləmizlə əlaqəmi soyutdu. Və gözlənilmədən, «dağ dağa rast gəlməsə də, insan insana rast gələr» – atalar sözünün yenidən şahidi oldum. Keçən əsrin 80-cı illərinin əvvəllərində Şəki Şəhər Mədəniyyət Şöbəsinin müdiri vəzifəsində işləyərkən SSRİ Mədəniyyət Nazirliyinin Moskva şəhərində təşkil etdiyi bir aylıq seminara getmişdim.Nahar etmək üçün Qorki küçəsindəki bir restorana girdim, lakin növbə olduğuna görə küçəyə çıxaraq orada gözləməli oldum. Küçədən gəlib keçənlərə baxırdım.Birdən qarşımdan Afər keçdi. Bəli bu, o idi. Gözlərimə inanmadım, ani tərəddüd içində qaldım. Yuxarıda nəql etdiyim hadisədən keçən 30 il müddətində onu görməmişdim. Ayaqlarına uzunboğaz payız çəkməsi geymişdi, əvvəlki qətiyyətli yerişilə harasa tələsirdi.Bir anda gözümdən uzaqlaşdı. Arxasınca baxa-baxa qaldım. Tərəddüd içində götür-qoy edirdim: dalınca gedərək ona çatıb özümü təqdim edim? Görəsən, necə qarşılayar? Yad şəhərdə məni tanıyarmı? Daxilimdən gələn ürəyimin səsi-intuisiyam onunla görüşməyə səsləyirdi, lakin qətiyyətim çatmadı.Deyirlər uşağın yaddaşı möhkəm olur. Bəlkə onun vaxtilə N-ə vurduğu «əşrəfi şillə»nin səsi qulağımdan, xofu canımdan hələ də çıxmamış, yaddaşımda möhkəm həkk olunmuşdu. Sanki ovsunlanmışdım...Hər halda mən bir qərara gələnə qədər o gözdən itdi...

İndi də özümü bağışlamır, ürəyimdə təəssüf hissi gəzdirirəm. Gərək bir az qətiyyət göstərib onunla görüşəydim. Nə isə! Qismət belə imiş!

Moskvadan Şəkiyə qayıtdıqdan bir müddət sonra Afərin qardaşı Fikrəti gördüm. O, ali təhsil aldıqdan sonra Sumqayıt şəhərində məsul vəzifələrdə işləmiş, lakin ailəsi dağıldığından özü tək Şəkiyə qayıdaraq ahıl çağında yenidən ailə qurmaq məcburiyyətində qalmışdı. Yanıx məsciddə mühasiblik edirdi. Xeyli əvvəl Moskvada Afəri gördüyümü söylədim və onun müqəddəratı ilə maraqlandım. O, Afərin Bakı şəhərində ərə getdiyini, uşaqlarının ABŞ -da yaşadığını və nəhayət, bu yaxınlarda dünyasını dəyişdiyini söylədi. Əlavə etdi ki, ölümündən bir az əvvəl ata evinə gəlmişdi, vəziyyətimi görüb kədərləndi, ağladı...

ŞAHİD MƏMMƏDKƏRİMOV

1939

Məmmədkərimov Şahid Məmmədiyyə oğlu 1939-cu ildə Şəki şəhərində anadan olub, 1958-ci ildə orta məktəbi, 1980-ci ildə ADU-nun filologiya fakültəsini bitirib, Şəki 43 saylı Texniki Peşə məkəbində pedaqoji fəaliyyətə başlayıb. 1991-ci ildən orta təhsil aldığı 11 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib Şahid Məmmədkərimovun yazıları respublikanın müxtəlif mətbu orqanlarında, o cümlədən, "Şəki fəhləsi", "Şəki," "Şəki təhsili," «Şəki bələdiyyəsi», «Region Şəki"- yerli mətbuatda, "Ədəbiyyat ","Kaspi" "Zaman "," Tumurcuq", "Elitar-pres", "Elimiz Günümüz " və sair respublika qəzetlərində, eləcə də "Ulduz" və Türkiyədə ərsiyə gələn "Kumru", və " Avrasya sanat" jurnallarında və Türk şairi Ahmet Kaytançının, «Azərbaycanın göz yaşları» kitabında, AYB-Şəki filialının "Söz...Söz...Söz..." və Azərbaycan Folklor İnistitutu tərəfindən ərsiyə gətirilən "Bənövşə çələngi " almanaxlarında və bir sıra Türküyədə çap olunan antologiyalarda əsərləri dərc edilmişdir. "Məhəbbətlər arasında" və "Tanrı pıçıltıları" kitablarının müəllifidir.

Alaqaranlıq

Gör nə yaradıbdı haqq,
Gecə, gündüzdən qabaq.
Nazla, həm də utancaq,
Gələr alaqaranlıq.

Nə gündüzə bənzəyər,
Nə gecəyə can deyər,
Ortaqlı paltar geyər,
Gülər alaqaranlıq.

Gəldimi? Yavaş-yavaş,
Şehdən gözlərində yaş,
Keçirib neçə tələş,
Gedər alaqaranlıq.

Şükür, böyük Xilqətə
Bəzək sözə, söhbətə,
Gah səhər, gah zülmətə
Dönər alaqaranlıq.

Qovar dumanı,çəni
Hamıya iman,dini,
Taleyini,bəxtini
Verər alaqaranlıq.

Qarşılayıb səhəri
Milyon illərdən bəri
Naxışı,xeyri, şəri
Bölər alaqranlıq.

Azan-ən şirin avaz,
Çoxu alar dəstamaz,
Bizimlə bircə namaz,
Qılar alaqaranlıq.

Haqlayır

Doğrusu, anlaya bilmirəm nədən
Əyrilər yığılıb düzü haqlayır?
Bir də görürsən ki, susubdur hamı
Alimi naqisin sözü haqlayır.
Tanrı ömür yazıb bizə əzəldən
Alında qırışlar həm sevinc, həm qəm.

Bəs niyə təəccüblə, gözlənilmədən
Deyirlər: «Filankəs yüzü haqlayır?»

Qardaş, bu dünyanın işinə bir bax,
Haqq büküb boynunu, şadlanır nahaq.
Hardasa... Hardasa sönür bir ocaq,
Kül də yavaş-yavaş közü haqlayır.

Lənət oxusaq da şeytana, cinə
Hər gün rast gəlirik onlara yenə.
Görən, niyə işlər olur tərsinə
Astar baş qaldırıb üzü haqlayır.

Heç kəsə demərəm daha dərdimi,
İtirə bilmərəm imanı-dini,
Şahid, fikir etmə,vaxtı gəldimi?
Hər işi Allahın özü haqlayır.

Deyir

Hara gəldi əyilir dilə nə var...
Heç bilinmir əyri deyir,düz deyir.
Gözlərə bax! Hər edilən söhbətin
Yalanını, doğrusunu göz deyir.

Qulağa da zülm edirlər anbaan,
Hər dəqiqə o eşidir min yalan.
Ürək coşur... Bu vaxt ağıl: «Bir dayan
Səbirli ol, heç tələsmə, döz» – deyir.

Ömür keçir doğru, yalan içində.
Yanılırıq, aldanırıq seçimdə.
İnsandı da... Hərəsi bir biçimdə
Keyfi necə istəyirsə söz deyir.

Duyulmamış bənövşənin qoxusu
Quştək uçub uzaqlaşır çoxusu.
Çin olmamış arzuların yuxusu
Qalanacaq ürəyinə köz deyir.

Şahid, axtar hər bir işin uğrunu,
Sən tapınca həqiqəti, doğrunu,
Bir də gördün gəlib ömrünün sonu
Bu dünyadan əllərini üz deyir.

Oyun

Hakimin fiti çalındı,
Başlandı oyun,
Nə fərqi var
adını
nə qoyursuz, qoyun.
Onsuz da,
çıxacaqdır
oyun içindən bir oyun.
Doğrusu,bilmirik biz
oyun içindəyik hər birimiz.
Elə bir oyun ki,
uduzanı
illər sonu bilinər.
Bir xalqın adı,
bir ölkənin ərazisi
yer üzündən silinər.
Eh!...Nələr-nələr?...
Oyunların yaratdığı
əcaib mənzərələr,
tufanlar.....
Zəlzələlər....
Bilməzsən oynayan kim,
oynadan kim,
Gizlində dayanıb hakim,
idarə edir oyunu,
çalır dünyanın toyunu.
Barmağını bir balaca əyəndə
hamı durur ayağa,
Çaldığı havaya
Sümüyünə düşən də,
düşməyən də
başlayır oynamağa.
Hər işin oyundur, əsası,
Dünya oyun dünyası.

AZƏR MUSTAFAZADƏ

1939

Mustafazadə Azər Abdulla oğlu 1939-cu il martın 27-də
Bakıda qulluqçu ailəsində anadan olmuş.
orta məktəbi bitirdikdən sonra "Bakinski roboçi" qəzeti redaksiyasında
ədəbi işçi kimi çalışmışdır (1962-1963).
Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun
tərcümə şöbəsini bitirmiş (1964).
"Literaturnı Azerbaycan" jurnalında ədəbi işçi,
şöbə müdiri və məsul katib (1964-1968).
"Literaturnaya qazeta"nın Azərbaycan üzrə
xüsusi müxbiri (1968-1971),Asiya və Afrika Yazıçıları ilə
əlaqə Respublika Komitəsinin məsul katibi (1971-1972).
Moskvada SSRİ Yazıçılar İttifaqında məsləhətçi (1972-1983). Azərbaycan
Dövlət Nəşriyyat, Poliqrafiya və
Kitab Ticarəti İşləri Komitəsinin sədr müavini (1983-1987). Azərbaycan KP
MK mədəniyyət şöbəsinin müdiri (1987-1988).
Şəki şəhər Partiya Komitəsinin birinci katibi (1988-1990). vəzifələrində
işləmişdir. 1961-ci ildən mərkəzi mətbuatda bədii tərcümələrlə və
müasir ədəbi prosesle əlaqədar publisitik və
tənqidi məqalələrlə çıxış edir.

1969-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.
"Məmməd Cəfər, Cəlil Məmmədquluzadə" (1966),
F.Kərimzadə "Qarlı aşırım" (1971),
Şabir Əhmədov "Yamacda nişanə" (1976),
Mirzə İbrahimov"Mənim həyatımın kitabı" (1979),
təkrar nəşri (1981)və s. tərcümə kitabları
rus dilində çapdan çıxmışdır.
RSFSR-in Əməkdar mədəniyyət işçisi fəxri adına
layiq görülmüş (1982).
Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə
təltif edilmişdir.
1990-cu ildən Azərbaycan Dövlət Nəşriyyatının direktorudur,
ədəbi fəaliyyətini də davam etdirir.

SÖHRAB SƏMƏDOV

1939-2004

Səmədov Söhrab Səməd oğlu 1939-cu il iyul ayının 16-da
Şəki şəhərində anadan olub.
Şəkidə orta məktəbi bitirdikdən sonra
1958-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun
Energetika fakultəsinə daxil olub, 1963-cü ildə həmin institutu bitirərək
energetik ixtisasına yiyələnmişdir.
O, Şəki Şəhər Partiya Komitəsində çalışmış,
Rayon İctimai İaşə birliyində,
Mənzil-Kommunal Təsərrüfatı Birliyində,
Şəhər İşıqlanma İdarəsində rəis və s.vəzifələrdə işləmişdir.
Şeirə, sənətə böyük maraq göstərmiş,
özü də müxtəlif janrlarda şeirlər yazmış,
onların bir qismini yerli mətbuat vasitələrində çap etdirmişdir.
Söhrab Səmədov 2004-cü ildə Şəki şəhərində vəfat etmişdir.

Onun xatirəsi

Dinlə vətən qızı, dinlə el oğlu.
Baharadır mübarək qədəmləriniz
Sənin o vüqarlı baxışlarından
Mehdini,Həzini arayırıq biz.

Çırpınan dalğalar verdi baş-başa
Sahilə qıy vurub qayıdan zaman
Qayalar dalında söykənib daşa,
Yazdın öz hökmünü qorxmaz qəhrəman.

Gah lövhə dalında daldın xəyala,
Sənət dünyasına bir əsgər oldun.
Gah da düşmən üstə atıb qumbara,
Düşmənin külünü göyə sovurdun.

Yağış tək yağanda sərxoş güllələr
Azadlıq yolunda getdin irəli .
Silib yanağını güləndə göylər
Sülhün, azadlığın oldun əsgəri.

Yayıldı hissəyə qara bir xəbər
Sanki dağ titrədi mərmi səsindən,
Tökdü göz yaşını əlvan çiçəklər
Intizar evinin pəncərəsindən.

Yaralı quş kimi çırpındı ürək,
Xəyal dəniz oldu,mən ona yelkən.
Atıb qucağına apardı külək
O, mənalı ömrü vaxtından erkən.

Məni qınamayın, çox çətin olur,
Dostunun dilindən qəmi dinləmək.
Insan var görürsən yaradır, qurur,
Insan var, olmayır üz-üzə gəlmək.

Çəkildi duman, çən vətən düzündən
Gəldi gülə-gülə sevgilim bahar.
Çıxardı odun, alovun içindən
Mənim vətənimi bizim oğullar.

Düşmən sevinməsin, düşmən gülməsin,
Tanınmaz qalmadı o soyuq məzar.
Toxundu torpağa isti nəfəsi
Ana vətənimə gələndə bahar.

Adriatik dənizi sahillərindən
Yetişdi sorağın Azərbaycana.
İzin ver, mən öpüm ağ tellərindən
Siz ey Mehdiləri bəsləyən ana.

Həkim qız

Gecədir... gözümə getməyir yuxu,
Çırpınır qəfəsdə quş kimi ürək.
Həkim qız,dərdimi gözümdən oxu,
Duzlu şeir kimi, gözəl roman tək.

Aylı gecələrin dalıb seyrinə
Varaqla qəlbimi bir kitab kimi.
Qonaq ol şairin könül şeirinə,
O da yarı bölsün öz sevincini.

Gözlərin gözümə dikilən zaman
Azarım bezarım nədəndir demə.
Dərdimi gözümdən özün oxusan,
Arzum çiçək açar, batmaram qəmə.

Alsın sorağını Muğandan,Mildən
Əsirlər qocalsın biz cavanlaşaq.
Bu azad vətəndə, bu azad eldə
Xəstə də sağaldaq, şeir də qoşaq.

Vüqarımızdır

Gecə... sakit-sakit hey əsir külək,
Bir sərinlik dolur boş otaqlara.
Sübh çağı parlayan səyyarələr tək
Dörd yanım baş qoyub çil-çıraqlara.

Min bir ehtiramla keçirəm yanə,
Dünən tək keçdiyim dar küçələrdən.
Alqış vətənimdə insan əqlinə,
Ondakı qüdrətə baş əyirəm mən.

Azad vətənimdə insan əlləri
Elə ki toxunur ana torpağa
Tanımaq olmayır susuz çölləri,
Çevrilir qucağı baxçaya,bağa

Öpür üz-gözümü isti nəfəsi
Yaşıl meşələrin gen dərələrin
Yaratmaq həvəsi, yazmaq həvəsi,
Kök atır qəlbimdə dərindən-dərin.

Bu ucsuz-bucaqsız bəxtiyar ellər
Sinəsi gül açan baharımızdır.
Hər oğlun,hər qızın alnındakı tər,
Əyilmək bilməyən vüqarımızdır.

ARİF ABDULLAZADƏ

1940-2002

Arif Əbdürəhman oğlu Abdullazadə 1940-cı ildə Şəki şəhərində anadan olmuş, 1956-cı ildə orta məktəbi, 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakultəsini bitirmişdir.Nizami adına Ədəbiyyat müzeyində əmək fəaliyyətinə başlamış, bir il sonra Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi vəzifəsindən şöbə müdiri vəzifəsinə qədər bir yol keçmişdir. "Qantəmirin həyat və yaradıcılığı" mövzusunda namizədlik (1966), "Azərbaycan sovet poeziyasında üslublar və istiqamətlər" mövzusunda isə doktorluq dissertasiyalarını (1977) müdafiə etmişdir.60-cı illər ədəbi prosesində üslubu və poetik ifadəsi ilə seçilən şairin "Arzular" (1964), "Könüllərin dünyası" (1966), "Ana dünyamız" (1970), "Sevin Azərbaycanı" (1979), "Sənինlə sənsiz" (1983), "Bəxtimizin kitabı" (1988), "Seçilmiş əsərlər" (1991), "Vsəqda i vsyudu" (M.1976), "Sovet Abşerona" (M. 1986), "Ulu Qorqud" (1999), "Tövbə duaları" (2003) adlı şeir kitabları. "Bir ovuc torpaq", "Duyum", "İşıq zolağı", "Qanlı yaddaş", "Sınaq kürəsi" romanları çap edilmiş, "Aqillər" və "Evlərin axşamları" pyeslərinin müəllifidir.A.Abdullazadənin "Novatorluq və üslub", "Şairlər və yollar", "Şair C.Cabbarlı".

"Od nə keçdi" elmi monoqrafiyaları nəşr olunmuş, "Azərbaycan ədəbiyyatı tarixi" V cildinin, "Ədəbiyyatda şəxsiyyət konsepsiyası" kitabının və bir çox oçerklərin əsas müəlliflərindən biridir. Şeirləri tərcümə olunaraq bir çox ölkələrdə çap olnumuşdur. Arif Abdullazadə 2002-ci ildə vəfat etmiş və Şəki şəhərində torpağa tapşırılmışdır.

Sevin Azərbaycanı

Sevin Azərbaycanı-
tozundan, küləyindən
hərdən bir bezsəniz də,
Əhmədi, Məhəmmədi,
məni, onu, onları
sevə bilməsəniz də.
Onun bir şəhərinə,
onun bir bucağına,
sığışmayan
nə qədər
sevimli məkanları.
Sevin Azərbaycanı -
Baş-başa dağlrını,
əlvan çəmənlərini,
büllur çeşmələrini...
bu dağlar sizin kənddən
keçməsə də, nə olar!
Çeşmələrdən təkcə siz
içməsəz də, nə olar!
Mən uzaqdan yazıram
bu şer-məktubumu,
burdan səmaya qalxsan
yumruq boyda görünər
öz doğma torpağımız.
Bu yumruğa sığışar
nə qədər yaxınımız,
nə qədər uzağımız.
Bu yumruğu açmayın,
qoyun düyünlü qalsın,
açsanız

açılacaq,
neçə rəngə çalacaq
çizgilərlə bölünmüş
əliçi xəritəsi,
bölünəcək bir anda
damarlara,
barmaqlara,
Bakılara,
Gəncələrə,
Qazaxlara...
Sevin Azərbaycanı -
bu torpaqda birləşən
bu torpağın öz içində
bu torpaqdan ayrılan
neçə-neçə mahalları,
şəhərləri,
kəndləri.
Sevin Azərbaycanı -
yumruq boyda bu yeri!

Tələbələr olmasaydı

Küçələri kim bəzərdi
həyat dolu səsiylə,
Kim pozardı dünyanın sükutunu
işıq səsli nəfəsiylə,
kim sevincə, qüssəyə,
gənclik adlı səadətə dözərdi,
kim qol-qola gəzərdi
dostlarla, tanışlarla,
kim doldurardı salonları,
stadionları,
küçələri...
gecələri...
şüarlarla, alqışlarla,
nəğmələrlə, qarğışlarla
tələbələr olmasaydı?!
Şairlərə kim əl çalardı,
şer kitablarını kim alardı,
sözlərdən həsrət çələngi toxunardımı,

məhəbbət romanları oxunardımı,
naşələrə həsrətlər,
inamlara heyrətlər
qatılardımı,
keçələrdə peraşki satılardımı,
konsertlərdə
toy xanəndələrinin zənguləsi,
hind filmlərinə bilet növbəsi
olardımı,
dünyamızın boşluğu ümidlə dolardımı
tələbələr olmasaydı?!

Əsrin insanı üçün

Mənə bir cüt dəmir ayaq,
Arzuların arxasınca
Ömrüm boyu büdrəmədən
gəzə bilim!
Mənə bir cüt polad qanad,
Öz əsrimin bu günəşli,
Bu qaranlıq səmasında,
Fikirlərin, hisslərin
Açılmamış mənasında
Yorulmadan süzə bilim!
Mənə bir cüt şəffaf qanad,
Qulağı kar balıqlara veriləndən,
Xəyalımın
Suya dönmüş dənizində
Üzə bilim!
Gəzə bilim,
Süzə bilim,
üzə bilim,
Bircə dəfə doğulduğum
bu dünyanın
Sevincinə,
Əzabına,
Həsrətinə
İnsan kimi dözə bilim-
yaşayım.

ABDUL QƏNİ

1940 – 2001

Qədirov Abdulqəni Hüseyn oğlu 1940-cı il fevralın 18-də Şəki rayonunun Orta Zəyzid kəndində anadan olub. Orta təhsilini doğulduğu kənd orta məktəbində alıb, Bakı Energetika Texnikumunu, sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsini bitirib. Uzun illər "Azərbaycan gəncləri" qəzetinin redaksiyasında çalışıb, "Naxçıvan" müstəqil qəzetinin baş redaktoru işləyib, ömrünün son illərində isə "Şəvalə" jurnalı ilə əməkdaşlıq edib. Gənc yaşlarından başlayaraq "Abdulqəni Zəyzidli" təxəllüsü ilə, sonralar "Abdul Qəni" imzası ilə şeirlər yazıb.

Abdul Qəni də 1990-cı ilin 20 Yanvar faciəsini öz şəxsi müsibəti kimi qəbul etdi.

Bütün 30 illik arxivini 20 Yanvar faciəsindən sonra yandırdı. Səbəbini soruşanlara cavabı birmənalı olardı: "Sovet hakimiyyətini belə qəddar bilməzdim..." Abdul Qəni 2001-ci il martın 13-də vəfat edib, qəbri doğulduğu kənd qəbristanlığındadır.

"Göz yaşını qurudaq" adlı şeirlər toplusu oğlu Elçin Qədirov tərəfindən çap etdirilmişdir (2003).

Nə bilim?!

Bilməz idim öz dilim yenidən dil olacaq,
Tapınca bir sözü başıma kül olacaq.

Düşmüşəm, gör nə günə, dərdimin əlacı yox,
Əməlim öz canıma tuşlanan sivri bir ox.
Dedilər qeyri dilin bu günə faydası çox,
Sevənlər özgə dili, açacaq, gül olacaq.

Çıx görüm, indi necə çıxırsan el içinə ?
Salamı kim verəcək, öz dilindən keçənə?
Lənət və yenə lənət bizə tərs yol seçənə? !
Tərs yolu seçənlərin gözünə mil olacaq!

Bu azar şaxə atıb, yeriyib qana keçib,
Birinə can veribsə, biriniin yağın içib,
Təkləri heç demirəm, vaxt olub nəsli biçib.
Viranə qalan bağda bəyəm bülbül olacaq!

Biz hələ qanmayırıq, kim uzaqdır, kimdi yaxın,
Qiymətini verəcək kim bu şor ilə yağın!
Yatmışdıq, vaxtı çatıb axır ki, oyanmağın,
Payımız oyanmasa, yenə niskil olacaq?

Çırtma çal, oyna!

Çıprtma çal, oyna, dədə, dar gün arxada qaldı,
Oğlun da aldatmağın əsil vərdişin aldı!

Bilməz idim adamlar böylə kütdü, əfəldi,
İstəyirsən soy, tala necə kefinə gəldi,
Baxacaqlar key kimi guya qoşquda kəldi,
Kalları bir tərəfə, həm dəymişləri kaldı,
Çırtma çal, oyna, dədə, dar gün arxada qaldı!

Bizim işlər dövrəli, həlqə, zəncir sayağı,
Hələ yan-yörəsində vardır beş-on dayağı,
Yəni ki, müftə yeyən, pay uman cüvəllağı,
Qanunu var kim-kimi burda qarmağa saldı,
Çırtma çal, oyna, dədə, dar gün arxada qaldı!

Keyf ilə meydan sula, səbəbini soran yox,
«Haq-hesabı düz elə» deyib bizi yoran yox,
Bu əyri işlər üçün gəlib üzə duran yox,
Söyənləri varsa da, hər söyüşləri baldı,
Çırtma çal, oyna, dədə, dar gün arxada qaldı!

Yoxlamalar dəstəsi sol gəlir, sağdan gedir,
Kiminin payı şordan, kiminin yağdan gedir,
Getsin lap cəhənnəmə, nə gedir bağdan gedir,
Bir sümük də görürsən axşam səninki oldu,
Çırtma çal, oyna, dədə, dar gün arxada qaldı!
Oğlun da aldatmağın əsil vərdişini aldı!

Saymır bizi

Dünən çörək verdiyin, ay qağa, saymır bizi,
Şordan çıxıb, batıbdır çim yağa, saymır bizi.

Üzü dönüb, özgənin qoltuğunda yurd salıb,
O vaxt boyu ucaydı, indi yaman alçalıb,
Gödən elə şişib ki, təkcə kiçik baş qalıb,
Dönüb olub biəməl tısbağa, saymır bizi,
Dünən çörək verdiyin, ay qağa, saymır bizi.

Kömür sifət çevrilib, al-qırımızı nar olub
Onu belə oynadan beş-on qəpik var olub,
Bunun yaramazlığı aləmə lap car olub,
Pota boyun burulmur sol-sağa, saymır bizi,
Dünən çörək verdiyin, ay qağa, saymır bizi.

İndi olub maşınlı, bir ulağı var idi,
Ədəb-ərkan sarıdan tək ona həmkar idi,
Bütün günü gördüyü sən alan nahar idi,
İndi bu tərs-tərs baxır qazmağa, saymır bizi,
Dünən çörək verdiyin, ay qağa, saymır bizi.

Qohumları doluşur vəzifəyə sel kimi,
Ləpələnir, üstünə çaylar axan sel kimi,
Adamların yanından ötüb keçir yel kimi,
Qoşa qanad axtarır uçmağa, saymır bizi,
Dünən çörək verdiyin, ay qağa, saymır bizi.

Arxa hesab eləyir qoşulduğu naxırı,
Anlamayır naxırın necə olur axırı,
Üzü dönər astara açılanda paxırı,
Başa salan yox bunu maymağa, saymır bizi,
Dünən çörək verdiyin, ay qağa, saymır bizi,
Şordan çıxıb, batıbdır çim yağa, saymır bizi

Sevinc yaşları

Elə odlar görmüşəm –
Yanıb qəlbimin başı.
Mənim sinəmə axıb
Başqasının göz yaşı..

Göz yaşı var –
Sevincin, fərəhin nişanəsi.
Göz yaşı var –
Ürəyin dağılmış kəşanəsi...
Əməllər
İnsanların,
Uca başları olsun.
Qoy
Bütün-göz yaşları
Sevinc yaşları olsun!..

Xəzərdə od

Mənimdir həmişə xəzinən, Xəzər,
Özündən –
Özümə baxmaq istərəm.
Dalğan sahilləri dolanıb gəzər,
Qarışıb dalğana axmaq istərəm.

İstilik alanda sərinliyindən –
Şimşək əvəzinə çaxmaq istərəm.
Dəniz sularının dərinliyindən,
Könül sahilinə çıxmaq istərəm.

TELMAN HƏMİDLİ

1940

Telman Azər oğlu Həmidli 1940-cı il avqust ayının 19-da
Şəki şəhərində anadan olmuş,
şəhər 10 saylı orta məktəbi bitirmiş (1957),
sonra Şəki Pedaqoji Texnikumunda təhsil almış,
ali təhsilini isə əvvəlcə Bakı Dövlət Universitetinin
jurnalistika fakültəsində, 1966-cı ildə isə M.Lomonosov adına Moskva
Dövlət Universitetinin foto-jurnalistika bölməsində
davam etdirmişdir. 40 il fasiləsiz "Şəki fəhləsi" qəzetnin
redaksiyasında müxtəlif vəzifələrdə çalışmış,
hələ lap erkən yaşlarından bədii yaradıcılığa maraq göstərmiş.
Beynəlxalq "Oran-pri" mükafatı laureatı,
bir çox kitabların müəllifidir.Amerikanın "Ford-Nyus"
nəşriyyatında Telman Həmidlinin "Kimlərə qaldı dünya"
adlı kitabı nəşr edilmişdir.

Yaz gəlir

Heyrətdən dağlar da
Yerində donub.
Daşların üstündə
Puçurlayır tər.
Buludlar cücəli
Toyuğa dönüb.
Günəşin altında
Eşələnirlər.

Şair xəyallı

Təndir ürəkli,
Polad biləkli,
Enli kürəkli,
Şəki diyarı.

Qızı həyalı,
Oğlu vəfalı,
Özü səfalı,
Şəki diyarı.

Halva gülablı,
Plov xurmalı,
Qonaq-qaralı,
Şəki diyarı.

Sözü məzəli,
Dünya gözəli,
Şair xəyallı,
Şəki diyarı.

Yada sal məni!

Alça çiçəkləyib
üzə güləndə,
Külək ləçəkləri
yerə səpəndə,
Yağış budaqlara
inci düzəndə
Açıb vərəq-vərəq
xatırla məni!
İlin bu çağında
yada sal məni!

Çinar qulağına
tana taxanda,
Bənövşə yamacda
qönçə açanda,
Pətəkdən arılar
pərvazlananda,
Gələn qaranquşdan
xəbər al məni.
İlin bu çağında
yada sal məni!

HACI NİYAZİ İDRİSLİ

1940

İdrisli Niyazi Şəfayət oğlu 1940-cı ildə
Şəki şəhərində anadan olmuş.
1957-ci ildə orta məktəbi.
1965-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmiş.
respublikanın bir sıra şəhər və rayonlarında və
Şəki şəhərində müxtəlif vəzifələrdə çalışmışdır.
2002-ci ildən təqaüdçüdür, müqəddəs Həcc ziyarətində olub.
Hacı Niyazi gənclik illərindən ədəbi yaradıcılıqla məşğuldur.
Şeirləri dövri mətbuatda və almanaxlarda dərc olunub.
Ürfani-didaktik məzmunlu
şeirlər yaradıcılığının əsasını təşkil edir.

Yaddaş

Qocalanda tarım düşdü yadıma,
Götürdüm ki, tar mənə həmdəm olsun.
İxtyarsız "Şur" üstündə köklədim,
Bu yaşımda zil yaramaz, bəm olsun.

Mən çaldıqca düşünürdüm həyatı,
Dədə Qorqud, Koroğlunu, Qıratı,
Kökdən gələn şərqi, muğam, bayatı,
Pərvazlansın, hər şeydən ötkəm olsun.

Vaxt var idi yığışardız siz bizə,
Zaman gəldi, sığışmadıq biz bizə,
Bir gün gələr, otururıq diz-dizə,
Şəriətdən dəm vururıq dəm olsun.

Nəzər saldıq qalanlara arxada,
Başdan gələn çox bulanıq arxa da,
Rəm atarıq fələkdəki çarxa da,
Çalışarıq xatirimiz cəm olsun.

Vətən belə, bostan belə, bağ belə.
Heç demirik həsrət qalıb bağ belə,
Çalışardıq cavan olsaq bax belə,
İstəyərdik quru torpaq nəm olsun.

Sürünməkdən açılmışdı yanımız,
Belə işə yol verərmi qanımız?
Saman altdan su yeridən canımız
Torpaq üstə qəm çəkdi ki, qəm olsun.

Niyaziyəm, başım yaman qarışdı,
Hər əməlim bir arzuma sarışdı,
Dedim bəlkə bu da bir cür yarışdı,
İstəyirəm həm olmasın, həm olsun.

Sarı sarmaşıq

Şirə toplamaqçün qonmaz üstünə,
Səni çiçək sayıb arı, sarmaşıq.
Bitgilər əlindən gəlib zinhara,
Yağısan aləmə, sarı sarmaşıq.

Baxmadın xiyarın cavan yaşına,
Sarmaşıb belinə, çıxdın başına.
Yazıq badımcanın sallaq qaşına
Çəkmisən tor kimi barı, sarmaşıq.

Keşniş, kəvər, şüyüd, bir də ispanaq,
Çöldə tər bənövşə, lalə alyanaq,
Sən sarış bəhrələn, bizsə utanaq,
Deyib nalə çəkir darı, sarmaşıq.

Kökün yoxdursa da, çoxdur toxumun,
Mədəni bitkidən yoxdur qohumun,
Bütün tərəvəzin sən var-yoxunu,
Almısan əlindən, qarı sarmaşıq.

Zəifkən görünür səndə nəvaziş,
Nə bilsin yazıqlar nədir bu gəliş?
Duzundan, suyundan tapdın pərvəriş,
Qarğışdan, nalədən yarı, sarmaşıq.

Niyazi qoruyub bir lək soğanı,
Vallah söyər səni əkib-doğanı,
Heyifdir, onsuz da Allah boğanı
Boğma bir tərəfdən, barı, sarmaşıq.

Möhtacam

Keçib dərələri, aşdım dağları,
Bezdim dolaylardan, düzə möhtacam.
Böhtandan, riyadan, şərdən uzaqda,
Yalanda qıraqda düzə möhtacam.

Düzün də hər yerdə düz yolu vardır,
Amma düz yolun da sağ-solu vardır,
Yolçu xam olanda düz yol da dardır.
Mənzilə aparan izə möhtacam.

Deyəsi sözümü deyə bilmirəm,
Döyəsi adamı döyə bilmirəm,
Dilim bar verməyir söyə bilmirəm,
Ağrımı çıxardan sözə möhtacam.

Əhli dərd istərəm gələk üz-üzə,
Danışaq, eşidək, duraq göz-gözə,
Əyləşək, oturaq, qalaq diz-dizə,
Dizimə söykənən dizə möhtacam.

Yaşaya bilmirəm mən bu biçimdə
Qələndər havası yoxdur içimdə.
Çətinlik çəkirəm düzü, seçimdə
"Yığılın a dostlar", sizə möhtacam.

ELMAN MUSTAFAYEV

1940

Mustafayev Elman Sultan oğlu 1940-cı il yanvarın 4-də Şəki şəhərində ziyalı ailəsində anadan olub. Orta təhsilini doğma şəhərdə 5 saylı məktəbdə alıb. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq və biblioqrafiya fakultəsini bitirib. Gənclik illərində müxtəlif işlərdə çalışsa da, 1978-ci ildən fəaliyyət göstərən (Bakı şəhərində) kitab mağazasına indiyədək də (49 il) rəhbərlik edir. Görkəmli şair B.Vahabzadənin "Kitab sahəsinin professoru" adlandırdığı Elman Mustafayev bütün şüurlu fəaliyyətini kitablara həsr etmiş, yaradıcılığa həvəs göstərmiş, şeir və nəsr nümunələrinin müəllifi kimi özünü təsdiqləmişdir. Dövrü mətbuatda vaxtaşırı çıxış edir. "Kitab əhlinin sərrafı oldum" (2013) adlı kitabın müəllifidir.

Sonet

Həyat amansızdır, insan qərarsız
Tale kölgə kimi laqeyiddir bizə.
Yaşasaq diləksiz, həm etiqadsız,
Xəyallar qəsd edər gənc ömrümüzə.

Sevgilim! Gəl dəyiş verdiyin hökmü,
Qurtar tənhalıqdan, sevindir məni.
Birləşsə qəlbimiz söyləyim düzü,
Eşqimiz fəth edər hər bir zirvəni.

Ah, nə tez dolanır bu aylar, illər,
Gəl çataq sürətə, geri qalmayaq.
Solsa da ömrümüz, gələn nəsillər
Yad edib desinlər: Həqiqətə bax!

Uzaq xəyallardan, müdhişdir anlar
Qurub yaradanlar əbədi yaşar.

Sual

Mən kənar gəzərdim, eşq sevdasından,
Azaddım həyatın bu qayğısından,
Eh Rima, nə üçün tənha qəlbimi
Dindirib titrətdin həyəcanından.

Pozdun sükutumu, aldın səbrimi,
Söylədin, Rimacan sevəcək səni,
Inandım, sevmirəm yalan deməyi,
Könül cuşa gəldi eşqin kamından.

Dedin, səadətdir, sevib sevilmək,
Sevgi gənclik üçün hörülmüş çələng,
Unutdun Elmanı, bəs niyə gerçək?
Acizsən, sualın bu cavabından.

Rübailər

Gülün ləçəkləri açılan zaman,
Bülbülə qəm-kədər dost olar yaman,
Gözəlim, yetirdim səni gül kimi
Özümə ağlaram sübh-axşam nihan.

***

Nifrəti artıbsa sənə dövranın
Incimə, belədir işi dünyanın.
Bir yandan güldürər, şad edər səni,
Bir yandan çülğalar qəmi cahanın.

***

Çalış yaxşılıqla keçsin hər anın
Xeyrinə, şərinə yara insanın.
Doğruluqla yaşa,xəbis olma ki,
Əziyyət verməsin sənə vicdanın.

***

Bağların barını bağbanlar dərər,
Insanlar bu bardan min fayda görər.
Oğurluq eləmə nəfsi qısa ol,
Oğru çapdığını üçcə gün yeyər.

***

Zamanın gərdişi sıxmasın səni,
Səmanın buludu yağış məskəni.
Bu gün qovğa salar, sellər oynadar,
Səhər şəfəqləri çimdirər səni.

***

O qara gözlərin süzülməsində,
Keçmiş gəncliyimin izini gördüm.
Zülfünü oxşadım, rayihəsindən
Müşk ənbər qoxulu bir çələng hördüm.

***

Zəkanın qüdrəti düşdü kəməndə,
İradə sarsılır insan sevəndə,
Bir çarə aradım, əzizim, səndə,
Qəbahət eləmiş çocuğa döndüm.

***

Loğmanlar yurdunun ey adil qızı,
Ülvüsən, sadəsən tale ulduzu.
Nə qədər möhtəşəm qadın nüfuzu,
İdrakın sirrini köksündə gördüm.

Hörmətli şairə

(B.Vahabzadəyə ithaf)

Ey şair, nə üşün şeirlərində
Şikayət duyulur qısa ömürdən ?
Hərdən məcazlarla, gah da sadəcə
Yazırsan həyatın tez keçməyindən.

Mənalar dolusu "İztirab", "Vicdan"...
Bunlar da bir ömrün ilk baharıdır.
Şeirin rübaidən, sonetdən gözəl
Hikmət bağçasının öz nübarıdır.

Həqiqət çarçısı, el aşiqisən,
Sən hisslər təbibi, təmiz əməlsən.
Hələ çox ümmanlar üzüb keçərək
Gizli xəzinələr kəşf edəcəksən.

Yaşayıb yaradıb hey uzun illər,
Xalqıma töhfələr yetirəcəksən .
Üfüqdə bərq vuran o şəfəqlərdən
Bizə ilk müjdəni sən verəcəksən.

ELMİR ŞEYXZADƏ

1941-2002

Elmir Məmmədşükür oğlu Şeyxzadə 1941-ci ildə Şəki şəhərində anadan olmuş, şəhər 7 saylı orta məktəbi bitirmiş (1960), Azərbaycan Dövlət Universitetinin "Kitabxanaşünaslıq" fakultəsində ali təhsil almışdır. Əmək fəaliyyətinə Şumqayıt boru yarma zavodunda fəhlə kimi başlamış (1964-1967), Şəki Şəhər Mədəniyyət Evində müxtəlif vəzifələrdə ; mədəniyyət evində bədii rəhbər, direktor, Füzuli adına mədəniyyət və istirahət parkında direktor, avtoklub müdiri, 1982-ci ildən Şəki şəhər MKŞ-da baş metodist vəzifəsində çalışmışdır. Şeir yazmağa gəncliк illərindən başlamış, mərkəzi və yerli mətbuat səhifələrində şeirləri dərc edilmişdir. Elmir Şeyxzadə 2002-ci ildə faciəli surətdə həlak olmuşdur.

Rəşmə

Keçmiş ömür gündən qalmış yadıgar
Ağacdan ağaca rəşmə alıb bənd.
Köksümə naxışlar salmış ruzigar
Sehrli bir aləm nəqş olub bənd-bənd.

Xəyal keçmişimə salır lövbəri,
Uşaqlıq anlarım gəlir görüşə.
İllərim anadan olandan bəri
Sanki, rəşmə üstə çıxıb yürüşə.

Rəşmənin adətkar tər bədənində
Anamın nəfəsi,ətri duyulur.
Elə bil yenə də yaz səhərində
Ağaclar altında paltar yuyulur.

Anam tələsmədən rəşmə boyunca
Sərir neçə-neçə tər köynəyimi,
Rəşməyə sancaqlar o sanca-sanca
Görmür rəşmə üstə böyüməyimi.

Alaraq ilhamı, gücü elə bil
Rəşmənin üstündə ayaq açmışam.
Rəşmə xatirimdən silinən deyil,
Düz onun ilə doğmalaşmışam.

Rəşmə yaşlanıbdır, ömür-gün keçib,
Yenə insanların xidmətindədir.
Baxma ki, dünyanın suyunu içib
Yenə bir damlanın həsrətindədir.

İxtiyar yaşımda olsam da düzü,
Özüm də bilmədən başqalaşıram.
Unudub dodaqda kəlməni, sözü
Rəşməyə baxdıqca uşaqlaşıram.

Üzümü sıxaraq onun köksünə
Deyirəm rəşməyə mən yavaş-yavaş
Qurumaz nəmliyə qərq olub sinə
Qəlbin nəmliyini qurudaydın kaş.

Rəşmə yola salıb neçə bahar, yaz
Hələ tükənməyib gücü,qüvvəsi.
Süzülən damlalar verib xoş avaz
Yaradır yaşamaq, qurmaq həvəsi.

Kim bilir sabaha o baxa-baxa
Kimlərə xidməti eləyəcəkdir.
Üstündə yıxılıb hey qalxa-qalxa
Nə qədər uşaqlar böyüyəcəkdir.

Oğul gözləyir ana

Qurumuş dodaqları,
Qızarmış yanaqları,
Boş qabları düzübdür,
Rəngli çay da süzübdür,
Təsəlli çatmır ona,
Oğul gözləyir ana.

Gözləyir hey onları,
Ucaboy tərlanları.
Ürəyi nələr deyir,
Ana çörək əvəzi
Qəm yeyir, həsrət yeyir.
Gəlinlikdən pay qalmış
Başında nimdaş çuna,
Oğul gözləyir ana.

Fikirlər qalaq-qalaq,
Səsdədir hər an qulaq.
Toplayaraq gücünü

Daşıyır sinəsində
Övladların yükünü.
Dönüb qəm karvanına,
Oğul gözləyir ana.

Anamın saçları ağarmasaydı

Anamın saçları ağarır dən-dən
Uca dağ başını sanki qar alır.
Xəyala çevrilib ömürdən gedən
İllərin hesabı ağ saçda qalır.

Geriyə qayıtmır ötən hər bir an,
Keçən hər bir günə gün çatmayacaq.
Özümü anama etsəm də qurban,
Anamın saçları qaralmayacaq.

Anam bəhrələnib el nəğməsindən,
Başqa görünməyib heç nə gözünə.
Dünyanın var-dövlət xəzinəsindən
Anam ağ saçları seçib özünə.

Açıq həqiqətdir, deyildir yalan,
Ağ saçın özünün var öz qiyməti.
O olub anamı dillərə salan,
Ağ saçla qazanıb anam hörməti.

Həyat qanunudur, yoxdur bir çara,
Qara bilinməzdi ağ olmasaydı.
Dünyanın üzü də olardı qara
Analar saçını ağartmasaydı.

FADLUN ƏFƏNDİ

1942

Fadlun Əfəndi Məmmədsadiq oğlu 1942-ci il sentyabrın 19-da Şəki şəhərində ziyalı ailəsində anadan olub, natamam orta təhsilini Şəki şəhərində, tam orta təhsilini Bakı şəhərində bitirib (1960). Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil alıb (1960-1965). Hərbi xidmətdən qayıtdıqdan sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunun rəssamlıq fakultəsidə təhsilini davam etdirib (1969-1974). Fadlun Əfəndi əmək fəaliyyətinə AzərbaycanDövlət Radio və Televiziya Komitəsində rəssam-dekorator kimi başlayıb (1967). sonra Azərbaycan Dövlət Musiqili Komediya Teatrında rəssam-dekorator (1968), İncəsənət muzeyində şöbə müdiri (1975-1977),"Azərnəşr", "Yazıçı", "İşıq", "Maarif", "Gənclik" nəşriyyatlarında baş rəssam və bədii redaktor işləyib (1977-2001).O, 2001-ci ildən Respublika İncəsənət Gimnasiyasında müəllim işləyir. Ədəbi fəaliyyətə gənclik illərindən başlamış, "Qobustan", "Türk dünyası" jurnallarında və qəzetlərdə elmi-kütləvi və publisistik məqalələrini mütəmadi çap etdirmiş, sənətşünaslıq elmləri namizədidir (2002). Tədqiqatçı, publisist, rəssam 1981-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Dvenadtsat simvolov i olisetvoreniy"(1998) və "Etnosoznaniye turetskix naradov i ix iskusstvo" (2002) kitablarının müəllifidir.

QURTULUŞ SÜLEYMANLI

1942

Süleymanlı Qurtuluş Məmmədiyə oğlu 1942-ci ildə Şəki şəhərində anadan olub, 1968-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirib.Əmək fəaliyyətinə Şəki İpək Şirkətində toxucu kimi başlayıb, 1965-ci ildən şəhər Mərkəzi Mədəniyyət Evində təlimatçı, Şəhər Mədəniyyət Şöbəsində inspektor, şəhər radio verilişləri redaksiyasının baş redaktoru, şəhər partiya komitəsinin təbliğat-təsviqat şöbəsində təlimatçı, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin sədri, Şəhər Mədəniyyət Şöbəsinin müdiri, Şəhər İcra Hakimiyyətinin humanitar şöbəsində baş məsləhətçi, Şəhər Təhsil Şöbəsində inspektor, Azərbaycan Elmlər Akademiyası Şəki Regional Elm Mərkəzində elmi işçi vəzifələrində çalışmışdır. Kiçik yaşlarından ədəbiyyata, xüsusilə də, poeziyaya maraq göstərən Q.Süleymanlı 1960-cı ildən ədəbi-bədii yaradıcılıqla məşğuldur. "Səbuhi" ədəbi məclisinin üzvü olmuş, ilk "Ana" şeri "Şəki fəhləsi" qəzetində dərc olunmuşdur. Şeirləri, hekayələri, oçerkləri, publisist yazıları yerli mətbuat və respublika qəzetlərində dərc edilmiş, radio və televiziyada səsləndirilmiş, şerlərinə mahnılar bəstələnmişdir. 2003-2010-cu illərdə çap olunmuş "Günəşli dünyam","İnsan ol", "Şəkim mənim", "Dünya və insan" kitablarının müəllifidir.

Olaydım

Namərd əllərindən çörək alınca,
Qərib ölkələrdə məskən salınca,
Əzaba, zillətə, zülmə qalınca,
İndidən dağılıb talan olaydım.

Tamam ərşə çıxıb düzü-düz deyən,
Görünmür şadlanıb,gülərüz deyən,
Mərdin qarşısında doğru söz deyən,
Düşməni aldadan yalan olaydım.

İlahi,sənləyəm gülənə qədər,
Özümü özümdən bilənə qədər,
Anadan doğulub ölənə qədər,
Qəlbi günəş nurlu balan olaydım.

Əhdinə vəfalı yar qalar yara,
Qovuşsun dünyada sevən yar-yara.
Könül simlərini döndərib tara,
Eşqinlə nəğmələr çalan olaydım.

Qurtuluş, Şəkimlə, bu yerlərimlə,
Keçim ömür yolun öz sirlərimlə.
Yaxşı əməlimlə, şeirlərimlə,
İnsanlar qəlbində qalan olaydım.

Ağaclar

Küləklər,tufanlar döyər başını,
Calaq vur,qulluq et,döyər başını,
Barı bol olduqca əyər başını,
Torpağın üstünə enər ağaclar.

Ana təbiətə nifrət eyləməz,
Barını tən bölər,"hörmət"eyləməz,
Paxıllıq eyləməz, qeybət eyləməz,
Danışar,nə də ki,dinər ağaclar.

Yazda yarpaqlanar çiçəklər,güllər,
Torpaqdan canına məhəbbət gələr,
Budaqdan qanadı uçub yüksələr,
Kökünün üstünə minər ağaclar.

Sərinlik gətirər küləklər kimi,
Budağı güclənər biləklər kimi,
Qoyular sərhədə dirəklər kimi,
Göstərər igidlik,hünər ağaclar.

Toxumdan cücərib "uşaq" olacaq,
Köklərdən can alıb budaq olacaq,
Torpaqdan yaranıb torpaq olacaq,
Nə vaxtsa torpağa dönər ağaclar.

Qurtuluş,ağac tək sağlam ol,yaşa,
Köklərin ilişib düşməsin daşa,
İnsantək ömrünü yetirər başa,
Qocalar,quruyar,sönər ağaclar.

Qızım

Qəlbimin nurusan, başımın tacı,
Ana təbiətin özüsən, qızım.
İki qardaşına doğmaca bacı,
Atanın, ananın gözüsən, qızım.

Yerdə günəşimsən, göydə Allahım,
Varım, dövlətimsən, nurlu sabahım.
Ruhum, bədənimsən, həm qibləgahım,
Qəlbimin ən şirin sözüsən, qızım.

Heyranam səndəki böyük qüdrətə,
Görüm düşməyəsən zülmə, zülmətə,
İstərəm çatasan saf məhəbbətə,
Elə bil anamın özüsən, qızım.

Qızlar dünyamızın bəzək tacıdır,
Qızlar kainatın ehtiyacıdır,
Qızım qardaşlara kiçik bacıdır,
Nəslimin, kökümün izisən, qızım.

Nənəm Mələksumə, anam Firatsan,
Qəlbimdən boylanan bir kainatsan,
Odlu Günəşimsən, ölməz həyatsan,
Dünyanın ən gözəl qızısan, qızım.

Görüm səni

Gözəl camalını görsün göz, danış,
Dilini bal eylə, şirin söz danış.
Yalandan uzaq ol, doğru, düz danış,
Ömrün zirvəsində dağ dörüm səni.

Aytək nur işıqlı camal olmusan,
Könül oylağında maral olmusan.
Aşkarda görünməz xəyal olmusan,
Girib ürəyimə, bax görüm səni.

Axtarım mən səni necə bilmirəm?
Dəryasan, içindən keçə bilmirəm,
Bulaqsan suyundan içə bilmirəm,
Çay olub yanımdan ax, görüm səni.

Şəklini gözümün üstən asmışam,
Adını könlümə çoxdan yazmışam,
Ömrün gecəsində yolu azmışam,
Alış, ildırımtək çax, görüm səni.

Qurtuluşam, eşqin əzəli sənsən,
Könlümün söz, şeir, qəzəli sənsən,
Dünyanın birinci gözəli sənsən,
Ölüncə, əbədi sağ görüm səni

ASİM HƏSƏNOĞLU

1942-2013

Asim Həsən oğlu Həmidov (Asim Həsənoğlu) 1942-ci ildə
Şəki şəhərində anadan olub. 1950-1960-cı illərdə
Şəki şəhəri 12 saylı orta məktəbdə təhsil alıb.
ADU-nun (indiki BDU-nun)
fizika fakültəsində oxumuş (1964-1969).
Şabirabad rayonunda (1969-1972).
Bakı Kimya-biologiya təmayüllü
respublika internat məktəbində (1972-1978).
daha sonra Şəki məktəblərində fizika müəllimi.
Şəki şəhəri 11 saylı orta məktəbdə direktor müavini (1991-1992).
həmin məktəbdə direktor işləmişdir (1992-1993).
O, 1957-ci ildən "Nuxa fəhləsi" (sonralar "Şəki fəhləsi", "Şəki")
həmçinin "İpəkçi" qəzetlərində şerlərlə çıxış etmişdir.
Asim Həsənoğlu 2013-cü il noyabrın 22-də
dünyasını dəyişmişdir.

Olar

Öz içində gözəlliyi yaşadan,
Ürəklərdə hərarət,od, köz olar.
Xeyirxahlıq eşqi ilə yaşayan,
Xoş niyyətli, xoş adətli, düz olar.

Ruh yaşayar igidin nərəsində,
Ruh oxşayan ruh çağlayır səsində.
Nicat, dayaq, eşqi əqidəsində,
Söylədiyi doğru, dəqiq söz olar.

Sadiqlərin sədaqətidir həyatı,
İstiqanın hərarətidir həyatı,
Aqillərin həqiqətidir həyatı,
Həqiqətin izi qalar, irs olar.

Duyan kəslər seyr edəndə dünyanı,
Görür sirli-sehrlidir dörd yanı.
Aydın görür düz-tərs hanı,haqq hanı,
Dərin, ayıq, əsl açıqgöz olar.

Həsənoğlu nə can qoyursan hədər,
Axı hədər qoyulan, hədərə gedər?!
Əyri düzəlsin istəsən nə qədər,
Cəhdin, səyin tüstü olar, toz olar.

Gələcəkdir

Hec nə itib-batan deyil,
Haq nahaqla tutan deyil,
Yaxşi, ya pis neylədin bil,
Qabağına gələcəkdir.

Eyləmisənsə yaxşlıq,
Olmusansa xoşqılıq,
Hər kimə etmisə qulluq,
Sorağına gələcədir.

Gül-çiçəyin ləçəyni,
Gözəllərin göyçəyini,
Vəsf eyləsən, nəğmə kimi
Dodağına gələcədir.

Dünyanın sərt qanunundan
Heç dərs almır acgöz insan.
Qocalır heydən düşür can,
Son çağına gələcəkdir.

Asim, etmə giley-güzar,
Hər şeyin son həddi var.
Aşıb-daşsa da çaylar,
Yatağına gələcəkdir.

Ana ürəyi

Nəyə bənzədəsən? Yox bərabəri!
Hər dərdi biləndir ana ürəyi.
Alıb hərarətlə qəmi-qəhəri,
Ürəkdən siləndir ana ürəyi.

Qoymaz yaxın gələ övlada kədər,
Özünü unudar, balanı güdər-
Analar anası təbiət qədər
Böyük, pak aləmdir ana ürəyi!

Mayası mərhəmət olubdur deyə
Rəhmində fərq qoymaz doğma-ögeyə,
Qayğı tellərilə hər bir ürəyə
Bağlanan məlhəmdir ana ürəyi.

Daş da dilə gələr, söyləyər haman:
– Övladam, mənim də anam var, anam.
Zərrədir önündə ən müdrik insan.
Nə böyük aləmdir ana ürəyi!...

Dünyalar sığışan bir cahan olub,
Eşqi damarlarda qaynayan olub-
Asim, bir ilahi ərmağan olub
Allahdan gələndir ana ürəyi!

Ürək, niyə ağlayırsan?

Sənə duyğu, ilham düşüb,
Neçə gözəl məqam düşüb.
Qismət Allahdan yetişib,
Ürək, niyə ağlayırsan?

Başına cəm olub nə var:
Əl, qol , baş , beyin, əzalar.
Ağlasan nizam pozular,
Ürək niyə ağlayırsan?

Həsəd apardı çoxları,
Dalınca "qırdı" çoxları,
Çəkdi çox dərdi çoxları,
Ürək niyə ağlayırsan?

Qayğıları sirdaş bildin,
Nə dərd oldu, üstün gəldin.
Axı ağlayan deyildin,
Ürək, niyə ağlayırsan?

Nə dəyərsiz, ucuz oldun,
Nə təpərsiz, gücsüz oldun.
İnfarktamı aciz oldun,
Ürək, niyə ağlayırsan?

Peşən-sirləri saxlamaq,
Udub dərdləri saxlamaq.
Sənə yaraşmır ağlamaq,
Ürək, niyə ağlayırsan?

Qanadın xoş arzulardır.
Səndə ulu möhür vardır-
Allah adı yazılıbdır,
Ürək, niyə ağlayırsan?

AYDIN MƏMMƏDOV

1944-1991

Aydın Mirsalеh oğlu Məmmədov 1944-cü il yanvarın 16-da Şəki rayonunun Kiş kəndində anadan olmuş, natamam orta təhsilini doğulduğu kənddə, orta təhsilini Oxud kəndində almış, Azərbaycan Dövlət Universitetinin (BDU) filologiya fakültəsini bitirmişdir (1965). Şəki rayonunun Bolludərə kənd məktəbində müəllim kimi fəaliyyətə başladı, Azərbaycan Milli Elmlər Akademiyası sistemində şöhrətli türkoloq, tənqidçi, ədəbiyyatşünas alim kimi şöhrətləndi, həyatda əsl insan kimi onu tanıyanların qəlbinə sığındı.
1969-cu ildə keçmiş SSRİ Elmlər Akademiyası Dilçilik İnstitutunun Türk dilləri bölümünün aspiranturasına qəbul olundu.
Dissertasiya yazmaq üçün asan mövzu yerinə tamamilə yeni və orijinal "Türk dillərində samitlər: anlaut və kombinatorika" mövzusunu seçmişdi. Əvvəllər Nəsimi adına Dilçilik İnstitutunda kiçik elmi işçi, sonra isə AEA-nın ədəbiyyat, dil və incəsənət bölməsində elmi katib işləmiş, 1987-ci ildən "Sovetskaya Türkologiya" jurnalının baş redaktorunun birinci müavini vəzifəsində çalışmış, Bədii Tərcümə Mərkəzinin rəhbəri kimi SSRİ-nin və bütövlükdə bütün dünya türklərinin bir-birini daha yaxından tanıması, onların doğmalaşması üçün ölçüyə gəlməz işlər görmüşdür.
"Türk dillərində samit səslər: sözönü və səs birləşmələri", "Sözümüz eşidilənədək", "Son giley" kitablarının, yüzdən çox elmi, ədəbi-

tənqidi məqalələrin müəllifidir.
SSRİ Yazıçılar İttifaqının, Sovet Türkoloqlar Komitəsinin, SSRİ Altayşünaslar İttifaqının, "Sovetskiy pisatel" nəşriyyatının, "Vətən", "Qayğı" cəmiyyətlərinin idarə, "Ulduz" və "Xəzər" jurnallarının redaksiya heyətlərinin üzvü olmuşdur.
1990-1995-ci illərdə Azərbaycan Milli Məclisinə deputat, respublika Ali Sovetinin millətlərarası münasibətlər üzrə daimi komissiyasının sədri, Qarabağa Xalq yardımı Komitəsinin sədr müavini olmuş, Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə seçilmişdir.
Güclü məntiqə malik, alovlu natiq, Azərbaycan Xalq hərəkatının öncüllərindən biri, ictimai xadim Aydın Məmmədov
1991-ci il aprel ayının 19-da Qax rayonu ərazisində faciəli surətdə həlak olmuş, öz doğma Kiş kəndində dəfn olunmuşdur.

Mən

Ay ellər, obalar, günahım nədir,
Təndir tək alova qalanmışam mən.
Bəxtim ümidimə lap biganədir,
İçimdən, çölümdən talanmışam mən.

Nədən qayalarda sır-sır olmuşam,
Damcı tək bir nova axıb dolmuşam,
Batan günəş kimi nədən solmuşam?!
Yox, bir ömür kimi yanmamışam mən.

Gözümün qarası yollara düşdü

Gözümün qarası yollara düşdü,
İzlərim cığırda sıralandılar.
Hər gündə ömrümdən bir daş sürüşdü,
Anlarım yazıtək paralandılar.

Dumana qarışıb dərəyə doldum,
Sirr olub qapalı ürəyə doldum.
Ceyran sürüsütək bərəyə doldum,
Bəxtimlə ümidim aralandılar.

Güc tapıb beynimi yola gətirdim,
Fikir düzümümü sona yetirdim.
Nə isə qəmli bir dastan bitirdim,
Onda da talelər paralandılar.

Ey dünya, nə daşsan, nə sel, nə qaya,
Bizi həsrət qoydun haq-halal paya,
Sənin bol süfrəndən kəm doya-doya
Neçə min ərənlər yaralandılar.

Bircə Ulu Allah yanımda qaldı

Baş dedi: əl saxla yolun var hələ.
Hiss dedi: gəl mənlə verək əl-ələ,
Məntiqim çaşlaşdı ömür anımda,
Ürəyin alovu yandı canımda,
Gecələr muğamı yadıma saldım,
"Şüştər"in dərdilə bir çimir aldım.
"Rastı" günah kimi gördüm yuxuda,
İstədim könlümü – "Segah" ovuda.
Saz oldu damarım, beynim, bədənim
Xəyala qovuşdu gəlib gedənim.
Mehrimi saldığım düşdü yadıma,
Əl açdım diləndim son imdadıma.
Gözümə tavandan qaranlıq çökdü,
Asiman yükünü üstümə tökdü,
Yandım, alovum da canımda qaldı,
Bircə ulu Allah yanımda qaldı.

Sənin lə bitdi

Yuxum ərşə çıxdı, qəm dilə gəldi,
Yorğun bəbəyimdə nəm dilə gəldi,
Ocaqda son közüm közərdi yenə
Qəlbimdə yaralı sim dilə gəldi.
Dolandı başıma göyün ayazı,
Şaxtaya çevrildi dünyanın yazı,
Şam olub yandıqca əridi yağım,
Beynimə dağ çəkdi öz sinədağım.
Yumduqca gözümü közümü gördüm,
Hər daşda, qayada özümü gördüm.
Yol getdim ayağım sənin lə getdi,
Hər şeyim, hər şeyim sənin lə bitdi.

Mənzərə

Göy açıldı, yer isindi, dəcəlləşdi yağışlar,
Boş yuvanı isitməyə gəldi köçəri quşlar.
Qışdan yaza ayaq açdı ürəklərdə diləklər,
Tumurcuqlu budaqlarda yırğalandı küləklər.
Ayın rəngi, günün rəngi yavaş-yavaş dəyişdi,
Asimanın bərəkəti yerin üstünə düşdü.
Toylar üçün ayaqçılar ayaq açdı, yoruldu,
Sevənlərin bəxt evinin bünövrəsi qoyuldu.
Yollar yolçu diləklədi, izlər düşdü hər yana,
Damarlarda qan isindi, dilək gəldi insana.
Təndirlərdən, ocaqlardan bahar tüstüsü çıxdı.
Qapılar da, bacalar da qonaq yoluna baxdı.
Küsüşənlər barışmağa bir bəhanə gəzdilər,
Qış boyunca yatanlar da, evlərindən bezdilər.
Bahar oldu, ürək doldu, qara bəxtlər açıldı,
Hətta sonsuz evlərə də xoşbəxt toxum saçıldı.
Zirvələrə, yamaclara yol başladı yoxuşlar,
Yeni həyat bünövrəsi qoydu köçəri quşlar!



RƏŞİD SƏMƏDOV

1944

Səmədov Rəşid Umar oğlu 1944-cü il martın 3-də Şəki rayonunun Aşağı Küngüt kəndində anadan olub, doğulduğu kənd məktəbində natamam orta təhsilini başa vurub(1963), Şəki Pedaqoji Texnikumunda təhsil alıb (1963-1968), sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakultəsini bitirib (1977).1978-ci ildək Aşağı Küngüt kənd orta məktəbində tarix müəllimi, sonrakı illərdə kolxozda müxtəlif vəzifələrdə çalışıb, 1999-cu ildən Şəki Pedaqoji Kollecində ixtisası üzrə müəllim işləyir.O, bədii yaradıcılığa 1970-ci illərdən başlamış, şeirləri vaxtaşırı yerli mətbuatda dərc edilmişdir. Qələmə aldığı müxtəlif mövzulu şeirlərində lirik ovqat hakimdir.

Yuxularıma gəl

Ötən o günləri gəl salaq yada
Mən nələr çəkmişəm, xəbərdar ol sən.
Sənsiz mən bir heçəm qoca dünyada,
Görüb həzz almıram gördüklərimdən.

Ay, Günəş gəzəntək gəzirəm səni,
Ulduzlar içində həlqələnmişəm.
Göylərdə saxlayan eşqindir məni,
Əcəb nişanlanıb, bəlgələnmişəm.

Qara saçlarıma daha düşüb dən,
Deyim ki, övladdan nəvəmiz də var.
O uzun yuxunda görürsənmi sən,
Necəyəm, dövlətdən dəvəmiz də var.

Sən mənə ümid ver yuxuma gəlib,
Durum uşaqlara danışım bir az.
Axı sən olmasan döşünü gərib,
Varıma-yoxuma həyan tapılmaz.

Bax

Yaşa qalsa qocalmışam,
Sən qəlbimdə həvəsə bax.
Harda olsan, sən bulaq ol,
Məhəbbətin saf su olsun,
Qəlbimə ax!

Getmə uzaq gözlərimdən,
Məna götür sözlərimdən.
Sən təşnə ol eşqim üçün,
Sözümə bax!

Öz insafın, öz ürəyin,
Düz hökmü var, düz ürəyin.
Aynasıdır göz ürəyin,
Baxırsansa,
gözümə bax!

Deyil

Bu acı ki gənc ömrümə qatılıb,
Bu ocaq ki sinəm üstə çatılıb,
Sönən deyil!
Sənlə gedən aylar,illər,
O fəsillər
dönən deyil!

Dünya olub başıma dar,
Susub durur hər nə ki var,
Dinən deyil!
Yol göyərib,iz itsə də,
Qəbrim üstə ot bitsə də,
Neyləyim mən?!
Sənə sevgim o zirvədən
Enən deyil!

Sənə təşnə məhəbbətim
Aşar, daşar,
Sənli, sənsiz yaşar
ölən deyil,
ölən deyil!



ƏLƏSGƏR DAVUDOĞLU

1945

Salamov Ələsgər Davud oğlu 1945-ci ildə Şəki şəhərində xırda ticarətçi ailəsində anadan olub.
1963-cü ildə7 saylı orta məktəbi bitirib.
Bədii ədəbiyyata məktəb illərindən bağlıdır.
Mütaliəni bu gün də uşaqlıq illərində olduğu kimi sevir.
O. Viktor Hüqo, Drayzer, Balzaq, Cek London, O. Henri, Vilyam Folkner, Servantes, Çexov, Dostayevski, Lev Tolstoy, İsmayıl Şıxlı, Süleyman Rəhimov, İsa Hüseynov və sair görkəmli yazıçıların əsərlərini sevə-sevə oxuyub öyrənmişdir.
Gənc yaşlarında əsasən lirik şeirlər və qəzəllər yazmış,sonralar qələmini nəsrdə sınamışdır.
İlk hekayəsi "Xoşbəxt pişik balaları" 1989-cü ildə "Azərbaycan qadını" jurnalında çap olunmuşdur.
Bundan sonra müxtəlif illərdə "Gəncllik", "Ulduz", " Azərbaycan" jurnallarında və "Kaspi", "Elimiz-günümüz", "Şəki", "Region Şəki", "Günay", "Şəki Bələdiyyəsi" qəzetlərində bir sıra hekayə, miniatür, pritçaları işıq üzü görmüşdür.
2013-cü ildə Ələsgər Davudoğlunun "Bənövşə ətri" adlı hekayələr kitabı nəşr edilmişdir.

Təbəssüm

(pritça)

Məhəbbət bir kitaba sığmır
Uliyam Folkler

Yaddaşlarda qalacaq unudulmaz bir zifaf gecəsidi. Bəylə gəlin qol-boyun ikən bəyin gözlərində yamyaşıl dairələr oynaşdı. Canını soyuq tər basdı. Elə bil gəlin otağının gur yanan çilçiraqları söndü. Gözlərinə qatı zülmət çökdü. Bəy arxası üstə yatağa yıxıldı, yerində qıvrılıb, açıldı. Gözləri heyrət içində tavana dikildi. Son nəfəsdə nə görmüşdüsə ağzı da açılı qalmışdı.

Gəlin yerindən dikəldi, isitməli adamlar kimi titrədi. Dişi- dişinə dəyə- dəyə mələfəyə büründü. Bəlkə də hələ heç kimin eşitmədiyi əcaib səslə çığırdı. Gəlinin səsi kəsilər-kəsilməz, pəncərənin qabağındakı nar ağacında bayquş uladı. Çığırtı və ularti səsləri eyvanda oturan qonaqların qanını damarlarında dondurdu. Ularti səsi təkrar eşidildi. Heç kim yerindən tərpənmədi. Bu ara bayquş qonduğu budaqdan uçub getdi.

... Toy günü, bir daha şeir yazmayacağına gəlin and içmişdi. Dəftər-qələmini, ilham pərisini atası evində qoyub gəlmişdi. Mənim şeirim də, nəğməm də ərim olacaq demişdi. Lakin ərinin ölümündən az keçmiş gəlin andını pozdu, dəftər - qələmə, şeirə, qəzələ könül bağladı. Budaqları pəncərəyə toxunan nar ağacıyla üzbəüz oturdu, göz yaşları içində şeirlər, bayatılar yazdı. Yazdığı misralarda nakam bir qadının ürək döyüntüləri, hıçqırtıları eşidilirdi. Ərinin ölümüylə barışmaq istəmədiyindən şeirlərindən bir elə bədbinlik yağmırdı. Çünki o, ərini ölmüş hesab eləmirdi. Cismən ayrıldıqlarını zənn edirdi. Ruhən yenə də əriylə bir yerdə, bir yataqda idilər. Hər şey necə vardısa, elə də qalmışdı. Təkcə gecələr şeir yazanda varlıqla yoxluq arasında qurduğu "körpü " uçurdu. Yalqızlığı və kimsəsizliyi ilə barışırdı. Yaza-yaza ağlayırdı. Yazdıqlarını nar ağacına oxumamış yatmırdı.

Gecələr göydə Ay bədrlənəndə gəlin ərinin həsrətindən az qala dəli-divanə olurdu. Hər gün gedib-gəldiyi qəbirstanlıq elə bil açıq-aşkar onu səsləyirdi. Həmin o gecə də belə oldu... Səmada bədrlənmiş ayın işığı gəlini "qabağına qatıb" biixtiyar qəbirstanlığa gətirdi. Orda sıralanmış baş daşları apaydın görünürdülər. Gəlin o daşların yanından kölgə kimi keçib getdi. Ərinin uyuduğu qəbrə çatdı, ayaq saxladı, hər gün olduğu kimi indi də baş daşını öpdü, yaylığıyla daşın hər tərəfini sildi,

qəbrin üstündə diz çökdü, daşı qucaqladı. Gah bərkdən, gah səmirsiz ağladı. Hönkürtüsü qəbirstanlığın içində və çölündən eşidildi.

Gəlin qucaqladığı daşdan özgə heç nə duymur, heç nə görmürdü. Bura haçan gəldiyinin, indi gecəmi, gündüzmü olduğunun fərqində də deyildi. O, qəbir daşını bərk-bərk qucaqlamışdı. Elə hey ağlayırdı. Hər şeydən xəbərsiz qəbirdə yatan ərini səsləyirdi. Ağlamaqdan səsi yavaş-yavaş batırdı. Daşı qucaqlayan qolları keyiməkdəydi. Kiminsə ona yanaşdığını, qolundan tutub qəbirdən kənara çəkdiyini duydusa da, müqavimət göstərmədi. Heç başını qaldırıb o adamın üzünə belə baxmadı. Əlindəki yaş yaylığı qəbrin üstünə atıb səsini kəsdi. Yanındakı adamla kəlmə kəsmədən birbaş evə yollandı. Həyət qapısından içəri girəndə çönüb arxasındakı adama baxdı. Ay işığında o adamın üzünü aşkar gördü və tanıdı. Bu hər səhər küçədə rastlaşdığı kişiydi. "Belə eləməyin, xanım, yaxşı deyil,"- deyə o çıxıb getdi.

Nar ağacı çiçəkləmişdi. Hava bürkülü, rütubətliydi. Gəlin nar ağacının kölgəsinə sığınmışdı. İçində gözə görünməz vəlvələ, zəlzələ baş verdiyi onun üzündən, gözlərindən oxunurdu. Vəlvələyə səbəb həmin o kişiydi. Küçədə hər gün onunla rastlaşması və salamlaşması gəlini qorxudurdu. Əlbəttə, bu işdə günahkar o kişi deyildi. İlk salamı da o yox, gəlin ona vermişdi. Əslində kişi gəlinə qarşı biganə görünürdü. Gəlin özü kişinin dodaqlarındakı təbəssümü görəndə əndişələnir, ayaqları əsirdi. Onlar əvvəllərdə bu küçədə rastlaşmışdılar. Onda gəlin nə o kişinin üzünə baxırdı, nə də ayaqları əsirdi. Hər şey qəbirstanlıqdakı əhvalatdan sonra baş vermişdi.

Gəlinin əli hər işdən soyumuşdu. Qəbirstanlığa da hərdənbir, könülsüz gedirdi. Qələm-dəftəri də əlindən düşmüşdü. İlham pərisi daha onu şeir yazmağa səsləmirdi. Çırpınan ürəyi o kişinin əsarəti altındaydı. Çılğın hissilər, duyğular onu gündə yüz dəfə öldürüb, dirildirdi. Çarəsizlikdən, dərdini gecələr nar ağacına danışırdı. Bəzən də havalı adamlartək gah gülür, gah da ağlayırdı.

Gəlin okişidən can qurtarmaqçün yollar arayıb-axtarırdı. Qurtuluş yolunu səmtini dəyişməkdə gördü. Xeyli vaxt başqa yolla işə gedib, gəldi. Lakin o, təbəssümün cazibə dairəsindən çıxa bilmədi. O təbəssüm gündüzlər qəlbinə, gecələr yuxusuna girdi. Gəlin nə rahatlıq bildi, nə də dincəlmək. Nəhayət, o kişini dəlicəsinə sevdiyinin arağacına etiraf elədi. Sevgisi onu həmişəki vaxtda, həmişəki küçəylə işə getməyə təhrik elədi. Yarı yolda uzaqdan o kişinin gəldiyini gördü. Tələş içində addımlarını yavaşıtdı. Geri qayıtmaq istədi, bacarmadı. Ayaqları ağlının yox, ürəyinin

sözünə baxdı. Həsrətinə, istəyinə doğru addımladı. Bir azdan onlar rastlaşdılar və salamlaşdılar. Gəlinin səsi titrədi. İstər-istəməz ayaq saxladı. Hal-əhval tutdular. Kişi gülümsədi, gəlinə nəsə dedi. Gəlin kişinin nə dediyini yaxşı başa düşmədi. Baxışları həsrətində olduğu o təbəssümdə ilişib qalmışdı. O, kişiylə niyə, nədən danışdığını bilmədi. Sonda kişiyə dediyi "səni gözləyəcəyəm" kəlməsi, yayın bu cırhacırında gəlinin canına üşütmə saldı.

Kişi gəlinin yanına gecə gəlmişdi. Özüylə bir dəstə gül, bir də gəlinin evini yıxan təbəssümünü gətirmişdi. Hər şey zifaf gecəsindəki kimiydi. Gəlin zifaf gecəsində geydiyi ağ paltarını geyinmişdi. Otağın çilçıraqları gur yanırdı. Bircə eyvanda oturub bəyi gözləyən qonaqlar yox idi. Nar ağacına qonan bayquş da hələ ki ulamırdı.

Bir azdan otağın işıqları söndü. Buludun arxasından çıxan ay, pəncərədən otağı, qəbirstanlıqda bəyin çatlamış sinədaşını işıqlandırdı.

ARİF QAFFAROV

1945

Qaffarov Arif Qaffar oğlu 1945-ci il avqustun 4-də Şəki şəhərində fəhlə ailəsində anadan olmuş, natamam orta təhsilini başa vurduqdan sonra Şəki Pedaqoji Texnikumunu (1964), daha sonra isə Azərbaycan Pedaqoji Universitetinin dil-ədəbiyyat fakultəsini bitirmişdir (1972). "Şəki fəhləsi" qəzetində 1973-cü ildən müxbir, 1982-ci ildən həmin qəzetdə məktublar şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir.1960-cı illərdən şeir yazmağa başlasa da onları 1970-ci illərdən yerli və mərkəzi mətbuat orqanlarında dərc etdirmişdir. El arasında şair, publisist, əsl ziyalı kimi böyük nüfuz qazanmışdır.O, 1982-ci ildən Azərbaycan Jurnalistlər İttifaqının üzvüdür.

Ürəyim olsa belə

Ürəyim olsa belə,
Onun da minnətilə,
Yaşatmaram özümü,
Xəzəl olub ayaqlara
Mən atmaram özümü.

Gülü qalıbdır

Demə ki, qəlbimdə ilk məhəbbətin
Odu çoxdan sönüb, külü qalıbdır.
Mən isə deyirəm o məhəbbətin
Hələ dərilməmiş gülü qalıbdır.

Çəkil, kədər...Vüsal gəlib...

(Dərdimlə "bezdirdiyim" dosta)

Təbibim, gözəlsiz ömür-gün ahdır,
Bəxt yoxsa, "qızıl taxt" qurma, nahaqdır!
Gözəllər gözümdən düşsə günahdır,
O ləbi-şəkərə baxım-baxmayım?!

Hürküdüb qaçırdım bala ceyranı,
Oğul istəyirəm ala Ceyranı,
Vurğundan əmanət qalan ceyranı,
Ahunun torunu açım-açmayım?!

Yaz şehilə dolu piyalə kimi,
Sinə dağ, mey dolu bir lalə kimi,
Dağların döşündən şəlalə kimi,
Yarın ayağına axım-axmayım?!

Təbibim, uzaqda umanım durur,
Hələ dağ başında dumanım durur

Yaş ötsə də birgə gümanım durur,
Canı eşq oduna yaxım-yaxmayım?!

Gözlər məni yaman yerdə haqladı,
Heç bilmədim, duran yerdə saxladı,
Ürəyin-ürəyimə bağladı,
Üzüyü barmağa taxım-taxmayım?!

Sinəm yurd yeridi dosta-tanışa,
Qoymaram oduma külüm qarışa!
Çəkil kədər! Vüsal gəlib barışa.
Bu dünyadan bir kam alım-almayım?!

Arif, bəsdi, qəmdən uzaq dolan, dur!
Dünya ki, var, hey boşalıb-dolandır.
Yaxşılıq et, yaddan çıxmaz, qalandır.
Qismətimə bir əl açım-açmayım?!

Min bir ovqat üstəyəm...

(Musa Yaquba)

"Sən məni özünə öyrətmə belə",
Dost da olsan bezikərsən, qaçarsan.
Dərdlərimi mənə söylətmə belə,
Qayğılar içində itib-batarsan.

Dünya bir bulanlıq dənizə dönsə,
Toxunsa gözlərin durula bilər.
Harda bir qaranlıq koma görünsə,
Orda ürək odun nur ola bilər.

Suda gəmim, yükü dərd gəminin də,
Ölməkdən yorulub mən dirilmişəm,
Qardaşını itirən düşmənin də
Ayağına daş dəyməsin demişəm.

Kişilər var, papaq-papaq üstündə,
Papaq altındaymış əsl kişilər!
"Ölülər" var, gəzir torpaq üstündə,
Torpağın altına getdi dirilər.

Zənn eləmə bir quruca adam mən,
Külüm altda közüm qalıb axtarsan,
Köksümü yarıb bağrımı al-qan etsən,
Təbib, dərd dolu bir ürək taparsan.

"Dost sözü bölünməz" deyən dostu da,
Xeyli vaxtdır, üzü dönən görürəm.
Qapımı bircə yol döyən dostu da,
Əl çatmaz, un yetməz, itən görürəm!

Könlümü uşaq bil, o aldanandı,
Aldatsan, aldanar bir noğula da.
Elə ki, sındırdın, tez odlanandı,
Əyilməz, qatlanmaz "şah" oğluna da.

...Min bir ovqat üstündəyəm mən yenə,
Payız küləyitək səmtim itibdir.
Dərdim gəlmir nə imana, nə dinə,
Qəm böənövşəm boynu əyri bitibdir.

VAQİF İBRAHİM

1945-1983

Vaqif Əliyar oğlu İbrahimov 1945-ci ilin sentyabr ayının 30-da Şəki şəhərində anadan olmuş.
Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.
Əmək fəaliyyətinə Sumqayıt şəhərində başlamış;
Sumqayıt şəhər Radio verilişləri redaksiyasında redaktor (1968-1970), həmin redaksiyada məsul redaktor (1971-1975).
Ə.Kərim adına Sumqayıt şəhər Poeziya Klubunun sədri (1970-1971).
"Ulduz" jurnalında ədəbi işçi (1975-1976).
Respublika yazıçılarının Gənclik Ədəbi Birliyinin sədri (1980-1983).
Ömrünün sonuna qədər "Göyərçin" jurnalında məsul katib işləmişdir.
Vaqif İbrahimin "Gənclik" nəşriyyatı tərəfindən "Ömür balladası" (1970), "Dünyanın keşiyində" (1974), "Bu torpaqda doğulanlar" (1979), və s. şeirlər, "Baykal-Amur magistralında" (1975), "Mehribanlıq işığı"(1981), "Taleyimə yazılanlar" (1985), "Vaxtla üz-üzə" (1982), "Taleyimə yazılanlar" (1984) kitabları çap edilmiş.
Azərbaycan Komsomolu Mükafatı laureatı (1976).
M.Qorki adına ümumittifaq mükafatı laureatı (1978).
Baykal-Amur Magistralının fəxri inşaatçısı adına layiq görülmüş. SSRİ-Bolqarıstan "Drujba" jurnalı redaksiya heyətinin üzvü seçilmişdir. Şeirləri bir çox xalqların dilinə tərcümə edilərək çap

olunmuşdur.Vaqif İbrahim 1983-cü ildə faicəli surətdə həlak olmuş və Sumqayıt şəhərində dəfn olunmuşdur.
Sumqayıt şəhərindəki 35 saylı məktəb Vaqif İbrahimin adını daşıyır.

Uzaq-yaxın məsafələr

Uzaq məsafə nədir?
Sevmədiyim adamla
aramdakı məsafə
ən uzaq məsafədir,-
yanımda olsa belə.
Yaxın məsafə nədir?
Məni duyan,
anlayan,
sevdiyim bir adamla
aramdakı məsafə
ən yaxın məsafədir,-
günyetməz ulduzda o,
yurd salıb qalsa belə...

Bir gözəl və üç oğlan haqqında ballada

Bir gözəl qıza
Üç gözəl oğlan
meylini saldı:
Birisi-gəzdi,
Birisi-sevdi,
Birisi-aldı...
Gəzən-unutdu...
Sevən-hicranla
dolan buluddu...
Alan-bu qızı
çox ucuz tutdu;
Elə bildi ki,
bir gözəli yox,

nəyisə aldı...
Odur ki, onu
ev əşyaları siyahısına
apanb saldı...
Ey ötən zaman,
Geri dön,dayan!!!
Sevən-pərişan...
Gözəl peşiman.

Bahar gələndə

Sınırdı şaxtanın qəzəbi, kini,
Bahar isitdikcə torpağı, daşı.
Çəkib qamçı kimi şəfəqlərini
Günəş "uf" demədən döyürdü qışı.

Əriyən qar deyil...qışın nəbzini
Tutub...damla-damla kimsə sayırdı...
"Ölümcül döyülmüş" kür uşaq kimi
Bir küncə qısılıb,- navalçalarda
qış ağlayırdı...

Yarpaqlar tumurcuq bələyindədir

Bahardır...sevincdən ağacın gözü
Tumurcuq-tumurcuq yaşardı, doldu...
Sabah açılacaq tumurcuq özü
Yarpağa, çiçəyə bir beşik oldu.

Gözü açılmamış bir bulaq kmi
Ağacın laylası ürəyindədir.
Təzəcə doğulmuş bir uşaq kimi
Yarpaqlar tumurcuq bələyindədir,
Çiçəklər tumurcuq bələyindədir...

Şəfəq əllərilə bu "bələkləri"
Günəş bircə-bircə açacaq bir gün.
Ana gözlərindən itən oğultək
Yarpaqlar tərk edib bu doğma yeri
uçacaq bir gün...

Bənövşə

Kol-qara yapıncılı
Bir adamdır elə bil,
Seyr eyləyir çəməni...
Qara yapıncısıyla
Qısqanc bir ər sayağı
Gizlədib bənövşəni.
Bənövşə şeh içində-
Gözləri yaşla dolmuş
Elə bil bir gözəldir,-
Qaraqabaq qocaya
Ərə getdiyi üçün
Yaman peşiman olmuş...

VAHİD ƏRƏBOV

(Türksoy)

1946

Vahid Ərəbov (Türksoy) Salman oğlu 1946-cı il iyulun 3-də Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, doğulduğu kənddə əvvəlcə 2 *-li yeddillik məktəbdə, sonra isə 1 *-li məktəbdə orta təhsil almışdır. 1963-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun Qərbi Avropa dilləri fakültəsinin ingilis dili şöbəsinə daxil olmuş, institutu bitirdikdən sonra (1968) orada müəllim kimi əmək fəaliyyətinə başlamış, hal-hazırda Azərbaycan Dillər Universitetinin "İngilis dilinin tarixi və leksikologiyası" kafedrasının dosentidir. Vahid Ərəbov (Türksoy) gənclik illərindən ədəbiyyata böyük maraq göstərmiş, şeirləri ilə dövrü mətbuatda müntəzəm çıxış etmişdir. O, bədii yaradıcılıqla yanaşı tərcümə məsələləri ilə də ciddi məşğul olur.Nobel mükafatı laureatı Tomas Elitonun şeir və dram əsərlərini (600 səh), Bernard Şounun dram əsərlərini Azərbaycan dilinə, Azərbaycanın Dövlət Himnini ingilis dilinə, çox sayda şeir, hekayə, povest, roman və dram əsərlərini Azərbaycan dilindən ingilis dilinə və ingilis dilindən isə Azərbaycan dilinə tərcümə etmişdir.Vahid Ərəbov (Türksoy) onlarla kitabın

tərcüməçisi, eyni zamanda bir neçə dərs vəsaitinin müəllifidir.İncə ruhlu, könül oxşayan şeirləri ilə də geniş oxucu auditoriyasında tanınır.

De, necə oldu ki...

De, necə oldu ki, görüşdük bir gün,
Vəfadan danışdıq saatlarla biz.
Tək bircə saatlıq ayrılıq üçün,
Min dəfə qabarıb, çökdü sinəmiz?

De, necə oldu ki, dəyişdi zaman,
Eşqinsə anlarda ilişib, qaldı.
Ömrünün mənimlə gülüb-danışan,
Alovlu çağları hara boşaldı?

De, necə oldu ki, küskün eşqimdən,
Heç kimə deməyə gücüm çatmadı.
Kimsəsiz bir yerdə özüm bilmədən,
Bir daşın üstünə yazdım o adı?

De, necə oldu ki, ordan bir yollux,
Ayrıldım qəbahət edənlər kimi.
Getdim, çöldən evə gedən kimi yox,
Getdim evdən-evə gedənlər kimi?

De, necə oldu ki, tutuldu hər yan,
Göylər də ağladı, yol hələ yarı.
Hamı evə qaçır, mən də qaçıram,
Eşqimin sirdaşı o daşa sarı.

Sənin xəyalın

Sənin xəyalınla yaşayan zaman,
Arzum min-min olur gözüm önündə.
Arzular içində çaşıram bu an,
Bilmirəm hansını seçim özüm də.

Bu nədir? Xəyal ki, arzu deyildir,
Arzular haradan çıxdı bəs bu an?
Arzunu özünlə gətirirsən sən,
Səni xəyallarda tapdığım zaman.

Salxım söyüdə

Afaqın köksündən ucalmadın ki,
Utancaq budaqlar başını əyir.
Sanki yarpaqların qəmli nəğməsi,
Nizami şeirindən misralar deyir.

Görmüsənmi?

Könlümdəki kimdir görən,
sənmi, mənmi?
Bir almanı iki yerə
bölmüsənmi?
Bir ürəkdə iki ömür
yaşayanı görmüsənmi?
Görmüsənmi, xəyal ilə dolu qəlbin
bir anını?
Görmüsənmi, arzuların qolu bağlı
qurbanını?
Görmüsənmi, özü ikən,
özgələşib yaşayanı?
Görmüsənmi, öz qəlbində,
özgəsini daşıyanı?

Qısqanclıq

Qısqanma, əzizim, məni heç zaman
Mənə baxan qıza, gəlinlərə sən.
Eşqimin yadlara kor baxışından
Güc alıb onları susduraram mən.

Qısqanma olduğum sənsiz anlara,
Mən budaq bir kökdə , gülüm, birləşir.
Sən mənim kökümsən, səndən yollara
Ayrılıq da düşür, hicran da düşür.

Sənsən mənim üçün bütöv bir aləm,
Qısqanma dünyanı zərrəciklərə.
Kiçikdir, əzizim, bircə himindən
Yad eşqi, həvəsi milyonlar kərə.

Eşqin günəşimtək yanır gözümdə,
Məni nə günəşə, nə aya qısqan.
Günəşim özümdə, ayım özümdə,
Sənin orbitində hey fırlanıram.

Kim bizi ayırar, bizim adımız,
Bir qəlbdə səslənir-bu, bir həqiqət.
Gülüm, bircə şey var dünyada yalnız,
Mənə oğrun-oğrun tor qurur fəqət.

Yalnız onda alış, yalnız onda yan,
Məni də toruna salacaq bir gün.
Gülüm, təkcə məni torpağa qısqan,
Əlindən əbədi alacaq bir gün.

AŞIQ ŞAKİT KÖÇƏRİ

1946-2010

Şakit Mahmud oğlu Qurbanov –Aşıq Şakit Köçəri
1946-cı ilin oktyabr ayında Dağıstanın Axtı rayonunun
Xnov kəndində anadan olmuş, uşaq yaşlarından ailəsilə birlikdə Azərbaycana
köçmüş, beş il 1962-ci ilədək ustad aşıq Şəmşirdən
aşıqlıq sənətinin sirlərini öyrənmiş, orta təhsilini Şəki şəhərində bitirmişdir.
Azərbaycan Dövlət İncəsənət İnstitutunda
qiyabi yolla ali təhsil almış (1978-1983),
Şəkidə "Molla Cümə" aşıqlar ansamblını yaratmış və
ona rəhbərlik etmiş (1980), Azərbaycan Milli Elmlər Akademiyasının Tarix
İnstitutunun Şəki Arxeologiya və
Etnoqrafiya şöbəsində (1989-2002) çalışmış,2003-cü ildən
Dağıstan Respublikasında yaşayıb yaratmışdır.
"Bacarsan, ye dünyanı" adlı ilk şeirlər kitabı 1998-ci ildə
çapdan çıxmış, "Belə ustad olmazdı" (2007),
Dədə Şəmşirin 115 illiyinə həsr etdiyi "Dədə Şəmşir 115" (2009),
"Demə, ömür bu imiş" (2012) kitabları nəşr olunmuşdur.
Aşıq Şakit Köçəri 2010-cu ilin aprel ayında dünyasını dəyişmiş,
Şəki şəhərində dəfn olunmuşdur.

Qapımı döyən

Qapım döyüldü, sevindim-
Baxtımdı qapımı döyən.
Gec də olsa umduğum,
Taxtımdı qapımı döyən.
Sən demə, aparmağa gələn
Vaxtımdı qapımı döyən.

Demə, ömür bu imiş

Uşaqlığım elə bil ki, dünəndi,
Ürək həmən, istək yenə həməndi.
Boğazımda qayğıların kəməndi,
Açammadım: demə, ömür bu imiş.

"Ya haqq!"-deyir qaçanıyla qovanı,
Sonda birmiş yağlısıyla yavanı,
Çalammadım istədiyim havanı,
Uçammadım: demə, ömür bu imiş.

Naməd qalxdı əridikcə mərd qəmdən,
Ağrı, zərbə ötüşmədi ötkəmdən.
Gidi dünya, ehtiyacdan, dərd-qəmdən
Qaçammadım: demə, ömür bu imiş.

Oyunu-mən, milçək dünya, fil oldu,
Baş qatması bülbül oldu, gül oldu.
Kərəm oldum, arzularım kül oldu,
Qucammadım: demə, ömür bu imiş.

Gümanlarla 50 oldu yaş artıq,
Sabah gora titrəyəcək baş, artıq.
Nurunu gur, -ümid adlı işartı.
Saçammadı: demə, ömür bu imiş.

Çoxdu,neyləsə də çəkib min ahı,
Köçərinin savabından günahı.
İşlərindən mən baş, qadir İlahi,
Açammadım: demə, ömür bu imiş.

Bəsimdi

Nasaz dünyamızın sazı məndədi,
Kökü tarazlıqda qalsa, bəsimdi.
Naşı yetmiş iki hava çalınca,
Ustad bircəsini çalsa, bəsimdi.

Gözüm yox dünyanın var-dövlətində,
Tapdım səadəti məhəbbətimdə.
Bu, müqəddəs, ulu söz sənətimdə
Qismətim halaldan gəlsə, bəsimdi.

Alçalıb ucalmaq xörəyim deyil,
Bir təhər yaşamaq diləyim deyil.
Min qanmaz "sağ ol"u gərəyim deyil,
Bir qanan qədrimi bilsə, bəsimdi.

Nəsil əsl olsa, ucalar başım,
Bədəsil görəndə çatılır qaşım.
Könlümü verdiyim ömür sirdaşım,
İsmətli bir şirin dilsə, bəsimdi.

Sakit, bərəkəti yoxdu ömrümün,
Həsrətlə qurtardı vaxtı ömürümün.
Gülməsə də olar baxtı ömrümün,
Üzümə insanlar gülsə, bəsimdi.

Yaşada

Dodaqdəyməz təcnis

Əsirdi qarnına alçalan insan,
Ya dərdliyə layiq deyil, ya şada.
Sehrli dərgahı haqq-ədalətin
Nahaqqı itirə, haqqı yaşada.

Xain, çətin saxlar şər işlərindən,
Salacaq saçına şər işlərindən,
Canilərin şeytan, şər işlərindən
Axan yaşlar yeri etdi yaş ada.

Halallıqla qazan yaxşı ad, yaşa,
Təskinlikdi axan-yaxşı ad-yaşa,
Aqillik gətirir yaxşı ad, yaşa,
Xətir saxla saqqala da, yaşa da.

Ey ana yer, tanı, nədi insanı,
Aşıq həsrət anlarını il sanı.
İnsanları yaşatdığın il sanı
İnsanlar da kaş ki, səni yaşada.

Qarabağınan

Cığalı təcnis

Dərdi böyük olur əyilməzlərin,
Dağların başında qara bax, inan.
Aşıq, qara bax, inan
Qışdır-qara bax, inan.
Bülbül şurə gələrmi
Gülsüz, qara bağınan?
Canımdan keçərəm, səndən keçmərəm,
Bu dərdi-möhnətlə, Qarabağ, inan.

Hər kəs ki, behşitə açar istəsə,
Yaxşılıq etməyə acar, istəsə.
Aşıq, sızlar ac arı,
Vaxtında çək a carı.
Dostun məhəbbətidir
Ürəyimin açarı.
Allah düyünümü açar, istəsə,
İstəsə, bağlayar qara bağınan.

Köçəri, dost-dosta ayılananda,
Dost da xiffət çəkər, ayıl, anan da.
Aşıq deyər, ayılan,
Hər vaxtı haqqı, ayıl, an.
Sadiq qala yaxşı dost,
Anda ilnən, ayınan.
Şeytan, el haqq deyib ayılan anda
Qatdı başımızı Qarabağınan.

BƏHRAM ÇƏLƏBİ

1946

Mustafabəyli Bəhram Nütvəli oğlu 1946-cı il oktyabrın 26-da
Şəki şəhərində anadan olub,
2 saylı şəhər orta məktəbini (1964), Azərbaycan Neft və Kimya İnstitutunun
energetika fakultəsini bitirib (1969).
Sumqayıt ETİ-də layihələşdirici mühəndis (1969-1972),
BDU-nun fizika kafedrasında laborant (1972-1975),
yenidən Sumqayıt ETİ-də baş mühəndis (1975-1978),
Şəki 43 saylı TPM-də müəllim (1978-1980),
Şəki Şahmat məktəbində direktor (1980-1996) işləmişdir.
Hazırda "Kaspian Oyl", "Azad Azərbaycan", "Avtoritet",
"İnterpolis", "Kriminal xronika" və s. qəzetlərlə əməkdaşlıq edir.
Ədəbi yaradıcılığa gənclik illərindən şeir yazmaqla başlamış,
sonra nəsr yaradıcılığına keçmişdir.
"Diktator Ağakərim" (2003), "Mamlyuk Cəbrayıl" (2004),
"Lotu Bəxtiyar", (I, II, III kitab; 2006, 2007, 2008),
"Dağlı Cavanşir" (2007), "Şəbirabadlı Hikmət" (2007),
"Lotular, cayıllar və ..." (2010), "TT Nəriman (2010),
"Zina Passajskaya" (2013), "Lotu Bəxtiyar (2013),
"Hakimiyyətə doğru yürüş" (2014),
"Rusiya mafiyasının liderləri" (2014), "Yoqa hamı üçün" (2015), "Rövşən
Lənkəranski" (2016) kitablarının müəllifidir.

"Bakılı oğru qadın"

(bir parça)

Dosye: Nikiforova Kalina Mixaylovna 15.07.1945-ci ildə Bakıda anadan olub. Yəhudidir. 30 iyul 1976-cı ildə fırıldaqçılığa görə həbs olunub. 1982-ci lidə kurort şəhəri Tuapsedə valyuta alverinə görə tutulub. Cəzasını Mojayskdakı koloniyada çəkib və bir il sonra Vladimir Bıkovun ("Balda") işə qoşulması sayəsində azadlığa buraxılıb.

26 dekabr 1986-cı ildə yenidən Leninakan şəhərindəki hava limanında əri Sarkisyan Rubik Torqomoviçlə birlikdə saxlanılıb. Çemodanlarında xeyli miqdarda qiymətli antikvariant və zinyət əşyaları olmasına baxmayaraq, az sonra sərbəst buraxılıblar. 1988-ci il fevralın 24-də Moskvada vəfat edib. Cənazəsi təyyarə ilə Yerevana gətirilərək,"Yaponçik"in sabiq arvadı kimi dəfn edilib.

..."Yaponçik"in həbs olunub Sibirə göndərilməsindən sonra onun ailəsinin - Lidiya Ayvazovna, oğlanları Eduard və Gennadinin qayğısını Moskvada böyük nüfuza malik "Çyornıy Kardinal", "Krivonosik" ayamaları daşıyan Otari Kvantrişvili çəkməyə başladı. Moskva obşakının baxıcısı Tsirul da hər ay Lidiya Ayvazovnaya uşaqlarını böyütmək üçün yardım əlini uzadırdı.

"Yaponçik" qanunla Ayvazovadan boşanmışdı. Tutularkən Slavanın başqa bir ailəyə, Kalina və Viktor Nikiforovlara başçılıq etdiyi bütün Moskva zakonniklərinə məlum idi. İvankovun vətəndaş izdivacı ilə yaşadığı qadın – Kalina Nikiforova İttifaqda "xaç anası", "vorovixa" kimi tanınır, oğulluğu Viktor Yuliyeviç Nikiforov isə Rusiyada ən gənc "vor v zakone" tacını daşıyırdı.

İvankov tutulandan sonra Kalina üçüncü dəfə ərə gedib. Vəfat edən zaman Yulya öğru Rubik Sərkisyanın zövcəsi idi. Dəfndə onlarla "vor v zakone" iştirak edirdi. Bakıdan Rudik Ohanov, Baqdasarov, Moskvadan Tayvançik, Professor, Lyova Kropotkinskiy, Yerevandan Poqosyan, Qorasio Muradoviç, Rafik, Tbilisidən Qoqa, Tengiz və sair...

İki il əvvəl Kalina Mixaylovna işgüzarlığına, fantaziyasına və sağlamlığına görə hətta kişi "vor"ları dədəboyu (fora) verərdi. O, yenicə ailə həyatı qurduğu Sərkisyanla Leninakandan təyyarə vasitəsilə xaricə küllü miqdarda ləl-cəvahirat, antikvar, külkə və toz şəklində qızıl, cilalanmamış almaz göndərirdi. Hava limanındakı gömrükçülər bu cütlüyün yüklərini yoxlamadan təyyarəyə yığırdılar.

70-ci illərdə Yuri Qorbatıy əsasən yəhudilərdən təşkilatlanmış və Kalinanın da üzvü olduğu "Xunta" adlı qrupa başçılıq edirdi. Dəstə Sovet İttifaqını tərk edərək İsraılə yollanan yevreyləri qarət etməklə məşğul olurdu.

Yuliya yəhudilərin kütləvi surətdə SSRİ-dən İsrailə daimi yaşamaq məqsədilə köçməsi dövründə daha da varlanmışdı. Gömrük işçiləri arasına öz adamlarını yerləşdirən "xaç anası" İsrailə gedən adamların hansı yüklə vətənə yollanacaqlarını öyrənir və əlaltılarına xəbər verirdi. İçərisi yoxlamadan keçirilən çamadan və çuvalların sahibləri qiymətli əşyalarının yoxa çıxdığını yalnız İsraildəki mənzillərə toxtayandan sonra aşkarlayırdılar.

İş elə qurulmuşdu ki, müştərilər özləri Yuliyanı axtarıb tapırdılar. Hərdən gün ərzində bir neçə telefon zəngi eşidilirdi:

– Ambarsumun dostu narahat edir, - telefondan yalvarış dolu səs eşidilirdi, - deyirdi siz köməklik göstərə bilərsiniz....

Yaxud da:

– Kaleçka salam. Rayadır. Tanımadın?

– Danışın...

– Deməli, tanımadın... Aydındır, gör nə qədər vaxt ötüb. Biz səninlə uşaqlıqda eyni partada oturardıq...

– "Ağ ev"dəki Rayka?

– Nəhayət! Telefonunu təsadüf nəticəsində öyrəndim... Deyirlər tamojennidə etibarlı əlaqələrin var...

Tezliklə uşaqlıq dostları görüşürlər. Kalya Rayanın sənədlərinin toplanmasında yaxından iştirak edir, həm də məsləhətlərini verir.. Konteynerdə qiymətli əşyaların haraya gizlədildiyini yerli-yataqlı öyrənir...

Bir neçə həftə sonra qaldırılan hay-haray, var-dövlətin yoxa çıxması nə milis orqanlarını, nə də gömrükçüləri narahat edir. Oğrunun kimliyi qaranlıq qalır. Ev oğurluğu işlərində onun podelniki bütün ittifaqda tanınan residivist-zakonnik "Balda" idi.

Rəfiqəsi Valentinanın əri nazirlikdə şöbə müdiri vəzifəsində işləyirdi. Hər həftə yeni geyimi, şuası, uzunboğaz çəkmələrini nümayiş etdirən, son modelli "Volqa"da gəzən Valyanı qretveyn içə-içə xarıcdən gətirilən teleseriala baxmağa dəvət etmişdi. Öpüşüb ayrıldıqdan yarım saat sonra Valentina başına gələn bəla haqqında birinci ona zəng vurmuşdu:

– Nə yığmışdım, hamısını aparıblar, Yulka! Şubalar şkafda asılmışdı. Vidakı, pulları, zinyət əşyalarımı gizlətmişdim axı?! Cəmisi bircə saat mənzildə olmamışam. Biz səninlə nə qədər oturduq? Yarım saaat..., qırx dəqiqə...

– Milisə xəbər vermisən? -Yulka süni həyəcanla soruşur.

– Əlbəttə. Xəbər verən kimi sənə zəng vur...

– Dəlisən? Sizin özünüzə iş açа bilərlər... Soruşarlar – bu qədər pul, qızıl, var dövlət haradandır? Ərini işdən çıxarar, hətta qoduqluğa sala bilərlər. On il başıma nələr gətirdiklərini bilirsən ki... Mentlər gələndə de ki, səhv eləmisən, əşyalar tapılıb... Buna görə adamı tutmurlar.Bir qədər deyinib gedəcəklər.

– Sağ ol, Kalya, öyrətdin. Başımı elə itirmişəm ki, nə elədiyimi anlamıram...

...Erməni kriminal aləmi özünü hardasa Yerevanda, yaxud əyalətdə – Moskvaətrafi şəhər və qəsəbələrdə deyil, paytaxtın lap mərkəzində büruzə verirdi. Sretenkadakı "Pomidor" kafesi qanuni oğruların «şalmovka» (keyf məclisi qurduqları daimi yer) oylağı, həm də ciddi qərarlar qəbul etdikləri sxodkalar ofisi idi. Görünür, erməni kriminal aləmi o qədər möhkəmlənmişdi ki, artıq gizli fəaliyyət ona darlıq edirdi.

Buraya əsasən erməni millətrindən olan oğrular – Vaçikos "Şestipalıy" və Rudik Ohanov qardaşları, Qoqa Yerevanski – "Xudoy", Qasoyan Xudo Karloviç, Xoesyan Rafik – "Xoy", Baqdasarov – "Svo", Rubik Sarkisyan – "Professor", Poqosyan Qorasio – Moskvadakı "Armeniya" mağazasının direktoru və sair kimi DTK və Petrovka-38 – də böyük ulduzlar gəzdirən zabitlərin "adamları" toplaşardı. Oğru dünyasında millət məsələsi olmadığını desələr də, "yan"lar çalışardılar ki, onların sxodkalarında hətta slavyan zakonnikləri də iştirak etməsin...

"Brilyant Ağakərim" – Bakıda zinyət əşyaları alverçisi kimi tanınan Əzimoğlunun söylədiklərindən:

– 5 saylı sürət qatarı Sabunçu vağzalından 45 dəqiqə gecikməklə saat 17-00 da tərpəndi. Qatar yola düşəndən bir qədər sonra xüsusi vaqondakı qələbəlik, səs-küy xeyli səngidi. O vaxtlar mağazalarda zərgərlik məmulatları tapılmadığından mən gah əvvəllər srokumu sarıdığım Vorkutadan, gah Povladar-Yakutsk səfərindən, gah da Moskva – Leninqrad mağazalarından ucuz qiymətə «ıjıy» (qızıl məmulatlar) və «blondinka» (brilyant) gətirir, sataraq iki-üç qatına qazanırdım. Stalinin ölümündən sonrakı ikinci beşillikdə ölkədə anarxiya, xaos olduğundan, işbazlar yaxşıca kuş vururdular.

Qatarla Bakıdan Moskvaya gedərkən Yulya-Kalina ilə yaxından tanış oldum. Bu vaxta qədər də onu kriminal uşaqlara yaxınlıq edən "kurapatka" kimi tanıyırdım. Amma iki sutkalıq qatar səyahəti zamanı yəqin etdim ki, bu yeniyetmə qızcığaz mənim kimi oddan-sudan çıxmış patsanlara da fora verə, kukiş göstərə bilər. Özümü yaxşı aşıq atan, kart firladan sanırdım. Xarkovdan Moskvayadək yolu necə gəldiyimi bilmədim. Adicə «duraka» oyununda Yulka mənim 370 manatımı cibiştanladı...

RAMİS MƏMMƏDOV

1947

Məmmədov Ramis Cabbar oğlu 1947-ci il sentyabrın 12-də
Şəki rayonunun Qoxmuq kəndində anadan olub.
Şəki Şəhər 3 saylı orta məktəbi (1964),
Azərbaycan Dövlət İncəsənət İnstitutunun
mədəni-maarif fakultəsini bitirib (1971).
Şəki Şəhər Mədəniyyət Şöbəsində metodist, inspektor (1973-1977),
Respublika Kitabsevərlər Cəmiyyəti Şəki Rayon Şöbəsinin
məsul katibi (1977-1979), Şəki Şəhər Partiya Komitəsinin
təbliğat və təşviqat şöbəsinin təlimatçısı (1979-1984),
Şəki Rayon Mədəniyyət Şöbəsinin müdiri (1984-1992) və
digər məsul işlərdə çalışıb.
2006-cı ildən Respublika Dövlət Arxivinin
Şəki filialına rəhbərlik edir.
Şeir, sənət vurğunu olan Ramis Məmmədovun şeirləri,
yerli və bir sıra mərkəzi mətbuat vasitələrində çap olunub.

Etiraf

Nə qorxu keçirdim, nə də bir təlaş,
Kiminə dost oldum, kiminə sirdaş,
Beləcə qocaldım mən yavaş-yavaş.
Təkliyin əlində üşüyən zaman,
Sevgim çiçək açır gözümdə haman.

Həm acı, həm şirin ömür sürmüşəm,
Özümə təsəlli özüm vermişəm,
Yaxşı da görmüşəm, pis də görmüşəm.
Keçmişə boylanıb tövşüyən zaman,
Cavanlıq istəyi keçir canımdan.

Bu ömür çiynimdə bir ağır yükdü,
Əlimi titrətdi, qəddimi bükdü,
Neçə alışanlar dünyadan kökdü.
Qocalığın küləyi gətirir duman,
Ağarır saçlarım, aman, ay aman!

Ölləm

Hər kəs bilsin, budur mənim şakərim:
Yaxşını yamandan seçməsəm, ölləm.
Mərdlər istəyirsə, canımı verim,
Namərdin qəddini bükməsəm, ölləm.

Aşkarda qaz vurub, xəlvətdə yeyən,
Düz sözə qulp qoyan, şəbədə deyən,
Üzdə can-can deyib, arxadan söyən
Adamın abrını tökməsəm, ölləm.

Ara vuranların həvəsi belə,
Özü bir çal armud, nəfəsi belə,
Abrını tökməyim nədir ki hələ,
Ağzından dişini sökməsəm, ölləm.

Haqqı arayıram, düzü gəzirəm,
Nə bir usanıram, nə də bezirəm.
Nahaqqın kökünü kəsib üzürəm,
Tapdayıb üstündən keçməsəm, ölləm.

Beləcə yaradıb məni allahım
Bu vətən allahım, torpaq allahım,
Daşdan keçərlidir bircə vallahım,
Sınılı könüllər tikməsəm, ölləm.

Adım Ramis Cabbar, saf ürəkliyəm.
Qaya sərtliyimdir, daş biləkliyəm.
Hamıya, hamıya xoş diləkliyəm.
Sədaqət andımı içməsəm, ölləm.

Dad yarımçıq əlindən

Ömür fani, işlər tərs, hünərin var, gəl yaşa,
Çalış, vuruş bir ömrü ləyaqətlə vur başa,
Nəfsinə qul olma sən, başın dəyməsin daşa.
Hərə bəhrə götürsün işindən, əməlindən,
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

Halal ilə haramın xəmri heç vaxt bir olmur,
Anadan biri alim, biri nadan doğulmur.
Yaxşılıq əvəz ilə kündələnmir, yoğrulmur.
Vallah mərd oğullar gəlir mərd kişinin belindən,
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

Bu vətən qucağında kök atıb bitənindir.
Harayına huy verib, dadına yetənindir.
Yaşatmaq da çətindir, yaşamaq da çətindir.
Yaxşı danış, yaxşı din, bal süzülsün dilindən,
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

Barlı, bəhərli bağ sal, o bağın bağbanı ol.
Ürəkləri fəth elə, könüllər sultanı ol,
Dərd əhlinə əl yetir, dərdlərin loğmanı ol,
Üstünə əl açanlar od alsınlar külündən,
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

Şər-böhtandan uzaq dur, yaxşılarla gəz, dolan,
Yalan-palan, riyadır adamı gözdən salan.
Görməz kimsə xəsisi el gözündə ucalan.
Kam al yola verdiyin hər günündən, ilindən,
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

Qəm-kədərə yiyə dur, qocaları yad elə,
Dərdlinin dərdini sor, dərdinə imdad elə,
Sınılı könülləri tik, ürəkləri şad elə,
Qoy arxanca desinlər, evdən yox, getdi eldən,
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

Zirvələrə can atan toz-torpaqda sürünməz,
Nə doğmanın, nə yadın kölgəsinə bürünməz,
Əvəzsiz yaxşılıqlar dilə gəlməz, görünməz.
Güc al öz ömrünün həm bəmindən, zilindən
Çalış bütöv adam ol, dad yarımçıq əlindən.

YUSİF ŞÜKÜRLÜ

1948

Yusif Hacıbala oğlu Şükürlü 1948-ci il oktyabrın 27-də
Şəki rayonunun Baş Şabalıd kəndində anadan olmuş,
natamam orta təhsilini doğulduğu kənddə, tam orta təhsilini
Baş Göynük kənd 1 saylı orta məktəbdə almış (1965),
ADU-nun fizika fakultəsini bitirmişdir (1971).
Qəbələ rayonunun Tola kənd 8 illik məktəbində (1973-1974),
Şəki şəhər 43 saylı Texniki Peşə məktəbində (1975),
Şəki şəhərinin müxtəlif məktəblərində fizika müəllimi (1975-1992),
BDU-nun Şəki filialında baş müəllim (1992-1996),
sonra Azərbaycan Müəllimlər İnstitutunun
Şəki filialında dosent vəzifəsində çalışmış, 2014-cü ildən
AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru işləyir.
1984-cü ildən fizika-riyaziyyat elmləri namizədidir.
Yusif Şükürlü bədii yaradıcılıqla gənc yaşlarından məşğul olur.
"Yetti" elmi-fantastik povesti (1998) və
"Çəhrayı gödəkçə" (2004) kitablarının müəllifi.
2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

"Yetti"

(povestdən bir parça)

Sonrakı gün görüş zamanı Yettinin davranışında ata üçün anlaşılmaz bir dəyişiklik baş verdi. O, gələcək görüşlərdə kənar adamların, məsələn, İslam əminin iştirak etməsi təklifinə qəti etiraz etdi. Bildirdi ki, biz onun mövcudluğuna kifayət qədər inanmışıq və yenidən üçüncü bir adamın da bu görüşlərdə iştirak etməsinə, onunla bağlı növbəti çətinliklərin ortaya çıxmasına ehtiyac yoxdur.

Ata dedi:

– Mən İslam əmiyə söz vermişəm ki, biz birlikdə görüşəcəyik. İndi onun yanında yalançı çıxmaq yaxşı deyil.

Ata, Yetti bildirir ki, heç narahat olmayasan. O elə edəcək ki, ana da, İslam əmi də Yetti ilə görüşmək barəsindəki danışıqları unudacaqlar.

Əvvəlcə ata etiraz etmək istədi. Sonra fikirləşdi ki, doğrudan da üçüncü bir adamın bu görüşlərə cəlb olunmasının necə qurtaracağını heç özü də bilmir. Ona görə Yetti ilə razılaşdı və Tərxana dedi:

– Yettidən soruş görək, Yerdə bizdən başqa ayrı adamlarla da belə görüşləri olub, ya yox?

– Ata, Yetti deyir ki, əvvəlcə biz qurğu ilə (Siz ona UNO-uçan naməlum obyekt deyirsiniz) Krasnoyarsk vilayətinin bir qəsəbəsinə endik. Orada bizi milis maşınları ilə təqib etməyə başladılar. Onlar dörd nəfər idilər və bizi Moskva yolu tərəfə, Drokino qəsəbəsinə qədər izlədilər. Bizim qurğulardan biri şossenin o biri tərəfinə keçib təpəyə endi. Gözlədik ki, milislər bizə yaxınlaşsınlar, bəlkə onda biz onlarla müəyyən əlaqə yarada bilərdik. Lakin onlar da dayandılar. Bizim qurğulardan birinə əmr olundu ki, patrul maşınına yaxınlaşsın. Bu zaman daha bir patrul maşını da gəldi. Onların sayının çox olması və ümumi fikrə gələ bilməmələri bizi məcbur etdi ki, heç bir əlaqəyə girməyək. Beləliklə sizin Yer saatı ilə 48 dəqiqə vaxt itirməyimizə baxmayaraq, oradan uzaqlaşmalı olduq.

– Sizi milis işçilərindən başqa heç kim görməyib? - deyə ata maraqla Tərxanın üzünə baxdı.

Tərxan:

– Ata, Yetti deyir ki, biz üç gün dalbadal yerli vaxtla saat 9-un yarısında o bölgədə bir bataqlıq sahəyə enmişik.Müşahidələrimizə görə Şarıpov şəhərinin bir neçə sakini bizi görüblər, daha doğrusu tamaşa ediblər.

– Tərxan, sən Yettidən soruş görüm, nə üçün onları məhz həmin ərazi maraqlandırır?

– Ata, Yetti deyir ki, onların əlində olan məlumata görə Yer tarixi ilə XX əsrin əvvəllərində Tayqanın üzərində özgə planetdən gələnlərin qurğusu dağılıb. Odur ki, biz də mərkəzin əmri ilə o ərazini müşahidə etdik. İstədik ki, ətrafdakı adamlar ilə də əlaqə yaradaq, bu mümkün olmadı. Çünki orada Tərxan kimi əlaqələndiricimiz yoxdur.

Ata narahatçılıqla:

– İndi Tərxanı da ora aparmaq istəyirsiniz?

Tərxan:

– Ata, Yetti deyir ki, orada Tərxanı heç kəs qəbul etməz. Bu elə vacib də deyil. Biz lazım olan qədər məlumat götürmüşük.

Ata bir anlıq rahatlaşan kimi oldu və Tərxana dedi:

– Yettidən soruş görüm, Tunqusa düşən gəmi olub, yoxsa buz parçası?

– Ata , Yetti deyir ki, biz məlumatları mərkəzə göndərmişik. Nəticə orada işlənilib hazırlanacaq. Yettiyə heç nə məlum deyil.

Ata Yettiyə xitabən:

– Mən başa düşmürəm ki, axı niyə Yer planetinə düşən hər bir asteroid və ya meteorit Sizi bu qədər maraqlandırmalıdır?! Yerə o qədər kosmik cisim düşür ki... - dedi.

– Yetti deyir ki, Yer planetinin müxtəlif göy cisimləri ilə "bombalanması" – Yerdə "Qalaktika idarəsinin" təzahürüdür. Bu "bombalanma" prosesi ilə bağlı Yer qabığında tektonik hadisələr, buzlaşmalar, geomaqnit sahəsinin dəyişməsi və s. baş verir. Bu hadisələr birbaşa olmasa da dolayı yolla özünü göstərir və elmi cəhətdən bizi də maraqlandırır. Bizə məlum olduğuna görə hər 30 milyon Yer ilindən bir Yer planetinin orbiti Apollon asteroid qrupunun orbiti ilə kəsişir. O vaxt Yer planeti o asteroidlərdən biri ilə toqquşası olsa, Yerdən qalxan toz stratosferi tutar və Yer planetində həyatın əsas şərtlərindən biri olan fotosintez hadisəsini ləngidər. Nəticədə bioküllə kəskin azalar və bu da Yerdə sivilin məhvinə gətirib çıxara bilər.

Ata:

– Belə çıxır ki, bizim həyatımızla bizdən də çox maraqlananlar var! - deyə şəhadət barmağı ilə göyü göstərdi.

Tərxan:

– Ata, Yetti sənin bu fikrini təsdiq edir, – dedi.

– Yettidən soruş görüm, heç Yerlə belə toqquşmalar olub?

– Yetti deyir ki, Yer səthində 90-na yaxın kometlə toqquşma ehtimalını təsdiq edən kraterlər var.

İLHAM ABBASOV

1948

İlham Qurban oğlu Abbasov 1948-ci ildə
Şəki şəhərində müəllim ailəsində anadan olub.
ADU-nun hüquq fakultəsini (1971) fərqlənmə diplomu ilə bitirib.
1971-ci ilin avqust ayından prokurorluq orqanlarına
işə qəbul edilərək Qasım İsmayılov (İndiki Goranboy) rayon
prokurorluğunun stajor-müstəntiqi, Yevlax şəhər prokurorluğunun baş
müstəntiqi, daha sonra Mingəçevir şəhər prokurorluğunun baş müstəntiqi,
1975-ci ildə Puşkin (indiki Biləsuvar) rayonunun prokuroru, 1980-1994-
cü illərdə Qutqaşın (indiki Qəbələ), Zəngilan, Qubadlı və Masallı
rayonlarının prokuroru, 1994-2001-ci illərdə Azərbaycan Respublikası Baş
Prokurorluğunun Mərkəzi aparatında Kadrlar İdarəsinin prokuroru,
Təşkilat-analitik idarənin rəis müavini, Analitik informasiya şöbəsinin rəisi,
Kadrlar idarəsinin rəis müavini, Tədris Mərkəzinin rəisi. 1997-ci ilin dekabr
ayından 2000-ci ilin sentyabr ayına kimi
Təşkilat-analitik idarənin rəisi, və s. vəzifələrdə işləmişdir.
Hazırda isə Ədliyyə Akademiyasının baş müəllimi vəzifəsində çalışır. Hüquq
elmləri üzrə fəlsəfə doktorudur.
147 elmi, 440 hüquqi-publisistik məqalələrin,
2 novella və xatirələr kitabının, 1 dərs vəsaitinin müəllifi.
Azərbaycan Jurnalistlər Birliyinin üzvüdü.

"Dövlət qulluğunda fərqlənməyə görə", həmçinin
"Ədliyyə sahəsində fərqləndiyinə görə" medalları ilə təltif edilmiş, Ədliyyə
Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin və
Ədliyyə Akademiyası elmi şuralarının üzvüdür.

Süd qəbulu məntəqəsində

...Sovetlər dönəmində qüvvədə olan qanunvericiliyə əsasən prokurorluq orqanlarının ümumi nəzarət fəaliyyəti var idi. Prokurorluq orqanları səlahiyyətləri daxilində bütün nazirlik, dövlət komitələri, idarə, müəssisə, təşkilat, rayon xalq deputatları Sovetləri icraiyyə komitələrinin, vəzifəli şəxslər, habelə, vətəndaşlar tərəfindən qanunların dürüst və eyni cür icra olunmasına ali nəzarəti həyata keçirirdilər.

Həftənin axırıncı iş günü idi. Rayon Partiya Komitəsinin birinci katibi daxili telefonla mənə zəng edib yanına dəvət etdi. Təxminən 10-15 dəqiqədən sonra rayon partiya komitəsi birinci katibinin qəbul otağında idim. Birinci katibin qəbul otağında oturan texniki katibəsi daxili telefonun trubkasını qaldırıb, mənim gəlməyimi birinci katibə məlumat verdi. Katibə xanım telefonun dəstəyini yerinə qoyan kimi dedi:

– Buyurun keçin, birinci katib sizi gözləyir.

Mən otağa daxil olub birinci katiblə salamlaşdıqdan sonra kabinet sahibi mənə əyləşmək üçün yer göstərdi. Mən əyləşdikdən sonra o dedi:

– Prokuror, məndə olan məlumata görə üzümüzə gələn həftə, yaxud o birisi həftə rayonumuza «Mozalan» satirik televiziya-jurnalının yaradıcı heyəti gələcək, əsasən maldarlıq fermalarının işi ilə maraqlanıb, çəkiliş aparacaqlar.

Təsərrüfatların bir neçəsində və rayon süd qəbulu məntəqəsində olub, gördüyünüz nöqsanların aradan qaldırılmasına öz tövsiyə və tapşırıqlarınızı versəniz, yaxşı olar. Mən birinci katiblə sağollaşıb, iş yerinə qayıdıb, növbəti-ikinci rübün iş planının əl yazısını tərtib etdim və makinada çap etməsi üçün prokurorluğun dəftərxana katibinə verdim.

İlk dəfə rayon mərkəzində yerləşən süd qəbulu məntəqəsinin fəaliyyəti ilə maraqlandım və buna görə də süd qəbulu məntəqəsinə getdim. Məntəqə təxminən yerdən 3 qıç pilləkənli bir mərtəbəli binadan ibarət idi. Eyvandan keçib iri otağa daxil oldum və məni qarşılayan məntəqə müdiri ilə

tanış oldum. Otağın ortasında iri paslanmayan metal çən vardı. Təsərrüfatlardan göndərilən alimün bidonlardakı südü həmin vannaya boşaldırdılar.

Açığını deyim ki, ilkin tanışlıq zamanı məntəqənin ümumi görünüşü xoşuma gəlmədi. Məntəqədə natəmizlik hökm sürürdü. İşçilərin geydikləri xalatlar, eləcə südün töküldüyü iri vannanın bir tərəfində təxminən bir metr məsafədə 6-7 emallı birlitirlik süd qabları diqqətimi cəlb etdi. Məntəqə müdirindən bu qabların nə üçün bura qoyulduğunu soruşdum. Bunu görən məntəqə müdiri çox pərt oldu və başını aşağı dikərək susdu. Fikirləşdim ki, yəqin müdir məni başa düşmədi. Ona görə bu qabların kimə məxsus olmasını və bura nə üçün qoyulmasını təkrar soruşdum. Müdir yenə dinmədi, hiss etdim ki, o suala cavab verməkdə çətinlik çəklir. Ona görə də bu sualı təkrar soruşdum. Bu zaman işçilərdən bir qadın mənə yaxınlaşıb dedi ki, bu süd qabları rayonun bir sıra rəhbər işçilərinindir. Bu sözü eşitcək məntəqə müdirinə dedim ki, bir də bu qabları burada görməyim.

Səhəri günü məntəqəyə bir də baş çəkdim, yenə həmin qabları südün qəbulu vannasının yanında eyni ardıcıllıqla düzüldüyünü gördüm. Mən sarı rəngdə olan emallı birinci süd qabını götürüb məntəqənin həyətinə tulladım və dedim:

– Axı, dünən sizə dedim ki, bu qabları bir daha məntəqədə görməyim. Dünənki həmin qadın lap astadan dedi ki, həyətə atdığınız südqabı rayonun yüksək vəzifəli şəxsinə məxsusdur.

Üzümü məntəqə müdirinə tutub dedim ki, heç bir şəxsə, o cümlədən, rəhbər vəzifəli şəxsə qanunun tələbini pozmağa yol verilmir. Onu da əlavə etdim ki, bir də belə hal aşkar olunarsa, bu haqda müvafiq tədbir görüləcəkdir.

Orada mənə aydın oldu ki, kolxoz və sovxozlarda, bir sözlə, təsərrüfatlarda sağılmış südlər təsərrüfatın özündə keyfiyyət göstəriciləri təhlil edilmədən süd qəbulu məntəqəsinə gətirilir və məntəqədə aparılmış təhlilə görə təhvil verilir. Bu isə məntəqə tərəfindən təsərrüfatların aldadılması ilə nəticələnir. Vəziyyət barədə məntəqə müdirinə bildirdim ki, bu gündən sonra keyfiyyət göstəriciləri təhlil edilmədən südü qəbul etmirsiniz, buna sizin ixtiyarınız yoxdur. Əgər belə hal bir daha aşkar olunarsa, buna təsərrüfatların aldadılması kimi qiymət veriləcəkdir. Üzümü məntəqə müdirinə tutub dedim:

– Sizə aydın oldumu?

Məntəqə müdiri, sadəcə olaraq, başını yelləməklə münasibət bildirdi.

Kolxoz və sovxozlarda aparılan yoxlamalar zamanı da bir daha təsdiq

olundu ki, bəzi təsərrüfatlarda sağılan südün keyfiyyət tərkibi müəyyən edilmədən rayon süd qəbulu məntəqəsinə təhvil verilir, məntəqə işçiləri isə bu vəziyyətdən istifadə edib, özlərinin istədikləri nəticələri qaiməyə yazırdılar. Ona görə də süd qəbulu məntəqəsinin müdirini prokurorluğa dəvət edib, ona gələcəkdə bir daha belə hallara yol verməkdən çəkindirmək haqda rəsmi xəbərdarlıq etdim.

Növbəti həftənin birinci günü mənə məlumat çatdı ki, «Mozalan» satirik tele-jurnalının çəkiliş qrupu artıq rayona gəlib və sovxozların birinin fermasında çəkilişə başlayıb. Təxminən iki saatdan sonra mənə məlumat çatdı ki, çəkiliş qrupunun üzvləri mal-qara fermasında videoçəkiliş apararkən qrupun üzvlərindən biri elektrik cərəyanın gərginliyi altına düşüb, buna görə də videoşəkilişləri dayandırıb bütün heyət Bakıya qayıdıb..

AKİF SALAMOĞLU

1949

Salamov Akif Salam oğlu 1949-cu il yanvarın 21-də Şəki şəhərində anadan olub. Şəki şəhər 10 saylı orta məktəbi 1966-cı ildə qızıl medalla bitirib. 1972-ci ildə Azərbaycan Politexnik İnstitutunda "İnşaat-mühəndisi" ixtisasına yiyələnib. 1973-cü ildə əsgəri xidmətdə olarkən böyük mühəndis vəzifəsində işləyib. "Azərkommunlayihə" institutunda, "Şəki-qaz" istismar idarəsində. Dövlət qazlaşdırma komitəsi aparatında müxtəlif vəzifələrdə işləməklə bərabər yaradıcılıqla da məşğul olub. "İpəkçi" (Şəki), "Şəki bələdiyyəsi", "Lenin bayrağı" (Oğuz), "İrəli" (Kürdəmir), "Qala" (Masallı) kimi əyalət qəzetlərində dərc olunmaqla yanaşı, respublika mətbuatında - "Kirpi", "Müxbir" jurnallarında, "Sovet kəndi", "Mozalan" qəzetlərində yazıları ilə çıxış etmişdir. 1999-cu ildə "Təmsillər və hekayələr", 2004-cü ildə "Gülən gözlər", 2008-ci ildə "Ədilxan" 2015-ci ildə isə "Oralar necədir?" kitabları çap olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıdır. 1796-1841-ci illərdə ömür sürmüş görkəmli Şəki şairlərindən olan Molla Qasım Zakir Nuxəvi onun ulu babasıdır.

Ulu babam

İlkin şeirlərimi ulu babam yazıbmış,
Sonra həmayil edib ruh boynumdan asıbmış.
Ahəstə pıçıldayıb qulağıma hər sətri,
Misralar arasından duymuşdum lalə ətri.
Özü ilə yox olmuş itən, batan şeirlər,
Yəqin hiss edibmiş ki, başqa ruhda dirilər.
Sənin bu bəxşişini mən qəbul etdim dəxi,
Ay mənim şəhid babam, Qasım Zakir Nuxəvi!

Esse

İnsan kimdir? Arzuları uzun-uzun,
Ömrü qısa, tamahı çox,
Elə sanır günahı yox.
Çox şey istər bu həyatdan,
Ona görə kədərlidir.
Bu dünyasa qəhərlidir.
İnsan nədir? Mərhəməti, insafı yox,
İstəyi çox, tamahı çox.
Alır yığır taxta-tuxta, dəmir-dümür,
Bu həyatdan çox şey umur.
Həyat qısa, arzu uzun,
Zaman çatmır,
Uzun-uzun arzuları başa vursun.
Başın hansı daşa vursun?
Ki, gəlsin ağlı başına.
Yazılacaq başdaşına,
Qısa ömrü, bir də adı,
Çatmayacaq nə imkanı, nə imdadı,
O dünyadan bu dünyaya,
Adi, sadə bir corab da,
Apara bilmirsə insan,
ki, ayağı üşüməsin,
İsti olsun, çox da dərin düşünməsin.
Nədir insan, kimdir insan?!
O həqiqi, yoxsa kabus, yoxsa yalan?
Əvvəli kim, axırı nə!

Esse

Nə zaman bitəcək,vicdansız hicran,
Bir dəqiqə yoxdur hicrandan aman,
Tənhalıq da sıxır köksümü yaman,
Qohumlar, qonşular bir fayda vermir.

Elə hamı gendən sorur halımı,
Duyan yoxdur yaxından əhvalımı,
Can-ciyərlərin də çıxıb zalımı,
Hülya nəvəm gəlib bir çay da vermir.

Bir qocaman ata yurdu, bir də mən,
Kədəri, qüssəni aparır həmən,
İkicə ay burda olursam həmdəm,
Bu zövqü kənarda on ay da vermir.

Namünasib dostluq

Zürafəylə dostluq edəndən bəri
Heç yox idi boz Dovşanın təhəri,
Bir kəlmə söz pıçıldamaqçün ona,
Gündə yüz yol çıxırdı nərdivana.

Arxa

Alandan Pələngin qızını Ayı,
Meşədə artmışdı onun bal payı.
Həmişə Ayını sancan arılar,
İndi ona nəğmə oxuyurdular.

Yaramadı

Düyünü döydülər hər addımbaşı,
Döyülməz düyüdən aş olmaz – deyə.
O qədər döyüldü, lap xırdalandı,
Nə aşa yaradı,nə də xörəyə.

Küsü

Ayı meşədən küsüb,
Meşənin xəbəri yox.
Dəvə ərəbdən küsüb,
Ərəbin dərd-səri çox...
Küsülülər hər şeyi,
Özünə dərd eyləyər.
Küsü mərdin qəlbinə,
Dolub naməd eyləyər.

Təzadlar

İt tutmuş qadını əri də döydü,
Hələ azmış kimi üstəlik söydü,
Sonra dost yanında özünü öydü.
Qeyrətinə mən nə deyim, a millət,
Adam da çəkərmi bu qədər zillət?

Əri ola-ola çoxuyla gəzdi,
Bundan nə utandı, nə də ki, bezdi,
Xəbərsiz yazır ər üstündə əsdi,
Qeyrətinə məəttələm, a millət,
Bütün sirlər aşkar olacaq əlbət.

FİKRƏT XALIQOV

1949

Xalıqov Fikrət Ramazan oğlu 1949-cu ildə
Şəki rayonunun Baş Layısçı kəndində anadan olmuş,
doğulduğu kənd orta məktəbini bitirdikdən sonra (1966) M.F.Axundov adına
ADPİ-nin Avropa dilləri fakultəsində alman və Azərbaycan dilləri ixtisası
üzrə ali təhsil almışdır (1966-1971).
"Mil-Qarabağ düzü rayonlarının toponimiyası"
(Ağdam, Ağcabədi və Bərdə rayonlarının materialları əsasında) mövzusunda
namizədlik (1984).
"Azərbaycan dilinin folklor onomastikası" mövzusunda doktorluq
dissertasiyasını müdafiə etmiş (2004), filologiya elmləri doktoru,
professordur. 2 cildlik "Folklor onomastikası" (I c-1997, II c-2000)
"Azərbaycan onomalogiyası" (2010) kitablarının müəllifi, "Azərbaycan
toponimlərinin ensiklopedik lüğəti"nin (2007)
əsas müəlliflərindən biri, "Şəki, Alim və ziyalılar" (I c-2002, II c-2007) müəllif
və tərtibçilərindən biridir. Folklorda ad məsələlərinə həsr edilmiş 40-dan
artıq elmi məqalənin, dilçiliyin digər sahələri ilə bağlı,
eləcə də Azərbaycan-alman dil əlaqələrinə həsr edilmiş
onlarla elmi araşdırmanın, elmi-metodik vəsaitin müəllifi,
xəyli dərs vəsaitinin və monoqrafik tədqiqatların
redaktoru və ya rəyçisidir.

"Folklor onomastikası"

(bir parça)

Qədim tarixə malik Azərbaycan folkloru dərin ideya-siyasi məzmuna, janr zənginliyinə malikdir.Nağıl, dastan, bayatı, atalar sözləri, rəvayət və əfsanələr uzun əsrlər xalqın mənəvi dünyasına təsir göstərmiş, düzlük, doğruculluq, qəhrəmanlıq, ədalət, vətənpərvərlik kimi ümdə hisslərin yaranmasında mühüm rol oynamışlar.Bu gün də özünün tərbiyəlilik məzmunu saxlayan folklorumuz əsrlərin sınağından çıxmış və insan ruhunun, onun kamilliyinin ayrılmaz hissəsi olan mənəvi dəyərlərin yayılmasında əsas faktorlardan biri kimi özünü təqdim etməkdədir.

Məişətimizə folklordan daxil olmuş Koroğlu, Nigar, Nəbi, Həcər, Əsli, Kərəm, Məlikməmməd, Məlikəhməd onların iştirak etdikləri nağıl və dastanlarda insanı təəccübləndirən sehrli aləminə görə yox, igid, qəhrəman, mərd, qorxmaz, elini, yurdunu dərindən sevən olduqlarından rəğbətə layiqdirlər.Onu da qeyd edək ki, bu xüsusiyyətlərə Azərbaycan folklorunun bütün növlərində rast gəlinir.Nağıllar əsasında xalqın istək və arzuları haqqında özəl tədqiqat əsərləri yazmaq imkanını qeyd edən mütəffəkkirlər öz fikirlərində tamamilə haqlıdırlar.

Folklorda işlək olan yüzlərlə onomastik vahidlərin elmi tədqiqata cəlb edilməsi elin mənəvi sərvətinə dərin məhəbbətin və tarixi keçmişimizə olan ciddi marağın nəticəsidir.Elin gözəl qızlarının Nogar, Əsli, Həcər, Məhbub, Ruqiyyə, Selcan, igid oğullarını Eyvaz, Nəbi, Rövşən, Tural, Kərəm adları bugünkü başlanğıcını şifahi xalq ədəbiyyatından götürmüş, bugünkü antroponimikin tərkibinin ən ləyaqətli onomastik vahidləridir.

Dastan və nağıllarda əxlaqi gözəlliklə zahiri gözəlləyin bir birini tamamlamasına nümunə kimi məhz Nigarın, Ruqiyyənin və başqalarının və eləcə də Məlikməmmədin, Koroğlunun fərdi xüsusiyyətləri özünəməxsus bədiiliklə ifadə olnumaqla onların xarakterlərinin mühüm cəhətlərini də açıb göstrir: "Koroğlu mərd adamdır, sevdiyi şey mərdlik, qoçaqlıqdır", "Məhbub xanım çox ağıllı qız idi, belə şey çox az düşər ki, bir adam həm gözəl olsun, həm də ağıllı, kamallı.Ağılda, kamalda Əflatuna doğmalıq edərdi, Loğmana əflatunluq" və s. fikirlərə əsasən dastan surətlərinin həm daxili, həm xarici və həm də mənəvi aləmi barədə bütöv təsəvvür əldə etmək mümkündür.

Folklorda gözəllik, bütövlük və s müsbət xüsusiyyətlərlə yanaşı eybəcərliyin təsviri də geniş yer tutur.Eybəcərliyin tənqidi, gözəlliyə qarşı qoyulması prosesində isə gözəlliyin təsdiqi daha da parlaqlaşır.

Nağıl və rəvayətlərə Zümrüd quşu, Simiurq quşu, ağ qoç, at, göyərçin və s.xeyiri; qarı, div, əjdaha, dərviş, kosa, qara qarğa şəri təcəssüm etdirən real və qeyri-real varlıqlar kimi xarakterizə edilir.

Div surəti folklorda insana düşmən, onun əlindən gözəlliyi zorla alan, gözəl qızları oğurlayıb saçından asan, onlara əziyyət verən, həyat almasını oğurlayan bir varlıq kimi dərk olunur, onun qəddar, xain, qatil, vəhşi, zorakı, zülümkar xüsusiyyətləri, əsasən məsum, incə, zərif, günahsız varlıqların müsbət əlamtlərinə qarşı qoyulur.Yaxşılığın, azadlığın şər qüvvələr tərəfindən məhv olunduğu xüsusiyyətlər rəmzi xarakter daşıyır.

"Simanın nağılı"nda Xan-xani Çin qızı Pəridux xanım Divlər ölkəsində əsirdir."Kəl Həsənin nağılı" nda padşahın qızı Pəri xanım div tərəfindən oğurlanır."Məlikməmməd" nağılında yeraltı dünyada divlərin oğurladıqları və ayrı-ayrı otaqlarda saxladıqları qızlardan səhbət açılır və s. Bütün folklor nümunələrində divlər şər qüvvələrin təmsilçiləridir.

Divin məkanı qaranlıq dünyadır, quyudur.Rəmzi olaraq bu qaranlıq pis gün, qara gün, məzlumluq ifadə edən vasitədir.Buna görə də xalq arasında "kiminsə ayağının altında quyu qazmaq" "Quyuya düşmək" kimi ifadələr mənfi çalarlar ifadə edir.

Əjdaha təhlükə, qorxu rəmzidir.Folkorda əhalini susuz qoyan, qorxulu, təhlükəli yolları qoruyan əjdaha hər dəfə bir qız qurban alıb əhaliyə su verir və ya çayın qarşısını kəsib, həyat üçün təhlükə yaradır və s.O divlərin qapılarını, dərviş qalalarını qoruyan mənfi xüsusiyyətli varlıqdır.Onun Simurq və Zümrüd quşu ilə düşmənçiliyi yaxşı ilə pis arasındakı münasibət kimi təsəvvür olunur."Qara at" nağılında İbrahimin Simurq quşunun balalarını yemək istəyən əjdahanı qılıncla ikiyə bölməsi buna misaldır.

Folklorda cin, dərviş, ifritələrin adları Çəfər, Əhmədi, Çəkkaş, Qalxa Cadu və s leksik vahidlərdə ifadə edilir.İfritə cildinə girmiş qoca qarı nağıllarda müəyyən estetik məzmun kəsb edir.Qəhrəmanlara qarşı duran daha çox gün qarısı kimi ifadə edilir."Siman" nağılında qarı qəhrəman Simanın öldürülməsi üçün hər cür alçaqlığa əl atır."Çantiqin nağılı"nda da bu hadisə ilə qarşılarışırıq.Eybəcərlik, pislik rəmzi olan qara siçan, qara ilan, əjdaha cildinə düşməklə pis əməllərni yerinə yetirir və s.

Şər qüvvələrə qarşı mübarizələrdə çətinliklərə sinə gərən igid, mərd, yenilməz qəhrəmanlar həmişə qalib çıxmaqla folklorun ideya-siyasi təsirini gücləndirir.Müsbət xüsusiyyətlər xarici və daxili aləmin üst-üstə düşənlərə məxsusdur, deməli, xalq öz yaradıcılığında ad ilə əməlin vəhdətini əsas götürmüşdür.Bu baxımdan el arasında "Dərdi çəkər dərdəçər, söz

danışar eybəcər", "Adını eşit, üzünü görmə", "Adın nədir Rəşid, bir de, bir eşit" və s. atalar sözləri şəxsin adı ilə əməli arasında uyğunluğa bariz nümunələrdir.

Folklorda işlək olan digər onomastik vahidlərin-oronimik, etnonimik, zoonimik, fitominik, oroqrafik və s. ifadəsində də özünü göstərən müxtəlif xüsusiyyətlərin açıqlanması mənəvi dünyamızın ayrı-ayrı atributları haqqında konkret fikirlərin formalaşması üçün vacib elementlərin üzə çıxarılmasına səbəbdir.

ALMAZ MƏMMƏDOVA

1949

Məmmədova Almaz Camal qızı 1949-cu ildə Şəkidə müəllim ailəsində anadan olmuş, orta təhsilini burada almış, Şuşa Pedaqoji Texnikumunu (1968), Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir (1989). Cəbrayıl rayonunda müəllim kimi əmək fəaliyyətinə başlayıb, erməni işğalı nəticəsində doğma yurd-yuvasından didərgin düşüb, ailəsilə birlikdə ata yurduna sığınıb, 1993-cü ildən Şəkidə məskunlaşıb və həmin vaxtdan Çeşməli kənd orta məktəbində dil-ədəbiyyat müəllimi işləyir. Gənclik illərindən şeir yazır, doğma yurd həsrəti şeirlərindən qızıl xətt kimi keçir. Şeirləri mərkəzi və yerli mətbuat orqanlarının səhifələrində dərc olunur. "Həsrət dolu ömür" (2006) adlı şeirlər kitabının müəllifidir.

Vətən

Ana ülvi, ana əziz,
Çeşmə kimi büllur, təmiz.
Dəyişmərik heç kimə biz,
Bircə sənsən anayla tən,
Vətən!

Suyun, torpağın müqəddəs,
Ala bilməz bizdən heç kəs.
Qulağıma gəlir bir səs:
Məlhəmdir sinəndə bitən,
Vətən!

Qızların Həcər hünərli,
Şənliklərdə allı-zərli.
İgidlərin mərd, təpərli,
Onlardır dadına yetən,
Vətən!

Mənim solmaz gülşənimdə,
Bu əbədi məskənimdə,
Azərbaycan vətənimdə
Qalammaz hər yoldan ötən,
Vətən!

Ovuc-ovuc içərəm
Buz bulaqlarından.
Bir vaxt qoynuna köçərəm,
Ollam torpağında itən,
Vətən.

Yük əyildi...

(Süleyman müəllimə)

Yük əyilər, qərib yurda, elə düşərsən,
Yük əyildi, qəribliyə düşdük, ay qardaş.

Evdə mizan, daş-tərəzi yaman pozuldu
Adımıza «qaçqın», «köçkün» sözü yazıldı.
İgidlərə yad ellərdə məzar qazıldı,
Yük əyildi, qəribiiyə düşdük, ay qardaş.

Qərib yurdun fərəhi də elə kədərmiş,
Qaçqın ömrü bizim yurda, elə qədərmiş,
Bu dünyanın gərdişi də gəldi-gedərmiş,
Yük əyildi, qəribliyə düşdük, ay qardaş.

Qərib yurdun bal çörəyi ağı-acıymış,
Özgə yerə düşən insan Vətən acıymış.
İndi bildik: Yurd insanın başında tacıymış,
Yük əyildi, qəribliyə düşdük, ay qardaş.

Kəhrizim

Qəm-kədəri ürəyinə doldurub,
Həzin-həzin inlə, ağla, kəhrizim.
Bəzəyini əzab-möhnət soldurub,
Qəzəbindən coşub-çağla, kəhrizim.

Fikir çəkmə, arxandadır Xan Çinar,
Sinəsindən nur çeşmə axan Çinar.
Həsrət ilə yollara baxan Çinar,
Ümid qalıb bir allaha, kəhrizim.

Axan suyun Çinarın göz yaşıdır,
Bu göz yaşı Kəhrizimi yaşadır.

Çinar özü tarixin yaddaşıdır,
Əmanətdir, yaxşı saxla, kəhrizim.

Vətənsizik, qəriblikdə inlərik,
Xudafərin harayını dinlərik.
Xan Çinarı dərddən xilas edərik,
Qayıdarıq toy-büsatla, kəhrizim,
Sən Çinarı yaxşı saxla kəhrizim.

Bu gün

Bir qəriblik, bir də Vətən həsrəti,
Ayrı nə dərdim var ki?!
Didərginlik, bir də naşı töhməti,
Ayrı nə dərdim var ki?!

Bu dərd mənim ürəyimi doğrayar,
Tərpətməyin, amandır.
Həyatımdan sevincimi oğrayar,
Vətən dərdi yamandır.

Nə zamansa ocağıma dönməsəm,
Həsrətimdən ölərəm.
Əgər bir gün Cəbrayıla dönərsəm,
Gözlərimdən sevinc yaşı ələrəm,
Sevincimi dostlarımla bölərəm.

RƏSUL İLMƏDDİNOĞLU

1950

Rəsul İlməddinoğlu (Rəsulov Rəsul İlməddin oğlu)
1950-ci il aprel ayının 15-də Şəki rayonunun
Baş Zəyzid kəndində anadan olmuşdur.1978-ci ildə
Azərbaycan Memarlıq və İnşaat İnstitutunu
"Mülki və sənaye tikinti" ixtisası üzrə bitirib. Bir sıra tikinti
müəssisələrində inşaat ustası, iş icraçısı, mühəndis və rəhbər
vəzifələrdə çalışmışdır.Bədii yaradıcılıqla uzun illər məşğul olsa
da, yaradıcı dostlarının məsləhəti ilə mətbu orqanlarında
yalnız son illərdə yazılarını çap etdirməyə başlayıb.
Respublikanın bir çox qəzet və jurnallarında
silsilə şeir və hekayələri, o cümlədən
publisistik yazıları ilə çıxış edir.
"Seçilən adam-Hafiz Əfəndi"(2013) .
"Nakam məhəbbətin yubileyi"(2014) və
"Aşıq Şakit Köçəri" (2015) kitabları çap olunub.

Çağa səsi

(ixtisarla)

– Mən böyük günaha batdım. Allah məni bağışlamayacaq,deyərək daha bərkdən hönkürdü. Cəmil çaşqın halda bilmədi neyləsin.Arvadının qolundan tutub qaldırdı.İstədi evə aparsın. Əzizə birdən səsini kəsib ərinə də susmaq işarəsi verərək, – Cəmil, mən körpəmizin səsini eşidirəm. O ağlayır. Məndən kömək istəyir, – deyə pıçıldadı. Cəmil arvadını sakitləşdirmək üçün onun könlünü almağa çalışdı...

...Cəmil və Əzizə hər qayğıdan uzaq bir həyat yaşayırdılar. Tez-tez xarici ölkələrin məşhur istirahət yerlərində dincəlməyə gedirdilər. Belə istirahət günlərindən birində Əzizə körpə səsinə yuxudan ayıldı. Neçə il bundan qabaq vaxtından əvvəl məhv etdirdiyi, üzünü belə görmədiyi, bir neçə ay bədənində gəzdirdiyi körpəsini xatırladı. Əvvəl elə bildi bu səsi yuxu gördüyü üçün eşidir. Durub yerində oturdu. Yuxudan tam ayılsa da, körpə səsi kəsilmək bilmirdi. O qorxdu. Yanında heç nədən xəbərsiz yatan ərini oyatdı.

– Cəmil, qalx körpə ağlayır,mən qorxuram.

Cəmil hövlənk yerindən qalxdı. İstədi Əzizəyə nə isə desin, amma o biri otaqdan eşidilən telefon səsi onu bu fikirdən daşındırdı.Tez o biri otağa keçib telefonu götürdü. Telefonda oğlu Mətləbin ağlaya-ağlaya dediyi sözlər onun qəlbini dağladı:

– Ata, ata bacım,... Nuranə ... bacım... tez gəlin... duuud... duuud ... – səs kəsildi.

Tappıltıya o biri otaqdan gələn Əzizə xanım ərini yerə yıxılmış görəndə özündən asılı olmadan bərkdən qışqırdı. Səsə otel işçiləri qaçıb gəldilər. Vəziyyəti bilən kimi həkim çağırdılar. Həkimlərin diaqnozu belə oldu ki, Cəmili infarkt vurmuşdur.Ona danışmaq və tərpənmək olmazdı.Həkimlər Cəmili nəzarətə götürdülər. Əzizə xanımın başı ərinə qarışdığı üçün o gecəki zəngdən və uşaqların vəziyyətindən xəbəri yox idi. Bir həftə beləcə keçdi. Cəmil bir az özünə gəlmişdi.Həkimlər, otel işçiləri xüsusi qayğı və həkimin müşayəti ilə onları evlərinə yola saldılar.

Cəmilgil evə çatanda artıq beş gün idi ki,qızları Nuranə qara torpağın ağuşunda idi.

İstirahət günü evlərində qalıb, səhəri günü tezdən məktəbə tələsən uşaqlar yolu keçərkən döngədən çıxan maşın qardaşından bir addım geridə qalan Nuranəni vurmuşdu. Onu xəstəxanaya çatdırsalar da həyatını xilas etmək mümkün olmamışdı. Ata-anasından xəbər çıxmadığı üçün qohum-

qonşu və müəllimləri qızcığazın dəfnini təşkil etmişdilər. Mətləb ağır stress keçirdiyi üçün indi xəstəxanada müalicə olunurdu.

Cəmilin xəstəliyi üç aya qədər çəkdi. Həkimlərin ciddi səylərinə baxmayaraq, onu sağaltmaq mümkün olmadı. Qızı Nuranənin yanında ona da qəbir qazıldı.....

...Əzizə xanım da evdə oturub yeganə ümidi və güvənci olan Mətləbin əsgəri xidmətdən qayıdıb gəlməsini gözləyirdi. Ona qəribə gələn bu idi ki, Mətləbi əsgərliyə yola salan gündən bəri körpə səsi qulaqlarından çəkilmişdi. Düzü, o bu səsə elə öyrəşmişdi ki,indi o səs üçün, deyəsən, bir az darıxırdı da. Eyni zamanda bu sakitlik onu qorxudurdu.Belə sükutun nə isə yaxşı hal olduğunu qəbul edə bilmirdi.

Bu gün Cəmillə evlənmələrinin ildönümü idi. Səhər tezdən gül mağazasından bir dəstə qərənfil alıb,qəbristanlığa getmiş, Cəmilin və Nuranənin qəbirlərinin üstünə gül düzüb, səliqə-səhman yaratmışdı. Təktənha oturub bir xeyli ağladıqdan sonra yorulub əldən düşmüş halda evə qayıtmışdı.Bir stəkan çay içib divana uzandı ki, bir az dincəlsin. Yorğun olduğu üçün onu tezliklə yuxu apardı. Yuxuda ona elə gəldi ki,yenə qəbristanlıqdadır və Cəmilin baş daşını təmizləyir. Bu vaxtı qəbirdən səs eşidilir,-"Əzizə, eşitmirsən? Körpəmiz ağlayır, onu əmizdirsənə!"Əzizə qorxmuş halda yuxudan ayılıb qalxdı.Ona elə gəldi ki, evin içində,haradasa uşaq ağlayır. Özü də lap yaxında. Bu onun körpəsi idi. Qalxıb körpəni axtarmağa başladı. Bütün otaqlara baxdı, heç kim yox idi.Amma körpənin səsi kəsilmək bilmirdi,əksinə körpə elə bil getdikcə coşurdu. Əzizə xanım mənzilin hər yerində, hətta vanna otağında ağlamağını bir an belə kəsməyən körpəsini axtarırdı.Getdikcə körpə səsi artır,amma özü tapılmırdı ki,tapılmırdı.Əzizə özünü itirmiş halda qapıdan çıxdı.Səs də onunla birlikdə evdən çıxdı.Bir anlığa ona elə gəldi ki,körpəni qonşular götürüb.Əzizə qonşuların qapılarını döyüb körpəsini soruşurdu. O, bir çox qapıları döydükdən sonra pilləkanda oturub ağlamağa və qonşulara yalvarmağa başladı:

– Nə olar, məni az incidin,verin mənim körpəmi.Axı o acdır.Qoyun anası körpəsini əmizdirsin.Yalvarıram sizə, verin mənim balamı.

Qonşular Əzizəni sakitləşdirmək istəsələr də mümkün olmadı. O,daha da bərkdən ağlayır və körpəsini istəyir, hamıya yalvarırdı.Əlacı kəsilən qonşular "təcili yardım " maşını çağırdılar. Gələn həkimlər ona iynə vurub sakitləşdirdilər, sonra maşına qoyub xəstəxanaya apardılar. Ruhi əsəb dispanserində cəmi bircə gün yaşadı,Əzizə xanım....

...Onu son mənzilə yola salanlar arasında nə qızı,nə oğlu,nə əri,... nə də dünya işığını görmədən dünyadan getməyə məcbur edilən, adı belə olmayan körpəsi yox idi .....

SABİR ABDULLA

1950-2013

Məmmədov Sabir Abdulla oğlu 1950-ci il iyunun 15-də
Şəki rayonunun Oraban kəndində anadan olmuş,
doğulduğu kənddə orta məktəbi,
sonra Azərbaycan Politexnik İnstitutunu və
Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir.
Rusiya Federasiyasının baş şəhəri Moskvada yaşayıb
yaratmış şairin geniş yaradıcılıq irsi var.
Bu ayrıca bir tədqiqat və araşdırma tələb edir.
Sabir Abdulla Rusiya Federasiyası "Doveriya" prezident klubunun
Koordinasiya şurasının üzvü,Beynalxalq Yazıçılar İttifaqının,
Rusiya və Azərbaycan Yazıçılar birliklərinin üzvü olmuş,
V.D.Tsibin adına ədəbiyyat mükafatı laureatı olmuşdur.
Həyatının ən çətin anlarında belə nikbin olmağa,
gələcəyə ümidlə baxmağa çalışan, şeirlərində bir inam,
bir güc, insanın qəlbini isidəcək bir hərarət olan,
günəşə baxan və günəş şuaları kimi misralarıyla
ürəkləri isidən Sabir Abdulla 2013-cü il yanvarın 8-də
gözlərini əbədiyyətə qapadı.

Mənzərə

Bahar yamaclarda qəhqəhə çəkir,
Günəşin gülüşü torpağa axır.
Bönövşə sevincdən göz yaşı tökür,
Büllür şəbnəmlərdən sırğalar taxır.

Bulaqlar üz-üzə, dodaq-dodağa,
Şimşəklər rəqs edir sal qayalarda.
Sanki kürəyini söykəyib dağa,
Qəlyan tüstülədir sal qayalar da.

Darayır saçını ərköyün külək,
Çayın, şəlalənn, ağbirçəklərin.
Dilbər sevgilimin yanaqları tək,
Qızarır yanağı gül-çiçəklərin.

Yamyaşıl güneylər təbəssüm ilə,
Açır yaxasını quzeylərin də.
Məktub tək durnalar yetirir elə,
Nikbin nəğmələri dimdiklərində.

Qızılı şəfəqlər dənləyir qarı,
Gəzir yamaclarda meh sərin-sərin.
Yarğandan yıxılan qar marxalları,
Tutur ətəyindən dar dərələrin.

Ağappaq dağların qonub çiyninə,
Günəş layla çalır çəmənə, çölə,
Qız kimi bəzənib, düzənib yenə,
Öpür təbiəti yaz gülə-gülə.

Sən danışanda

Bulaqlar zümzümə edər vüsaldan.
Bayatı hicrana kəsilər qənim,
Göz vurar ulduzlar uzaqdan bu an,
Çatmazmı onlara görəsən əlim,
sən danışanda.

Oyanar mürgülü arzular yenə,
Həyat gözlərimdə durular mənim.

Bütün həsrətlilər verər əl-ələ
Qəlbimdə toy-düyün qurular mənim,
sən danışanda.

Payız notları

Yenə imələyir sazaq çöllərə,
Torpağın ovucu cadar-cadardı.
Çaylar sinəsini açıb yellərə,
Çayların sinəsi qabar-qabardı.

Buludlar qoynunda qımışır qar da,
Harasa vədəsiz yağacaq yenə.
Xırda qarışqalar soyuq yuvada,
Titrəyə-titrəyə boylanır günə.

Andıra qalasan

Haqdır bu dünyada qismət duyumu,
Taleyin na versə onu udarsan.
Həyat dedikiərin qumar oyunu,.
Hərdən uduzarsan, hərdən udarsan.

Oyunlar içində keçir ömrümüz,
Bu cür varlığı da həyat sanırıq.
Kart kimi paylanıb ömür-günümüz,
Kimə güvənirik, arxalanırıq.

Başımız qarışıb oyunbazlığa,
Çalan özgəsidir, oynayan bizik.
Aşı dəmə qoyub dincəlir yağı,
Əsirik, coşuruq - qaynayan bizik.

Kimi dindirirsən - söz pəhləvanı,
Hər kəs öz oduna yanan odundur.
Kösövsüz, tüstüsüz ocaq, köz hanı,
Kömür də odundur, kül də odundur.

Küləkdən, sazaqdan tut yanıb bağda,
Bürküylə, şaxtayla gəlir son illər.
Qeyrətsiz övladı bəsləsən yağda,
Yenə də o səni günahkar bilər.

İşimiz, peşəmiz keçmişə lənət,
Bədbəxt o kəsdir ki, dünəni yoxdur.
Verilən vədələr qələtdir, qələt,
Xalqımın solu var, sağ yanı yoxdur.

Babamız nə deyər qəbirdən dursa.
Yurdsuzun könlünü axı kim alsın?!.
Dediyin azadlıq elə budursa.
Belə azadlığı andıra qalsın.

Kişilər ağlamaz

Günəşin önünə bulud gələndə,
Dağlar ildırımdan kəmər bağlayar.
Kişilər ağlamaz kişi öləndə,
Qadınlar ağlayar, qızlar ağlayar.

Zirvəyə söykənib bahar güləndə,
Yamacda, dərədə buz, qar ağlayar.
Kişilər ağlamaz gəlin gələndə,
Qadınlar ağlayar, qızlar ağlayar.

Dolub xeyr-şərlə elin qucağı,
Şər xeyri nə sevər, nə onu danar?
Düşmən zəbt edəndə doğma ocağı,
Kişilər ağlamaz, kişilər yanar.

Kor gözündən süzülən yaşı siləndə,
O gözlər nurlanmaz – yara bağlayar.
Kişilər ağlamaz kişi öləndə,
Analar, gəlinlər, qızar ağlayar.

Ruhun əvvəli var, axırı olmaz.
Bir ömrü başqa bir ömrə calayar.
Qızın ölümünə kişi ağlamaz,
Ana, bacı ağlar, uşaqlar ağlar.

Kişilər ağlamaz kişi öləndə,
Qız, qadın ağlayar, uşaqlar ağlar.
Təkcə bu dünyadan ana gedəndə,
Kişilər ağlayar - aləm ağlayar.

VAQİF ASLAN

1950

Aslanov Vaqif Cumay oğlu 1950-ci il iyulun 5-də
Şəki rayonunun Kiş kəndində anadan olmuş, natamam orta təhsilini
doğulduğu kənd, tam orta təhsilini Oxud kənd orta məktəbində
almış.
APXDİ-nin "Fransız və Azərbaycan dilləri"
fakultəsini bitirmişdir (1973). Kiş kənd 1 saylı səkkizillik
məktəbində pioner baş dəstə rəhbəri (1967-1968).
Kiş kənd orta məktəbində müəllim (1973-1994).
Şəki REM-də "Folklor və el sənətləri"
laboratoriyasının rəhbəri (1994-1997).
AMEA Folklor İnstitutu Şəki bölməsinin rəhbəri (1997-2014).
BDU-nun Şəki filialında (1997-2000).
Azərbaycan Müəllimlər İnstitutunun
Şəki filialında (2000-ci ildən)baş müəllim işləmiş.
2015-ci ildən ADPU-nin Şəki filialında baş müəllimdir.
1998-ci ildən Azərbaycan Yazıçılar Birliyi Şəki bölməsinin sədridir.
Yaradıcılığının ilk çağlarında "Vaqif Aslanov",
"Vaqif Cumayoğlu" imzaları ilə yazmış.

1970-ci illərin ortalarından "Vaqif Aslan" təxəllüsü ilə yazır.
Şair-publisist, araşdırmaçı və tərcüməçidir.
"Aydın" (1993), "Səyahətnamə"(1994), "Ruhlarla söhbət"(1997), "Oğuz
elinə salam"(2000), "Qanımdan rəng alan gül"(2003),
"Kiş kəndi və onun məbədi"(2003),
"Seçilmiş əsərləri"(4 cilddə, 2009-2010),
"Bizim dünya adlı bir evimiz var" (2015),
"Hüseyn xan Müştaq"(2015) kitablarının,
"Odla qol-boyun" adlı qısametrajlı bədii, "Şəki tarixin naxışları"
qısametrajlı sənədli filmin ssenari müəllifidir.
2009-cu il üzrə Prezident təqaüdçüsü olmuş,
"Qızıl qələm" media mükafatına layiq görülmüşdür.

Kəllə

Göz yeri-oyuq...
Qupquru-soyuq...
İçi boş,
Xatiri xoş...
Səssiz..
Nəfəssiz
Kəllə!
Gördün?...Qorumaq olmur
Bir başı iki əllə.

Diriykən,
Iriykən
Olanlardan biriykən
Papaqda saxladığın,
Yaylıqla bağladığın
Guya gün ağladığın
Başın bu, sonun bumu?
Axirət donun bumu?
Naxışları tökülmüş

Calaqları sökülmüş
Alnın mənə tanışdır.
Salamat baş saxlamaq,
Boş şeydir, aldanışdır.
Nə ağrın var, nə acın,
Nə duyur, nə bilirsən.
Iki əli, bir başı
Olanlara gülürsən.

Göz yeri-oyuq...
Qupquru-soyuq...
Içi boş,
Xatiri xoş...
Səssiz..
Nəfəssiz
Kəllə!
Gördün?...Qorumaq olmur
Bir başı iki əllə.

Düşdüm

Cənnət idi anam boynu,
Vədə çatdı, yerə düşdüm.
Bu da-ömür-ömür oynu,
Düşdüm..birdən-birə düşdüm.

Qayırdılar beşik mənə,
Yasaq oldu eşik mənə.
Yetən çəkdi keşik mənə,
Mən nə yaman tora düşdüm.

Məni məndə əritdilər,
Haray saldım, kiritdilər.
İməklədim, yeritdilər,
Yeridikcə zora düşdüm.

Ovutdular noğul ilə,
Əfsanəylə, nağıl ilə.
Gündə bir cür ağıl ilə
Oddan çıxdım, qora düşdüm.

Hasar-hasar, divar-divar
Hörülübdür hər nə ki var.
Beşiyimdən yer üzü dar,
Heç bilmədim hara düşdüm.

Nə yaxşı ki, çatdı vaxtım,
Çiçəklədi quru baxtım.
Ruhum ilə göyə qalxdım,
Cismim ilə gora düşdüm.

Bir yol var

Bir yol var ömrümün dolaylarında,
Səninlə bir gülüb, ağladığım yol.
Sonra əllərimi yaylıq eləyib
Ağrıyan sinəmə bağladığım yol.

Bir yol var ömrümün dolaylarında,
Əvvəli vüsaldır, axırı hicran.
Odlara yanaram, keçmərəm daha
Bir də bu yoldan.

...Demə ki, mən səni çoxdan atmışam,
Yolu da, səni də xatirə edib,
Mənzili olmayan yol yaratmışam.

Gəzirəm

Ay səni, bağ yiyəsi, mən də durub bar gəzirəm,
Əncirin vaxtı keçib, eyb eləməz, nar gəzirəm.

Mən-mənim, sən də mənim,...mən bilərəm neyləyərəm,
Var ki var axtarıram, dəxli kimə, var gəzirəm?

Yarısından yarıyan kimsələrə eşq olsun!
Yarımaq eşqi ilə mən hələ də yar gəzirəm.

Bilmədi kimsə başımdan nə dumanlar keçdi,
Elə zənn eylədilər ki, uşağam, şar gəzirəm.

Sənə min rəhmət ola, ey canımın canı anam,
Laylamı sən necə çaldın ki, mən ağlar gəzirəm?

Yamyaşıl yarpaq idim, qaldım ayaqlar altda,
Yel vurub yengələri oynayan bağlar gəzirəm.

Ala dağlar, qara dağlar, ucadırlar-bilirəm.
Dağlarımla yanaşı durmağa dağlar gəzirəm.

Balaca, bapbalaca bir ürəyim vardı mənim,
O keçən günlərimi əldə çıraqlar gəzirəm.

Vaqif Aslan, hər ürəkdə uyuyur bir aslan,
Qaz vurub qız gətirən sevdalı çağlar gəzirəm.

AKİF SALAM

1950

Salamov Akif Salam oğlu 1950-ci il iyul ayının 24-də
Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş,
doğulduğu kənd orta məktəbini (1967) və
Bakı Dövlət Universitetinin filologiya fakultəsinin
jurnalistika şöbəsini bitirmişdir (1972).
Əmək fəaliyyətinə "Şəki" qəzeti redaksiyasında başlamış (1972),
əvvəlcə qəzetdə ədəbi işçi, şöbə müdiri, məsul katib,
redaktor müavini işləmiş, redaksiya yanında fəaliyyət göstərən
"Səbuhi" ədəbi məclisinə rəhbərlik etmiş,
1990-cı ildən redaktor işləməklə "Azərbaycan gəncləri",
"Naxçıvan", "İki sahil" qəzetlərinin, Azər TAC və İA informasiya
agentliklərinin Şəki-Zaqatala bölgəsi üzrə xüsusi müxbiri kimi
fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Prezidentinin
sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adı (2015) verilmiş,
"Qızıl qələm" və keçmiş ümumittifaq komsomolunun
Ulyana Qromova adına mükafatına layiq görülmüşdür.
Şeirləri respublika mətbuatında dərc olunur.

Sal qayada bitən çiçək

Sağı daşdı, solu daşdı,
Yola çıxıb –
Yolu qumlu, yolu daşdı.
Sal qayada bitən çiçək,
Özü özünə yol açdı.

Bir işə bax, daş bağrını
Darı boyda toxum dəldi.
Bax dünyanın bu işindən,
gərdişindən xoşum gəldi.

Mən bilirəm çətin olub,
Ayı onun, ili onun.
Bir əməlli çatmayıbdı
Torpağa da əli onun.

Bəlkə elə su yerinə,
Öz səbrini "içibdi" o.
Mətləbinə çatmaq üçün
Kim bilir, nə çəkibdi o?!

Bəxti, qisməti bu imiş
Uymayıbdı gümanlara.
Başı daşdan-daşa dəyib,
Əyilməyib tufanlara!

Ümid dolu bir qönçədir
Həddlər, səddlər qırammayıb.
Qüdrətinin qarşısında
Heç bir qüvvə durammayıb.

Mən bilirəm, dərib onu
taxmaq üçün
bir gözəlin yaxasına.
Sal qayaya
çıxanlar da tapılacaq
Lap həyatı bahasına.

Sağı daşdı, solu daşdı,
Yola çıxıb –
Yolu qumlu, yolu daşdı.
Sal qayada bitən çiçək
Özü özünə yol açdı.

Nüsrət Kəsəmənli şeir deyirdi

Nə gözəl gün idi,
Nə gözəl gecə,
Dünya başdan-başa sanki sehrdi.
Oğul istəyirdim burdan yan keçə,
Nüsrət Kəsəmənli şeir deyirdi.

Oğlanlar elə bil çıxmışdı taxta,
Qızlar çiçək ətri qoxuyurdular.
Xəzəlli sular da məhəbbət haqda,
Sanki, şən nəğmələr oxuyurdular.

Yaz yağışı idi yağan dünyaya,
Qəlblərə, ruhlara nur çiləyirdi.
Xəyallar uçurdu ulduza aya
Şirin bir hekayət vərəqləyirdi.

Gecə ürəklərdən almışdı işıq-
Ulduzlar elə bil yarışırdılar.
Sözdə qüdrətə bax, keçsə azacıq,
Burda küsülülər barışardılar.

Bir ata peşmandı-qaş-qabağından,
Görürdüm halını-qəlb dağlayırdı.
Orda bir xanımın qaç qabağından,
Nüsrət şeir deyir, o ağlayırdı...

Bir gözəl gəlmişdi edərək soraq
Bu nə möcüzədi, bu nə sehrdi -
Uzun qollarını geniş açaraq,
Bir şair ürəkdən şeir deyirdi.

Söz də qurtarmışdı söhbət də - sonda,
Elə bil göylərdən enmişdi şair.
Şeir sevənlərin dodaqlarında
Özü bir nəğməyə dönmüşdü şair.

Sevəcəyəm səni mən

(Rəqqasə Babazadəyə)

Salonun gözü səndə,
Ürək yanır, qəlb yanır.
Sən elə fırlanırsan,
Yer kürəsi dayanır.

İlk bahar nəsimindən,
Sanki qanad taxıbsan.
Sən təkcə oynamırsan,
İncə duyğular kimi,
Qəlbimizə axırsan.

Süzürsən kəklik kimi
Ayaq yalın, baş açıq...
Sənə şeir yazıram,
Burdaca mən, baş açıb...

"Barmaq üstə gəzir o"
Üzlərdə heyrətə bax.
Alqış zalı titrədir,
Sənətdə qüdrətə bax!

Çalğıçıya nə var ki,
Rəqs-rəqsə calanır.
Amma çoxu nə vaxtdır
Ayaq üstə dayanıb.

Sən çağırsan "Halaya"
Dağlar qalxar yerindən,
İstəsən oynadarsan,
Dünyanı məhvərindən.

Sözlərimi şeirlə
Deyəcəyəm sənə mən.
Təkcə bir rəqsə görə
Sevəcəyəm səni mən!
Sevəcəyəm səni mən!

ABBAS ƏMBALA

1950-2014

Abbas Şəhriyar oğlu Bəxtiyarov 1950-ci ildə
Şəki şəhərində anadan olmuş.
şəhər 7 saylı orta məktəbdə orta təhsil almış.
Azərbaycan Neft-Kimya İnstitutunun
(indiki Azərbaycan Neft Akademiyasının)
energetika fakültəsini bitirmişdir(1976).
Əmək fəaliyyətinə Şəki İpək Kombinatında fəhlə kimi başlamış.
ali təhsil aldıqdan sonra ixtisası üzrə bir sıra vəzifələrdə işləmiş.
daha sonra Azərbaycan MEA "Folklor" İnstitutunun
Şəki filialında çalışmışdır.
Gənc yaşlarından ədəbiyyata maraq göstərmiş.
dövrü mətbuatda şeirləri çap olunmuşdur.
"Həsrətim" adlı ilk kitabı 2000-ci ildə
"Üzünü sıxma köksümə" (2005).
"Azərbaycan milli mətbəxi bayatılarda" (2014) kitabları
çap olunmuşdur.
Abbas Əmbala 2014-cü il iyunun 15-də vəfat etmişdir.

Dədə

Sənə rəhmət olsun, öyüd verəndə,
Deməzdin yırtıcı qurdlar var, dədə.
Tamahın ucundan, nəfsin ucundan.
Ocağı qaralan yurdlar var, dədə.

Çoxuna inandım, halına yandım,
Elə danışdılar köməksiz sandım,
Əl verdim yıxdılar, duranda qandım,
Gör neçə löyündə dərdlər var, dədə.

Əmbala, "sağ ol"a tamarzı qaldım,
Ömrə heyfim gəldi, xəyala daldım,
Sənin təsəllini yadıma saldım,
Nə yaxşı dünyada mərdlər var, dədə.

Doymadım

Təbiət bürünüb al-əlvan dona,
Çəmənlər əlinə qoyubdu xına,
Ayları yetirdim mən sənsiz sona,
Üzü yaya döndü, yazdan doymadım.

Daha inanmıram dili ballara,
Söz ilə salırlar nə cür hallara,
Ruhum meyl elədi həzin xallara.
Eh! Tardan, kamandan, sazdan doymadım.

Etdiyin zülümdü, yoxsa ki ərkdi,
Günahmı eylədim, ya haqdan görkdü?
Bir tikə ürəyin daşdan da bərkdi,
Çoxa yetəmmədim, azdan doymadım.

Olur

Könlümü oxşamır qürbət yazları,
Ərimir ürəkdə həsrət buzları,
Qurbanam mən sizə Oğuz qızları.
Yad eldə məhəbbət ətirsiz olur.

Qubarım düzülüb lay-lay, sıralı,
Qartal yüksələrmi köksü yaralı?
Bu dövran salıbdır eldən aralı,
Kökündən ayrılan qədirsiz olur.

Əmbala çox gəzib obalar, ellər,
Sizə tay tapmayıb, ay şirin dillər,
Əhdinə vəfalı həyalı güllər,
İsmətli gözəllər qənirsiz olur.

Səni

Heyva çiçəyinə yağan qar olma,
Meyvəsi doluya düşən bar olma,
Hərdən hövsələsi bir az dar olma,
Ovuda bilmərəm, ay aman səni.

Sərraf gözlərimdən o gün itmisən,
Yəqin ürəyində giley etmisən,
Sən demə, yanımdan ötüb getmisən,
Vallah, görməmişəm bu zaman səni.

Əmbalaya lap gec salamın gəldi,
Könlüm fərəhləndi, ruhum dincəldi,
Çox şükür görsəndin, yoxsa əngəldi,
Gözüm axtarırdı nə yaman səni.

Tapasıdı

Dərdlər yaman arsızlaşıb,
Harda olsam tapasıdı.
Dözsəm də tüğyan eyləyib,
Alov kimi qapasıdı.

Baxmır ağına-bozuna,
Ömrün qışına, yazına.
Aləmi basıb tozuna,
Hey dördnala çapasıdı.

Həddi olar kələyin də,
İnsafı yox fələyin də.
Ələyib öz ələyində
Kündələyib yapasıdı

NAZİM RİZVAN

1951-2003

Rizvanov Nazim Abbas oğlu 1951-ci il mayın 12-də
Bakı şəhərində anadan olmuş, natamam orta təhsilini Şəki şəhər
10 saylı məktəbdə,tam orta təhsilini isə
Bakıda 129 saylı məktəbdə almış (1968), sonra Azəbaycan Dövlət
Universitetinin tarix fakultəsində oxumuşdur (1968-1973).
Əmək fəaliyyətinə Azərbaycan Qırmızı Aypara cəmiyyətinin
Mərkəzi Komitəsində təlimatçı kimi başlamış(1973-1978).
AEA Nizami adına ədəbiyyat İnstitutunun aspranturasına
(əyani yolla) daxil olmuş (1978).
"Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında vətənpərvərlik"
mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş (1985).
"Cənubi Azərbaycan ədəbiyyatının yeni inkişaf mərhələsi
(1850-1920-ci illər)" mövzusunda doktorluq işini başa çatdırmışdır.
Bədii yaradıcılığa 12 yaşından başlamış.
İlk mətbu şeiri isə "Azərbaycan" qəzetində dərc olunmuşdur (1967).
Lirik şeirlərlə yanaşı tarixi mövzuda "Babək"(1969),
"Dan ulduzu"(1970), "Yadigar şəkil" (1970) mənzum pyeslərini,
"Zurnanın səsi çıxdı" (1971) komediyasını, "Dağ qartalı" (1971),
"İki sahil", "Güc birlikdədir" (1971) poemalarını qələmə almışdır.

"Çinar pöhrələri", "Odlu misralar", "Azərbaycan",
"Yaşıl budaqlar", "Yeni səslər" ədəbi almanaxlarında,
qəzet və jurnallarda şeirləri çap olunmuşdur.
1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan şair,
ədəbiyyatşünas Nazim Rizvan keçmiş SSRİ və
dünya xalqları ədəbiyyatından tərcümələr etmiş,
"Sevgim mənim", "Xətai" mənzum romanı (ABŞ, Şictl,1997),
"Əcdaddan doğan ruh"(ABŞ, Şictl 1997),
"Azərbaycan diasporası tarixindən" (B.2002)kitablarının müəllifidir.
2003-cü il oktyabrın 3-də Bakı şəhərində vəfat etmiş,
Maştağa qəsəbəsi qəbiristanlığında dəfn olunmuşdur.

Şəki

Qafqaz dağlarını kürsü eyləyib,
Otuz əsrdir ki, əyləşib Şəki.
Boy atıb tarixin dərinliyindən,
Göydə ulduzlarla birləşib Şəki.

Əhmədli meşəsi qədimdən qədim,
"Gələrsən-görəsən" şöhrət məbədim,
Mən onu yadlara təslim görmədim,
Düşmənlə Beyrəktək güləşib Şəki.

Qarlı zirvələrdən başında tac var,
Qonaqcın süfrəsi-yaşıl yamac var,
Trud düzlərində ceyran, turac var,
Nə gözəl məkanda yerləşib Şəki.

Şöhrətinin səsi gəlir uzaqdan,
Qələbə çalğısı barlı budaqdan,
Toyda badə tutub Soyuqbulaqdan,
Güllərin ətrinə bələşib Şəki.

Bu gəncləşən yurdda qaynayır həyat,
Hər qızı Şirindir, hər oğlu Fərhad,
Gəzir dodaqlarda bir söz-qur, yarat!
Qönçəydi, zəhmətlə gülləşib Şəki.

Nəyə lazım?

İlin əziz çağı bahar olmasa,
Güllər gah açılıb, gah da solmasa,
Sevincdən, nisgildən gözüm dolmasa
Damarımda axan qan nəyə lazım?

Çiçəkdən-çiçəyə arı qonmasa,
Bir qəlb inciməsə, könül yanmasa,
Eşqin ucbatından alovlanmasa,
Alovsuz, yanğısız can nəyə lazım?

İldırım şaxıyıb, yağış yağmasa,
Sellər qəhqəh ilə düzə axmasa,
Bir qız bir oğlana ürkək baxmasa,
Ömür nəyə lazım, gün nəyə lazım?

Canımda olmasa hərarət, hünər,
Vicdanımın üzü üzümdən dönər,
Beynim dumanlanar, gözlərim sönər,
Yalançı şöhrətlə şan nəyə lazım?

Azadlığın bir növü

Filin ayaqlarından
Açıldı paslı zəncir...
Təzəsini vurmaqçın
Görülübmüş bu tədbir.

İki ölüm

Qorxaq yüz il yaşadı,
Ölümdən qorxdu öldü.
İgid bir gün yaşadı,
Ölümü boğdu, öldü.

Taparsan məni

Sevinci gözümdən alıb apardın,
Yəqin dərd yükümü sanırsan asan.
Eybi yox, çəkərəm, sınsa inadın,
Həzin nəğmələrdə taparsan məni.

Sevgim vüqarıma yük olub, nədir?
Qəlbimi min ağrı, əzab göynədir!
Yadına düşərsəm, gülüm, arabir,
Həsrətdə, kədərdə taparsan məni.

Sevgim, dağdan keçir, arandan keçir,
"Get" sözün ox olub, yaramdan keçir,
Bax gör Araz mənim haramdan keçir,
Düyümlü qəhərdə taparsan məni.

Dan yeri ağarır, sönən ulduzlar
Gecədən əl çəkib gedir çar-naçar,
Yat, gülüm, yoxsa ki yuxun da qaçar,
Yorğun gecələrdə taparsan məni.

Hardasa inləyir kamanın səsi,
Bəm üstə hıçqırır hər bir pərdəsi,
Sənə də toxunsa hicran naləsi,
Kövrək pərdələrdə taparsan məni.

Susmuşam, həsrətim qonub saçıma,
Saçlarım dönübdür şahlıq tacıma,
Bir gün tumar çəksən ağrı-acıma
Ağ-ağ qönçələrdə taparsan məni.

Sərxoşun zümzüməsi

Araq nazlı bir ceyrandır,
Meşəsinə qurban olum.
Araq məşhur dağçapandır,
Tişəsinə qurban olum.

Onun adı çəkiləndə
Gəncləşirəm on il mən də.
Qədəhlərə töküləndə
Xoş səsinə qurban olum.

Qar səpələr narın-narın,
Vur araqdan dolsun qarın,
Yeyib-içən oğlanların
Təşnəsinə qurban olum.

Araq məcun, araq dadlı,
Hər qətrəsi toy-busatlı,
Səhər-səhər "paxmel" adlı
Nəşəsinə qurban olum.

Yüz-yüz vurun, pir sayılın,
Nə çox yatın, nə ayılın,
Əgər içsə Əzrayılın
Peşəsinə qurban olum.

ƏBÜLFƏT HƏŞƏNOĞLU

1951

Ədilov Əbülfət Həsən oğlu 1951-ci il mayın 7-də
Şəki rayonunun Baş Göynük kəndində ziyalı ailəsində anadan olmuş,
doğulduğu kənd orta məktəbini (1967),
Azərbaycan Neft və Kimya İnstitutunu(1973) bitirmiş,
"İstilik energetikası üzrə mühəndis" ixtisasına yiyələnmişdir.
1975-2014-cü illərdə xalq təsərrüfatının müxtəlif sahələrində
operatordan direktora qədər müxtəlif vəzifələrdə çalışmış,
bu gün də istehsalata öz bəhrəsini verən30-dan çox
səmərələşdirici təklifin müəllifidir.
hazırda Mingəçevir Dövlət Universitetində müəllim işləyir.
Hələ orta məktəb illərindən bədii yaradıcılığa meyl göstərmiş,
bir neçə almanaxda şeirləri, dövrü mətbuatda vaxtaşırı
müxtəlif səpgili yazıları oxuculara təqdim olunmuş,
"Kamilliyə gedən yol" (B.1998),
"Nəsimi Ənəlhəqqinin kökləri" (B.2004),
"Ömrün ləpirləri" (B.2010),
İmadəddin Nəsiminin "İraq divanına şərhlər" (B.2015)
kitabları çap olunmuşdur.
2013-cü ildə Azərbaycan Respublikası KİVİ-nin
Həmkarlar Təşkilatının "Qızıl qələm" media mükafatına
layiq görülmüşdür. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Təzadlar

Həyatda qan tökən, can alan görcək,
Dolaşıb qalıram təzadlarda mən.
Tor qurub, qan tökür zalım hörümçək,
Bu tor qankəsici işlənir hərdən.

İlan zəhəriylə can alır, heyhat,
Zəhər min bir dərdin dərmanı olmuş.
Baş kəsib, qan töküb, can alan cəllad,
Özü bir külfətin həyanı olmuş.

Dərinin altına baş vurmuş gənə,
Hərdən başdan keçir, qan almaq üçün.
Əbədiyyət verir Əzrayıl sənə,
Nədən təhkim olub, can almaq üçün?

Bir cana qıyaraq çöllərdə aslan,
Neçə can yaşadır, doyandan sonra.
Min kərə canımı alsa da canan,
Can verir, eşqimə uyandan sonra.

Nədən qanımıza susamış zəli,
Pul ilə alınır əczaxanadan?
Həkimin qara qan axıdan əli,
Neştərlə mərəzi çəkir damardan.

Adicə milçək də qan üçün həris,
Qandan içə-içə güdaza getmiş.
Qan tökən düşməni anamız Tomris
Qan dolu çəlləyə salıb, qərq etmiş.

Sevgilim

Sevgilim, laləni sorsalar məndən,
Deyərdim ki, sənin yanağındadır.
Əgər beçə balı keçsə könlümdən,
Yerini bilirəm, dodağındadır.

Axtardım mixəyi eldə, obada,
Möhtac oldum dosta, həm də ki, yada,
Mixəktək xalınla yetdim murada,
Muradım sinəndə, buxağındadır.

Bulaqtək qaynayır qara gözlərin,
Eşqimə güc verir şirin sözlərin,
Nazınla vurduğun dərin izlərin,
Məskəni qəlbimin ovlağındadır.

Sevib-sevilərək bağladıq ülfət,
Sızaraq ruhuma keçmisən əlbət,
Lap elə, yuxuda olsa Əbülfət,
Surətin gözünün qabağındadır.

Ömrün ləpirləri

Ayağını yerə bərk bas,
Bu gün sabahına avans.
Bivec ömür yoxluq, xəyal,
Ləpir burax, izini sal.
Ləpir burax hər yerdə ki,
həkk olunmuş izin olsun.
Özündəki iradəni, cəsarəti,
ürək dolu məhəbbəti,
deyə bilən sözün olsun.
Ləpirində gözün olsun.
Ötən ömrün ləpiri var,
Baxın, görün,
mini itər, biri qalar.
Dayaz izlər itib-batar,
Qumda karvan izi kimi.
İz var ki, əbədi yaşar,
Bu dünyanın özü kimi.
Hər bir yazan
öz ömrünü yaza bilər.

Xaric çıxan
çaşıb qalar, aza bilər.
Əməli tanıdar kəsi,
Xanəndəni gözəl səsi.
Bəstəkarın musiqisi,
Rəsmdir rəssamın izi.
Memarın tikdiyi saray,
Aşiqdə nalə, haray,
Çiçəklərin ətirləri,
Bizdə hikmət sətirləri,
Ötən ömrün ləpirləri.

Beləsinə

Yaraşıq verib Yaradan,
Beləsinə belə sinə.
Vurulanda vurulasan,
Beləsinə, beləsinə.

Yarına vüqar dağıdır,
Baxanda dərdi dağıdır,
Əğyar üçün göz dağıdır,
Belə sinə, belə sinə.

Ay demişəm yetən üzə,
Qəbahətim çıxıb üzə,
Soruş bir də, vurma üzə,
Beləsi nə, beləsi nə?

Ilham verib coşqun qana,
Əbülfəti salma qana,
Dağ çəkirsən qana-qana,
Beləsinə, beləsinə.

RAMAZAN QAFFARLI

1951

Qaffarlı Ramazan Oruc oğlu 1951-ci il iyunun 17-də
Şəki şəhərində sənətkar ailəsində anadan olub.
ibtidai təhsilini Şəki şəhər 7 saylı məktəbdə alıb.
1961-ci ildə ailəsilə birlikdə Bakı şəhərinə köçüb.
orta təhsilini burada 39 saylı orta məktəbdə başa çatdırıb.
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
filologiya fakultəsini bitirib (1974).
Qurtardığı ali məktəbdə əvvəl komsomol komitəsində katib,
sonra həmkarlar ittifaqı təşkilatında sədr işləyən
R.Qaffarlı bir müddət Rusiyada işləmiş.
1981-ci ildə Bakı şəhərinə qayıdıb. 204 saylı məktəbdə ixtisası üzrə
işləməyə başlayıb. "Azərbaycan uşaq folkloru" mövzusunda
namizədlik dissertasiyası (1988), sonra isə "Azərbaycan türklərinin
mifologiyası" adlı doktorluq dissertasiyası müdafiə etmişdir (2010).
Elmi fəaliyyəti ilə yanaşı bədii publisistikaya da
yaradıcılığında geniş yer vermişdir.
"Ərən", "Xəmsə" qəzetlərinin, "Qafqaz" və "Xəmsə"jurnallarını təsis
etmiş, onun ssenarisi əsasında "Xanım, hey" bədii filmi, "Laylalar"
bədii-etnoqrafik filmi çəkilmiş.
tərtib və redaktorluq etdiyi "Heydər Əliyev-78".

"Bəxtiyar Vahabzadə-75", "Akademik Bəkir Nəbiyev-70 və 80", "Ağayar Şükürov-55" xüsusi buraxılışları dövlət rəhbəri və elm xadimlərimizin həyat səlanməsinə güzgü tutmuşdur. Moskvada "Detskaya literatura" jurnalında əsərləri çap olunub. On altı dərs proqramının, səkkiz monoqrafiyanın, iki dərs vəsaitinin, bir neçə folklor toplusunun müəllifi olan Ramazan Qaffarlı xalq şairi Bəxtiyar Vahabzadənin əsərlərinin külliyatının 12 cildliyini tərtib edib nəşrə hazırlamış, "Bəxtiyar Vahabzadə ədəbiyyat yolunda" (2010) kitabını çap etdirmişdir.

Şeirin fəlsəfəsi, yaxud Bəxtiyar Vahabzadənin pəncərəsindən görünən dünya

Şeir nədir, yaxud necə yaranır? Bu sorğuya cavab vermək mümkündürmü? Əgər şeirin, bədii sözün nə olduğunu bilsək, həmin sualın da açarı tapılar. Elə isə şeir nədir? Cavab birmənalı və konkret şəkildə tələb edilirsə, şeir bədii söz sənətinin qəlibə, vəznə, müəyyən ölçüyə salınmış biçimli formasıdır. Lakin bu izah məsələyə tam aydınlıq gətirmir. Axı hər şeyin özünəməxsus tutumu, həcmi, çaları, biçimi olur. Oxşar varlıqların da, eyni növlü və cinsli yaranışların da seçilən, ayrılan məqamları, cəhətləri var. O səbəbdən də, təkcə zahiri əlamətlərə görə bədii yaradıcılıq hadisəsinin mahiyyətini üzə çıxarıb anlamaq çətindir. Çünki hər bir yaradıcılıq prosesi mayasını mənəvi aləmdən, duyğu və düşüncələrdən alır, beynin yoğurduqlarının enerjisi insanın daxilindən, içərisindən gəlir.

Bədii sözün yaranmasının ilkin şərti - təkanverici amili həyati hadisə barədə informasiya, yaxud şəxsi müşahidədir. Başqa sözlə, şair əsərlərinin mövzusunu ancaq eşitdikləri, gördükləri və xatirələri (xatırladıqları) əsasında müəyyənləşdirir. Lakin şeirə çevrilərkən adi faktlar istedad meyarı ilə ölçülən elə bir qazanda qaynadılır ki, altındakı ocaq dünyanı hərəkətə gətirən qüvvənin yardımı ilə yanır. Söz o halda təsirli sayılır ki, qeyri-adi-

liklə adiliyin qovuşuğundan yaranır, gerçəkliklə fantastikliyin, mifikliklə emprikliyin fövqündə dayanır. Söz o halda ruhun aynasına çevrilir ki, hər iki dünyanı çiynində daşıya, soyuğu istiləşdirə, qaranlığı işıqlaşdıra, şəri xeyirləşdirə bilir. Təsadüfi deyil ki, çox əski çağlardan başlayaraq bugünə kimi şeirin insandan kənarda yarandığına inanırlar. Bədii materialın «ilham pərisi»nin köməyi ilə hazır şəkildə şairlərə ötürüldüyünə şübhə ilə yanaşılsa da, böyük söz ustalarının əksəriyyəti məşhur əsərlərini özlərindən asılı olmayaraq hansısa qüvvənin diqtəsi ilə yazdıqlarını söyləyirlər. Onda başqa çoxlu suallar meydana çıxır: şeir möcüzədirmi? Şeir düşünülüb yazılır, yoxsa doğulur? Əsl poeziyanın yaranması üçün, ilk növbədə, söz demək ehtiyacı, daxili tələbat olmalıdır. Əslində, şeir insan ruhunun güzgüsüdür. Bəs şeir sənətdirmi? Etirafdırmı? Ümum bəşəridirmi? Kəsərli silahdırmı, tribunadırmı?.. Şeir mənəvi dünyaya açılan pəncərədirmi? Şeir poetikliyin əlçatmaz, ünyetməz zirvəsidirmi? Bu suallara cavab vermələ yanaşı seirin lirikliyi, epikliyi, dramatikliyi, ölçülüyü, sərbəstliyi, musiqiliyi kimi məsələlərə Azərbaycan ədəbiyyatının bayraqdarı Bəxtiyar Vahabzadənin 12 cildlik əsərlərini xronoloji ardıcılhqla təqdim etdikcə aydınlaşdırmağa çalışacağıq.

Türk dünyasının ikinci minillikdə yetirdiyi böyük şəxsiyyətlərdən biri, Azərbaycan ədəbiyyatının bütövlükdə XX əsr poetik fikrinin görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə çoxsahəli fəaliyyəti ilə respııblikamızın sərhədlərindən çox-çox uzaqlarda tanınır. O, hər şeydən əvvəl, mütəfəkkir şair, lirik, dramaturq olaraq həmişə xalqının sözünü demişdir. Son dövr tariximizin yaddaşına həm də istedadlı alim, publisist, qeyrətli, cəsarətli ictimai xadim, yeni mübariz nəsil yetişdirən müdrik pedaqoq, sadə və səmimi insan kimi həkk olunan Bəxtiyar Vahabzadənin irsi - şeirləri, dramları, elmi-publisist yazıları dünyanın çox dillərinə (ingilis, rus, fransız, alman, fars, türk, polyak, ispan, macar, özbək, qazax, tacik, türkmən, eston, latış, litva, ukrayna. rumın, moldova, gürcü və b.) tərcümə edilmiş və böyük sevgi ilə qarşılanmışdır.

Əsil şeirin yaranması günəşin doğulması ilə müqayisə edilə bilər. Türkün poeziya günəşi - xalq şairi, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il, avqust ayının 16-da Şəkidə doğulmuşdur.

Şəki dağlar qoynunda yerləşir. Üç tərəfdən yamyaşıl, sıxyarpaqlı ağaclarla örtülmüş dağlar şəhərin keçilməz hasarlarıdır. Yalnız bir yanda - Azərbaycanın ürəyi Bakıya doğru uzanan yolların keçidində dağlar yerə yatır, bir az çılpaqlaşır - bu hissə Şəkinin Şərqə açılan pəncərələridir. O yolda bir körpü da var. El keçən körpüdür ora. Və atalarımız deyir ki, el

keçən yerləri ot- alaq basmaz. Həmin alçaqlıq şəhərin elmə, biliyə, özünüdərkə, dünyaya giriş-çıxışıdı. Bu giriş-çıxış olmasaydı, bəlkə də ötən yüzillikdə Mirzə Fətəli Şəkidən Tiflisə ayaq açıb qoca Şərqin miidriklik zirvəsini fəth etməzdi. On üç yaşlı Rəşidbəy Əfəndiyev şəhəri tərk edib maarif ziyasını Azərbaycana yaymazdı...

Bəxtiyar Vahabzadə poeziyasıyla hər dəfə ünsiyyətdə olanda o yollar, el keçən körpü və dağlar yadıma düşür. Bəlkə böyük şairin başı Şəki dağlarının zirvəsi kimi ağappaqdır, ona görə?..

Şəkili qadınlar "Dədə Qorqud" qəhrəmanları kimi dağları "qayınatam" adlandırırlar. O dağlar həm də yüksəklikdir. Elə bir yüksəklikdir ki, cənnət qədər saf, təmiz və müqəddəsdir, yer üzünün bütün şərlərindən, pisliklərindən uzaq bir nöqtədir. Ən ağır dərdə düçar olan o dağların zirvəsinə çıxsa, yüngülləşər...

AKİF ELŞİR

1952

Əsədullayev Akif Fəxrəddin oğlu 17 yanvar 1952-ci ildə Şəki şəhərində anadan olmuş. 11 saylı orta məktəbi (1969), sonra isə Azərbaycan Tibb İnstitutunu bitirmişdir (1975). Bakıda Yeni Suraxanı 12 saylı şəhər xəstəxanasında stajyor həkim kimi fəaliyyətə başlamış, 1976-cı ildən Şəki şəhərində həkim, şöbə müdiri, 1988-ci ildən ruhi-əsəb dispanserində baş həkim kimi fəaliyyət göstərir.Yaradıcılığa tələbəlik illərindən maraq göstərmiş, şeirləri respublika mətbuatında, həmçinin"Dərbənd" qəzetində çap olunub. 2010-cu ildə "Mənə dözüm ver, Allah" adlı şeirlər kitabı çapdan çıxıb.Respublika Mədəniyyət fondunun nəzdində yaradılmış Şəki "Ocaq" cəmiyyətinin fəal üzvlərindən olub.
İndi də şeirləri ilə dövrü mətbuatda çıxış edir.

Mənə dözüm ver, Allah.

Mənə dözüm ver, Allah,
Dözüm
Şəxsiyyətsiz
Adam, insan
Sayılanın
Mənə hökm etməsinə.
Mənə dözüm ver, Allah,
Dözüm
Qarğa xislətli birinin
Rəyasətə yiyələnib
Mənlə dil-dil ötməsinə.

Qoy dözüm
Ayaqlar altda əzilən,
Səsi heç kimə yetməyən haqqa.
Qoy dözüm,
Min təmtəraqla
Tac kimi
Başa qoyulan nahaqqa.

Mənə dözüm ver, Allah,
Dözüm
Özümdən çox güvəndiyim
Dostların xəyanətinə.
Dözüm
Haqq-sayımı danan
Gədələrin minnətinə.

Mənə dözüm ver, Allah,
Dözüm
Fitnə, fəsad,
Şər yuvası kainata.
Mənə dözüm ver, Allah,
Dözüm
Bu cür acı bir həyata.

Deyişmə:

Elşir: Giley-güzarını eşitdim, qardaş
Dondu gözlərimdə yaş gilə-gilə.
Duydum ki, yadlaşır dost, tanış, sirdaş
Uyub aldanmışıq hər yağlı dilə,
Bəlkə də düzəldi bu dünya hələ.

Aşıq Sakit: Axıtma gözünün yaşını nahaq,
"Bu dünya düzəlsə, atama lənət".
Çünki aramıza salınan nifaq,
Verilən əzablar dəhşətdi, dəhşət,
"Bu dünya düzəlsə, atama lənət."

Elşir: Bir tərəf zülmətdi, bir tərəf zillət,
Adi işığa da qalmışıq həsrət.
Bir qarın çörəyə möhtacdı millət.
İnsanlar məhv olur danışa-gülə,
Bəlkə də düzəldi bu dünya hələ.

Aşıq Sakit: Yoxsulluq baş alıb, hər yan dilənçi,
Gülərüz sifətlər solğun yalançı,
Məmurları nadan, cibgir, talançı.
Ölümü qismətdi, həyatı minnət,
"Bu dünya düzəlsə, atama lənət."

Elşir: Daşdan çıxarılır gündəlik təam,
Qanuni haqq olub yeyilən haram,
Güzəran pisləşib çoxalıb vərəm.
Sağalan dərd deyil min loğman gələ,
Bəlkə də düzəldi bu dünya hələ.

Aşıq Sakit: Vətəndi, torpaqdı hər dərdə çara,
Bir üzümüz ağdı, birisi qara,
Qəlbimizdə gəzir sağalmaz yara.
Həkimlik acizdir, ölüdür sənət,
"Bu dünya düzəlsə, atama lənət."

Elşir: Susmaq qeyrətidir bu dərdə dəva,
Atəşkəs qurmuşuq qurtarıb dava,
Niyə naşükürsən müftədi hava.

Çox da qarışqanı döndərmə filə,
Bəlkə də düzəldi bu dünya hələ.

Aşıq Sakit: Asan yolumuzu müşkülə saldıq,
Müftə azadlığı çox baha aldıq,
Oğullar itirdik pis günə qaldıq.
Susmaq bir qeyrətdi, dözmək bir qeyrət,
"Bu dünya düzəlsə, atama lənət."

Elşir: Torpaqlar əvəzi zərli tac aldıq,
Qeyrət sahibindən dürlü bac aldıq,
Cavandı yaşımız, amma qocaldıq.
Elşir, hünərin var, döz bundan belə,
Bəlkə də düzəldi bu dünya hələ.

Aşıq Sakit: Etibarsız olduq ucalanda da,
İnsafı unutduq bac alanda da,
İmansız oluruq qocalanda da.
Sakit, arzulama rahatlıq, cənnət,
"Bu dünya düzəlsə, atama lənət."

***

Bu ilahi gözəlin gülüşü şeytan kimidir,
Fəth edib eşq sarayın taxtında sultan kimidir.

Dəyişib libasını, bürünüb mələk donuna,
Nur alıb çöhrəsindən aləm Gülüstan kimidir.

Quruyub damarda qanım, daha döyünmür ürək,
Dözməyir ayrılığa qanına qəltan kimidir.

Bənzəri yox dünyada şax duruşun, şux yerişin.
Nə qədər bənzətsələr şəninə böhtan kimidir.

İzi ilə dolaşıb çoxları döndü Məcnuna,
Dərdindən dəli olub dillərdə dastan kimidir.

Elşir, yerdə arayıb axtarma bu cür gözəli,
Məskən edib səmanı qoynunda yatan kimidir.

AKİF MAHMUDOV

1952

Mahmudov Akif Məmməd oğlu 1952-ci ildə Şəki rayonunun
Aşağı Şabalıd kəndində müəllim ailəsində anadan olmuş,
kənd səkkiz illik məktəbində natamam orta təhsilini başa vuraraq,
Şəki şəhər 10[a]-li məktəbdə orta təhsilini başa vurmuş,
sonra isə Şəki Pedaqoji Texnikumunu bitirərək ordu sıralarına getmiş, hərbi
xidmətini başa vurduqdan sonra
Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olaraq
1980-ci ildə ali təhsilini qiyabi yolla başa vurmuşdur.
Pedaqoji fəaliyyəti ilə yanaşı bədii yaradıcılığa da meyl göstərmiş,
qələmini nəzm və nəsr sahəsində sınamışdır.
Şeirləri 2001-ci ildən dövrü mətbuatda çap olunur.
"Zaman" (Azərbaycan), "Babadağ", "Region Şəki",
"Azərbaycan təhsili", "Şəki təhsili", "Təhsil uğrunda" qəzetlərində ardıcıl
olaraq şeirləri çap olunmuşdur.
2009-cu ildə "Sevməmək olmaz" adlı şeirlər kitabı
çapdan çıxmışdır.

Elin oğluyam

Mən qoca qartalam, zirvələr yerim,
Burdan seyr edirəm doğma elimi.
Əyilməz vüqarım, bükülməz belim.
"Vətən", "Ana" sözü bəzər dilimi.

İstərəm yurdumu laləzar görüm,
Hər an sevincimi elimlə bölüm.
Öləndə vətənin yolunda ölüm,
Vətən torpağında qazın qəbrimi.

Ürəyim sinəmdə onunçün vurur,
Əllərim bağ salır, bağçalar qurur.
Gedirəm sabaha üzüağ, məğrur,
Vətənin hər daşı bəzər şərimi.

Ayılın, insanlar, ayılın daha,
Biz gərək inamla gedək sabaha.
Artsın inamımız böyük Allaha,
Odur yolumuzda qıran tilsimi.

Mən elin oğluyam sevirəm sizi,
Siz qoşun səsimə gur səsinizi,
Biz quraq həyatda qoy qalsın izi,
Yaşayıb-yaradaq el deyən kimi.

***

Can evimi oda yaxan, sən özünsən, özün, dildar!
Məni məftun edib sənin, ay cəmalın, üzün, dildar!

Neçə könül evi tikər, neçə-neçə qəlb ovudar,
Sevinc verən bircə kəlmən,bircə şirin sözün,dildar!

İtirmişəm mənzilimi, dağ-dərələr olub yerim,
Ovsunlayıb bil ki, məni sənin qara gözün, dildar!

Aramızda təndirmisal qövrü olan bir səhra var,
Nədən məskən olub yada, gül-çiçəkli düzün, dildar?!

Səhra nədir, dərya nədir, qorxmuram heç nədən daha,
Min keçilməz dağ keçərəm, var məndə bu dözüm,dildar!

Çox illəri yola salıb, ömrü qoyaram yolunda,
Bircə isidə qəlbini qəlbimdəki közüm, dildar!

Akif, yetişdin məqama, de sözünü o ceyrana,
Yubatmayaq toyumuzu,vaxtımızdır bizim, dildar!

****

Bəxtəvərəm, ey dil, canan bizə yenə gəldi,
Bir dəstə gül üstə reyhan, bizə yenə gəldi.

Mən hey axtarırdım o zalımı gecə-gündüz,
Şükür ki, o ismi-pünhan, bizə yenə gəldi.

Ruhdan düşmüş idim, qınayırkən hamı məni,
Canım alan zülfü-pərişan bizə yenə gəldi.

Neyləyirəm özgəsini, göz önündə min-min ola,
Axı məni dərdə salan ceyran bizə yenə gəldi.

Yox!Ölmərəm sinəmə min dağ çəkələr,
Çün dərdimə məlhəm, dərman bizə yenə gəldi.

Düşməz həvəsdən bu dəli könlüm bir də inan,
Hamı bilsin sünbülü-sultan bizə yenə gəldi.

Akifə yoxdu ölüm min yerindən dağ çəkələr,
Onu xilas edən, haqdan bizə yenə gəldi.

İnsan

Bu dünya bizlərə deyil əbədi,
Gəl bunu sən yaddan çıxartma, insan.
Həyat daimidir, bizsə qonağıq,
Bu dərdə yox çarə, arama, insan.

Unutma dünyada dostu, sirdaşı,
Unutqan olanın əyilər başı.
Çox yaman dərd olar namərd savaşı,
Kömək ol dərdimə, çarama, insan!

Sən qulu olma gəl böyük tamahın,
Tamahın az olsa, olmaz günahın.
Əzəldən quluyuq böyük Allahın,
Onunçün meyl etmə harama, insan.

O, sənə bəxş edib nazü-neməti,
Sən də gəl unutma namus-qeyrəti.
Eldən almaq üçün böyük hörməti,
Saçını tərsinə darama, insan.

Akifin sözünə demə yalandı,
O, ulu vətəni müqəddəs sandı.
Doğrunu, yalanı yerində qandı,
Gəl məlhəm sən eylə yarama, insan.

BƏHRAM OXUDLU

1953

Məmmədov Bəhram Ələkbər oğlu 1953-cü ildə Şəki rayonunun Oxud kəndində kolxozçu ailəsində anadan olmuşdur.
1960-cı ildə Oxud kənd tam orta məktəbinə qəbul olunmuş, 1970-ci ildə orta təhsilini başa vurmuş,həmin il Azərbaycan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olub, 1974-cü ildə oranı bitirmişdir. Həmin tarixdən indiki vaxta qədər gənc nəslin təlim, tərbiyəsi ilə məşğul olur.Bədii yaradıcılığa gənc yaşlarından başlamış, şeirləri respublika və yerli mətbuat səhifələrində müntəzəm surətdə dərc olunur. "Dünya, məndən xəbərin yox" (2007) şeirlər kitabının müəllifidir.

Göz görməsi

Gözlərim gəlibdir göz görməsinə,
Göstər gözlərini gözlərim görsün.
Göz girib gözümün göyərtəsinə,
Güldür gözlərimi gözlərim gülsün.

Göz görüş gözləyir, göz gözlətmə gül,
Gözüm güdükçüdür, gözünü güdür.
Gözlərim gözlərlə görüşərkən gül!
Gözlərin gözümdə gəzən güzgüdür.

Görüşə gələndə gülə-gülə gəl,
Görüşmək gözəldir gözü gülərlə.
Getdikcə gözümdə gözəlləşirsən,
Gəzməyə gəlmişəm gülməşəkərlə.

Gizlət gözlərini, gözümü görmə,
Göz güləşdirirəm gözümdə gözlə.
Gözə gələcəksən, gözümə girmə
Gözlərim göygözdür, gözünü gözlə.

Sevək

Ucalıqlar baş ucaldar, ən uca dağı sevək,
Bəhəri xoş söz olan qəlb adında bağı sevək.

Dünyanın rəngi ikidir, biri ağ, biri qara,
Ağ işıq yeddi rəngi təmsil edir, ağı sevək.

Torpağın altı ölü, üstü isə sağla dolub,
Rəhmət olsun ölüyə, biz sağ olaq, sağı sevək.

Elə qiymətli yağ olmaz ürəyin yağı kimi,
Qoymayaq əriməyə bu qiymətli yağı sevək.

Ocağı sönməyəcək yurdda ocaq yandıranın,
Alovu şölə saçan müqəddəs ocağı sevək,

Tələsən təndirə düşsə onu ordan çıxarın
Biz hələ tələsməyək, çal-çağırlı çağı sevək.

Kiçiklər olmasaydı böyüklər bəs hardan olar?
Ananın bizlərə bəxş etdiyi uşağı sevək.

Aya bax, ulduza bax, bayrağımın rənginə bax,
Fərəhim, iftixarım üçrəngli bayrağı sevək.

Varmı torpaq qədər qüdrətli olan isti məkan?
Ulu öndərlərimiz baş qoyan torpağı sevək.

Vətənin şöhrətini göylərə qaldır, Bəhram,
Hər kiçik daş qopuğu, hər solan yarpağı sevək.

Dedin

Dedim gəl çıxaq bayıra,
-Tufan, külək, toz var- dedin.
Yaxşını pisdən ayıraq,
"Yolu kəsib bozdar": -dedin.

Gəl gül əkək, gəl gül dərək,
Sevənlər üçün göndərək,
İnsanlara qiymət verək
-Neçə üzü boz var dedin.

Sözü demə qorxa-qorxa,
Ovcundan tökülür qorğa,
Eyvanına qondu qarğa,
"Qarğa məndə qoz var" -dedin

Vermişəm

Ağzımdakı son tikəni
Qorxumdan itə vermişəm.
Qapqalın yorğanım vardı,
Təəssüf ki, bitə vermişəm.

Evdə bir şalvar var idi,
Bir az əynimə dar idi.
Baxdım həyətə-qar idi,
Aparıb lütə vermişəm.

Uşaqlar duyub iyini,
Yeyir kartofun çiyini.
Cibimin son qəpiyini,
Sümüklü ətə vermişəm.

Yumurtanın sarısını,
Balqabağın qarısını,
Ağlımın tən yarısını
Dəliyə, hütə vermişəm.

Un yoxdursa yoğurmağa,
Su ki vardır qovurmağa.
Barmaq da var sovurmağa.
Bu ayın da maaşını,
Alıb kreditə vermişəm.

RAMİL ƏLİYEV

1953

Əliyev Ramil Manaf oğlu 1953-cü il sentyabrın 28-də Şəki şəhərində anadan olmuş, burada orta məktəbi bitirmiş, Şəki mətbəəsində bir il fəhlə işləmiş, sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində təhsil almışdır (1972-1977). Altı il Şəki şəhərində müəllim işləmiş (1977-1983). "Elm" nəşriyyatında redaktor (1983-1989). MEA-nın Nizami adına Azərbaycan ədəbiyyatı muzeyində dissertant, Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutunda böyük elmi işçi kimi çalışmışdır (1994-2003). Dövrü mətbuatda elmi, publisistik məqalələrlə müntəzəm çıxış edir. "Mifoloji motivlər və onların Azərbaycan nağıllarında izləri" mövzusunda namizədlik (1992). "Mifoloji şüurun inkişaf dialektikası" mövzusunda isə doktorluq dissertasiyası müdafiə etmişdir. Hazırda Azərbaycan MEA Folklor İnstitutunda böyük elmi işçidir (2003-cü ildən). Folklorşünas Ramil Əliyev "Azərbaycan nağıllarında mifik görüşlər" (1992), "Türk dünyasından yarpaqlar" (2000), "Mifoloji şüurun bədii spesifikası" (2001), "XX əsrdə türk xalqlarının birliyi ideyası" (2002) və s. kitabların müəllifidir.

"Sabaha məktublar" kitabından

Türk mifoloji düşüncəsində özünə yer alan mühüm ritual-mərasimlərdən biri də adqoymadır. Bu ritualın strukturunda bir neçə mərhələ əsaslı rol oynayır. Adqoymanın əsas şərti qəhrəmanlıq göstərməkdir. Ona görə də adqoyma mərasimi övladsızlıq motivindən sonra Oğuz cəmiyyətinin tələbatına uyğun olaraq yüksək qəhrəmanlıq statusuna ödəyəcək oğulun doğulması ilə şərtlənirsə, digər tərəfdən həmin qəhrəmanın öz üzərinə düşən vəzifəni yerinə yetirməsi ilə də bağlıdır. Ona görə də ritual özündə övladsızlıq və qəhrəmanlıq göstərmək mötivlərini birləşdirir.

Türk tayfalarında doğulan oğlan uşaqları müəyyən yaşa qədər adsız yaşayırdılar. Ona görə ki, onlar hələ cəmiyyətdə yer tutmaq qabiliyyətinə malik deyildilər. Yalnız yeniyetməlik dövründə onlar qəhrəmanlıq göstərdiklərinə görə ad almaq və cəmiyyətdə yer tutmaq hüququna malik olurdular. Gəncin yeniyetməlik dövrü daha geniş anlamda onun ad günü kimi formalaşırdı. Bu cəmiyyətin etik normalarında bu yaşda gənc özünün gücünü göstərməli idi. Bu isə erkən epos dövründə gəncin qəhrəmanlıq göstərməsi ilə öz hüquqi məzmununu alırdı. M.Həkimov qeyd edir ki, qədim oğuzlarda oğlan uşaqlarına 15-16 yaşına çatdıqdan sonra rəsmi ad qoyulardı. Adqoyma kimi ictimai mərasim eldə «toy edib qonaqlama» şəklində icra edilirdi. Adqoyma ritualının qədim köklərinin «Kitabi-Dədə Qorqud» dastanında yaşadığını, bu ritualın eposun alt qatlarında olan sosial xarakterini bir daha görürük. Yuxarıda göstərilən boylarda da bu ritualın tələbi ilə Dirsə xanın və Baybura bəyin oğlanlarının qəhrəmanlıq göstərərək ad almasını Oğuz cəmiyyətinin xarakteri kimi açıqlamaq olar. Dirsə xanın oğlu öküzə qalib gəldiyi üçün Buğac, Baybura bəyin oğlu isə tacirləri və onların malını quldurların hücumundan qoruduğu və onlara qalib gəldiyi üçün Beyrək adlandırılır. Dastanda qoyulan birinci adın mənası anlaşılandır, Beyrək adı isə xüsusi yanaşma tələb edir. Beyrək adı özünün ilkinliyi ilə totemizmə bağlıdır. Totemizm sosial institut kimi türk tayfalarının soykökündə duran, yaxud bilavasitə düşüncə sistemi ilə bağlı olan ibtidai dünyagörüşdür. Beyrəyin də mənsub olduğu tayfanın dünyagörüşündə börənin onların yaradıcısı olması düşüncəsi hakim idi. Beyrək adının qurdla (börə) bağlı olmasının ona bu adın verilməsində qəbilənin soyyaddaşında qalan totemə inam böyük rol oynamışdır. Bunu Dədə Qorqud da bilirdi, ona görə də oğlana ad seçəndə qurdun cəsarətini nəzərə almışdı.

Adqoyma ritual kimi çox qədim tarixi keçmişə bağlıdır. Qəhrəmanlığın hələ sosial status almadığı dövrlərdəki adqoyma özünün izlərini nağıllarda da yaşatmışdır. Nağıllarda qəhrəmanlara igidlik göstərməmiş ad qoyulur, bundan sonra onların qəhrəmanlığına start verilir. Bu isə adqoymanın çox qədim tarixə malik olduğunu sübut edir. Ola bilər ki, çox qədim dövrlərdə-qəbilə dövründə uşaq doğularkən qəbilənin adı ilə adlandırılırmış. Bu isə adın uşaq üçün şərti ola bilməsini göstərir, əsil ad isə onun özünü təsdiq etməsindən sonra qazanılır. Dastanda uşaqlara verilən adlar da bunu təsdiq edir. Buğac və Beyrək öz qəbilələrinin adlarını daşıdıqdan sonra buğa və börənin sosiallıqdan çıxaraq konkret ada çevrilməsi nəticəsində şəxsə dönmüşlər. Lakin M.Həkimov yazır ki, Dədə Qorqud onlara fəaliyyətlərinə, ad-sanlarına uyğun ad verir. Buğaca buğanı öldürdüyünə görə «Buğac», Bamsı Beyrəyə quldurlara qalib gəldiyinə görə «Beyrək», Basata Təpəgözü öldürdüyünə görə «Basat» adları qoyulması fikrimizin təsdiqi baxımından maraqlıdır. Adqoymanın bu cür şərh olunması inandırıcı deyil, çünki Beyrək ilə Basatın adı, onların göstərdiyi qəhrəmanlıq mənsub olduqları sosial təbəqənin qəhrəmanlıq dərəcəsinə uyğun gəlmir. Basata Təpəgözü öldürdüyünə görə ad verilməmişdir, bu ad onun qəbiləsinin şir kimi at basıb qanını içməsinə görə verilmişdir. Lakin bu keyfiyyət dastandan məlum olmadığına görə Basata ad qoyulması onu uşaqlıqdan əmizdirən aslanla bağlanılmışdır.

QOCA XALİD

1954

Namizəd Xalid oğlu Zəkəriyəyev –Qoca Xalid 1954-cü il mayın 25-də Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş, doğulduğu kənddə orta məktəbi bitirmiş (1970), Azərbaycan Politexnik İnstitutunda və Azərbaycan Dövlət Universitetində oxumuş, Moskva Ali Ədəbiyyat kurslarını bitirmişdir (1999).
Əmək fəaliyyətinə yaşadığı kənddə mədəniyyət təşkilatçısı kimi başlamış, Şəki Pedaqoji Texnikumunda müəllim işləmiş (2000-2002), 2003-cü ildən fasiləsiz olaraq Kiçik Dəhnə 1 nömrəli kənd orta məktəbində müəllim işləyir. Yaradıcılığa erkən yaşlarından başlamış, "Şəkit çöllərin mahnısı" (1986), "Dəjd vospominaniya" (M, 1999), "Bu su Dəhnədən gəlir" (2000), klassik və müasir rus poeziyasından tərcümə kitabları çap olunmuşdur.
1993-cü ildən AYB-nin üzvüdür.2010-cu ildə Prezident təqaüdçüsü olmuşdur.Rusiya xalqları VII Artiadasının laureatı (2000), Beynəlxalq Nikolay Rubtsov mükafatı laureatı, Rus mifləri poeziya festivalının laureatı (2012), Rusiya Elm və İncəsənət Akademiyasının fəxri akademiki seçilmişdir (2016).

Kövşən iyi

Boyu balacadı sətrinə görə,
Bununçün kiməsə bir işi düşməz.
Mənim şerlərim ətrinə görə
Heç kəsin şerilə dəyişik düşməz;
Kövşən iyi gəlir şeirlərimdən.

Ulu qaynaqlara bağlıdır kökü,
Di gəl ki, taleyi məni yandırır;
Hələlik birini özünə çəkib,
Yüzünün burnunu qıcıqlandırır –
Kövşən iyi gəlir şeirlərimdən.

Kəsir qabağımı küləklər bəzən,
Saçımdan yapışır, dizimə döyür.
İş elə gətirib, sevdiyim gözəl
Şeirimi oxuyub gözünü döyür;
Kövşən iyi gəlir şeirlərimdən.

Pərişan-pərişan susur çinar da,
Dərdini üzümə deyəmmir mənim.
Bəlkə, kəndimizdə əkinçilər də –
Heç bircə misramı bəyənmir mənim;
Kövşən iyi gəlir şeirlərimdən.

Düşmən sevincini duydum uzaqdan,
Bezdim dinləməkdən dost gileyini...
Süni ətirlərin artdığı vaxtda
Sevən olacaqmı kövşən iyini?
Kövşən iyi gəlir şeirlərimdən.

Xatirələrdən yağan yağış

Çəmənə, çiçəyə, yarpağa yağar,
Son qoyar çöllərin sarı qəminə.
Gündüz yağan yağış torpağa yağar,
Gecə yağan yağış mənim qəlbimə.

Gecə də, gündüz də parlayıb sönər,
Şimşəklər odlayar buludları da.
Gündüz yağan yağış daşlarda dinər,
Gecə yağan yağış – duyğularımda.

Bu yaz yağışının yolu uludu,
Yağar, göydən yerə xəbər gətirər.
Gündüz yağan yağış – adicə sudu,
Gecə yağan yağış – həzin xatirə.

Damcılar nur olub qəlbimə axar...
Mən də kövrək-kövrək deyərəm hərdən,
Gündüz yağan yağış buluddan yağar,
Gecə yağan yağış – xatirələrdən.

Sapsarıdı cığır, iz,

Xəzəl yağır başıma.
Gözləməzdim, belə tez –
Payız çıxa qarşıma...
Oyanıbdı necə də
Həm həsrətim, həm qəmim.
Ta gündüz də, gecə də
Küləklərdi həmdəmim.

Yan-yörəmdə dolanıb
Haray-həşir qoparır.
Xəyalımı elə hey
Uzaqlara aparır.

Yapışaraq qolumdan
Pıçıldayır: "Gəl, gedək!"
Çıxardacaq yolumdan
Deyəsən, məni külək...

Yox! Küləyə qoşulmaq
Yaraşarmı yaşıma?
Onsuz da hara getsəm –
Payız çıxar qarşıma.

Dincə qoyulmuş torpaq

Əkin yerlərindən
incəliklə ayrılıb –
küncə qoyulub bu torpaq.
O qədər məhsul yetirib...
Lap axırda yorulub,
Qüvvəsini itirib –
dincə qoyulub torpaq,
küncə qoyulub torpaq.

Bu torpaq
Yollardan gözünü yığıbdı,
Bu torpaq
"məzuniyyətə" çıxıbdı.

Dincələcək –
yorğunluğu çıxana kimi,
Bekarçılıq qəlbini sıxana kimi...

Nə qədər mağmınam, nə qədər qərib

Nə qədər mağmınam, nə qədər qərib!
Soyuq qarşıladı bu şəhər məni.
Başıma buz kimi yağış əndərib –
Soyuq qarşıladı bu şəhər məni.

Gözünü gözümə elə zillədi –
Duydum verəcəyi zülmü, zilləti.
Deyəsən, xoşlamır bizim millәti,
Soyuq qarşıladı bu şəhər məni.

Qatlaşa-qatlaşa dərdə, möhnətə,
Bir koma qurmuşdum Kiçik Dəhnədə...
Sevin, gedişimə çatlayan gədə! –
Soyuq qarşıladı bu şəhər məni.

Hər gün dilə tutdum neçə palıdı, –
Gah cavan, gah da qoca palıdı.
Ağac da saymadı Qoca Xalidi –
Soyuq qarşıladı bu şəhər məni.

BABA BABAZADƏ

1955-2011

Babazadə Baba Hüseynəli oğlu 1955-ci il martın 17-də Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, doğulduğu kənd 1 saylı orta məktəbini (1972). Bakı Dövlət Universitetinin filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir (1982).İki il Quba rayonunun Talabı kənd məktəbində müəllim işləmiş, sonra BDU-nun filologiya fakultəsinin aspirantı olmuş (1984-1987), "XX əsr Azərbaycan satirik nəsrində tipikləşdirmə" mövzusunda dissertasiya müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür (1988).

"XX əsr Azərbaycan ədəbiyyatında bədii tip problemi" adlı doktorluq dissertasiyasını da müvəffəqiyyətlə müdafiə etmiş, uzun illər BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında çalışmışdır.1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan ədəbiyyatşünas tədqiqatçı-alimin "Bədii ədəbiyyatda tipiklik" (dərs vəsaiti, 1992), "Tənqidi realist ədəbiyyatda bədii tip məsələsi" (1998), "Maarifpərvər ədəbiyyatda xarakter problemi" (1998), "Romantizm və bədii xarakter problemi" (1998), "Ədəbi xarakter və tip" (1999),

"Kitabi Dədə Qorqud dastanında bədii təhkiyə"(2000), "Klassik ədəbiyyatda bahariyyələr" (2000), "XX əsr satirik şeirində tip və tipiklik" (2000), "Professor İnayət Bəktaşi-70" (2001), "Azərbaycan sentimentalizmi" (2003) və s. kitabların müəllifidir. Baba Babazadə 2011-ci il mayın 6-da Bakı şəhərində vəfat etmiş, doğulduğu kənd qəbirstanlığında torpağa tapşırılmışdır.

Sentimentalizmin təşəkkül tarixi və nəzəriyyəsi

Azərbaycan sentimentalizmi başqa ədəbi cərayanlarla müqayisədə daha az öyrənilmişdir. Ədəbiyyat nəzəriyyəsinə aid kitablarda, lüğətlərdə, demək olar Azərbaycan sentimentalizminə elmi-nəzəri və konseptual baxış yoxdur. Ədəbiyyatşünasların fikrincə, ümumiyyətlə, Azərbaycan ədəbiyyatında sentimentalizm cərəyanı olmamışdır. Bununla bərabər, bir sıra ədəbiyyatşünaslar ayrı-ayn sənətkarların yaradıcılığını təhlil və tədqiq edərkən, həmin sənətkarların yaradıcılığında özünü göstərən sentimental təsvirlərdən, sentimental hisslərdən bəhs edirlər. Bundan başqa XX əsr Azərbaycan ədəbiyyatına və Azərbaycan romantizminə aid bütün araşdırmalarda romantik ədəbiyyatın nümayəndəsi kimi səciyyələndirilən, təqdim olunan Abdulla bəy Divanbəyoğlunun "Can yanğısı" povesti, Abdulla Şaiqin lirikasının bir sıra nümunələri Azərbaycan sentimentalizminin örnəkləri kimi dəyərləndirilir.

Azərbaycan sentimentalizmini öyrənmək, nəzəri tədqiq obyektinə çevirmək üçün terminoloji anlayışın özünü öyrənmək daha məqsədəuyğun olardı. Şübhə yoxdur ki, anlayışın terminoloji interpretasiyası sentimentalizmin bir ədəbi cərəyan olaraq təşəkkül tarixini, yaranma mərhələsini, səbəblərini də öyrənməyə imkan vermiş olar. Bizə belə gəlir ki, problemə bu cür yanaşma Azərbaycan sentimentalizmi haqqında gələcəkdə monoqrafik tədqiqatların da yaranmasına kömək edər, ilkin başlanğıc olar. Azərbaycan sentimentalizmini sistemli təhlilə cəlb etmək ədəbiyyatşünaslıq elmimizin, nəzəri-estetik fikrimizin inkişafı baxımından da çox əhəmiyyətlidir.

"Sentimentalizm-fransızca sentimentalisme sözündəndir. Bu söz ingilis dilində sentimental,fransızca sentiment deməkdir. Sentimental-həssas, tez mütəəssir olan, ürəyi nazik, təsirli deməkdir. Sentiment sözü də buna uyğun olub-hiss, duyğu, hiss etmə qabiliyyəti, duyma qabiliyyəti mənasını verir. Sentimentalizm Avropa ədəbiyyatı və incəsənətində XVIII əsrin ikinci yarısından etibarən ədəbi cərəyan kimi formalaşmağa başlamışdır.

Sentimentazm ədəbi cərəyanının yaranması, onun təşəkkül tarixi ilə bağlı fikirlərdən aydın olur ki, həmin mülahizələri mexaniki olaraq Azərbaycan sentimentalizminə, onun təşəkkül tarixinə tətbiq etmək mümkün deyildir. Avropa sentimentalizmindən fərqli olaraq Azərbaycan sentimentalizmi tamamilə başqa mühitdə və başqa zəmində meydana gəlmişdir.

"Sentimentalizm (fransızca sentimental-həssas, təsirli) Avropa ədəbiyyatında XVIII əsrin sonu, XIX əsrin əvvəllərində ilk əvvəl İngiltərədə yaranaraq, burjuaziyanın feodalizmə qarşı mübarizəsini əks etdirmişdir.

Sentimentalizm klassisizmin mücərrədliyinə və onun köhnəliyinə qarşı çıxan bir cərəyan kimi formalaşmışdır

Sentimentalizmdə zadəgan-aristokrat əxlaqına qarşı güclü bir protest ifadə olunurdu. Hər şeydən əvvəl, ona görə ki, sentimentalizm zadəgan quruluşuna qarşı çıxış edən sənətkarların, tacirlərin, kəndlilərin, feodalizmdən əzilən, sıxışdırılan təbəqələrin həyatını inikas obyekti kimi götürürdü.

Bir sıra tədqiqatçılar sentimentalizmi maarifçilik hərəkatı ilə bağlayırlar. Rus sentimentalizminin ən görkəmli nümayəndəsi olan Karamzinin yaradıcılığının maarifçilik hərəkatı ilə orqanik əlaqədə olması göstərilmişdir. Karamzin haqqında bəhs edən V.V.Sipovski yazır ki, Karamzin rus cəmiyyətini irəli aparmağa çalışan maarifçilik hərəkatı axınının lap mərkəzinə düşmüşdür

Bir sıra nəzəriyyəçilər sentimentalizmi bu cərəyana daxil olan sənətkarların yaradıcılığının psixoideoloji kompleksi ilə izah edirlər. Onlar sentimentalizmi "orta zadəganlığın" və burjuaziyanın mənafeyinin müdafiəçisi kimi izah etmişlər. Bununla bərabər, ədəbiyyatşünaslar sentimentalistlərin yaradıcılığında açıq şəkildə hiss olunan müxalif, mövcud cəmiyyətlə barışmaz cəhətləri də qeyd etmişlər.

Belə ki, sentimentalistlər klassisistlərdən fərqli olaraq, orta təbəqənin, üçüncü silkin mənafeyinin bədii ifadəsinə üstünlük verirdilər. Qeyd edildiyi kimi, "Sentimentalizm "insan təbiətinin" dominantı olaraq ağlı deyil, hissləri elan etdilər.

İnsan hisslərinin təsvir və tərənnümü sentimentalistlər üçün əsas idi. Onların əsərlərində insan təbiətinin məsum, nazik, duyğulu tərəflərinin təsviri üstünlük təşkil edirdi...

MURAD NƏBİBƏYOV

1955

Murad Rüstəm oğlu Nəbibəyov 1955-ci ildə Şəkidə anadan olub.
1982-ci ildə Şəki şəhər 10 saylı orta məktəbi, bitirib.
«Bakı məişət kondisioneri» Elm İstehsalat Birliyinin
Bakı Elektrik Stampları təcrübə zavodunda mühəndis-texnoloq vəzifəsinə
işə qəbul edilmiş,1992-ci ildək həmin zavodda mühəndis-texnoloq,usta,
baş usta, sahə və sex rəisi vəzifələrində,
eyni zamanda 1988-ci ildə zavodun nəzdində təşkil edilmiş
İstehsalat-kommersiya kooperativinin sədri vəzifəsində işləmişdir. 1992-
1997-ci illərdə həmin kooperativin sədri olmuşdur.
1997-ci ildən 2005-ci ilədək «Kriminal» qəzetində baş redaktorun
müavini, «Zaman-Azərbaycan» və «Ədalət» qəzetlərində
Sosial həyat və iqtisadiyyat şöbəsinin müdiri vəzifələrində işləmiş,
müxtəlif qəzetlərlə(«Axşam», «Qol», «Mərkəz», «Son söz» və s.)
əməkdaşlıq etmişdir.2005-ci ilin mart ayından Şəki Bələdiyyəsində
Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri və «Şəki Bələdiyyəsi»
qəzetinin baş redaktorudur,Azərbaycan Jurnalistlər Birliyinin üzvü. "Qızıl
qələm" mükafatı laureatıdır.
Publisistik yazıları ilə dövrü mətbuatda müntəzəm çıxış edir.

Köhnə dostlar

«Daevo» gecəyarısı Kürdəmirdə - yeməkxananın qabağında dayandı. Hamı kimi Hacı Abdulla da yarıyuxulu-yarıoyaq, bir stəkan çay içmək xatirinə tənbəl-tənbəl avtobusdan düşdü. Yeməkxanaya daxil olub, heç ətrafa nəzər salmağa macal tapmamışdı ki, sol tərəfdən qulağına tanış səs gəldi:

– Səlammələyküm, ay Həci! Alə, gə bura görüm necəsən? Nə var, nə yox?.. Alə, haçandu sənünlə görüşmürük!..

Səs, ləhcə Hacı Abdullaya tanış gəlsə də, çevrilib baxanda eşitdiyi sözlərin sahibini tanıya bilmədi. Amma nəzakət xatirinə o oturan stola yaxınlaşıb əl uzatdı. Hacını çağıran isə ayağa qalxıb onu bərk-bərk qucaqlayıb bağrına basdı, o ki var başladı öpməyə:

– Həci, alə, tanımadun məni?.. Alə, Atobbayam da, məştəgalı Atobba, məşədi Atababa da… Alə, indü tanıdun?

– Ay Məşədi!.. Ə… Habı nədəə… Nə yaman dəyişmisən ə…

– Həci, diginən day nə yaman qocalmısan də… Dəyişmisən nədü? Görmürsən lap əldən düşmüşəm?.. Yaxçi, otur görüm sən də! – Məşədi hökmlə Hacını stula oturdub sonra əlavə etdi: – Əntüğə çaçam var, gürcü dostlarım göndəriblər. Səynən də çoxdandı görüşmürük. Gəl vurağ özümüzçün yüz-yüz. Tək getmirdi, səən canınçün… Evdən də əla toyuğ qızartması qoyublar. Buranın yimeyləri bir şey dögül, mən ölüm… – deyib stolun altındakı balaca çantadan bir şüşə ilə qızardılmış toyuğu çıxardıb stolun üstünə qoydu və ofisianta çağırdı ki, iki dənə "stopka" gətirsin. Stəkanlar gələn kimi Məşədi çaçadan süzüb:

– Həci, mını içirəm lişni səən salığuva, – deyib stəkanını Hacının stəkanıyla toqquşdurub arağı başına çəkdi. Hacı da stəkandakı arağın yarısını içib Məşədinin bu can-fəşanlığına minnətdarlığını bildirdi və:

– Xeyir ola, Meşədi, hara belə? Sən hara, Kürdəmir hara? – deyə soruşdu.

Məşədinin elə bil dərdi təzələndi:

– Eeh, ay Həci… Neyniyəcəm mən Kürdəmirdə? Tiflisə gedirəm, gürcü dostlarımın yanına. Day nə Bakıdə "bakülük" qalıb, nə də Məştağada "məştağəlük". Alə, bir-iki parnikdə güldən-zaddan əkib birtəhər dolanırduğ, indi onu da elüyə bilmirük. Alə, nə qaz verillər parniki isitməyə, nə mazut tapa bilirük. Hələ üstəlik işıqları da söndürüllər ki, oqraniçennidü, limit var. Belə olanda mən də Məştəgəda oturub neyniyəcəm e?.. Özün bilirsən da, məndə də iki qızdu, ikisü də ərdə. Kürəkənnərin əlinə baxmiciyəm ki… Yəxçü, sən xeyir ola? Bakıyə gedürsən, yoxsa Şəkiyə? – Məşədi Hacının da dərdli yerinə toxunmuşdu, Hacı da öz ürəyini ona açdı:

– Ay Meşədi, mən də hayindi geyirəm Bakiyə. Uşaxların yaana... Neçə ildi hər qış geyirəm. Hərəsinin öyündə bir-iki həftə qalanda yaz gəlif çıxır, sora da qayıdıram Şəkiyə. Ə, o sən diyənnər bizdə də var da... Neçə ildi qaz yox idi, gənə sağ olsunnar, ötən il verdilər, amma unu da hammiyə yox... Hayindi biz tərəfdə, dimağ olar ki, yoxdu... Hanı, gah olur, gah olmur... Vallah biirsən nətəridi? Ə, habı yolun altında var, üstündə yoxdu. Vallah mat qalmışam... Qonşular pul da yığıf veritdilər qaz idarəsinə ki, gəlif yolun üst tərəfinə qaz çəksinlər, amma hələ gələsidilər. Görəsən hayindi 10-15 dənə öyə qaz çəkmaxdan ötrü geyif icra başçısına, prezidentə qaz idarəsinnən şikayət eliyax?.. İşığı da ki, o bi dənə "Bayva" var ey, o gələnnən sora sutkada yeddi-səkkiz saat, lap çox olanda da doqquz saat verirdilər. Hayindi da, bir il olar ki, işıx da düzəlitdi, amma gənə arabir söndürüllər da... Mən də tək adamam, hövsələsiz, odun-zad alıf peş-zad qaliyə bilmirəm. Ona görə də həməşə qış gələndə geyirəm Bakiyə. Bəs sən hayindi niyə Gürcustana geyirsən? Orda işıx-zad var? Qaz var? Bizdə hablar olmiyənnən sora, olarda hardandı?..

Məşədi Hacıya qulaq asdıqdan sonra stəkanlara yenə "çaça" süzüb öz stəkanını qaldırdı:

– Həci, həri, orda işığ da var, qaz da. Mən nə bilim hardandu, yəqin biz veririk də... Biz nə vaxt qonşularımızı darda qoymuşuğ ki?... Əşi, nə isə... Gəl mını da uşağların saluğuna vuraq, sora da mən sənə Baküdəki "Barmek" haqqında bir-iki kəlmə diyəcəm, – deyib arağı çəkdi başına. Ağzına bir tikə toyuğun ətindən qoyub başladı sözə:

– Ay Həci, alə Baküdə də bizim başımıza o oyunu "Barmek" açır də... Zalım oğlu, gələn kimi şotçikləri dəyişdi, hamısını da yığdı seyf kimi bi şkafın içinə. Səən canınçün, heç nə iləmək mümkün döyül. Hələ bu bir yana qalsun, diyillər təzə şotçiklər özü də əvvəlkilərdən çox yazır. Kim də işığpulunu bir-iki gün gec versə haa,.. srazu gəlib kəsillər... Alə, bu "Barmek" var ha, Barmek döyül ki, işığ gələn deşiyə barmağ soxandu. O sizdəkinin adı nədü? Diyirsən "Bayva"du? Həci, bəlkə buların adını bir-reşdirek, qoyağ elə "Bar-Bay"?.. Hə?.. Necədü? Ya da ki, "Bay-Bar", - deyib qımışdı. Deyəsən "çaça" Məşədini yavaş-yavaş tuturdu. Sonra fikrə gedib Hacıdan soruşdu:

– Bura bax, Abdulla, sən qabağlar ərağ içmirdün axı? Nouldu? – sonra özü elə bil sualına cavab tapmış kimi sevindi:

– Eeh, vapşe indi arağ içmiyib neyniyəsən? Amma yəxçü ərağ, day bizimkilər buraxan o girdürmələrdən yox da... – Hacı Abdulla Məşədinin sözünü yarımçıq kəsib:

– Hə hayindi də işmirəm ki... Habırda prosto səən görüf söyündüyümnən işdim, ay Meşədi. Yadındadı nətəri vaxtlar var idi? Tez-tez görüşərdox...

– Burada Məşədi də Hacının sözünü kəsib:

– Demə ay Həci, demə... Yadındadu, Şəkiyə gəlmişdim, aparmışdun məni "Soyuq bulağa", "Yeddi gözələ", Xan sarayına... Nə gözəl vaxtlarımız vardı, ay Həci...

Elə bu vaxt bayırdan avtobus siqnalı eşidildi. Məşədi yeməkxananın pəncərəsindən boylanıb:

– Mənimki diyəsən tərpənmek istiyir, – deyib Hacı ilə sağollaşmağa başladı. Hacı da onunla birlikdə yeməkxanadan çıxdı. Çöldə Məşədi Hacı ilə qucaqlaşıb öpüşdükdən sonra Tiflis avtobusuna mindi. İki pillə qalxmışdı ki, geri çevrilib Hacıya:

– Həci, gəl oların adını "Bay-Bay" qoyağ, camaatı onsuz da həmişə qaranlığda saxlamıllar?.. Alə, bu da hamını bay-bay elətdirməkdü də...– Məşədinin axırıncı sözləri yeməkxanaya işıq verən generatorun gurultusuna qarışdı...

Hacı da gəldiyi avtobusa mindi. Maşının radiosunda xəbərlər səslənirdi. Hacının qulağına çatan bunlar oldu ki, müqavilə şərtlərini yerinə yetirmədiyinə görə, "Bayva"nın ya hamısını, ya da yarısını ləğv edib veriblər "Azərenerji"nin tabeçiliyinə...

ALMAZ ARİFLİ

1955

Almaz Nuru qızı Abbasova 1955-ci ildə
Şəki şəhərində anadan olmuş,
orta təhsilini əvvəl 18 saylı, sonra isə 19 saylı məktəbdə alıb.
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Coğrafiya fakültəsini bitirmişdir(1978).
Əmək fəaliyyətinə Baramaaçan fabrikində fəhlə kimi başlayıb.
Şəki şəhər Texniki Peşə məktəbində,
Şəki Qarışıq tipli İnternat məktəbində çalışıb,
hazırda da internat məktəbində coğrafiya müəllimi işləyir.
Şeir yazmağa gənc yaşlarından başlamış,
yerli mətbuat səhifələrində şeirləri dərc olunur.

Qızıma

Gözlərimdə yaş görəndə qırılma
Arada bir qəhər məni ağladır.
Ümüd dolu baxışına qurbanam,
Kədər hərdən ürəyimi çağladır.

Anasının bu yaşında anası,
Atasının, ay qayğıkeş mələyi,
Yarı yolda qırılmasın bir arzun,
Üstünə əsməsin möhnət küləyi!

Bütün qız böyüdən analar kimi
Yüzmüdür, minmidir məndəki dilək?!
Biz-bütün analar, bütün qızları
Təki xoşbəxt görək, bəxtəvər görək!

Dua

Tanrı!
Əlim göydədir-
Sən bizi bizdən qoru!
Şeytanın tələsindən,
Artıq nəfsdən qoru!
"Ölüm var, ölüm kimi,
Ölüm var-zülm kimi"
Ləyaqətsiz ad qoyub
Lənətə tuş olmayaq!
Övladların gözündə
Xəcalətindən doğulan
Bir damcı yaş olmayaq!
Tanrı!
Əlim göydədir-
Sən bizi bizdən qoru!
Yolumuza daş kimi
Atılan kəsdən qoru,
Qoru, qoru, amandı
Qoru, nakəsdən qoru!

Gənclik

Gənclik! Ömrümüzün ən gözəl çağı,
Arzular baharı, xəyal oylağı.
Sevgidən, istəkdən, nurdan doğulan
Qəfildən bulanan, qəfil durulan

Dağı-dağ üstünə qoymaq həvəsli
Səsini dünyaya yaymaq həvəsli
Tanrının əlindən keçən qədərdi-
Gənclik, çox heyf ki, gəldi-gedərdi!

Cəvahir nənə

Mehriban, qayğıkeş Cəvahir nənə,
Vermişlər adını körpə nəvənə.
Bilirəm, ürəyin coşmuş, çağlamış
Səni bu dünyaya bərk-bərk bağlamış!
Qocalıq haqlamış?
Nə kədər, nə qədər?!
Kiçilib həyata gəldin yenidən.
Baxıram,
Könlümdən keçir gör nələr –
Doğulsun yenidən bütün nənələr.

ƏHMƏD ZƏYZİDLİ

1955

Həbillayev Əhməd Hümmət oğlu 1955-ci il iyulun 22-də Şəki rayonunun Baş Zəyzid kəndində kolxozçu ailəsində anadan olmuş, doğulduğu kənd orta məktəbini (1972), ADPU-nin riyaziyyat fakultəsini bitirmişdir. Tələbəlik illərindən bədii yaradıcılıqla məşğul olmuş, şeirləri institutun "Gənc müəllim", sonralar isə vaxtaşırı yerli mətbuat səhifələrində dərc edilmişdir. Onun şeirlərində mövzu kasadlığı yoxdur. Təbiətə, ana yurda bağlılıq, insana sevgi şeirlərinin əsas qəyəsini təşkil edir. Əhməd Zəyzidli doğma kənd məktəbində ixtisası üzrə müəllim işləməklə yanaşı, bədii yaradıcılığını davam etdirir. "Nədir yaşamaq" (2016) adlı şeirlər toplusunun müəllifidir.

Çalınmamış sazam

Zəyzidli Əhmədəm məkanım Şəki,
Namərd tərəfindən almadım çəki.
Vətən sevgisidir, el sevgisidir,
Qürurla döyünən ürəyimdəki.

Şəhidləri ürəyimi dağlayan,
Bir vətənin çalınmamış sazıyam.
Oğul deyib gecə-gündüz ağlayan,
Anaların qışa dönmüş yazıyam.

Vətən, nədir o çəkdiyin ağrılar?
O ağrını mən çəkməyə hazıram.
Vətən, mənim ürəyimdə yerin var,
Həmin yerə "Vətən" sözü yazıram.

Görünər

Naşı qiymət verəmməz,
Sənətkara heç zaman.
Yaxşının yaxşılığı
Yaxşılarda görünər.

Uca dağlar başında,
Dolansa da sərt duman,
Təbiətin dönüşü
İlk baharda görünər.

Nə fərqi

Yanan qəlbin alovunu, odunu,
Naşı duymaz yüz yol söylə, nə fərqi.
Sönmüş oda atsan höyüş odunu,
Alov tutmaz, üfür, teylə, nə fərqi.

Sözü danış anlayana, qanana,
Çox inanma şan-şöhrətə uyana.
Qəlbini ver səni qəlbdən duyana.
Qanmaz kəsə hörmət eylə, nə fərqi.

Ürək sevsə, yaşadacaq dil onu,
Oğul mərdsə, ucaldacaq el onu,
Əhməd, yetsə ömrün sona bil bunu,
Qarşısına sədd çək, əylə, nə fərqi.

Payız

Payız nəfəsini duydu təbiət;
Nə yaman saraltı düşdü dağlara.
Dəcəllik eşqinə uydu təbiət.
Zirvə küləkləri endi bağlara.

Dağlarda göründü qış nişanəsi,
Sürülər yaylaqdan endi arana,
Bir zaman çobana arxa dayanan,
Bir qoca palıd da düşdü borana.

Payız özü açdı öz boxçasını,
Bir artıq sərinlik verdi obaya.
Canında üşütmə hiss edən nənə,
Çır-çırpı axtardı köhnə sobaya.

Nə var bu yerlərdə şair olmağa

Burda zirvələrin düm ağ papağı,
Burda yamacların yaşıl donu var.
Burda zər xalılar öpür ayağı,
Burda gözəlliyin gerçək onu var.
Təbiət gəl deyir ilham almağa,
Nə var bu yerlərdə şair olmağa!

Burda bulaqların səsi çəngidi,
Nəğməsi çayların gur ahəngidi,
Burda quşların da öz səsləri var.
Burda ceyran, cüyür nəfəsləri var.
Təbiət öyrədib seyrə dalmağa,
Nə var bu yerlərdə şair olmağa!

Burda yaylaqların min bir gülü var,
Quşların nəğməli şirin dili var.
Əsir hər tərəfdən zirvələr mehi,
Burda təbiətin rəssam əli var.
Bacarır hər şeyə qələm çalmağa,
Nə var bu yerlərdə şair olmağa!

Burda buludlardır dağların çətri,
Bağları bürüyür güllərin ətri.
Şadlanmaq istəsə Əhmədin xətri,
Yaylağa baş çəkir, bir az qalmağa,
Vaxtı da olmayıb tez qocalmağa,
Nə var bu yerlərdə şair olmağa!

YUSİF HÜSEYNOV

1956

Hüseynov Yusif Həsən oğlu 1956-cı il martın 10-da anadan olmuş. Şəki şəhər 2 saylı orta məktəbini (1973), BDU-nun jurnalistika fakultəsini (1978), Prezident aparatı yanında Politologiya və İdarəetmə İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir (1994). Əmək fəaliyyətinə "Kommunist" qəzeti redaksiyasında stajyor müxbir kimi başlamış (1978-1979), "Pioner" qəzetində müxbir (1979-1980), Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda əvvəl kiçik elmi işçi, sonra böyük elmi işçi (1980-1990), Azərbaycan KP MK-da tərcüməçi redaktor, təlimatçı (1990-1991), Prezident Aparatı ərazi idarəetmə orqanları ilə iş üzrə dövlət müşavirinin köməkçisi, sonra həmin şöbədə böyük məsləhətçi(1991-1995), "Vəfa" jurnalında şöbə müdiri, "Ülfət" qəzetində bölgə müxbiri (1996-2005), İctimai Televiziya və Radio yayımları şirkətində redaktor (2005-2008) vəzifələrində çalışmışdır. 2008-ci ildən həmin şirkətdə "Carçı film" yaradıcılıq birliyinin direktor müavini işləyir.O, müxtəlif dövrlərdə müxtəlif mətbuat vasitələrində bədii, elmi, publisist məqalələrlə, portret yazı, oçerk, araşdırmalarla çıxış etmiş, hazırda bu istiqamətdə də fəaliyyətini davam etdirir.

Son görüşün təəssüratları

Şəki ət-süd kombinatı dövrünün qabaqcıl müəssisələrindən sayılırdı. Dalbadal neçə il ümumittifaq sosializm yarışının qalibi olmuş, hətta bir neçə dəfə ümumittifaq xalq təsərrüfatı sərgisinin gümüş medalına layiq görülmüşdür. Kombinatın direktoru M.Cabbarov Şəkidə həm də xeyirxah insan, əsl vətənpərvər kimi ad çıxarmışdır.Pulunu kasıblardan əsirgəməzdi. Kömək üçün müraciət edənlərin heç birini əliboş qaytarmamışdı.

Ötənləri yada salıb Məmməd müəllimlə görüşmək qərarına gəldim.

Onunla iş otağında görüşdüm.Saçları ağarmışdı, bir qədər yorğun görünürdü.Kombinatın vəziyyəti ilə maraqlandım.

– Demək olar ki, müəssisəmiz indi işləmir.Azacıq fasilə verib söhbətinə davam etdi:

– Bilirsiniz, buranı mən öz əllərimlə tikmişəm.Müəssisəyə dördüncü balam kimi baxıram.1963-cü ildə mən bura direktor təyin ediləndə hələ kombinatın inşaat işləri başa çatdırılmamışdı.Düz iki il oturmağa yerim olmayıb.Ancaq o dövr üçün qısa bir vaxtda bütün işləri başa çatdırdım. Müəssisə ət kombinatı kimi fəaliyyətə başladı.Sonra xaricdən avadanlıqlar gətirdik.Kombinatda ətlə yanaşı süd və süd məhsulları emal edildi.

70-ci illərdə Balakəndən Qəbələyədək olan zonanı ət, süd, yağ, pendir, kolbasa məmulatları ilə təmin edirdik.Məhsulların keyfiyyətləri yüksək səviyyədə olurdu.Bundan əlavə hər il Bakı şəhərinə 3 min tona yaxın ət, 600 tona yaxın kolbasa, 1000 tona yaxın pendir və s. məhsullar göndərirdik.

Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, iş daim qaynayırdı. Kombinatımızda 400-dən artıq adam işləyirdi. Sorağımız nəinki respublikanın hər yanında, hətta keçmiş ittifaqa da yayılmışdı.

Fəaliyyətimiz dövlətin diqqətindən kənarda qalmamışdı.1972-ci ildə mən "Qırmızı əmək bayrağı" ordeni ilə təltif edildim.

Söhbətini yarımçıq kəsdi. Üzünün rəngi də dəyişdi, dərindən köks ötürüb əlavə etdi:

– Bağışlayın siz Allah.Müəssisənin bu vəziyyətinə ürəyim ağrıyır, yanıram. Bunları da yandığımdan dedim. Mən tərif xoşlayan, özü haqqında danışanlardan deyiləm.

Və mən Məmməd müəllimi belə də tanıyırdım:sadə, təvazökar, müdrik bir insan kimi.Mən onu insanların dostu, qayğıkeşi kimi tanıyırdım.İstiqanlı, el-oba canlı bir el ağsaqqalı idi.

1996-cı ildə müəssisənin ağır vəziyyətini aradan qaldırmaq üçün Şəki şəhər rəhbərliyinin dəvəti və təkidi ilə yenidən öz vəzifəsinə qaytarılmışdı.

Müəssisənin indiki durumu, gələcək taleyi ilə maraqlandım.

– Bu qəzetçilər də çox usta adamlardır.İstədikləri sözü alınca adamı elə "qıdıqlayırlar" ki, bir də görürsən nə varsa hamısını açıb tökmüsən.

Zarafatından da qalmadı (Məmməd müəllimin duzlu, məzəli söhbətləri, həm də şirin yumoru var idi.), güldü.

– Bunlar da bir zarafatdır, – dedi və söhbətini davam etdi.

– Mən qayıdanda artıq əvvəlki müəssisədən əsər-əlamət qalmamışdı. Yalnız 1997-ci ilin birinci rübünə qədər istehsalatda müəyyən irəliləyiş əldə etmək mümkün oldu.Müəssisədə işlərin düzgün qurulmaması, həm də rayonda heyvandarlıq sahəsində islahatların tələm-tələsik, başdan sovda aparılması kombinatı bu vəziyyətə salmışdı.

Yenə söhbətinə ara verdi.Köks ötürdü.Sonra söhbətinə belə davam etdi.

– Hazırda kombinat açıq tipli səhmdar cəmiyyətə çevirilmişdir. Müəssisəmizin abad ərazisi, gözəl istehsalat binaları vardır.Vaxtilə Macarıstandan gətirdiyimiz süd şəkəri qurğusu respublikada yalnız bizdədi.

Avadanlıqlar köhnəlsə də imkan var ki, istehsalı əvvəlki səviyyəyə qaldıraq.

Hazırda əsas problemlərdən biri xammala olan ehtiyacdı.Mal-qaranın kənardan alınması məhsulun maya dəyərini artırır.Prespektiv planda rəqabətə davam gətirmək üçün müəssisənin öz xammal bazasının yaradılmasını nəzərdə tutmuşuq.Bu sahədə artıq ilk addımlar da atılmışdır.

Məmməd müəllim gələcək planlardan, səriştəli mütəxəssis mövqeyindən danışırdı.Bu halda o daha çox nikbin görünürdü. Xeyli söhbətləşəndən sonra sağollaşıb ayrılmalı olduq.Qoluma girib məni giriş qapısına qədər yola saldı. Ayrılanda dedim ki, Məmməd müəllim, Allah işinizə qüvvət versin.Tez cavab verdi: "Bax, əsl söz budur. Allah da buyurub ki, ey bəndəm, mən səni yaratdım.Düşünmək üçün ağıl və baş verdim. Görüb götürmək üçün göz verdim.Bir işin qulpundan yapışmaq üçün qol və güc verdim. Di sən də bir hərəkət elə da!"

Bu mənim Məmməd müəllimlə son görüşüm oldu. Bakıya qayıtdıqdan sonra əməkdaşı olduğum "Ülfət" qəzetində "İkinci cəhd" adlı bir məqalə də çap elətdirdim. Ancaq Məmməd müəllim alın yazısı ilə barışdı. 1999-cu ilin axırlarında eşitdim ki, dünyasını dəyişib.Allah ona rəhmət eləsin.

Şəkililər qədirbiləndir. İnanıram ki, o unudulmaz şəxsiyyət, xeyirxah və qayğıkeş bir insan olan Məmməd Cabbarovun – Mamay dayının parlaq xatirəsi onu tanıyanların hamısının qəlbində yaşayır və indidən sonra da yaşayacaq, adı və əziz xatirəsi daim anılacaqdır.

QURBANƏLİ CAMALOV

1956

Camalov Qurbanəli Əhməd oğlu 1956-cı il iyulun 26-da Şəki rayonunun Qoxmuq kəndində anadan olmuş, Qoxmuq kənd orta məktəbini (1973), Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir (1978). Oğuz rayonunun Xaçmazqışlaq kəndində (1981-83) müəllim, Şəki şəhər 7 saylı orta məktəbində müəllim, Şəki şəhər XTŞ-də metodist, (1983-85) işləmiş, 1985-ci ildən Şəki Pedaqoji Kollecində müəllim işləyir. "Şəki fəhləsi", "Kainat", "Şəki xəbər", "Region Şəki" qəzetlərində şeirləri dərc olunmuş, "Əllərini mənə ver" şeir kitabının müəllifidir.

Dəniz lovğalığı

Dəniz çayın önündə
Lovğalanırdı hər an.
Suyun olmaz mən qədər
Ömrün boyu toplasan.

Bulanıq olur suyun,
Yağışlar yağan zaman.
Yalnız mənim qoynumda
Gəlib rahatlanırsan.

Dəniz düşünməyirdi
Çaydır ona su verən.
Dənizlər yaranarmı
Çaylar olmasa görən?.

Barmaq

Gül dərərkən barmağına,
Təsadüfən tikan batdı.
Ağrısına dözənməyib,
Dəhşətli bir səs çıxartdı.

Ertəsi gün həmin barmaq,
Bir kağıza imza atdı.
Azca belə acımadan,
Bir şəhəri bombalatdı.

Əllərini mənə ver

Əllərini mənə ver,
Duyum qəlbin səsini.
Əllərim də dinləsin
Könlünün nəğməsini.

Əlindən duyacağam
Ürəyindən keçəni.
Ordan oxuyacağam
Necə sevirsən məni.

Nəbzin necə döyünür,
Qəlbin çırpınır necə.
Onlar mənə deyəcək,
Sevdiyini gizlicə.

Qoy qəlbimdən qəlbinə,
Bir körpü olsun əlin.
Zərif, titrək əllərin
Sevdiyini söyləsin.

Gizlin məhəbbət

Neçə illərlə sənin
Gözləmişdim yolunu.
Belə gec gəlişinlə
Qırdın qanad-qolumu.

Səni ancaq gizlicə
Qəlbimdə sevəcəyəm.
İçimdə gündüz-gecə
Həsrətini çəkəcəyəm.

Ürəyimdə sözlərim
Kilidlənib qalacaq.
Kimin olsan da belə
Sevdan mənim olacaq.

Bir kimsə duymayacaq
Sənə olan eşqimi.
Qoruyacam onu mən
Təzə, tər çiçək kimi.

Oğrun-oğrun süzəcəm
Uzaqdan gözlərini.
Taleyimdən küsəcəm
Gizlədib sözlərimi.

Ürəyimin başında
Heykəlini quracam.
Dünyamı dəyişəndə
Özümlə aparacam.

Körpü

Bu dünyada yer üzündə
Neçə-neçə körpülər var.
O sahillə bu sahili
Bir-birinə qovuşdurar.

Körpülər var ömrü uzun
Yaşayarlar əsrlərlə.
Körpülər var zaman-zaman
Təslim olar tufan, selə.

Kaş əlimdə qüdrət olub,
Mən də körpülər salaydım.
Sahil kimi ürəkləri
Ruhən, mənən calayaydım.

RAMİZ ORSƏR

1956

Yusifov Ramiz Rəhim oğlu-Ramiz Orsər 1956-cı il avqustun 20-də Şəki rayonunun Qoxmuq kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini bitirmiş (1973),ali təhsilli Azərbaycan dili və Ədəbiyyat müəllimidir.Şəki şəhər KKC-nin məsul katibi, Şəki Şəhər Parrtiya Komitəsində təlimatçı, Şəki Şəhər İcra Hakimiyyəti aparatında baş məsləhətçi, Azərbaycan Dövlət Unuversitetinin Şəki filialında və Şəki Pedaqoji kollecində müəllim işləmiş, hazırda Şəki Dövlət Regional Kollecində pedaqoji fəaliyyətini davam etdirir.Yaradıcılığa erkən yaşlarından başlamış. "Şəkil Şəki" (1986), "Mən günеy çiçəyiyəm" (1997), "Bir görüş nəğməsi" (1998), "Adına qurban" (2001), "Mamay Məmməd" (2001), "Məhəbbət ovu" (2003), "Vətən nəğməsi" (2004), "Yaşıl səs-Çingiz və kamerası" (2006), "Yaxşılıq" (2007), "Yaxşılıq etməkdən doymayan adam" (2011), "İşıq məbədi" (2010), "İşıqlı ömür yolu" (2011), "Bu vətəndə" (B, 2013, T, 2014), "Qarabağ dərdi" (2015) kitablarının müəllifidir.Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Şəklimi azad çək

Rənglərin azadlığında çək şəklimi.
Dəli qırmızını sevər, mən də azadlığı.
İstəyirsən, balıq kimi çək.
Ancaq akvarium balığı olmasın.
Elə bu rəngdə, məni öz rəngimdə çək.
Elə çək ki,
gözlərimdə də azadlıq oxunsun.
Arzularımı, düşüncələrimi
ağ göyərçin kimi çək.
Qara rənglə çək ağarmış saçlarımı.
Rənglər də nə xətrə dəysin,
nə bir qəlbə toxunsun.
Bir rəngin əsarətində çəkmə məni,
Bir rəngdə
Çox rəngli adamlar arasında
adam kimi yaşamaq,
insan kimi doğulub
bir ömrü olumundan
ölümünə daşımaq zor bir iş!
Bəxtim də rənglər k i m i.
Azadlığın rəngində çək şəklimi,
Elə çək ki, barı bircə dəfə
mənə oxşasın azadlıq.
Öz bəxtimlə azad olsam da,
olmasam da.

Ən çətin iş

Ağrılı, çətin işdi,
Oturub yol gözləmək.
Bir də qonşu qızını
Xəlvəti əzizləmək.

Ömrün yükünü də
Öz çiynində daşımaq,
Bəlkə ən ağır işdi,
Adam olub yaşamaq.

Haqqı qoyub nahaqqa
Dəstək olmaq vərdişi
Elə binadan, başdan
Yaltaqların "haqq işi".

Gözlərini açınca
Yaş da gəlir yaş üstə.
Əzrail deyir: "Gedək!"
Biz deyirik: "Baş üstə".

Ağır, ən çətin işdi,
Oturub yol gözləmək.
Bir də qonşu qızını
Xəlvəti əzizləmək.

Süd kimi bir gün

Süd qoxulu, süd rəngində
süd kimi bir gün
asılıb göy üzündən,
İçində üzüboz külək,
həsrət, sən, bir də mən.
Günəşin istisindən
yorulmuş it kimi şöngüyərək
ağacların budaqları arasında inləyir külək,
Həsrət ortalıq xarabada
Yorulub,
Elə bil nə müddətdir
yol gəlib arabada.
Ayrılıq xəttinin bu başında sən,
O başında-qürbətində mən.
Süd rəngli, süd qoxulu

süd kimi bir gün
asılıb göy üzündən.
Mən ana südündən yanıq,
Sən ruhu yetim, qəlbi qırıq, könlü sınıq.
Həsrət vüsalın ürək yağıyla
əzizlənir, bəslənir,
Vüsalın dodaqları nə dinir,
nə səslənir.
Nə isə danışmaq istəyir külək,
Gəl günün sevincləri növbəsinə yazılaq,
Başımıza nələr gəlir görək.
Süd qoxulu, süd rəngində
süd kimi bir gün
çoxdandır qarşıma çıxmır,
Ələ düşmür, əlimi sıxmır,
Üzümüzə açılan sıradan hər gün.

Əllərim

Göz yaşı ilə ağlama,
Gedər, bir dərya dolar.
Məndən qaçar əllərim,
Dəryada balıq olar.

Dünən necə yaxşıydı,
Qaş-qabağın-göy üzü.
Gecə özü doğmuşdu
Öz bətnindən gündüzü

İndisə qaş-qabağın
Tutulub yerlə gedir,
Ağla, gülüm, əllərim
Balıq olmaq istəyir.

Ey həsrətim, ey vüsal

Kəndimizə gedəmmədim bu yaz da,
Tut payımı quşlar yedi budaqdan.
Burda günüm sükansızdı, dayazdı,
Orda anam yol gözləyir bayaqdan.

Divardakı tək şəklimə boylanıb,
Anam qınar yaşadığım şəhəri.
Doğmasıyam, balasına haylanıb,
Qaynadacaq gözlərindən qəhəri.

Qınağından yollara da düşər pay,
Düşünər ki, iş-güc aşır başımdan.
Elə itib şəhərdə də haqqı-say,
Qayğılıydı oğlum uşaq yaşından.

Qövr eyləyər gileyindən ürəyi,
Duzlaşacaq yanağında göz yaşı.
Bir ağız da yamanlayar fələyi,
Artar yenə həyəcanı, tələşı.

Yazıq anam...hardan bilsin bir gözəl,
Əsir edib ürəyini oğlunun.
İki gözüm: ey həsrətim, ey vüsal,
Anamın oğlundan muğayat olun.

TOFİQ YUSİFOV

1957

Yusifov Tofiq Sədrəddin oğlu 1957-ci il yanvarın 25-də
Şəki rayonunun Çayqaraqoyunlu kəndində anadan olmuş,
ibtidai təhsilini doğulduğu kənd məktəbində,
orta təhsilini "Turan" taxılçılıq sovxozunun internat məktəbində
almış (1974). Azərbaycan Dövlət Universitetinin
jurnalistika fakultəsini bitirmişdir (1974-1979).
Əmək fəaliyyətinə "Şəki fəhləsi" qəzeti redaksiyasında
müxbir kimi başlamış (1979-1980),
Şəki Şəhər Komsomol Komitəsində ikinci katib,
sonra birinci katib (1980-1985),
Şəki Rayon İcraiyyə Komitəsində şöbə müdiri,
Şəki Turizm İdarəsinin direktoru (1985-1990),
"Səhər" qəzetinin şöbə müdiri, Azərbaycan-Türk informasiya Agentliyinin baş
redaktoru, "Aydın Səbah" beynəlxalq müstəqil qəzetin baş redaktoru, "Fakt"
informasiya Agentliyinin baş redaktoru,
"Günəy" qəzetinin şöbə müdiri, parlament müxbiri, baş yazarı və
baş redaktoru vəzifələrində çalışmışdır.(1991-2006).
2002-ci ildən elmi-pedaqoji fəaliyyətlə məşğuldur.
Hazırda Bakı Slavyan Universitetinin Yeni media və
kommunikasiya texnologiyaları kafedrasında çalışır.

2012-ci ildə "Azərbaycanda açıq cəmiyyətin formalaşmasında mətbuatın rolu" mövzusunda dissertasiya müdafiə edərək, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.Ədəbi yaradıcılığa tələbəlik illərindən başlamış, 6 bədii, 14 elmi kitabın, 3500-ə yaxın kütləvi-publisistik məqalələrin müəllifidir.
Əsərləri rus, ingilis,
qazax və türk dillərinə tərcümə edilib.
1981-ci ildən Azərbaycan Jurnalistlər İttifaqının,
2001-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Balaca adamın fiaskosu

Əsrin əvvələrində, soyuq qış günlərində Avstriyanın Braunau şəhərinin zibilxanalarında yerli əhalinin, eləcə də gəlmə adamların diqqətini cəlb etməyən səfil bir dilənçi, miskin bir sərgərdan dolaşırdı. Balaca boylu, zəif vücudlu, süst hərəkətli bu dilənçi ətraf evlərin sakinlərini kinli baxışları ilə qorxudur, elə bu səbəbdən də təsadüfdən-təsadüfə tapdığı yeməklə, rəhmdil adamların verdiyi sədəqə ilə yarıac-yarıtox yaşayır, gecələri körpülərin altında, köhnə xarabalıqlarda, parklarda bir təhər başa vururdu. Onda çoxları bilmirdi ki, dəlisov-baxışlı, tünd xasiyyətli, tez qızışıb özündən çıxan bu balaca səfil abırlı bir ailədə doğulmuşdu, onun atası gömrük məmuru idi və şəhərdə kifayət qədər tanınırdı.

Bu insanciyəzin, adətən, dostları, yaxud yoldaşları olmazdı, yalquzaq kimi tək-tənha dolanar, bütün günü veyil-veyil gəzər, təsadüfi qazanc yeri axtarar, zibilxanalarda eşələnərdi. Adamlar cındırından cin hürkən bu sərgərdandan uzaq olmağa çalışar, oğru-quldur güman edib onu şübhəli baxışlarla süzərdilər.

Daim gözləri hədəqəsindən çıxmış olan səfil insanların bu baxışlarını, genqaçmalarını yadında saxlayır, onun cırıq-cırıq olmuş, yağlı papağının altından güclə görünən gözlərində şübhəli bir parıltı, intiqam qığılcımları sezilirdi.

Hamının ikrah etdiyi bu səfil dünyanı öyrənirdi, taleyin məcburən itələyib saldığı mənfur alçaqlıqdan, həyatın lap dibindən həyatın özünə, insanlara baxırdı. Bu "dərs" prosesi onu sıxırdı, incidirdi, taleyə, böyründən ötüb-keçən boylu-buxunlu, qəşəng, səliqə ilə geyinmiş şəhər əhlinə sonsuz nifrət doğururdu. Səfil bu tox dünyanı da, qayğısız, deyib-gülən adamları da uf demədən boğmaq, məhv etmək istəyirdi.

...Yəqin Braunau sakinləri onda ağıllarına belə gətirmirdilər ki, zibilikləri dolaşan bu miskin adam sonralar XX əsrin ən qanlı diktatorlarından birinə çevrilərək, uzun müddət müxtəlif dəhşət hekayətlərinin, cild-cild cinayət işlərinin və bədii əsərlərin qəhrəmanı olacaqdır. Bu səfil gələcəyin "füreri", öz sərsəm ideyaları ilə insanları kütləvi psixoz vəziyyətinə salacaq Adolf Hitler idi.

Haşiyə

...Hitlerin uşaqlıq və gənclik illərinin, bütövlükdə onun keçdiyi ömür yolunun tam mənzərəsini yaratmaq hələlik heç kəsə müyəssər olmayıb. Hər bir tədqiqatçı Hitler mövzusuna fərqli prizmadan yanaşdığından onun həqiqi avtobioqrafiyasını meydana çıxarmaq bu gün də çətin və problematikdir.

Adolf Hitler 1889-cu il aprel ayının 20-də Avstriyada, adını bir neçə dəfə çəkdiyimiz Braunau şəhərində anadan olmuşdur. Əsl familiyası Şiklqruberdir.

Əksər diktatorlar kimi, Hitlerin də ailə şəcərəsində xeyli qaranlıq məqamlar vardır. Bəzi tədqiqatçıların rəyinə görə, Adolf əslində gömrük məmuru Şiklqruberin deyil, adı indiyə qədər naməlum qalan özgə bir şəxsin oğludur. Başqa sözlə, xalq arasında deyildiyi kimi, o atası məlum olmayan, bic doğulmuş bir şəxsdir. Sonralar Adolfun Şiklqruber familiyasından imtina edərək, Hitler soyadını qəbul etməsi də bu qənaəti gücləndirir.

Digər versiyaya görə isə, Hitlerin atası alman deyil, yəhudi olmuş, sonralar ailəsini atıb getmişdir. Tədqiqatçılar "fürerin" yəhudi millətindən olan şəxslərə patoloji nifrətini də bu amillə əlaqələndirməyə cəhd göstərirlər.

Bütün bu fərziyyələrlə yanaşı, uşaqlığının ağır keçməsi danılmaz faktdır və görünür bu məsələ onun psixikasında dərin iz salmışdır.

Hitlerin səfillik həyatı 1913-cü ilə qədər, o köcüb Almaniyaya, Münhenə gedənə qədər davam etmişdir.Bir müddət şəhərdə veyil-veyil gəzən bu avstriyalını I Dünya müharibəsi Münhen pivəxanasında "yaxalayır".

Yazılanlara görə, Hitler müharibəyə könüllü yollanır və 4 il vuruşduqdan sonra yefreytor (kapral) rütbəsində yenidən Almaniyaya dönür.

Tarixçilər Hitlerin yefreytor rütbəsi alması faktında da yekdil deyillər. Kimi bunu igidlik, kimi isə təsadüf nəticəsində baş verməsi kimi dəyərləndirirlər. Fikrimizcə, ikinci versiya daha ağlabatandır. Vzvodun tərkibində döyüşə qatılan Hitler (hələ Şiklqruber) qorxusundan səngərin bir küncündə qısılıb qalır və gözünü açanda görür ki, ətraf yoldaşlarının meyidləri ilə doludur. Meyidlərin arasında gözü hissənin bayraqdarının yanına düşüb qalmış bayrağa sataşır və onu götürüb özününkülərə tərəf qaçır. Uzun əziyyətdən sonra qərargaha yetişən Adolfun "şücaəti" yüksək qiymətləndirilir, o xeyli tərif və yefreytor rütbəsi qazanır.

Haşiyə

Sonralar nə qədər çalışsa da bu uğur Hitlerin müharibə həyatında qazandığı birinci və sonuncu müvəffəqiyyət olur. Amma o cəmiyyət tərəfindən incidimiş və alçaldılmış bütün miskin adamlar kimi, daim seçilməyə, gözə görünməyə, diqqət mərkəzində olmağa can atırdı. Onun üçün yefreytor rütbəsi təkcə bir xəttdən ibarət olan paqon deyildi, bu fərqlənmə nişanı idi və Hitler bütün həyatı boyu insanlardan fərqlənməyə can atırdı.

O daha də irəli getmək istəyirdi, hakimiyyətin kiçicik bir hissəsi olan rütbə qazanmağa can atırdı. Lakin bunun üçün də bacarığı çatmırdı. Tərs kimi müharibə də "tezliklə" başa çatdı.

Almaniyada isə onu yenidən səfillik və qeyri-müəyyənlik gözləyirdi. Ədalət naminə demək lazımdır ki, bu cılız yefreytordan çoxlarının zəhləsi getsə də, o qulluq göstərməyi, ona-buna yaltaqlanmağı çox gözəl bacarırdı və müharibədən sonra onun köməyinə gələn məhz bu xüsusiyyət oldu. Çətini şərəf və ləyaqəti bir dəfə itirmək idi, sonrakı "qəribəliklər" Hitler üçün artıq milçək vızıltısı kimi bir şey idi.

Uzun cəhddən sonra, nəhayət, "Adolf Hitler" 1918-ci ildə reyxsverin... casusu vəzifəsinə düzələ bilir. 1918-ci il Almaniyada məşhur noyabr inqilabı zamanı çoxlarının ağlına belə gəlmirdi ki, orda-burda əl-ayağa dolaşan bu çəlimsiz, 29 yaşlı keçmiş yefreytor inqilabın qəbirqazanlarından biri, bəlkə də birincisi idi.

Hitler yenidən özünü suda olan balıq kimi rahat və gümrah hiss etməyə başladı. Alınmışdı! O artıq hakimiyyətə gedən yolun cığırlarını çox gözəl axtarıb tapmışdı: Terror, hədə-qorxu, donos, yalan eyforiya, fırıldaq onu aləmində hakimiyyət zirvəsinə aparan ən real vasitələr idi.

Əvvəlcə "inqilabçı-minqilabçı" ilə vaxt keçirən Hitler yavaş-yavaş ölkədə imkanlı adamlara, maliyyə maqnatlarına, nüfuzlu sənayeçilərə "ilişməyə", onları ram etməyə girişdi və məqsədinə müəyyən dərəcədə nail oldu. O vaxtı Almaniyanın Bordiq, Tissen kimi sənaye nəhəngləri və onlarca iş adamı artıq Hitlerin toruna düşmüşdülər.

Tezliklə Hitler anladı ki, nə qədər tərəfdarı və müttəfiqi olsa da, hakimiyyətə konkret siyasi qüvvə, siyasi qurum olmadan yiyələnmək praktiki cəhətdən mümkün deyildir. Ona görə də 1919-cu ildə yaradılmış Almaniya Nasional-Sosialist Fəhlə (!) Partiyasının təşkilatçılarından biri, 1920-ci ildən isə rəhbəri olur.

HƏBİLLAH KAMİL

1957

Əşirov Həbillah Kamil oğlu 1957-ci il mayın 10-da
Şəki rayonunun Baş Zəyzid kəndində, kolxozçu ailəsində anadan
olmuş, orta təhsilini doğulduğu kənddə almış (1974).
Şəki Texniki Peşə Məktəbində təhsilini davam etdirmiş (1974-1975),
daha sonra Şəki Kənd Təsərrüfatı Texnikumunda
orta-ixtisas təhsili alaraq zoomühəndis ixtisasına yiyələnmişdir.
Əmək fəaliyyətinə kolxoz sistemində başlamış: briqadir, ferma
müdiri, zoomühəndis işləmiş, kolxozlar ləğv olunduqdan sonra tikinti
ustası kimi çalışır.Yaradıcılığa erkən yaşlarından başlamış,
mərkəzi və yerli mətbuat səhifələrində şeirləri dərc edilmiş,
"Nə yaxşı ki" adlı şeirlər kitabı 2008-ci ildə çap olunmuşdur.

Götürür gedir

Bəzən iz adamın dalınca düşür,
Bəzən də iz adam götürür gedir.
Kiminə öləndə yiyə tapılmır,
Kimini yüz adam götürür gedir.

Bəzisi itirir, bəzi axtarır,
Özü itirənlər izi axtarır.
İtirsə-ölüncə gözü axtarır,
Tapanda, tez adam götürür gedir.

Adama rast düşmür hər adam gəzən,
Adamlar içində var "adamgəzən".
Ay gedib dağlarda Qar adam gəzən,
Dünyanı buz adam götürür gedir.

Əyrinin özü nə, əyri qəlbi nə?!
Çalış ki, salmaya əyri qəlb binə.
Əyrilər yol tapır əyri qəlbinə,
Düzləri düz adam götürür gedir.

Əl saxla, ay adm, əl saxla, bəsdir,
Bu nə vurhavurdur, nə kəshakəsdir.
Dünya malı üçün pislik əbəsdir,
Beş arşın bez-adam götürür gedir!...

Nə yaxşı ki

(Göyçədən olan bir qarının göz yaşlarına)

Sənin dərdin o dərdlərə bənzəməz,
Nə loğmanın, nə dərdinə çaran var.
Həsrət qaldın ömrün boyu ağ günə,
Əvəzində saya gəlməz qaran var.

Doğma olar hər bir kəsə öz dağı,
Bir dağına dəyişməzdin yüz dağı.
Gözlərində Göyçə kimi göz dağı,
Ürəyində Şuşa boyda yaran var.

Kol basıbdır, əsər yoxdur izindən,
Nəm əskilmir yanağından, üzündən.
Nə yaxşı ki, yaş qurtarmır gözündən,
Sən yandıqca söndürməyə qoran var.

Döndü

Uşaq dünyam, günlü dünyam
Gün keçdi-dumana döndü.
Ağlayan gördüm hamını,
Göz yaşım ümmana döndü.

Düz danışdım-düzdə qaldım,
Yaxşı satdım-yaman aldım.
Gec ayıldım-tez qocaldım,
Üstəlik zaman da döndü.

Bir tilsimli gölə çatdım,
Lal suyunda bata-batdım,
Kötük gördüm-əl uzatdım,
Nazildi-samana döndü.

Alan aldı, seçən seçdi,
Ay Həbillah, daha gecdi.
Ürəyimdən hər nə keçdi,
Ah oldu, amana döndü!...

Payız

Dalını yandırır yayın alovu,
Üzünü dondurur qışın qırovu,
Od-su arasında qalıbdı payız!
Hay salır,tapmayır hala yananı,
Oğlu cəbhələrdə itən ananın
Üzünün rəngini alıbdı payız!...

Dəryazım

Yaz oldu-hazır durur
Versəm əmr dəryazım.
Mənimlə qardaş olur
Doqquz "nömür" dəryazım.

Dalda qoyur onunu,
Biçir çölün donunu.
Qırxır yerin yununu,
"Doydum" – demir dəryazım.

Çaldıqca dağa dönür,
Qışda çardağa dönür.
Süd olur, yağa dönür,
Mənim dəmir dəryazım!

TAHİR XALİD

1957

Tahir Xalid oğlu Zəkəryəyev 1957-ci ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuş, 1973-cü ildə Şəki Kənd Təsərrüfatı Texnikumunu bitirmiş, uzun müddət doğulduğu kənddəki kolxozda aqronom işləmişdir. Şeirə, sənətə olan sevgisi onu ədəbiyyata bağlamış, gənc yaşlarından şeir yazmağa başlamış, mərkəzi və yerli mətbuat səhifələrində şeirləriylə müntəzəm çıxış edir."Adına üz tutmuşam" adlı şeirlər kitabı 2000-ci ildə çap olunmuşdur.

Anam namaz üstədi

Bu, Ramazan ayıdı,
Anam namaz üstədi.
Dilindəki dualar
Yenə dəstə-dəstədi...

Eh, nə olsun, itirmir
Çox da hələ özünü,
Axşam-sabah yollardan
Çəkə bilmir gözünü;

Axı yenə hardasa
İşlər bir az nəhsdədi,
Bir doğmamız səfərdə,
Bir doğmamız xəstədi.

Sən işə bax, tərs kimi
Qarşı yatan dağlar da
Dumandadı, sisdədi...
Xəbərsizik halından,

Aylar ötüb aradan.
Saxla qeylü-qalından,
Sən, ey ulu Yaradan!
Bu, Ramazan ayıdı,

Nəsə damıb qəlbinə,
Muradını hasil et,
Qulağımız səsdədi.
Anam namaz üstədi,
Anam namaz üstədi!...

Burda bir qərib ölüb...

Narahatdı havadan,
Bax, o soyuq daşlar da.
Qəmgin çıxdı yuvadan
Səhər tezdən quşlar da.

Öz nurunu saçmadı
Şehli otun ləçəyi.
Nəsə könül açmadı
Alçanın da çiçəyi.

Yazın ilkin çağıdı, –
Gözdə olan eşqə bax!...
Bəs bu nə cür ağıdı,
Bəs bu nə cür qaşqabaq?

Tablamır əsən yelə
O daş hasar, bu çəpər...
Yoxsa əyandı belə
Hər şeyə acı xəbər?...

Dərdi dumanla bölüb,
Görünmür ulu dağlar,
"Burda bir qərib ölüb, –
Göy kişnər, bulud ağlar...!"

Həştərxana gedən gəmi...

Həştərxana gedən gəmi
Bənd olur, bənd olur.
Qayıdıb gələndə yükü
Qənd olur, qənd olur.

Həştərxana gedən gəmi, bir dayan,
Axı sənə deyiləsi sözüm var.
Kimdi mənə bu anımda bir həyan,
Nə bilirsən məndə dərdə dözüm var...

Niyə haray qoparırsan, bilmirəm,
Eh, onsuz da hər sədanı udur su...
Hansı yükü aparırsan, bilmirəm,
Mənim üçün heç vacib də deyil bu...

Ümidimsən ağ yelkənli donunla, –
Görmədiyim doğmam qalıb bax orda;
Əgər gedib görüşsəydim onunla,
Necə xoşbəxt olardım mən ax, orda!..

Tufan olub duyğum üstə gəl, əsmə,
Sınıq könlüm arzularla dolsun qoy.
Həştərxana gedən gəmi, tələsmə,
Açıq deyim, hər şey aydın olsun qoy.

(Söz düşəndə elə bil ki, tələdə
Çırpınıram, qovammıram kədəri).
0, bir uzaq qohumdu ki, hələ də
Yoxdu, vallah, yoxdu bizdən xəbəri.

Bürüməsin daha duman-çən məni,
Dağ dibində yalqız qalan kənd kimi.
Həştərxana gedən gəmi, sən məni
Apar indi Həştərxana qənd kimi...

ZABİT ƏKBƏROV

1957-1997

Zabit Əşrəf oğlu Əkbərov 1957-ci ildə
Şəki rayonunun Kiş kəndində anadan olmuş,
orta məktəbi bitirdikdən sonra Şəki İpək birliyində,
tikinti təşkilatında işləyib.
Poeziyaya böyük maraq göstərmiş,
erkən yaşlarından şeirlər yazmış,
lakin çox az hissəsi qorunub saxlanmışdır.
Zabit Əkbərov 1997-ci ildə vəfat edib.

Yenidən yaşayaq

Biyan, ötüb keçən bircə anı da
Geriyə qaytara bilməyəcəyik.
Aylı gecələrdə biz qorxa-qorxa
Bir daha görüşə bilməyəcəyik.

Nə sən qaranlıqda gizlənəcəksən,
Nə mən qorxacağam sən gələn zaman.
Nə sən: "Daha bəsdi!"-söylüyəcəksən,
Nə mən yalvaracam:-"Bir az da dayan".

Nə mən yol üstündə dayanacağam,
Nə də sən görüşə tələsəcəksən.
Nə gecə yuxuna sən haram qatıb,
Nə də sən dədənə çay verəcəksən.

Daha qapınızda dayanmayacam,
Kimsə görər deyə, qorxmayacağam.
Sevgindən xumarlı oyanmayacam.
Daha sən mənimsən, qovuşacağam.

Necə unudaram ilk görüşü mən?
Əlindən tutmağı qıymadın mənə.
Üz-üzə dayandıq, gözlərinə də
Doyunca baxmağa qoymadın mənə.

Alarsan başımı dizinin üstə
Şirin xəyallara dalaraq, gülüm.
Yenidən yaşayaq ötən günləri
Birbəbir yadına salaraq, gülüm.

Milyarddan seçmişəm səni,
Dəryazla biçmişəm səni.
Susadım, ürəyim yanıb
Su bilib içmişəm səni.



VAQİF SALAM

1957

Salamov Vaqif Əsabəli oğlu 1957-ci il noyabrın 7-də Şəki rayonunun Oxud kəndində anadan olmuş, 1975-ci ildə doğulduğu kənddə orta məktəbi bitirmiş, 1992-1993-cü illərdə Şəki Kənd Təsərrüfatı Texnikumunda təhsil almışdır.

Əmək fəaliyyətinə Şumqayıt şəhərində zavodda çilingər kimi başlamış, Oxud kənd Nərimanov adına kolxozda traktorist, sonralar isə təsərrüfat briqadiri kimi çalışmışdır. 1999-cü ildən fərdi təsərrüfatla məşğul olur. 2006-cı ildə "Haqq tapacaq öz yerini" adlı şeirlər kitabı çap olunmuşdur.

Yollar

Önümüzdə saysız-hesabsız yollar,
Yollar dağlar aşır, keçir dənizi.
Bizim sevgimizin bircə yolu var.
O da son mənzilə aparır bizi.

Qocalıram

Salam verib gedir illər,
Açır güllər, solur güllər.
Uçur əldən şəvə tellər,
Ötən ayları anıram,
Zaman ötür, mən qocalıram.

Sevgimin nağıl közü qalır,
İşvə-nazın canım alır,
Yenə məni oda salır,
Uzun xəyala dalıram,
Zaman ötür, mən qocalıram.

Olmuşların qalır yeri,
Ötən illər dönməz geri.
Arayıb ötən illəri,
Keçmişimə boylanıram,
Zaman ötür mən qocalıram.

Görüb saçlarımda dəni,
Gülüm, salma gözdən məni
Hələ də sevirəm səni,
Yenə sənə haylanıram,
Zaman ötür,mən qocalıram.

Vaqif halal çörək yeyir,
Tanrısına şükr eyləyir.
Hər vaxt sözü üzə deyir.
Həqiqətlə huylanıram,
Zaman ötür, mən qocalıram.

Deyəcəm

Düz sözün üstündə asalar məni,
Yenə də mən sözün düzün deyəcəm.
Ayırsalar əyər başdan bədəni,
Son anda da sözün düzün deyəcəm.

Dönərəm dəmirə çətində, darda,
Elə bir fərq etməz, olsam da harda.
Məni qıyma-qıyma doğrasalar da,
Yenə də mən sözün düzün deyəcəm.

Düz sözdən kimsənin rəngi solsa da,
O daş ürəyinə qəmlər dolsa da,
Düz söz istiotdan acı olsa da,
Yenə də mən sözün düzün deyəcəm.

Gəzəsən dünyanı fəsli-baharda,
Yenə gözüm yoxdur dövlətdə, varda,
Anlamasalar da, anlasalar da,
Yenə də mən sözün düzün deyəcəm.

Vaqifəm, düz sözdü silahım mənim,
Öz yaradanımdı pənahım mənim.
Gəlib-gəlməsə də sabahım mənim
Yenə də mən sözün düzün deyəcəm.

RUHƏNGİZ RƏHİMLİ

1958

Ruhəngiz Məmməd qızı Rəhimova 1958-ci ildə anadan olmuş,
natamam orta təhsilini 12 saylı şəhər məktəbində almış,
sonra Şəki Pedaqoji Texnikumunu bitirmişdir.
Şəhər 10 saylı məktəbdə müəllimə işləmiş,
ədəbiyyata maraq göstərmiş,
dövrü mətbuatda şeirləri dərc olunmuş.
"Dalğalar qoynunda" (2007) adlı şeirlər kitabı
çap edilmişdir.

Lalə

Niyə belə qoxusuzsan?
Kim qoxlayıb səni, lalə?
Kim qəlbini yaralayıb,
Kim oxlayıb səni belə?

Ağ çiçəkdin bəlkə bir gün,
Xəcalətdən allanmısan.
Ətrini kim çəkib sənin,
Lalə, bəlkə aldanmısan?

Axşam qaranlıq

Ümidlər, arzular qeybə çəkilər,
Göylərdən qəm yağar, kədər tökülər,
Bəxtsizlər ağlayar, dərdsizlər gülər,
Fələkdən bayquşa gələr sultanlıq,
Axşam qaranlıq.

Can verən xəstənin sönən çırağı,
Gəlin analara beşik qırağı.
Vüsal dəmlərinin xoşbəxt qonağı
Zülməti ürəkdən silər bir anlıq
Axşam qaranlıq.

Ayla ulduzların gecə nəğməsi,
Axar bulaqların xoş zümzüməsi,
Qorxuya çevrilər yağışın səsi
Qara qüvvələrdə bir hökmranlıq,
Axşam qaranlıq.

Canlı təbiətin qara eynəyi,
Dünyanın zər qaşlı gecə köynəyi,
Daha xoş sabahlar arzu, diləyi
Mürgülü gözlərdə qorxunc heyranlıq
Axşam qaranlıq.

Köç edən durnalar

Köç edən durnalar, qayıdın geri,
Könlümdə bahardı bu il qış olmaz.
Sanıram bu qərib, qəmgin gedişlə,
Qürbətin baharı sizə xoş olmaz.

Umidin günəşi yanır qəlbimdə,
Saxlaya bilərəm qarı, yağışı.
Köç edən durnalar qayıdar geri,
Dəyişər dünyanın baharı, qışı,

Köç edən durnalar, qayıdın geri,
Yeri nəfəsimlə isidərəm mən.
Sönsə ürəyimdə ümid günəşi,
Sizlərə qoşulub köç edərəm mən.

Qayıtdın

Həsrətə dağ çəkdin, qovdun məlalı,
Qayıtdın, deməli, həyat mənimdir.
Yerlərin, göylərin cahi-cəlalı,
Şan-şöhrət, məhəbbət, büsat mənimdir.

Qayıtdın, açıldı dünyaya gözüm,
Mən elə koram ki, çırağım sənsən.
Sənsiz ruhsuz cismim xəyala bənzər
Dünyada ən əziz qonağım sənsən.

Payızdı bəxtimə sən qayıdan gün,
Hayana baxdımsa, yaşıl, qırmızı,
Güllər, çiçəklər də vurulub sənə,
Sən gəldin, qayıtdı dünyamın yazı.

İndi xoşbəxtlikdən elə sərxoşam,
Həsrət məndən qorxur bayıla billəm.
Ölüm adıləşib gözümdə indi,
Ölsəm, gəlişinlə ayıla billəm.

Düzəldi

Yandı, yandı, alovlandı
Kül ola bilmədi,
Sıxsa da zamanonu
Zamana qul ola bilmədi.
Çalışdı bəxtini çevirsin.
Əyildi, dikəldi, əyildi, dikəldi.
Axır zəmanə güc gəldi.
Əli çatmadı kimsəyə,
Ünü yetmədi kimsəyə,
Axırı içini yeyə-yeyə
Harayladı ölümü gəl deyə,
O da zülümnən gəldi.
Zaman-zaman bükülmüş qəddi
Ölümüylə bircə anda düzəldi.

MEHDİ ZAHİD

1958

Həmidov Mehdi Zahid oğlu-Mehdi Zahid 1958-ci ildə
Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olub.
1975-ci ildə doğulduğu kənddə orta məktəbi,
1979-cu ildə Şəki Pedaqoji məktəbini,
1987-ci ildə isə Həsən bəy Zərdabi adına
KDPİ-nin Azərbaycan dili və ədəbiyyatı fakultəsini bitirmişdir.
Əmək fəaliyyətinə Kiçik Dəhnə kənd 1 saylı orta məktəbdə başlamış,
hazırda həmin məktəbdə dil-ədəbiyyat müəllimi işləyir.
Bədii yaradıcılığa gənc yaşlarından başlayıb.
Şeirləri mərkəzi və yerli mətbuat vasitələrində dərc olunub.
Onun şeirlərində günümüzün reallıqları,
doğma yurda, insana və insanlığa sevgi əks olunur.
Mehdi Zahid üç şeirlər kitabının: "Qəlbimin harayı" (2008),
"Şah arzumun çırağı" (2010) və "Sahil daşı" (2014)
kitablarının müəllifi.
2015-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Sahil daşı

Bu dəniz-zamanın sahilində mən
Əzabla üzbəüz dayanmış daşam.
Sarıb varlığımı daim duman-çən,
Duymayıb bircə kəs nə vaxtsa çaşam.

Küləklər üstümə çapıb atını,
Gözünü ağardıb mənə bu dəniz.
Alsam da həmişə qəm sovqatını,
Önündə heç zaman çökməmişəm diz.

Gecənin zülməti dolub gözümə,
Dönmədim qorxudan yenə də quma.
Gah qalxan, gah da ki, qılınc sözümə
Güc verib olmuşam hazır, hücuma.

Şimşəklər başımın üstdə oynaşıb,
Buludlar halıma ağlayıb mənim.
Dağ çayı üstümə kükrəyib, daşıb,
Sanıb ki, yolumu baglayıb mənim.

...Bu dəniz-zamanın sahilində mən
Ölənə qədər düz edəcəyəm tab.
Nə zaman torpagın təkinə enən
Olsam, qoy desinlər canlı daş kitab.

Ağacdələn

Ağacdələn, anlayıram mən səsii,
Ürəyimdən keçənləri deyirsən.
Döyəcləyib ah-nalənin məskəni
Ağacları, qüssə-kədər yeyirsən.

Varmı sənin harayını anlayan?
Sanırlar ki, nağaradır! çalırsan.
Bunun üçün bir kimsəni danlayan
Kimdir axı belə haray salırsan?

Yoxa çıxıb palıdların kölgəsi,
Cökə hanı arıların balına?

Meşə adlı xəzinələr ölkəsi
Qan ağlayır özünün bu halına.

Yada düşür Xocalımız bir anlıq;
"Ermənilər" bura hardan giriblər?
Gərən zaman qanadını qaranlıq
Ağac oğul-qızı yerə səriblər.

Ağacdələn, çox keçməz ki, çalmağa
Qalmayacaq bircə dənə "nağara".
Ürəyimə bəs həyəcan salmağa
Qonacaqsan, söylə onda bəs hara?

Ey külək

Ey külək, minmisən bir kəhər atı,
Gah dağdır məskənin, gah da ki, dərə.
Qəlbində inləyir qəmli bayatı,
Dilində hayqırır bir dəli nərə.

Pəncərə açırsan, qapı açırsan,
Açılmır qapısı bir qəlbin sənə.
Soruşan olubmu hara qaçırsan,
Tələsmə, söylə bir dərdini mənə.

Bircə kəs çəkdimi başına sığal,
Nədir bu fırtına, bu tələş deyə?
De nədir dəlitək səndəki bu hal,
Düşmüsən beləcə sən çaşbaş niyə?

İncimə, mələyim, bizim qəlbimiz
Düşübdür qüssədən elə bir hala,
İnana bilmirəm silinə bu iz,
Ya da ki, qəmimiz azca azala.

Gecənin özünün nə işığı var,
Kiminsə yoluna bir az çiləsin.
Yorma gəl özünü çəkərək havar,
Çata bir qulağa-inanma səsin.

MUSA HƏŞİMOV

1958

Həşimov Musa Ağasəf oğlu 1958-ci ildə Şəki şəhərində anadan olmuş, 20 saylı orta məktəbdəortа təhsilini başa vurmuş (1975). Moskva Kooperativ İnstitutunun İqtisadiyyat fakultəsini bitirmişdir (1992).
Uzun illər istehlak kooperasiyası sistemində maddi-məsul vəzifələrdə çalışmış, hal-hazırda təqaüdçüdür.
Ədəbi yaradıcılığa 1970-ci illərdən başlamış, ilk yazısı "Atamdan öyrənmişəm" adlı şeri olmuşdur.Şeirləri dövrü mətbuatda mütəmadi çap olunur.

Qarışıb dünya

Ömür-gün elə bil qəm dəryasıdı,
Ürəyim od tutub alışır, bala.
Hərə bir ağıla qulluq eləyir,
Ağlına gələni danışır, bala.

Yaxşılıq çoxunun yadından çıxıb,
Nəfs insanların evini yıxıb,
Elə bil göylərdən yerə daş yağıb,
Hər şey bir-birinə qarışır, bala.

Haqsızlıq meydanı alıb əlinə,
Dünya təslim olub şeytan felinə.
Yamanca uymuşuq onun dilinə,
İnsanlar şeytanla yarışır, bala.

Halal olan nə var, talanıb gedir,
Gül bülbülsüz qalıb, saralıb gedir.
Ağ gün zülmət olub, qaralıb gedir,
Hər yerdə fəlakət dolaşır, bala.

Yalanın hər yana uzanır əli,
Doğrunun yerində kəsilir dili.
Açılmır kasıbın çiçəyi, gülü,
Sarmaşıq çiçəyə sarışır, bala.

Dünyanın çərxi də, geri fırlanır,
Sevinc gömülübdü, kədər boylanır.
Ölkələr dağılıb qana boyanır,
Yer üzü od tutub alışır, bala.

Nə qədər Allahdan uzaqdı insan,
Necə rəhm eləsin ona, Yaradan
Elə buna görə qalu-bəladan,
Hər şey bir-birinə qarışır, bala.

Var

(Həyat yoldaşıma)

Əzizim, sarsılma sözdən, söhbətdən,
Əzəldən hərənin öz xisləti var.
Kiminin sərvəti, ləl, cəvahiri,
Kiminin tükənməz pak ismәti var.

Namus dəvə deyil minib sürəsən,
Sevgi çörək deyil dostla bölәsən,
Yaxşı nə var, gərək qədrin bilәsən,
İnsanın insanlıq ləyaqəti var.

Aslanın erkəyi, dişisi olmaz,
Camla su tökməklə dəryalar dolmaz,
Saf eşqin gülləri saralıb solmaz,
Çünki, sevənlərin dəyanəti var.

Qoy özü qorusun səni Yaradan,
Bütün pisliklərdən, hər cür bəladan,
Hələ lap əzəldən, bəni binadan
Xəbisin doğruya xəyanəti var.

Musanın gözündən silinib kədər,
Qəlbini sıxmayır nə qəm, nə qəhər,
Azı da görünür ümmanlar qədər,
Çünki, qədirbilən Sədaqəti var.

Görüşünə gəlmişəm

Sənə olan sevgim çoşub-daşıbdı,
Sənin görüşünə gəlmişəm, gülüm.
Dəyanət bağından, ilqar bağından,
Sənинçün gül-çiçək dərmişəm, gülüm.

Könlünü oxşayan söz gətirmişəm,
Qəlbimdə sönməyən köz gətirmişəm,
Niyyətimi təmiz, düz gətirmişəm,
Könlümü mən sənə vemrişəm, gülüm.

Dərdini bölüşüb gülsən, gülərəm,
Məhəbbət gülündən çələng hörərəm.
İstəsən, canımı qurban verərəm,
Dünyada tək səni seçmişəm, gülüm.

Sevənlər görməyib eşqin sonunu,
Olsa da zamanın minbir oyunu,
Dünyanın ən təmiz büllür suyunu,
Sevgi bulağından içmişəm, gülüm.

Musanı bu qədər çəkmə sınağa,
Ürək dözən deyil nahaqq qınağa,
Bələdçi nə gərək, görünən dağa,
Bütün sınaqlardan keçmişəm, gülüm.

Gətirmişəm

Yenə sözlərimlə qonağam sənə,
Gülüm, sənə gözəl pay gətirmişəm.
Qoy, yolun həmişə nurlansın deyə,
Günəş gətirmişəm, ay gətirmişəm.

Gül istəyirsənsə, üzüm, gətirim,
Səf-səfə, üz-üzə düzüm gətirim.
Qəlbimi götürüb özüm gətirim,
Min güldən qiymətli pay gətirmişəm.

Məhəbbət bağından keçib gəlmişəm,
Eşqin şərbətini içib gəlmişəm.
Min gözəldən səni seçib gəlmişəm,
Eşqimi özümlə pay gətirmişəm.

Musayam, təmizdi əhdi peymanım,
Sənə qurban olsun, bu əziz canım.
Bir gəlib qəlbimi görsən, ceyranım,
Min güldən qiymətli pay gətirmişəm.
Könlümü günəşə tay gətirmişəm.

Hardasan

Nə qədər yaşayır bu acı dövran,
Ötənə oxşamır bu çən, bu duman.
İsidə bilməyir taaa..məni yorğan,
Halıma ürəkdən yanan, hardasan?

Acı, zəhər kimi keçir hər günüm,
Qönçədə saralır çiçəyim, gülüm,
Ahu-nalə çəkir şeyda bülbülüm,
Gülün fəryadını duyan, hardasan?

Düşüb qəm oduna alışıram mən,
Bu odun külünə qarışıram mən,
Dərdimi özümə danışıram mən,
Dərdimə dərman, həyan, hardasan?

Musa de, haqq yolun seçəndən olaq,
Bu yolu sonadək keçəndən olaq,
Məzlumun hayına yetəndən olaq,
Haqqın tərəfində duran, hardasan?

TƏRANƏ ŞƏMS

1958

1958-ci ildə Şəkidə anadan olmuşdur.
2008-ci İldən, müntəzəm olaraq respublikanın
mətbuu orqanlarında şeirləri və publisist yazıları ilə çıxış edir.
"Sevdalıyam bu həyata" (2013) və
"Tənha adayam" (2016) kitablarının müəllifidir.
"Azad qələm" qəzetinin redaktorudur.

Şair xəyalı

Bir gün gəlirəm desən,
Gəlib səninəm desən,
Ümidlərim çin olar,
Pöhrələnər arzular,
Ətirlənər min olar.
Xumar gözlər süzülər
Sözüm sözə düzülər.
Eh.....!
Yarım məndən aralı
Başı yaman havalı,
Küskün könlü davalı,
Qanadlar qırıq-qırıq
Sevgilə oynayırıq.
Məhəbbətim ürəkdən
Qırılıb qopar oldu.
Xəyallarım yoruldu.
Yoxluğu qəlb yandıran
Bir ayrılıq doğuldu.
İki sevən çeşmədir
Qaynadıqca qaynayar.
Od ürəkdən keçmədir
Dağladıqca dağlayar.
Budur şair xəyalı
Odlu, sulu, havalı,
Gəlin kimi həyalı
Koroğlutək davalı.

Sevdalıyam bu həyata

Nə dolmusan,ey buludum?
Hönkür-hönkür ağlasana!
Gözlərimdə yaşa dönüb
Çaylar kimi çağlasana.

Selə dönüb tufan qopar,
Yu, təmizlə ürəyimi.

Ah-naləmi, gəl, yu, apar
Kama yetir diləyimi.

Qoy, bu könül sənə desin:
"Dərd var ikən bitən deyil,
Üz çevirib getsən belə,
Taleyindən itən deyil.

Ağla, bulud, ağlasan da
Könlümü sən dağ-dağ edib
Dərdə-qəmə bağlasan da,
Sevdalıyam bu həyata,
Sevdalıyam bu həyata.

Mənimdir

Düşünüb baxıram gözlərim yaşlı,
Mənim düşüncəmin yolları daşlı,
A püstə dodaqlı, a qələm qaşlı,
Daşlar səninkidir, yaş ki mənimdir.

İstərəm hər səhər çıxım qarşına,
Əymə qürurunu, gəl məni sına,
Vüsal həsrətilə hey....yana-yana,
Qarşında əyilən baş ki, mənimdir.

Vermə öz yaxanı hər yol ötənə,
İnanma dərdlidir hər yaş tökənə,
Yüz dəfə demişəm, deyirəm yenə
Dərdindən çatılan qaş ki mənimdir.

Sən elə bir aləm yaratdın mənə,
Çətin tab gətirər bu zülmə sinə,
Məni tək buraxdın ruhumla yenə,
Bilmədin ağaran saç ki mənimdir.

Sevənlərin göz yaşı

Gözlərimdən axan yaş,
Səhərlərin şehidir.
Xəfif-xəfif pıçıltı,
Yarpaqların mehidir.

O yaşdı ki, gözümdən,
Yana-yana süzülür.
Sevgiyə gedən yola,
Milvari tək düzülür.

Sevənlərin göz yaşı,
Sutək pakdı, təmizdi.
Gözləri kor etsə də,
Əvəzsizdi, əzizdi.

İRADƏ GÜLFİR

1958

Quluyeva İradə Gülməmməd qızı-İradə Gülfir 1958-ci il dekabr ayının 25-də Şəki rayonunun Bideyiz kəndində anadan olmuşdur. Dünya işığını, gözəlliklərini görməkdən məhrum olsa da, bəsirət gözü açıqdır. Ürəyinin gözü ilə görüb, yazıb yaradır. 11 kitabın müəllifidir. Vətənpərvər şeirlərinə görə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov diplomçusudur, işlədiyi cəmiyyətin fəxri üzvüdür.
Əlillərin Ümumrespublika festivallarının (1998, 2001, 2004, 2007, 2010, 2013-cü illər) qalibi olub, şeir nominasiyası üzrə 1-ci dərəcəli diplomçudur.1988-ci ildən Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin Şəki Rayonlararası Təşkilatında çalışır və hal-hazırda da həmin təşkilatın sədridir.
Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Verin

Titrədəndə göy otları nəğmələr,
Söz çiçəkdir, o çiçəkdən bal verin.
Ey xudayar, verdiyini çəkirəm,
Paylaşmağa sevincimi bol verin!

Günü-gündən pöhrələnən budağam,
İlhamımla yaşıllaşan yarpağam,
Misra-misra bəhrələnən torpagam
Haqqa dogru gedirəm mən, yol verin!

Min rüzgarla qarşılaşan çiçəyəm,
Səadətimdən aşıb-daşan diləyəm.
Ülfətimdən sınanmış bir ürəyəm,
Dostlar, mənim əllərimə əl verin!

Sözlə hördüm divarımı, bəndimi,
Dost qədrimi, düşmən bilir həddimi.
Vətənimə haray səsim yetdimi,
Sussam bir gün,sözlərimə dil verin!

Yaşamağa kənd, şəhər də gözəldir,
Axşamçağı, sübh səhər də gözəldir,
Sevinc, şadlıq, dərd, qəhər də gözəldir,
Həyat şirin, yüzdən artıq il verin!

Bağda hər bar, süsən, sünbül düzdədir,
Mehribanlıq, xoş təbəssüm gözdədir.
Tolerantlıq, sülh, ədalət bizdədir,
Var-dövlət yox, Gülfirə siz gül verin!

Sənsiz

(Üzeyir Hacıbəyovun
"Sənsiz" romansını dinləyərkən)

Fikirlər pərən-pərən, gedirəm min xəyalda,
Bir səs ayıltdı məni, dayandım yarı yolda,
Bu səsə heyran oldum, çalındıqca royalda.
Insanı sehirləyən səsə, sədəya "Sənsiz",
Gözəldə naz-qəmzəyə, dönüb ədədya "Sənsiz".

Gül-çiçək üstə şəbnəm, qumaşa ələyir zər,
Ötdükcə pərdə-pərdə, qəlblərə sevgi süzər,
Hər aşiqin sevgisi, eşqi özünə bənzər.
Əzab verir, dərd verir, ata-anaya "Sənsiz"
Sevəni dolaşdırıb salır xətaya "Sənsiz".

Gecə-gündüz arayar, bir yol hüsnünü görən
Kövrək duyğulardadır, yarına könül verən,
Qüssə-fəlakət yaşar, vüsal çiçəyi dərən
Həsrət, qəm nəğməsinə aha, nidaya "Sənsiz",
Çəkilən nəfəs hədər, oxşar vidaya "Sənsiz".

Musiqi damla-damla axır mənim qanıma,
İşləyir ürəyimə, iliyimə, canıma,
Göydən ay-ulduz enir,günəş düşür yanıma.
Ecaskar möcüzəsi, açan butaya "Sənsiz",
Eldən elə, obaya keçir o taya "Sənsiz".

Hər notu, hər xanəsi, qəm-qüssə, həsrət dağı,
Məhəbbət aləminin sönməz, nurlu çırağı,
Gülfiri ovsunlayıb səhərin bu sübh çağı.
Qanadında aparır, tənha adaya "Sənsiz",
Bir eşqin fəryadıyla, çatır xudaya "Sənsiz".

Üzümə toxun

Xəyallar içində düşüncəm dərin,
Sevincim acıdır, dərdlərim şirin,
Çünki dərddən doğur ən gözəl şerim.
Ey ürək, dünyada budur var yoxum,
Əs,ey dağ küləyi,üzümə toxun!

Köklənmiş sim kimi dinir ürəyim,
Yeni açan gülə enir ürəyim,
Dostum ol, dörd yandan əs, ey küləyim.
Demə, daşa dəydi,atdığın oxun,
Əs,ey dağ küləyi,üzümə toxun!

Dağlardan düzlərə,əs eldən-elə
Heç vaxt xəzan olma,dön həzin yelə,
Xəfifcə sığal çək yarpağa, gülə,
Səsin, səmrin kimi var imiş qoxun,
Əs,ey dağ küləyi,üzümə toxun!

Ehmalca silçələ nazlı gülümü,
Bihuş ətri ilə şad et könlümü,
Məxfi nəvazişlə oxşa telimi.
Gəl mənim yanima, xoşdur az-çoxun,
Əs,ey dağ küləyi,üzümə toxun!

Tərpətsin gülləri meh ləçək-ləçək,
Axsın gözlərindən şeh çiçək-çiçək,
Zülmətdə görürəm işıqdan göyçək.
Tar,kaman,saz mənim şerimlə oxun,
Əs,ey dağ küləyi,üzümə toxun!

Gülfirə dağlardan əs,cürət gətir,
Ruhuma sərinlik,güc-qüvvət gətir,
Təmkin,vüqar gətir,əzəmət gətir!
Bu dünya dünyama qoy olsun yaxın,
Əs,ey dağ küləyi,üzümə toxun!

Gözəl olur

Yaşadığın həyatda, özünü tanıdasan,
Yaxşını yaxşı tutub,yamanı yanıdasan,
Ən böyük dərd odur ki, dərdini unudasan.
Haqq yoluna varid ol,düz yol gedən ucalır,
Insan doğru olanda,dünya da özəl olur.

Daxili cihad ilə nəfsini tox tutasan,
Öz içində yüksəlib, öz məninə çatasan,
Bu dünyanın səsinə, öz səsini qatasan.
Özünü tanıyan şəxs,Allahla birgə qalır,
Insan kamil olanda, dünya da əzəl olur.

Gündüz doğan al günəş,gözlərimdə qaralır,
Işıq seli içində,dünya yaman daralır,
Yarpaqlar töküləndə, ağaclar yalqız qalır.
Gözlərimi yaş boğur,xəzanda güllər solur,
Insan kövrək olanda, dünya da xəzəl olur.

Xırdaca bir toxumdan böyük bir ağac bitir,
Insan kiçik canlıdan,dərya damladan yetir,
Hər naxışda min sirr var,bu həyat möcüzədir.
Təmiz, saf duyğularla ümid inam çoxalır,
İnsan şair olanda,dünya da qəzəl olur.

Mən göylərin təkində qığılcım yox,atəşəm!
Dünyamı nurlandıran şölə deyil günəşəm!
Dağ boyda əngəlləri mum kimi əritmişəm.
Gülfir zərrəyə sığmaz, kainat boyu dolur,
İnsan gözəl olanda, dünya da gözəl olur.

RASİM İSAQ
(Yanar)

1959

İsaqov Rasim Rəcəb oğlu 1959-cu il fevralın 20-də Şəki rayonunun Kiş kəndində anadan olub. 1977-ci ildə doğulduğu kənd məktəbini bitirib, əmək fəaliyyətinə Şəki İpək Birliyində başlayıb. Hərbi xidmətini Almaniyanın Rudilştat şəhərində başa vurduqdan sonra Rusiyanın Novosibirsk şəhərində tramvay sürücüsü işləyib. Eyni zamanda bu şəhərdə qiyabi olaraq Mədəni Maarif məktəbinin kitabxanaçılıq fakultəsini bitirb. Hazırda səyyar fotoqrafdır.Gəncliк illərindən poeziyaya böyük maraq göstərib. Özü də ədəbi yaradıcılıqla məşğul olur. Şeirləri müxtəlif almanax və mətbuat vasitələrində dərc olunub.

Mən niyə oynadım "Yanıq Kərəm"ə

Qırılsın qollarım, sınsın qıçlarım,
Qar kimi ağarsın qara saçlarım,
Çəkilsin çarmıxa, dara saçlarım,
Mən niyə oynadım "Yanıq Kərəm"ə ?

Əslinin fəryadı tapacaq məni,
Kərəm öz oduna yapacaq məni,
Bu dərd çapacaqdır, -çapacaq məni,
Mən niyə oynadım "Yanıq Kərəm"ə ?

Bu gün-vüsal günü bəylə gəlinin,
İpəkdən zərifdir teli gəlinin,
Əslinin başına əli gəlinin,
Mən niyə oynadım "Yanıq Kərəm"ə ?

"Vağzalı" çalınır, dinir ürəklər,
Səadətdən qalxır enir ürəklər,
Fərəhdən bir dağa dönür ürəklər,
Mən niyə oynadım "Yanıq Kərəm"ə ?

Eşqə, məhəbbətə qaynayar insan,
Qoy olsun dünyada yara-yar insan,
Sevincə, şadlığa oynayar insan,
Mən niyə oynadım "Yanıq Kərəm"ə?

Pərvanə şamıma alışar, yanar,
İnsan öz yarına qovuşar, yanar,
Bu sirli dünyadan soruşar, yanar,
Mən niyə oynadım "Yanıq Kərəm"ə ?

...Nolaydı, kol-kos da gülə dönəydi,
Kərəm yanmayaydı, -elə dönəydi,
Kərəm yanmayaydı, -özüm öləydim,
Mən niyə oynadım "Yanıq Kərəm"ə ?

"Uçaq quşu"

Bu gün uçurdum mən yar ünvanına,
Bir uçaq quşunu yar eyvanına.
Mənim salamımı ona yetirsin,
Sonra qəlbimdəki dərdimi desin.
Söyləsin hardandır, hansı məkandan,
Uşub gəlibdir, o desin, hayandan.
Orda günəş də var, orda ay da var,
Sevincdən, sevgidən orda pay da var.
Yar qəbul eyləsin salamlarıyla,
Xeyir-duasıyla, kəlamlarıyla.
Doldursun uçağı sevgilərilə,
Göndərsin özümə öz əllərilə.
O da xoş xəbərlə qayıtsın geri,
Qoy olsun qəlbimiz bir liman yeri.
Qoy bu uçuş xətti əbədi olsun,
Qoy bütün dünyamız sevgilə dolsun!

Bayatılar

Əziziyəm, yara bax,
Qəlbim olub yara, bax...
Əgər inanmayırsan,
Buyur, yara-yara bax!

Əziziyəm, gül dərdi,
Bülbül dərdi, gül dərdi.
Necə böyük olarmış
Kiçik bir könül dərdi.

Əziziyəm, qara bağ,
Qara bağça, qara bağ.
Gözləri yol çəkməkdən
Saç ağartdı Qarabağ.

Əziziyəm, dərdə mən,
Vurulmuşam dərdə mən.
Yox dünyada mənim tək.
Kədər yeyən, dərd əmən.

Arazım, xan Arazım,
Axma, dayan, Arazım,
Qanı-qandan ayırdın,
Alovlan, yan, Arazım.

O tayda gözüm qaldı,
Od idim, közüm qaldı.
Yar həsrəti çəkirəm,
Demədim, sözüm qaldı.

Bu dünya, fani dünya,
Yırtıcı, cani dünya.
Kəsir, soyub doğrayır,
Yeyir insanı dünya.

Bu dünya, ağlı dünya,
Qaralı, ağlı dünya,
Başı min-bir bəlalı,
Sinəsi dağlı dünya.

Mən qurbanam Təbrizə,
Marağaya, Təbrizə,
Bahar gəlsin, yaz osun
Gül göndərim Təbrizə!...

MÜBARİZ MƏMMƏDRZAYEV

1959

Məmmədrzayev Mübariz Həsən oğlu 1959-cu ildə Şəki rayonunun Cunud kəndində anadan olmuş, orta təhsilini doğulduğu kənd orta məktəbində almış, əvvəl Bakı Mədəni-Maarif Texnikumunu, sonra isə İncəsənət Universitetini bitirmişdir. Ədəbi yaradıcılığa tələbəlik illərindən başlamış, "Taleyin sərt oyunu" adlı povestində qoyulan problemlər yaşadığımız dövrün ən ağrılı problemləri olmaqla, geniş oxucu auditoriyasının rəğbətini qazanmışdır.Mübariz Məmmədrzayev ədəbi yaradıcılığını davam etdirməklə "Üzbəüz" ictimai-siyasi və hüquq qəzetinin təsisçisi və baş redaktorudur, Azərbaycan Jurnalistlər İttifaqının və Azərbaycan Mətbuat Şurasının üzvüdür.

Taleyin sərt oyunu

(povestdən bir parça)

Aysel qəzaya düşüb xəstəxanada yatanda Zakir kişi arvadı Sona ilə onu görməyə gəlmişdilər. Baldan yağa qədər hər şey gətirmişdilər. Aysel maşınla vurulanda gələn xəbərdən sonra atası Məhəmməd kişi yol pulunu birinci dəfə poçt müdiri Ələkbərdən alsa da, ikinci gedişində Zakir kişi ona əməlli-başlı əl tutmuşdu. Zakir kişi Məhəmmədə demişdi ki, heç vaxt pula görə narahat olmasın. Nə vaxt Aysel balamız oxuyub qurtarar,həkim işləyər, maaş alar, qaytararsan. Qaytarmasan da olar. Kənd qardaşıyıq, bir birimizə əl tutmalıyıq. Bu gün məndə var, sabah səndə.

Zakir kişi kriminal aləmdə söz sahibi olan avtoritet oğru Daşqının bir saylı əlaltısı Asifin atası idi. Aysel və Asif bir kənddən idilər. Zakir və Məhhəmməd kişinin ailələri bir birlərini yaxşı tanıyırdılar. Xeyir-şərdə həmişə bir yerdə olurdular. Asif 8 il qabaq hərbi xidmətini başa vurduqdan 10 gün sonra Rusiyaya qayıtmışdı. Kəndə iki-üç ildən bir gəlirdi. Atasının həyətindəki qarajında iki bahalı maşını yatırdı. Hamı onu pullu oğlan kimi tanıyırdı. Kənddən heç kim onun dəqiq ünvanını bilmirdi. Kəndə gələndə də heç kimlə yaxınlıq etməzdi. Xətrini istəyən yoldaşları da qapılarına gələndə evdəkilər vasitəsilə evdə olmadığını xəbər verdirərdi.

Aysel evə çatıb yorğan-döşəkdəki xəstə anası ilə görüşdükdən sonra, atası Məhəmməd kişi, qardaşı Elsevər və bacısı Aytellə də görüşdü. Sonra anasının çarpyısının yanında köhnə stulda bir təhər əyləşdi. Ata-anası və bacısı ilə dərdləşən Aysel olub keçənlərdən və kənddə olan yeniliklərdən xəbər almağa başladı. Bir müddətdən sonra qardaşı Elsevər, atası Məhəmməd kişi ilə mal-qaranın arxasınca getdilər. Aytel anasına baxıb nəyəsə işarə edirdi.

Ayselin anası başladı ki, ay qızım, bizim də Allahımız var. Sənə yaxşı bir yerdən qapı açılıb. Qonşumuz Zakir kişi səni Urusetdə olan oğlu Asifə almaq istəyir. Çox yaxşı oğlandır. Yaxşı var-dövləti var.

Aytel anasının sözünə qüvvət verib tez dilləndi:

– İki maşın alıb qapılarına qoyub, heç sürən də yoxdur.

Ayselinanasısözünədavamedərək:

– Ay qızım, görürsən ki, ömrü boyu yataq xəstəsiyəm. Bu ailənin əziyyətini mənim əvəzimə ömrü boyu sən çəkmisən. Həmişə əzab-əziyyət çəkmisən, zülümlə oxuyursan. Hələ Allah üzümüzə xoş baxdı ki, maşın səni vuranda ölmədin. Allah o oğlanın ömrünü uzun eləsin.

(Daşqını nəzərdə tuturdu.) Deyirlər o, olmasaydı çoxdan o dünyalıq olmuşdun.Allah bu dəfə də üzümüzə baxdı. Bizə, ələxsus da atana yazığı gəldi. Deyirəm, ay qızım, şəhərdə oxuyursan. Bu gün, sabah qurtarıb gələcəksən kəndə. Asifin də yaşadığı yer şəhərdir. Hələ o gün Zakir dayın bizə gələndə mənə dedi ki, sənin müalicən Azərbaycanda yoxdur. Amma Samburqda var.

Aytel gülümsəyərək anasının sözünü kəsib dedi ki, ay ana Samburq yox ey, Sankt-Peterburq.

Aysel qeyri-ixtiyari bu sözə güldü. Anası Ayselə dedi ki, nə bilim, ay bala, deyirlər Urusetin ən yaxşı şəhəridir. Atan da razıdır, Elsevər də. Səni maşın vuranda bizə nə qədər kömək etdilər, bir Allah bilir.

Aytel Ayselin qabağında qollarını açıb oynamağa başladı və dedi ki, ay qız, "Mersedes"lərdə, "Jip"lərdə gəzəcəksən. Layka, lamaların, qızıl, birliyantların içində üzəcəksən. Sən instituta girəndə çoxlarını infarkt vurmuşdu, indi bu xəbəri eşidib, təmiz öləcəklər. Zakir dayım da dedi ki, Asif bir neçə günə gəlməlidir. Qız razılaşsa nişan verərdik.

Aysel anasına:

– Ay ana, axı mən hələ üç il də oxumalıyam.

Ayselin anası:

– Ay qızım, onlar da bilir ki, oxuyursan. Yəqin ki, bir çarə qılarlar. Oğlanın əli çatmayan yer yoxdur, deyirlər.

Aysel:

– Nə bilim, ay ana, atam bilər, sən bilərsən. Siz bilən məsləhətdir, – deyib çölə çıxdı.

Aytel balaca uşaq kimi əlini bir-birinə vurub sevinərək bildirdi ki, razıdır, ay ana.

Anası Aytelə:

– Ay balam uşaq deyil ki, o boyda inisut oxuyur. Yaxşını da bilir, pisi də. Bir də biz onu tanımadığımız adama vermirik ki, Asif gözümüzün qabağında böyüyən uşaqdır. Sabah qardaşı Elsevəri də çəkib aparar öz yanına, ona da bir gün ağlayar. Yazıq işsizlikdən gündə üç dəfə kəndin ayağına gedib gəlməkdən bezib.

Aysel birinci sinifdə oxuyanda Asif onuncu sinifdə oxuyurdu. Onun adını eşitsə də, Rusiyada olduğunu bilsə də, üzünü görməmişdi. Zakir gilin ailəsi Ayselin üzünü görmədiyi Asifə ərə getməyə razı olduqlarını bildikdən sonra sevinclə oğullarının yolunu gözləyirdilər...

Almuradov kabinetində özünü güllələdikdən sonra, Daşqını qoyub gəldiyi əmlakı çox maraqlandırırdı. Hələ də öyrənə bilməmişdi ki, onlar müsadirə olunub, yoxsa kimlərinsə əlindədir. Odur ki, kriminal avtoritet

əl altısı Asifə tapşırıq verib Sankt Peterburqdan Bakıya yola saldı. Ona məxsus olan ofis və obyektlərin siyahısını və ünvanlarını da ona vermişdi. Asifə təqdim olunan xəritə əsasında Bakıda məşhur milyonerlər məhəlləsi kimi tanınan Varovskidəki evindən, Mərdəkan və Bilgəhdəki villalarından, ofislərindənvəşəhərin bir neçə mərkəzi küçələrində olan bren mağazalarından 10 gün müddətində ona yaxın olan adamlar vasitəsilə şübhə yaratmadan dəqiqləşdirib, Asifin Feliks kimi tanıdığı Daşqına məlumat verməli idi. Siyahı ilə birlikdə Daşqın Asifə təyyarəyə bilet və 10 min dollar da pul vermişdi. Asif bu gün axşam Bakıya uçmalı idi. Sankt-Peterburqdan gələn təyyarə səhər saatlarında yerə enmişdi. Asifin birinci planı hava limanından taksiyə oturub rayonlarına getmək idi. Bu fürsət son 3 ildə bir dəfə əlinə düşmüşdü. Cibindəki 10 min dolları da təyyarədə ayrı-ayrı adamlara paylayıb, hava limanında cüzi şirinlik verib yığmışdı. Çünki gömrük işçiləri onu yoxlaya bilərdilər. Artıq hava limanından 4 saata kəndlərinə çatmışdı.

Asif kəndə çatandan bir saat sonra bütün kənd onun gəldiyini bilirdi. O, cümlədən Məhəmməd kişinin ailəsi də. Aytel bacısı Ayselə muştuluq da etmişdi ki, ay qız, gözün aydın, nişanlın gəlib çıxdı. Asif evlərində bildirmişdi ki, onun 3 gündən artıq vaxtı yoxdur. Geri qayıtmalıdır. Zakir kişi də oğluna evlənmək vaxtının keçdiyini, qonşuları Məhəmməd kişinin Aysel adlı gözəl bir qızının olduğunu, Ayseli ona almaq istədiklərini bildirdi. Asif isə atasına bu məsələni gələndəfəki gəlişinə saxlamağı təkid etsə də, Zakir kişi razılaşmır. Asif naəlac qalıb atasına qızı gördükdən sonra bir söz deyəcəyinə söz verir.

Asif Ayseli görəndən sonra ağlı başından çıxmışdı. Sanki Daşqının ona verdiyi tapşırıqları da az qala unutmuşdu. Atasına 3 günə qayıdacağını bildirən Asif artıq 8 gün idi ki, kənddə idi. Aysellə görüşməyə cəhd etsə də, heç nə alınmamışdı. Aysel nişanlanmağına razılıq versə də, Asifin bacısına onunla görüşməyin hələ tez olduğunu bildirmişdi. Asif isə bunu özünə təhqir sayır, fikirləşirdi ki, necə olur məni istəyib mənə nişanlanır, amma görüşmək istəmir.

Asif Ayseli 8 gündə iki dəfə görmüşdü. Onu görəndən nə gecəsi var idi, nədəki, gündüzü. Xəlvəti yerdə özünə morfi iynəsi vuranda bu sevdadan halı lap xarab olurdu.

Artıq nişanın vaxtı təyin olunmuşdu. Sabah saat on ikidə Asifdən Ayselgilə nişan gəlirdi. Aysel vaxt tapıb bir neçə rəfiqəsinə də xəbər göndərmişdi.

Qızlardan nişana yalnız Könül, Lamiyə və Arzu gəlmişdi. Ayselgilin həyətinə daxil olan zarafatcıl Lamiyə üzünü Ayselə tutub dedi ki, ay qız,

mən soruşanda ki, istəklin varmı. Balaca uşaq kimi hər şeyi bilməməzliyə qoyurdun. Maşşalah, qrupumuzdakı bütün qızları qoyub birinci oldun. Atalar yaxşı deyib: "Suyun lal axanı, insanın yerə baxanı".

Aysel Lamiyəyə:

– Vallah, heç özüm də bilmirəm necə oldu.

Lamiyə Ayselə:

– Əşi, Allah xoşbəxt eləsin. Sənin sağ əlin bizim başımıza. Onsuz da bir qız bir oğlanındır. Geci, tezi var.

Ayselgildəki nişan məclisinə hazırlıq gecə saat ikiyədək çəkmişdi. Artıq yatmaq vaxtı idi. Səhər tezdən görüləsi işlər də çox idi.

Aysel, Könül, Lamiyə və Ayselin bacısı Aytel yatmaq üçün bir otaqda yerlərini sərdilər. Yorğan-döşəyini şində xeyli deyib güldülər. Yorğunluqdan Ayseli birinci yuxu apardı. Qəribə yuxular görməyə başladı.Nişan tədarükü görən kəndin bütün qızları həmin gecə yatıb yuxusunda gəlin köçürdülər. Ayselin gördüyü yuxu isə başqa yuxu idi. Özü ağappaq gəlin paltarında, Asifin bəy otağında oturmuşdu. Kinolarda gördüyü əcaib bir ilan ayaqlarından tutmuş ağ gəlin paltarının üstündən boğazınadək sarmaşmışdı...

MEHRİBAN NİYMƏT

1959

Mehriban Niymət qızı Məmmədova 1959-cu il may ayının 6-da Şəki şəhərində anadan olmuş, 3 saylı orta məktəbi bitirmişdir. Hal-hazırda Şəki şəhər Mədəniyyət və Turizm şöbəsinin Nüreddin Bədəlov adına şəhər folklor evində direktor vəzifəsində çalışır.

O, tez-tez hərbi hissələrdə və mədəni kütləvi tədbirlərdə yaradıcılığı ilə çıxış edir."Şəki Region", "Şəki xəbər", "Şəki fəhləsi", "Mədəniyyət Qalası", İmpuls", "Hüquq nəzarəti" qəzetlərində , "Molla Nəsrəddin dünyası" jurnalında, "Söz-söz-söz" almanax kitabında şeirləri dərc olunub. Mənsur şeirlər yaradıcılığında üstünlük təşkil edir.

Ata

Nə qədər sən vardın,hər şeyim vardı
Mən də yaşayırdım,sənə güvənirdim.
Qorxusuz-hürküsüz....
Sən mənə arxa,sən mənə dayaq
Hamıdan mehriban,qayğıkeş atam....
Səndən güclü,səndən əzəmətli
kimsəm yox.
Sən məni sevirdin,hamıdan artıq
Balanın ən şirin,ərköyünü mən...
Sənin sevgin,məhəbbətin, dünya kimi oyaq
Ata...ay ata....!
İndi sən yoxsan,
Mən necə baxım, sənsiz həyata??
Sənə daha çox ehtiyacım var, sənsizləşənnən.
Səni itirəndən,tapdım səni mən,
Sənsizlik üzdü məni, yamanca üzdü...
Elə koruxub tənhalaşdım mən...
Ata varlığı, ata duyğusu, cilalandı xəyalımda.
Duyuldu varlığın....Yoxluğunda
Tanıdım özümü, tapdım özümü,
Mənim kimi dəcəlnən, ərköyünnən yola gedən,
yovuşan ata!
Məni sənsiz qoyub, əbədi dünyaya qovuşan ata....!
Sənsiz bu həyata mən necə baxım????

Mənimki deyil

Allahım, mənə bir az bəxt verəydin,
Bir az qismət,bir az tale verəydin.
Alnıma yazılan yazı mənimki,
Qədərim,qismətim,mənimki deyil.
Günəştək hər yana şəfəq saçardım,
Od tutub hər yeri alışdırardım.
Soyuq ürəkləri isindirərdim,

O xumar gözləri qamaşdırardım.
Sonra da əriyib şimşəktək çaxardım,
Alnıma yazılan yazı mənimki,
Qədərim,qismətim mənimki deyil!
Alın yazısından qaça bilmədim,
Qədəri,qisməti tapa bilmədim.
Arzu-muradıma yetə bilmədim,
Kaş, ötən günlərə dönə biləydim,
Arzular içində yata biləydim.
Alnıma yazılan yazı mənimki,
Qədərim,qismətim mənimki deyil,
mənimki deyil !!!

Şükürlər olsun

Yanıma-yörəmə baxıb ağlaram,
Dərdim yaman çoxdur,deyib sızlaram.
Gizlincə yaşımı silib söylərəm,
Bu günümə şükür,şükürlər olsun!

Allahım, giley-güzar etmirəm vallah,
İstər-istəməz gülürəm, Allah!
Bəzən xoşbəxtəm deyib söylərəm,
Bu günümə şükür,şükürlər olsun!

Düşünürəm-düşünürəm, faydası yox,
Hönkürürəm-hayqırıram mənası yox,
Bəs nə edim,necə dözüm dərdlərə?
Bu günümə şükür,şükürlər olsun!

Mehriban qələmsiz yaşaya bilməz,
Dərdini vərəqə yazmaya bilməz.
Şair qəlbini gizlədə bilməz,
Bu günümə şükür,şükürlər olsun!!!

KAMİL ADIŞİRİNOV

1960

Adışirinov Kamil Fikrət oğlu 1960-cı il iyunun 1-də Şəki rayonunun Oxud kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini (1977), BDU-nun kitabxanaçılıq fakultəsini bitirmiş (1987), Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının nəzdində fəaliyyət göstərən yenidən hazırlanma fakultəsində Azərbaycan dili və ədəbiyyat müəllimliyi üzrə ikinci ixtisas qazanmışdır (2002).

Əmək fəaliyyətinə 1987-ci ildə Şəki Rayon Mədəniyyət şöbəsinin Mərkəzləşdirilmiş Kitabxanalar sistemində başlamış, bu sahədə kitabxanaçı, biblioqraf, baş biblioqraf, metodist və informasiya-biblioqrafiya şöbəsinin müdiri vəzifəsində çalışmış, BDU-nun Şəki filialında (1998-2001), Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialında (2005-2015) müəllim, eyni zamanda ŞREM-nin "Folklorşünaslıq və el sənətləri laboratoriyasında" elmi işçi kimi fəaliyyət göstərmişdir (2005-2015). Hazırda Azərbaycan Pedaqoji Universitetinin Şəki filialında baş müəllim və ŞREM-nin "Folklorşünaslıq və el sənətləri" şöbəsinin aparıcı elmi işçisi kimi fəaliyyət göstərir.1980-ci illərdən dövrü mətbuatda elmi, publisistik məqalələri ilə vaxtaşırı çıxış edir. "Qədim türk-Oğuz yurdu-Oxud" (2006), "İsmayıl bəy Nakam" (həyat və yaradıcılığı) (2006), "Şəkidə məhəllə adları, soylar, ləqəblər",II kitab (həm müəllif 2009), "XX əsr Şəki ədəbi-mədəni mühiti" (2015) kitablarının müəllifidir. "İsmayıl bəy Nakamın həyat və yaradıcılığı" mövzusunda dissertasiya müdafiə etmiş (2013),filologiya üzrə fəlsəfə doktorudur. 40-dan artıq yazarın həyat və yaradıcılığı haqqında ilk dəfə o, geniş məlumat vermiş, N.Hümmətovun, T.Qəffarovun, Ə.Zeyzidlinin, Ə.Şayanın şeirlər kitablarını tərtib edərək "Ön söz"lə, görkəmli maarifçi Əhməd Yusifovun ömür yoluna həsr etdiyi xatirə kitabını nəşr etdirmişdir."XX əsr Şəki ədəbi-mədəni mühiti" adlı doktorluq işini tamamlamaq üzrədir.

XX əsr Şəki ədəbi-mədəni mühiti

(bir parça)

XX əsrin əvvəllərindən 90-cı illərinədək Şəki ədəbi-mədəni mühiti, onun ictimai-siyasi, nəzəri-estetik problemləri ədəbiyyatşünasları düşündürmüş, lakin bu məsələ geniş tədqiqat baxımdan öz real həllini tapmamış, bəzi tədqiqatçıların fərdi-konkret istiqamətli fikirləri ilə kifayətlənilmişdir.

XX əsr Şəki ədəbi-mədəni mühitinin ümumi mənzərəsinin izlənilməsi, bu təcrübənin ümumiləşdirilməsi, onun yaranma və formalaşma prosesinin işıqlandırılması, inkişafın əsas mərhələ və xüsusiyyətlərinin aydınlaşdırılması baxımından aparılan tədqiqat xüsusi aktuallıq kəsb edir. Odur ki, bütövlükdə Azərbaycan ədəbiyyatının tədqiqi baxımından Şəki ədəbi-mədəni mühitinin tədqiqi ədəbiyyatşünaslıqda vacib bir məsələ kimi diqqəti cəlb etmiş, öz həllini gözləyən bir problemə çevrilərək hazırkı tədqiqatın aktuallığını şərtləndirmişdir.

Tədqiqatın obyektini Azərbaycan ədəbiyyatının inkişafında xüsusi yeri və rolu olan Şəki ədəbi-mədəni mühiti təşkil edir. XX əsrdə Şəkidə mədəni mühitin inkişafını təmin edən təhsil, teatr və ədəbiyyat tarixinin, sözügedən dönəmdə Şəkidə yazıb-yaratmış ədib və şairləri öz sıralarında yetişdirən "Səbuhi" ədəbi məclisinin yaranması, inkişaf mərhələləri və Şəkidə yaşayıb-yaratmış yazıçıların həyat və yaradıcılıq yolunun sistemli şəkildə üzə çıxarılması tədqiqatın əsas predmetidir. Şəki ədəbi-mədəni rnühiti ilə bağlı əldə faktik materiallar çoxdur. Bunların sırasında son illərdə yazılıb çap edilmiş elmi məzmunlu məqalələr, mövzu ilə bağlı seyrçi məlumat verən qeydlər, yazıçıların ayrı-ayrı qəzet və jurnallarda çap olunmuş əsərləri və nəşr olunmuş kitabları tədqiqatın əsas materialını təşkil edir. Tədqiqat işi

yerinə yetirilərkən çap edilmiş əsərlərin təhlili ilə kifayətlənilməmiş, əldə olunması nə qədər ağır və üzücü olsa da, Şəki və ətraf kəndləri qarış-qarış gəzilərək şəxsi evlərdə mühafizə edilib saxlanılan əlyazmalardan, şəxsi arxiv materiallarından da istifadə edilmişdir.

Əsərin yazılmasında əsas məqsəd qədim Şəkinin yüz illik bir dövrü əhatə edən möhtəşəm ədəbiyyat və mədəniyyət tarixi inkişaf yoluna nəzər salmaqdır. Söz yox ki, mühüm məqsədə çatmaq üçün konkret vəzifələri yerinə yetirmək lazım gəlir. XX əsrin əvvəllərindən bu günədək ədəbi-mədəni prosesi ardıcıl və sistemli izləmək, ədəbi sənətkarların bədii axtarışlarının forma, məzmun və mündəricəsini üzə çıxarmaq, Şəki ədəbi mühitinin Azərbaycan ədəbiyyatındakı yerini müəyyənləşdirmək, bədii mətnlərin təhlilində ümumprinsipləri əsas götürmək tədqiqatçının diqqət mərkəzində olmuşdur. Mövzuya müasir ədəbiyyatşünaslıq elmimizin tələbləri nöqteyi-nəzərdən yanaşılmış, əsasən, aşağıdakı vəzifələrin yerinə yetirilməsinə diqqət yetirilmişdir:

Azərbaycan ədəbiyyatı tarixində Şəki ədəbi mühitinin mövqeyini və rolunu aydınlaşdırmaq;

sovet ideologiyasının ədəbiyyata milli müstəvidən deyil, ideoloji müstəvidən yanaşmasının ədəbi mühitə təsirini aşkarlamaq;

XX əsrin ayrı-ayrı dövrlərində Şəki ədəbi-mədəni mühitinin inkişaf mərhələlərini müəyyənləşdirmək, ədəbi-mədəni mühiti zamanın ictimai-siyasi problemləri kontekstində tədqiq etmək;

Şəki ədəbi-mədəni mühitini özündən əvvəlki əsrlərin ədəbi- mədəni mühitinin davamı kimi araşdırmaq;

yeni tarixi şərait və ideyaların yeni məzmun və forma, janr tələbinin müxtəlifliyi səbəblərinin real imkanlarını müəyyənləşdirmək;

Şəki ədəbi-mədəni mühitində "Səbuhi" ədəbi məclisinin bədii və ideya-siyasi baxımdan demokratikləşməsində "Şəki fəhləsi" qəzetinin rolunu tədqiq etmək;

XX əsr Şəki ədəbi-mədəni mühitinin formalaşmasında mühüm rol oynayan ədəbi simaların həyat və yaradıcılığını və əsərlərini tədqiqata cəlb edib elmi şərhini vermək;

Şəki ədəbi-mədəni mühitinin təmsilçilərinin hər birinin üslubunu aşkarlamaq;

Şəki ədəbi-mədəni mühiti nümayəndələrinin yaradıcılığında lirikanın mövzu və ideya qaynaqlarını, təkamül yollarını, inkişaf mərhələlərini üzə çıxarmaq;

XX əsr Şəki ədəbi-mədəni mühitinin bədii materiallarında- Şəki yazıçılarının qələmində Sabir satira ənənələrinin inkişaf dinamikasını təhlil etmək;

Şəki ədəbi mühitində nəsrin ideya istiqamətlərini, novator xüsusiyyətlərini, ədəbi-estetik problemlərini üzə çıxarmaq;

XX əsrdə Şəkidə teatr və dramaturgiya məsələlərinin inkişf tarixini tədqiq etmək;

XX əsrdə Şəkidə aşıq mühitinin inkişaf məsələlərini tədqiq edərək, el aşıqlarının həyat və yaradıcılığını tədqiqata cəlb etmək;

Şəki ədəbi mühitində yazıb-yaradan sənətkarların sənətkarlıq keyfiyyətlərini üzə çıxarmaq...

MÜRSƏL HƏSƏNOV

1961

Mürsəl (Qərxmaz) Həsənov 1961-ci il oktyabr ayının 17-də Şəki rayonunun Cəyirli kəndində anadan olmuşdur. Müxtəlif təsərrüfat sahələrində çalışmış, şeirə, sənətə olan sevgisi onu poeziyaya bağlamışdır.
Dövrü mətbuatda vaxtaşırı şeirlərilə çıxış edir.
Mürsəl Qərxmaz hazırda Şəki Rayon Mədəniyyət və Turizm Şöbəsinin Cəyirli kənd klubunda mədəni kütləvi təşkilatçı vəzifəsində çalışmaqla yanaşı "Hüquq Nəzarəti" və "Region Mediası" qəzetləri ilə əməkdaşlıq edir.

Səni sənnən çox sevirəm

Gəzdim eli-aranı mən,
Seçdim ağı-qaranı mən.
Tapdım səndə çaranı mən,
Səni, sənnən çox sevirəm.

Zülfün axan bir şəlalə,
Yanaqların al bir lalə.
Saldın məni gör nə halə,
Səni, sənnən çox sevirəm.

Rəng içində al kimisən,
Gül yanaqda xal kimisən.
Dodağımda bal kimisən,
Səni sənnən çox sevirəm.

İstər inan, istəsən yox,
Könlüm, gözüm özgədən tox.
Yan keçməyib atdığın ox,
Səni sənnən çox sevirəm.

Nə vermişəm ki

Deyirlər şairsən, yazırsan belə,
Yayılmış sorağın obaya-elə.
Coşub çaylar kimi bənzəyib selə,
Mən hələ xalqıma nə vermişəm ki?

Əlimə qələmi alanda hərdən,
Oturub yazanda xeyirdən-şərdən.
Nə olsun köynəyim islanır tərdən,
Mən hələ xalqıma nə vermişəm ki?

Yazmağa həvəsim yox idi əzəl,
İndi bir şerim var, üç-beş də qəzəl.
Etsə də pərəstiş mənə min gözəl,
Mən hələ xalqıma nə vermişəm ki?

Gün gələr xalqımın bir üzü gülər,
Qarabağ, Muğanı, Mil düzü gülər.
Qorxmazın həm qəlbi, həm özü gülər,
Onda sor xalqıma nə vermişəm mən!

Qurban olum

Min bulağın var şəfalı,
Gözəllıərin var vəfalı.
Vətən, torpağın səfalı,
Torpağına qurban olum.

Özün gözəl, eşqin dərin,
Torpaq isti, suyun sərin.
Deyəndə ki, Allah Kərim,
Kərəminə qurban olum.

Vətənim var başdan-başa,
O, misilsiz bir tamaşa.
Gələn görüb əqli çaşar,
Vətənimə qurban olum.

Heyranların yığın-yığın,
Fərəhimdir gözəl çağın.
Var Qoşqarın, Uludağın,
Dağlarına qurban olum.

Vətən başımın tacıdır,
Hamı onun möhtacıdır.
Kim desə ki, o acıdır,
Acısına qurban olum

Bir əsgər anası

Vətən eşqi könüllərdə yaşarsa,
Vətənimiz zəbun olmaz basılmaz.
Nəğmələri könüllərdə coşarsa,
Ana dilim özgə dildən asılmaz.

Güllə-mərmi hazır dolu daraqda,
İgidlərim hoy deyəndə coşaram.
At belində, çalın-çarpaz yaraqda,
Səkənlərə nə dastanlar qoşaram.

Bir əsgərin xoş müjdəsi, sədası,
Yayılanda el-obaya, analar
Deyərlər ki, mənə gəlsin qadası,
Al qırmızı geyər gəzər sonalar.

Bir əsgər anası əli qaşında,
Həsrətlə boylanır yollara baxır.
Oğul keşik çəkir dağlar başında,
Hər izə-cığıra, kollara baxır.

Göydən şahinlərim səpsin alov-köz,
Yarılsın qorxudan düşmənin bağrı.
Verməsin nə aman, nə işıq, nə göz,
Görsün qarı düşmən nə imiş ağrı.

MAYİS SƏLİM

1962

Mayis Səlim 1962-ci ildə Şəkidə anadan olub.
İlk şeiri 1979-cu ildə "Şəki fəhləsi" qəzetində çap edilib.
Sonralar "Türkün səsi", "Söz... Söz... Söz..." almanaxlarında, "Azərbaycan", "Ulduz" jurnallarında, "Ədəbiyyat qəzeti", "Ədalət", "Zaman", "Vaxt", "Kaspi", "Tumurcuq" və başqa mətbuat orqanlarında xeyli şeiri işıq üzü görmüşdür. Bir neçə şeirinə mahnı bəstələnmişdir. Ədəbi-tənqidi məqalələri müxtəlif mətbu orqanlarda vaxtaşırı çap olunur. Mayis Səlim dörd şeir kitabının müəllifidir. "Mən hardan bilərdim", "Ana dilim" (uşaqlar üçün), "Dəniz ömrü", "Qayıdaq o illərə" kitablarında toplanmış şeirləri oxucular tərəfindən rəğbətlə qarşılanmışdır.

Ay Vətən

Sevgisən – ömrümə yetən,
İstəksən – könlümdən ötən.
Həmişə dilimdə bitən
sözümsən, ay vətən, vətən!

Hər addan ucadır adın,
Hər daddan şirindir dadın.
Heç zaman sönməyən odum-
közümsən, ay vətən, vətən!

Qəzəbdən şimşəktək çaxan,
Yağını yandırıb-yaxan,
Balama şəfqətlə baxan
gözümsən, ay vətən, vətən!

Yıxılsam, qalxaram yenə,
İnandım, güvəndim sənə.
Çətində, dar gündə mənə
Dözümsən, ay vətən, vətən!

Sən varsan, yoxdur bir qəmim,
Səninlə yoğrulub tənim,
Səninəm mən, sən də mənim
özümsən, ay vətən, vətən!

Deyirəm

Sirrimi axan suya,
Uçan quşa deyirəm.
Heç nəyi gizlətməyib,
Başdan-başa deyirəm.

Dövran məni dağlayıb,
Yollarımı bağlayıb.
Dərdimi, qucaqlayıb
Soyuq daşa deyirəm.

Ayım-günüm qaralıb,
Dağlarımı çən alıb.

Gördüm yaza çox qalıb,
Sözü qışa deyirəm.

Ömürdü, gündü ötən,
Bir də tapılmaz itən.
Dəyməzmiş hədər gedən
Bunca yaşa, deyirəm.

Bir yuvasız quş oldum,
Durnalara qoşuldum.
Görən, nə vaxt tuş oldum
Bu qarğışa, deyirəm.

Yandırdın Qarabağı,
Sinən yansın, a yağı.
Çəkib bayatı, ağı,
"Laçın!", "Şuşa!" – deyirəm.

Olmadı

Mənim güvəndiyim dağlar,
Hər vaxt öyündüyüm dağlar,
Bərk-bərk söykəndiyim dağlar,
Büdrədim, dayaq olmadı.

Vurdu məni tufan, dolu,
Seçəmmədim sağı, solu.
Qarşımdakı kəsə yolu
Getməyə ayaq olmadı.

Gözlərimi yaş götürüb,
Yollarımı daş götürüb.
Bu dünyadan baş götürüb
Qaçardım bayaq, olmadı.

Hey ovutdum ürəyimi,
Çox gizlətdim göynəyimi.
Qana batmış köynəyimi
Yellədim, bayraq olmadı.

Taleyimə düşdü düyün,
Dərd-qəm gördüm löyün-löyün.

Yaşadığım bu ömür-gün
Mən deyən sayaq olmadı.

Gəzmə

Dəryalar da qəvvasam,
Məni dayazda gəzmə.
Günəşə vurulmuşam,
Çəndə, ayazda gəzmə.

Açmadın düyünümü,
Eşitmədin ünümü,
Qaralayıb günümü,
Gedib bəyazda gəzmə.

Tutulubdur dillərim,
Susubdur bülbüllərim,
Bir də açmaz güllərim,
Gəlməz o yaz da, gəzmə.

Üşüdüm baxışlardan,
İslandım yağışlarda.
Bu dərdi aşıqlar da
Çalammaz sazda, gəzmə.

Var hələ

Gedənlərə ağlama,
Şükür, sağlar var hələ.
Qartala qıy vurmağa
Uca dağlar var hələ.

Hər sevilən yar olmaz,
Hər çalınan tar olmaz.
Hey uzanar, bar olmaz,
Qısır tağlar var hələ.

Çıx yağı qarşısına,
Özünü darda sına.
Qoyma qılıncı qına,
Qarabağlar var hələ.

ELMAN ƏZİZOV

1962

Əzizov Elman Mövlud oğlu 1962-ci ildə
Şəki rayonunun Baş Layıqı kəndində anadan olmuş.
doğulduğu kənd orta məktəbini (1980),
BDU-nun filologiya fakultəsini bitirmişdir (1991).
Görkəmli şair-aşıq Molla Cumanın qızı Reyhan xanımın nəvəsidir.
MEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı olmuş.
"Molla Cumanın yaradıcılığı" mövzusunda
dissertasiya müdafiə edərək filologiya üzrə
fəlsəfə doktoru adına layiq görülmüşdür.
"Molla Cumanın yaradıcılığı" kitabı çapdan çıxmış.
folklorşünaslığın aktual məsələlərinə,
aşıq şeirinin xüsusiyyətlərinə dair və s.elmi, publisist yazıları
BDU-nun "Dil və ədəbiyyat" məcmuəsində "Ərən",
"Rezonans", "Gülüstan", "Azərbaycan", "Dərbənd" və
başqa mətbuat orqanlarında çap olunmuşdur.
Tədqiqatçı, publisist bu gün də dövrü mətbuatda
ardıcıl çıxış edir.

Molla Cumanın Son Günləri

(İxtisarla)

... Molla Cuma nəslindən olmağımla hər zaman fəxr etmiş, qürur duymuşam. Ancaq bir şey ömrüm boyu məni narahat etmiş, kədərləndirmiş, sevincimin, fərəhimin üstünə kölgə salmışdır. Bu, Molla Cumanın və həyat yoldaşı Zöhrə xanımın faciəli ölümüdür. Uzun illər dövrü mətbuatda, nəşr edilmiş kitablarda Molla Cumanın ölümü barədə müxtəlif versiyalar səslənir ki, bunların da heç biri həqiqətə uyğun deyildir. Bu versiyaların birinə görə, güya Molla Cuma saz ilə gedirmiş ona deyirlər ki, getmə, səni öldürəcəklər, Molla Cuma isə, qorxmayın, mən aşıq babayam, mənə heç kim heç nə etməz deyib gedir və öldürülür. Başqa bir variantda isə Molla Cuma yoldaşları ilə gedərkən 11-ci Qızıl Ordunun əsgərləri onun sazını tüfəng bilib atəş açıb öldürürlər, – deyə qeyd edilir. Bir başqa varianta görə isə güya Molla Cumanın evinin həyətində qarışıqlıq salınır, Molla Cuma işə qarışır və bu zaman öldürülür. Digər bir variantda, Molla Cuma güya əsgərlərin qarşısında çalıb-oxuyur, əsgərlər onu buraxır, amma onların içərisində olan erməni əsgərləri onu arxadan güllələyirlər...

Uşaqlıq illərimdən hər zaman istəyirdim ki, bu söhbətləri dəqiqləşdirim, bir yəqinlik hasil edim. Bunun üçün də nənəmizə (Molla Cumanın qızı Reyhan) üz tutardıq. Hər şeydən həvəslə danışan, bütün suallarımıza hərtərəfli cavab verən, hər şeyi bilməyimizi istəyən nənəmiz nədənsə bu söhbətlərdən həmişə yayınar, cavab verməz, başqa mövzuya keçərdi. Mənim uşaq qəlbimdə hər zaman bir sual dolaşardı ki, niyə Molla Cuma başqaları kimi ailəsi ilə birlikdə düşmənlərdən qaçmamış, evini tərk etməmiş, dağlara çəkilməmişdir. Nənəmin sözü də bu olardı ki, böyüyərsiniz, bilərsiniz. Bəli, böyüdüm, oxudum, öyrəndim, araşdırdım və çox şeylərə yəqinlik gətirdim ki, nə üçün Molla Cuma öz evini tərk etməmiş, ailəsini, uşaqlarını kənddən çıxarmamış, düşmənin üzərinə mərdi-mərdanə getmişdir.

İlk öncə onu xatırladım ki, Molla Cumanın ömrünün son illəri faciəli keçmişdir. 1916-cı ildə yeganə oğlu Həsən vəba xəstəliyindən dünyasını dəyişmişdir. Oğlunun ölümü onun həyatının ən böyük zərbəsi olmuş, bundan sonra Molla Cuma əlinə saz götürüb heç bir məclis aparmamışdır.

Bu illərdə ölkədə vəziyyət olduqca ağır idi. Azərbaycanlılar ermənilər tərəfindən kütləvi qırğınlara məruz qalırdılar. Qarabağda, Zəngəzurda, Göyçədə, Şamaxıda, Qubada, Bakıda kütləvi qırğınlar baş verir, günahsız

insanlar qırılır, müsəlman əhali məhv edilirdi. Belə bir vəziyyətdə Molla Cuma kimi vətənini, millətini sevən bir insan bunlara biganə qala bilməzdi və qalmadı da. Bu zonada qırğınlar baş verməsin deyə Molla Cuma müstəsna xidmətlər göstərmiş, təbliğat aparmış, insanları ayıltmış, torpağını, vətənini qorumağa çağırmışdır. Şəki yeganə bölgə idi ki, ermənilər orada qırğın törədə bilməmiş, əksinə, bu zonada ermənilərin qırğın planı haqda məlumat əldə edilib, erməni başkəsənlərinin toplaşdığı Səbətli kəndi bir gecədə darmadağın edilmiş, ermənilər pərən-pərən salınmış və bu bölgə üçün təhlükə sovuşmuşdur. Bu döyüşlərdə əhalinin səfərbər olunması üçün Molla Cuma çox böyük xidmətlər göstərmiş, şəxsi nüfuzundan, əlaqələrindən istifadə edərək bölgə əhalisini mübarizəyə çağırmışdır. Bu döyüşlərdə ilk növbədə onun yaxınları, qohumları iştirak etmişlər. Onlardan bacısı oğlu İbrahimi, qayınlarını, şagirdləri-Aşıq Əhmədi, Aşıq İsmayılı misal göstərmək olar. Sonrakı dövrdə Azərbaycan Demokratik Respublikası qurulmasında da Molla Cuma xüsusi xidmətlər göstərmişdir. Onun təbliğatı-təşviqatı ilə bu bölgənin cavanları, ərləri Qafqaz İslam Ordusunun tərkibində döyüşlərdə iştirak etmişlər. Adlarını çəkdiyim şəxslər Qarabağ döyüşləri zamanı Əsgəran qalasının almasında da əsil igid şücaəti göstərmişlər.

Yuxarıda sizə xatırlatdığım kimi Molla Cumanın ölümü mənə nə qədər ağır təsir edirdisə, onun ölümü haqqında danışılan yanlış əhvalatlar ondan da ağır təsir edirdi. Bu yanlış əhvalatlar onun şərəfli ölümünə kölgə salır, kiçildirdi.

Tələbəlik illərimdə kəndə valideynlərimi görməyə gəldiyim zaman nənəmdən xahiş etdim ki, Molla Cumanın həyatının son günlərindən danışsın. Bunu çap elətdirmək istəyirəm ki, əslində hadisənin necə olduğunu qoy hamı bilsin.

Nənəmin dediklərindən...

Mənim 14 yaşım var idi. Həmin il (1920-ci il) yaz tez gəlmişdi. Həyətimizdəki tut yetişmişdi, anam tutdan bəhməz bişirir, mən də ona kömək edirdim. Atam evdə yazı-pozu işləri ilə məşğul idi. Birazdan o, bizə yaxınlaşdı və mənə dedi: "Qızım al bunlar məndən sənə yadigar qalsın." Əlində döş saatı, cib bıçağı və pul kisəsi var idi. Onları mənə verdi və evə qayıtdı. Təəccüb içində olan anam dedi : "A kişi, bu nə sözdür deyirsən, cavan qız uşağıdır, yadigar nə deməkdir?" Atam çevrilib diqqətlə bir mənə, sonra isə anama baxdı və dedi: "Sabah bu vaxt nə sən, nə də mən bu dünyada olmayacağıq." Anam sanki quruyub qalmışdı, mən isə əlimdəki hədiyyələrə baxır, atamın dediklərinin fərqinə varmırdım.

Səhər qapımızı atlılar döydülər, Azərbaycan dilində danışırdılar. Dedilər ki, təzə hökümət səni çaparxanaya danışıqlara çağırır. Atam ağ atına minib onlarla getdi. (Mən bu zaman nənəmdən soruşdum ki, babam gedərkən sazını götürmüşdümü? Nənəm: "Heç nə götürməmişdi", -dedi) Qonşumuz qara Məmmədin arvadı təşviş içində gəldi ki, ərim və oğullarım da Molla Cuma ilə getdilər. Bütün kənd təşviş içində idi. Qadınlar, uşaqlar Qara Məmmədin evinə toplaşmışdıq. Atamgil gedəndən təxminən yarım saat sonra güllə səsləri eşidildi. Bir azdan əskərlər biz olan evin həyətinə doluşmağa başladılar. Anam Zöhrə piləkənlərin üstündə durub qışqırdı: "Kafirlər, hara girirsiniz, burda arvad-uşaq var!" Anamın sözlərinə qulaq asmayan əskərlərdən biri əlində silah yuxarı doğru çıxmağa başladı. Anam əlindəki balta ilə əsgəri vurub piləkəndən yerə saldı. Bunu görən həyətdəki əsgər atəş açdı, anam elə qapının ağzındaca əlində balta ilə yıxılıb qaldı. Bunu görən digər əsgərlər də evi atəşə tutmağa başladılar. Evin içində olan qadınlardan biri pəncərəni açdı və biz pəncərədən evin arxasındakı bağa tullanıb üzü Baş Layısqı kəndi istiqamətində qaçmağa başladıq. (Baş Layısqı ilə Aşağı Layısqı arasındakı məsafə 12-15 km-dir) Biz gündüzlər gizlənir, gecələr qaçırdıq ki, düşmən əlinə keçməyək. İki gün sonra Baş Layısqıdan gələn qohumlarımız bizi meşədə tapdılar."

Nənəmin danışdıqları məni o qədər təsirləndirmişdi ki, nənəmin üzünə belə baxmırdım. Bu vaxt əlində çay ilə gələn anamın səsi sanki məni ayıltdı: "Ay bala, nənəni çox incitmə", – dedi və çayı bizim qarşımıza qoydu. Mən anamın, sonra isə nənəmin üzünə baxdım və nənəmin gözlərindən axan yaşlardan mənə aydın oldu ki, nə üçün nənəm həmişə bu söhbətlərdən qaçırmış.

Beləcə eyni gündə Vətən, torpaq uğrunda Molla Cuma, ar-namus uğrunda Zöhrə xanım şəhid oldular...

MÜBARİZ MƏSİMOĞLU

1962

Nəsibov Mübariz Məsim oğlu 1962-ci il oktyabrın 6-da Şəki rayonunun Baş Göynük kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini bitirmiş (1979), Bakıda 20 saylı Peşə məktəbində təhsilini davam etdirmiş (1979-1981), ordu sıralarında hərbi xidmətdə olmuş (1981-1983), BDU-nun filologiya fakultəsini bitirmişdir (1990). Bakı Maşınqayırma zavodunda fəhlə, tornaçı, tərbiyəçi, komsomol komitəsinin katibi (1983-1990), "Kommunist" qəzeti redaksiyasında korrektor, "Həqiqət" qəzeti redaksiyasında ədəbi işçi, məsul katib, "Millət" qəzeti redaksiyasında müxbir, "Yeni Azərbaycan" qəzeti redaksiyasında şöbə redaktoru, məsul katib, redaktor müavini, "İnsan hüquqları" qəzeti redaksiyasında şöbə müdiri, "Ocaq" qəzetinin baş redaktoru, "Milli hərəkat" qəzetinin baş redaktoru, "Yeni nəfəs" qəzetinin baş redaktoru işləmişdir(1991-2010). 2007-ci ildən hüquqşünas kimi müstəqil fəaliyyət göstərir.Bədii yaradıcılığa gənc yaşlarından başlamış, şeirləri "Gəncəlik", "Ulduz", "Azərbaycan" jurnallarında və digər respublika mətbuatında çap olunmuş. "Bağlı qapı" (1998), "Göy üzündə Tanrı birdir" (1999), "Bir alagöz söz üstə" (2000), "Tiranlar Tanrının kölgəsi deyil" (2003), "Bir ömür bayatısı" (2011), "Bilirəm, sənsən, bilirəm" (2016) şeirlər kitabının, "Professor Nizami Cəfərov" (2011), "Professor Elçin İsgəndərzadə olduğu və göründüyü kimi" (2016) elmi-publisist kitabların müəllifidir.

Ümidimin işığı

Ümidimin işığında yazdıqlarımın adı
Qanadsız quşlara hayımdır.
Ölülərin diri gözlərindən
Dirilərin ölü gözlərinə
Oxuduqlarımdı,oxumadıqlarımdı.

Ümid işığında yazdığım sözlər
Titrəyər qəlbimdə bir nanə kimi.
Ümid işığıma atar özünü
Ümid işığında yazdığım sözlər
Yanmaq qorxusuna biganə kimi.
Ümidim Kərimdir,
Tanrım kərimdir,
Üzü gündoğana söylədiklərim
Ümid işığında pərvanə yansa,
Bu soyuq üzlülər, ölü gözlülər,
Bir sözdən köz alıb yansa, oyansa
Üzü gündoğana söylədiklərim ümid yerimdi.
Ümidim Kərimdir,
Tanrım kərimdir.

Cığırlar

Yatır sinəsində neçə xatirə
Cığırlar salınıb çətindən çətin.
Uzanar hər yerə bilməz dağ, dərə
Cığırlar yaşayar mətindən,mətin.

Düzlərin döşünə atılmış oxdur,
Dağların belində gümüşü kəmər.
Cığırlar incidir, muzeyi yoxdur,
Yağışlar, küləklər tozunu silər.

Yaşasın salınan cığırlar gərək,
Cığırlar babamın, atamın izi.
Cığırlar ən mahir bələdçilər tək
Işıqlı yollara aparır bizi.

Bizi nəğməmizlə tanıyan dünya

Ömrümüz, günümüz gözə paylanır,
Sözün işığında çıxırıq üzə.
Ulular,uluslar sözdən boylanır,
Elə özümüz də dönürük sözə.

Etri xəbər verir gülün özündən.
Bulud yağış olub səpilir düzə.
Bulaqlar gözündən, ocaq gözündən
Quşlar nəğməsindən bəllidi bizə.

Xəbər yox,könlümüz düşüb nə hala.
Şərqisiz yolumuz çıxmır bir yana.
Hər gün başımıza yağan dərd, bəla,
İtən nəğməmizin ahıdı,ana.

Nəğməmiz, şərqimiz Tanrıdır bəlkə.
Bizə ölüm yoxdu, onu dunyanda.
Bizim başımıza nə bəla gəlsə,
Gəlir şərqimizi oxumayanda.

Tənhalıq

Əzabım artdı dəmbədəm,
Nə mən üzüldüm, nə sitəm.
Uzandı getdi dəqiqəm,
Əsrdən uzun an kimi.

Yaxın dost, yoldaş çəkildi.
Göz üstündən,qaş çəkildi.
Kipriyimdən yaş çəkildi.
Ömür əridən şam kimi.

Nə bəndə dərdimi qandı,
Nə tanrı halıma yandı,
Dörd yanım cindi,şeytandı,
Danışırlar adam kimi.

Oyun

Fələk bizi bəndə salır,
Ömür vayındı, toyundu.
Aldadır qoynuna alır,
Dünyada nə var oyundu.

Piyada,atlı itirir,
Budur, oyunun qaydası.
Birinin bəxti gətirir,
Mininə dəymir faydası.

Qazılıb quyular hazır,
Gözləyir bizi məzar tək.
Oyuna girən uduzur,
Olmaz oyuna girməmək.

Kımı qanlı qafasıyla,
Kimi qafasız oynayır.
Kimisi öz havasıyla
Kimi havasız oynayır.

Oynayır, hamı oynayır,
Ya çox, ya da az oynayır.
Gədası, xanı oynayır,
Ya pis,ya da saz oynayır.

Nə əvvəldi, nə də axır,
Biri itir,mini bitir.
Yıxılan sıradan çıxır,
Qalanları yallı gedir.

Nə ağılsız, nə dərk edən,
Nə canavar, qoyun qalır.
Bizik dünyanı tərk edən,
Biz oynayan oyun qalır.

ELÇİN ABDULLAYEV

1962

Elçin Soltan oğlu Abdullayev 1962-ci ildə Şəki şəhərində ziyalı ailəsində anadan olmuş. 1979-cu ildə Şəkidəki 10 nömrəli orta məktəbi, 1985-ci ildə isə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir."Azərelektrotərm" İstehsalat Birliyində sahə rəisi, Şəki Ekskursiya və Səyahətlər bürosunda təşkilatçı, metodist, baş metodist və direktor vəzifələrində çalışmış.
1997- ci ildən fərdi sahibkarlıq kommersiya fəaliyyəti ilə məşğul olur.Hazırda " SOLİTON" mağazalar şəbəkəsinin Şəki mağazasının müdüridir .
Tələbəlik illərindən bədii yaradıcılığa meyl etmiş, şeirləri yerli mətbuat səhifələrində dərc edilmiş və oxucular tərəfindən rəğbətlə qarşılanmış. 2015- ci ildə "Üşüdü qəlbimiz" adlı ilk şerlər kitabı çap olunmuşdur.

Marş

Şəhid Orxan Hümmətovu
Kiş dağlarında torpağa tapşırarkən

Əsgərmi doğuldun, dağmı doğuldun?
Bu gündən dağların sırasındasan.
Can qurban eyledin Vətən uğrunda
İndi də dağ kimi arxasındasan.

Bu namus, bu qeyrət, mərdlik mayası,
O şanlı ananın beşiyindədir
Qafqazdan bir igid ruhu boylanır
Ana Qarabağın keşiyindədir.

Biz güclü dövlətik, güclü orduyuq,
Ordumuz düşməndən bac alacaqdır.
Lələ təpəyə sancılan bayraq,
Tezliklə Şuşada ucalacaqdır.

Bu namus, bu qeyrət, mərdlik mayası,
O şanlı ananın beşiyindədir
Qafqazdan bir igid ruhu boylanır.
Ana Qarabağın keşiyindədir.

Qocalmış atları güllələyirlər

Keçsə də cıdırda, döyüşdə ömrü,
Qocalıq haqladı günün bir günü.
Heç yana çatmadı yetmədi ünü,
Gördü ki, yaxasın silkələyirlər,
Qocalmış atları güllələyirlər.

Qantarğası sazdı, dişi yoxsa da,
Əvvəlki qüvvəsi, işi yoxsa da,
İlxıda özü tək kişi yoxsa da,
Madyanlar başını şilləyirlər,
Qocalmış atları güllələyirlər.

Yalmanı dağılır, rəngi bürüşür,
Ayağı yer tutmur, nalı sürüşür,
Üzəngi sallanır, yəhəri düşür,
Yüyənini dartıb gürmələyirlər,
Qocalmış atları güllələyirlər.

Şirin xatirəsi, söhbəti çoxdur,
Üzünün danlağı, töhməti çoxdur,
Köhnə xalı qədər,qiyməti yoxdur,
Cırıx palazı da hilmələyirlər,
Qocalmış atları güllələyirlər

Sonu qış olsa da axirət vardır,
Orda fəsillərin hamsı bahardı,
Hələki çoxunun şalvarı dardı,
Çaya çatmamışdan çirmələyirlər,
Qocalmış atları güllələyirlər.

Qəribə dünya

Əzəldən qəribə xəlq olub dünya
Sərvəti, dövləti tükənməyir heç.
İstəyir düz bölə nazu-neyməti
Əyri yollarından dönənməyir heç.

Günəşin nuruna demə, sönükdür,
Kimində əsadı, kimndə külüngdü,
Zaman ələyinin gözü böyükdü,
Unu kəpəyindən seçəmməyir heç.

Elçin, bu təndirin odu çox oldu,
Kimi yaxşı bişdi, kimisi yandı,
Kimi də künt gedib əslini dandı,
Xəmiri, mayası bilinməyir heç.

Atalar

Evlad Allah payı, oğul da, qız da,
Həyat ağacında can meyvəsidir.
Oğul ocaq daşı, qız köz atəşi,
Evladı qəlbiylə bəslər atalar,
Qızı hamıdan çox istər atalar.

Körpə ağlar, tapar öz anasını,
Necə sevmiyək biz göz qarasını,
Ana əvəzinə qız balasını,
Canı ağrıyanda səslər,atalar
Qızı hamıdan çox istər atalar.

Evin dadı, duzu,abırı-həyası,
Dini bərəkəti, ruzi-mayası,
Gəlin köçəndə gəlin səyasın,
Qudanın sözündən izlər atalar,
Qızı hamıdan çox istər atalar.

Oğlu, gəlini də olsa yanında,
Daim nayranlıq var ata canında,
Fikri qızıgildə, hər bir anında
Gözü qapıda, gözlər atalar,
Qızı hamıdan çox istər atalar.

Atalar qocalıb yaşa dolanda,
Nənələr nəvədən söhbət salanda,
Bizim qız balalar xoşbəxt olanda,
Ondada, fərəhin gizlər atalar,
Qızı hamıdan çox istər atalar.

Elçin, sözlərində yalan ha yoxdur,
Arzular tükənməz, arzular çoxdur,
Güldü üzümüzə Allah da baxdı,
Bizi xoş günlərə səslər atalar,
Qızı hamıdan çox istər atalar.



OKTAY AĞƏMMƏDOV

1962

Ağəmmədov Oktay Məsmalı oğlu 1962-ci il noyabrın 16-da Şəki rayonunun Kiş kəndində anadan olub, doğulduğu kənd orta məktəbini 1989-cu ildə bitirib. Gənclik illərindən ədəbiyyata ürəkdən bağlanmış, özü də şeirlər yazmışdır. Şeirləri yerli və mərkəzi mətbuat vasitələrində dərc olunub.

Vətən həsrəti

Salam söylə Azərbaycan elimə
Qışda gəlsən, vətənimdən buz gətir.
Vurulmuşam çiçəyinə, gülünə,
Yazda gəlsən, yasəməni üz, gətir.

Kim istər ki, ayrı düşsün elindən,
Bir bülbültək ayrılmışam gülümdən.
Şair ruhlu öz xalqımın dilindən,
Şirin söhbət eşit, şirin söz gətir.

Bir gül olub öz yurdumda açılım,
Ətirlənim, el-obama saçılım.
Yada düşdü gözəl Şəkim, Laçınım,
Sinəm dolu bayatıdır, saz gətir.

Şəhidlər xiyabanında

Şəhidlər uyuyur, yatır yan-yana,
O müqəddəs yerə bir səhər getdim.
Müqəddəs məkanı hər şey bir yana
Ağlaya-ağlaya ziyarət etdim.

Ayaqlarım əsdi, qəlbim dözmədi,
Diz çökdüm bir gəncin qəbri başında.
"Vətəndən doymadı, yardan bezmədi",
Belə yazılmışdı qəbir daşında.

Qəfildən qarşımda dayandı bir gənc,
Əyildi, ovcuna o, torpaq aldı.
- Mənim hər şeyimdi bu Vətən,- dedi,
Gözlərim ağladı, qəlb heyran qaldı.

Əl verdim, əlini mən öpmək üçün,
Əlim boşa çıxdı, o, əl vermədi.
Ovcunda Vətən torpağı olduğu üçün,
Torpağı düşündü, əli gəlmədi.

Bəlkə də qorxdu ki, keçər yad ələ,
Bu doğma Vətənin əziz torpağı.
Dedi hər şeyimdən əzizdir mənə,
Qarabağ torpağı, Vətən torpağı.

Qardaş

Anam arxa doğdu mənimçün səni,
Düşməni qorxudan sözümsən, qardaş.
Qovum başın üstdən dumanı, çəni,
Sən mənim ocağım, közümsən, qardaş.

Dilimin əzbəri, iftixarımsan,
Qolum-qanadımsan, qarlı dağımsan.
Bir gün görünməsəm, axtaranımsan,
Sən nurdan yoğrulmuş gözümsən, qardaş.

Bir ana südüylə atdıq qol-qanad,
Oğluma əmisən, anama övlad.
Bizə yaxın gəlməz hər düşmən, hər yad.
Bükülməyən belim, dizimsən, qardaş,
Düşməni qorxudan sözümsən, qardaş.

Dünyada

Nə taqətim qaldı, nə də dözümüm,
Bir gün yaşamadım qəmsiz dünyada.
Yolun gözləməkdən, ey yar, gözümün
Nuru da getmşdir sənsiz dünyada.

Dizlərim bükülər, qəddim əyilər.
A zalım, mən səni görməsəm əgər,
İnan ki, dağlar da çökər, əriyər.
Qalarsa dumansız, çənsiz dünyada.

Eşqindən bəlalar çəkibdir başım,
Dərdimdir ömürlük dostum, yoldaşım.
O zaman dayanar axmaz göz yaşım,
Bilsəm ki, xoşbəxtsən mənsiz dünyada.

NOVRUZ BƏKİROV

1963

Bəkirov Novruz Kamal oğlu 1963-cü il martın 21-də Şəki rayonunun Baş Layıqı kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini 1980-cı ildə bitirmiş, Moskvada Ali Hərbi İnşaat Mühəndisləri Məktəbində (1982-1985) və Simferopol Ali Hərbi Siyasi Məktəbində (1988-1992) ali hərbi təhsil almışdır. Keçmiş SSRİ Silahlı Qüvvələrində (1985-1993) və Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi müxtəlif vəzifələrdə xidmət etmiş, polkovnik-leytenant rütbəsində ehtiyata buraxılmışdır.
Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müəllim kimi fəaliyyət göstərir.
"Dahi sərkərdələr... dahi şəxsiyyətlər" (2001).
"Politologiya və beynəlxalq münasibətlər" (2010-2014)
"Molla Cuma və Konstantin Muradxanaşvili sənət dostluğu" (2017) kitablarının,
bir neçə dərslik və metodiki vasitələrin, həmçinin onlarla elmi, bədii-publisist məqalə və toplunun müəllifidir.
Novruz Bəkirov şeir yazmağa gənclik illərindən başlasa da, onları çap etdirməmiş, şəxsi arxivində toplayıb saxlamışdır.

Güllə səsi

Hər yerdə - hər yanda
bapbalaca dünyamızda
səhər-axşam,
gecə gündüz
gah xəlvəti,
gah üzbəüz
doğulur atəş səsi, güllə səsi, qəlpə səsi.

Çiçəklərin canında,
ərənlərin qanında
dünyanın hər başında,
ana bacıların,
qız-gəlinlərin göz yaşında
boğulur atəş səsi, güllə səsi, qəlpə səsi.

Sinə dağlayan çox,
Fəryad qoparan,
ağlayan çox,
ki fayda,
görən yox,
eşidən yox!
Dərə xəlvət, güllələr səy.
Atəş səsləri zəvzəy.

Dərədən, düzdən, dağdan gəlir.
Bar verib, bar gətirən bağdan gəlir,
Həris niyyətlərə
qucaq açılan çağdan gəlir
Atəş səsi, güllə səsi, qəlpə səsi.

Artır günü-gündən
qoca dünyanın qəmi.
Kimsə tapmır, kimsə bilmir
hardadır sevincin, fərəhin
sorağı, səmti, səmi.
Yağış kimi yağmada
dünyaya atəş səsi, güllə səsi, qəlpə səsi.

Ey ulu Türk,
Sevgiylə, sevinclə bələnib bələyin,
Cahanda azadlıq,
millətlərə hürriyyətdir diləyin.
Qalx ayağa,
kəsilsin hər yandan
atəş səsi, güllə səsi, qəlpə səsi.
Evləri doldursun körpə qığıltısı,
alsın dünyanı başına
qoy bürüsün ərzi
körpə mışıltısı, körpə səsi.

Ömür

Ömür dediyin,
yaşıl çəmən.
Sinəsinə çiçək
taxıb gedir.

Ömür dediyin,
dağ çayı.
Qayalardan enib düzə,
axıb gedir

Ömür dediyin,
sevincə pəncərə,
qəmə pəncərə.
Hərə öz şəklinə
baxıb gedir.
Niskil dumanına
sıxıb gözünü
Yağış kimi, qar kimi
Öz içinə
yağıb gedir.

Sevgi bir şam kimi

Dolaşdım dünyanı, gəzdim dünyanı.
Adladım tufanı, aşdım dumanı,
Dördəlli yapışdım, keçdim gümanı,
Həsrəti qəlbimdən atana kimi.

Sevinci qəhərdən seçmək çətinmiş,
Vüsal badəsini içmək çətinmiş,
İllərin üstündən keçmək çətinmiş,
Əllərim əlinə çatana kimi.

Sənsiz qəm udardım, qəhər dərərdim,
Dərdiyim qəhəri, günə sərərdim.
Hicranla özümü çəpərləyərdim.
Həsrətin tufanı yatana kimi.

Nə var ki dünyada sevgidən əzəl,
Sevilmək də gözəl, sevmək də gözəl.
Sevgisiz bir ömür, bir quru xəzəl,
Təkliyin daşını atana kimi.

Yağışda, boranda, qarda, küləkdə
Sevgi bir şam kimi yanar ürəkdə.
Sevgisiz ömürdən küsər ürək də,
Həsrəti vüsala qatana kimi.

QİYMƏT MƏHƏRRƏMLİ

1963

Məhərrəmli Qiymət Məmmədiyə qızı 1963-cü ildə Şəki rayonunun Vərəzət kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini, Bakı Məktəbəqədər Pedaqoji Texnikumunu (fərqlənmə diplomu ilə), Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib.2001-2014-cü illər ərzində AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda çalışıb. 2007-ci ildə "Şahin Fazil "Divan"ı və klassik ədəbi ənənələr" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb."Maarifçi" qəzetində şöbə müdiri, baş redaktor vəzifələrində çalışıb (1998-2001). Müxtəlif illərdə "Xəmsə", "Qafqaz" jurnallarının, "Ərən", "Planet-press", "Ana Vətən çağırır" qəzetlərinin redaktoru olub. 2008-ci ildən "Elimiz, Günümüz" adlı elmi-ədəbi, mədəni-kütləvi publisistik qəzetin təsisçisi və baş redaktorudur.Elmi, publisistik məqalələri, şeirləri müxtəlif xarici ölkə mətbu orqanlarında və yerli dərgi və qəzetlərdə müntəzəm olaraq dərc olunur. 1998-ci ildən Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvüdür. Azərbaycan dilində 7 şeir kitabı:

"Ürəyimdən nələr keçir" (Bakı, 1996) ,
"Qərib durna" (Sankt-Peterburq, 1999),
"Ana, səndən doymadım" (Bakı, 2001),
"İşığa sarı" (Bakı, 2004), "Hardasan, göy adamı" (Bakı, 2008),
"Mənim ünvanımı ürəyinə yaz" (Bakı, 2013),
rus dilində "Slova mayo" (Tiflis, 2013) və İranda fars əlifbası ilə
şeir, "Dərviş" (Bakı, 2016) adlı publisistik kitabları,
eyni zamanda «Şahin Fazil "Divan"ı və klassik ədəbi ənənələr"
(Bakı, 2007) adlı elmi monoqrafiyası nəşr edilmişdir.
Hazırda AMEA Folklor İnstitutu «Cənubi Azərbaycan folkloru"
şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktorudur.

Vətən

Bax, anam – bu, bacım – bu, –
Özününküyəm, VƏTƏN!
Çəkib gözünə – oxu, –
Gözününküyəm, VƏTƏN!

Elin aşığıyam mən,
Əli aşağıyam mən.
Ana uşağıyam mən, –
Özün ol yiyəm, VƏTƏN!

Gecə üzümə gün doğur,
Gecələr şair oluram.
Bu dünyadan oğurlanıb,
Allaha dair oluram.

Tanrım, məni qəbul eylə,
Qapına elçi düşmüşəm.
Eni-uzunu bir qarış –
Ömrümə ölçü düşmüşəm.

Yaşanan ömür-gün deyil,
dərddi-ələmdi, qardaşım.
Əzabları yarılayan
dəftər-qələmdi, qardaşım.

Yaxşı ki, əvvəlin sonu,
sondan o yana qapı var.
Yaxşı və pis əməllərin
dəlil-sübutu, çapı var...

...Bu yolda işıq görünür,
Dur gedək, qalmayaq geri.
Mən gündüzlər söz yığıram,
Yol ölçürəm gecələri...

Çiçəklərin... güllərin

Kim deyir ayrılıq alın yazısı, –
Sarı çiçəklərin, sarı güllərin?!
Mənsə sevincimi bu cür bölərdim:
Yarı çiçəklərin, yarı güllərin.

Yaz ömrü qısalar vursa qar-ayaz,
Olar ləçəkləri bəyazdan-bəyaz.
Dərməmiş telinə sığal çək biraz
Barı çiçəklərin, barı güllərin.

Onlar xoşbəxtliyə körpü salanlar,
Onlar dilək verib ürək alanlar.
Ətrindən gör necə bal çəkib şanlar
Arı çiçəklərin, arı güllərin!

Qıymayın ləçəyi vaxtsız tökülə,
Həsrətdən şeh düşə, boynu bükülə.
Varmı bənzəyişi "Xarı bülbül"ə
Xarı çiçəklərin, xarı güllərin?!

Təravət paylayıb çiçəklər misal,
Ümidə, arzuya yol aç, körpü sal.
Qoy olsun dünyada səadət, vüsal
Yarı çiçəklərin, yarı güllərin!

Gözələ baxar

(təcnis)

Baxmaqla doymaz ki, göz gözəllikdən,
Gözəl göz hey dönüb gözələ baxar.
Göz bəzən aldadar, bəzən aldanar,
Tamaha meyl edən gözələ baxar.

Gözlər tilsimlənər gözəl görəndə,
Gözə xoş görünər gözəl görəndə.
Ayda bir, ildə bir gözəl görəndə
Çirkinə göz yumar, gözələ baxar.

Görünsə gözünə o gözəl indi,
Cümlə ixtiyarın o gözəl indi.
Mehrinə möhtacdı o göz, əlindi,
Qoxlasan neyləyər göz, ələ bəxar?!

Qəzəl

Yarəbb, sözümün mabədi, məğzi sənə bağlı,
Məlumdu ki, cismim tamam ol zərrənə bağlı.

Gəlməzdi cahan mülkünə insan yaranışdan,
İmzanla yaranmış yaranan – ruh tənə bağlı.

Ay Yerdən uzaqda Günəşi əks edə bilmiş,
Əksin dolaşır yerdə və göydə – günə bağlı.

Dilsiz baxışım dindi – itaətdədi könlüm,
Əllər uzanıb şövqilə, gözlər yenə bağlı.

Açmaqda ikən gözləri qüdrətli bir əltək,
Verdin Quranı islama, şəksiz dinə bağlı.

Qiymətli o şeydir ki, qələm vəsfinə aciz,
İdrakı ram etmiş neçə sirr – sirrinə bağlı.

CAVANŞİR FEYZİYEV

1963

Cavanşir Əyyub oğlu Feyziyev 1963-cü ildə Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş, orta təhsilini Şəki rayonunda başa vurmuş (1980). Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun tərcümə fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir (1991).Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun tərcümə kafedrasında müəllim işləmiş (1991-1994), müxtəlif beynəlxalq təşkilatlrda çalışmış (1994-1998). "Planet Co Ltd" şirkətinin təsisçisi və direktoru olmuş (1998-2002). "Avromed" şirkətinin baş direktorudur (2002-ci ilin oktyabr ayından). İki çağırış Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir. 2009-cu ildə "Etno-siyasi münaqişələrin mənəvi aspektləri" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə doktoru alimlik dərəcəsi almışdır."Qafqazda etno-siyasi münaqişələr və onların dövlət müstəqilliyinə təsiri" (ingilis dilində, 2002). "Sülh fəlsəfəsi" (Azərbaycan dilində, 2008). "Türk dövlətləri birliyi qlobal inteqrasiyasının Avrasiya modeli" (2013) kitabları çap olunmuş. Jorjdə Malevilin "1915-ci il erməni faciəsi" əsərini fransız dilindən Azərbaycan dilinə tərcümə etmiş (2015). əsərləri bir çox dillərə tərcümə olunmuş. 30-dan çox elmi məqaləsi Azərbaycan və Rusiyanın müxtəlif elmi nəşrlərində.

eyni zamanda dövri mətbuatda 100-dən çox tarixi, ictimai və siyasi publisist məqalələri dərc olunmuş.
"Qızıl qələm" mükafatı laureatıdır.
Millət vəkili Cavanşir Feyziyevin mənəvi və maddi dəstəyi ilə xalq şairi Bəxtiyar Vahabzadənin 12 cildlik külliyatı, professorlar Fərman İsmayılovun 6 cildliyi, Firədun İbrahimovun bir neçə kitabı,həmçinin onlarla alim,şair və yazıçıların kitabları çap olunmuşdur.
Alim, şair və yazıçıların hamisi olan
Cavanşir Feyziyev özü də hərdən bədii sözə üz tutur, könül duyğularını lirik sətirlərə köçürür.

Müəllimimə

Eyvaz müəllim, şagirdindən salamlar,
Adınıza hörmətim var, sayğım var.
Yazırsan ki, dərdin-sərin, qəmin var,
İnanmazdım, belə igid qocalar.
Zora düşüb, çətindədir, dardadır,
Axtarıram, müəllimim hardadır!

Xəyalımda vüqarlı bir xocasan,
Boy-buxunda sən hamıdan ucasan,
Daxilində çox zərifsən, yuxasan,
İstəyirdin insanları qucasan,
Fani dünya, səni niyə ağladır?
Axtarıram, müəllimim hardadır?!

Gileylisən bu dünyanın işindən,
Narazısan günündən-gərdişindən,
Müəllimsən, asılıdır işindən
Şagirdlərin gələcəyi, həyatı,
Müəllimdən varlı adam hardadır?
Qoymaram ki, müəllimim dardadır!

Yazırsan ki, çoxalıbdır yeyənin,
Qoy çox olsun, «Eyvaz baba " deyənin,

Tanrı versin hər istəyin, diləyin,
Möhkəm olsun canın, qolun-biləyin,
Əsl sağlıq ürəkdədir, candadır,
Axtarıram, müəllimim hardadır?!

Bu dünyanın düzəni var, düzü var,
Cavanşirin ürəyində sözü var!
Sərvət də var, şöhrət də var, ad da var,
Qazanmağa məktəb olub səbəbkar,
Eyvaz müəllim, sənin payın ordadır.
Qoymaram ki, müəllimim dardadır!

Müəllimlər, hamınız var olasız,
Yüz yaşına yetişəsiz, qalasız,
Sizsiz bizə həyat olar havasız,
Boynumuzda vardır haqqı-sayınız,
Harada olsaz, ürəyimiz ordadır,
Axtarıram, müəllimim hardadır?!

AĞALAR BƏŞİROV

1963

1963-cü ildə Şəkinin Bolludərə kəndində anadan olub.
Azərbaycan Kənd Təsərrüfatı İnsitutunun "İqtisadiyyat" fakültəsini bitirib. Kənd təsərrüfatı sahəsində müxtəlif rəhbər vəzifələrdə çalışıb.
Hal-hazırda Turan bələdiyyəsində baş mühasib vəzifəsində çalışır.
Bədii yaradıcılığa orta məktəb illərindən başlayıb.
Yazıları respublika mətbuatında – "Azərbaycan harayı" jurnalında, "Şəki təhsili", "Şəki" qəzetlərində müxtəlif illərdə çap edilib.
"Azərbaycan harayı" jurnalının Şəki-Zaqatala bölgəsi üzrə müxbiridir.

Bu yağış o yağış deyil

Yağış göyün yerə haqqı,
Seçən yoxdur haqq-nahaqı.
And içirəm, Allah haqqı,
Bu yağış mənə tanışdır.
(Ramiz Orsər)

And içmə gəl, Ramiz Orsər
Bu yağış o yağış deyil.
Dünya özü bir dərdi-sər
Bu yağış o yağış deyil.

Buludları axın-axın,
Ayaq getmir, gedim yaxın.
İstəyirsiz çıxın baxın,
Bu yağış o yağış deyil.

Yağış yağır, yağır aram
Bu yağışla mən də varam.
Üstələyib haqqı haram,
Bu yağış o yağış deyil.

Dərdim ucuz, bazar baha,
Ümid qalmayıb sabaha.
Əlac qalıb tək Allaha,
Bu yağış o yağış deyil.

Gah gurladı, yavaşıdı
Özü boyda qəm daşıdı
Görən, kimin göz yaşıdı
Bu yağış o yağış deyil.

Olaydı.....

Deyirəm ki, ay Qələndər,
Kaş Kəlbəcər var olaydı.
Qalxaydıq lap Dəli dağa,
Zirvəsində qar olaydı.

Bir-birini atanlarda,
Ara vurub qatanlarda,
O torpağı satanlarda,
Namus, qeyrət, ar olaydı.

Dağlar oğlu, qalx ayağa
Sığınma hər yetən dağa.
Vətən deyib sığınmağa,
Keşdək, Zəylik, Zar olaydı.

Tanrı özü çatsın dada,
Kəlbəcər qalmasın yada.
O məclislərdə tamada
Kirvə Ağalar olaydı.

Şəki

Tarixin uludur, şanlıdır sənin,
Dilbər guşəsisən doğma Vətənin,
Xan sarayı kimi bir abidənin,
Bənzəri heç yoxdur dünyada, Şəki.

Fətəli yurdusan, qədimdən qədim,
Vətən sevgisidir eşqim, xilqətim.
Səndən gözəl, başqa məkan görmədim,
Nə aşkarda, nə röyada, Şəki.

Qoca Qafqazın da çox sevir səni,
Sənincün yaradıb uca zirvəni,
Şirindil əhalin salmış məskəni,
Verməyib torpağı bir yada, Şəki.

O Marxal yaylağı, Daşüzün çölü,
Min dərdə dərmandır çiçəyi-gülü,
Sarıca düzünün sarı sünbülü,
Boldu bərəkətin burada, Şəki.

Şəki halvasının da yoxdur bənzəri,
Şirin lətifələrin dillər əzbəri.
Qoy deyim ən gözəl, ülvi sözləri,
Layiqsən hörmətə, bu ada, Şəki.

Nəyi gözəldir ki bu zəmanənin

(bir alkaşın dilindən)

Vəzifə atını tez çapır minən,
Nə yəhər tanıyır, nə də ki yüyən.
Heç doydum deməyir hər basıb yeyən,
Nəyi gözəldir ki bu zəmanənin.

Düz çəkən mizanı, görən, kim əydi,
Bu millət şikəstdir, yoxsa ki səydir.
Vallah dərə xəlvət, tülkü də bəydir,
Nəyi gözəldir ki bu zəmanənin.

Ağalar, arxanda varmı bir hayan,
Axır sözü əvvəl demə, bir dayan.
Ağsaqqal sözünü varmı bir sayan,
Nəyi gözəldir ki bu zəmanənin.

Bir gecə

Bir gecə...
Qapımı döyüb gizlicə
Sən öz günahını
yumağa gəldin.
O soyuq, o zülmət, qaranlıq gecə
Nə rahatlıq tapdım, nə də dincəldim.

Dinmədik, danışdı qəlbimiz bizim,
Baxışın deyirdi hər şeyi mənə.
Daha ayrılıbdı yolumuz bizim,
Sən zülm etmisən səni sevənə.

Bilirdim sən neyçün gəlmişdin onda,
Qəlbin necə soyuq, necə incikdi.
Sənin hisslərin də, duyğuların da,
Elə sevgin kimi bir gecəlikdi.

Necə gəlmişdinsə elə də getdin,
Duymadın qəlbimdə olan hissləri.
Nə mən kam aldım, nə sən kama yetdin,
Apardın özünlə ölən hissləri.



İSMAYIL VALEHOĞLU

1963

Bayramov İsmayıl Valeh oğlu 1963-cü ildə
Şəki rayonunun Kiş kəndində anadan olmuş,
doğulduğu kənd orta məktəbini bitirdikdən sonra
Rusiyaya getmiş, Kaluqa Kooperativ Texnikumda təhsil almışdır.Bir
müddət Şəki Telekommunikasiya Qovşağında elektrik montyoru kimi
çalışıb, sonra müxtəlif təşkilatlarda
fəhlə işləyib. İsmayıl Bayramov ədəbi yaradıcılığa erkən yaşlarından
başlayıb. O, şeirlərini İsmayıl Valehoğlu imzasıyla yazır.
Sevgi şeirləri onun yaradıcılığında üstünlük təşkil edir.
Şeirləri yerli və mərkəzi dövrü mətbuatda,
almanax və toplularda çap edilib.

Yıxmaq üçünmü?

Məni inandırdın hər bir sözünə,
Çevrilib baxmırsan indi üzümə.
Bəs niyə öyrətdin məni özünə,
Oəlbimi yandırıb yaxmaq üçünmü?

Məni ovsunlayıb tilsimə saldın,
Keçib gözlərimdən, qəlbimə doldun.
Sevən ürəyimin hakimi oldun,
Hər gün ürəyimi sıxmaq üçünmü?

Demə istəyirsən, sevirsən məni,
İncidib üzürsən sevən qəlbimi.
Niyə artırırsan dərdi-qəmimi,
Təmiz əldən salıb yıxmaq üçünmü?

Salıb

Məni bir nazlı gözəl ovsunlayıb bəndə salıb.
Çalışıb fürsət edib çıxılmaz bir fəndə salıb.

Elə bil ovçu odur, mən isə ceyran balası
Mən onu ovlayası, o məni kəməndə salıb.

O gülün zərrə qədər insafı yox, mürvəti yox
Qəlbimdə qüssə-kədər, saçlarıma dən də salıb.

İsmayıl, yanmağına neyləsin o göydə fələk?
Səni eşqin oduna yerdəki bu bəndə salıb.

Ola

Düşmüşəm eşq oduna bir neçə müddətdi ola,
Yanıram, odlanıram, qorxuram şiddətli ola.

Düşərəm bəlasına bu sevginin, çıxammaram
Aldanıb gül üzünə, gözüm xəcalətli ola.

Qəlbimi üzə-üzə dərdlərimi artırır o,
Dedim insafa gələ, bəlkə ədalətli ola.

Könlümü versəm əgər başqa gözəlin birinə
Qorxuram, o birisi bir az da dəhşətli ola.

İsmayıl, meylini gəl salma ötən hər gözələ
Başın bəlaya düşər, daim fəlakətli olar.

Məmmədəli dayımız

Vətəni, kəndi Kişdi,
Əzəldən zəhmətkeşdi,
Bir ağsaqqal kişidi
Məmmədəli dayımız.

Var namusu, qeyrəti,
Xoş arzusu, niyyəti,
Qazanıbdır hörməti,
Məmmədəli dayımız.

Çatar köməyə, dada,
Əl tutar dosta, yada.
Haram yeməz dünyada,
Məmmədəli dayımız.

Düşsə çətinə, dara,
Tapar özünə çara,
Baş əyməz nadanlara
Məmmədəli dayımız.

Heç kim fani dünyada,
Qalmayır bir qaydada,
Olub ağsaqqal baba,
Məmmədəli dayımız.

Ayları verib ilə,
Allahın izni ilə,
Qocalır gülə-gülə,
Məmmədəli dayımız.

KİFAYƏT RƏSULQIZI

1963

İsmayılova Kifayət Rəsul qızı 1963-cü il noyabrın 10-da Şəki rayonunun Abbas kəndində anadan olmuş. Aşağı Göynük kənd orta məktəbini (1981), Bakı Mədəni-Maarif Texnikumunu (1985), Azərbaycan Dövlət Universitetinin tarix fakultəsini bitirmişdir(1993). Gənc yaşlarından bədii yaradıcılıqla da məşğul olur. "Ömürdən bir yarpaq", "Kövrək məqamlar", "İnanıram" şeirlər toplusu və "Yasəmən ətri" povesti çap olunmuşdur.Dövrü mətbuatda şeirləri müntəzəm çap olunur.Kifayət Rəsulqızı hazırda Bakı şəhərində yaşayır və işləyir.

Bax mənə

Ay işıqlı gecə,
Dayanaq göz-gözə.
Ehtiyac qalmasın
Aramızda bir sözə.

Dayanaq ikimiz,
Dilə gəlsin sevgimiz,
Şahid olsun bizə,
Yenə də mavi dəniz.

Elə şirin-şirin,
Elə gülə-gülə
Bax mənə,
Sevinc axsın
Gözlərindən qəlbimə.

Toy çalınır

Toy çalınır, düşür cana
Qara zurna havası.
Ruh oynadır tar, kaman
Könül açır sədası.

Toy çalınır...
Bir gözəlin gözündən nur saçılır.
Bir oğlanın, ya bir qızın
Bəxti gülür, açılır.

Ey çalğıçı, dəyiş hərdən
O çaldığın muğamı.
Çal, qocanı, çal cavanı
Oynatdığı havanı.

Bu dünya

Yuyunub baharın yağışlarında,
Günəşin nurudu, nurudu dünya.
Oyanıb təbiət, açıb çiçəklər,
Gəlinlik donunu geyib bu dünya.

Çəhrayı donunda ərik, şaftalı,
Ağappaq geyinib alça,albalı.
Ayaqlar altına döşənib xalı,
Çiçək yağışına dönüb bu dünya.

Baharın eşqilə gəlib həvəsə,
Nazlanır yenə də nərgiz, bənövşə.
Bütün gözəlliklər giribdi bəhsə,
Ahıl çağında da gəncdi bu dünya.

GÜLAFƏT BAYRAMOVA

1964

Bayramova Gülafət Bahəddin qızı 1964-cü il martın 11-də Şəki şəhərində anadan olmuşdur.
Orta təhsilini Şəkidə almış, Azərbaycan Politexnik İnstitutunu (1983) və Azərbaycan Müəllimlər İnstitutunu bitirmişdir (1989).
Gəncə Dövlət Kukla Teatrında pedaqoq-təşkilatçı (2000-2002), "İnsan və zaman" qəzetində məsul katib (2002-2005) işləmiş, 2002-ci ildən bu günədək Gəncə şəhər 28 saylı orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir.
Yaradıcılığa tələbəlik illərindən başlayıb.
Dövrü mətbuatda 2000-ci ildən çıxış edir.
"Ölümün acığına", "Qəlbə daş bağlayanda", "Tut ağacı", "Lal şahid", "Anamın hörükləri" və "Karabağname" (Türkiyədə) roman, povest və hekayələr kitabları çap olunub.
Gülafət xanımın yaradıcılığının ana xəttini vətənpərvərlik, milli birlik, türkçülük və Qarabağ mövzusu təşkil edir.
Yazıçı – publisist Gülafət Bayramova 2010-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2017-ci ildən Prezident təqaüdçüsüdür.

Torpağın Duası

(hekayə)

Torpaq, sinəsi şumlandıqca ciyərdolusu nəfəs alıb dirçəlirdi. Boz sifətini göstərən payız insanların əlini işdən soyuda bilmirdi. Səpilən toxumluq buğdalar torpağın ruhunu oxşayırdı. Sinəsində məskunlaşmış yerli buğda dənlərini sevgiylə bağrına basdı. Bu sevgi payını toxumlar ana südü kimi canlarına çəkdilər. Torpaq övladları kimi onların qayğısına qaldı. Buğda dənləri cücərdilər. Cücərtilərdən üçüncü yarpaq əmələ gəldi, sonra yeraltı hissəsindən yan zoğlar çıxdı. Kollanan buğdalar sevinclə bir-birilərini təbrik etdilər. Ana torpaq körpələrinə pıçıldadı:

– Tərkimdə nə varsa, sizindir. Tezliklə boy atacaqsınız, böyüyəcəksiniz, ancaq qarşıdan soyuq qış gəlir. Bir az da qoynuma sıxılın, sizə qohumlarımdan, neçə əsrdir ki, ayrılıq həsrətiylə buludlar kimi dolub-boşalan nəmli gözləriylə Arazın o tayından boylanan varlığımdan danışacam…

– Həə, balalar... Sizin toxumları sinəmə səpən insanlar lap dünyanın yaranışından öz xeyirxahlığıyla, zəhmətsevərliyiylə seçilib. Bizi əkib-becəriblər, yaşayıb və yaşadıblar... Mərdliyilə seçilən bu millətə Azəri türkləri deyiblər. Yaranışdan bu günə kimi ədalətsizliyə qarşı olan türklər tarixdə ən böyük haqsızlıqlara, müsibətlərə düçar oldular. Uğrumuzda canlarından keçdilər. Qarşı tərəflər onların böyüklüyündən, hünərindən çəkinib hiyləyə əl atdılar. Qəlbimizə sağalmaz yaralar vurdular....

Ana torpaq şahidi olduğu müsibətləri xatırlayıb dərindən köks ötürdü. Dünyanın fanlilyindən bixəbər cücərmiş buğda dənləri ağız-ağıza verib soruşdular:

– Ana torpaq, səni kimlər yaralayıb?

Torpaq ağır-ağır dilləndi:

– Farslar, ruslar, ermənilər... Əgər parçalanmasaydım, sizin kimi övladlarım çox, lap çox olardı... Bu millətin böyüklüyündən qorxdular, varıma tamah saldılar, ikiyə böldülər. Varlığımın böyük hissəsini Arazın o tayında saxladılar. Neçə əsrdir ki, gözlərimdən qəlbimə axan sular Araza tökülür. Amma ümidsiz deyiləm... Gücümə, Yaradanıma inandığım kimi əminəm ki, yenə bütöv olacam.Gec- tez yaddaşı, bu millətin vətəndaşı ədalət toxumunu sizlər kimi cücərdəcək:

"Mən burdayam!!!... Mən o yerlərdəyəm!!" - deyəcək.

***

Torpaq ağ yorğanını üstündən çəkəndə günəşin xoş təbəssümüylə salamlaşdı. Əllərini geniş açıb ciyərdolusu nəfəs aldı. Günəş ağ örpəyini üzünə çəkdi. Buludlar kəndirlə yerə endilər. Yuxudan oyanmış buğda cücərtiləri əl-üzlərini yudular, sonra qamətlərini düzəltdilər. Çox çəkmədi ki, günəş yaşıl tülünü onların üzərinə saldı. Sünbüllər sevinclərindən yallı getdilər....

Ana torpaq yaşıllaşan sünbüllərə, sinəsində əzəmətlə sıralanan, ağ papağını çıxarıb yaşıl köynəyini geyinən dağlara baxdıqca fərəhlənirdi. Ətrafı - canlanan təbiəti gözdən keçirib sünbüllərə üz tutdu:

– Mənim yaşılbaşlı çəmənlərim, düzənlərim, səmənilərim! Artıq siz tək deyilsiniz. Yurdumuza bahar gəlib, tay-tuşlarınız: erkən çiçəkləyən dəvədabanı, nərgizgülü, ballıca, qaymaqotu, göy rəngli mahmız lalə, qırmızı lalələr tamaşanıza durublar. Insanlar çeçələ barmağınızı evlərinə qonaq çağırıblar. Süfrələr bəzəyiblər...

– Ana torpaq, bizim qonağımızı Tanrı özü yollayıb... Bir bax, evimizin yuxarısı gör necə yarəşıqlıdır... Göy rəngli mahmızlaləsi, sonra qırmızı lalələr, yaşılbaşlı balaların da yanında... Ana! Ana!. Qırmızı lalənin arasından boylanan ağ zümrüd çiçəyinə baxsana! Gecələr bizə göz vuran ulduza, işıq saçan Aya necə də bənziyir.

– Ana torpaq məmnunluqla gülümsədi:

– Gedək, Tanrı qonaqlarına "Xoş gəldin!" – deyək.

Zirvədən bu mənzərəni seyr edən Qoca qartal dedi:

– Ey, Ana torpaq! Bu nə gözəllikdir sinən üstə düzübsən!... Sən ki əsl rəssamsan. Yaratdığın möcüzədən xəbərin varmı? Gözəlliyinin işığı gözlərimi qamaşdırdı...

Ana torpaq bu sözlərdən xoşhallandı:

– Qoca qartal, möcüzəni hər şeyə qadir olan Allah yaradıb. Təbiətin qonaqlarını gəl, sən də salamla...

Qoca qartal bir neçə dəfə səmada dövrə vurdu. Sonra taxıl zəmisinin yaxınlığında bir daşın üstünə qondu. Uzun qanadlarını geniş açaraq, sanki çiçəklərin möcüzəli düzülüşünü bağrına basdı. Sonra əyri dimdiyi ilə köksündə möcüzələr yaradan Ana torpağı dönə-dönə öpdü. Sevincqarışıq qüssədən torpağın qəlbinin telləri titrədi. Və bu titrəyiş yerin dərin qatlarında uğultu yaratdı. Arazın o tayında torpağın bağrı yarıldı. Şırımlardan çiçəklərin möcüzəli düzülüşü boylandı. İkinci titrə-

yişdə yerin təkindən şah damarları Qarabağa uzandı. O damarlardan axan rəngarəng qanlar İsa bulağından süzüldü. Hər tərəfi çiçəklərin möcüzəli düzülüşü bürüdü. Növbəti titrəyişlər Dərbənddə, Borçalıda – o tayda, bu tayda yarğanlar açdı. Və bu yarğanlar Qoca qartalın qıy vuraraq səmadan səpdiyi çiçəklərin möcüzəli düzülüşünü bağrına basdı. Sakitləşən Ana torpaq isə əllərini göyə açaraq dua edirdi:

– Tanrım, sən bu millətin birliyini, bütövlüyünü özünə qaytar !...

AĞA RAMAZAN

1964

Ağaəli Məmməd oğlu Ramazanov 1964-cü il iyunun 30-da Şəki şəhərində anadan olmuş, 1981-i ildə Şəki səhər 12 saylı orta məktəbi bitirmiş, 1981-1986-cı illərdə Azərbaycan Dövlət Neft Akademiyasında ali təhsil almışdır. 1986-1989-cu illərdə Qırğızıstanın Frunze (indiki Bişkek) şəhərində Maşınqayırma zavodunda gənc mütəxəssis kimi sahə ustası, təhcizat rəisi, istehsalat üzrə sex rəisinin müavini vəzifələrində çalışmışdır. 1989-1992-ci illərdə Şəki şəhər MTŞ və Yerli Sənaye idarələrində mühəndis-proqramçı vəzifəsində işləmişdir. 1992-ci ildən ticarətlə məşğuldur.Ilk şeirləri ali təhsil aldığı illərdə "Neft kadrları uğrunda" qəzetində çap edilmişdir. Dövri mətbuatda – "Şəki-Region", "Mingəçevir", "Ədəbiyyat", "Elitar press", "Zaman", "Təhsil", "Elimiz-günümüz" və s. qəzetlərdə, "Şəki", "Mingəçevir leysanı" jurnallarında, həmçinin "Bənövşə çələngi" tematik şeirlər toplusunda şeirləri ilə çıxış etmiş, bir neçə şeiri türk və fransız dillərinə tərcümə edilərək Ahmet Kaytançının "Susmaram – Azərbaycanın göz yaşları" və "Fransız dili Azərbaycanda" metodik və bədii-publisistik jurnalında dərc edilmişdir. "Ayrılıq serenadası" (2006) adlı şeirlər kitabının müəllifidir. AYB-nin üzvüdür.

Şairlər

(Əli Kərim, Məmməd Araz,
Bəxtiyar Vahabzadə)

ƏliKərim öləndə,
Məmməd Araz hönkürüb,
Saçlarını yolurdu.
Məmməd Araz öləndə,
Vahabzadə Bəxtiyar,
"Növbə mənimdir," – deyə,
Şairə qovrulurdu.
Vahabzadə ölən gün,
Sanki şeir dünyası,
Göylərə sovrulurdu.
Görən qaytara bildi,
Kimsə ana borcunu?
Kimsə iki sevgiylə,
Yoxladımı bürcünü?
Ömür əziyyətlə itdi,
Hər şey "Vəsiyyət"lə bitdi.
Əli Kərim dünyası,
Çevrilib oldu bir gün,
Əli Kərim röyası.

Sənə, mənə qalmayan,
Bu dünyanın dərkini,
Qayasında bitməyən,
Azərbaycan ərkini,
Bu da bir ömürdü ki,
"Yaşadım"la dər kini,
Görən duydumu insan?
Sonu buydumu, insan?
Ürək oldu tən bölən,
Ömür də sona yetdi.
Araz dərdiylə gələn,
Başqa dərdinən getdi.
İçimizin dərdləri,

Çölümüzü kor etdi.
"Dünyaya kimlər gəldi,
Dünyadan kimlər getdi".

Qəddimizi əymədik,
Bir salama dəymədik.
Dilimiz təzələndi,
Başqa dildə danışdıq.
Dinimiz təzələndi,
Günahlarla barışdıq.
"Gülüstan"la başladı,
Qarabağla qurtardı.
Nə qədər yazılsa da,
Deyiləcək, var ardı.
Günə, aya bölünən,
Ömür dərdi bitməyir.
Oda, suya bölünən
Sevda dərdi bitməyir.
Toya, yasa bölünən
Dünya dərdi bitməyir.
Şairlər gəlir, gedir,
Sözü heç vaxt itməyir.
Siz ey dönməz şairlər,
Siz ey ölməz şairlər,
Bizdən əvvəl gələnlər,
və yaxud və sairlər.

Bir şeirin xətrinə

İstəyinə yetəsən,
Durub çıxıb gedəsən,
Adam olmayan yerə.
Deyimmi sirrin, niyə?
Bir şeirin xətrinə.

Bu dünyadan itəsən,
Harda gəldi bitəsən.
Almayasan vecinə,

Hansı xanın dövrüdü,
Nələr nədən ötrüdü.

Uzaqkən hər baxışdan,
Yarıyasan naxışdan.
İslanasan yağışdan,
Fərq etməyə çətrinə,
Bir şeirin xətrinə.
Dönməyəsən bütə sən,
Üstəlik də lütə sən,
Bir azca da kütə sən.
Dürr tökülə sətrinə,
Bir şeirin xətrinə.

Nədən belə oldu, Ağa?

Qara bulud Aydan keçdi,
Yağdı yağış, yaydan keçdi,
Ömür-gündü, saydan keçdi,
Gəlib çatdın sən bucağa,
Nədən belə oldu, Ağa?

Dizlərini döyməmişdin,
Yerli-yersiz söyməmişdin,
Axı özünü öyməmişdin.
Çox dərdlərin döndü dağa,
Nədən belə oldu, Ağa?

Güvənməkdən yorulmadın,
Düşdün dara, sorulmadın,
Sınaqlarda sovrulmadın,
Qarlar üstə qorx ki, yağa,
Nədən belə oldu, Ağa?

Keçən ömür silindisə,
Xoş avazın bilindisə,
Giley edən dilindisə,
Poz sərhədi, çıx qırağa,
Sənə olan oldu, Ağa!

MUSTAFAKAMAL İSLAMOV

1965

İslamov Mustafakamal Məhyəddin oğlu.
31 yanvar 1965-ci ildə Şəki şəhərində anadan olmuşdur.
Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitetin)
avtonəqliyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.
Ç. İldırım adına təqaüdçüdür.
"Bircə varlığına inandır məni" adlı şeirlər kitabının müəllifidir.

Heç nə demə...

Geriyə dönəkmi, İlk bahar olsun?
Heyf ki, ömrümüz bircə dənədi...
Biz nəyi bölək ki, etibar olsun?
Ömürdən qiymətli ömür dənədi?
Saatla ölçülür kəpənək ömrü,
Fəqət qanadında hər xal özəldi.
Necə bu həyatdan yorulsun ürək,
Axı yaşamağın özü gözəldi.
Daha yaşımızda heç o yaş deyil,
Sanma ki, sədaqət umacam yenə
Qəlbinin səsini eşidirəm mən,
Bircə yanımda ol,
və heç nə demə...

Olmadı

Bəlkə də geriyə dönmək olardı
Geriyə dönməyə üzüm olmadı...
«Dünya, sədaqətin heç yoxmuş» – deyib,
İstədim salamı üzüm, olmadı.
Sonu uçurummuş bu axan çayın
Gərəkmiş tərsinə üzüm, olmadı.
Ömrümün qışında ağ şanı gəzdim
Təklif kişmiş oldu, üzüm olmadı.
Söz ilə sıxdılar, min cavab tapdım,
Gözün sualına sözüm olmadı.
Ölümlə qurtaran əsər – faciə
Bəs «xoşbəxt ömür» nə? – çözüm olmadı.
Daşlardan keçirdim, duruldu sular
Necə daş qəlbləri süzüm, olmadı.
Nəfəsim təngiyir, aman günüdür,
Qoyun öz ritmimlə süzüm, olmadı.
Bəxtsiz qismətimlə zor-güc barışdım,
Kətənə qoza da bizim olmadı.
Yamanca aldandıq bu dünyaya biz
Zənn etdik bizimdi, bizim olmadı.

Ax, ürəklər,ürəklər...

Tuk-tuk,tuk-tuk...
Olmadı ki...
Gecənin sakitliyində
Yenə də bu, həmin səsdi,
Yenə qoymayacaq yatım
Nə eyləsəm də, əbəsdi.
Ürəyimin səsini deyirəm...
Tuk-tuk, tuk-tuk...
Bu ömrümdür, yəqin gedir,
Bu səsdə ayaq səsidir
Son mənzilə çatan kimi
Addım səsi kəsəsidir.
İndi anladım, ölülər
Rahat yatırmışlar nədən
Axı ürəkləri susur
Nə dinən var, nə döyünən.
Ax, ürəklər, ürəklər...

Tənha

Öz-özünə danışan
Əl-qolunu uzadıb
Gah gülüb, gah qızışan
Əyni yamaqlı kişi,
Qaraqabaqlı kişi,
Dərdindən bəhs edirsən?
Kimdi səni eşidən?!
Dərdindən pay verirsən?
Allah köməyin olsun,
Kimdi dərdi bölüşən?
O vaxt biz uşaq idik,
Önümüzə çıxanda
Səni sərsəri sanıb
Qorxardıq, çəkinərdik,
Göstərərək gizlicə
Arxanca gülüşərdik...

İllər gəlib ötüşüb,
Həyat bizi dəyişib.
İndi səni görürük
Başqa ruhla, baxışla,
Ətraf insanlar ikən
Tənha olmaq nə imiş-
anlayırıq.
Bağışla!

Gördüm

(bir gecə...)

Qəflətdən əl toxundu,
Döndüm, özümü gördüm.
Ocaq ola bilməmiş,
Söndüm, közümü gördüm.
Ən uzun əyri imiş,
Düz bilib getdiyim yol.
Bu yerlərdən keçməmiş,
Dönmüş izimi gördüm.
"Sən özünü çöz !" – dedi
Röyamda bir səs mənə.
Elə bildim özgədi –
Əsl üzümü gördüm.

Olmaya

Vay o günə, üzün gülə,
İçində şənlik olmaya.
Hamı səni təbrik edə,
Büsatı sənlik olmaya.
Həyat yora, tükənəsən,
Bircə təsəlli olmaya.
Qəzəbdən söyüş söyəsən,
Ünvanı bəlli olmaya.
Almaz qaş üzük taxasan,
Sədaqət qaşı olmaya.
Öz-özünlə tək qalasan,
Çıxmağa qapı olmaya...

RAFİQ SƏMƏDOV

1965

Səmədov Rafiq Tofiq oğlu 1965-ci il mayın 17-də Şəki şəhərində anadan olmuş, şəhər 7 saylı orta məktəbi (1982), Moskva şəhərində Ali Komsomol Məktəbinin tarix və komsomol tərbiyəsi fakultəsini bitirmişdir(1990). Əmək fəaliyyətinə Şəki İstehsalat Birliyində başlamış, Azərbaycan Gənclər İttifaqı Şəki Şəhər Komitəsinin ikinci katibi, sonra birinci katibi (1989-1992), şəhər 8 saylı orta məktəbdə tarix müəllimi işləmişdir(1992-1994). Rusiya Gənclər İnstitutunun aspiranturasında təhsil almış (1994-1997), iki il institutda fəaliyyət göstərmiş, 1999-cu ildə Şəki şəhərinə qayıtmış, şəhər 14 saylı orta məktəbdə tarix müəllimi işləmiş, 2000-ci ildən Şəki Pedaqoji Kollecində çalışır. Rafiq Səmədov dövrü mətbuatda daha çox publisistik yazıları ilə çıxış edir. Hərdən könül pıçıltılarını şeirlə də ifadə edir. Onun şeirlərində nikbin ruh hakim olmaqla, rəvan təbii var. Aşıq şeiri tərzinə daha çox meyl edir.

Həsrət nəğməsi

Dəryaya qərq olan gəmilər kimi
Fikirlər içində batmışam nədən?
Ömründən, günündən küsənlər kimi
Dərin yuxulara yatmışam nədən?

Ürəyim, həvəsim incəlib gedir,
Vətənə aparan yollar görünmür.
Həftələr, günlər də naz edib gedir,
Elə bil dövrünü qurtarır ömür.

Gümanım gəlməyir günlərdən-günə
Sabahım üzümə güləcək deyə,
Ehtiyac duyuruq vaxtın hökmünə
Günlərin vəfası itəcək deyə.

Qəddar bir ürəklə qılınc çalaraq
Qəlbimi odlara yaxırsan nədən?
Sən məndən min bir qat qisas alaraq
Ömrümə acılar qatırsan nədən?

Köksümdə sızlayır həzin bir ahəng,
Özüm də bilmirəm nədən danışır.
Elə bil yolumda çatlayır şimşək,
Başımda fikirlər, yollar qarışır.

Qalıbdır pərişan, xumar gözlərim,
Düzülmür qatara ürək sözlərim.
Ümidsiz saatlar, ümidsiz anlar,
Sızladar qəlbimi, yumar gözlərim.

Neyləyim, yansa da odlara qəlbim,
Kül olub səpilsə yerə cəsədim,
Vücudum ayrılsa ruhumdan tamam,
Mən səni bir an da unudammıram.

Ördək arzusu

Durmuşdu sahildə bir gün bir ördək,
Görürdü özünü tovuz quşu tək.
Baxırdı üstünə başına hərdən,
Şadlanıb, sevinib, həm də ürəkdən:
Özündən çox razı gəzirdi bir az
Bu zaman hardansa bir qaz,
Şığıyıb sürətlə bu yerə qondu,
Yerində çırpındı, tüklərin yondu.
Sonra sığal verib özün düzəldib
Başını dik tutdu qürurla gəzdi.
Bu hal lap ördəyin qəlbini əzdi.
O altdan yuxarı baxırdı mat-mat...
Baxdıqca, hərdən də deyirdi "Heyhat...
Yerişi, duruşu bu axmaq qazın
Nə gözəl olubdur, indi çək nazın.
Amma ki, olsa da sarsaq, hoqqabaz
Onun tək yerişi gözəldir bir az...
Yoxsa ki, heç cür məndən artıq olammaz."
Beləcə süzərək ardınca onu,
Dar gəldi əyninə özünün donu.
Qəlbində deyinib, düşündü ördək: –
Bu gündən yeriyim qaz kimi gərək.
Düzəldib özünü qaz kimi durdu,
Boynunu, belini onun tək burdu.
O yan, bu yana o qürurla baxdı,
Baxışları yenə süzülüb axdı.
Başladı yerisin naz ilə qaz tək,
Yeridi nə ördək, nə də ki, qaz tək.
İtdi öz yerişi, unutdu onu,
Boş oldu əyninə indi öz donu...

ÇİMNAZ ŞİRİNQIZI

1965

Məmmədova Çimnaz Şirin qızı 1965-ci il sentyabrın 12-də Şəki rayonunun Qoxmuq kəndində anadan olub. Doğulduğu kənd tam orta məktəbini bitirib (1982). Şeir yazmağa orta məktəb illərindən başlayıb. "Bülbülün səsi" adlı şeirlər kitabı çapdan çıxıb (2004). Bakı şəhərində yaşayır, ailəlidir, evdar qadındır.

Yar götürmədi

İki yolun arasında qalmışam,
Min xəyala, min fikrə dalmışam,
Sevən ürəyimdən yaralanmışam,
Gətirib hicrana saldı sel məni.

Bahar oldu, bağçam bar gətirmədi,
Zəhmət çəkdim alma, nar bitirmədi,
Könlüm sındı, düşdü, yar götürmədi,
Mən kimə deyim ki, yada sal məni.

Gəzə-gəzə öz elimdə yad oldum.
Baxdım taleyimə bir fəryad oldum.
Zalım fələk, nə vaxt səndən şad oldum?
İstər yaxşı, istər yaman bil məni.

Yanıb cismim, mən külümlə qalmışam,
Sönüb hissim, tək könlümlə qalmışam.
Öz adıma özüm qələm çalmışam.
Yada salmaz qohum-qardaş, el məni.

Dad oldu getdi

Gəncliyim düşəndə hər zaman yada,
İnan ki, düşürəm elə bil oda.
Bülbül tək gəlirəm hərdən fəryada,
Heyf, cavanlığım dad oldu, getdi.

Qismətim bu imiş əzəldən əlbət,
Nadanlar da mənə eylər nəsihət,
Ey könlüm, bunları sən yaxşı dərk et,
Bu da ürəyimə dərd oldu, getdi.

Sözümdə heç zaman bulunmaz yalan,
Gövhərin qədrini nə bilir nadan.
Hər zaman, hər yerdə namərd sayılan,
Vəzifəyə qalxdı, "mərd" oldu getdi.

Çox boranlar ötüb keçdi başımdan,
Üst-başım islandı göz yaşlarımdan
Yetim quzu kimi baxışlarımdan,
Nadan nə oxudu, şad oldu, getdi.

Nə gözəl

Sona kimi bəzənmisən,
Gərdənində tel nə gözəl !
Nazlanıban can üzürsən,
Ağzındakı dil nə gözəl !

Gül düzdürmüsən ağ üzə,
Yeriyirsən süzə-süzə.
Bircə dəfə gəlsən bizə,
Deyərdim bu yol nə gözəl!

Bağça-bağda qızıl gülsən,
Bal dodaqlı, şirin dilsən.
Gəl sinəmdən dərdi sil sən.
O xınalı əl nə gözəl!

Hərdən mənə naz edirsən,
Ara-sıra söz edirsən.
Yaz könlümü saz edirsən,
Yanağında xal nə gözəl!

Sail qızı öz həddini
Bilir, keçməz sərhəddini.
Bildim yarın niyyətini
Ləbindəki bal nə gözəl!

Bülbül

Bağçamızda səhər-səhər
Oxuyursan yenə, bülbül.
Qorxursan ki, qönçə güllər
İlqarından dönə, bülbül.

Cəhcəhinlə gül öpəndə,
Boylanıram sənə mən də,
Oxu bülbül, oxu sən də,
Nalən tuşdur mənə, bülbül.

Yanaraq coşursan necə,
Oxuyursan incə-incə.
Çoxdur dərdin sənin məncə,
Oxşayıram sənə, bülbül.

Bülbül, sənə sözüm budur:
Vəfa deyən axar sudur,
Kim əhdini tez unudur,
Düşür oda, çənə bülbül.

İncimə

Sallana-sallana gəzən sevgilim.
Sən səsləsən, mən can desəm, incimə.
Ər boyuna coxdan aşiq olmuşam,
Baxışına heyran, desəm, incimə.

Hər hansı sözümdə tapmazsan yalan,
Sənsən məni eşqin oduna salan.
Səndən başqa varmı məndən can alan?
Baxıb can alansan, desəm, incimə.

Dərya tək coşaram sənin eşqinlə,
Nə olar bir anlıq gəl məni dinlə.
Gəl söndür yanğımı öz atəşinlə,
Mən çəkməyim fəğan, desəm, incimə.

Sail qızı səndən ayrı gəzəmməz,
Gəzsə də, həsrətin çəkər, dözəmməz.
Əsli kimi yanar, odu görünməz,
Sən tək yara qurban, desəm, incimə.

ŞAHİN AYDƏMİR

1966

Aydəmirov Şahin Balı oğlu 1966-cı ilin yanvar ayının 31-də Şəki rayonunun Baş Göynük kəndində anadan olub, doğulduğu kənddə 2 saylı orta məktəbi (1984),Bakı Dövlət Universitetinin Filologiya fakultəsini bitirib (1992). "Doğru yol" qəzetində şöbə müdiri (1992-1994). "Arı" satirik qəzetində redaktor (1994-1996). "Gülüstan" ictimai-siyasi qəzetinin baş redaktoru (1997-2000). "Demokratiya" qəzetinin redaktoru (2000-2004). "Vətənpərvərlər" qəzetinin redaktoru (2004-2005). "Xarı Bülbül" jurnalının baş redaktoru (2005-2006) "Müstəqil Hüquqşünas" qəzetinin baş redaktoru (2006-2007). "Azad Hüquqşünas" qəzetinin redaktoru (2007-2011) kimi çalışıb. Hazırda "Korrupsiya və Dövlətçilik" qəzetinin baş redaktorudur. "Əsrin fədailəri (1988), "Üzü bəri baxan dağlar" (2006). "Tikdi ki, izi qalsın (2007), "Kimlər gəldi, kimlər getdi bu dünyadan" (I c. 2006, II c. 2007), "Heyf səndən, ay Laçın" (2008), "XX əsrin elitar qadınları" (2008), "Mübarizə" (2010), "Göynük və göynüklülər" (2008), "Qəribликdə yaşanan illər" (2011), "100 Böyük Şəkili" (2012), Mübariz insan (həmmüəllif, 2016) "Mənalı ömür" (həmmüəllif, 2017) kitablarının müəllifidir.

Tikdi ki, izi qalsın

(kitabından bir parça)

...97 illik ömrünü klassik xalq sənəti olan dəmirçiliyə həsr edən Hacıbala kişi, Baş Göynükdə böyük bir məktəb yaratmışdı. Texnikanın çox da inkişaf etmədiyi o dövrdə Hacıbala kişi yetərincə dəmirçi yetişdirdi ki, onlar insanların təsərrüfatda istifadə etdikləri alətlərin hazırlanmasını tam şəkildə üzərlərinə götürərək heç bir problem qoymadılar. Nəzərə alsaq ki, peşəkar dəmirçilərin hazırladıqları alətlər o zaman kolxozçuların ən yaxın köməkçiləri hesab olunurdu, onda bu sənətin nə qədər şərəfli, həm də müqəddəs olduğu tam şəkildə aydınlaşar.

Hacıbala kişinin adına ətraf kəndlərdən belə pənah gətirərdilər. Onun düzəltdiyi istənilən alət keyfiyyətinə və qiymətinə görə qonşu kəndlərdə dillər əzbəri idi. Bundan başqa o, həm də qonaqpərvər kişi idi. Adını deyib gələn istənilən qərib insan, onun süfrəsinin kənarında əyləşib Gülarə xalanın bişirdiyi dadlı yeməklərdən qarındolusu yemədən sifarişini əldə edə bilməzdi.

Hacıbala Ədilov təhsil almasa da, savadlı və işıqlı insan kimi, rus dilini və İslam dinini mükəmməl bilən tək-tək göynüklülərdən biri idi. Rus dilini səlis bilməsi, bəzi hallarda kənd qardaşlarına tərcüməçilik etməkdə ona yardımçı olurdu. Yas məclislərində savadsız mollaların buraxdığı kobud səhvləri yerindəcə tutması onu, bu dırnaqarası din xadimlərinin nəzərində " mərdimazar"a çevirmişdi. Amma o, bunun fərqinə varmaz, səhv buraxan mollanı bağışlamazdı. Hətta kobud səhv etmiş birisini kəndin baş mollalığından uzaqlaşdırmışdı. Daha doğrusu, onun ağsaqqal fikrinin nəticəsi kimi, rayonun baş axundu həmin mollanı tutduğu vəzifədən uzaqlaşdırmışdı...

Hacıbala Ədilov sözün həqiqi mənasında bir elə, mahala ağsaqqallıq etmək qüdrətində olan insan idi. Belə bir kişinin ocağında Həsən Ədilov kimi şəxsiyyətin yetişməsi tam qanunauyğun haldır...

...Novruz bayramından bir həftə keçməmiş – yəni 27 mart 1925-ci ildə dünyaya gəlmişdi Həsən müəllim. Atasının təhsilsiz olması, oxumağa meylini xeyli artırmışdı. Keçmiş ənənələri ayaqlar altına ataraq (dəmirçi oğlu gərək dəmiçi olaydi (?!) – Ş.A) təhsilə mehr salan balaca Həsən 1931-ci ildə Baş Göynük kənd 1 saylı orta məktəbin birinci sinifinə

qədəm qoydu. Ona əlindən tutub "Ana" və "Vətən" kimi müqəddəs sözləri yazdıran isə Pərnaz xanım Hacıyeva oldu.

Orta məktəbi əla qiymətlərlə bitirən gənc Həsən iki illik Nuxa Dövlət Müəllimlər İnstitutuna daxil olanda, zamanın əqrəbi 1941-ci ilin üzərində dayanmışdı. İnstitutu fərqlənmə diplomu ilə başa vurduğu üçün o, xüsusi qeydiyyata götürülərək, müharibəyə səfərbərlikdən azad edildi.

Böyük Vətən Müharibəsinin şiddətli çağlarında-1943-cü ilin yayında tarix ixtisası üzrə mütəxəssis olan Həsən Ədilovu təyinatla Zaqatala rayon Komsomol Komitəsinə göndərirlər. O dövr üçün komsomolun sovetlər birliyinin kadr siyasətində oynadığı rolu xatırlasaq, görərik ki, Həsən Ədilov dövlət tərəfindən yararlı mütəxəssis kimi qiymətləndirilib. Partiyanın aparıcı qolu hesab olunan komsomol təşkilatı pilələn rolunu oynayırdı. Peşəkar kadrların çatışmadığı sovetlər birliyinin əyalətlərində insanların savadlanması, təhsil alması mühüm şərt hesab olunurdu. Bunu nəzərə alaraq, Həsən Ədilovu Komsomol işindən maarif sisteminə keçirdilər. İki aylıq komsomol funksioneri həyatı yaşaması, onun gələcək fəaliyyətinə böyük təsir göstərdi. Nizam-intizam, tələbkarlıq, təşkilatçılıq, ələlxüsus da təbiətin əşrəfi sayılan insana qayğı, münasibət kimi dəyərləri bəlkə də bu iki ayda mənimsədi. Bu haqda sonra ətraflı danışacağım, indilikdə isə qayıdıram fikrimin davamına.

Azərbaycan tarixi yurd yerlərindən olan Zaqatalada da kütləvi savadsızlıq hökm sürürdü. Aqrar region olan bu rayonda insanlar əkin-biçinlə, heyvandarlıqla ciddi şəkildə məşğul olduqlarından, təhsil almaq onların bəlkə də yadına düşmürdü. Ancaq dövlətin qarşısındna kütləvi savadsızlığa qarşı mübarizə kimi genişmiqyaslı proqram vardı. Bu proqramın tərkib hissəsi kimi gənc müəllimləri ehtiyac olan kəndlərə səfərbər edir, hətta yaşlarının və təcrübələrinin az olmasına baxmayaraq məsuliyyətli vəzifə də həvalə edirdilər.

Həsən Ədilov Zaqatala rayon Komsomol Komitəsindən inkişaf etməmiş Maqov kənd yeddiillik məktəbə direktor təyin ediləndə 1943-cü ilin sentyabr ayının 1-i idi. Bu təqvim Həsən Ədilovun 18 yaşının tamamını göstərir. 18 yaşlı yeniyetmənin cəhalət yuxusunda çabalayan Maqov əhalisinə təhsil verən bir müəssisəyə başçılıq etməsi nə demək idi?

Bu vəzifə çoxları üçün xoşbəxtlik sayılsa da, onun üçün bir sınaq idi. Tarix və dövlət qarşısında sınağa çəkilən Həsən Ədilovun sonrakı həyatı məhz bu imtahandan necə çıxmasından asılıydı. Ola bilərdi, o, təhsil almağı qoyun otarmaqdan, arpa-buğda əkməkdən aşağı hesab edən hansısa maqovlunun qəzəbinə tuş gələrdi. Və yaxud üzərinə düşən işin öhdəsindən

layiqincə gələ, bilmədiyinə görə, dövlətin müvafiq strukturları tərəfindən cəzalandırılardı...

Ancaq onun tərcümeyi-halına nəzər salanda görürük ki, dövlətin simpatiyasını, hörmətini və etibarını qazanmaqda davam edir. Ömrünün sonuna kimi Şəki rayon maarifinin aparıcı simalarından olub.

Onun Şəki Maarif şöbəsinə gəlişi 1944-cü ilin sentyabr ayının 1-nə təsadüf edir. Bu ildən o, ibtidai və orta təhsil aldığı Baş Göynük 1 saylı orta məktəbə tarix müəllimi gəldi. Üstündən bir il keçməmiş onu Baş Göynük kənd 2 saylı 7 illik məktəbə tədris hissə müdiri və tarix müəllimi göndərdilər. Arada bir il yenidən 1 saylı məktəbə müəllim qayıdan Həsən müəəlim, 1947-ci ilin iyul ayının 30 da Baş Göynük 2 saylı 7 illik məktəbə direktor və tarix müəllimi təyin olundu.

Altı il 2 saylı 7 illik məktəbdə direktor işlədikdən sonra, 1953-cü ilin yeni dərs ilindən bir daha 1 saylı orta məktəbə tarix müəllimi qayıtdı. Artıq təcrübəli pedaqoq olmaqla yanaşı, həm də bacarıqlı idarəçilik təcrübəsinə yiyələnmişdir. Yaşının və enerjisinin qaynar çağları idi. Maarif şöbəsində ona böyük ehtiyac duyulurdu. Elə bu səbəbdən də onu, təhsilin çox da ürəkaçan olmayan Qudula kəndinə göndərilməsini lazım bildilər.

7 illik Qudula məktəbində, yerli və ali təhsilli kadrların çatışmadığı bu dönəmdə direktor Həsən Ədilovu növbəti sınaq gözləyirdi. Maqovda əldə etdiyi təcrübənin, Baş Göynükdə bir az da təkmilləşməsi bu dəfə də onun yardımcısı oldu. Normal şəraitdən dəfələrlə uzaq Qudula məktəbində ciddi nizam-intizam yaratmağa müvəffəq olan Həsən müəllim, bu kənddəki yeddi illik fəaliyyətində ona tapşırılan işin öhdəsindən vicdanla gələ bildi.

Qonşu Babaratma kəndinin natamam orta məktəbindəki vəziyyət də rayon marifinin cavabdeh şəxslərini bərk narahat edirdi. Qabiliyyətli, peşəkar maarif xadiminə Babaratmada da açıq-aydın tələbat vardır. Ancaq ortada olan kadrlar Babaratma kimi kəndlərdəki problemi aradan qaldırmağa kifayət etmirdi. Bütün gözlər Həsən Ədilova dikilmişdi. Bu vəzifənin öhdəsindən ancaq o, gələ bilərdi. Həm də onun bərbad məktəbləri işlək vəziyyətə gətirməkdə təcrübəsi və böyük səriştəsi vardı.

Partiya və dövlət tapşırığını müqəddəs borc sanan Həsən müəllim təbii ki, yerdəyişmə siyasətinə etiraz edə, müxtəlif vasitələrdə ayağa qaldırdığı məktəbdə qala bilərdi. Ancaq onun təbiətində, əqidəsində belə hallar özünə yer etməmişdir. İşləmək, gələcəyin qurucusu və idarəçisi olacaq Azərbaycan gənclərinə elm, savad vermək kimi nəcib, xeyirxah bir missiya onun devizi idi.

1962-ci ildən 1969-cu ilə qədər Babaratma natamam orta məktəbinə rəhbərlik etdi Həsən Ədilov. Buranı orta məktəbə çevirdi, qonşu Şorsu kəndində bu məktəbin filialını açdı. Azsaylı xalqlardan olan ləzgilərin yaşadığı Şorsu kəndində məktəb yox idi. Bir neçə kilometr aralıda yerləşən Babaratma kəndində təhsil dalınca gələn şorsuluları çətinlikdən qurtarmaqda və gələcəkdə müstəqillilik statusu qazanmaqda bu filialın rolu böyük oldu.

Qədirbilən Şorsu camaatı onun bu xidmətini indinin özündə də yada salır və Həsən müəllimin ruhuna tanrıdan dualar oxuyurlar....

GÜLŞAD NURANİ

1966

Gülşad Nurani (İbrahimova) Haqverdi qızı
1966-cı il aprel ayının 10-da Ağdam şəhərində anadan olub.
1976-cı ildə ailəsilə birgə Şəki şəhərinə köçüb.
4saylı orta məktəbi bitirmişdir.
Şeirləri, məqalələri müxtəlif qəzet və almanaxlarda çap olunub.
"Mənim dövlətimdə sülh olsa əgər" orta məktəb şagirdlərinin şer müsabiqəsində "Qızıl Qlobus" mükafatına layiq görülüb.
bir neçə şeirinə mahnı bəstələnib.

Sevgi arzular

Kaş ki dikiləydi gözüm-gözünə,
Yaxından üzünü görə biləydim.
Hicran yanğısını çəkib köksümə,
Vüsala yetərək sevə biləydim.

Səni saxlayaydım qəlb otağımda,
Ömrümə əbədi sultan edərdim.
Səninlə gəzdiyim xəyal bağında,
Sənlə sevinib, sənlə gülərdim.

Ümidsiz arzular bezdirib məni,
Heç zaman əlinə yetməz əllərim.
Xatırla, biçarə talesiz yarı,
Çünki sən olmusan könül Sultanı!

Könlümün Sultanı

Şirin yuxuları əlimdən alan,
Qönçədən yan keçib, gülü qoparan,
Əbədi yurd edib, qəlbimdə qalan,
Könlümün Sultanı, söylə, hardasan?

Füsunkar aləmin yaz qoxususan,
Sevən üək üçün qorxunc yuxusan,
Hissimi, ruhumu alan duyğusan,
Könlümün Sultanı, söylə, hardasan?

Sevsəm günah olar, sevməsəm yalan,
Yoxdur bir duyanım, məni anlayan.
Düşdüyüm bu aləm olub buruğan,
Könlümün Sultanı,söylə, hardasan?

Çıxara bilmirəm qəlbimdən bir an,
Könlümü eşitmək deyildir asan,
Vallah gözlərimdən olacaq duyan,
Könlümün Sultanı, söylə, hardasan?

Od saldın qəlbimə, aldın canımı,
Sayəndə itirdim qəlb açarımı.
Sevginlə sən yıxdın taxt-tacımı,
Mənim eşq dustağım, söylə, hardasan?

Sən sevda çiçəyim, könül Sultanım,
Gəl, zülmət gecədə bərq vursun ayım,
Sevirəm! Görəsən nədir günahım?
Niyə dilim demir ürək deyəni?
Allahım, Sultana yetir sən məni!

ELŞAD MƏMMƏDLİ

1966

Məmmədli Elşad Bayram oğlu 1966-cı ildə
Şəki şəhərində sənətkar ailəsində anadan olmuş,
şəhər 19 saylı orta məktəbi bitirib.
Ədəbiyyata marağı hələ məktəb illərindən oyanıb,
şeirə, sənətə könül bağlayıb.
İxtisasca İnşaat mühəndisi olmasına baxmayaraq ədəbiyyat
onun həyatının ayrılmaz bir hissəsinə çevrilib.
Hələ kitabı çap olunmasa da şeirləri müntəzəm
dövri mətbuatda çap edilir.

Yatır

Ey yolçu, yolunu salma uzaqdan,
Yaxın gəl,gör burda nə canlar yatır.
Gör kimlərin əli üzülüb taxtdan,
Gör nə şan-şöhrətlər, ad-sanlar yatır.

Burda dövransusub,dayanıbzaman,
Olub el sevinci yer ilə yeksan.
Günəşin gözünü tutub sis-duman,
Quruyub dənizlər, ümmanlar yatır.

Yurda işıq çəkən, güzgü yol salan,
Bağ-bostan becərib, bar-bəhər alan,
Hər işi sabaha ərmağan olan
Pirani bağbanlar, loğmanlar yatır.

Azmı həyat çəkib bizi sınağa?
Azmı əl atmışıq yaraq-yasağa?!
Uğrunda baş qoyub ana torpağa
Nə qədər fədai qurbanlar yatır.

Günləri, ayları alıb dəstinə
Burda il qalanıb illər üstünə.
Qara qışda yanıb yazın qəsdinə –
Pozulmuş dövranlar, zamanlar yatır!!

Aparır

İşimiz çox,ömrümüz az,
Vaxtı qeylü-qal aparır.
Hər yol ötən,hər nataraz
Bir sorğu-sual aparır.

Xəlvət dərə,xəlvət baca,
Tülkü dadanıb turaca.
Ayı dırmanıb ağaca,
Armudu çaqqal aparır.
Aparır,çal-çal aparır.

Yeridikcə qüssə,kədər,
Tutmayasan necə xəbər?
Milçək qonub səhər-səhər
Gül dodaqdan bal aparır.

Gördüm dağlar çiçəyini,
Dolu döyüb ləçəyini.
Gözəllərin göyçəyini
Cavan görür, çal aparır!!

Bilmirəm

O gündən həftələr, aylar ötüşdü,
Hələ də özümə gələ bilmirəm.
Çiçəklər açıldı, güllər yetişdi,
Mən isə açılıb gülə bilmirəm.

Doğmalar necə də dönərmiş yada,
Xoşbəxt çağlarımı vermişəm bada.
Belə deməmişdim mən bu dünyada,
Niyə belə oldu? -Bilə bilmirəm.

Qopdu sazın simi, üzüyün qaşı,
Getdi ömür dostu, həyat yoldaşı.
Silsəm də yanağa süzülən yaşı,
Qəlbə axan yaşı silə bilmirəm.

Ey sevimli gözəl, ey isti ocaq!
Sən məndən aralı, mən səndən uzaq.
Gələrəm yanına, gələrəm ancaq,
Gələrəm nə zaman?Hələ bilmirəm.

Tələsməyin

Siz məni vurmağa heç tələsməyin,
Onsuz da hədəfə hazırdır sinəm.
Haqsız vurulanın vurulduğunu,
Bu qoca dünyada mən çox görmüşəm.

Yağışdan sonrakı qövsi-qüzehəm,
Deməyin yamacda duman sürünür.
Bir ovuc qaranlıq dayanan yerim,
Sonunda bir dünya işıq görünür.

Yaxşını yaxşı tək, pisi pis kimi,
Dünyada heç nəyi unutmur zaman.
Əgər vurulanın bir dərdi varsa,
Vuranın min dərdi çıxar sonradan.

Siz məni vurmağa heç tələsməyin,
Könlümdə bir döyüş nəğməsi yaşar.
Arxasız pələngin çaqqal qorxusu,
Arxalı çaqqalın pələng cəngi var.

NAMİQ ABDULLAYEV

1966 - 2016

Abdullayev Namiq Abdurahman oğlu 1966-cı il iyulun 19-da Şəki rayonunun Qoxmuq kəndində anadan olub. Doğulduğu kənd orta məktəbində natamam orta təhsilini fərqlənmə ilə bitirib (1981). Mingəçevir Baza Politexnik Texnikumunun "Sənaye tikintisi və mülki tikinti" ixtisası üzrə təhsil alıb (1981-1985). sonra Rusiya Federasiyasında Novqorod Texniki Universitetində memarlıq ixtisasına yiyələnib (1987 – 1993). Əmək fəaliyyətinə Novqorod şəhərində başlamış, müxtəlif təşkilatlarda ixtisası üzrə çalışmışdır. Namiq Abdullayev ixtisasca memar olsa da, ədəbiyyata xüsusi maraq göstərmiş. Azərbaycan, eləcə də, Şərq və dünya ədəbiyyatının tanınmış simalarının yaradıcılığı ilə yaxından tanış olmuş, poeziyaya böyük həvəs göstərmiş, bədii yaradıcılıqla da məşğul olmuşdur. N.Abdullayev 2016-cı il may ayının 19-da vəfat etmişdir.

Ana

Dünyanın ən ləziz, şirin neməti,
Dilimin əzbəri, sözü, söhbəti,
Gözümün işığı, qolum qüvvəti,
Qüdrətim, zəfərim, şanımsan, ana!

Sənə sevgilərim gəlməyir sana,
Bilmək istəyirsən? Hər şeydən yana,
Göydə ulduzları birbəbir sana,
Döyünən ürəyim, qanımsan, ana!

Qucağın bir aləm, dizin bir aləm,
Laylan bir aləmsə, sözün bir aləm,
Dünyan bir aləmdir, özün bir aləm,
Mənim dünyamsan, cahanımsan, ana!

Hansı sözü deyim, bilmirəm sənə,
Gəl bu qəbahəti bağışla mənə.
Bəyan eyləyirəm mən dönə-dönə
Cismimsən, ruhumsan, canımsan, ana!

Olmasın

Bir arzum var, şanslı-şanssız adamlar,
Səadət sizlərdən uzaq olmasın.
Aydın səma altda xoşbəxt yaşamaq
Heç zaman bizlərdən uzaq olmasın.

Günəş nur çiləsin çəmənə, düzə,
Gecələr bürünsün nurlu gündüzə.
Baxsana, yaraşır toy, büsat bizə.
Dualar, sənalar yasaq olmasın.

Xəyalım atlandı yenə uzağa,
Kölgəm düşəcəkmi anam torpağa?
Xoş günlər yan alsın oğul-uşağa,
Qəlblərdə duman, çən, sazaq olmasın.

Firavan böyüsün bütün körpələr,
Heç kəsin zəhməti getməsin hədər.
Yox olsun dillərdən qəzavü-qədər
Dünya mizanında duzaq olmasın.

Necə yazmayım?

Qoynunda dünyaya gəldiyim yurdun,
Adına bir dastan necə necə yazmayım?
Gəlin təbiətin öpdüm üzündən,
Ürək oldu şan-şan, necə yazmayım?

Nizami şöhrəti gəzir dünyada,
Füzuli! Baş əyir sevən bu ada.
Fətəli, Bəxtiyar gəzdiyi yurdda
Böyük alişandan necə yazmayım?

Yurduma bəzəkdir mavi Göygölüm,
Uca yaylaqlarım, yamyaşıl çölüm.
Barlı, bərəkətli Muğanım, Milim,
Göygöldən, Muğandan necə yazmayım?

Çiçək Şəkisinə sən bir sal nəzər,
Şirin zarafatı dillərdə əzbər,
İpəyi əllərdə, dünyanı gəzər,
Bu şöhrətdən, şandan necə yazmayım?

Ana yurdum, hər an sən qəlbimdəsən,
Arzumun, sevgimin qəlibində sən.
Ən uca zirvə də sən, qəlbi də sən,
Anam Azərbaycan necə yazmayım?

Bayatılar

Əzizinəm az olmaz,
Bir gül ilə yaz olmaz.
Vətən üçün canından
Keçənlər unudulmaz.

Mən aşiqəm dil olar,
Qönçə açar, gül olar.
Həsrət dolu hər anım,
Uzanıb bir il olar.

Bülbül durmaz qəfəsdə,
Vəfa yoxdur bir kəsdə.
Hər an gözlərəm səni
Göz yolda, qulaq səsdə.

Əzizinəm dağ olar,
Bülbül ötər, bağ olar.
Vətəndə keçən günlər
Ömürdə xoş çağ olar.

Mən aşiqəm yaz gələr,
Durna gələr, qaz gələr.
Vətəni görən könlə
Yeni bir avaz gələr.

Mən aşiqəm bağlaram,
Dəniz kimi çağlaram.
Vətəndən ayrı düşsəm,
Ah-zar edib ağlaram.

Mən aşiqəm barı sən,
Dər yetişmiş barı sən.
Mənim köhnə yaramı
Təzələmə barı sən.



AKƏM XAQAN

1966

Məmmədzadə Akəm Xanbaba oğlu 1966-cı il sentyabr ayının 2-də
Şəki rayonunun Kiş kəndində anadan olub.
1983-cü ildə Kiş kənd orta məktəbini,
1987-ci ildə Mingəçevir Mühasiblər Məktəbini bitirib.
1987-2005-ci illərdə Sosial Təminat Sistemində çalışıb.
"Vətəndaş rəyi" qəzetinin təsisçisi baş redaktoru olub,
hal-hazırda təqaüddədir.
"Səninlə dünyaya baxmağa dəyər" şeirlər kitabının müəllifidir.
Ayrı-ayrı toplularda və dövrü mətbuatda
rus və tatar dilindən tərcümələri,
tənqidi yazıları, şeirləri və hekayələri çap olunub.
DGTYB-nin üzvüdür.

Dəniz

Mən sənin gözündə dəniz görmüşəm,
Səni də dənizlə birgə sevmişəm.
Sənə nişan üçün aldığım üzük
Sıxdı barmağını, dünyamı qatdın,
Çıxardın, qaytardın,dənizə atdım.

Dənizlə baş-başa qaldım, o axşam...
O gündən dənizlə nişanlanmışam.
Dənizin nə qərib sükutu varmış;
Özümü dənizin qoynuna atdım,
Ruhum təzələndi, murada çatdım.

Sənli də, sənsiz də getdiyim dəniz
Qoymadı yaşayım tənha, kimsəsiz.
Dalğalar qoynunda sehirlənmişəm;
İndi də mənimçün su pərisisən.
Gözündə dəniz var, dənizdə də sən.

Göz

«Ürəyin aynası gözdür!»-deyirlər.
Mənaya yüklənmiş bir söz deyirlər.
Yaxşıdır, yamandır, hikməti bəlli;
Bir baxış aləmi dəyişə bilər.
Aləm bir baxışnan tərs düşə bilər.

Qüdrətə, qüvvətə, cəsarətə bax.
Ovsuna, caduya, əsarətə bax.
Sehirli bir çığır, sirli bir düyün
Başımda ulduzdu əbədi yanar,
Yolumu, izimi işıqlandırar.

Qurtuluş

Yerin, göyün göz yaşı, çərləmiş sis-dumandı.
Soyuqlamış nəfəsdi, o üşüyən gümandı.
Buzladıqca qar olur, bərkidikcə qar daşı;
Bəs bu nə yağlı quyruq, bu nə qazandır belə?
Bu nə haray-həşirdi, bu nə azandır elə?

Döyüşkən xoruz kimi durduq elə üz-üzə.
Ağlımıza batmayan hər şey bizə möcüzə.
Bizim ağlımız azıb, bizi tale qarğamış:
Elə dünya malını qafsamaqdı peşəmiz!?
Qan töküb, qan ağlamaq, çərləməkdi nəşəmiz!?

Gəldi-gedər yolçusan, yollarda yaşıyırsan.
Başının baş daşını dalında daşıyırsan.
Bu adicə daş deyil, yanaşı qoy, bir düşün;
Elə başıdaşlısan, daş başından iridi!?
Başın daşdan ağırdi, daş başının sirridi!?

Adəm babam itirən bir cənnət var, get axtar!
Gedəndə də nə olar, bir beşini çək, apar.
Niyə yoldaş olasan cəhənnəmə gedənə?
Tamahınmı güc gəlir?
Bu ki, adi həvəsdi!?
Yerlə, göylə savaşmaq nadanlıqdı, əbəsdi!

Gəl, özünə sahib ol, mənliyini görk elə!
Nə kimsəyə kölə ol, nə kimsəyə hökm elə!
Elə vətəndaş kimi qoy haqqları yerinə;
Budur sənin qurumun!
Budur sənin qurluşun!
Yeganə çıxış yolun,
Yeganə qurtuluşun!

Qurtardı

Tanrı mənə var qıyıb,
Gözlərindən parlayıb
Bir od düşüb içimə.
Ruhum, hissim alışıb,
Varım, yoxum qarışıb.

Bu od-alov yatmasa,
Səndən kömək çatmasa,
Yanasıyam büsbütün.
Deyərsən ki, nə vardı?
Bir şam yandı... Qurtardı.

Seçib, seçilirik elə nədənsə...

Əlliyə-əlliyə badam seçirik,
Adama oxşadıb, adam seçirik.
Guya ki, ayırıb ağı qaradan:
Cadulu, ovsunlu, sehirli "qutu"
Aranda"bəy"seçir, turanda"lotu".

Kimi "haqlı" gəzir, haqqa güvənir,
Adam dolandırır, hoqqa öyrənir.
Di gəl, ələklənib axıra qalan
Sahibsiz köpəkdi, viranə damdı.
Sevgiyə, diqqətə möhtac adamdı.

Yaxşıdı, yamandı seçək, öyrənək.
Kiminsə keyfinə keçək, bəyənək.
Seçib, seçilirik elə nədənsə;
Tanrı bizi seçib, qınayanmıram
Biz kimi seçirik, anlayanmıram.

SADİQ ZAMAN

1966

Sadiq Zaman oğlu Qarayev-Sadiq Zaman 1966-cı il aprel ayının 5-də Bakı şəhərində anadan olub. Bakı şəhər 190 saylı məktəbdə orta təhsil alıb, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakultəsini bitirib (1990).
Əmək fəaliyyətinə Şəki rayonunun Suçma kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamış (1990-1992).
Bakı Kompyuter Liseyində ixtisası üzrə dərs demiş.
Ötən əsrin 90-cı illərinin ortalarından müxtəlif mətbuat orqanlarında – "Xalq qəzeti", "Naxçıvan", "Həftə içi" və digər gündəlik ictimai-siyasi qəzetlərdə çalışmış.
2005-ci ildən "Azərbaycan işıqları" qəzetinin redaktorudur.
Yaradıcılığa erkən yaşlarından başlamış. "Ağ günlər sorağında" sənədli romanı (2004), "Qızıl balıq" kitabı (2005) və "Göylərə ucalan yol" kitabı (2010) çap olunmuşdur.
Çağdaş Azərbaycan ədəbiyyatında özünəməxsus dəst xətti, yazı üslubu, deyim tərzi ilə seçilən Sadiq Zaman "Qızıl qələm" media mükafatına (2010) layiq görülmüş.
1999-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin,
2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Cəsur drujinaçı

Bəşəriyyəti fəlakətdən-fəlakətə sürükləyən müharibə hələ davam edirdi. Hər gün cəbhə boyunca minlərlə ev dağılır, yaşayış məntəqələri yerlə yeksan olurdu. Arxa cəbhədə də hər bir insan məskəni yağı təyyarələrinin təhlükəsi altında idi. Təyyarə bombardmanlarından qorunmaq üçün gecələr işıqların yandırılması qadağan edilmişdi. Əhalinin bu göstərişə əməl etməsinə ciddi nəzarət olunurdu.

Qabaqcıl komsomolçular arasında bu işə cəlb olunanlar daha çox idi. Qaydaya görə, drujinaçılardan biri evlərə nəzarət edir, digəri isə küçədə avtomobillərin hərəkətinə qadağa qoyurdu. O dövrün say-seçmə komsomolçularından olan Əsmayə Fərəcova da drujina dəstələrinin tərkibində fəal iştirak edirdi.

Soyuq qış gecələrinin birində Əsmayə yenə də öz küçələrində növbə çəkməkdəydi. Qar yağmasa da, hava şaxtalı idi...

Yeniyetməlik çağını yaşayan Əsmayənin üzərində indidən dağ boyda məsuliyyət vardı. Həyatın amansız sınaqları dəfələrləqəlbini qırmışdı. Amma o, dişini-dişinə sıxıb hər şeyə dözürdü: sümüyünə qədər işləyən bu şaxtaya da, atasının, qardaşının yoxluğuna da, ağır məhrumiyyətlərə də... Nəyin bahasına olursa olsun ayaqda qalmağa, amansız zaman qarşısında büdrəməməyə çalışırdı. Çalışırdı ki, birtəhər də olsa, yaşayıb, başqalarını da yaşatsın: evdə dərddən başını itirmiş anasını, bacı-qardaşını, xəstə Minayənin üç körpəsini, qonşu Sayalının yetimlərini...

İndi öz küçələrində keşik çəkdikcə gecənin zülməti onu vahimələndirmirdi. Kimsəsiz küçələrin nəyindən qorxacaqdı ki?! Bəlkə də, onun bu yaşa qədər çəkdiyi zilləti küçələr çəksəydi, indi çoxdan qorxub qaçmışdılar.

Gecə yarıdan keçəndə şaxta daha da kəskinləşdi. Bu vaxt uzaqdan gecənin zülmət köynəyinin yaxasını yarmağa başlayan bir cüt işıq göründü. Əsmayə bunu görcək əvvəlcə yeyin addımlarla, sonra isə yüyürərək işıq gələn tərəfə qaçdı. Elə qaça-qaça da yaxasından asılmış fiti bərkdən çalırdı.

Lakin yaxınlaşmaqda olan avtomobil gecənin səssizliyini pozan bu fit səsinə məhəl qoymadan irəliləyirdi. Əsmayə onu başqa yolla saxlatmağın mümkün olmadığını görcək yolun tən ortasına çıxıb maşının qabağını kəsdi. Gecənin zülməti kimi qapqara bir maşın Əsmayənin düz qarşısında dayandı.

Maşın dayanan kimi qapısı cırıltı ilə açıldı və qəzəbli kişi səsi gecənin qaranlığında gurladı:

– Ə, nağarırsan, maşının altına niyə girirsən? Həyatından bezmisən?!.

Gözlərini güclü işıq seli qamaşdıran Əsmayə hələ də yolun ortasında dayanmışdı:

– Yoldaş sürücü, bayaqdan fit çalıb xəbərdarlıq edirəm, maşını niyə saxlamırsız? Bilmirsiz ki, axşam saat 8-dən səhər 6-ya qədər küçələrdə hərəkət qadağandır?!

– Bura bax, mən tək deyiləm, Mürsəl dayını aparıram!.. Özü də habı şəhərdə postda dayanan təkcə sənsən bəyəm? Sənə qədər əlli dənə həbilə post keçmişik. Hamısında da Mürsəl dayını görən kimi yol verib buraxıblar.

– Sən hələ bir işıqları söndür, gözümü lap kor eləmə.

Sürücü deyinə-deyinə işıqları söndürəndə Əsmayə maşına yaxınlaşıb ondan sənədlərini tələb etdi. Sürücü bundan lap qeyzləndi:

– Ay bala, sən, deyəsən, lap ağ elədin ha. Nə sənəd-mənəd salmısan?! Yanımdakı dağ boyda kişini görmürsən? Yoxsa, Mürsəl dayının habı boyda rayonun naçənnik milisi olduğundan xəbərsizsən?!

– Mənim üçün heç fərqi yoxdur. Kimliyindən asılı olmayaraq, qanun hamı üçün birdir. Hamı da ona əməl etməlidir. Bir halda ki Mürsəl dayı özü bu haqda qərar verib, deməli, o özü hamıdan əvvəl bu qanuna riayət etməlidir.

– Ay qız, çəkil yolumdan...

– Yoldaş sürücü, xahiş edirəm, sənədləri...

...Sürücünün yanında oturan cüssəli kişi Əsmayənin inadkarlığını gördükcə üzündəki sərt ifadə yavaş-yavaş mülayimləşirdi... Eşmə bığlı, pəhləvan cüssəli olduğuna görə, camaat öz aralarında ona "Koroğlu" deyərdi. İnsanlara qarşı səmimi münasibətinə görə isə hamı ona "Mürsəl dayı" deyə müraciət edərdi. O, bu vaxta qədər həyatın hər üzünü görmüşdü. Lakin indi gənc bir qızın heç nədən çəkinmədən öhdəsinə düşən vəzifə borcunu cəsarətlə yerinə yetirməsi Mürsəl dayını heyrətləndirirdi. Elə bu heyrət içində də sürücüyə səsləndi:

– Sənədləri ver qıza!

– Nə? – sürücü çaşıb qaldı.

– Deyirəm, sənədləri ver... qız haqlıdır. Səhərə qədər burada gözləməliyik.

– Axı...

– Axısız-filansız!

Əsmayə şaxta kəsən əli ilə sənədləri sürücüdən alıb cibinə dürtdü. Sonra isə maşından aralanıb küçədə var-gəl etməyə başladı. Elə bu vaxt ikinci drujinaçı ona yaxınlaşıb qorxa-qorxa dedi:

– Əsmayə, sən nağardın? Mürsəl dayını niyə saxladın?.. Heç bilirsən, sabah başımıza nə oyun açarlar? Hələ üstəlik komsomoldan, məktəbdən də qovarlar...

Gecənin səssizliyini yaran bu sözlər Mürsəl dayının da qulağına çatırdı. O bu danışıqdan cəsur qızın adının Əsmayə olduğunu öyrəndi. Maşın dayandıqdan sonra kabinənin içi soyumağa başlamışdı. Soyuqdan büzüşən Mürsəl dayının gözü isə küçədə gəzişən drujinaçılarda qalmışdı: "Allah bu faşistlərin evini yıxsın! Gül kimi balalarımız qışın şaxtasında gör nə əzab-əziyyət çəkirlər..." Beynində bu fikirlər dolaşırkən keyimiş əli ilə qapının dəstəyini burdu. Maşından düşüb ağır addımlarla drujinaçılara yaxınlaşdı:

– Əsmayə, gəl yoldaşınla bərabər kabinəyə keç. Bu gecə hava çox soyuqdur. Donarsınız.

– Yox, yoldaş...

– Mənə hamı kimi, sadəcə, Mürsəl dayı de.

– Oldu, yoldaş Mürsəl dayı... Amma biz iş başındayıq. Maşında otura bilmərik. Vəzifəmizi axıracan yerinə yetirməliyik.

Mürsəl dayı bu qəti cavabdan təsirləndi:

– Kaş hamı sənin kimi olaydı, Əsmayə... De görüm, kimin qızısan?

– Çörəkçi Şirinin.

– Hə, tanıyırdım rəhmətliyi. Mərd, sözübütöv, əliaçıq adam idi. Hayıf ondan. Qara torpaq həmişə yaxşı adamları tez qucağına alır... Amma səndən də yaxşı hüquq işçisi çıxar ha. Qorxmaz, mərd, diribaş qızsan.

– Hə, əvvəllər mən də belə düşünürdüm, prokuror olmaq istəyirdim. Amma atam razı olmadı. O, məni müəllim kimi görmək istəyirdi. İndi gərək oxuyub müəllim olam ki, atamın ruhu şad olsun.

– Oxu, qızım, oxu. Hansı sənətin sahibi olursan, ol, çalış həmişə yaxşı işçi olasan.

...Səhər işıqlaşanda Əsmayə keyimiş əllərini zorla cibinə salıb sürücünün sənədlərini özünə qaytardı. Qara maşın ağır-ağır yerindən tərpənib uzaqlaşmağa başladı.

Həmin hadisədən üç gün sonra Şəki rayon komsomol komitəsinin iclası keçirildi. Hamı toplaşdıqdan sonra birinci katib ayağa qalxıb şəhərdə fəaliyyət göstərən drujina briqadalarının işini təhlil etdi. Sonra bu işdə fərqlənən Əsmayə Fərəcovanın müsbət keyfiyyətlərindən ağızdolusu danışdı. Başqa natiqlər də bir-bir ayağa qalxıb Əsmayə haqqında xoş sözlər söylədilər. Tədbirin sonunda rayon komsomol komitəsi Əsmayə Fərəcovaya hər ay 300 manat təqaüd kəsilməsi haqqında qərar qəbul etdi.

Düzdür, həmin dövrdə 300 manata üç dənə çörək almaq olardı. Lakin Əsmayə təqaüd barəsində eşidəndə çox sevindi. Sevindi ki, bu pulla evdəkilərin qarnı, azacıq da olsa, doyar. Əsmayə Fərəcova həmin təqaüdü onuncu sinfi qurtaranacan hər ay mütəmadi olaraq aldı.

GÜLNARƏ ƏSGƏRZADƏ

1967

Əsgərzadə Gülnarə Əliyar qızı 1967-ci il aprelin 13-də
Şəki şəhərində anadan olub.
Şəhər 5 saylı orta məktəbində natamam orta təhsil aldıqdan sonra
Şəki Mexanika Texnologiya Texnikumunu bitirib.
Orta məktəb illərində ədəbiyyata böyük maraq göstərib.
2006-cı ildən qardaş Türkiyə respublikasının
müxtəlif dərgiləri ilə əməkdaşlıq edir.
Hazırda "Sevgi yolu", "Ortanca", "Mahsunice", "Kumru"
dərgilərinin Azərbaycan təmsilçisidir.
Türkiyədə Bursa şəhərində yaşayır. iki şeir kitabının müəllifidir.
Ədəbiyyat yolunda uzun yolçuluğunu davam edir.

Sən olmasaydın

Mənası olmazdı baharın, qışın
Nə əsən küləyin nə də yağışın.
Buz tutub donardı bəlkə baxışım,
Əgər bu dünyada sən olmasaydın.

Bom-boş görünərdü mənə bu həyat,
Nə ləzzət alardım, nə də ki bir dad.
Ağlıma gəlməzdi vüsalla murad,
Əgər bu dünyada sən olmasaydın.

Duygu çinarlarım dallanmaz idi
Bu can həsrətindən sallanmaz idi
Sevdam kamilləşib ballanmaz idi,
Əğər bu dünyada sən olmasaydın.

Mən sənə dikmişəm iki gözümü,
Sənlə tapmışam inan özümü.
Kimə söyləyərdim ürək sözümü,
Əgər bu dünyada sən olmasaydın?

Həsrəti gözümə yığıb gedərdim,
Sevdamı könlümə sıxıb gedərdim.
Bir yolluq dünyadan çıxıb gedərdim,
Əğər bu dünyada sən olmasaydın.

Unuda bilmirəm

Tale yollarımda neçə dost vardı,
Kimi könül dostu,kimisi yardı.
Bu elə yara ki, cismimi sardı,
Unuda bilmirəm mən səni nədən?

Ən dərin yaranı əlinlə vurdun,
Qılıncdan kəsərli dilinlə vurdun.
Tikanlı-tikanlı gülünlə vurdun,
Unuda bilmirəm mən səni nədən?

Baxdığım dağların ardında qaldın,
Nə bir xəbər aldın, nə bir iz saldın.
Qəlbimi qoparıb özünlə aldın,
Unuda bilmirəm mən səni nədən?

Bilmirəm nə üçün bağlandım sənə,
Sən ki dərd vermisən, ancaq dərd mənə.
Duyanlar qınadı, eyləndi tənə,
Unuda bilmirəm mən səni nədən?

Ah çəkdim çiçəklər boynunu bükdü,
Buludlar qaraldı göz yaşı tökdü.
Bu həsrət çiynimə nə ağır yükdü,
Unuda bilmirəm mən səni nədən?

Sənli xatirələr hələ oyaqdır,
Bəzisi qaradır, bəzisi ağdır.
Bəlkə bu ayrılıq özü sınaqdır.
Unuda bilmirəm mən səni nədən?

Gülnarın gül üzü saraldı,soldu,
Məhəbbət badəsi zəhərlə doldu,
Yenə xatırlayıb gözləri doldu,
Unuda bilmirəm mən səni nədən?

Ağlama

Elə qəmli-qəmli baxma üzümə,
Gəl otur başını yasla dizimə.
Bu hicran məni də göynədir yaman,
Ağlama, gözünün yaşına qurban.

Öpərəm duz dadan göz yaşlarından,
Ala gözlərindən,qara qaşından.
Yenə dağ başını alıbdır duman,
Ağlama, gözünün yaşına qurban.

Sonbahar ömrümə açan çiçəksən,
Onu bil mənimçün dünyada təksən.
Bir gün qovuşarıq dəyişər dövran,
Ağlama, gözünün yaşına qurban.

Kaman səsi

Bir Kaman səsinə qulaq verdim mən,
Yenə aşiq oldum, yenə sevdim mən.
Getməsin könüldən sevginin izi,
Məncə o duyğudur yaşadan bizi.

Uzaqdan qulağa xoş gəlir bu səs,
Ruha qida verir hüzünlü nəfəs.
O kaman səsidir, o ney səsidir,
Sevən aşiqlərin könül səsidir.

Kaman çalır, qız oxuyur
Dünya sanki eşq qoxuyur.
Bələnmişdir eşqə dünya,
Eşqdə vardır başqa dünya.

Sevda gözəl, sevda dadlı,
Həsrət acı, vusal dadlı.
İllər keçər yel qanadlı,
Eşq əbədi bu dünyada.

İLAHƏ SÜLEYMANOVA

1967

Süleymanova İlahə İzzət qızı 3 iyul 1967-ci ildə
Şəki şəhərində ziyalı ailəsində anadan olub.
1992-ci ildə BDU-nun filologiya fakultəsini
fərqlənmə diplomu ilə bitirib.
Elə həmin il AMEA-nın Ədəbiyyat İnstitutunun
aspiranturasına qəbul olub.
1992-ci ildən BDU-nun Şəki filialında müəllim kimi
əmək fəaliyyətinə başlayıb, bir müddət
Şəki Pedaqoji Kollecində Azərbaycan dili və ədəbiyyat
müəllimi işləyib. 2010-cu ildən indiyədək ADPU-nun
Şəki filialının baş müəllimi.
AMEA-nın ədəbiyyat İnstitutunun dissertantıdır.
İlahə Süleymanova 1994-cü ildə
Türkiyə Cumhuriyyəti Diyanət Vəqfinin dəstəyi ilə keçirilən
"Türk dünyası şairləri arasında nət yarışması"
müsabiqəsində fərqləndirici yer tutaraq "Mənsiyon"
ödülünü qazanmış. "Kutlu doğum haftası" çərçivəsində
keçirilən Həzrəti-Məhəmmədin (S.A.S) şərəfinə
təşkil olunmuş tədbirlərdə iştirak etmək üçün
Türkiyəyə dəvət olunmuşdur.

Son Peyğəmbərimiz Həzrəti-Məhəmməd Mustafa Sallallahü Aleyhi və Alihi və Səlləmin Nəti

Sənə şərəfli sözlər
Nazildir Yaradandan.
Ey Möminlər Mömini,
Adın düşməz lisandan.

Vəhyi bizə gətirən,
Şübhələri itirən.
Aləmi sevindirən,
Xəbər verən "Quran"dan.

O biyət etdi həmən,
Canlandı orman, çəmən.
Bunca nemətə rəğmən
Nə ehtiyac gümandan?

Əmr eləmişdi Xuda
Müslümü bir vücuda,
Tanrı üçün sücuda
Başlayan dili-candan.

Haqq yolunla çapardı,
İnci sözlər yapardı.
Şəriəti qurtardın
Tarü-mardan, yeksandan.

Zalımların düşmanı,
Məzlumların gümanı.
Dərdlilərin dərmanı,
Müjdə verən Rəhmandan.

Münafiq də, tərs da,
Onu haqsız saysa da,
Əzabı çox olsa da,
Çəkilmədin meydandan.

Ulaşan səadətə,
Sarılan ibadətə,
Atılan şəhadətə,
Ayrılmayan vicdandan.

Ədalətdən bir qaya,
Ona bənzəmək röya.
Müsafurə, qonşuya
Ən yaxın bir insandan.

Dəf edən hər bəlanı,
Uzaq qılan zinanı,
Sapındıran fənanı,
Dinindən, müslümandan.

Olmuşları bilməsi,
Olacağı görməsi,
Nəsihəti, xütbəsi.
Şəfadır hər dərmandan.

O mübarək nəfəsi,
Ovsunlayır hər kəsi.
Hədisi-şərifəsi
Şəfadır hər dərmandan.

Dərya qədər kəmalı,
Nurdur üzü, cəmalı,
Ağıl-dövləti, malı,
Aşinadır dövrandan.

Bilər işin xeyrini
Sakin tutar səbrini
Əsrləri, əsrini
Aydın qılar pünhandan.

Şeytandan təqibi yox,
Ürəyində kini yox,
Vallah, onun təki yox,
Heç danışmaz yalandan.

İnsandır yaranışı,
Yox qüsürü, yalnışı,
Həyatı, davranışı
Nişanədir ərkəndan.

Şərəf hər şəxsiyyətə,
Bütün səmimiyyətə,
Yaraşıqdır cənnətə
Əzəldən,cavidandan.

Dini dinlər qolayı,
Öncə söylər olayı.
Yeri olub dolayı
Kəbeyi-alişandan.

Qəlbində bir həqiqət,
Allah eşqi,məhəbbət.
Şəkk edən olar,əlbət,
Peşman Əbu Süfyandan.

Haqq yazanı haqq bilir,
Günahı yasaq bilir,
Muhammədim seçilir
Yaqub Beytüləhzandan.

Sözünə şəkər qatar,
Pisliklәri unudar,
İşin zorundan tutar,
Heç yapışmaz asandan.

Qaldıraraq zilləti,
Bir qıldı hər milləti.
Öyrənəlim zəhməti
Rəsuli-alişandan.

Saldı bizi yadına,
Dedi xanım adına:
"Xeyirliniz qadına
Xeyirli olanlardan".

Ruhu, imanı təmiz,
Yeri,məkanı təmiz,
Yahu, vicdanı təmiz,
Təmiz külli-cahandan.

Əbubəkrin sədaqət,
Ömərinsə, ədalət,
Əliheydərin ismət,
Əzəmət də Osmandan.

Ulaşan səadətə,
Sarılan ibadətə,
Tapınan şəhadətə,
Ayrılmayan peymandan.

Rəsul paklıq mehrabı,
Haqq gününün hesabı,
Ya Rəb, dini kitabı
Qoru bədgümanlardan.

Muhammədi öyəlim,
Təriflər söyləyəlim,
Oxuyub-öyrənəlim,
Səhabeyi-ikramdan.

Mustafanı sevərik,
Haqq yoluyla gedərik.
Həmişə şükr edərik
Tanrı verən ehsandan.

Nəsibi bərəkətə,
Hüdası hərəkətə.
Ona yazdığım nətə
Ya gözəllik Rəhmandan.

Mövlam, yardım quluna,
Haqq qazandır yoluna,
Rəbbin son rəsuluna,
Həp sevgilər Turandan.

Aşiqəm hər işinə,
Allaha sevgisinə.
Haqqın son elçisinə,
Salam Azərbaycandan.

Saleh əməl yapalım,
Peyğəmbəri analım,
Allaha tapınalım,
Yardım bizə Rəbbandan.

Müəllim

Gözündə məhəbbət, qəlbində təlaş,
Ömrün keçib gedir hey yavaş-yavaş...
Biz övlad yetirdik, sənsə vətəndaş,
Vətən qiymət verər sənə, müəllim.

Təmkinin tükənməz,eşqin tükənməz,
Nə qəlb əsirgədin,nə də ki, həvəs,
Nə yoldaş, nə sirdaş,nə də ki heç kəs
Səni əvəz etməz mənə, müəllim.

Kiçik sandığımız körpə fidanlar,
Gözlərindən duyub, səsindən anlar.
Olsa da yüz belə bilgisayarlar
Yerin bir başqadır yenə, müəllim.

Özün bir dəryasan, könlün xəzinə,
De bir nə tay olar öyrətdiyinə?
Min savab yazılır bircə hərfinə,
Vursaq neçə olar minə, müəllim?

NƏRGİZ ŞAHMİROVA

1968

Şahmirova Nərgiz Kamil qızı 1968-ci il iyulun 16-da Şəki rayonun Şin kəndində anadan olmuşdur. Hal-hazırda Keşməli kənd məktəbində müəllim işləyir. Bədii yaradıcılığa uşaqlıq illərindən başlayıb. mətbuatda şeir, hekayə və məqalələri çap olunub. Hekayələri Azərbaycan Respublikası Sərhəd Xidmətinin mükafatlarına layiq görülüb.

Balaca ayı balası və sərhədçi

(hekayə)

Uca sərt dağlar nə qədər çalışsalar da yeni doğmuş günəşin şüalarının qarşısını kəsə bilmədi. Bu şüalar qarşı dağın ətəyinə işıqla yanaşı istilik də gətirdi. Zirvədən bir qədər aşağıdakı qayaların arasındakı mağaranın qarşısındakı, Böyük ayının yanındakı balaca balasının zil qara gözlərinə də bu şüalar işıq salırdı. Balaca balasının günəşin şüaları altında oynadığına baxan Böyük ayı bəlkə də xoşbəxtliyindən nərildəmək istəyirdi. İstəyirdi Böyük ayının balasını necə sevdiyini bu dağlarda hər kəs bilsin, eşitsin. Ancaq, əlbəttə ki, Böyük ayı nərildəmədi. Yəqin ki, qorxdu böyük ayı balaca balasına təhlükə gətirməyindən. Böyük ayı bilirdi ki, bu dağlarda da hər kəs istədiyi kimi dəyərləndirir eşitdiyini. Bir də ki, xoşbəxt olduğu bu kiçik anlarda Böyük ayı da böyük ehtimalla onu itirməkdən qorxurdu. Bu səssiz günəşin altında səssiz xoşbəxtlik içində olan Böyük ayı aşağıda talaya doğru gedən cığırı tutdu. İrəlidə böyük ayı arxasından balaca balası aşağı enməkdədirlər. Aşağıdan-dərədən isə əsgər marşının sədaları yuxarılara yayılır, uca dağlarda əks-səda verirdi, dağların zirvələrinə qədər qalxırdı. Bunlar sərhədçilərdir. Yəqin Böyük ayı balasını başa salırdı. Əla oğlanlardır, qoçaq, qorxmaz, mərd. Yaman zirəkdirlər, bu dağların hər qayasına çığırına, daşına bələddirlər. Tək sərhəddi qorumurlar. Bu ətrafda təbiəti, ağacları, bitkiləri, bəzi quşları belə, onlar qoruyurlar. Gecə-gündüz sərhədçilər xidmətdə, keşikdədirlər. Bu səhərin ilıq şüaları ilə yanaşı budaqlardan əsən soyuq küləklər, xüsusilə sərhəd xidmətinə yeni gəlmiş əsgərlərin üzlərinə vuraraq onları ayıldır, sərtliyə, çətinliyə alışdırır.

Bu sərhədçilərin içərisində bir yenisi - hamının "Balaca" çağırdığı sərhədçi də bü səhər xidmət yerində idi. Böyük ayının dalınca gedən balaca ayı balası kimi o da sərhədçi dostlarının dalınca gedir, daha doğrusu çalışırdı ki, geridə qalmasın. Ancaq neyləsin, geridə qalırdı bir qədər.

Sərhədçilər:

- Balaca, tez ol, geri qalma, - deyərək onu tələsdirirdilər. Bu sözləri eşidən kimi Balaca sərhədçi var gücü ilə qayalığı aşmağa çalışırdı. Axşam zastavaya hamıdan axırda gəlirdi. Elə yorulurdu ki, lap balaca ayı balası kimi, izin versəydilər sərələnib yatardı. Ancaq Balaca sərhədçinin hələ görüləcək işləri çoxdur.

Bir neçə vaxtdan soma artıq balaca sərhədçi möhkəmlənmişdi. Nə soyuq sular, nə soyuq küləklər onu üşütmür və ən əsası bu dağlarda

sərhədçi dostlarından daha geridə qalmırdı və mən deyərdim əksinə, bəzən öz çevikliyi ilə onlardan önə keçirdi. O, çox dəyişmişdi, ancaq adı elə Balaca qalmışdı və dağlarda yenə sərhədçi dostları onu "Balaca", – deyə çağırırdılar. Sərhədçilərin səslərini böyük ana ayı və balacə balası da eşidirdilər hərdən. Düzdü, balaca ayı balası da bir qədər böyümüşdü, ancaq yenə bala olaraq qalmışdı. Elə anasının dalınca gəzintiyə çıxırdı. Ancaq bu gün çox dumanlıydı hava. Duman olanda dağlar, qayalar daha vahiməli və bir o qədər də qorxulu görünürdü. Duman elə sıx idi ki, ondan az da olsa işığın keçməsi mümkünsüzdü. Ancaq qəribədir ki, qaranlıq da deyildi. Dumanda boğulan bir səhər idi. Sərhədçilər və əlbəttə ki, balaca sərhədçidə öz işlərində idilər. Birdən sərhədçilər yuxarıdan daşların töküldüyünü görməsələr də,tökülən daş səslərini aydın eşitdilər.

Sərhədçi:

– Balaca, xəbər ver, yuxarıda kimsə var.

Balaca sərhədçi:

– Bəlkə, Ana ayı və balaca balasıdır.

Sərhədçi :

– Yox, onların gəzinti yerləri, bilirsən, o tərəfdədir və bu cığırla qalxmırlar. Xəbər ver, tez!

– Oldu.

Çox qısa vaxtda sərhədçilər irəliləmişdilər. Duman da çəkilirdi. Ancaq hər yerə elə bil su səpib çəkilirdi duman. Hər tərəf çox sürüşkəndi. Amma sakitlik idi. Birdən bu qəribə sükutu iki güllə səsi və qərəbə nərilti pozdu. Sərhədçilər bu səslərdən ikiqat güc alaraq sürətlə səs gələn tərəfə getdilər. Sərhədçi:

– Balaca, xəbər ver. Böyük ana ayını vurub qanunsuz ovçular, kömək göndərin.

Balaca və sərhədçilər oraya çatanda artıq o biri sərhədçilər dəstəsi vurulub yerə sərilmiş böyük ana ayının yanına əl-qolları bağlı üç nəfəri daşların üzərində sərilmiş vəziyyətdə saxladıqlarını gördülər. Balaca sərhədçi o saat dedi:

– Bəs, balaca ayı balası hanı?

Sərhədçi:

– Balaca, sənə tapşırıq verirəm, bu dəstə ilə get, balaca ayı balasını tap. Sən artıq ətrafa yaxşı bələdsən.

Balaca sərhədçi bu qəmli gündə, nəhayət, gülər-gözləri ilə-komandirə:

– Oldu, dedi.

Balaca sərhədçi həmişə müşahidə etdiyi gəzinti sahəsini dostları ilə

axtarmağa başladılar. Hər qayaya, hər daşa baxdılar. Balaca sərhədçi artıq düşünürdü ki, bəlkə, o qorxub dərəyə yuvarlanıb, bəlkə... Ancaq birdən o nə isə qəribə bir səs eşitdi. Aid edə bilməsə də səs gələn tərəfə getmişdi ki, daşların arasına sığınmış qonur ayı balasını gördü. O, pəncələri ilə burnunun ucunu təmizləyirmiş kimi hərəkətlər edir, hələ də qorxduğundan gözlərini tez- tez qırpırdı. Balaca sərhədçi balaca qara gözlərində qorxu və böyük kədər olan ayı balasına yaxın gəldi, lap yaxın.

– Hə, balaca, gəl bura, qorxma. Məni tanımadın, sərhədçiyəm. Sən məni uzaqdan çox görmüsən, qorxma, gəl bura. Balaca ayı balası yenə qəribə səslər çıxararaq balaca sərhədçinin qucağına sığındı.

Balaca sərhədçi balaca ayı balasını başqa cığırla zastavaya tərəf apardı ki, o qorxunc yerdən, qorxunc insanların cinayət törətdikləri yerdən yan keçsin.Balaca sərhədçi istəmədi ki, balaca ayı balası görsün o yeri və bilsin ki, anası yoxdu. Artıq o həmin gündən öz sərhədçi dostları ilə hər şey elədi ki, balaca ayı təhlükədən uzaq olsun və güvənlə böyük ayı olub bu dağlarda gəzsin və uzaqdan sərhədçilərin marşlarının əks sədasını bu dağlarda güvənlə dinləsin.

SƏDAQƏT ABDULƏZİZOVA

1970

Abduləzizova Sədaqət Davud qızı 1970-ci il dekabrın 23-də Şəki şəhərində ziyalı ailəsində anadan olmuş, burada 3 saylı şəhər orta məktəbini bitirmiş (1989), Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində təhsil almışdır (1993-1998).
ADU-nun Dünya ədəbiyyatı kafedrasında laborant, sonra isə elmi işçi kimi çalışır (1998-ci ildən).
"Viktor Hüqonun əsərlərində Şərq motivləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.
Tələbəlik illərindən dövri mətbuatda şeir və məqalələrlə vaxtaşırı çıxış etmiş, "Natavan", "İlti qələm" və Həsən bəy Zərdabi media mükafatlarına (1997-2010), "Vətən" fəxri diplomuna layiq görülmüşdür.
Şair, publisist, ədəbiyyatşünas Sədaqət Davud qızı 2010-cu ildən Azərbaycan Yazıçılar Birliyinin, 1994-cü ildən isə Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

"Ömrə bağışlanan ömür" kitabından
Ömrün tale yolları

Bir ömür başladı. Əzəli, axarı bilinməyən ömür. Bu ömrün nə başlanğıcı, nə də bir sonu vardır. Sən demə talelər oxşar, müxtəlif olurmuş. İnsan özünün yaşamaq ömrünü başqasına bağışlayarmış.

Başqaları kimi o da bu dünyaya gəlmişdi. Amma yaşamaq qismәti ilə başqasının idi. Sən demə, Vəfadar başqa bir insana həyat verib yaşadacaq, özü isə əbədi olaraq sıramızdan gedəcəkmiş. Necə ki, yer üzünə xəyal kimi gəlmişdi, eləcə də xəyal kimi çıxıb getdi. Sanki bir nağıl idi. Yaşadı, əbədiləşdi.

Bir həyat yaşadı, nə az, nə də çox-cəmi 23 il. Bu 23 ilin sevincini, kədərini yaşadı. 23 ilin içində sərt qışını, baharını görmüşdü. Qışın dəhşətləri Vəfadarı heyrətə salmışdı...

Yol boyu uzanıb gedən yollar. Görən, ilan kimi uzanıb gedən bu yollar Vəfadara daha nələri demir, nələri xatırlatmırdı. Hardan bilәydi ki, ömrünü başqasına bağışlayıb, bir vaxt həsrətlə gözlədiyi uiversitet, tələbə dostları, sinif auditoriyası Vəfadarsız qalacaq. İnsan qanına susamış ermənilərin törətdikləri qanlı cinayətin həm şahidi, həm də şəhidi olacaq.

Kim bilir, bəlkə Vəfadarın heç ağlına da gəlməzdi ki, ayaq açıb yeridiyi doğma torpağında heç özü də bilmədən odlu silahlara tuş olacaq. İmtahanı verib əla qiymət alan Vəfadar başqa tələbələr kimi o da sevinəcək. Amma o gün Vəfadar imtahandan əla qiymət alsa da, üzü gülmürdü. Nədənsə, çox narahat hisslər keçirirdi. Görən, dünyamızın başına gələn fəlakəti əvvəldən necə duymuşdu?Nə üçün qəm dəryasına batmışdı, nə üçün gözlərindən sevinc yaşı yox,kədər yaşı tökürdü?

20 Yanvar günü Vəfadar qəmli-küskün bir payızı xatırladırdı. Görən,nə idi Vəfadarın gözlərindən axan yaş? Növbəti dəfə kəndə noyabrın 27-si gəldi. Lakin doğma yurdu Vəfadarı daha da sıxmağa başladı. Saatları, dəqiqələri saydı. Gecəni çox narahat yatır, gündüzlərsə dincəlmirdi Vəfadar.

Vəfadar Bakıya qayıtmağı daha üstün tutdu. Bəlkə, bu keçirdiyi o narahatlıq yuxusuz gecələrə son nöqtə qoya. Axı doğma Bakı yanvar günü matəm selinə batacaqmış, Vəfadarsa imdad diləyən yaralılara qan verib, həyata qaytaracaq.

Axı Vəfadarın taleyinə, başqasına bağışlanmış bir ömür düşmüşdü. O bunu Vətəni, xalqı qarşısında verməli idi.

Vəfadara dərs deyən rus dili kafedrasının dosenti Leyla Gərayzadə ona

demişdi: "Vəfadar, nə üçün narahatsan, çox qəmgin görünürsən. Deyəsən, bu imtahanlar səni dincəlməyə qoymur".

Bu zaman bu sözə bənd imiş kimi Vəfadarın göz yaşları sel kimi axmağa başladı.

– Çox darıxıram. Elə bilirəm ki, mənə nəsə olacaq. Ürəyimə damıb.

– Axı nə var ki, nə də sənə olsun?Belə şeyləri heç ağlına da gətirmə.

Bu zaman göz yaşlarını müəlliməsi görməsin deyə çölə çıxıb. Dostları dedi ki, koridorda xeyli ağladı. Vəfadar elə bil o gün hamıdan, hər kəsdən qaçmaq istəyirdi. İmtahandan çıxanlar əla qiymət alan tələbələrin hamısı sevinir, deyir, gülür. Vəfadarsa gülmür, əla qiymət alsa da, həyacanları get-gedə artırdı. Hər şeyi qabaqcadan elə bil duymuşdu Vəfadar.

Növbəti imtahandan əla qiymət alıb fikirli-fikirli sükuta qərq olan daş pilləkənlərlə aşağı enməyə başladı. Bir neçə dəfə dostları "Vəfadar, Vəfadar, Və-fa-dar!-deyə çağırdılar. Vəfadarsa arxaya çevrilib heç kimə baxmırdı.

Bakıya gələn, qartal kimi insanın üstünə şığıyan tanklara baxır, vahiməyə gəlirdi. Bir tankın yanından keçərkən "nə üçün gəlmisiniz? Axı Bakıda nə var?-deyə soruşdu. Vəfadar bu sözləri, görən, nə üçün deyirdi. O zaman qorxu-hürkü bilməyən Vəfadar, görən, o gün hansı ürəyin sahibi olmuşdu.

Küçədə insan qanı ilə rastlaşdı. Yolar boyu səpələnən insan qanı Vəfadarın düşmənə kinini, hiddətini daha da artırdı. Küçənin hər yerində insan cəsədi, qan seli Vəfadarı heyrətə gətirdi. İnsan cəsədlərinin tankın tırtılları altında əzilib, müsibət hala salındığına dönə-dönə baxdı. Az yaşlı körpələrin, ağsaqqal, ağbirçək, cavanların cəsədi al qana bulanmışdı. Göz yaşları Vəfadarın göz qapaqlarını açmağa qoymurdu. Hər tərəfdə anaların ah-naləsi, qız-gəlinlərimizin hönkürtüləri, bacıların "qardaş, hardasan, səsimə cavab ver"-səsi ucalırdı. Anaların "ay Allah, bu nə dərddir, necə dözüm?", körpələrin ata harayı, ata kəlməsi Vəfadara ox kimi sancıldı. Bayaqdan bu hadisələri seyr edən Vəfadar, olumla ölüm arasında mübarizə aparırdı. Qalanlar üçün yaşamalıyıq. Bayaqdan daş heykələ dönüb bu hadisələrin şahidi olan Vəfadar sanki özü də dönüb şahid olmuşdu. Tırtıllarının altında əzib bir neçə cavanı al-qanına boyayan tanklar asfalt boyu o tərəfə, bu tərəfə gəzib hərəkət edirdi. İntiqam hissi baş qaldırmışdı. Gücü son anda özünə çatan Vəfadar ağ xalatlı həkimləri gördü. Yaralıları təcili yardımla xəstəxanaya daşıyırdılar.

– Vəfadar da onlara köməklik edirdi. Sonra nəsə fikirləşib yol boyu qaçmağa məcbur oldu.

Asfalt yolları ilə qaçırdı ki, ...



MEHMAN MUSABƏYOV

1971

Musabəyov Mehman Həsən oğlu 1971-ci il aprelin 10-da Şəki şəhərində anadan olub.
14 saylı şəhər məktəbini bitirib (1988).
sonra Bakıda texniki-peşə məktəbində təhsil alıb (1988-1989).
Əmək fəaliyyətinə S.Rəhman adına Şəki Dövlət Dram Teatrında səhnə quraşdırıcısı kimi başlayıb.
Bakı Dövlət Gənclər Teatrında baş maşinist. "Buta" bələdiyyə marionet teatarında aktyor-kuklaçı işləmişdir. (1991-1993)
Bədii yaradıcılığa gənc yaşlarından başlamış.
hekayə, povest və məqalələri dövrü mətbuatda vaxtaşırı dərc olunur, ilk hekayə və məqaləsi 1990-cı ildə "Kefli İşgəndər" qəzetində dərc olunmuşdur.
"Şəngül, Şüngül, Məngül" (1996).
"Div oğlu Div" (1997) uşaq pyesləri tamaşaya qoyulmuşdur.
Nasir, dramaturq Mehman Musabəyov 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.
Hazırda Bakı Bələdiyyə Marionet Teatrında aktyor-kuklaçı işləyir.
Rus və Avropa ədəbiyyatından tərcümələr edir.

Niftəlinin kəşfləri
(bir parça)

Martda Niftəlinin on yaşı tamam oldu. Doğum gününü qeyd etməkdən söz salanda isə anasından qəti cavab eşitdi:

– Yoxdu bizim imkanımız!

Bir neçə gün kefi durulmadı. Artıq on yaşlı Niftəli sonrakı bulanıq günlərini anasından heç olmasa baxımsızlıq hüququ qoparmaq cəhdləri ilə keçirdi. Anası da arıq, cılız oğlunun sərbəst gəzib-dolaşmasına heç vaxt icazə verməsə də, bir gün etiraz edə bilmədi, həmin gün sanki daxilindən gələn bir səs yazıq arvadı hədələyirdi: "Oğlun böyüyür! Yolunu kəsmə, qoy böyüsün, yoxsa istəyirsən..."

Ərinin ölümündən sonra yuxu yozmaq bacarığı və yel xəstəliyi qazanmış, son altı ili yalnız mərhumun xatirəsi ilə yaşayan Tahirə başqa bir dünyanın – biçimsiz canlar dünyasının gerçəkliklərinə tabe olduğundan bu hədədən qorxdu və oğlunu yanında oturdub ona nəsil tarixçəsini danışmağa başladı. Uzun-uzadı danışılan tarixçənin birinci fəsli bundan ibarət oldu ki, yaşadıqları kəndin binasını Niftəlinin babası qoyub; bu etirafa Niftəli heç təəccüblənmədi də, ona görə yox ki, min birinci dəfə idi bunu eşidirdi, sadəcə ona görə ki, bu cür naqolay bir kəndin əsasını məhz elə onun babası qoya bilərdi.

Doğrudan da çox nataraz bir yer seçmişdi babası, yəqin qaçaq olmuşdu. Bircə onu demək kifayətdir ki, buraya işləyən avtobus hələ də kəndin içinə girməyə yol tapa bilmir – quzey sahildən dövrələmə uzanan sal daşlar silsiləsi kəndi Böyük Çin Səddi sayaq mühasirəyə alıb qalatək qoruyurdu...

Bu yaşayış məntəqəsinə ilk elektrik xəttini Niftəlinin atasının çəkdiyini isə tək anası demirdi, bunu bütün kənd danışırdı, heç yaddan çıxardımı, toyuq hininə işıq çəkmək istəyərkən kişini cərəyan vurmuşdu: rəhmətlik beş dəqiqəyə şişib öz ölçüsündən iki dəfə böyümüşdü, – görünür toyuqları yuxusuz qoymaq niyyəti Allaha xoş getməmişdi, – o gün cənazənin ağır olacağını bilən kənd kişilərinin hamısı köməyə gəlmişdi, lakin anlamışdılar ki, yazığın həcmi artsa da çəkisində dəyişiklik yox imiş. Hətta mərhumla düşmənçilik edən Şüşəgöz Abbasəli də öz nöyüt köşkünü arvadına tapşırıb yasa gəlmiş, cənazəni birinci çiyninə almaqla hamını təəccübləndirmişdi. Kənddə yanan ilk Edison lampasından sonra bazarı bağlanmış nöyütsatan Abbasəli indi onu torpağa tapşırmağa tələsirdi. Camaat kerosin lampası ilə elektrik lampasının qardaşlığını düşünüb kövrəlsələr də çiynində cənazə ilə hamıdan qabaqda addımlayan Abbasəli əslində mərhumun xortlamasından qorxurdu. İş onda idi ki, elektrikdən ölənlərin qəflətən dirilmələri haqda gəzən şayiələr kəndə daha tez yayılmışdı, nəinki elektrik cərəyanının özü.

Əlbəttə, Niftəlinin öz atası haqda eşitdikləri sonralar söz-söz, zərrə-zərrə üst-üstə qalanıb onun yaddaşında belə bir tarixi səhnə kimi möhkəmlənəcəkdi: günlərin birində kəndə üç naməlum şəxs gəlirmiş. Özlərini "Nurçu" adlandıran bu dinc-sakit adamlar köhnə idarə binasında bir otaq götürüb kənd adamları ilə görüşlər keçirir və onlara əsl müsəlmanın ibadətini, bir də islam fəlsəfəsini anladırlarmış. Necəsə olur, bu toplantılara bir-iki gün Niftəlinin atası da ayaq basmış olur. Tezliklə Allah müjdəçiləri necə qəfil gəlmişdilərsə, eləcə də qeyb olurlar və bu yarımçıq ünsiyyət onların varlıqlarını kənddə daha da ilahiləşdirir. Qəfil qeybolmadan atası heç nə anlamır, lakin bu gözəl görüşlərdən onun yadında bir kəlmə söz qalır: "Nurçular". Deyilənlərə görə kişi son günlərində özünü əsl nurçu hesab edirmiş, xüsusilə də kəndə elektrik məftillərini çəkəndən sonra; və bu ibadət növünün əsl mahiyyətini dərk edən kimi torpağın qaranlıq qatları ona ehtiyac duyur...

Amma bu sonralar, hələlik isə...

Nəsil böyük idi, Tahirə də bu nəslin yeganə davamçısını hələ uşaqlıqdan gözdənuzağa buraxmırdı, çünki onların paxıllığını çəkənlər yetimə pislik edə bilərdilər.

Anası sözünü bitirdikdən sonra, nəhayət, Niftəlinin Çəlləklə birgə kənd qırağındakı çimərliyə getməsinə icazə verdi, – oradakı nəhəng daşların üstü həmişə sürüşkən yosun və qara lehmə ilə örtülü olduğundan kənddə o yeri "neft daşları" adlandırardılar. "Qoy bu da ona ad günü hədiyyəsi olsun..." – Tahirə düşündü.

Sonrakı günlər Niftəli ha çalışdısa, çimərlikdə qazandığı ilahi hədiyyəni bilmədi kimin adına yaza: anasının, Çəllək Zamanın, yoxsa tısbağanın – bu qeyri-maddi hədiyyə onun ilk kəşfi idi.

Niftəlidən səkkiz yaş böyük olan Zaman ağlı kəsməyə başladığı ilk gündən heç kəslə oynamırdı, çünki kök uşaq olduğundan məhəllədə hamı ona Çəllək deyirdi, – buna görə kənd uşaqlarının hamısından incimişdi, bircə onu öz adı ilə çağıran Niftəlidən başqa, – nə vaxtsa könlünü alan yeganə qonşu bir vaxtlar Niftəlinin atası olmuşdu, o isə yəqin, indi Haqqın dərgahında işıqdan başı çıxan bir adam kimi özgə dəyər sahibiydi. Rəhmətlik sağlığında kök imiş, elə buna görə də qonşunun

balasını yaxşı başa düşürmüş. Bəlkə də onların köklükdə və gödəklikdə bir-birilərinə çox bənzər olmalarıydı ki, mərhum torpağa tapşırılan kimi Zamanda Niftəliyə qarşı doğma bir hiss oyanmışdı, tez-tez gəlib balaca Niftəlinin başını qatar və hərdənbir onu özü ilə oynamağa aparardı... Buna atalıq hissi demək... bir qədər qəribə çıxar, amma Niftəlinin atasını əvəz etmək meylinə ilkin səbəb, şübhəsiz, onun da mərhum kimi kök olması idi.

Kənddən aralandılar, dəniz sahili ilə xeyli yol getdilər. İlk dəfə idi ki, balaca Niftəli dənizin əzəmətini bu qədər yaxından duyur, qorxu qarışıq sevinc hissinin əsl keyfiyyətini və qəribə həzzini də ilk dəfəydi ki dadırdı. O, ikidəbir dönüb geriyə, uzaqlaşdıqca kiçilməkdə olan kənd daxmalarına baxırdı, o ki qaldı Zamana, onun ağzı açılıb-yumulur, nə danışdığı isə get-gedə yaxınlaşdıqları qayalığa çırpılan dalğaların nəriltisindən eşidilmirdi.

Onlar yerə basdırılmış uzun-uzun dəmir millərin qarşısında dayananda kənd artıq gözdən itmişdi. Üstünə "Pullu çimərlik" yazılmış iri lövhənin altındakı dəmir qapıdan yekə bir qıfıl asılmışdı – burdan o yana daha yol yox idi. Nə sahildə, nə də qəfəsə salınmış çimərlikdə bir kimsə gözə dəymirdi, sözsüz, onlar tələsmişdilər, çimərlik mövsümü hələ üç-dörd aydan sonra başlanacaqdı, bax onda qəşəng-qəşəng qızlar şəhərdən axışıb buraya gələcək, pullu çimərlikdən çoxlu pul yığacaq, nəhəng, çılğın dalğaları öz gözəl bədənlərilə ram edəcəkdilər... Lakin indi kəndə bikef qayıtmaq olmazdı, üstəlik də həddən artıq böyük bir qəfəsin içində düzəldilmiş qəribə mağaralar, köşklər, qamışdan qurulmuş balaca-balaca evciklər Niftəliyə gəl-gəl deyirdi, hələ üstəlik yuxarıdakı lövhə də çox şey vəd edirdi.

Niftəli dəmir millərin arasından keçə bildi, Zamanın isə heç bir cəhdi baş tutmadı və o, çöldə qalıb gözdən uzaqlaşan Niftəlini geri çağırmağa başladı, əgər birdən itsəydi, kəndə kiminlə qayıdacaqdı?...

VALİDƏ QƏMGİN

1971

Rəsulova Validə Əhməd qızı 1971-ci il iyul ayının 12-də Şəki rayonunun Baş Layısqı kəndində anadan olub. doğulduğu kənd orta məktəbini (1988), sonra isə Şəki Pedaqoji Texnikumunu bitirib.(2009) Ədəbi yaradıcılığa erkən yaşlarından başlamış, şeirləri dövri mətbuatda çap edilmişdir. Kamil insanın arzu və istəkləri,təbiət lirikası şeirlərinin əsas qayəsini təşkil edir. Validə Rəsulova şeirlərində "Qəmgin" təxəllüsünü də işlədir.

Ana

Əzəldən yazıldı taleyin qara,
Gəncliyin tuş oldu borana-qara.
Səni sadiq gördüm əhdə, ilqara,
Bir an səni darda qoymaram, ana!
Mən səndən doymaram, doymaram, ana!

Sərt oldu ömrünün yoxuşu-düzü,
Bir-birinə qatıdın gecə-gündüzü.
Zülmətdən işığa çıxartdın bizi,
Xəyalından ayrı uyumaram, ana!
Mən səndən doymaram, doymaram, ana!

Ana, gözlərində duman-çən nədi?
Vaxtsız saçlarına düşən dən nədi?
O qəmli günlərindən bir nişanədi?
Sənə qəm-kədəri qıymaram, ana!
Mən səndən doymaram, doymaram, ana!

Nursuz gözlərinə mən işıq ollam,
Ömrünə, gününə yaraşıq ollam.
Ayrılsaq, boynuna sarmaşıq ollam,
Sənsiz ömrü ömür saymaram, ana!
Mən səndən doymaram, doymaram, ana!

Qoymaram üstündən qara yel əssin,
Qoymaram yolunu boran, qış kəssin.
Ana, məhəbbətin bəsimdi bəsim,
Özgə, yad nəfəsə uymaram, ana!
Mən səndən doymaram, doymaram, ana!

Ürək tab gətirməz ana dağına,
Başımı qoyaram mən ayağına.
Solmaz çiçək oldun ömür bağıma,
Ətrini çöllərə yaymaram, ana!
Mən səndən doymaram, doymaram, ana!

Mənim

Neçə üzün həqiqət şilləsiyəm,
Neçə gözün ədalət zirvəsiyəm.
Neçə qəlbin sevinci, nəşəsiyəm.
Neçə qəlbdə taxtı-tacım var mənim.

Qəmli çöhrələrə təsəlli olub,
Nisgilli qəlblərə ümid vermişəm.
Sevinci, kədəri ellə bölmüşəm,
El rəğbətindən qazancım var mənim.

Qəmgin deyər, dərdi-qəmi ataram,
Elim dərdli olsa, yasa bataram,
Sevincimi kədərinə qataram,
El sevgisi tək güvəncim var mənim.

Dünya

Qoyma mərdi düşə dara,
Namərd vura ona yara.
Ağ günümü etdin qara,
İşindən utan, a dünya!

Oğru doğrunu qarğıyır,
Doğrunun qəlbi ağrıyır,
Nahaq haqqı qabaqlayır,
Əyri-düzü tanı, dünya.

Yurduma qara yel əsdi,
Xəyanət çox başlar kəsdi,
Sonda bildim nəydi qəsdi,
Gedən başı sana, dünya!

Dünya yoldu, gələn gedir,
Hərə bir gün bayram edir,
Qazandığım əldən gedir,
Etdiyini qan, a dünya!

Qəmgin, qəlbin qırıq neydi,
Ömrün-günün bir cam meydi,
Qorxduğum bircə o şeydi,
Bir gün haqqı dana, dünya!



NÜSRƏT KAMİLOĞLU

1971-2000

Nüsrət Kamiloğlu 1971-ci ildə Şəki şəhərində anadan olmuş, şəhər 7 saylı məktəbi bitirmiş, Şəki Məişət Texnikumuna qəbul olunsa da (1989), təhsilini başa vurmamış, ordu sıralarına çağırılmışdır. Ordudan qayıtdıqdan sonra bir müddət Şəki İpək Kombinatında, Şəki Uşaq Birliyində, daha sonralar isə Şəki Regional Elmi Mərkəzində çalışmışdır. Gənc yaşlarından poeziyaya maraq göstərmiş, "Səbuhi" ədəbi məclisinə qoşulmuş (1991), incə ruhlu şeirlər yazmışdır. Nüsrət Kamiloğlu 2000-ci il fevral ayının 5-də vəfat etmiş, əlyazmaları itmiş, ancaq dostlarında bəzi şeirləri qorunub saxlanmışdır.

Vətən türküsü

Səndən nə diləyim, ey doğma Vətən,
Tək sənin varlığın mənim bəsimdir.
Hər qarış torpağın ürəyimlə tən,
Ruhun öz ruyhumdur, öz nəfəsimdir!

Bir günəşdir istiqlalın, ey Vətən,
Şəfəqləri türküstana nur saçır.
Bitəcəkdir qeyri-qalın, ey Vətən,
Görəcəksən, düşmən səndən gen qaçır.

Bir acı həqiqət yandırır məni,
Kölə taleyində sürünənim var.
Yadı-yadellinin sıxıb əlini,
Məni öz içimdən gəmirənim var.

Qaranlıq yolları işıqlandırar,
Qara-qara əməllərlə barışmaz.
Üç rəngli bayrağı dalğalandırar,
Azərbaycan zindanlara sığışmaz!

Yaşasın türklüyün azadlıq səsi!
Yaşasın, yaşasın vətənim mənim.
Dünyanın ən təmiz, ən pak nəğməsi,
Çiçək tək qəlbimdə bitənim mənim!

Qoşma

Dəli könül, bil ki, səni incidən,
Yar əlilə yaralanmış yarandı.
Bəzək vurub yar özünə incidən,
Sanma səni yar düşündü, yar andı.

Dedi, çəkil, nə gəl, nə də yolum kəs,
Dedim, bəsdi, baxışınla yaram kəs.
Dedi, bil ki, yara aşiq olan kəs,
Fərhad kimi, dağı-daşı yarandı.

Ha söylədim, ətəyindən tök daşı,
Qəlb evimə sevgi dolu yük daşı,
Eşitmədi, qəlbimə vurdu daşı,
Boşa çıxdı yar peymanı, yar andı.

Günlər keçdi, ay dolandı, il ötdü,
Bahar gəldi, bağda bülbüllər ötdü.
Nişanlandı, gəldi yanımda ötdü,
Dərdimin üstündən bir dərd yarandı.

DƏHNƏLİ MƏMMƏD

1972

Məmməd Məmmədxamis oğlu Hacızadə 1972-ci il iyunun 20-də
Şəki rayonunun Böyük Dəhnə kəndində anadan olmuş.
Əsmayə Fərəcova adına Böyük Dəhnə kənd
2 saylı orta məktəbi bitirmişdir (1989).
əmək fəaliyyətinə Bakı şəhər ETK-da rəngsaz kimi başlamış.
2003-cü ildən İMEKS şirkətində, 2008-ci ildən isə KDM-də işləyir.
Orta məktəb illərindən ədəbiyyata böyük maraq göstərmiş.
şeirləri mərkəzi və yerli mətbuat səhifələrində dərc edilmiş.
"Mənim bəyaz dünyam" (2003).
"Qaçqın qız"(2005) şeirlər kitabı çap olunmuş.
"Azərbaycan" jurnalında (2008) dərc olunmuş
"Qoz" hekayəsi ədəbi ictimaiyyətin marağına
səbəb olmuşdur.

Hələ yaz könlümdən qış çıxarıram

Bu kövrək ürəklə qəddar dünyadan,
Bilmirəm, mən necə baş çıxarıram.
Ürəyim dənizdir, döyüntüm ləpə
Gözdən damla-damla yaş çıxarıram.

Ömür vəfa edib dolduqca yaşa,
Gedirəm tarixlə, zamanla qoşa.
Hər dəfə nahaqdan tutulsam daşa,
Düşmən qabağına aş çıxarıram.

Dəhnəli, şükr eylə bu günə barı,
Vardı ağlamağa ana məzarı.
Sorma ürəyimdə əriyən qarı,
Hələ yaz könlümdən qış çıxarıram.

Olmur

Yaşasaq da dünəni,
Sabahı bilmək olmur.
Heyrət götürüb məni,
Gülənlə gülmək olmur.

Düz hədəf götürmədik,
Bir çiçək bitirmədik,
Kimləri itirmədik?
Ölənlə ölmək olmur.

Sığınaraq Allaha,
Batmayaydıq günaha,
Doğularaq bir daha
Dünyaya gəlmək olmur.

Dönəydik

Uşaq baxışların zümzüməsiylə
Kövrəlib əvvələ, başa dönəydik.
Görən olmayaydı göz yaşımızı
Bulud gözlərində yaşa dönəydik.

Oxşayam telini xoş külək kimi,
Baxasan üzümə bir mələk kimi,
Açaydıq baharda tər çiçək kimi
Payızda köçəri quşa dönəydik.

Qalmayıb dünyanın əmanət yeri
Hardan başlanacaq qiyamət yeri?
Olub sevənlərin ziyarət yeri
Yollar ayrıcında daşa dönəydik..

O bulaq yenə də durulub çıxır

Gözündən itmişəm tale yazanın
Çörəyim gah gildən, gah daşdan çıxır.
Kimsəni bilmədim düşmən özümə,
Düşmənim yaxından, sirdaşdan çıxır.

Nələr gözləyərkən nələr görürsən,
Hər yolun sonunda bir güman çıxır.
Çiçək becərirsən, gül becərirsən,
Hər qönçə yanında yüz tikan çıxır.

Bulaq bulanarsa, hər addım başı
Sanma ümidləri qırılıb çıxır.
Yuyaraq torpağı, yuyaraq daşı,
Necə əzab ilə burulub çıxır,
O bulaq yenə də durulub çıxır.

Qızılgül kolu

Ah qızılgül kolu,qızılgül kolu,
Gövdən burma-burma əzabla dolu,
Oldumu halına yanan gövdənin?
Hamı çiçəyini seyr edir sənin.
Nə çoxdur qönçəni, gülünü dərən,
Əyilmiş cüssəni oldumu görən?
Tumurcuq tutunca, qönçə açınca,
Güllərin hər yana ətir saçınca,
Nələr çəkdiyini bilən oldumu?
Şehli gözlərini silən oldumu?

Qışın sərt soyuğu üşütdü səni,
Qar altda kim gördü,eşitdi səni?
Ancaq sən düşmədin heç vaxt həvəsdən,
Cücərdin, boyatdın ilıq nəfəsdən,
Ətir saçmaq oldu daim niyyətin,
Ən gözəl gülüsən sən təbiətin.

BAHAR SƏMİN

1973

Salehova Bahar Hüseynbala qızı – Bahar Səmin
1973-cü il martın 22-də Şəki şəhərində anadan olmuş.
1990-cu ildə şəhər 10 nömrəli orta məktəbi.
1997-ci ildə BDU-nun filologiya fakültəsini bitirmişdir.
Əmək fəaliyyətinə 1997-ci ildə
Şəki şəhər 14 saylı orta məktəbdə başlamış. 1998-ci ildən
şəhər 5 nömrəli orta məktəbdə dil-ədəbiyyat müəllimi işləyir.
Yaradıcılığa erkən yaşlarından başlamışdır.
Azərbaycanda və Türkiyədə nəşr olunan bir sıra dərgilərdə
şeirləri çap olunmuşdur. 2013-cü ildə şair T. Türkoylə birlikdə
çap etdirdiyi "Səhrada payız" və 2016-cı ildə
"Tanrı da ağlaya bilir" kitablarının müəllifidir.

Tanrı kimi sevərəm

Yatmış könlüm eşq səsinə oyansa,
Sevərəmsə, insan kimi sevərəm!
Bir gün əgər hicran düşsə araya,
Bax o zaman Tanrı kimi sevərəm!

Kimsə bilməz bu möhnəti, kədəri,
Yazan yazıb sevda adlı qədəri.
Atıb dərdi, saz götürüb mən dəli,
Sevdiyimi Tanrı kimi sevərəm!

Dörd bir yandan yalan gəlsə üstümə,
Dostlar düşmən olub dursa qəsdimə.
Mən çevrilib bir ilahi səs-ünə,
Yenə səni Tanrı kimi sevərəm!

Göz yaşımı mən töküb də ürəyə,
Dua kimi yetişib hər diləyə,
Mələk kimi çöküb sevən sinəyə
Vallah, səni Tanrı kimi sevərəm!

Darıxdım...

Sənincün bu axşam elə darıxdım,
Yerdən uzaqlaşıb göylərə qalxdım,
Ulduza çevrilib, Aya çevrilib,
Nur olub həsrətin qəlbinə axdım,
Bu gecə sənincün yaman darıxdım.

Ah çəkdim, ahımla dünyanı yaxdım,
Günün gündüzündə günəşə baxdım,
Bir anda buluda, yağışa dönüb
Sənin xəyalınla şimşəktək çaxdım,
Bu gecə sənincün yaman darıxdım.

Yanar ocağıma bir atəş qatdım,
Bir anlıq dərdimdə, qəmimdə yatdım.

Arzu, diləyimi nura çevirib
Eşqimdən ruhuna namələr atdım,
Bu gecə sənincün yaman darıxdım.

Gedim

Bəzən yorularaq tənhalığımdan,
Deyirəm qoşulum axına gedim.
Uzaq səfərimi təxirə salıb,
Sadəcə, beləcə yaxına gedim.

Yaxınlar yad olub yadlar yadlaşıb,
Ürəklər daş olub, daşlar daşlaşıb,
Bu dünya qocalıb yaman yaşlaşıb,
Varı sizə qalsın,yoxuna gedim.

Indi uzaqlar da yaxın görünür,
Dünyanın ürəyi məndə döyünür.
Qarşımda dayanıb eşqim öyünür,
Baş qoyub bu eşqin oduna gedim.

Təqvimdə olmayan günün bir günü,
Açıb insanlığın yalan düyününü.
Götürüb dünyanın kədər yükünü
Üsyankar ruhumun badına gedim.

İlahi qüvvənin nur yağışında,
Sevdaya dönürəm hər baxışında.
Əbədi bir eşqin ağ işığında,
Üz tutub Tanrının adına gedim

Siz gedən bir yola gələn deyiləm

Sındırılmış sazda qırılmış siməm,
İndi dindirsən də dinən deyiləm.
Bu fani dünyadan elə küsmüşəm,
Dönüb bir də onu sevən deyiləm.

Arzu, diləyimi gözümdə qoydu,
Kədər izlərini üzümdə qoydu.
Eşqimi qaytarıb sözümdə qoydu
Sözün taxtındayam, enən deyiləm.

Başımda ağladı gülüşüm, sözüm,
Eşqimin içində kül oldu dözüm.
Nə dosta, düşmənə dönmədi üzüm,
Siz gedən bir yola gələn deyiləm!

Ey adam!

Bir zaman canını qurban verirdin,
İndi bir salamı verməyən adam.
Bir vaxt hər kəlməmə can-can deyirdin,
İndi kölgəmdən də qorxursan, adam!

Bir zaman mənimlə nəfəs alırdın,
İndi o nəfəsin gedib gəlirmi?!
Məndə itirdiyin qorxaq ürəyin
Hərdən bir özünə gələ bilirmi?!

Gizlində sultanım deyirdin mənə,
İndi adımı da unudan adam.
Kim səni bu günə qoydu, ilahi
Məni də dünyaya soyudan adam!

TANGİZ SÜLEYMANOVA

1975

Süleymanova Tangiz Məmmədiyyə qızı - Tangiz Dəniz
1975-ci ildə Türkmənistanın Mari şəhərində anadan olub.
1983-1993-cü illərdə Şəki şəhər 19 saylı orta məktəbdə təhsil alıb.
2008-ci ildə Şəki Pedaqoji Texnikumunu bitirib.
Ədəbi yaradıcılığa erkən yaşlarından başlayıb.
Yaradıcılığında aşıq şeiri üslubuna meyl edən
Tangiz Dənizin ilk qələm təcrübələri olan
"Aylı gecə", "Ömrüm" şeirləri 1992-ci ildə
yerli qəzet səhifələrində dərc olunub.
Ədəbi yaradıcılığını indi də uğurla davam etdirir.

Olmaz-olar

O dünyaya köçən köçdü,
Yol tanıyıb gələn olmaz.
Ruhu gəzər sağ, solunda,.,
Səsin duyub bilən olmaz.

Sən demə ki, yol uzaqdı,
Sözlərinə gülən olar.
Udan beş qarış torpaqdı,
Tək-tək duyan, bilən olar.

Fələk yazar yazdığını,
İşlərini pozan olmaz.
Qarabasma yuxuları
Hər adamdan yozan olmaz.

Qara-qara yazıları,
Ağıllı baş pozan olar.
Qəlbi təmiz, ruhu uca,
Pisi yaxşı yozan olar.

Hər adamdan bel götürüb,
Torpaq, filan qazan olmaz.
Hər ağıllı olan başın
Səriştəli yazan olmaz.

Aç gözünü gen dünyaya,
Ətrafını qazan olar.
Dayaz görən, dayaz duyan,
Elə-belə yazan olar.

Yaşa

(Bacım oğlu Elvinin ad gününə)

Çoxu kimi demərəm,
Doxsan yaşa, yüz yaşa.
Ömür Allah payıdı,
Çalış onu düz yaşa.

Böyü igid, ərən ol,
Yaxın, uzaq görən ol.
Könülləri hörən ol,
Dərd, kədəri üz, yaşa.

Görüm toyun, büsatın,
Boş olmasın həyatın,
Qırılmasın qanadın,
Zirvələrdə süz, yaşa.

Sənin öz yolun var, mənim öz yolum

Ömür gün yolunda gərək anlayaq,
Sənin öz yolun var, mənim öz yolum.
Rast düşən yollara çəpər bağlayaq,
Sənin öz yolun var, mənim öz yolum.

Bulanan suların gözü durulub,
Xiffətdən ürəyin özü yorulub,
İzlər döncələrə dönüb, burulub,
Sənin öz yolun var, mənim öz yolum.

Sevda yollarında gəzək, azmayaq,
Yazılan yazını tərsə yozmayaq,
Gedilən yolları gəl qayıtmayaq,
Sənin öz yolun var, mənim öz yolum.

Nə yollar qaralsın, nə bəxt qaralsın,
Sevənlər sevinclə yollara baxsın.
Allah sevənləri sevib saxlasın,
Sənin öz yolun var, mənim öz yolum.

İlk sevgi könüldə nəhəng qaladı,
Günəşə bərabər çəkilər adı,
Biz burda, ötən gün çox uzaqdadı,
Sənin öz yolun var, mənim öz yolum.

Apar get

Qəlb evimi viran edib, göynədən,
Gedirsənsə, bu həsrəti apar get.
Sevincinə, kədərinə öyrədən,
Gedirsənsə, bu həsrəti apar get.

Ağlasa da gözümüzdə arzular,
Sızlasa da könlümüzdə duyğular,
Əvvəl-axır bu sevdanın sonu var,
Gedirsənsə, bu həsrəti apar get.

Dağılmasın heç yuvası quşun da,
Duyulmasın tənhalığı daşın da,
Qəlbin məndə, ağlın isə başında,
Gedirsənsə, bu həsrəti apar get.

Bu nə ağrı, bu nə acı, nə dərddi,
Sağı solu görünməyən sərhəddi,
Uçurumdu, sıldırımdı, son həddi,
Gedirsənsə, bu həsrəti apar get.

Bu gen dünya könül üçün qürbətdi,
Ümidləri daşa dəyən ülfətdi,
Sevinci də, nəşəsi də həsrətdi,
Gedirsənsə, bu həsrəti apar get.

ARAZ SƏMƏD

1975

Səmədov Araz Kamal oğlu - Araz Səməd 1975-ci ildə Şəki rayonunda müəllim ailəsində anadan olmuşdur. 1990-cı ildə Şəki rayon Baqqal kənd 9 illik məktəbini. 1992-ci ildə Şəki şəhər 19 saylı orta məktəbini bitirmiş və həmin il Azərbaycan İnşaat və Memarlıq Universitetinə daxil olmuşdur.İkinci kursdan təhsilini davam etdirə bilməmiş və hərbi xidmətə çağrılmış. 1997-ci ildə ordu sıralarından tərxis olunmuşdur. 2000-ci ildə ."Bəyaz vərəqlərə düşən naxışlar» adlı şeirlər kitabı işıq üzü görmüşdür. Şeirləri mətbuatda, saytlarda çap olunub.

Oğlum Dənizə

Sənin əlin bir arzuya uzananda,
mənim əlim cibimə yapışır...
Nə bir söz tapa,
nə söndürə bilirəm ürəyimin odunu,
sanki çarmıxa çəkirsən,
susmağı sevməyən atanı.

Hələ „vardi», „yoxdu»nu,
həyatin nə olduğunu
bilməyən vaxtındı.
Bilsəydin, bəlkə də utanar,
gücün yetdikcə qaçmaq, qaçmaq istəyərdin,
insan ayağının dəymədiyi,
insan nəfəsinin toxunmadığı bir yerə.

Hələ ki, aylar sən deyəni deyir,
illər də sən istədiyin kimi ötüşür.
Hər dəfə üzündə təbəssüm,
gözlərində sevinc görəndə,
bilirsən yadıma nə düşür?
Bir xoş sözə,
bir tikə çörəyə möhtac cocuqlar,
bir də bu cocuqların haqqını yeyən
qalstuklu „qəhramanlar»,
saqqallı „qoçaqlar».

Ehh, kim anlar dərdimi?
Çölüm də yanır, içim də,
mənim bir Dənizim var,
milyon-milyon dəniz dalğalanır içimdə!

Dünya

Sənin avazına uymaram daha,
Bəmin də yalandı, zilin də, dünya.
Mərhəmət ummaram, ummaram daha,
Boğulub ölsəm də əlində, dünya.

Hardadı cəhənnəm, hardadı cənnət?
Qoy heç kim qoymasın boynuma minnət.
Bir üzün qaranlıq, bir üzün zülmət,
Dirin də bədbəxtdir, ölün də, dünya.

Çəkdiyim əzablar müvəqqətimi?
Ayrılıq insanın son qismətimi?
Odunda yaxdığım məhəbbətimi
İndi axtarıram külündə, dünya.

Elə hey yarayar, düzələr dedim,
Mən xəyal becərdim, mən ümid yedim.
Vaxtında yol asal, yola sal, gedim,
Yük olub qalmayım belində, dünya.

Sevmək nədir?

Oğlum,
Bilirsənmi sevmək nədir?
Dünən sənə, «get» deyən birinin
Bu gün ayağına gəlib yalvarmaqdı sevmək.
Gözünü də qırpmadan
Bir qəlbə ömürlük
Möhür vurmaqdı sevmək.
Batan bir gəminin sərnişini kimi
Yaxınlıqda üzən köpək balığını
Qayığa bənzətməkdi...
Gerçəyi biləndəsə,
Uzaqlarda görünən ulduzu
Sahildə yanan işığa bənzətməkdi...

Ya da oturub xəyal qura-qura
Keçirməkdi ömrü.
Yaşamaq deyil əslində,
Yola verməkdi ömrü...
Oğlum,
bilirsənmi sevmək nədir?
Düzünə qalsa,
Mənim d əbildiyim bir şey yox,
Bayaqdan eləcə uydururam...

Qiymət vermədin...

Mənim nər sevgimə, aslan sevgimə
Elə ümid verdin, fürsət vermədin.
Sinəmdə çırpınan ümman sevgimə
Bir damla qədər də qiymət vermədin.

Söndü qızındığın od da, ocaq da,
Yenə yaz gəlmədi, bahar gəlmədi.
Yenə də tək qaldın dayanacaqda,
Sənin gözlədiyin qatar gəlmədi.

Niyə dönük çıxdın məhəbbətinə?
Niyə taleyinə acıq eylədin?
Qəlbimlə oynayıb, nə qazandın, nə?
Axırda özünü yazıq eylədin.

Hanı gözündəki o cadu, ovsun?
O naz-qəmzələrin hardadır indi?
Xor baxdın eşqimə, canın sağ olsun,
Elə bilirdin ki, dünya sənindi.

Daha ürəyini üzməyə dəyməz,
İnsan hər əzaba qatlanmalıdır.
Kimdənsə, nədənsə küsməyə dəyməz,
Aldadan nə vaxtsa aldanmalıdır.

HƏDİYYƏ ŞƏFAQƏT

1977

Sevinc Şəfaqət qızı Qədirova –Hədiyyə Şəfaqət 1977-ci ildə
Şəki rayonunun Bideyiz kəndində anadan olmuş.
Bideyiz kənd orta məktəbini (1994), Şuşa Mədəni Maarif Texnikumunun
"Kitabxanaçılıq" fakültəsini (1996),
Azərbaycan Pedaqoji Universitetinin
"Azərbaycan dili və ədəbiyyatı" fakültəsini (2003),
Bakı Slavyan Universitetinin
"Yaradıcılıq" fakültəsini (2015) bitirmişdir.
1995-ci ildə Şəki Regional Elmi Mərkəzində
"Folklorşünaslıq və el sənətləri" laboratoriyasında
kiçik elmi işçi kimi əmək fəaliyyətinə,
ədəbi yaradıcılığa erkən yaşlarından başlamış,
şeirləri, hekayələri, esse və köşələri
"Azərbaycan", "Ulduz" jurnallarında "Ədəbiyyat qəzeti",
"Aydın yol", "Kaspi" qəzetlərində dərc olunub.
"Barış" hekayəsi son on ilin Azərbaycan nəsri onluğuna düşüb.
Hədiyyə Şəfaqətin "Qapı" adlı şeirlər kitabı
2017-ci ildə çap olunmuşdur.

Bilirsənmi

Bilirsənmi,
Sinəmdəki bu sancılar var ha,
Bu sancılar
Cücərmək istəyən küknar ağaclarının tərpənişidir,
Toxum dənələri qabığını çərtir...

Gözlərimi yumuram nəfəsimi içimə çəkərkən,
Şirəli yaşıllığı gözlərimə dolur budaqların
Bir də
Kəskin ətir
Duyuram...
Amma bu sonra olacaq...
İndi tez-tez
Əlimi tumurcuqların üstünə-sinəmə qoyuram
Və
Orda yeni bir həyat başlamaqdadır...

Sən...
Qorxma sən...
Sinəmdəki sancılar
Doğuş ağrısı kimi olacaq sonra, müqəddəs və fərəhli...

Mən ölməyəcəyəm ki,
Sinəmdən küknar meşəsi göyərəcək...

Arzuların ən gözəli

Arzuların ən gözəli
Kədərlidir
Kişilərin
«Qadınlar nə istəyir?»-sualına
Cavab axtarması qədər...

Qadını
Heç nə istəməyə qoymayın...

Qadınların ən gözəli
Bur şüşə qırmızı şərabın
Yarısı içilincə
Xatırlanandır...
Ayılınca ağladar kişini...
Günahdır anlayacağın
Kiminsə gözündə ən gözəl sevgilər.

Və bir də uçurum kimidir
Üstü örtülmüş...

Nə varsa
O uçurumun dibində var....

Gərək bu başdan sonrasını düşünməyəsən...

Qadınların
«Kişilər nə istəyir?»-deyərək
Düşünmədiyi kimi...

Usta

...Usta
Son rəsmini çəkməyindəydi...

Dayanmış zamanın tən ortasından uçub keçirdi
Qanadlarının xışıltısı duyulan ağ kəpənək...

Başımı qaldırdım və buludlara baxdım...
Sonra sarı-yaşıl çöl boyu uzaqlara...

Şəffaf tül kimi dalğalandı ətrafdakı hər şey
Kəpənək qanadlarının havasında
Buludlar bir azca çölə qarışdı...

Çöl bir az daha yaxına gəldi
Və barmaqlarımın ucu toxundu tabloya...

Çobanyastığı çiçəklərinin tündlüyündəydi-
Rəng qoxusu yayıldı...

Kəpənək
Açıb-yumaraq ağ qanadlarını
Çərçivəyə doğru uçub getməyindəydi...

Söyləsəm

...Söyləsəm
Bir yalnızlıq enər bu şəhərin üstünə
Onlar buna kədər deyərlər, mən yaşamaq...

Söyləsəm
Pəncərədən baxmaqla görünən dünyanın havası dəyişər
Amma mənimki olmaz...

Adamlar
Bağışlamazlar məni
Bağışlamazlar sevgimə
Mən üzümü küləyə tutaram qırğınlıqlarımdan
Mən əlimi saralmış otlara çəkərəm ki,
Üzülməyin,
Mən sizin yaşıllığınızı unutmadım...
Duyarlar...

Susuram
Görünməyən kəlmələr yollayıram uzaqlara,
Oxunmayan sətirlər
Bir toxunuşla su dalğalanırmış kimi yayılar sehri
Vərəq kənarlarına
Onlar buna məktub deyə bilməzlər,
Mən deyirəm...

Azadlıq

...Sarı-sarı çiçəklərin havasındakı azadlıq...
Ölümə inad
Yaşama inad
Olmaq və olmamaq arasındakı azadlıq...

Duydunmu töyşüyən yolçunun nəfəsini,
Külək qurumuş otları xışıldadır...
Mənim ayaq izlərim
Yoldan bir toz dənəciyi məsafəsində yuxarıdadır...

Getməmək olmur...
Yuxular
Uğuldayan külək səsinə büküləndə
Oyanmamağı gəlir adamın...

Və
Dan yeri söküləndə
Cəza qaldığı yerdən davam edəcək...

LƏMAN VAQİFQIZI

1977

Süleymanova Ləman Vaqif qızı 1977-ci ildə Şəki rayonunun Cumakənd kəndində ziyalı ailəsində anadan olmuş,
1994-cü ildə doğulduğu kənd orta məktəbini bitirmişdir.
BDU-nun Şəki filialının filologiya fakultəsini fərqlənmə diplomu ilə (1999), BDU-nun filologiya fakultəsinin magistraturasını "Folklorşünaslıq mifologiya" ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir (2001).
Əmək fəaliyyətinə AMEA-nın Folklor İnstitutunda başlamışdır (2000).
O, burada əvvəl baş laborant, kiçik elmi işçi kimi çalışmış, hazırda elmi işçi işləyir.
Elmi toplularda, qəzet və jurnallarda elmi və publisist yazıları ilə vaxtaşırı çıxış edir.
"Şəki folklor mühiti (sinxronik vəziyyəti və diaxronik proseslər)" mövzusunda dissertasiya müdafiə edərək fililigiya üzrə fəlsəfə doktoru adına layiq görülmüşdür.
"Şəki folklor mühiti" kitabının müəllifidir.

Xalq deyimlərinin dünəni və bu günü

("Kitabi-Dədə Qorqud" və "Şəki-Zaqatala" bölgəsinin dil faktlarının müqayisəsi əsasında)

Adqoyma ritualı ilə bağlı deyimlər. Deyimlər həcm etibarilə kiçik janr olsa da, ehtiva etdiyi məzmun baxımından tutumlu janrdır. Şəki-Zaqatala bölgəsindən toplanmış folklor mətnləri, etnoqrafik materiallar, həmçinin dil faktları bu bölgənin "Kitabi-Dədə Qorqud" dünyası ilə yaxından bağlı olduğunu göstərir. Bölgədə mövcud olan deyimlərin bir qismi "Kitabi-Dədə-Qorqud" dastanının üç boyunda ("Dirsə xan oğlu Buğacın boyu", "Basatın Təpəgözü öldürdüyü boy" və "Bamsı Beyrəyin boyu") təsviri verilən adqoyma mərasimi ilə bağlı məlumatları özündə əks etdirir. Hər üç boyda oğuz igidlərinin adlandırılması səbəblərini görürük. Fikrimizin izahı üçün bu boylardan yalnız birini misal çəkməklə kifayətlənəcəyik. "Dirsə xan oğlu Buğacın boyu"nda Buğac 14 yaşa çatıb, amma hələ adı yoxdur. Yalnız Bayandır xanın buğasını yendikdən sonra gördüyü işə uyğun olaraq Dədə Qorqud tərəfindən onun şərəfinə keçirilən məclisdə Buğac adlandırılır. Burada hünər göstərdikdən sonra ad almaqdan başqa diqqəti çəkən başqa bir məsələ də var. Ad elə-belə verilməz, bütün oğuz igidlərinin qarşısında, onların toplaşdığı yığnaqda – qonaqlıqda verilər. Maraqlıdır ki, bu mərasimin özü günümüzdə yaşamasa da, izləri hələ də türk təfəkküründə öz varlığını qoruyub saxlayıb. Şəki rayonunun Göynük kəndlərində övladından narazı olan valideyn onu belə danlayır: "Ad alıf surfa salmıcasan" [Şəki folklor örnəkləri, III kitab, s.342]. Bu, "Kitabi-Dədə Qorqud"da gördüyümüz ritualın təsviri deyilmi? Yəni məhz ad aldıqdan sonra süfrənin salınması, qonaqlığın təşkili. Bu danlaq hələm-hələm işlənmir və çox ağır ittiham kimi səslənir. Yenə də eyni ərazidə işlənən daha bir məzəmmət: "Ad batırıf yurd itirən" [Şəki folklor örnəkləri, III kitab, s.342]. Yəni adın batması, ləkələnməsi bütövlükdə yurdun, daha da irəli getsək, statusun itirilməsi kimi dəyərləndirilir.

Adqoyma ritualının izləri qorunub saxlanan daha bir deyimi də Qax rayonunun Sarıbaş kəndindən prof.R.Tahirzadə qeydə alıb. Sarıbaş kəndində işlədilən deyim belədir: "Adımı düz de, mənə beş çanax düyü töküb, ad qoyublar" [Tahirzadə, səh. 261]. Bu ifadədə ada münasibət özünü qabarıq şəkildə biruzə verir. Bir tərəfdən böyüklər tərəfindən verilmiş adın qəsdən düz deyilməməsi təhqir hesab olunur və qarşı tərəfdə haqlı olaraq qıcıq yaradır. Digər tərəfdən bu deyimdə işlədilən "beş çanax düyü tök-

mək" ifadəsi də diqqətimizi çəkir. Çünki bu, əslində adın elə-belə deyil, adlandırılacaq uşağın şərəfinə məclis təşkil edib, orada ona ad verilməsinin sübutudur.

İgidliklə bağlı deyimlər. Bu bölgənin "Kitabi-DədəQorqud"la səsləşən deyimləri adqoyma ritualı ilə bağlı olan deyimlərlə məhdudlaşmır. Qax rayonunun Sarıbaş kəndində işlədilən "Baş kəsib qalamı almısan?" [Tahirzadə, səh.61] deyimi bu gün bir qədər ironik çalar daşıyır, amma "Kitabi-Dədə Qorqud" dastanlarındakı oğuz qəhrəmanlarının həyat tərzindən xəbər verir. Dastan deyir ki, Oğuz elində baş kəsib, qan tökmək hünər sayılır. Bu məsələ özünü dastanın iki boyunda "Qazan bəy oğlu Uruz bəyin tutsaq olduğu boy"da və "Uşun qoca oğlu Səgrək boyu"nda daha qabarıq şəkildə göstərir. Dastanda oxuyuruq: "Bərü gəlgil, qulunum oğul! Sağım ələ baqduğumda qardaşım Qaragünəyi gördüm. Baş kəsübdür, qan döküpdür. Çöndi alubdur, ad qazanıbdır. Solum ələ baqduğumda dayım Aruzı gördüm.Baş kəsübdür, qan döküpdür. Çöndi alubdur, ad qazanıbdır. Qarşum ələ baqduğumda səni gördüm. On altı yaş yaşladın. Bir gün ola, düşəm öləm, sən qalasan. Yay çəkmədün, ox atmadın. Baş kəsmədin, qan dökmədin. Qanlu Oğuz içində çöldi almadın. Yarınkı gün zaman dönüb, bən ölüb sən qalıcaq tacım-taxtım sana verməyələr, – deyü sonumı andım ağladım, oğul! – dedi."[Kitabi-Dədə Qorqud, səh. 66]. "Uşun qoca oğlu Səgrək boyu"nda Qazanın məclisinə kefi istəyəndə gələn, kefi istəyəndə gedən, ürəyi istəyən yerdə oturan Səgrəyə digər Oğuz igidi Tərsuzamış irad bildirir: "Mərə Uşun qoca oğlu, bu oturan bəglər hər biri oturduğu yeri qılıcıyla-ətməgiylə alubdur. Mərə, sən başmı kəsdin, acmı doyurdun, yalıncaqmı donatdın?" [Kitabi-Dədə Qorqud, səh. 99].

Bölgədə işlədilən "İgid odur, Aladağda at oynada" və yaxud "Şöhrət at belindədir" deyimləri də müəyyən mənada "Kitabi-Dədə Qorqud" dastanı ilə səsləşməkdədir. Atın türk xalqlarının məişətində oynadığı rolu xatırlamaq bu baxımdan yerinə düşür. Ucsuz-bucaqsız əraziləri at belində fəth edən türk üçün at vazkeçilməzdir. Atla düzgün rəftar, atı hətta namusu saymaq türk xalqları üçün xarakterik haldır. Dastan qəhrəmanlarından bir neçəsinin epiteti də məhz atla bağlıdır: At ağızlu Aruz qoca, Boz aygırlu Beyrək və s. [Kitabi-Dədə Qorqud, səh.52].

Nəhəngliklə bağlı deyimlər. Bölgədə işlədilən daha bir deyimə nəzər salaq: "Qabırğanla dişimi qurtdalayaram" [Şəki folklor örnəkləri. II kitab, səh.350]. Hərbə-zorba xarakterli bu deyimdə əslində çox dərin mifoloji qatlar var. Bu deyim türk mifoloji təsəvvüründə yayğın olan miflərlə bağlıdır. Sadəcə olaraq bu gün mifin özü yaddaşlardan silinib, amma qəlpə-

si bölgə insanının xatirələrində yaşayır. Diqqətlə incələdikdə deyimin də "Kitabi-Dədə Qorqud" qəhrəmanları ilə yaxından səsləşdiyini görürük. Dastan qəhrəmanlarının bir neçəsinin olduqca azman olması ilə bağlı işarələr mövcuddur ki, onların da bir qismi məhz qəhrəmanların epitetlərində öz əksini tapmışdır. Məsələn, Aruz haqqında deyilir: "Altmış ögəc dərisindən kürk eyləsə, topuqlarını örtməyən, altı ögəc dərisindən külah etsə, qulaqlarını örtməyən, qolı-budı xaranca, uzun baldırları incə, Qazan bəgün dayısı, at ağızlı Aruz qoca çapar yetdi" [Kitabi-Dədə Qorqud, səh. 52]. Gözümüz önündə olduqca heybətli, azman bir igid canlanır və bu igidin boy-buxunu belə bir təsəvvür yaradır ki, belə nəhəngliyə malik insanın dişini qurdalamaq üçün məhz elə qabırğaya ehtiyac vardır...

AYNUR MƏSİMOVA
(Təmkin)

1978

Məsimova Aynur Namiq qızı 1978-ci ildə
Şəki şəhərində anadan olub.
1994-cü ildə orta məktəbi, 1998-ci ildə isə
Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirib,
orta ixtisas təhsili alıb, ixtisasca rəssamdır.
1998-ci ildən Şəki şəhər Dövlət Rəsm Qalareyasında
elmi işçi kimi əmək fəaliyyətinə başlayıb,
1999-cu ildən Şəki şəhər
Uşaq İncəsənət Məktəbinin rəssamlıq şöbəsində
müəllim kimi fəaliyyət göstərir.
Hekayə və şeirlərini Aynur Təmkin imzasıyla yazır.
"İtirilmiş səadət" adlı hekayələr və
şeirlər toplusu 2017-ci ildə çap olunmuşdur.

Bir həyat hekayəsi

Bir zamanlar nə qədər yaraşıqlı və cəzbediciydi. Bir zamanlar indi baxmağa qorxduğu üzünə necə məftunluqla tamaşa edərdi. Bir zamanlar alma yanaqlarına, badamı gözlərinə, gözəl əndamına qadınlar belə heyranlıqla, qısqanclıqla baxardı. İndi, indi güzgünün qarşısında sürətlə qocalır, bayaqkı gözəllikdən yalnız soluğun sifət qalmışdı. Ən çox qorxduğu amansız xəstəlik onun ən xoş hissini, yaşama ümidlərini əlindən almışdı. O, yalnız analiz cavablarını aldıqda həyatın nə qədər gözəl olduğunu, günün necə də hərarətlə isitdiyini, hər anın, dəqiqənin qiymətli olduğunu anlamışdı. Xırda təsadüflə nəyə düçar olduğunu bilmişdi. O an, o dəqiqə hər şey məhv olmuşdu. Sabaha olan ümidləri sönərək, özündən sonra xırda bir köz buraxmışdı. O an, o dəqiqə qoca anasına, üç qızına yanmışdı. Heç özü də bilmirdi səbəbini, amma içində ərinə qarşı məna verə bilmədiyi bir nifrət yaranaraq bədənini çulğamışdı. Üsyan etmişdi, ağlamışdı. Anasından, qızlarından gizləyərək dərdini içində gizlətmişdi. O, həyatdan doymamışdı. Amma bəxt yazısı alnına ölüm fərmanını yazmışdı. Son ümidi kül içində közərən közdə böyük şəhərdəki həkimlərin rəyindən sonra tamamilə sönmüşdü. Dəniz kənarında fəryad edib o ki var ağlamışdı. Səsi gəldikcə bağırmaq, dünyanı məhvərindən qopartmaq istəmişdi.Gülən üzləri, sevən gəncləri, nəvəsini gəzdirənləri gördükcə içini yandıran dərdi canını bir az da yandırmışdı. Nə demişdilərsə etmişdi. Son analizləri verib, artıq bir ümid qalmadığını tam çılpaqlığı ilə anlamışdı. İnsana oturub ölümünü gözləmək bəlkə də ən ağırdan da ağırdı. O, ayları günləri, həftələri, saat və dəqiqələri sayır və hər dəfə də içində yeni-yeni bağların qırıldığını, heyinin get-gedə zəiflədiyini hiss edirdi. Bəzən özünü öldürmək, bu fiziki və mənəvi ağrıdan qurtarmaq istəyir, ancaq qızlarının məzlum baxışları əl-qolunu boşaldır, onları bir az da artıq görmək istəyirdi. Doymamışdı ki, övlad ətrindən, ana nəvazişindən. Gecələr az yuxu yuxlar, onda da ölüm qorxusuyla hövlənk qalxırdı. Ömür adlı bir şeylə ölüm adlı əzabın arasında məsafələr qısalır, əzabı, yaşamağa həvəsi daha da çoxalırdı. O, indi dişiylə, dırnağıyla hər şeydən tutaraq ölmək istəmirdi. Bəzən qarşısına çıxan hər həkimdən yapışıb, "məni ölməyə qoymayın",- deyə yalvarmaq istəyirdi. Oxuyar, axtarar bəlkə də bir möcüzə olar deyə dua edərdi. Amma, amma yox. Zaman yaxınlaşırdı. Barışmalı olmuşdu qədəriylə. Güclə nəfəs ala-ala son borcunu verməyə çalışırdı. Bir zamanlar çalışdığı insanlarla

bir arada olmağa çalışır,xeyrə-şərə gedirdi. Dünyanınkı borc deyildimi? Deyən-gülən hər kəs donub qalmışdı. Qarşılarındakının o olduğunu anladıqda tikələr boğazda qalaraq hər kəsi məyus etmişdi. Bir-iki ay öncəki o gözəl qadının bənizi ağarmış, vicudu əyilmişdi. Güclə nəfəs alırdı. Bu işıqlı, böyük zalın çilçıraqlarından süzülüb gələn nur artıq ona heç nə demirdi. Pəh-pəhlə yediyi yeməklər onda iştah yaratmışdı. Bu deyib-gülən insanlar ona tamamilə yad idilər. Gözləri yerə zillənərək xəyallarıyla vuruşurdu. Bir zaman sevdiyi o şaqraq musiqilər sümüklərini oynatmışdı.

Bir bəylə gəlin salona girdikdə sövq-təbii başını qaldırdı. Zorla "allah qoşa qarıtsın, bir yastıqda qocalsınlar",-deyə pıçıldadı. Niyə "allah xoşbəxt etsin" əvəzinə "bir yastıqda qocalsınlar"dedi. Niyə?Niyə?-deyə öz-özünü suala tutdu. Niyə də yox. Məgər bu onun ən böyük arzusu deyildimi? Onun arzu, ümidləri yarımçıq qalmışdı. İstəyirdi ki, daha heç kim ömür yolunu sona çatmamış qalsın.

Zorla ayağa qalxdı. Son dəfə az tanıdığı, çox tanıdığı hər kəsə bir təbəssüm bəxş edərək, hafizələrə dərin bir iz buraxaraq çıxıb getdi. Lakin heç kəs o təbəssümün özündə gizlənən ümidsiz göz yaşını görə bilmədi. Qadın kirpiklərinə yığılıb qalan göz yaşlarının içində oranı tərk etdi. Və bir neçə gündən sonra qorxusunu keçirdiyi ölümlə çarpazlaşaraq doymadığı həyata vida etdi. Bir şeyə təəssüfləndi. Sən demə, ömür nə qədər şirinmiş. Və o, bu şirinliyi hər addımda acıya çevirərək tanrının pay verdiyi həyatı boşuna qədər edibmiş. Bəzən bitirə bilmədiyi aylar, illər, saatlar bir dəqiqədə qısalaraq əldən gedə bilirmiş.

SƏRVƏR ƏMRAH

1981

Əmrahov Sərvər Ağabəy oğlu 1981-ci il aprel ayının 5-də Şəki rayonunun Baş Göynük kəndində anadan olub. 1997-ci ildə Baş Göynük kənd orta məktəbini bitirib. Erkən yaşlarından bədii yaradıcılığa maraq göstərib. Eşq, məhəbbət, sevgi, həsrət,ayrılıq Sərvər Əmrah şeirlərinin mayasını və qayəsini təşkil edir. Mərkəzi və yerli mətbuat vasitələrində şeirləri müntəzəm dərc olunur. "Dünən mənim idin..." (2015) adlı şeirlər toplusunun müəllifidir.

Dünən mənim idin...

Dünən mənim idin, bu gün kiminsən?
Ay saxta dövranın günahkar qızı.
Məndən kimə, kimdən kimə dönürsən,
Ay saxta dövranın günahkar qızı.

Yerin sevənlərin cərgəsində yox,
Daha xəyalında cəngavərin yox,
Nəyinə gərəkdi mən varam, ya yox? –
Ay saxta dövranın günahkar qızı.

Kiridi qəlbində ilk məhəbbətin,
Düşdü öz gözündən öz sədaqətin,
Acısın yaşarsan bu xəcalətin –
Ay saxta dövranın günahkar qızı.

Görməyin məni

Sənsiz ömür sürüb necə qocaldım,
Belə çox gərəkdi görməyin məni?
Sənsizlikdən ilbəildən talandım,
Nəyinə gərəkdi görməyin məni.

Həsrətdən kor olan gözümü görmə,
Ölməyib yaşayan ölünü görmə,
Solmuş bənizimi, üzümü görmə -
Ağladar gözünü, görməyin məni.

Uzaqsan, sən elə uzaqda yaşa,
Görmək həsrətində görmədən yaşa,
Gözünün şahidi olmadan yaşa –
İçini yandırar görməyin məni.

Sənə yalan dedim, gərəyimsən sən,
Əbədi sevgimə qıyanım sənsən,
Nə həyat, nə həvəs - yıxanım sənsən,
Səni də yıxdırar görməyin məni.

İndi

Həm səni axtarır, həm də ağlayır –
Kiridə bilmirəm gözümü indi;
Göz yaşım üzümü elə dalayır –
Kiridə bilmirəm gözümü indi.

Sənin gedişinlə başlandı yasım,
Sən olmaq istəyir başlanan yaşım,
De mənə yerini, qurtarsın yasım -
Kiridə bilmirəm gözümü indi.

Sənə dönə-dönə "bağışla" desəm,
Günahkar mənəm, yar, gəl, sinir.
Qorxuram günahla məzara düşəm –
Kiridə bilmirəm gözümü indi.

Küsdürmə məni

Nə olar, özgələrlə danışıb gülmə,
Sevən ürəyimdən küsdürmə məni.
Qəsdən gözlərimə baxıb da gülmə -
Gözümün nurundan küsdürmə məni.

Edirsən canımı dərdlər yorğunu,
Çox ağlatma mən gözləri dolğunu,
Görməsinlər mən dərdindən solğunu –
İçimdən, könlümdən küsdürmə məni.

Qoyma bu ömrümü yaşayım yalan,
Sən ki görməyibsən məndə bir yalan,
Səndəndir ömrümdə-günümdə talan –
Ömrümdən-günümdən küsdürmə məni.

Sən mənim yaxınım - uzaqlardasan,
Çıx ki yalvarıram, qaranlıqdasan,
Bu yalan dünyada kor olmaqdasan –
Varsan, varlığımdan küsdürmə məni

İLKİN İBRAHİMXƏLİLOV

1981

İbrahimxəlilov İlkin Yoxşar oğlu 1981-ci il yanvarın 17-də Şəki rayonunun Baş Şabalıd kəndində anadan olmuş, doğulduğu kənddə tam orta məktəbi (1988) Bakı Slavyan Universitetinin filologiya fakultəsini bitirmişdir. (2007) Əmək fəaliyyətinə 2003-cü ildən başlayıb, hal-hazırda Baş Şabalıd kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir. İlkin şeir yazmağa orta məktəb illərindən başlamış, müntəzəm olaraq yerli və mərkəzi mətbuat vasitələrində şeirləri ilə çıxış edir. O, klassik şeirimizin müxtəlif janrlarında qələmini daha çox sınayır. Könül oxşayan lirik şeirləri geniş oxucu auditoriyasının marağına səbəb olub.

Var

Mən bülbülüyəm, tər gülün, əlbət, çəmənim var,
Xoşbəxtəm əzəldən bəri, şirin süxənim var.

Varsa, Qarabağ adlı məkan, cismən uzaqdır,
Həsrət aləmindən cana gəlmiş bədənim var.

Yurdumda hər nə var, oynaq görürəm mən,
Mən haqqı dana bilmərəm, aləmdə şənim var.

Düşsəm dara, dardan məni qurtarsın igidlər,
Babək kimi, Koroğlu kimi çox ərənim var.

Kaş olmaya, qismət mənə bir an qərib aləm,
Yurdumda ölərsəm əgər, hazır kəfənim var.

İlkin, sənin haqqın var əgər, çox-çox öyün sən,
Cünki Azərbaycan kimi ölməz Vətənim var

Millətimizdən

Bir məna tapan olsa əgər söhbətimizdən,
Bəlkə, o zaman agah olar qiymətimizdən.

Görmək nə gərək kimsəni ömr etsin haramla,
Sözsüz ki, halal ruzi çıxar zəhmətimizdən.

Bəd insan olan kəs ki, girər xaki-rayinə
Xoş gün keçir, əlbəttə, bizim niyyətimizdən.

Axır ki, bizə hüriyyətin nuru ələndi,
Şad oldu ürəklər yeni hüriyyətimizdən.

Çünki görünən qarşıda xoş günlərimiz var,
Allah, bizi əskik eləmə qismətimizdən.

Azad quş olub uçmalıyam doğma vətəndə,
Uçmaq nə gərək qürbətə öz cənnətimizdən.

İlkin, Qarabağ həsrəti öldürdü bu xalqı,
Tez üz çevirər, bəlkə cüda millətimizdən.

Göründü

Sevdim səni, ömrüm yeni məcrada göründü,
Tanrım, yeni eşqim yeni mənada göründü.

Fikr eylədim, hər anda düşündüm səni, ey gül,
Yatdım gecə, hüsnün yenə röyada göründü.

Məktəbdə görüb, Leylini sevdi Qeys aşiq.
Məcnun adı aldı sora səhrada göründü.

Dəymir gözə aləmdə mücərrəd sayılır eşq.
Yoxdur demek olmaz, ona xülyada göründü.

Müşküldür qəmi sevgiyə qurşanmaq əzəldən
Kim dərk eləmir eşqi, ona sadə göründü.

İlkin, nə yaman könlünü eşq həsrəti sardı,
Bülbül də uçub qəfəsdən azadə göründü.

Gözələ

Edərəm hər daim öz canımı qurban gözələ
Söyləyəndə deyərəm, kəlməbaşı can gözələ.

Heç rəvadırmı belə bir gözəl zülmətdə qala,
Yaraşır bir belə gülzarı-gülüstan gözələ.

Söyləyirlər eyibsiz gözəl olmaz, leyk mən,
Hələ də tapmamışam eyib ilə nöqsan gözələ.

Ahu onunla girsə yarışa, çox dalda qalar,
Tay olmaz nə maral, nə də ki ceyran gözələ.

Hamı kimi mən də istərəm görəm üzünü,
Yuxuda gördüm, olmuşam bir gün mehman gözələ.

Nə edim ki, uyub əğyara bu istəkli gözəl,
Deyər İlkin də sözünü, olsa imkan gözələ.

AQŞİN İBRAHİMXƏLİLOV

1982

İbrahimxəlilov Aqşin Yoxşar oğlu 1982-ci il noyabrın 15-də Şəki rayonunun Baş Şabalıd kəndində anadan olmuş, doğulduğu kənd orta məktəbini (2000), Bakı Dövlət Universitetinin fizika fakultəsini bitirmişdir(2004). Hərbi xidmətini başa vurduqdan sonra, BDU-da magistr təhsili almışdır(2006-2008). Əmək fəaliyyətinə 2008-ci ildə Bakı şəhərində Ay-ulduz-Dental stomatoloji firmasında başlamış, Şəki şəhər 5 saylı tam orta məktəbində ixtisası üzrə müəllim (2011-2015), Quba-Hədəf kursunda filial rəhbəri (2016-2017) işləmiş, hazırda Şəki şəhər 5 saylı tam orta məktəbində və İstək Tədris Mərkəzinin Şəki filialında müəllim işləyir. Aqşin şeir yazmağa lap erkən yaşlarından başlamış, şeirləri dövri mətbuatda çap olunur.

Ürəyim

Nə verdi bu dünya, bizə nə verdi,
Dost olub bir təhər bu yüku çəkdik.
Bu boyda möhnəti, bu boyda dərdi
Biz dost olmasaydıq çətin çəkərdik,
Ürəyim..

Nə qədər qoruyum axı mən səni,
Bir özün özünə nəzər etsənə.
Qopardıb atardım sinəmdən səni,
Qorxuram ürəksiz deyərlər mənə
Ürəyim...

Bir dəfə atmadın yalana imza,
Yaxşılıq bağına çatmadın nədən?
Sən mənim köksümdə döyündün, amma
Bir dəfə mənimçün atmadın nədən,
Ürəyim...

Kimə rəhm etdinsə, sındırdı səni.
Kimə ağladınsa, güldü üzünə.
Kimə güvəndinsə, yandırdı səni,
Sən nə elədinsə etdin özünə.
Ürəyim...

Özümə dost bildim üzə güləni,
Çıxardıb mən səni ona uzatdım.
Bağışla, nə olar bağışla məni,
Mən səni çox ucuz qiymətə satdım,
Ürəyim...

Qəflət

Sonun nə olacaq, əzəlin belə.
Özünü yıxacaq özəlin belə.
Sən mələk gördüyün gözəlin belə,
Dilində qocaman ilanlar yatır

Vələsin önündə palıd əyilsə,
Qəbul et, bu dünya malı deyilsə,
Dediyin həqiqət ali deyilsə,
İçində nə qədər yalanlar yatır.

Boyuna baxırsan, boyu bir çərək,
Ağlına gəlincə... Ayıbdır demək,
İşə bax, arifə ayıl deyərək,
Bizləri qəflətə salanlar yatır.

İki yol görərsən hədəf naminə.
Gedərsən işıqlı tərəf naminə,
Tarixən zindanda şərəf naminə,
Kişilik kartını alanlar yatır.

Aqşin, nələr gördün az həyatında,
Nə sirlər gizlənib sirr altında?
Onsuz bu dünyanın toy-büsatında,
Səssizlik nəğməsi çalanlar yatır.

Mən səni tanıyıram

Mən səni tanıyıram
Saçının qoxusundan.
Gözlərinin nurundan
Mən səni tanıyıram
Baxışınla qəlbimə saldığın atəşindən
Qəlbimin zülmətinə
əbədi işıq salan eşqinin Günəşindən...

Mən səni tanıyıram.
Əllərinlə əlimə ötürdüyün sevgidən,
Ulduzun işığından,
Dağın ucalığından,
Çölün yaraşığından.
Götürdüyün sevgidən
Mən səni tanıyıram,
Baxışanda nəzərin yerə dikilməsindən.
Eşqlə vuran ürəyin həzin döyüntüsündən,
Həyəcanlı səsindən.
Səni tanıdığımdan, ay gülüm, harda olsan
Baxmadan görürəm mən,
Görmədən baxsam belə,
Xəyal qanadlarında haraya uçsam belə.
Hayana çıxsambelə,
Mən səni tanıyıram.
Özümü tanıyandan,
Özümü dərk edəndən
Niyə məndən qaçırsan.
Onsuz da səni yaxşı, əla tanıyıram mən,
Mən səni tanıyıram ilk insan yaranandan,
Mən səni tanıyacam son insan qalanacan.

Həsrət

Yenə qaldım bu axşam otağımla baş-başa.
Yenə də xəyalına eyləyirəm tamaşa
Yenə kirpik çalmadan düşünürəm hey səni,
Nədənsə xatırladır otaqda hər şey səni.
Çayım da buza dönüb ...
Bəzən ulduza dönüb
Göylərdə parlayırsan
Bəzən küləyə dönüb.
Qarışmış saçlarımı xəfif tumarlayırsan
Bəzən durub uzaqda nazla gülümsəyirsən.
Baxışların qəlbimə işıq, nur səpir hərdən
Bu nə nurdu, ay gülüm

Bu incimi, ay gülüm?
Sənsiz, kədər içində
Arzumdan borc alıram sevincimi, ay gülüm.
İnan, sənsiz olanda hər şey sən olur mənə.
Hər şey sənləşib yenə.
Düşündüm, ay sevgilim, açdım yenə səhəri.
Buza döndərdim çayı.
Tapdım !
Sənsiz olanda
Heçnəyi görmürəm mən ürəyimdən savayı.

Qəzəl

Tökdükdə gül üzünə tellərinin şanəsini
Küləyə qısqanıram mən onun hər danəsini.

Yandırıb sən məni eşq atəşinə qəm eləmə,
Necə şəm yandırar atəşlərə pərvanəsini.

Ürəyimdə neçə cür xanə var,ey qönçədəhan.
Sənə həsr eyləmişəm mən onun hər danəsini.

Leyli-Məcnun bizə əfsanədı əfsanə,gülüm,
Bizik doğru eləyən bu sevgi əfsanəsini.

Cahilə çox belə anlatma, o sevda nə bilir,
Sən arifə anlat, odu dərk eyləyən sevda «nə»-sini.

Sərraf kimi yüz simü-zər içrə səni seçdim,
Necə tərk eyləyər aşiq belə dürdanəsini?

Aqşin də aşiq olub bir qaragöz nazlı qıza,
Qoyubdur aşiqlər diyarında nişanəsini.

NAZİM HƏMİDLİ

1983

Həmidov Nazim Şamil oğlu 1983-cü il fevral ayının 10-da Şəki şəhərində anadan olub. 2001-ci ildə şəhər 7 saylı orta, 2006-cı ildə Şəki şəhər 1 saylı Texniki Peşə məktəblərini bitirib. 2006-cı ilin may ayından sandıqçılıq sənəti ilə məşğul olur. Şeirə-sənətə bağlı olan Nazim Həmidli qələmini poeziyada da sınayır. Şeirləri "Şəki region", "İpəkçi" və "Elimiz-günümüz" qəzetlərində dərc edilib.

Sən özün də gözəlsən

Sən özün də gözəlsən,
Alovlu baxışların
Günəşin şöləsitək
Alışıb-yandırır məni.
Həyatımın cövhərisən,

Təbəssümlü çöhrəndə bir səmimilik,
Səmimiyyətindən tanıyaram səni.

Sən özün də gözəlsən,
Ətirli bir gülsən.
Şirin dilinə qurban,
Şirin sözünə qurban,
Özünə qurban,
Felinə qurban.
Ay gülüzlü yarım,
Eşqdə vəfalım, vəfadarım.

Gözəlim, gül bir az,
Gül, sənə qurban olum.
İncə titrək əllərin
Qəlbimin üstündə...
Könlümü isindirir,
Bir az məni dindirir,
Məsti-xumar oluram...
Yuxularımda da səni
Görürəm mələk kimi,
Gərəyimsən, sinəmdəki ürək kimi.

Sən özün də gözəlsən,
Sanki zərif bir gülsən.
İpək kimi tellərin
Qəlbimi ovundurur...
O uzaq üfüqlərdə
Mən səni görürəm,
Sən Şərqdə, mən Qərbdə...
Mən Şərqə-sənə doğru,
can atıram.
Bilirəm, duyuram,
Həqiqət tapacaq öz yerini,
Xoşbəxtlik oradadır,
O da sənsən-Məhəbbət.

ZƏMİNƏ RƏSULOVA

1983

Rəsulova (Əliyeva) Zəminə İsmayıl qızı 14 mart 1983-cü ildə Şəki şəhəri Qaradağlı kəndində anadan olub. 2000-ci ildə Şəki şəhər 11 saylı orta məktəbdən məzun olub, 2004-cü ildə Şəki Pedaqoji Texnikumunu fərqlənmə diplomu ilə başa vurub. Elə həmin ildən Şəki şəhəri "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunda, Şəki "Xan sarayında" bələdçi işləyir. Rus, ingilis və italyan dillərini bilir.Şeirləri dövrü mətbuatda çap olunub.

Payız fəsli gələndə

Tez-tez əsər küləklər,
Boşalar biçənəklər,
Solar əlvan çiçəklər,
Payız fəsli gələndə.

Yağış yağar tıkhatık,
Tut ucundan göyə çıx,

O,tökülən qozu yığ,
Payız fəsli gələndə.

Payız qış qucaqlaşar,
Agaclar çılpaqlaşar,
Bülbüllər uşaqlaşar,
Payız fəsli gələndə.

Sən nə cürə məhəbbətsən?

Nə bəyazsan, nə də qara,
Bağrım başı qara-para.
Niyə saldın söylə dara?
Yetirmədin məni yara,
Sən nə cürə məhəbbətsən?

Nə şirinsən, nə acısan,
Dərdlərimin əlacısan
Nifrətimlə sən bacısan,
Sən nə cürə məhəbbətsən?

Nə xarasan, nə də tülsən,
Nolar, tale, üzü gülsən?
Sən təpəmə yağan külsən,
Sən nə cürə məhəbbətsən?

Nə ayığam, nə də məstəm,
Sən təbibsən, mənəm xəstən,
Nə istərsən xəstə kəsdən
Sən nə cürə məhəbbətsən?

Nə həsrətsən, nə də vüsal,
Yoxdur sənə oxşar, misal.
Varsan, yoxsan? Bir başa sal,
Sən nə cürə məhəbbətsən?

Nə həyatsan, nə də ölüm,
Verdin mənə min bir zülüm.
Sən gülümsə, mən də gülüm,
Sən nə cürə məhəbbətsən?

Özün oldun

Günahkarı arama, gəl uzaqda, yaxında,
Günahkarın böyüyü bil ki, sən özün oldun.
Qapılıb xəyallara, xəyal olub yuxunda
Bu dünyaya uymayan bil ki, sən özün oldun.

Həqiqəti xəyala çevirərək yaşadın,
Gecələri gündüzə röyan ilə caladın.
Həyatını nağıla çevirməkdən doymadın
Nağılına qəhrəman bil ki, sən özün oldun.

İnanmadın dünyada nə yaxşıya, yamana,
Düzlük acı olanda üz tutdun sən yalana.
Hakim olmaq istədin sən dövrana, zamana
Ancaq əsir düşən də, qul da sən özün oldun.

Payız

Qızıl payız gəldi yenə,
İsti günlər ötüb keçdi.
Budaqlardan sarı yarpaq
Süzüb-süzüb yerə düşdü.

Qatarlandı quşlar bir-bir
Yay çağırdı: -"Payız, gəl bir".
Tarlalarda yoxdu sünbül,
Yenə həsrət gülə düşdü.

Ağac tökdü yarpağını,
Qoca örtdü papağını,
Anam çəkdi yaşmağını,
Mənim dərdim dilə düşdü.

Bülbül kəsdi nəğməsini,
Yer dəyişdi libasını,
Babam geydi çuxasını,
Qırov qara telə düşdü.

Tez başladı əkin-səpin
Bu qış keçər yaman çətin.
Tarlalara buğda əkin,
Bu il payız belə düşdü.

Ürək

İstəyirəm ki, səni çıxarıb atım, ürək,
Ancaq düşünürəm ki,
Ruhsuz, qəlbsiz bir insan kimin nəyinə gərək?
İstəyirəm ağılla düşünüb qərar verəm,
Xoşbəxtlik bağçasından min rəngli çiçək dərəm,
Ancaq sən məğlub edib ağlımı, düşüncəmi
əsir edirsən məni,
Hərdən düşünürəm ki, olmasaydı ürəyim,
Nə sevərdim həyatda, nə də nifrət edərdim.
Ancaq sənsiz yaşamaq nə verərdi ki, mənə
Bütün ömrüm, həyatım bağlıdır yalnız sənə.
Sən olmasayadın əgər,
Bir heyvan, ya ağacdan nə fərqim olardı ki,
həyatım solardı ki,
Duymazdım onda bu həyatın dadını ,
Yamanını, yadını .
Yaxşı ki, ürəyim var,
Yaxşı ki, sevirəm mən
Bu sevgi sayəsində hər şeyə dözürəm mən.
Çox kiçiksən, sənlə bacarmıram,
Bu boyda həyatla bacara bilərəmmi,
Yoxsa, ölərəmmi?
Balaca olsan da bu dünyadan böyüksən
Mənə kömək ol,
Mənə arxa dur.
Məni mənlə döyüşə çıxarsan da ürəyim,
Sənsən mənim arxam, köməyim.
Vur ürəyim, vur,
Vur nə qədər sevirəm,
sevgim qədər sən də vur.

NİZAMİ ADIŞİRİN

1983

Nizami Şamil oğlu Adışirinov 21 aprel 1983-cü ildə Şəki şəhərinin Oxud kəndində anadan olmuş, Şəki şəhər 19 saylı tam orta məktəbi (2000), Bakı Dövlət Universitetinin Filologiya fakültəsini 2004-cü ildə bitirmişdir.2004-2006-cı illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində magistr təhsili almış, elə həmin ildə də AMEA Folklor İnstitutunun əyani doktoranturasına qəbul olunmuşdur."Dədə Qorqud kitabı"nda epik formullar" mövzusunda yazdığı dissertasiyanı uğurla müdafiə edərək Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.Bədii yaradıcılığa erkən yaşlarından başlamış, müxtəlif mətbuat orqanlarında şeirlərini çap etdirmiş. "Ruh bədəndən uzaq düşüb" (2004), "Ürəyimin harayı" (2006), "Əzizlə məni" (2006), "Yazdım ki, izim qalə" (2007), "Ömür qatarı" (2010) və s.şeirlər kitabının müəllifidir.
Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Bu dünyanı qoruyun

Hər tərəfdə savaş gedir, hər tərəfdə insan qanı.
Bir-birinə özgə olub, bir-birinə qənim hamı.
Qulaq verin səsimə siz, bu dünyanın insanları!
Sarsılmasın zalımların əməlindən dünya qoyun.
Sizdən rica eyləyirəm, bu dünyanı bərk qoruyun.

Qoy məkrli oyunların sınağına çevrilməsin,
Gözüyaşlı körpələrin qınağına çevrilməsin.
Qoy qaniçən vəhşilərin caynağında inləməsin.
Yağıların öz başında çatlasın hər fitnə, oyun,
Sizdən rica eyləyirəm, bu dünyanı bərk qoruyun.

Bizdən kömək uman neçə yaşlısı var, körpəsi var,
Ümidləri tükənsə də gözlərində "bəlka"si var,
Havasında barıt qoxan neçə viran ölkəsi var,
Bircə anlıq məzlumların fəryadını siz də duyun,
Sizdən rica eləyirəm, bu dünyanı bərk qoruyun.

Kirlətməyin dənizləri,qoy səmalar qaralmasın,
Ağacları kəsilməsin,meşələri qırılmasın,
Heyvanları ovlanmasın,kəklikləri vurulmasın,
Dəyərini yaxşı bilin bu havanın,çayın,suyun
Sizdən rica eləyirəm, bu dünyanı bərk qoruyun.

Düşünməyin əbədidir,daim sizlə qalasıdır,
Qorumasaq,viran olub yıxılası,solasıdır,
Qorumasaq özü boyda dərdi,yükü olasıdır,
Hər çınqılı,hər daşı da qızıl kimi sərvət sayın,
Sizdən rica eləyirəm, bu dünyanı bərk qoruyun.

Hər insanın xislətində xeyir də var,şər də vardır,
Qəlbi təmiz insanlara dünya güllü bir bahardır,
Nəsillərdən,nəsillərə əmanətdir,yadigardır,
Bu dünyada bizdən sonra körpələri unutmayın,
Uşaqların xatirinə, bu dünyanı bərk qoruyun.

Azərbaycan bayrağı

Bir müqəddəs vuruşdu,
Nicatdı, qurtuluşdu,
Yenidən doğuluşdu,
Üç rəngli bayrağım.

Köləliyin süqutu
Dünən, bu gün, sabahım.
Varlığımın sübutu
Üç rəngli bayrağım.

Sən olmasan, günəşi
Belə aydın görməzdim.
Yad olardım özümə,
Kiməm,nəyəm bilməzdim.

Mənə yasaq olardı
Adi "ana" sözüm də.
Get-gedə əriyərdim
"Yekə"lərin gözündə.

Göylərimin bəzəyi
Tufanlarla savaşan.
Küləklərlə oynaşan,
Üç rəngli bayrağım.

Millətimin qanıdır
Bu qırmızı,al boya.
Gərək hər kəs, hər zaman
Gözü kimi qoruya.

Qoynunda yeri vardır.
Həm ulduzun, həm ayın.
Hər tərəfi işıqlı
Bu müqəddəs diyarın.

Azadlığın, mərdliyin
Basılmaz balasısan.
Sən özümün dərkisən,
Sən qeyrət qalasısan.

Göylərdən süzüb gələn
İşıqdan yaranmısan.
Azadlığın sönməyən
Rəngiylə boyanmısan.

And yerim, inam yerim.
Ucalığım, varlığım.
Dalğalan bax beləcə
Səmalarda hər zaman.

Bizim üçün şərəfdir,
Sənlə gülə bilmək.
Yolunda candan keçib,
Kölgəndə ölə bilmək.

Sən məni bir daha görməyəcəksən

Sən məni bir daha görməyəcəksən,
Həsrətinin dumanında itəcəm.
Bu sevginin bütün kədər yükünü,
Öz çiynimə şələləyib gedəcəm.

Sən məni bir daha görməyəcəksən,
Dostlar məclisində, gülüş səsində.
Gizlənib qalacam sənin ömrünün,
Hansısa qaranlıq bir gecəsində.

Sən məni bir daha görməyəcəksən.
Kölgəntək hər yerdə səni izləyən,
Sən məni bir daha görməyəcəksən,
Hər səhər yolunda səni gözləyən.

Yoxuşlar büdrədib səni yorsa da,
Əllərin əlimçün qəribsəsə də.
Sən məni bir daha görməyəcəksən,
Gözlərin görməyi çox istəsə də.

Gülsən də, içində ağlayacaqsan,
Tez-tez xatirinə gətirəcəksən,
Axtarıb hər yanı tapmayacaqsan,
Sən məni bir daha görməyəcəksən.

Yıxıldın qəlbimin sevgi taxtından,
Qəlbin oyma-oyma çapılacaqdır.
Nə vaxtsa qəlbimin ən alt qatından,
Bəlkə sümüklərin tapılacaqdır.

Nə vaxtsa, hardasa adım çəkilsə,
Ürəyin sızlayar xəlvəti, səssiz.
Üzünə qırışlar salacaq zaman,
Səni qocaldacaq səndən xəbərsiz.

Sən məni bir daha görməyəcəksən.
Gözünə bir ömür xəzan dolacaq.
Nə qədər axtarsan, mən olmayacam.
Mənsizlik ən böyük cəzan olacaq.

ZAUR İLHAMOĞLU

1984

Zaur İlhamoğlu (Cəfərov Zaur İlham oğlu) 1984-cü ildə
Şəki şəhərində anadan olub.
2005-ci ildə AMİ-nin İbtidai təhsilin Pedoqogikası və
Metodikası üzrə əyani ali təhsil alıb.
Sonradan ixtasısını Filologiya üzrə dəyişib.
Şəki şəhər M.Füzuli adına 3 saylı tam orta məktəbdə
ixtisası üzrə müəllimlik fəaliyyəti ilə məşğul olur.
Şeirləri mərkəzi və yerli mətbuat vasitələrində çap olunub.

Müəllim

Müəllim,ey əziz,ey gözəl insan,
Sənə nə söyləyim olsun dəyərli?
Dünyada elə bir agac varmıdır,
Əkdiyin ağac tək ola bəhərli?

Dünyada elə bir zirvə varmıdır,
Sənin fəth etdiyin zirvədən uca?
Mən necə yığım ki etdiklərini,
Müəllim adına sığsın qısaca?

Sən bizə həm ana,həm ata oldun,
Bizimlə bağlandı arzun,diləyin.
Bütün ömrün boyu bizlərdən ötrü,
Şam kimi əridi vuran ürəyin.

Haçan dara düşdük əlin uzadıb,
Özünü köməyə yetirmisən sən.
Bizim sabahımız nur olsun deyə
Gözünün nurunu itirmisən sən.

Unudub evində qayğılarını,
Məktəbdə büruzə vermədin bir an.
Görüb şagirdlərin ruhdan düşməsin,
Deyərək düşündün sən hər bir zaman.

Bəzən acıladın,danladın bizi
Ki bizlər düşməyək pis səmtə,yönə.
Deyərdin, eyibi yox, inciyin məndən,
Vaxt gələr minnətdar olarsız mənə.

Allah iki şəxsi sevər hər zaman
Birisi şəhiddir,digəri alim.
Əgər Allah səni belə sevibsə,
Mən necə sevməyim de,ey müəllim?

Sənin sənətinin bərabəri yox,
Həm şərəflidir,həm də ki çətin.
Dünyada nə qədər sənət var isə,
Qoyub bünövrəsin sənin sənətin.

Yerin bizlər üçün daima uca,
Qəlbi də özü tək təmiz müəllim.
Haqqını yüz ömür ödəmək çətin,
Haqqını halal et,əziz müəllim,
Haqqını halal et, əziz müəllim.

Bu həyat dediyin..

Bu həyat dediyin qəlizdən-qəliz
Çox incə mətləbdə qandırar səni.
Nahamar gətirib dünya üzünə,
Sonra zaman-zaman yondurar səni.

Gah sağa döndərər,gah çəkər sola,
Gah çəmənə salar, gah da ki kola.
Nə qədər dağ boyda qürurun ola,
Bir anda toz eylər, sındırar səni.

Çoxu bu həyatın sirrin axtarıb,
Tapmayıb sonunda naəlac qalıb,
Qışın ortasında qəlbə od salıb,
Yayın qızmarında dondurar səni.

Zaur həyat haqda sözün bitirər.
Kimə gərəkdirsə, ibrət götürər.
Əvvəl sevdiklərin sənə yetirər,
Sonra əldən alar yandırar səni.

Sonra get

Gedirsən, gedəni saxlamaram mən.
Məndən nə istərsən verim,sonra get.
Bir dayan getdiyin yollar üstünə,
Bir güldən-çəçəkdən sərim,sonra get.

Gəlmişdin qəlbimi oxlamaq üçün,
Yuxulu dünyamda yuxlamaq üçün,
Yolüstü əlində qoxlamaq üçün,
Sənə bir qızılgül dərim,sonra get.

Tələsmə,əzizim, bir az səbr elə,
Saçları dağınıq getmə gəl belə.
Deyərlər dəlidir, düşərsən dilə,
Yaxın gəl, saçını hörüm,sonra get.

Sənə kim olacaq de mənim kimi?
Kimi saxlayacan qəlbin hakimi?
Əvvəllər dediyin ölməz sevgimi
Son an gözlərində görüm,sonra get.

Könlüm

Fələyin köksümə vurduqlarından,
Bir gündə min dəfə yarılan, könlüm.
Yenə də sən mənə dönük çıxmadın
Yenidən köksümə sarılan, könlüm.

Saf oldun hər kəsə inandın belə.
Həm alışdın belə,həm yandın belə.
Sən nədən həssas yarandın belə,
Adicə bir sözdən qırılan könlüm?

Nə olar dayanma gəl pərişan tək,
Sən ki çırpınardın dəli tufan tək,
İndi inləyirsən qəmli kaman tək,
Nisgilli kök üstə qurulan könlüm.

Dünənim qəm oldu,bu günüm kədər.
Sabah yaxşı olar,ya bundan bətər.
Dincəlmək istərəm yoruldum...Yetər!
Sən də dincəl bir az, yorulan könlüm.

İNTİZAR ƏLİMOVA

1984

Əlimova İntizar Kamran qızı
1984-cü il oktyabrın 1-də Şəki şəhərində anadan olub,
Şəki 10 saylı orta məktəbini (2001) və
Şəki Pedaqoji Kollecini bitirib (2005).
İxtisası üzrə müəllim işləyir.
Yaradıcılığa erkən yaşlarından başlayıb.
şeirlərinin dili aydın və səmimidir.
dövrü mətbuatda çap olunub.

Necə anladın

Ömrümün baharlı, gözəl çağında,
Yar, mən səni gördüm, səni tanıdım.
Alışdım sevgimin od-alovunda,
Sənə sevdiyimi necə anladım?

Gözlərim hər zaman səni aradı,
Səni sevdiyimi indi anladım.
Sənsiz hər dəqiqəm, günüm qaradı,
Sənə sevdiyimi necə anladım?

Hər səni görəndə qəlbim titrədi,
Gizli sevgim üçün onu danladım.
Köksümdə çırpınan ürək kükrədi,
Sənə sevdiyimi necə anladım.

Səninlə yan-yana olanda belə,
Özümü mən sənə həsrətli sandım.
Çarəsiz bir halda qalmışam belə,
Sənə sevdiyimi necə anladım?

Özümlə tək-tənha qalanda birdən,
Mən səni düşündüm, mən səni andım.
Sevginin ağrısı keçdi ürəkdən,
Sənə sevdiyimi necə anladım?

Düşünüb xəyala dalanda hərdən,
Səni sevdiyimi özümə dandım.
Eşqimin səsası gəldi ürəkdən,
Sənə sevdiyimi necə anladım?

Sənin adını

Vəfasız, görmüşəm sənin vəfanı,
Yenə də sevirəm, alım qadanı.
Neyləsəm, unuda bilmirəm səni,
Qəlbimə yazmışam sənin adını.

Düşsəm də mən səndən uzağa, genə,
Sadiqəm sevgimə hər zaman yenə.
Sən mənim adımı anmasan belə,
Mən uca tutmuşam sənin adını.

Bir dəfə sözümü dinlə, gəl barı,
Bircə şirin söz de, yaramı sarı.
Ölsəm də, sevdiyim, bil ki, son dəfə
Dilim söyləyəcək sənin adını.

Nəyimə gərək

Mən ki, həsrətindən solmuşam gültək,
Qalmışam qanadı qırılmış quştək.
Alışım ocaqtək, sovrulum kültək,
Axı, bu məhəbbət nəyimə gərək?

Sənin ki, əlindən tuta bilmirəm,
Sənə yüyürürəm, çata bilmirəm.
Həsrəti qəlbimdən ata bilmirəm,
Axı, bu məhəbbət nəyimə gərək?

Sevən tapılarmı səni mənim tək,
Mən səni qəlbimdən çıxaram gərək.
Biz ki, dolanırıq özgə tək, yad tək,
Axı, bu məhəbbət nəyimə gərək?

Baxıram yollara mən ürkək-ürkək,
Köksümdən çıxacaq sanki bu ürək.
Anlaya bilmirəm, sən söylə görək,
Axı, bu məhəbbət nəyimə gərək?

VASİF ZÖHRABOĞLU

1986

Vasif Zöhrab oğlu Mustafayev 1986-cı il aprel ayının 19-da Şəki rayonunun Oxud kəndində anadan olub.
2004-cü ildə Oxud kənd orta məktəbini bitirib.
2004-2005-ci illərdə ordu sıralarında hərbi xidmətdə olub.
«Ömür bir günlük yuxudur» (2015) şeirlər kitabının müəllifidir.
AYB-nin keçirdiyi bir bənd şeir müsabiqəsində ilk onluğa düşdüyü üçün diplomla təltif olunub.DYTB-nin, AYB-nin üzvüdür.
Hal-hazırda tikinti sektorunda çalışır.

Mənə bel bağlama

Mənə bel bağlama, kəs əhdini, kəs,
Qoyma gözlərində sevgini sıxam.
Bir günlük məhəbbət həvəsdir, həvəs,
Bir də görərsən ki, yanında yoxam.

Ömründə dəvətsiz qonaq bil məni,
Əbədi yanında qala bilmərəm.
Bu evdən, ocaqdan uzaq bil məni,
Qəlbinin sakini ola bilmərəm.

Gedərəm, həsrətlə sıxıb köksünü,
Axar göz yaşların kiriyə bilməz.
Gülüm, ayağından şikəst sevginin,
Əlindən tutsan da, yeriyə bilməz.

Ömrünə yeni bir sevgi soraqla,
Demə ki,bağlanıb bütün qapılar.
Saxla, ürəyində məhəbbət saxla,
Sənin də, üzünə gülən tapılar.

Yandır bu tilsimi, qır bu tilsimi,
Düşünmə əlində çıraq olacam.
Bəlkə də, yanından ayrılan kimi,
Kiminsə ömründə qonaq olacam.

Mənə bel bağlama, kəs əhdini, kəs,
Qoyma gözlərində sevgini sıxam.
Bir günlük məhəbbət həvəsdir, həvəs,
Bir də görərsən ki, yanında yoxam.

Bilməzsən

Bilməzsən gözümün yuxusuzluğu,
İndi yatağıma xəyanət olub.
Daha ayrılığın qorxusuzluğu,
Səni unutmağa cəsarət olub.

Bilməzsən ağrımı nələr kiridir,
Kölgəni yığıram ağ pərdələrdən.
Hər gün qoşalaşıb intihar edir,
Gözlərim asılıb pəncərələrdən.

Bilməzsən ürəyi ovutmaq olmur,
Ömrün tufanından, qasırğasından.
Daha bir qadını yaratmaq olmur,
Bir tənha kişinin qabırğasından.

Bilməzsən bu ömrün nəyi, nəsi var,
Gəl məni, sor məni dərd aşığından.
Nə yaxşı evlərin pəncərəsi var,
Yoxsa üşüyərdim gün işığından.

Nə bilir...

Darıxmaq nə bilir, təklik nə bilir,
Gözlərin üşüyər saata baxsan.
Bir də görərsən ki, qapın döyülür,
Bir də görərsən ki, sən evdə yoxsan.

Bu kasıb komada azı min dəfə,
Özünü gəzərsən yerini bilsən.
Tələsik qaçarsan qapı tərəfə,
Yadına düşər ki, evdə deyilsən.

Ayrılıq qoxuyar bir az havadan,
Pəncərən önünə bir az gün düşər.
Quşlar payızından yurddan-yuvadan,
Şairlər evindən didərgin düşər... .....

Heykəl

Gör necə kiriyib göz-qaşı, əli,
Bu əsər önündə necə məst oldum...
Bu heykəl gözəli, bu daş gözəli,
Sevib tapınmaqdan bütpərəst oldum.

Daşlara tapındım, daş ömrü sürdüm,
Mənim tək daşlara inanan varmış.
Usta əlləriylə yonuldu, gördüm,
Hər daşın içində bir insan varmış..

Sənin də daş olmaq imiş taleyin,
Məni unutmağa yaddaşın yoxdu.
Yaşasam sevməyə qəlbin, ürəyin,
Ölsəm, ağlamağa göz yaşın yoxdu.

Daha tapındırma məni özünə,
Daha daş gözlərin mənə baxmasın....
İlahi, rəhm eylə bu yer üzünə,
Analar qız doğsun, heykəl doğmasın!

İlk məhəbbətin...

Gözlərin gülürmü, üzün gülürmü,
Köçdüyün ünvanın, yerin necədir?
Mənimtək qadanı ala bilirmi,
Nazına dözürmü, ərin necədir?

Özünü çox üzmə, başına dönüm,
Göndər mənə gəlsin qəmin, həsrətin.
Əzəldən belədir, ay ömrüm-günüm,
Ömrü uzun olmur ilk məhəbbətin.

Hərdən xatırlayıb nişanda, toyda,
Doymazsan adımı əzizləməkdən.
Mənimsə gözlərim pəncərə boyda,
Böyüyər hər axşam yol gözləməkdən.

Gözləmək əbəsdir-əbəs bəlkə də,
Bu gün də xəyaldır dünən dediyim.
Bu şanlı-şöhrətli böyük ölkədə,
Tək sizin küçəymiş vətən dediyim.

Cavandıq, bilmədik bir həqiqəti,
Dedilər ümüdlər sonunda ölür.
Bütün oğlanların ilk məhəbbəti,
Qızların gəlinlik donunda ölür...

ŞƏLAMƏT ƏDİLOVA

1987

Ədilova Şəlamət Eldar qızı 1987-ci il yanvarın 7-də Şəki rayonunun Baş Göynük kəndində anadan olub.
Şəki şəhər 5 saylı tam orta məktəbi (2004).
Azərbaycan Müəllimlər İnstitutunun (indiki ADPU-nun) Şəki filialının filologiya fakultəsini fərqlənmə diplomu ilə bitirib (2010).
2011-ci ildən ADPU-nun Şəki filialının əməkdaşıdır.
Bədii yaradıcılıqla orta məktəb illərindən məşğul olur.

Kitablar

Ən incə,ən zərif duyğular ilə,
Həyatı öyrətdiz mənə,kitablar.
Dünyanı tərk edib getsəm də belə,
Mənim həmdəmimsiz yenə, kitablar.

Sizinlə ağlayıb,sizinlə güldüm,
Sizi həyatımın örnəyi bildim,
Sizsiz ötən günü ömürdən sildim,
Döndüz saçlarımda dənə,kitablar.

Bizlərə həqiqət nədir,söylədiz,
Siz bizi doğruya doğru eylədiz,
Sizdən aldığımız güc-qüvvətlə biz,
Yetişib çıxdıq ağ günə, kitablar.

Kitabsız olarsa insan həyatı,
Milyonçu olsa da kasıbdır zatı,
Yalana düşmənsiz qatıdan qatı,
Qoymazsız danışa,dinə,kitablar.

Bütün fatehlərin arxa,köməyi,
Bütün dahilərin suyu,çörəyi,
Bütün insanların uğur mələyi,
Qoymarıq göylərdən enə,kitablar.

Atama

Bu ömür yolumun mənası sənsən,
Varlığın yoluma səpir nur,ata.
Bircə gün gözümdən uzağa getsən,
Ömürdən illərim yox olur,ata.

Vaxtsız ağarsa da qara saçların,
Eybi yox,dağların başı qar olar.

Alışıb yanmayan,zəhmət çəkməyən,
Bir insan oğlunun saçı ağarar?!

Tər-təmiz aynadır ürəyin sənin,
Bizlərə örnəkdir xoş əməllərin,
Daim cavan qalsın o təmiz qəlbin,
Yüz il də ömr edib,qocalsan,ata.

Sənin baxışınla dəyişər aləm,
Gül çöhrəni görüm həmişə xürrəm,
Sənlə dünyada mən ən güclüyəm,
Sənsiz xəzan olar gülüstan, ata.

Bizə dayaq oldun çətində, qəmdə,
Allah dayaq olsun sənə aləmdə.
Sənə bircə dəfə, can, deməsəmdə,
Uğrunda verərəm can qurban, ata.

TURAL ADIŞİRİN

1990

Tural Adışirin 1990-cı il Şəki rayonunun Oxud kəndində anadan olub. Şeirləri Dünya Gənc Türk Yazarlar Birliyinin "Bölgələrdən səslər" toplusunda, "Ədəbiyyat qəzeti"ndə, "525"-ci qəzetdə,"Kaspi" qəzetində ,"Ulduz" jurnalında dərc edilib.AYB-nin nəzdində fəaliyyət göstərən "Gənc ədiblər məktəbi II"nin müdavimidir.

Bizim görüşümüz

Bizim görüşümüz uzaqdan-uzaq,
Bizim görüşümüz qarlı bir sazaq.
Ya səni, ya məni soyudacaqdır,
Sonra öz qütbünə qayıdacaqdır.

Arzumuz başqadır, yolumuz başqa,
Bəs harda, haçandan tanışmışıq biz.
Yoxsa, o günlərə qayıtmaq üçün,
İndi görüşlərdən yapışmışıq biz.

Gör necə sakitik yay sularıtək,
Qaynar qəlbimizdə susur hay-haray.
Kövrək bir ürəyin arzularıtək,
Keçir gözümüzdən görüşlər lay-lay.

Bizim görüşümüz payız sükutlu,
Hansı günləsə hələ ümidli.
Yanırıq yanğımız qalır ürəkdə,
Alova dönürük, közə dönürük,

Ayrılıq çağında vüsal deməkdən
Görüş çağlarında buza dönürük.

Bizli də, bizsiz də ötdükcə zaman,
Məhəbbət yolunda lap çaşırıq ki...
Hər görüş bir az da yaxın olmaqdan,
Hər görüş bir az da yadlaşırıq ki...

Bəlkə nəzərlərdən yayınaq daha,
Bəlkə heç düşməyə duyuq görüşlər.
Gedək xatirəylə qızınaq daha,
Bizi isitməyir soyuq görüşlər.

Adlar

Bizə babalardan mirasdı ad da,
Bir nəsil birinə yadigar verir.
Adsız doğuluruq, bizə həyatda,
Adları atalar,analar verir.

Eşqin bulağından içəndə qızlar,
Bir halal südəmmiş axtarar,arar.
Ata ocağından köçəndə qızlar,
Cehizlə ləkəsiz bir ad aparar.

Qalxıb ucaldıqca istedadıyla,
Bir oğul bir nəsli qaldırar göyə.
Nəvələr yaşayar baba adıyla,
Atalar yetimlik duymasın deyə.

Adları şərəflə elə daşıyaq,
Qoy gələn nəsillər bizi danmasın.
Bir ömrü ömürtək elə yaşıyaq,
Adımız kiçilib xırdalanmasın.

İstəsən adınla el ucaltmağa,
Sinən ümman olsun,ürəyin mayak.
Dünyaya gəlmişik ad yaşatmağa,
Dünyadan gedəndə ad aparmayaq.

Məni sevirsənsə

Məni sevirsənsə, bir dəniz ol ki,
Sahili,səması çox geniş olsun.
Yalçın qayalarda elə iz ol ki,
Ora yad ayağı dəyməmiş olsun.

Məni sevirsənsə, yağışa bənzə,
İslat yay günləri yaylaqda məni.
Gah təzə bahara,gah qışa bənzə,
Nə günəş yandırsın,nə şaxta məni.

Məni sevirsənsə, bir çinar ol sən,
Saçların tökülsün sinəmə tel-tel.
Bağda təzə qönçə,dağda qar ol sən,
Səcdənə mən gəlim günəşdən əvvəl.

Məni sevirsənsə, küləyə bənzə,
Dağıt üstümüzdən çəni,dumanı.
Sən mənim sinəmdə bir neyə bənzə,
Nəğməsi bürüsün düzü-dünyanı.

Məni sevirsənsə, bir şimşək ol sən,
İşıqlat könlümü bir anlıq mənim.
Bu aysız,ulduzsuz göydə tək ol sən,
Almasın üstümü qaranlıq mənim.

Məni sevirsənsə, bahar ol,ey gül,
Dan yeli,sübh şehi qoy mənim olsun.
Sinəndə döyünən o zərif könül,
Qoy mənim əbədi vətənim olsun.

Təbiət

Baharda dünyanın toyu başlanar,
Bir yaşıl sevgiylə gələr təbiət.
Hər çəmən bir təzə gözəllik gəzər,
Nurunu çöllərə ələr təbiət.

Bulağa gedərəm, qızlar söz eylər,
Yamaclar arxamca baxıb göz eylər,
Yaşmaqlı gəlinə dönər quzeylər,
Büllur bulaqlarda gülər təbiət.

Keçərəm dağların göy yaxasından,
Gözlərim mürgülər gül qoxusundan,
Qayalar ayılar qış yuxusundan,
Yolları çiçəyə bələr təbiət.

Əriyər zirvədə şimşək qorxusu,
Gül açar ellərin qönçə arzusu,
Bir gül qoparmağa qorxdum doğrusu,
Mən elə bildim ki,bilər təbiət.

Torpaqdan pay olmaz

Torpaqdan pay olmaz,olmaz demişlər,
Görürsən hərəsi bir tindən çıxır.
Deyəsən dirilib qara keşişlər,
Kərəmin heyfini vətəndən çıxır.

Özüm doğma ikən bəs niyə yadam,
Xalq üçün ölümə gedən ağlamır.
Barmaq kəsiləndə qışqırır adam,
Hər gündə bölünür vətən ağlamır.

Eh mənim dünyadan nə xəbərim var,
Qardaş əl eləyir gəl bizə sarı.
Doğulan günümdən bir səfərim var,
Gedəm,qismət ola Təbrizə sarı.

Nə gün qazanmışıq biz özümüzçün,
Ayrı yaşayırıq indi bu gü ndə.
İkiyə bölünmüş vətənimizçün,
Kimlər cavabdehdi qanun önündə.

ƏFSANƏ ABDULLAYEVA

1991

Abdullayeva Əfsanə Əflatun qızı 1991-ci ildə
Şəki şəhərində anadan olub.
1997-ci ildə Şəki şəhər 12 saylı orta məktəbə daxil olub,
2007-ci ildə həmin məktəbi bitirib,2009-cu ildə ailə həyatı qurub.
O, erkən yaşlarından ədəbiyyata böyük həvəs göstərib,
özü də şeir yazıb.
Əfsanə Abdullayevanın şeirləri
Əfsanə Rəvan imzası ilə mümtəzən olaraq
dövrü mətbuatda dərc olunur.

Amma bağışladım baxışlarına

Qəbahət özünün, günah özünün,
"Bağışla" söyləmək belə çətindi?
Sənin ayrılığa varmış dözümün,
Qürurlu dayanmaq xasiyyətindi.

Yenə, ilk addımı məndən umursan,
Yenə,gözləyirsen "barışaq?" deyim,
Bu sevən qəlbimi niyə qırırsan?
Sənin mənə qarşı yoxmu istəyin?

Həmişə günahsız olduğum halda,
Səni sevdiyimçün əyilmişəm mən.
Daha yorulmuşam inan bu yolda,
Bir gör nələr, nələr itirmişəm mən.

İnan ki, dəyməzsən qədir bilməzim,
Sənincün tökdüyüm göz yaşlarına.
Deyərdim "bir ömür üzün gülməsin",
Amma bağışladım baxışlarına.

Ürəyində necəyəm?

Nə vaxtsa mən olmasam,
Yaşararmı gözlərin?
Qəmlənərmi ürəyin,
Bükülərmi dizlərin?

Axtararsanmı görən,
Hara baxsan əksimi.
Yoxsa yenə sevirsən,
Sevə bildiyin kimi.

O mənli günlərinin,
Həsrətini çəkərsən?
Ümid toxumlarını,
Ürəyinə əkərsən?

Tanıdan dilədiyin,
Diləyində necəyəm?
Nə isə narahatam
Ürəyində necəyəm?

Hələ nə qədər sağam,
Çıx qarşıma özünde.
Çox tezmi unudarsan,
"Əgər ölsəm", düzün de.

Oynayıram

Mən atəşi söndürmüşəm,
Külüm ilə oynayıram.
Öləziyən işıq kimi,
Ölüm ilə oynayıram.

Güllərimi alıb gedən,
Əllərindən salıb gedən.
Ürəyimdə ölüb gedən,
Dirim ilə oynayıram.

Xoşbəxt günlər itirmişəm,
Qəlbimdə qəm bitirmişəm.
Sənli aylar ötürmüşəm.
İlim ilə oynayıram.

Gözün

Hansı dərdin dərmanıdı,
Zülmət kimi qarə gözün.
Hansı şahın fərmanıdı
Çəkir məni, darə gözün.

Əvvəl-əvvəl oldu mənim,
Baxışımda qaldı mənim,
Ürəyimə daldı mənim,
Vurdu qəlbə yarə, gözün.

Səni sevən bu qəlbimi,
Etdi parə-parə gözün.
Baxışından xəstə düşdüm,
Gəlib tapsın çarə gözün.

ELVİN NURİ

1999

Elvin Elşən oğlu Nuri 1999-cu ildə Şəki şəhərində anadan olub.
2005-ci ildə şəhər 11 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2012-ci ildə Baki Xoreoqrafiya Akademiyasına qəbul edilmiş.
2017-ci ildə həmin Akademiyanın məzunu olmuşdur.
Bədii yaradıcılığa 2011-ci ildən başlamış.
bir sıra mətbuat vasitələrində və "Bölgədən səslər-3" toplusunda şeirləri çap olunmuşdur.
Gənclər və İdman Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur.
Elvin Nuri 2016-cı ilin yanvar ayından
Azərbaycan Yazıçılar Birliyi Gənc Ədiblər Məktəbinin üzvüdür.

Ürəyinə zor eyləmə

Bacarsan, od ol, ocaq ol,
Yoxsa, gün qara eyləmə.
Əğyar olub,könülləri
Çatdam-çatdam nar eyləmə.

Qoyma İblis yoldaş seçə,
Sən səbəbli qanlar içə.
Mərdi-məzar olub, gecə
Yataqları gor eyləmə.

Qəm ələmə fəsillərə,
Bir iz qoy get nəsillərə,
Dərd yükləyib könüllərə,
Alışdırma, qor eyləmə.

Silinməyir ağrım, acım,
Oldu qüssə başda tacım,
Gülüşə var ehtiyacım,
Sən gəl, ahu –zar eyləmə.

Qışım dönüb yaz olsun, qoy,
Ədan dönüb naz olsun,qoy,
Ömrüm-günüm saz olsun, qoy,
Gəl, inləyən tar eyləmə.

Qələmlə gor qazma, şair,
Düz yolunu azma, şair,
Yazammırsan, yazma, şair,
Ürəyinə zor eyləmə.

Mənim ürəyimdən gəlirsən indi...

İndi bilmirəm ki, kimdir günahkar.
Mənmiyəm, sənmisən, ya zamanmıdır?
Günəşi qaraldıb yox edibdilər,
Müqəssir zirvəmi, ya dumanmıdır?

Sonu yox hicranın, qüssə, qəmimin,
Əzab, gözüyaşlı ömür dəmimin,
Qalmayıb istisi eşq aləmimin,
Qismətim, bir söylə,qar-tufanmıdır?

Düşdü taleyimə qara naxışlar,
Çoxdur yollarımda eniş,yoxuşlar,
Mənim göz yaşımdır yağan yağışlar,
Şimşəklər çəkdiyim ah-amanımdır?

Kədərlə oyanım, nisgillə yatım,
Qoymayın, Günəştək saralım, batım,
Fələk imkan vermir, vüsala çatım,
Məndən sevincimi, de, umanmıdır?

Elvinəm, halıma gülürsən indi?
Yoxsa həsrətimdən ölürsən indi?
Mənim ürəyimdən gəlirsən indi,
Halı viranəmi, xanimanmıdır?..

Qarğışlar məni

Sənin, söylə görüm, göz yaşınmıdır
Cim-cimə su edən qarğışlar məni.
Ondan əllərinlə döysən yaxşıdır,
Salır təpiklərə baxışlar məni.

Çoxdur ürəyimin yarası onsuz,
Boldur taleyimin qarası onsuz,

Fələyin yox mənlə arası onsuz,
Nisgillə, qüssəylə naxışlar məni.

Gərək faydan olsun elə, cahana,
Vaxtı sərf etməyək aha, amana.
Əgər qalib gəlsəm odlu şeytana,
Göylərdən mələklər alqışlar məni.

Yaxşılıq insanın ləli, sədəfi,
İblisin yaxşılar olub hədəfi,
Şeytan çaşdırıbdır, etmişəm səhvi,
Yəqin ulu Tanrı bağışlar məni.

Əridim odlarda hey gilə-gilə,
Bağırıb çağırdım qalxaraq zilə,
Dünyaya gəlmədim alqışlar ilə,
Məhv edib öldürə qarğışlar məni.

Sevgimizin xətri qalıb...

Təbiətə gəlsə də yaz,
Bəxtimdə qış ətri qalıb.
Əllərimdə, başım üstə
Bu sevginin çətri qalıb.

Ruhuma qəm olub axma,
Gəl, sən mənə kinlə baxma,
Zülm etmərəm sənə, qorxma,
Sevgimizin xətri qalıb.

Röyam qalıb yozulası,
Qəhərim var pozulası,
Bir şairin yazılası
Hələ neçə sətri qalıb...

"Mən göylər adamıyam..."

Yerlə işim yox mənim,
Mən göylər adamıyam.
Məskənim göy, bax, mənim,
Mən göylər adamıyam.

Kədər gördü qaçıram,
Qəlblərə nur saçıram,
Ulduzlarla uçuram,
Mən göylər adamıyam.

Ülkər, Zöhrə nəfəsim,
Bu yerdə dar qəfəsim,
Allaha çatır səsim,
Mən göylər adamıyam.

Mələklərlə gülmüşəm,
Sirlərini bilmişəm,
Yerə səhvən gəlmişəm,
Mən göylər adamıyam.

Nə gur çaydan danışım,
Nə yas, toydan danışım,
Sizə Aydan danışım,
Mən göylər adamıyam.

Gizləməyin sirr məndən,
Olar ocaq, pir məndən,
İnciməsin yer məndən,
Mən göylər adamıyam.

Xəyalam, itdim göyə,
Gör nə tez yetdim göyə,
Əlvida, getdim göyə,
Mən göylər adamıyam...

KİTABDAKILAR

ŞƏKİDƏN GƏLƏN SƏSLƏR 3
ŞƏKİ ƏDƏBİ MÜHİTİ VƏ TARİXİ HAQQINDA
BİR NEÇƏ SÖZ 11
ƏNBƏROĞLU 28
ŞƏKİLİ SÜLEYMAN 30
ŞƏKİLİ NƏBİ 33
MƏHƏMMƏDHÜSEYN XAN MÜŞTAQ 37
MOLLA MƏHƏMMƏD HÜZNİ 41
KƏRİM AĞA FATEH 44
HACI MAHMUD ƏFƏNDİ NAFE 47
MOLLA QASIM ZAKİR 50
MOLLA YUSİF RACİ 55
MİRZƏ HƏSƏN "MİRZƏ" 59
ƏHMƏD ƏFƏNDİ ZÖVQİ 62
MOLLA TURAB BÜRCÜ 64
MOLLA İSRAFİL BİDAZİ 68
HACI RƏSUL RƏSUL 69
MUSTAFA AĞA ŞUXİ 72
OSMAN BİÇARƏ 76
MOLLA ORUC 78
XALİSƏ QARI 80
MOLLA ABBAS AŞUFTƏ 81
MİRZƏ FƏTƏLİ AXUNDZADƏ 83
ƏBDÜLQƏNİ ƏFƏNDİ NUXƏVİ 88
RƏSUL DÜLGƏR 90

İSMAYIL BƏY NAKAM 94
AŞIQ_CAMAL 98
ƏHMƏD NƏBİ ƏFƏNDİ 101
MƏHƏMMƏDHƏSƏN ŞƏKUYİ 103
MOLLA CUMA 105
LƏTİF NƏQQAŞ 110
MAH XANIM 112
MAHTAB XANIM 115
İBRAHİM ƏFƏNDİ NİCATİ 117
SƏMƏD ƏFƏNDİ MƏHZUN 119
HACIBABA MEHDİZADƏ 121
RƏŞİD BƏY ƏFƏNDİYEV 125
ÇARIQÇI MƏHƏMMƏD ŞƏMƏMDUZ 130
NURMƏHƏMMƏD ƏFƏNDİ 133
MUSTAFA BƏY ƏLİBƏYOV 134
ABDULLA BƏY ƏFƏNDİZADƏ 138
KƏRİM MUSAYEV 142
HÜSEYN QƏMNAK 144
DƏLİ BƏBİR 146
ŞƏKİLİ HƏTƏM 148
ŞƏKİLİ LƏLƏ 150
MƏMMƏDHƏSƏN MOLLAZADƏ 152
AŞIQ_ƏHMƏD 153
SALMAN MÜMTAZ 155
HÜSEYN KİŞLİ 159

MARAL XANIM NƏBİZADƏ 163
MOLLA İBRAHİMXƏLİL DODUİ 166
RƏCƏB ƏFƏNDİZADƏ 170
MUSTAFA QULİYEV 174
AŞIQ_MUSA 177
AŞIQ_NOVRUZ 179
BAXŞƏLİ ƏFƏNDİ 182
MƏMMƏDİYYƏ YUSİFZADƏ 185
GÜLARƏ QƏDİRBƏYOVA 188
AŞIQ_HACIBALA 191
MÜSEYİB SADIQOV 194
HEYDƏR ƏFƏNDİYEV 197
MUĞUM MƏMMƏDOV 199
HACI İSMAYIL 201
HACI QƏDİR OĞLU 201
OSMAN CÜMƏZADƏ 203
ƏHMƏD QAFFAROV 206
ƏBDÜLƏZƏL DƏMİRÇİZADƏ 208
SABİT RƏHMAN 213
SƏİDƏ İMANZADƏ 218
MƏHYƏDDİN ABBASOV 221
ƏNVƏR QAZIYEV 224
MƏMMƏDİYYƏ SÜLEYMANLI 225
FUAD ƏMİRCAN 229
ƏBDÜRƏHMAN ABDULLAYEV 230

LÜTFƏLİ HƏŞƏNOV 233
ŞƏRİF İDRİSOV 236
MAHMUD İSMAYIL 240
ƏLƏŞRƏF ŞAYAN 243
MƏMMƏD HACIZADƏ 247
AŞIQ_GÜLƏHMƏD 251
AŞIQ_MƏMMƏD BAYRAMOV 252
MƏMMƏD ŞƏKİLİ 253
ABDULƏVVƏL KƏRİMZADƏ 256
NURPAŞA HÜMMƏTOV 260
HÜSEYN RƏSULOV 265
ƏHMƏD RƏHİMOV 269
MUSA İSLAMOV 272
ŞİRMƏMMƏD HÜSEYNOV 275
BƏXTİYAR VAHABZADƏ 279
NƏZİR ELTƏKİN 284
NADİR MƏMMƏDOV 287
YAQUB MAHİR 291
SƏMƏD SALMANOV 295
HİKMƏT ZİYA 298
AŞIQ_İSMAYIL 301
AŞIQ_NƏZİR 306
AŞIQ_SİRAC 307
ZAMAN QARAYEV 311
ƏKRƏM ƏHMƏDOV 316

NİZAMİ NƏBİYEV 319
ƏHMƏDİYYƏ ƏHMƏDOV 322
BƏHMAN HÜSEYNOV 323
SABİR ƏFƏNDİYEV 325
OVÇU ƏRƏBOV 328
TACƏDDİN XASIYEV 332
NEMƏT ƏBDÜRRƏHİMOV 334
HACI CABİR 338
TEYMUR ABUZƏR 342
SADƏDDİN CUMAYEV 346
TOFİQ QAFFAROV 349
ZƏKƏRYƏ ƏLİZADƏ 352
EYVAZ ABIŞOV 355
YAŞAR QARAYEV 359
ƏNVƏR METE 363
ABDURAHMAN ABDULLAYEV 366
MƏMMƏD ƏLİLİ 370
MƏMMƏDEMİN SƏLİMOV 374
FƏRƏHİM RƏFİZADƏ 378
ƏNVƏR MİRZƏOĞLU 381
VEYSƏL ÇƏRKƏZ 386
FƏRRUX AĞASIBƏYLİ 391
ÜLKƏR HÜSEYNOVA 394
KAMİL SƏLİMOV 397
YUSİF ABDURAHMANOV 400

İSMƏT SƏFƏROV 404
KAMİL MANAFOV 408
ƏHMƏD MUSA 412
RÖVZƏT 414
HİKMƏT ƏBDÜLHƏLİMOV 418
ŞAHİD MƏMMƏDKƏRİMOV 423
AZƏR MUSTAFAZADƏ 427
SÖHRAB SƏMƏDOV 429
ARİF ABDULLAZADƏ 433
ABDUL QƏNİ 437
TELMAN HƏMİDLİ 441
HACI NİYAZİ İDRİSLİ 444
ELMAN MUSTAFAYEV 448
ELMİR ŞEYXZADƏ 452
FADLUN ƏFƏNDİ 456
QURTULUŞ SÜLEYMANLI 457
ASİM HƏSƏNOĞLU 461
AYDIN MƏMMƏDOV 465
RƏŞİD SƏMƏDOV 469
ƏLƏSGƏR DAVUDOĞLU 472
ARİF QAFFAROV 476
VAQİF İBRAHİM 480
VAHİD ƏRƏBOV 484
AŞIQ SAKİT KÖÇƏRİ 488
BƏHRAM ÇƏLƏBİ 492

RAMİS MƏMMƏDOV 496
YUSİF ŞÜKÜRLÜ 500
İLHAM ABBASOV 503
AKİF SALAMOĞLU 507
FİKRƏT XALIQOV 511
ALMAZ MƏMMƏDOVA 515
RƏSUL İLMƏDDINOĞLU 519
SABİR ABDULLA 522
VAQİF ASLAN 526
AKİF SALAM 531
ABBAS ƏMBALA 535
NAZİM RİZVAN 538
ƏBÜLFƏT HƏSƏNOĞLU 543
RAMAZAN QAFFARLI 547
AKİF ELŞİR 551
AKİF MAHMUDOV 555
BƏHRAM OXUDLU 559
RAMİL ƏLİYEV 563
QOCA XALİD 566
BABA BABAZADƏ 570
MURAD NƏBİBƏYOV 574
ALMAZ ARİFLİ578
ƏHMƏD ZƏYZİDLİ 581
YUSİF HÜSEYNOV 585
QURBANƏLİ CAMALOV 588

RAMİZ ORSƏR 592
TOFİQ_YUSİFOV 597
HƏBİLLAH KAMİL 602
TAHİR XALİD 606
ZABİT ƏKBƏROV 610
VAQİF SALAM 612
RUHƏNGİZ RƏHİMLİ 615
MEHDİ ZAHİD 619
MUSA HƏŞİMOV 622
TƏRANƏ ŞƏMS 627
İRADƏ GÜLFİR 631
RASİM İSAQ_ 636
MÜBARİZ MƏMMƏDRZAYEV 640
MEHRİBAN NİYMƏT 645
KAMİL ADIŞİRİNOV 648
MÜRSƏL HƏSƏNOV 652
MAYİS SƏLİM 656
ELMAN ƏZİZOV 660
MÜBARİZ MƏSİMOĞLU 664
ELÇİN ABDULLAYEV 668
OKTAY AĞƏMMƏDOV 672
NOVRUZ BƏKİROV 675
QİYMƏT MƏHƏRRƏMLİ 679
CAVANŞİR FEYZİYEV 683
AĞALAR BƏŞİROV 686

İSMAYIL VALEHOĞLU 691
KİFAYƏT RƏSULQIZI 694
GÜLAFƏT BAYRAMOVA 697
AĞA RAMAZAN 701
MUSTAFAKAMAL İSLAMOV 705
RAFİQ SƏMƏDOV 709
ÇİMNAZ ŞİRİNQIZI 712
ŞAHİN AYDƏMİR 716
GÜLŞAD NURANİ 721
ELŞAD MƏMMƏDLİ 723
NAMİQ ABDULLAYEV 727
AKƏM XAQAN 731
SADİQ ZAMAN 735
GÜLNARƏ ƏSGƏRZADƏ 740
İLAHƏ SÜLEYMANOVA 744
NƏRGİZ ŞAHMİROVA 750
SƏDAQƏT ABDULƏZİZOVA 754
MEHMAN MUSABƏYOV 757
VALİDƏ QƏMGİN 761
NÜSRƏT KAMİLOĞLU 764
DƏHNƏLİ MƏMMƏD 767
BAHAR SƏMİN 771
TANGİZ SÜLEYMANOVA 775
ARAZ SƏMƏD 779
HƏDİYYƏ ŞƏFAQƏT 783

LƏMAN VAQİFQIZI 788
AYNUR MƏSİMOVA 792
SƏRVƏR ƏMRAH 795
İLKİN İBRAHİMXƏLİLOV 798
AQŞİN İBRAHİMXƏLİLOV 802
NAZİM HƏMİDLİ 807
ZƏMİNƏ RƏSULOVA 809
NİZAMİ ADIŞİRİN 813
ZAUR İLHAMOĞLU 818
İNTİZAR SƏLİMOVA 822
VASİF ZÖHRABOĞLU 825
SƏLAMƏT ƏDİLOVA 829
TURAL ADIŞİRİN 832
ƏFSANƏ ABDULLAYEVA 837
ELVİN NURİ 840

Elm və təhsil" nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter yığımı: Nuridə Əfəndiyeva
Mətanət Süleymanova

Texniki redaktor: Orxan Yusifli

Kompüter dizayneri: Eldar Ədilov
Zahid Məmmədov

Kompüter tərtibatçısı: Tünzalə Vahabova

Çapa imzalanmış 12.03.2018
Şərti çap vərəqi 53,5. Sifariş № 78
Kağız formatı 70x100 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

Azl 303595